QƏZƏNFƏR SEHVƏDDİN OĞLU
ƏLLƏZOV

# İQTİSAD ELMİNİN NƏZƏRİ - METODOLOJİ ƏSASLARININ TARİXİ İNKİŞAFI

**(MONOQRAFİYA)**

**B A K I – 2 0 0 9**

downloaded from KitabYurdu.org

**Elmi redaktor:** i.e.d., prof. **M.X. Meybullayev**

**Rəyçilər:** akademik **Z.Ə. Səmədzadə**
i.e.d., prof. **Q.N. Manafov**

**Əlləzov Q.S. İqtisad elminin nəzəri - metodoloji əsaslarının tarixi inkişafı (Monoqrafiya). Bakı: «İqtisad Universiteti» nəşriyyatı, 2009**

**© Əlləzov Q.S., 2009**
**©«İqtisad Universiteti» , 2009**



downloaded from KitabYurdu.org

# Ö N  S Ö Z

Müasir iqtisadi nəzəriyyə, metodologiya və siyasət bəşər cəmiyyətinin sosial-iqtisadi həyatının uzunmüddətli tarixi prosesinin nəticəsi olduğundan, onları dərindən başa düşmək, cəmiyyətin və insanların rifahı naminə tarixin dərslərindən nəticə çıxarmaq və dərin elmi araşdırmalar aparmaq üçün iqtisad elminin nəzəriyyəsini və metodologiyasını bilmək olduqca vacibdir. Uzunmüddətli elmi və pedaqoji təcrübəmizə əsaslanaraq deyə bilərik ki, iqtisadçıların iqtisad elminin nəzəriyyəsinə və metodologiyasına marağı həmişə böyük olmuşdur. Lakin, bununla belə, ölkəmizdə iqtisad elminin nəzəri-metodoloji əsaslarının tədqiqi və nəşri sahəsində müəyyən boşluq hələ də qalmaqdadır. Bir sıra məqalələr və dərs vəsaiti formasında nəşrlərin olmasına baxmayaraq, iqtisad elminin nəzəri-metodoloji əsasları bütövlükdə sistem halında öyrənilməmiş və onu tam əhatə edən tədqiqat və nəşr əsəri demək olar ki yoxdur. Mövcud olan materiallarda da iqtisad elminin nəzəri-metodoloji əsasları birtərəfli, əksər hallarda da marksist nəzəriyyə və ideologiya mövqeyindən yanaşılmışdır. Ona görə də, məqsədimiz mövcud boşluğu doldurmaq, iqtisad elminin nəzəri - metodoloji əsaslarını vəhdət halında və yığcam şəkildə oxuculara çatdırmaqdır. Onu da qeyd edək ki, belə bir struktur və məzmunda iqtisad elminin tarixi və metodologiyası ölkəmizdə ilk dəfə öyrənilir və nəşr olunur.

Əsərdə iqtisad elminin yaranmasına, inkişafına və təkamülünə təbii tarixi proses kimi yanaşılmış və onun tarixinin və metodologiyasının sistemli şərhi verilmişdir. Bu şərh ideologiyadan kənar elmi əsaslarla, qərəzsiz və mühakimə müstəqilliyi ilə edilmişdir. Əsərdə müasir dövr daxil olmaqla qədimdən başlayaraq ümumdünya iqtisadi bilikləri və metodologiyası ümumiləşdirilmiş və sistemləşdirilmişdir. Əsas diqqət iqtisad elminin yaranmasına, onun inkişafına və müasir sistem halını və **sosial-iqtisadi-siyasi məzmun** almasına gətirib çıxarmış iqtisadi biliklərə, nəzəriyyələrə, konsepsiyalara və iqtisadi siyasətə verilmiş, onlar xronoloji ardıcıllıqla və mövcud dövrün sosial-iqtisadi durumu



downloaded from KitabYurdu.org

ilə əlaqəli şəkildə öyrənilmişdir. Bu zaman prioritet kimi elmi metodologiyanın tarixilik, məntiqilik, onların vəhdəti və varislik prinsipi əsas götürülmüşdür.

Əsər iqtisadiyyatla maraqlananlar və məşğul olanlar: tədqiqatçılar, iqtisad elmlərini tədris edənlər və öyrənənlər, siyasətçilər və iş adamları üçün nəzərdə tutulub. Siyasətçiləri və iş adamlarını ona görə qeyd edirik ki, onların iqtisadi fəaliyyətlə əlaqədar qəbul etdikləri qərarların əsasında dayanan iqtisadi nəzəriyyələrin nə zaman, hansı şəraitdə və sosial-iqtisadi mühitdə yarandığını yaxşı bilsələr, onların bugünün iqtisadi siyasətində nə dərəcədə etibarlı olub-olmadığını daha yaxşı başa düşərlər.

Kitab oxuculara iqtisadiyyatın ümumbəşəri nəzəri-metodoloji dəyərlərini mənimsəməkdə, onlara müasir iqtisadi problem və ziddiyyətlərin mənşəyini dərk etməkdə və həlli yollarını tapmaqda yardımçı olacaqdır. Bu əsəri həmkarlarımızın və tələbələrimizin istək və tələbləri ilə yazıb nəşr etdirir və bununla da cəmiyyət qarşısında öz borcumuzu yerinə yetirmiş oluruq. Hesab edirik ki, bu əsər iqtisad elminin nəzəri-metodoloji əsaslarının tədqiqi və nəşri sahəsində olan mövcud boşluğu müəyyən dərəcədə dolduracaqdır.

**Əlləzov Q.S.**



downloaded from KitabYurdu.org

## Предисловие

Для глубокого осмысления современной экономической теории, методологии и политики, проведения фундаментальных научных исследований и для того, чтоб сделать правильные выводы из уроков истории во благо людей и общества следует знать теорию и методологию экономической науки. Поскольку, современная экономическая теория, методология и политика являются результатами длительного исторического процесса социально – экономической жизни человеческого общества. Опираясь на длительный научный и педагогический опыт можем сказать, что интерес экономистов к теории и методологии экономической науки всегда был велик. Но вместе с тем до сих пор в нашей стране существуют определенные бреши в сфере публикации и исследования теоретико-методологической основы экономической науки. Несмотря, на ряд изданий в форме статей и учебных пособий, история и методология экономической науки не изучена как целостная система и можно сказать, что полностью ее охватывающей исследования и публикации нет. А в имеющихся в наличии материалах к теоретико-методологической основе экономической науки существует односторонний подход, в большинстве случаях с позиции марксисткой теории и идеологии. Поэтому наша цель – заполнить существующую пустоту и довести до читателя теоретико-методологическую основу экономической науки в единой и собранной форме. Также следует отметить, что в такой структуре и форме теоретико-методологическая основа экономической науки в нашей стране изучается и публикуется впервые.

В работе к возникновению, развитию и эволюции экономической науки подходят как к естественному историческому процессу и дается системный обзор ее истории теоретико-методологической основы. Это трактовка представлена научными основами, без предвзятой идеологии и независимым мышлением. В работе всемирные экономические знания и ме-



downloaded from KitabYurdu.org

тодология обобщена и систематизирована начиная с древности включая современный период. Основное внимание уделено возникновению экономической науки, ее развитию и экономическим знаниям, теориям, концепциям, приведшим к ее современному состоянию и социально – экономически – политическому содержанию, они изучены в хронологической последовательности и во взаимозависимости с социально-экономическим положением современного периода. При этом приоритетом были выбраны такие принципы научной методологии, как историчность, логичность, их единство и последовательность.

Работа предназначена широкому кругу людей, для тех, кто интересуется и занимается экономикой: исследователям, тем, кто преподает и изучает экономические науки, политикам и деловым людям. Политиков и деловых людей мы отметили с тем, чтоб они хорошо знали в каких условиях и социально – экономической среде возникли экономические теории, заложенные в основе принимаемых ими решений, связанных с экономической деятельностью.

Эта книга поможет читателям усвоить общечеловеческие экономические теоретические методологические ценности, осознать источники современных экономических проблем и противоречий и найти пути их решения. Мы пишем и публикуем это произведение по просьбе и требованию наших коллег и студентов и этим выполняем свой долг перед обществом. Считаем, что эта работа в определенной степени заполнит существующую пустоту в сфере исследования и издания, теоретико-методологической основы экономической науки.

**Аллазов Г.С.**



downloaded from KitabYurdu.org

# INTRODUCTION

It is necessary to know a тheory and methodology of an economic science for deep judgment of the modern economic theory, methodology and policy, carrying out of fundamental scientific researches and drawing correct conclusions from lessons of a history for the good of people and societies. As, the modern economic theory, methodology and policy are results of long historical process socially - an economic life of a human society. Basing on long scientific and pedagogical experience we can tell, that interest of economists to a theory and methodology of an economic science was always great. But at the same time till now in our country there are certain gaps in sphere of the publication and research of bazis of theory and methodology of an economic science. In spite of, on a line of editions in the form of articles and manuals, bazis of theory and methodology of an economic science is not investigated as complete system and it is possible to tell, that completely its covering researches and publications are not present. And in available materials there is a unilateral approach to bazis of theory and methodology of an economic science, in the majority cases from a position marksistical theories and ideologies. Therefore our purpose is to fill in existing emptiness and to finish with the reader bazis of theory and methodology of an economic science in the uniform and collected form. Also it is necessary to note, that the history and methodology of an economic science is studied and published in such structure and the form for the first time in our country.

To occurrence, development and evolutions of an economic science approach as to natural historical process and the system review of its history and methodology is given in work. It is treatment it is submitted by scientific bases outside of ideology, without bias and independent thinking. The world economic knowledge and methodology since an antiquity including the modern period is generalized and systematized in work. The basic attention is given to occurrence of an economic science, its development and economic knowledge, theories, the concepts resulted in its modern condition



downloaded from KitabYurdu.org

and socially - economically - to the political maintenance, they in chronological sequence and in interdependence with social and economic position of the modern period are investigated. Thus the priority such principles of scientific methodology, as historicity, logicality, their unity and sequence had been chosen.

Work is intended to the broad audience of people, for those who is interested and engaged in economy: to researchers, those who teach and studies economic sciences, to politics and businessmen. Politicians and businessmen we have noted with that they well knew in what conditions and socially - the economic environment there were the economic theories incorporated in a basis of decisions accepted by them, connected with economic activities.

This book will help readers to acquire universal economic the theorist methodological - values, to realize sources of modern economic problems and contradictions and to find ways of their decision. We write and we publish this product under the request and the requirement of our colleagues and students and it we carry out the service duty to a society. We count, that this work in the certain degree will fill in existing emptiness in sphere of research and the edition on bazis of theory and methodology of an economic science.

**Allazov Q.S.**



downloaded from KitabYurdu.org

# GİRİŞ

İqtisad elmi inkişaf edib indiki sistem halını alana kimi uzun tarixi inkişaf yolu keçmişdir. Onun mahiyyətini təşkil edən əsas müddəalar, fikirlər, nəzəriyyələr və konsepsiyalar dərin tarixi köklərə malikdir və onlar çox qədimlərə gedib çıxır. İqtisad elminin ana xəttini sərvət, onun mənşəyi, bölgüsü və istehlakı üzrə, xüsusilə də dəyər (qiymət) haqqında mülahizələr təşkil edir. Bir sözlə, iqtisad elmi dəyər (qiymət) haqqında mülahizələr əsasından formalaşmışdır. Ona görə də, dəyəri (qiyməti) iqtisad elminin oxu adlandırmışlar.

İqtisad elminin məzmununu ayrı-ayrı iqtisadçıların, məktəb, istiqamət və cərəyanların bir-birinə alternativ olan iqtisadi baxışları, nəzəriyyələri və konsepsiyaları təşkil edir. Bu nəzəriyyə və konsepsiyalar metodoloji yanaşmaya, dəyər mülahizələrinə və iqtisadiyyata dövlət himayəçiliyi məsələsinə görə bir-birinə alternativ sayılırlar. İqtisad elminin tarixi, iqtisadi fikir, nəzəriyyə və konsepsiyaların yaranmasının, inkişafının və bir ideya və metodologiyadan digərinə keçidin tarixi prosesidir. Belə ki, iqtisad elminin tarixi məktəb və istiqamətlərin nəzəri və praktiki nailiyyətlərinin fasiləsiz yığımının xronoloji şərhidir. İqtisad elminin tarixi iqtisadçıların iqtisadiyyatın fəaliyyət mexanizmini başa düşmək cəhdlərinin tarixidir.

İqtisad elmi yarandığı dövrdən indiyədək, daim iqtisadiyyatın əsas prinsiplərinin səmərəli reallaşdırılması yollarını axtarıb tapmağa çalışmışdır. Onun formalaşması və inkişafı ilə məhdud olan resurslardan səmərəli istifadə edilməsinin və hüdudsuz tələbatların dolğun ödənilməsinin və iqtisadiyyatın üç əsas məsələsinin (nə, necə və kimin üçün) səmərəli həllinin alternativ nəzəriyyələri yaranmışdır.

Nəzəriyyə iqtisadi hadisələrin izahı üçün işlənib hazırlanır, praktika ilə yoxlanılır və proqnoz modellərinin qurulması üçün istifadə olunur. İqtisad elmi birmənalı formada inkişaf etməmişdir. Onda həqiqətdən uzaqlaşmalar, çoxlu ziddiyyətlər və dolayı irəliləmələr də olmuşdur. İqtisad elminin inkişafının əsas qanu-



downloaded from KitabYurdu.org

nauyğunluğu onun tarixi təcrübəyə, normativ və empirik yanaşmaya əsaslanan fərdi ev (oykom) təsərrüfatı mənasından dərin elmi metodologiya və pozitiv yanaşmaya əsaslanmaqla ictimai-iqtisadi-siyasi məna kəsb edən müasir səviyyəyə qədər keçdiyi təbii tarixi təkamül prosesidir.

İqtisad elmi fikir varisliyi, tarixi tənqidi təhlil əsasında formalaşmış, inkişaf edib təkmilləşmişdir. Belə ki, iqtisad elminin məzmununu təşkil edən müddəa, mülahizə və nəzəriyyələr əvvəlki biliklərin davamı və tənqidi əsasında yaranıb inkişaf etmişdir. İqtisad elmində tarixi və tənqidi təhlil üslubundan istifadə olunması hər bir iqtisadçının öz konsepsiyasını məntiqi əsaslandırması zərurətindən yaranmışdır. Tarixi və tənqidi təhlil üsulundan alman tarixi məktəbinin nümayəndələrinin və K.Marksın tədqiqatlarında xüsusi ilə geniş istifadə olunmuşdur. Almaniyada tarixi yanaşma ənənəvi olaraq ictimai elmlərin metodologiyasında böyük rol oynamışdır. Alman tarixi məktəbinin bəzi əsərlərinin məzmunu klassik siyasi iqtisadın, tənqidi tarixi üstəgəl alternativ nəzəriyyələrin yaradılması üzrə tövsiyələrdən ibarətdir.[1]

«İqtisad» sözü yunan mənşəli olub və onu ədəbiyyata və elmi dövriyyəyə bizim eradan əvvəl yaşamış qədim yunan mütəfəkkiri **Ksenofont** (430-354-cü illər) gətirmişdir. İqtisadiyyat sözü iki yunan: «oykos» - ev, təsərrüfat, «nomos» - təlim, qanun sözlərinin birləşməsindən ibarətdir. Ksenofont öz əsərini «İqtisadiyyatın traktaktı» adlandırmışdır. Qədim yunan mütəfəkkirləri Ksenofont və Aristotel iqtisadiyyatı qanunlara, qaydalara və normalara müvafiq olaraq idarə olunan təsərrüfat kimi şərh etmişlər. İqtisadiyyat sözünün mənası yarandığı vaxtdan indiyə kimi əhəmiyyətli dərəcədə zənginləşmiş və dəyişmişdir. İqtisadiyyat sözü hal-hazırda ilkin şərhindən fərqli olaraq daha çox mənalar kəsb edir. İqtisadiyyat, hər şeydən əvvəl, təsərrüfatın özüdür, təsərrüfat sistemidir, iqtisadi fəaliyyətdir, insanların tələbatını ödəmək üçün maddi nemətlərin istehsalı, bölgüsü,

[1] М.Блауг. Экономическая мысль в ретроспективе. М., 1994, с. XIX



downloaded from KitabYurdu.org

mübadiləsi və istehlakı prosesidir. Digər tərəfdən, iqtisadiyyat bu proses zamanı insanlar arasında yaranan iqtisadi münasibətlər sistemidir.

İqtisadiyyat həm də elmdir, təsərrüfat, iqtisadi fəaliyyət, sərvət, onun mənşəyi, bölgüsü və istehlakı, iqtisadi münasibətlər haqqında biliklər sistemidir. Əgər iqtisadi ədəbiyyatda iqtisadiyyat ilk əvvəl «ev təsərrüfatını idarə etmək məharəti» kimi xarakterizə olunmuşsa və ona ev təsərrüfatı qanunları haqqında elm kimi baxılıbsa, sonralar da onu «xalqlar sərvətinin təbiəti və səbəbi» (A.Smit), «Bölgünü idarə edən qanunları» (D.Riqardo), «Kapitalizmin inkişaf qanunları» (K.Marks), «İstehsal və mübadilə qanunları» (F.Engels) və «İstehlak qanunları» (S.Sismondi) haqqında elm adlandırmışlar. Onun predmetinə isə bilavasitə (S.Sismondi istisna olmaqla) iqtisadi fəaliyyət prosesində insanlar arasında yaranan münasibətləri daxil etmişlər.

Tədqiqatçı alim-iqtisadçılar tərəfindən iqtisadiyyat elminin bu cür şərhi onu göstərir ki, bu elmi resursları artırmaq və tələbatın artması maraqlandırmışdır. A.Smit hesab edir ki, iqtisad elminin tədqiqatı xalqı yaşayış vasitələri və bu yaşayış vasitələrini əldə etmək imkanı ilə təmin etməlidir. Bununla o, iqtisad elmini maddi nemətlərin istehsalını və istifadəsini, yaşayış üçün maddi vəsaitin əldə olunmasını öyrənən elm kimi təsvir edir. Demək olar ki, görkəmli ingilis iqtisadçısı A.Marşall da bu mövqedən çıxış etmişdir. O qeyd edir ki, iqtisadiyyat elmi (ekonomiks) fərdi və ictimai fəaliyyətlərin, rifahın maddi əsaslarının yaradılması və istehlakı ilə sıx əlaqədə olan sferasını öyrənir.[1]

Lakin marjinalist nəzəriyyədə iqtisadiyyat elminə bu cür yanaşma öz əksini tapmamışdı. İqtisadiyyat elminə əsasən mövcud resursların səmərəli bölgüsünü idarə edən prinsipləri öyrənən elm və insan davranışına isə bəlli olan məqsəd ilə alternativ tətbiq olunmaq imkanına malik olan məhdud vasitələr arasındakı münasibət kimi baxmışlar. Marjinalist nəzəriyyə hesab edir

[1] Курс экономики. Учебник. Под редак. Райзберга Б.А., М. 1997, стр. 8



downloaded from KitabYurdu.org

ki, iqtisad elminin vəzifəsi insanın maddi nemətlərə olan münasibətini izah etməkdən ibarətdir (Beem-Banerk).

İqtisad elmi tarixən müxtəlif adlar altında, müxtəlif quruluşda və məzmunda mövcud olmuşdur. Artıq qeyd olunduğu kimi, ilk əvvəl iqtisadiyyat (oykanomya) adı altında olmuşdur. Bu ad altında iqtisadiyyat elmi natural təsərrüfat formasında olan fərdi ev təsərrüfatları çərçivəsində hadisələrin iqtisadi məzmunu və iqtisadiyyatın fəaliyyəti öyrənilmişdir. Kapitalist əmtəə (bazar) təsərrüfatının bərqərar olması ilə iqtisad elmi «siyasi iqtisad» adı altında mövcud olmuşdur. «Siyasi iqtisad» termini ədəbiyyata və elmi dövriyyəyə fransız merkantilisti A.Moukretyen tərəfindən gətirilmişdir. O, ilk dəfə olaraq «Siyasi iqtisadın traktaktı» (1615) adlı əsər nəşr etdirmişdir.

Merkantilizmin nümayəndəsi tərəfindən iqtisad sözünün əvvəlinə «siyasi» sözünün əlavə edilməsi çox güman ki, onların tərəfdar olduqları siyasətlə - iqtisadiyyatı dövlətin himayə etməsi, yəni protoksionist siyasətlə əlaqədar olmuşdur. Merkantilistlər millətin sərvətinin artım yolunu iqtisadiyyata dövlətin müdaxiləsində görmüşlər. Ona görə də onlar siyasi iqtisada sərvət haqqında elm kimi baxmışlar. İqtisad elmi bu adı uzun mümddət özündə saxlamışdı. Bunu P.Buagilberin, A.Turqonun və A.Smitin əsərlərinin adları da göstərir. Əsasən Qərb universitetlərində tədris olunan «Ekonomiks» dərsliyinin müəlliflərindən olan P.Samuelsonun iqtisad elminin (ekonomiks) predmeti haqqında çoxmənalı fikirləri içərisində onun sərvət haqqında elm olması fikri də vardır.

Kapitalist əmtəə istehsalının bərqərar olması (XVII-XVIII əsrlər) ilə siyasi iqtisad adı altında iqtisad elmi iqtisadi hadisə və prosesləri, iqtisadi fəaliyyət və iqtisadi münasibətlər sistemini dövlət çərçivəsində milli iqtisadiyyat baxımından öyrənməyə başlamışdır. Bu metodla iqtisad elmi həm də maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı proseslərini tənzimləyən iqtisadi qanunlar haqqında elm kimi qavranılmağa başlanılmışdır. Onun predmetinə sosial, sinifi və siyasi problemlər də daxil edilmişdir. Siyasi iqtisad iqtisadiyyatı sosial-iqtisadi sistem



downloaded from KitabYurdu.org

kimi, hadisələrin iqtisadi və sosial məzmununu vəhdət halında öyrənmiş, iqtisadi quruluşun və iqtisadiyyatın konkret modellərinin təhlilini vermişdir. *Bütün iqtisadi proseslər müəyyən sosial mühitdən və siyasi maraqlardan keçdiyindən ictimai olan qarşılıqlı fəaliyyət sistemini iqtisadi, sosial və siyasi tərəfə ayırmaq şərti və abstrak olduğundan hadisə və prosesləri iqtisadi, sosial-siyasi baxımdan vəhdət halında öyrənilməsi təqdirə layiqdir.* Çünki iqtisadi fəaliyyət həmişə sosial və siyasi qayda-qanunla tənzimlənir. Siyasi və iqtisadi hadisələrin qarşılıqlı əlaqəsini öyrənən ictimai seçim nəzəriyyəsinə görə, siyasi və iqtisadi fəaliyyətin motivi və prinsipi eynidir. Hər ikisində şəxsi maraqlar önəmli olur. Belə ki, həmin nəzəriyyəyə görə, iqtisadi siyasəti formalaşdıran dövləti idarə edən şəxslərin (istər seçkilərlə seçilmiş və istərsə də təyin olunmuş) öz məqsədləri var, onlar iqtisadi proseslərdən özləri üçün qazanc və xoşbəxtlik əldə etməyə və şəxsi rifahlarını (varidatlarını) maksimallaşdırmağa çalışırlar.

XIX əsrin 70-90-cı illərində yeni marjinalist paradiqmanın yaranması ilə marjinalistlər nəzəriyyələrinin «neytrallığını» göstərmək məqsədilə siyasi iqtisad terminindən imtina edərək onu «Ekonomiks» adlandırmışlar. Bunu ilk əvvəl U.Cevons, sonradan isə A.Marşall etmişdir. O vaxtdan bugünə kimi klassik liberal bazar təsərrüfatı modeli üstünlük təşkil edən ölkələrdə (Böyük Britaniya və ABŞ) iqtisad elmi «Ekonomiks» adı altında mövcuddur. «Ekonomiks»-in məzmununu məhdud resursların səmərəli istifadəsi nəzəriyyələri təşkil edir. Göründüyü kimi, ekonomiks siyasi iqtisad kimi bütün iqtisadi qanunauyğunluqları bir sistemdə əlaqələndirmir, bütün konkret iqtisad elmləri üçün orijinal bir nəzəriyyə və nəzəri-metodoloji əsas yaratmır. O əsasən mikroiqtisadiyyatdan ibarətdir.

Keçid iqtisadiyyatlı postsovet ölkələrində iqtisad elmi «iqtisadi nəzəriyyə» adlanır. Ümumi predmeti iqtisadi münasibət olan iqtisadi nəzəriyyə siyasi iqtisadın, ekonomiksin və institusional nəzəriyyələrin sintezindən ibarətdir. Onun predmetinin bir hissəsini keçid iqtisadiyyatının məzmununun öyrənilməsi təşkil edir.



downloaded from KitabYurdu.org

Klassik nəzəriyyə mikro, həm də makroiqtisadiyyatdan ibarət olduğu halda, marksist və keynsçi nəzəriyyə yalnız makroiqtisadiyyatdan, neoklassik nəzəriyyə isə mikroiqtisadiyyatdan ibarətdir.

İqtisad elminin inkişafında müəyyən dövrlər istər yeni metodologiya, istər yeni paradiqma və istərsə də yeni nəzəriyyə, istiqamət və cərəyanların yaranması baxımından olduqca zəngin və məhsuldar dövr olmuşdur. Bu dövrlərə XIX əsrin II yarısı və XX əsrin 20-30-cu və 70-ci illəri aiddir.

XIX əsrin II yarısının iqtisadi fikri bir çox səciyyəvi cəhətlərlə fərqlənmişdir. Bu dövr bir tərəfdən klassik ideyaların, iqtisadi azadlıq prinsiplərinin təkcə nəzəriyyədə deyil, həm də təcrübədə təntənəsi dövrü olmuşdursa, digər tərəfdən isə klassik iqtisadi fikrin tənqidi və ona alternativ olan çoxlu nəzəriyyələrin yaranması dövrü olmuşdur. Bu dövrdə bəzi məktəblərin (xüsusən də alman və amerikan) nümayəndələri və K.Marks öz əsərlərində klassik siyasi-iqtisadı tənqid etmiş və özlərinin ona alternativ konsepsiyalarını yaratmışlar. Digər iqtisadçılar isə (ingilis və fransız), öz əsərlərində klassik məktəbin ideya və nəzəriyyələrini təbliğ edir və sistemləşdirir, onlara xas olan ziddiyyətləri yumşaltmağa və bu konsepsiyaları həmin dövrün sosial-iqtisadi durumuna və tələbinə uyğunlaşdırmağa çalışmışdılar.

XIX əsrin son 30 ili isə iqtisad elminin ən məhsuldar, çoxlu sayda nəzəriyyə və konsepsiyaların yaranması, inkişafı, həm də klassik iqtisad elminin inkişafı, tənqidi və onun elmi sisteminin dağılması dövrüdür. Bu dövr iqtisad elminin tarixində təkcə «marjinalist inqilabı», yeni marjinalist paradiqmanın yaranması, faydalılıq və məhsuldarlıq həddi nəzəriyyələrinin, neoklassik istiqamətin çıxış nöqtəsini təşkil edən sintetik qiymət nəzəriyyəsinin yaranması və siyasi iqtisadın adından siyasi sözünün çıxarılması və onun ekonomiks adlandırılması ilə qalmamışdır. Bu dövr iqtisad elminin tarixinə həm də metodoloji axtarışlar, iqtisad elminin tarixinin dərindən tədqiqi və neoklassik istiqamətin (ingilis-amerikan məktəbi) yaranması dövrü kimi düşmüşdür. Əgər iqtisad elmi siyasi iqtisad adı altında XVII əsrdən müstəqil tədqiqat



downloaded from KitabYurdu.org

sahəsinə çevrilmişdirsə, ekonomiks adı altında isə iqtisad elmi yalnız bu dövrdə (1870-ci illərdə) professional və akademik (1880-cı illərdə) predmetə çevrilmişdir.

İqtisad elminin tarixində XX əsrin 20-30-cu illəri xüsusi yer tutur. Bu illər iqtisadi fikrin inkişafında dönüş dövrü olmuşdur. Belə ki, iqtisad elminin müasir simasını müəyyən edən istiqamətlər: keynsçilik, neoliberalizm bu dövrdə yaranmış və institusionalizmdə bir istiqamət kimi XX əsrin 20-30-cu illərində geniş təşəkkül tapmışdır.

XX əsrin 70-ci illəri isə iqtisad elminə hazırda liberal bazar modelli ölkələrin iqtisadi siyasətinin əsasında duran monetarist və monetaristyönümlü olan iqtisadi təklif və səmərəli gözləmə nəzəriyyələrini vermişdir.

İqtisadi fikir, nəzəriyyə və konsepsiyalar tarixən, ilk öncə təsərrüfatın, iqtisadi fəaliyyətin səmərəli təşkili və idarə edilməsini, maddi və maliyyə vəsaitlərindən səmərəli istifadə olunması, əmtəə-pul münasibətlərinin izah edilməsi zərurətindən yaranmışdı. *Lakin iqtisadi fikir və nəzəriyyələr cəmiyyətin sosial-iqtisadi və institusional quruluşu ilə qarşılıqlı əlaqədə formalaşıb inkişaf etdiyindən və cəmiyyətdə sinfi bölgü və siniflə mövcud olduğundan onlar mövcud sosial-iqtisadi quruluşun hərəkətverici qüvvəsi olan hakim sinifin və sosial təbəqənin mənafeyini və ona xas olan təsərrüfat formasının və iqtisadi sistemin ideologiyasını və siyasətini ifadə etmişdir.* Keçmişin iqtisadi təlimini tarixi konteksdə öyrənən və hər bir nəzəriyyəyə öz dövrünün tarixi və siyasi vəziyyətinə uyğun olduğunu göstərən relyativistlər, iqtisadçıların nəzəriyyələrinin sinif və qrup mənafeylərini məntiqlə (ağıllı) əsaslandırmaqdan başqa bir şey olmadığını qeyd edirlər. K.Marks yazırdı ki, «hakim sinifin fikri hər bir dövrdə hakim fikir olmuşdur. Bu o deməkdir ki, cəmiyyətdə özünü hakim maddi qüvvə olduğunu göstərən sinif, eyni zamanda da onun hakim mənəvi qüvvəsidir».[1] Bu onu göstərir ki, iqtisadi fikrin və nəzəriyyənin yaranması və inkişafı cəmiyyətin sosial-iqtisadi və institusional quruluşu ilə yanaşı həm də mühüm dərəcədə ha-

---

[1] К.Маркс, Ф.Энгельс. соч. 2-е мзд. т. 3. стр.48

[2] Всемирная история экономической мысли. 3-е том, М., 1989, стр. 109



downloaded from KitabYurdu.org

kim sinifin cəmiyyətdəki mövqeyi, sosial statisu və onun tarixi missiyası ilə əlaqədar olmuşdur.

A.Smitin və D.Rikardonun sistemində də iqtisadi subyektin davranış istiqaməti birinci növbədə onun sinifi məxsusluğu ilə müəyyən olunmuşdur. Belə ki, A.Smit hesab edir ki, insanların öz xeyrini maksimallaşdırmaq cəhdini reallaşdıra bilməsi onun cəmiyyətdəki mövqeyindən asılıdır. Smitə görə, «maksimallaşdırma davranışı» yalnız kapitalist üçün mümkündür. Cəmiyyətin digər üzvləri iqtisadi fəaliyyətin subyektindən çox obyekti kimi çıxış edir.[2] Orta əsrlərdə olan kanonist nəzəriyyə də feodal sinfinin əlavə gəlir əldə etmək hüququnu əsaslandırmışdı.

Marjinalist sistemində iqtisad elmindən siniflər çıxarılsa da və bütün iqtisadi subyektlər tamamilə bərabər hüquqlu və hər biri şəxsin maraqlarından çıxış etdikləri qeyd edilsə də, onlar mükəmməl rəqabətə üstünlük verməklə, dolayı yolla xüsusi mülkiyyəti və mülkiyyətçiləri müdafiə etmiş olurlar.

Hal-hazırda bizim nəzəriyyə adlandırdığımız hər bir iqtisadi nəzəriyyə iqtisadçıların iqtisadi sistemin fəaliyyətini və prinsiplərini aydınlaşdırmasından, həll edilməmiş sosial və siyasi məsələləri cavablandırmalarından yaranmışdı. Məsələn, A.Smit və merkantilist məhdudiyyət, D.Riqardo və Britaniyanı öz resursları ilə təmin etməyin çətinliyi, K.Marks və işsizlik, yonxsulluq və əməyin kapital tərəfindən istismarı, Keyns və 1930-cu illərin kütləvi işsizlik problemi, M.Fridmen və 1970-ci illərin inflyasiya problemi.

İqtisad elmi bütün özünün uzunmüddətli tarixi inkişafı ərzində həmişə iqtisadi siyasətlə, depresiyaların aradan qaldırılması ilə sıx əlaqədə və iqtisadiyyatda işləri səhmanlamaq, yoxsulluğu aradan götürmək, gəlirlərin və sərvətin bölgüsünü bərabərləşdirmək və s. arzusunda olmuşdur. İqtisad elmi mühüm dərəcədə görkəmli iqtisadçıların müxtəlif iqtisadi sistemlərə qiymət verməyə cəhd etmələrindən inkişaf etmişdir. İqtisad elmi həmişə səbəbləri aşkar etməyə və iqtisadi sistemdə hərəkətverici qüvvəni aşkara çıxarmağa cəhd etmişdir.



downloaded from KitabYurdu.org

İqtisad elmi təbiət elmlərindən fərqli xüsusiyyətə malikdir. O, insan fəaliyyətini və davranışını öyrənən elm olduğundan «səbəbləri də» insan fəaliyyətlərinin və rəhbərlik edən insanların motivlərinin əsaslarında görür. İnsan davranışı sayılan sosiologiyadan və politologiyadan fərqli olaraq iqtisad elmi insan fəaliyyətinin kəskin deduktiv nəzəriyyələrinin generasiyasını (rəqs törətməsini) təmin edə bilir.

*İqtisadi nəzəriyyənin yaranmasında tədqiqatçı iqtisadçının siyasi marağı, məramı və qərəzliliyi də mühüm rol oynamışdır.* Məsələn, D.Rikardonun lendloridlər sinfinə rəğbətinin olmaması beynəlxalq ticarət nəzəriyyəsinin, F.Listin milli maraqları üstün tutması və Böyük Britaniyanın dünya sənaye hökmranlığına qarşı olması «milli iqtisadiyyat» nəzəriyyəsinin, K.Marksın xüsusi mülkiyyətə və kapitalizmə olan nifrəti sosialist nəzəriyyəsinin, marjinalistlərin Marksın əmək-dəyər nəzəriyyəsini qəbul (həzm) edə bilməməsi və onların iqtisad elminin tarixinə düşmək arzusu faydalılıq nəzəriyyəsinin yaranması ilə nəticələnmişdir.

*İqtisad elminin predmeti onun metodologiyası ilə vəhdət təşkil edir. İqtisad elminin predmetinin çoxmənalılığı bir tərəfdən təsərrüfatın və iqtisadi fəaliyyətin çoxcəhətliliyi və çoxaspektliliyi ilə müəyyən olunursa, digər tərəfdən isə metodoloji yanaşmaların fərqliliyi, nəzəriyyəçi iqtisadçıların dünyagörüşü, onların fəlsəfi bilikləri və siyasi baxışları ilə müəyyən olunur. Metodologiya tədqiqatın çıxış nöqtəsi, ilkin şərtidirsə, həm də tədqiqatın məntiqi nəticəsi metodoloji yanaşmadan asılıdır. Ona görə də predmetlə metodologiyanın vəhdətində nisbi müstəqillik və həllediciilik metodologiyaya məxsus olur. Metodologiya ilkin şərt və çıxış nöqtəsi ilə nəticə arasındakı qarşılıqlı əlaqənin öyrənilməsidir, ədəblə yaradılmış nəzəriyyələrin məntiqi qiymətləndirilməsidir.*

İqtisad elminin elmliyi, onun metodologiyası, metodologiyasının predmetilə vəhdəti, onun mahiyyəti və qanunları öyrənmə dərəcəsi ilə müəyyən olunur. İqtisad elmi bu məzmunu ancaq siyasi iqtisad adı altında klassik iqtisadi nəzəriyyələrin yaranması və inkişafı ilə almışdı. Alman filosofu **İ.Kant (1724-1804)** yazır ki, elmin fəlsəfəsi elmin tarixi olmadan boş bir şeydir, elmin tarixi elmin fəlsəfəsi olmadan kordur.



downloaded from KitabYurdu.org

Metodologiya ilə metod eyni mənalı deyildir. Metodologiya daha geniş məna kəsb edir. Metodologiya elmin fəlsəfəsidir. *İqtisadi tədqiqat həmişə fəlsəfi fikirlərin köməyilə formalaşmışdır. İqtisad elminin metodologiyası dedikdə, cəmiyyətin iqtisadi əsasını və iqtisadiyyatın təməl prinsiplərini təşkil edən hadisələrə müəyyən bir ümumi və fəlsəfi əsasdan yanaşma və tədqiqatda istifadə olunan metodoloji prinsiplər, iqtisadçıların nəzəriyyələri, onların əsaslandıqları dəlilləri izah etdikdə istifadə olunan üsul və vasitələrin məcmusu başa düşülür.*

Dünyada iqtisad elminin tarixinin və metodologiyasının tədqiqatçılarının ən məşhurlarından olan M.Blauq yazır ki, «iqtisad elminin metodologiyası, ümumiyyətlə elmi fəlsəfənin iqtisadiyyata tətbiq edilməsi kimi başa düşülməlidir».[1] Onun fikrincə, metodologiya «tədqiqat metodları» üçün adi parlaq ad deyil, nəzəri konsepsiyalar ilə real dünya haqqında əsaslandırılmış nəticə arasındakı əlaqənin öyrənilməsidir. O göstərir ki, metodologiya iqtisad elminin bizim iqtisadçıların öz nəzəriyyələrini və onların gətirdikləri səbəbləri əsaslandırdıqları üsullara baxdığımız sahəsidir.

İqtisadçıların tədqiqatda istifadə etdikləri prinsip və üsullar əsasən: əsas olanın, birincinin, ilkin şərtin müəyyən olunması və çıxış nöqtəsinin seçilməsi, deduksiya və induksiya, abstrakdan konkretə və əksinə keçid, nəzəri və praktiki cəhətdən yanaşma, mahiyyətin və təzahür formalarının ayrılıqda və vəhdət halında öyrənmək, səbəb-nəticə və funksional əlaqələrin öyrənilməsi, istehsal, bölgü, mübadilə, istehlak arasındakı əlaqəyə düz və əks istiqamətdən yanaşma, qeyri-tarixi, tarixi və sinfi yanaşma, kəmiyyət və keyfiyyət dəyişikliklərini öyrənmək və s. ibarətdir.

İqtisad elminin tarixi və metodologiyası ilə tanışlıq göstərir ki, onda çoxlu yanaşmalar olmuşdur. İqtisad elminin tam tarixini əhatə edən, ayrı-ayrı iqtisadçıların, iqtisad elminin məktəblərinin və istiqamətlərinin istifadə etdikləri əsas metodoloji yanaşmalar aşağıdakılar olmuşdur: empirik, empirik-pozitivist,

---

[1] Марк Блауг. Методология экономической науки или как экономисты объясняют. М. 2004, с. 35



downloaded from KitabYurdu.org

subyektiv, subyektiv-idealist və subyektiv-psixoloji, rasionalist, dialektik-materalist, qeyri-tarixi və tarixi və s.

Metodoloji yanaşmaların çoxluğu, sosial-iqtisadi gerçəkliyin mürəkkəbliyi və onun dərk olunması çətinliyi, iqtisadi fəaliyyətin insanın digər fəaliyyətlərilə qarşılıqlı əlaqədə olması və iqtisadçıların şəxsi baxışları ilə şərtləndirmək olar. İqtisad elmi müstəqil bilik sahəsinə çevrilənə (XVII əsrə) qədər o, əslində (həqiqətdə) empirik elm olmuşdur. Empirizm həm də merkantilizmə, subyektiv marjinalist və tarixi məktəbə xas olmuşdur. Empirizmin mahiyyəti faktları və hadisələri bilavasitə ümumiləşdirməkdən ibarətdir. Empirizmin əsasında hadisənin və iqtisadi formaların mahiyyəti deyil, fərdi, ümumidən ayrılmış iqtisadi formaların və hadisələrin tədqiqi durur. Empirik yanaşmada metodologiya predmetdən ayrılır.

A.Smitin «Xalqlar sərvəti» də daha çox empirik prinsiplərə əsaslanmışdır. A.Smitin nəzəriyyəsi makroiqtisadi olduğu qədər də mikroiqtisadiyyatdır, o, hadisənin mahiyyəti ilə yanaşı, həm də onun təzahür formalarını öyrənmişdir. Ona görə də, onun tədqiqatı daha çox empirik xarakter daşıyır. D.Rikardonun metodologiyası isə daha çox rasionalist xarakter daşıyır. Onun tədqiqatının əsasında real ümumi qanunların öyrənilməsi durmuşdu. Çıxış nöqtəsi kimi dəyər (əmək dəyər) nəzəriyyəsini götürmüşdü. A.Smit və D.Rikardo kapitalizmə mütləq və dəyişməz forma kimi baxmaqla, onlar hadisələrə qeyri-tarixi yanaşmışlar. Ona görə də onlarda, xüsusilə də A.Smitdə tarixilik baxımından tədqiqatın metodologiyası ilə predmeti arasındakı əlaqə kəsilmişdir.

Hadisələrə subyektiv yanaşma marjinalist tədqiqatlarda, xüsusilə də Avstriya məktəbinin nümayəndələrinin əsərlərində mərkəzi yer tutmuşdu. Avstriya məktəbi, hətta subyektiv və yaxud subyektiv-psixoloji məktəbd adlanır. Bu məktəbin nümayəndələri əsasən tə-sərrüfatla məşğul olan subyektin davranışını, onun biliklərini öyrənmişlər. Onlar əsas kimi istehlakı, faydalılığı, subyektin davranışını və biliklərini götürmüşlər. Onlar fərdiçiliyə üstünlük vermiş və ona ümumini müəyyən edən meyar kimi



downloaded from KitabYurdu.org

baxmışlar. Ona görə də, onlar iqtisadi hadisə və proseslərin yalnız funksional əlaqələrini öyrənmişlər. Funksional əlaqələrin öyrənilməsi neoklassik məktəbin və istiqamətin yaradıcılarının və nümayəndələrinin tədqiqatlarında da əsas yer tutmuşdur. Menger istehsal, bölgü, mübadilə və istehlak arasındakı əlaqəni əks istiqamətdən (istehlakdan) öyrənmişdir. C.Sismondi də sosial-iqtisadi proseslərə subyektiv-idealist mövqedən yanaşmışdır. Keyns isə subyektiv-psixoloji mövqedən yanaşmışdır. O, hadisələri özünün formalaşdırdığı «psixoloji qanunun» əsasından öyrənmişdir.

Dialektik-materialist yanaşma Marksist tədqiqatda mərkəzi yer tutmuşdur. Marks iqtisadi hadisə və proseslərə dialektikcəsinə – onlara təbii tarixi proses kimi yanaşmışdır. O, səbəb-nəticə əlaqələrini, hadisənin mahiyyətini öyrənmişdir. O, mahiyyəti və təzahürü, məzmunu və formanı fərqləndirir. İstehsal, bölgü, mübadilə və istehlak arasındakı əlaqəni öyrənməyə istehsaldan başlamış və istehsalı ön plana qoymuşdur. Cəmiyyətin inkişafının əsasını maddi istehsalda görmüşdür.

Marksın tədqiqatı cəmiyyətin əsasını təşkil edən inkişaf proseslərinə və qanunauyğunluqlarına olan materialist baxışları dialektika ilə birləşdirən metodoloji prinsiplərə əsaslanmışdı. O, inkişafı dialektikanın əsas qanunları: kəmiyyətdən keyfiyyətə və əksinə keçid, əksliklərin vəhdəti və mübarizəsi, inkarın inkarı nöqteyi-nəzərdən izah etmişdir.

Onu da qeyd edək ki, iqtisad elmində hadisə və proseslərə ilk dəfə dialektik-materialist mövqeyindən yanaşan isə orta əsr ərəb mütəfəkkiri İbn-Xaldun olmuşdur.

İqtisad elmində iqtisad elminin metodologiyasının, müvafiq olaraq iqtisad elminin və iqtisadiyyatın özünün, iqtisadi nəzəriyyələrin və iqtisadi təhlilin normativ və pozitiv bölgüsü də mövcuddur. Bu bölgünün əsasında iqtisad elminin ilk metodoloqları olan, pozitiv iqtisadçılar sayılan N.Senior və Ç.S.Mill dayanır. Sonralar iqtisad elminin metodologiyasına M.Fridmen, P.Samuelson, Z.Fon. Mizes və başqaları mühüm töhvələr vermişlər. Bunlar iqtisadi nəzəriyyəyə pozitiv metodologiyanın tətbiqinin tərəfdarı ol-



downloaded from KitabYurdu.org

muşlar. Pozitiv metodologiyanı müdafiə edən neoklassik iqtisadçılar içərisində birinci yeri M. Fridmenin və onun pozitiv iqtisad elminin metodologiyası haqqında məşhur əsəri (oçerki) tutur. Fridmen «pozitiv iqtisadiyyatın» müəllifi sayılır.

Hal-hazırda iqtisadi nəzəriyyəyə normativ-metodologiyanın tətbiqinə tərəfdar olanlar çoxluq təşkil etmir. İqtisadi nəzəriyyəyə normativ metodologiyanın tətbiqinin əsas tərəfdarı M.Blauqdur. İqtisad elminin metodologiyasının qayğısına qalan iqtisadçı-alimlərin əksəriyyəti normativ tələbləri yüngülləşdirməyə və iqtisadi nəzəriyyələrin müşahidə edilən faktlardan yüksək dərəcədə müstəqil olmasına yol verilməsinə meyillidirlər.

Normativ metodologiya deduktiv metoda, pozitiv isə induktiv metoda əsaslanır. Lakin butun bunlara baxmayaraq tətbiq olunma məqsədindən asılı olaraq hər bir nəzəriyyə «normativ» və «pozitiv» ola bilir.

Normativ metodologiya və nəzəriyyə iqtisadi münasibətlərin ideal modelini təsvir edir, təcrübəyə olduqca tənqidi yanaşır. Normativ elmin vəzifəsi idealları müəyyən etməkdir. O nə yaxşıdır, necə olmalıdır və ideala, arzu olunana necə çatmaq sualına cavab verir. Normativ metodologiyanın tərəfdarları ilkin şərtdən başlamağı tələb edirlər. Normativ təhlildən iqtisadi siyasətin seçilməsində istifadə edilir.

Pozitiv metodologiya və nəzəriyyə təcrübəni dərk etməyə və ümumiləşdirməyə cəhd edir. O, artıq mövcud olan iqtisadi münasibətlər sistemini və faktları öyrənir. İqtisadiyyatda nə var və nə olmalıdır sualına cavab verir. Onun tərəfdarları ilkin şərtlərdən deyil, faktlardan başlamağı məqbul hesab edirlər. Pozitiv təhlil makroiqtisadiyyatda mərkəzi yer tutur.

İqtisadi nəzəriyyələr sistemində metodoloji əhəmiyyət kəsb edən nəzəriyyə – dəyər (qiymət) nəzəriyyəsi olmuşdu. Belə ki, dəyər nəzəriyyəsi Rikardonun tədqiqatının, qiymət nəzəriyyəsi isə A.Marşallın və bütün neoklassik istiqamətin tədqiqatının metodoloji əsasını təşkil etmişdi. K.Marks genişmiqyaslı ümumi nəticəyə məhz əmək-dəyər nəzəriyyəsi əsasından gəlmişdi. O, «əməyin özgəninkiləşməsi» konsepsiyasını əmək-dəyər nəzəriyyəsinə əsasən



downloaded from KitabYurdu.org

yaratmışdır və xüsusi mülkiyyət şəraitində əməyin kapital tərəfindən istismar edildiyi fikrini də əmək-dəyər nəzəriyyəsinə əsaslanaraq söyləmişdir. Marjinalistlər də faydalılığa əsaslanan dəyər nəzəriyyəsi əsasından marksist əmək-dəyər nəzəriyyəsini təkzib edə bilmişlər.

Bütün tarixi dövrlərdə və ölkələrdə eyni bir iqtisad elmi olmamışdır. F.Engels yazırdı: «İnsanların məhsul istehsal etdikləri və bunları mübadilə etdikləri şərait, ölkədən ölkəyə, hər bir ölkədə isə nəsildən nəsilə dəyişir. Buna görə də siyasi iqtisad bütün ölkələr və bütün tarixi dövrlər üçün eyni ola bilməz».[1] Bu isə onu göstərir ki, iqtisad elmi tarixi elmdir. Belə ki, bütün dövrlərdə və ölkələrdə eyni bir dəyər nəzəriyyəsi olmamışdır. Keçmişdə bəzi iqtisadçılar əmək-dəyər nəzəriyyəsinə tərəfdar olmuşlar, digərlər isə dəyərin faydalılıqla müəyyən olunduğunu güman etmişlər. Bunu da təkcə eyni bir vaxtda və bir ölkədə deyil, müxtəlif ölkələrdə və nəsillərdə etmişlər.

İqtisad elmi tarixi elm olduğundan onun dərindən öyrənilməsində metodoloji məsələlərdən biri də iqtisad elminin tarixinin dövrləşmə problemidir. Bu problemə müxtəlif yanaşmalar və onun həll edilməsində müxtəlif meyarlardan istifadə olunmuşdur. Yanaşmalardan biri marksist formasiya yanaşmasıdır. Formasion yanaşmada əsas meyar istehsal üsuludur, cəmiyyətin inkişafının əsasında məhsuldar qüvvələri durur. Amerikan alimi U.Rostou da Marks kimi tarixi beş mərhələyə böləndə əsası kimi məhsuldar qüvvələri göstərmişdir.

Digər bir yanaşmada tarixi dövrləşmənin əsasında təsərrüfat formaları durur. Əsas meyar kimi əmtəə-pul münasibətləri və mubadilə üsulu götürülür. Bu yanaşmadan əsasən Alman tarixi məktəbinin nümayəndələri istifadə etmişdir. İbn-Xaldun isə dövrləşmənin əsasına ictimai əmək bölgüsünü qoymuşdu.

İqtisad elmində dövürləşmə ümumi tarixlə də: qədim dövrün, orta əsrlərin, müasir dövrün iqtisadi fikir və nəzəriyyələri kimi bölgü ilə də həll edilmişdir.

---

[1] Ф.Энгэльс. Анти-Дуринг. Бакы, 1967, səh. 146



downloaded from KitabYurdu.org

# I BÖLMƏ
# İLKİN İQTİSADİ BİLİK VƏ METODOLOGİYA

## I FƏSİL. QƏDİM VƏ ANTİQ DÖVRÜN İQTİSADİ BİLİK VƏ YANAŞMALARI

Cəmiyyətin əsası olan, onun fiziologiyasını təşkil edən iqtisadiyyat bəşər cəmiyyəti qədər qədim olsa da, onunla bağlı biliklər isə sonralar yaranmışdır. İqtisadi biliklər cəmiyyətin müəyyən inkişaf mərhələsində icmalar arasında və icma daxilində əmək məhsullarının mübadiləsi meydana gələndə və quldarlıq quruluşunun əsasını təşkil edən ilkin qul təsərrüfatlarının yarandığı dövrdə meydana gəlmişdir.

*İqtisadi biliklər ayrı-ayrı adamların qərarlaşan əmtəə-pul münasibətinin, quldarlıq münasibətinin və qul əməyinin məhsuldarlığının aşağı olmasını izah etmək cəhdləri ilə əlaqədar yaranmışdır.* Lakin əmtəə-pul münasibətləri zəif inkişaf etdiyindən, əmtəə mübadiləsi təsadüfi və qeyri-ekvivalent xarakter daşıdığından, bu biliklər sistemli xarakter daşımadığından elmi olmamışdır. İlk əvvəl insanları iqtisadi məsələlər üzərində düşünməyə təsərrüfatın, ticarətin və dövlət idarəçiliyinin praktiki ehtiyacları məcbur edirdi. Bu vaxtı iqtisadi biliklər əsasən tövsiyə, təklif formasında olmuşdu, onlar metofizik və sxolastik xarakter daşımışdır. Təsərrüfat haqqında tarixi təcrübəyə əsasən fikir söylənilmişdir. İqtisadi biliklər əsasən empirik xarakter daşımışdı. Bu öz əksini tarixi təcrübənin empirik təsvirini ümumiləşdirmədə tapmışdır. Fəaliyyət üçün əsas kimi fərdi qul təsərrüfatında və bütünlükdə dövlət səviyyəsində iqtisadi fəaliyyətin aparılmasının konkret təcrübəsinin təsviri təklif olunmuşdur. İqtisadiyyatın bilavasitə təsvir edilməsi ümumi hadisələrdən sosial-iqtisadi qanunauyğunluqları ayırmağa imkan verməmişdir. Ona görə də qədim və antik dövrdə iqtisadi biliklər müstəqil bilik və tədqiqat sahəsi olmamışdır. Bu dövrdə iqtisadi biliklər cəmiyyət haqqında digər biliklərdən ayrılıqda mövcud olmamışdır. İqtisadi bilik yalnız XVII əsrdən müstəqil bilik və iqtisad elminin özünün spesifik



downloaded from KitabYurdu.org

tədqiqat predmeti olmuşdur. Qədim və antik dövrdə, hətta, kapitalist əmtəə təsərrüfatı yaranana qədər iqtisadi fəaliyyətin tənzimlənməsi ənənəvi olaraq empirik yolla təmin olunduğundan, iqtisadi təcrübə nəzəriyyələrin yaradılması vəzifəsini irəli sürməmişdir.

Hər bir tarixi dövrün öz iqtisadi problemləri və onların həll edilməsi yolları olmuşdur. Ona görə də qarşıda duran iqtisadi problemlərə uyğun iqtisadi ideya və fikirlər yaranmışdı. Ön planda olan problemlər həmişə iqtisadi biliyin obyekti olmuşdur.

İqtisadi biliklər ilk əvvəllər pərakəndə olmasına və normativ xarakter daşımasına baxmayaraq məhsuldar qüvvələr inkişaf etdikcə, ictimai əmək bölgüsünün dərinləşməsilə əmtəə-pul sferası genişləndikcə, mübadilə daimi və ekvivalent xarakter aldıqca iqtisadi biliklər də genişlənmiş, təkmilləşmiş və getdikcə daha çox elmi məzmun almağa başlamışdır. Ekvivalent mübadilənin yaranması ilə artıq bu ekvivalentliyin əsasının və mübadilə Qanununu tapmağa (Aristotel və İbn-Xaldun) cəhd göstərilmişdir. Bu isə həmin dövrlər üçün böyük nailiyyətdir.

Qədim dövrdə iqtisadi biliklər hər hansı bir ayrıca əsər və kitablarda şərh edilməmişdir. Bu dövrün iqtisadi mülahizələri öz əksini daş üzərində mixi yazılarda, mifologiyada, poema, dastan və nağıllarda, fəlsəfi traktatlarda, mütəfəkkirlərin və hökmdarların iqtisadi proqram və islahatlarında, dövlət siyasətində, dini cərəyan və xalq hərəkatlarında tapmışdır. Bu mənbələrdə, hər şeydən əvvəl, qədim xalqların təsərrüfat həyatı haqqında məlumatlar verilir. Belə ki, çar Xammurapinin qanunları daş üzərində mixi yazılarda, qədim yunan cəmiyyətinin iqtisadi həyatı Homerin poemalarında, yəhudilərin, Fələstində və ətraf torpaqlarda yaşamış xalqların iqtisadi həyatı Bibliyada, sosial bərabərlik, əmlak bərabərliyi, «istehlakın ictimailəşməsi» ideyası Məzdəkizm hərəkatında öz əksini tapmışdır.

*İqtisadi bilikləri öyrənməyə bir çox ədəbiyyatlarda göstərildiyi kimi, antik dövrdən və Avropadan deyil, məhz ilk insanların məskunlaşdığı və ilkin iqtisadi fəaliyyətin, təsərrüfatın formalaşdığı ərazilərdən, dünya sivilizasiyasının beşiyi sayılan Qə-*



downloaded from KitabYurdu.org

*dim Şərqdən başlamaq daha düzgündür.* Çünki iqtisadi biliklərin ilk obyekti olan iqtisadi hadisələr: mübadilə, pul, qiymət, ticarət, mənfəət, borc faizi və s. qədim şumerlilərə, babilistanlılara və misirlilərə ilk əvvəl məlum olmuşdur. Qədim Şərqdə artıq bizim eradan əvvəl IV minillikdə quldarlıq quruluşu və dövlət yaranmışdır, hakim olan natural təsərrüfatın içərilərində vaxtilə əmtəə-pul münasibətləri inkişaf etmişdir. Burada icma, dövlət və xüsusi mülkiyyət formaları qarşılıqlı fəaliyyət göstərmişdi. Dövlət təsərrüfat həyatında geniş miqyasda iştirak etmişdir. İrriqasiya sistemini əsasən dövlət tənzimləmişdir.

Qədim Misirdə Asiya istehsal üsullu cəmiyyət olmuşdur. Bu üsulun xüsusiyyəti mərkəzləşdirilmiş dövlətin iqtisadi və siyasi hakimiyyətinin mütləq hökmranlığıdır və mülkiyyətin dövlət hakimiyyəti ilə birləşməsidir. Ona görə də, Qədim Misirdə iqtisadi biliklərin əsasında natural xarakter daşıyan dövlət təsərrüfatının səmərəli təşkili və idarə olunması məsələləri və onların dərk edilməsi durmuşdu. İdarəçilik məsələsində maliyyə, hərbi və ictimai işlər xüsusi yer tuturdu. Dövlət təsərrüfatının təşkili məsələləri irriqasiya qurğularının tikilməsində maddi, əmək və təbii (torpaq) resurslarının uçota alınmasından və məhsulların bölüşdürülməsindən, sahələrarası proporsionallığın təmin edilməsindən, sığorta fondunun yaradılmasından ibarət olmuşdur. Təsərrüfat bilavasitə mərkəzləşmiş dövlət tərəfindən təşkil və idarə edilmişdir. Sosial iqtisadi hadisələrin güclü mərkəzləşdirilmiş bürokratik tənzimləmə mexanizmi olmuşdur.

Təsərrüfatın əsas forması mərkəzləşdirilmiş dövlət təsərrüfatı olduğundan və o, əsas yer tutduğundan xüsusi təsərrüfat, onun təşkili və səmərəliliyi iqtisadi biliyin obyekti olmamışdır. Ancaq dövlət aparatında yüksək vəzifə tutan şəxslərin təsərrüfatı olmuşdur. Burada xüsusi mülkiyyətin etibarlı təminatı olmamışdır. Vəzifəli adamların dövlət əmlakını oğurlamaqla mənimsədikləri xüsusi mülkiyyətin dövlət mülkiyyəti əsasından əmələ gəlməsi fikri hökmranlıq etmişdir. Və o, dövlət mülkiyyətinə qarşı qoyulmuşdur. Ona görə də, hər bir predmet müəyyən şərtlərlə xüsusi mülkiyyət obyektinə çevrilirdi. Birincisi, o, öz əməyi



downloaded from KitabYurdu.org

və xidməti vəzifəsindən azad vaxtda yaradılmalıdır, ikincisi, predmetin öz materialından, həm də çara məxsus olmayan, özünün əmək alətilə hazırlandığı sübut olunmalıdır, üçüncü, obyekti çar torpağında deyil, özünün və yaxud sahibi olmayan torpaqda olmalıdır, bu, hər şeydən əvvəl, müxtəlif tikintilərə aid olmuşdu.[1]

Təsərrüfat natural xarakter daşıdığından, pula ehtiyac olmadığından, əmtəə-pul mübadiləsi zəif inkişaf etmişdir və əsasən ayrı-ayrı adamlar və istehsalçılar arasında mal mübadiləsi üstünlük təşkil etmişdi. Tədricən müəyyən məhsullar ümumi ekvivalent olmuşdu. İlk əvvəl ümumi ekvivalent kimi mis, qismən də taxıl olmuş, sonradan əsasən gümüş olmuşdu.

Qədim Misirdə ev və borc quldarlığı geniş miqyas almışdır. Mübadilənin zəruriliyi və borc quldarlığının mövcudluğu sələmçiliyin geniş inkişafına səbəb olmuşdur. Çox vaxtı qul borca verilmiş və borc haqqı qulu qısa müddətə icarəyə verməklə ödənilmişdir. Qulun icarə haqqı olduqca yüksək olmuşdur. Borc sərt şərtlərlə və yüksək haqla (100% normasında) verilmişdir.

Qədim Şərqin iqtisadi fikrində Babilistan hökmdarlığının qanunvericiliyi və hökmdarların, xüsusilə də bizim e.ə XVIII əsrdə fəaliyyət göstərmiş Çar **Xammurapinin** (1792-1750-ci illər) qanunları xüsusi yer tutmuşdur. Qanunlarda dövlət tənzimlənməsinin və əhalinin iqtisadi fəaliyyətinə nəzarətin müxtəlif formaları nəzərdə tutulmuşdur. Qədim Messopotomiyanın sosial-iqtisadi münasibətləri bu qanunlarla qaydaya salınmışdır. Bu qanunlar quldarlıq quruluşunu, dövlətin və hakim sinfin (quldarların) mənafelərini və vətəndaşların mülkiyyətini qorumaq ehtiyacından yaranmışdır. Burada vətəndaşların mülkiyyəti möhkəm hüquqi qaydalarla qorunmuşdur və qul da mülkiyyət obyektinə çevrilmişdir. Qədim Misirdən fərqli olaraq burada yüksək səviyyədə mərkəzləşdirilmiş dövlət təsərrüfatı deyil, əsasən icma və icarə təsərrüfatları olmuşdur. Bu təsərrüfatlar naturaldan, daha çox əmtəə xarakteri daşımışdır. Əmtəə-pul münasibətləri və sələmçi-

---

[1] Всемирная история экономической мысли. Том I, М., 1987, стр. 48



downloaded from KitabYurdu.org

lik inkişaf etdikcə icma üzvlərinin bəziləri var-yoxdan çıxırdılar və qula çevrilirdilər. Bu isə sinfi mübarizəni gücləndirirdi. Ona görə də qanunda sələmçiliyi və borc quldarlığını məhdudlaşdıran və güclülərin zəifləri sıxışdırmaması üçün icarə, muzdur adamlardan istifadə və sələmçilik qaydalarını əks etdirən fikir və maddələr öz əksini tapmışdır. Sələmçiliyin və borc quldarlığının məhdudlaşdırılması və digər tənzimləmə qaydalarının nəticəsində Babilistanda sələm faizinin illik norması gümüşlə 20%, taxılla 33% təşkil etmişdir və borc quldarlığın müddəti üç ildən artıq olmamışdır.

İqtisadi fikir tarixi üçün **Qədim Çin** mühüm əhəmiyyət kəsb etmişdir. Çinin iqtisadi fikrində qədim Çin mütəfəkkiri **Konfutsi (Kun Futzi)** (e.ə. 552-479) və Kollektiv traktat olan «Kuan-tsızı» (e.ə. IV-III əsr) mühüm yer tutur. Konfutsinin ideyaları, xüsusilə də onun tərəfindən deyilən əxlaqi-etik normalar yarandığı vaxtdan Çinin ictimai həyatında həlledici əhəmiyyət kəsb etmişdir və Konfutsiçilik Çin dövlətinin ideologiyasına çevrilmişdir. Hətta, hal-hazırda ictimai ədəbiyya-tlarda Qərbi Avropa sivilizasiyası, şərq və islam sivilizasiya ilə yanaşı konfutsi mədəniyyətli sivilizasiya da mövcuddur.

Çində də iqtisadi biliklər müstəqil olmamışdı, o, ictimai fikrin müxtəlif formalarında, fəlsəfi və siyasi baxışlarda əksini tapmışdır.

Çində iqtisadi fikir formalaşdığı vaxt (e.ə. VI-III əsrlərdə) ictimai əmək bölgüsünün inkişafı dərinləşmişdi və əmtəə-pul münasibətləri inkişaf etmişdi. Bunu əkinçi-icma təsərrüfatı ilə yanaşı, xüsusi qul təsərrüfatının, sənətkarlığın, ticarətin mövcudluğu göstərir. Bu dövrdə konfutsiçiliklə yanaşı legizm də bir istiqamət kimi mövcud olmuşdu. Bu istiqamətlərin əsas ideyaları isə öz əksini «**K**uan-tsızı»da tapmışdır. «Kuan-tsızı» traktaktı Qədim Çinin ictimai fikrinin əsas istiqamətlərinin sosial-iqtisadi ideya və proqramlarının xüsusi şəkildə sintezidir.

Qədim Çində iqtisadi fikrin mərkəzində sərvətin artırılması, onun bərabər bölgüsü, istehlakın nizamlaşdırılması, vergilərin, kənd təsərrüfatı istehsalı məhsullarının qiymətlərinin, pat-



downloaded from KitabYurdu.org

riarxal-ailə münasibətinin nizamlanması, insanların mənəvi zənginliyi və s. məsələlər durmuşdur.

Qədim Çinin ictimai fikrində sosial-iqtisadi proseslərə təbii hüquq nəzəriyyəsi mövqeyindən yanaşma mövcud olmuşdur. Bu nəzəriyyəyə görə, Allah dünyanın yalnız ilk səbəbkarıdır, ictimai həyatın hadisələri təbii qanunlara tabedir və təbii hüquqla yaradılmış vətəndaş qanunları ilə qorunur. Təbii hüquq nəzəriyyəsinin əsasını sosial, əxlaq və hüquq fəlsəfəsi təşkil etmişdir. Konfutsi təbii hüquq nəzəriyyəsini daha da inkişaf etdirir. Onu insanların təbəqələşməsinə şamil edir. İnsanların təbəqəyə bölgüsünün Allah tərəfindən və təbii olduğunu göstərir. Onun baxışları qəbilə zadəganlığının mənafelərinə xidmət edirdi.

Konfutsi ictimai quruluşun sabitliyinin əsasını patriarxal-ailə münasibətlərində görmüş və ona görə də patriarxal ailəyə daxilən xas olan ənənəvi münasibətləri qoruyub saxlamağa, köhnə sosial-iqtisadi institutları bərpa etməyə çalışmışdır. O, dövlətə böyük ailə kimi, dövlət başçısına isə «xalq atası» kimi baxmışdır. Sərvətin mənbəyini əməkdə görmüş, xalqın və dövlət başçısının sərvətinin əməklə artırılmasını mənəvi prinsiplərə uyğun saymışdır. *Konfutsinin ictimai baxışlarında mükəmməl (ideal) insan və xalqın varlandırılması ideyası xüsusi yer tutmuşdu. Onun təlimində ideal insan insanpərvərdir və o, yaşlılara (böyüklərə) hörmət etmək, öz borcunu anlamaq kimi əlamətlərlə xarakterizə edilir. Konfutsi dövlətin yüksək mənəvi prinsiplər əsasından idarə edilməsini tövsiyə edir. Onun fikrincə, dövləti idarə edən şəxs ən mükəmməl adam olmalıdır.* O, dövlət başçısını xalqı əvvəlcə varlandırmağa, sonra isə onu tərbiyə etməyə, xərclərdə qənaətcil olmağa, insanların qayğısına qalmağa, sərvətin bərabər bölüşdürməsinə, vergi ağırlığını yüngülləşdirməyə çağırmış və ondan bunlara əməl etməyi tələb etmişdir. O hesab edir ki, belə olduğu halda cəmiyyətdə sosial-iqtisadi sabitlik və barışıq (sülh) yaranır, xalqın və hökmdarın sərvəti istər kollektiv mülkiyyət olan kəndli icma və istərsə də xüsusi irsi kübarlıq və qeyri-irsi quldarlıq təsərrüfatı olsun, ancaq əməklə çoxalır. Konfutsi sərvətin çoxaldılmasının yolunu xalqın çox işləməsində və az istehlak etməsində görmüşdür.



downloaded from KitabYurdu.org

Konfutsiçilik ideologiyasının görkəmli nümayəndəsi qədim Çin mütəfəkkiri **Syn-tızı** (e.ə. 313-238) olmuşdur. O, materialist olduğundan və onun baxışları legizmin təsiri altında formalaşdığından Konfutsinin baxışlarından fərqli olmuşdur. O, dünyanın ilkin səbəbkarının yeganə Allah olması fikrini qəbul etməmiş və insanı ilahi və torpaqla yanaşı bütün əşyaların yaradıcısı olduğunu bildirmişdi. Dövlət idarəçiliyinə ictimai inkişafın zəruri qanunauyğunluğu kimi baxaraq, onun son nəticədə insan təbiətilə müəyyən olunduğunu göstərmişdir. O, Konfutsidən fərqli olaraq insanın mədəni olması üçün, ona qanun və tərbiyə vasitəsilə təsir göstərməyi lazım bilmişdir. Syn-tızının fikrinə görə, dövlətin iqtisadi siyasəti üç əsas prinsipə: xərclərə qənaət etməyə, xalqı gəlirlə (var-dövlətlə) təmin etməyə və artığı saxlamaq zərurətinə əsaslanmalıdır. O, dövləti ictimai məhsulun təkcə istehsalını və bölüşdürülməsini deyil və həm də onun istehlakını nizamlamağa çağırır. İstehlakın tənzimlənməsini isə iqtisadiyyatda mühüm sabitləşdirici amil hesab edir. Əhalinin aşağı təbəqəsinin istehlakının nizamlandırılması «artıqlıqların» yaranmasına gətirib çıxarmışdı. Syn-tızı onlara yığıb və saxlamağı məsləhət görmüşdür.[1] O, göstərir ki, «yığılmış sərvətdən» hamı istifadə etməlidir və sadə xalqdan olan adamlar torpaq üzərində xüsusi mülkiyyət hüququna malik olmalıdır. Qədim Çinin iqtisadi fikri legizminin (e.ə. VI-III əsr) ideyaları ilə inkişaf edib daha da zənginləşmiş və yüksək səviyyəyə çatmışdır. Qədim Çinin ictimai fikrinin əsas istiqaməti (məktəbi) olan legizmin yaradıcısı **Tızı Çan** və əsasən **Li Kuy** olmuşdu. Legistlərin ideyaları ölkənin qanunlarla idarə olunması, mərkəzləşdirilmiş idarəçilik, «bazarın», xüsusilə də taxıl bazarının dövlət tənzimlənməsi, vahid verginin tətbiqi, duz və dəmir üzərində dövlət inhisarçılığının yaradılması və əkinçiliyin müdafiəsi və stimullaşdırılması məsələlərinə yönəlmişdir. Legistlər ölkədə ərzaq məhsullarının çatışmazlığının səbəbini əkinçiliyin zəifləməsində deyil, sənətkarlığın və ticarətin

[1] Всемирная история экономической мысли. Том I, М., 1987, стр. 100



downloaded from KitabYurdu.org

inkişafında, əkinçilərin əmək alətləri ilə lazımi səviyyədə təmin edilməməsində görmüşlər.

Li Kuyun ideyaları Qədim Çinin iqtisadi fikrinin inkişafına və təsərrüfat təcrübəsinə böyük təsir göstərmişdi. Onun ideyalarının həyata keçirilməsi ilə iqtisadi fikir empirik (pozitiv) xarakter daşımış və ideyaların yoxlanılmasının və seçilməsinin əsası təcrübə olmuşdur. Bunu legistlər ilə konfutsiçilər arasında mübahisəni əks etdirən duz və dəmir haqqında mülahizələr sübut edir. Li Kuy dövlətin qüdrətini əkinçiliyin inkişafı ilə səciyyələndirmiş və onun ideyalarının mərkəzində «bazarın dövlət tənzimlənməsi» məsələsi durmuşdu. Onun əmtəələrin qiymətinin tənzimlənməsi ideyasının əsasında məhsuldar ildə məhsulların dövlət fondunun yaradılması və qeyri-məhsuldar ildə bazara möhkəm qiymətlə daha çox miqdarda ərzaq məhsulları satmaq fikri dayanmışdı. Legistlər (**Şan Yan** (e.ə.390-338)) tacirlərin əkinçiliklə məşğul olmaları üçün iri ticarət fəaliyyətinə və kəndlilərin məhsulların satışı ilə məşğul olmasına qarşı çıxmışlar. Şan Yan duz və dəmir hasilatı və istehsalının dövlət inhisarçılığının tərəfdarı olmuş və cəmiyyətdə baş verən dəyişikliklərin əsas səbəbini əhalinin artımında (**Xan Fey**) görmüş.

Legistlərin duz və dəmir üzərində dövlət inhisarçılığı dəmir alətlərin keyfiyyətinin pisləşməsinə və bu sahəyə nəzarət edən məmurların varlanmasına səbəb olduğundan Konfutsiçilər ona (inhisarçılığa) qarşı çıxış etmişlər. Onlar sənətkarlıqla məşğulluğu gücləndirən siyasəti tənqid etmişlər. Ona görə də onlar duz və dəmir üzərində dövlət inhisarçılığının və «bazar tarazlaşdırılması sisteminin» ləğvini tələb etmişlər.

*«Kuan-tızı» traktatında sərvətin bərabər bölgüsü yolu ilə «dövlətin varlı və xalqın razı olması» və iqtisadiyyatın əmtəə qiymətlərinin tənzimlənməsi vasitəsilə sabitləşdirilməsi, natural təsərrüfatın özbaşınalığından qorunması problemi diqqət mərkəzində olmuşdur. Traktatda öz dövrü üçün iqtisadiyyatın dövlət tənzimlənməsinin bütöv bir sistemi işlənib hazırlanmışdır.* Buraya ərzaq məhsulları, pulun və metalların qiymətinin tənzimlənməsi, həmçinin tacirlərin və sələmçilərin varlanmasının qarşısını alan digər



downloaded from KitabYurdu.org

tədbirlər sistemi daxildir. Traktatın müəllifləri dövlət qarşısında mühüm vəzifə kimi bütün ölkə üzrə qiymət sabitliyinin yaradılmasını, taxılın qiymətinin dövlət tərəfindən tənzimlənməsi, taxılın dövlət ehtiyatlarının yaradılmasını, əkinçilərə güzəştli kreditlərin verilməsini, dəmirə və duza olan birbaşa vergiləri dolayı vergilərlə əvəz etməyi, sənətkarlıq və əkinçilik məhsullarının mübadiləsi prosesində mübadilənin ekvivalentliliyinin təmin edilməsi və b. məsələləri qoymuşdular. Onlar əmtəələrin və pulun qiymətlərinin əks istiqamətdə hərəkət etdiyini, yəni əmtəələrin qiymətləri artdıqda pulun qiymətdən düşdüyünü qeyd etməklə yanaşı, iqtisadiyyatın sabitləşməsi üçün pul emissiyasının tənzimlənməsini təklif etmişlər. Onlar pulun dəyər ölçüsü və tədavül vasitəsi olduğunu qeyd etmişlər. «Kuan-tızı»da dövlətin resurslarının qızılla hesablandığı və qızılın xalq üçün tədavül vasitəsi olduğu göstərilmişdir.

Traktatın müəllifləri cəmiyyətin həyatında baş verən dəyişiklikləri məhsuldar və qeyri-məhsuldar illərin əvəz olunması ilə izah etmişlər. «Kuan-tızı»da dövlətin qüdrətinin mənbəyi əmək hesab edilir və xalqın zadəganlar üçün gəlir və tacirlər üçün mənfəət yaratdığı fikri söylənilir. Onun müəllifləri bütün xalqın eyni dərəcədə işləməsi və hamının bərabər qazanması uğrunda mübarizə aparmışlar.

**Qədim Hindistanın** iqtisadi fikri öz əksini **Kautili** (e.ə. IV əsr) tərəfindən yazılmış «Artxaşastra» (artxe – maddi **qazanc**) traktatında tapmışdır. O, torpaq qazanmağa (əldə etməyə), vergilər, ticarət mənfəəti, faizlər əldə etməyə həsr olunmuşdur. Burada iqtisadiyyat əkinçilik, heyvandarlıq və ticarətdən ibarət olmuşdu. «İqtisadiyyat» ümumiyyətlə təsərrüfat haqqında deyil, dövlət təsərrüfatı, xəzinədarlıq haqqında təlim olmuşdur.

«Artxaşastra» traktatında təsərrüfatın idarə edilməsi sahəsində praktiki biliklər əks olunmuşdur və ideal dövlətin idarə edilməsi üzrə ümumi təkliflər verilmişdir. Əsas diqqət çar təsərrüfatına və dövlət başçısının siyasətinə verilmişdir. Düzgün idarəçiliyin məqsədi dövlət sərvətinin artması olmuşdur. Dövlət sərvəti əhalinin əməyinin nəticələrindən əmələ gəldiyindən icti-



downloaded from KitabYurdu.org

mai ehtiyaclara: irriqasiya qurğularının saxlanılmasına, yol tikintisinə xərclənməlidir. Quldarlıq sərvətin yığılması üçün təbii hadisə sayılır. Dövlət siyasətinin əsas məqsədi vergilərin köməyilə xəzinəni doldurmaq və dövlət əmlakının oğurlanması ilə mübarizə aparmaqdır. Dövlət başçısının ticarət alverçiliyi və sələmçiliklə mübarizə aparmağı qeyd edilir.

**Qədim Yunanıstan** iqtisad elminə böyük töhfələr vermişdir. İqtisadi problemlər qədim yunan mütəfəkkirlərinin əsərlərində xüsusi tədqiqat obyekti olmuşdur. Onların müəyyən ideyaları (faydalılıq və ekvivalent mübadilə haqqında) müasir iqtisad elminin nəzəri əsası kimi xarakterizə olunur. F.Engels yunanların bütün başqa sahələrdə olduğu kimi, iqtisadi fikirdə də dahilik və orijinallıq göstərdiklərini, buna görə də onların baxışları müasir elmin nəzəri başlanğıc nöqtələrini təşkil etdiyini qeyd etmişdir.[1]

Yunanıstanda iqtisadi fikrin formalaşdığı vaxtı «yunan möcüzəsi» adlanan antik istehsal üsulu mövcud idi. Antik istehsal üsulunda Asiya istehsal üsulundan fərqli olaraq xüsusi mülkiyyət və əmtəə-pul münasibətləri daha böyük əhəmiyyət kəsb edir. Bu modeldə torpaq üzərində olan xüsusi mülkiyyət sistemi dövlətdən olduqca az asılı olmuşdur.

Yunanıstanda iqtisadi fikir özünün ən yüksək nöqtəsinə antik dövrdə (e.ə. V-IV əsrlərdə) **Ksenofontun** (e.ə. 430-354), **Platonun** (e.ə. 424-347) və **Aristotelin** (e.ə. 384-322) əsərlərində çatmışdır. İqtisadiyyat sözünün ilk müəllifi olan Ksenofont «Ev təsərrüfatı» traktatında cəmiyyətdə əmək bölgüsü probleminin öyrənilməsinə böyük maraq göstərmişdir. O, təsərrüfatın səmərəli idarə olunmasının və natural təsərrüfatın qəti tərəfdarı olmuşdur. Bununla yanaşı, o, pul təsərrüfatının (ticarətin) faydalılığını da inkar etməmişdir. «Ev təsərrüfatı» traktatında dəyərin (qiymətin) əşyaların faydalılığından asılı olması fikri öz əksini tapmışdır. Ksenofont iqtisadi inkişafın yolunu kənd təsərrüfatında – əkinçilikdə görmüşdür. Sərvətin istehlak dəyəri formasına diqqət yetirmişdir. Ona görə də o, təsərrüfat fəaliyyətinə istehlak dəyərlərinin yaradılması prosesi kimi baxmışdır. O, əmək

---

[1] Ф.Энгельс. Анти-Дуринг. Б., 1967, səh. 231



downloaded from KitabYurdu.org

bölgüsü ilə bazar arasında əlaqəni, əmək bölgüsünün dərəcəsinin bazarın miqyasından asılı olduğunu göstərmişdir. Pulun tədavül vasitəsi funksiyası ilə yanaşı, onun sərvət yığımına xidmət etdiyini də qeyd etmişdir. O, əməyin əqli və fizikiyə, insanların azad və qula bölgüsünü təbii hesab etmiş, bununla da quldarlığa haqq qazandırmışdır. Onun iqtisadi platforması qul sahibliyinin və istehlakın kollektiv formasına yönəlmişdir.

Qədim Yunanıstanın ictimai fikrinin görkəmli nümayəndəsi Platon olmuşdu. Platonun baxışlar sistemində iqtisadixarakterli problemlər xüsusi yer tutmuşdur. İqtisadi problemlərin tədqiqi onun «Dövlət» və «Qanunlar» əsərlərində öz əksini tapmışdı. O, bu əsərlərində ideal dövlət modelini və obyektiv idealizm sistemini yaratmışdır.

Platon siniflərin mübarizəsini və əmlak bərabərsizliyini aradan qaldırmağa cəhd göstərmişdir. O, insanların fərqli qabiliyyətli olduğundan və qeyri-bərabərlik insanların təbiətində kök saldığından, onu aradan qaldırmaq mümkün olmadığından ədaləti təmin etmək üçün hər bir adam təbii qabiliyyətinə uyğun olaraq öz payını alması fikrini söyləmişdir. Platon insanların ictimai funksiyalarını onların təbii qabiliyyətinə görə müəyyən etmişdir. O, əhalini üç qrupa bölmüşdü: dövləti idarə edən filosoflara, idarəetmə aparatını təşkil edən əsgərlərə və təsərrüfatla məşğul olan əkinçilərə, sənətkarlara və tacirlərə. O, ağır işləri yerinə yetirən qulları vətəndaş saymamış, ona görə də onları heç bir təbəqəyə aid etməmişdir. Platonun proqramında filosoflar və əsgərlər xüsusi mülkiyyət hüququna malik olmurlar, onların istehlakı fərdi deyil, ictimai (kollektiv) xarakter daşıyır və dövlət tərəfindən təmin edilir. Xüsusi mülkiyyət hüququ yalnız təsərrüfatla məşğul olanlara verilir. Xüsusi mülkiyyətdən sui-istifadə pislənilir, hər şey dövlətə məxsus olur, müəyyən olunmuş minimumdan artıq olan hər cür şəxsi əmlak dövlət tərəfindən ləğv edilir. O, demokratiyanın əleyhinə olmuş, onun dövlətində vətəndaş azadlığı olmamış, qanunlar sərt olmuşdur. Ailə dövlətin nəzarətində olmuş, nigahı və uşaq doğumunu dövlət müəyyən etmişdir.



downloaded from KitabYurdu.org

Platon kasta (silki (təbəqə)) zadəganlığını (filosofları) müdafiə etmişdir və natural təsərrüfat tərəfdarı olmuşdur. Platona görə, pul yalnız iki – dəyər ölçüsü və tədavül vasitəsi funksiyasını yerinə yetirməlidir, yalnız tədavülə xidmət etməlidir. O, pulun yığım funksiyasına qarşı olmuşdur. Yalnız təsərrüfatla məşğul olanlara (sənəkarlara, tacirlərə və əkinçilərə) puldan istifadə etməyə icazə vermişdi. O, təsərrüfatda sənətkarlıq və ticarətlə müqayisədə əkinçiliyin həlledici rol oynadığını qeyd etmişdi. Platon sələmçiliyi pisləmiş və onun dövlətində sələmçilik və əmtəələrin kreditə satılması qadağan edilir. Əmtəələrin idxalına və ixracına görə rüsumlar ödənilmir.

Platonun iqtisadi baxışlarında əmək bölgüsü haqqında fikirlər üstün yer tutmuşdur. Platon əmək bölgüsünün fərdlərin tələbatının müxtəlif, qabiliyyətlərinin isə birtərəfli olmasından irəli gəldiyini göstərmişdi. O, əmək bölgüsünü cəmiyyətin dövlət quruluşunun əsas prinsipi hesab edərək bu nəticəyə gəlir ki, əmək bölgüsü cəmiyyətdə insanları bir-birinə bağlayır və tələbatların müxtəlifliyi ilə ayrı-ayrı adamların qabiliyyətlərinin məhdudluğu arasındakı ziddiyyətlərin həllinə imkan yaradır.

Platon əmək bölgüsünə həm də cəmiyyətin silklərə bölgüsünün təbii əsası kimi baxmışdır. O, əmək bölgüsünü istehlak dəyəri mövqeyində təhlil etmiş və əmək bölgüsü ilə ticarət, pul arasındakı əlaqələri də aydınlaşdırmışdır.

Qədim dünyanın ən görkəmli elm zəkalarından biri **Aristotel** olmuşdur. Onun baxışları o vaxtlar mövcud olmuş bütün elm sahələrini əhatə etmişdir. O, insan, cəmiyyət haqqında elm olan sosiologiyanın banilərindən biri olmuşdur. Onun sosial-iqtisadi baxışları «Nikomaxın etikası» və «Politka» əsərində öz əksini tapmışdı. O, bu əsərlərdə dövlət quruluşuna baxmış, ailəni onun əsası kimi müəyyən etmişdi. Dövlətin mahiyyəti ümumi rifaha cəhd etmək və sinfi ziddiyyətləri aradan götürmək olmuşdur. Aristotel quldarlığı təbii, qulu isə danışan alət adlandırmışdı. O, natural quldarlıq təsərrüfatının mənafelərini müdafiə etmişdir və quldarlıq quruluşunun iqtisadi xarakteristikasını vermişdi. Quldarlıq quruluşunun ehtiyacdan, iqtisadi zərurətdən yarandığını



downloaded from KitabYurdu.org

göstərmişdir. O, istehsalın, həyatın qullarsız keçinmədiyini və sərvətin əsasını və onun artırılmasının əsas mənbəyini onların təşkil etdiyini qeyd edir. Azad vətəndaşlar üçün fiziki əməyi layiq saymamış və bütün fiziki və ağır işlərin qullara nəsib olduğunu göstərmişdi. Vətəndaşların azad və qullara, onların əməyinin isə əqli və fiziki əməyə bölünməsini təbii hesab etmişdir. Qula gəlir gətirən əmlak kimi baxmış və onun ən zəruri mülkiyyət obyekti olduğunu qeyd etmişdir.

Aristotel qədim dünyanın iqtisadi biliklərinin ən yüksək nümunələrini vermişdir. O, birinci dəfə olaraq iqtisadi hadisə və proseslərin nəzəri cəhətdən dərk edilməsinə və o zamankı cəmiyyətin iqtisadi qanunlarını təhlil etməyə cəhd etməyə çalışmışdır. *Buna görə də o, iqtisad elminin tarixində ilk iqtisadçı olmuşdur.* Aristotel yalnız mücərrəd əqli mühakimələrə əsasən fikir söyləməmişdir, o, həmişə faktların diqqətli təhlilinə əsaslanmışdı. *O, birinci olaraq iqtisad elminin tədqiqat obyekti olan əmtəə istehsalının bir çox iqtisadi anlayışlarını: mübadilə, pul, qiymət, ticarət, mənfəət, borc faizi və s. işləyib hazırlamışdır.* Mübadilə prosesinin təhlilini vermişdi. Aristotel mübadilədə əmtəə dəyərlərinin bərabərləşməsini görə bilmişdi və bu bərabərləşmənin hər hansı bir əsasını inadla axtarmışdı. Mübadilənin əsasında ictimai əmək bölgüsünün durduğunu göstərmişdi. Onun ictimai tələbatın reallaşması vasitəsi olması fikrini söyləyir. Aristotel mübadilə qanunlarını başa düşməyə cəhd etmişdir və iqtisadi biliklərin qarşısında ilk dəfə olaraq mübadilə nisbətinin nə ilə müəyyən edilməsi sualını qoymuşdur. Cavabı isə belə olmuşdur: əmtəələrin özülündə, onları bir-birinə bərabərləşdirə bilən heç nə yoxdur; əmtəə mübadiləsi təkcə əşyalar arasında deyil, həm də onların sahibləri arasında olan münasibətdir; onların mübadiləsində ümumi olan onların hər birində olmayan tələbatdır. Beləliklə, lazımdır ki, hər bir şey nə isə bir şeylə ölçülsün… Bu bir şey isə əslində hər şey üçün əlaqələndirici əsas olan tələbatdır… Tələbatın əvəzedicisi olaraq insanlar arasında razılığa görə sikkə meydana gəlmişdir.[1] Əmtəələri isə pul müqayisəli edir. Aristotel pulu

[1] Античный способ производства в источник. М., 1933, стр. 554



downloaded from KitabYurdu.org

əmtəə-pul münasibətləri prosesindən çıxarır və pulun kapitala çevrilməsi haqqında da fikir söyləyir. Pula əsasən dəyər ölçüsü kimi baxır.

İqtisad elmində əmtəə istehsalının əsas kateqoriyası olan dəyər (qiymət) haqqında tarixən mövcud olmuş iki əsas fikrin: dəyərin əsasının əmək və dəyərin əsasının faydalılıq olmasının rüşeymləri Aristotelin əsərlərində olmuşdur. O, əmtəənin iki tərəfini: istehlak dəyərini və mübadilə dəyərini müəyyən edir. Sərvəti də iki növə: natural və pula bölür. Natural sərvətə istehlak dəyərlərinin məcmusu kimi baxır və onu həqiqi sərvət adlandırır. İstehlak dəyərlərinin məcmusunda olan sərvətin özünün həddi olur. Bu hədd sağlam şəxsi istehlakdan ibarətdir. Pul sərvətinin bu cür həddi olmur. Aristotel qeyd edir ki, … ticarət fəaliyyətində özünü göstərən sərvət toplamaq məqsədə çatmaqda heç bir zaman son hədd olmur. Ona görə ki, burada məqsəd hədsiz sərvət toplamaq və pula sahib olmadan ibarətdir… Pul dövriyyəsilə məşğul olanların hamısı öz kapitallarını hədsiz dərəcədə artırmağa çalışırlar».[2] Ona görə də Aristotel iri ticarətin və sələmçiliyin inkişafına qarşı çıxır və idealı kiçik əkinçilik təsərrüfatı olur. Sonuncunu təbii hesab edir və onu iqtisadiyyata aid edir. *Aristotel üçün iqtisadiyyat həyat üçün lazım olan nemətlərin, istehlak dəyərlərinin əldə etmək sənətidir (bacarığıdır) və onun məqsədi tələbatı ödəməkdir.* Aristotel iqtisadiyyatı və xrematistikanı bir-birinə qarşı qoymuşdur. İqtisadiyyatdan fərqli olaraq xrematistika («xrema» yunan sözü olub, mənası əmlak, mülk deməkdir) pul formasında sərvət, varidat toplamaq sənətidir. Onun məqsədi pul, kapital yığmaqdır. Aristotel ticarət və sələm kapitalından ibarət olan əmtəə-pul münasibətlərini ifadə edən bütün hadisələri qeyri-təbii adlandırır və onları xrematistikaya aid edir. Xrematistikaya olduqca mənfi münasibət bəsləyir. Bununla belə, Aristotel xalis iqtisadiyyatın mümkün olmadığını və iqtisadiyyatdan fasiləsiz olaraq xrematistika yarandığını da görə bilmişdir.

---

[2] A.B.Anikin  Elmin gəncliyi. B., 1987, səh. 25



downloaded from KitabYurdu.org

# II FƏSİL. ORTA ƏSRLƏRİN İQTİSADİ BİLİKLƏRİ VƏ METODOLOGİYASI

## *§1. Orta əsrlərdə islam dünyasının iqtisadi bilikləri və metodologiyası*

Orta əsrlərin iqtisadi biliyi yeni iqtisadi münasibətlərin təsiri altında formalaşmışdır. Bu dövrdə natural xarakter daşıyan feodal iqtisadiyyatı mövcud olmuşdur. Feodal iqtisadiyyatının əsasını torpaq üzərində feodal mülkiyyəti, onların iri təsərrüfatları, kəndli əkinçi icma və sənətkarlıq təsərrüfatları, şəxsi asılılıq münasibətləri, qeyri-iqtisadi məcburiyyət təşkil etmişdir. Bu dövrdə dini ideologiya hökmranlıq etdiyindən iqtisadi biliyə dini institutlar və din xadimləri böyük təsir etmişdir. İqtisadi xarakterli problemlər haqqında fikirlər yalnız mövcud olmuş dinlərin müqəddəs kitablarında və din xadimlərinin əsərlərində öz əksini tapmışdır. Bu cür hal həm Şərqdə və həm də Qərbdə mövcud olmuşdur. Bu vaxtı din rəsmi dövlət ideologiyasına çevrilmiş və dövlətlər dini dövlətlər olmuşdur. Din bəşəriyyətin, həmçinin insanın Allah tərəfindən yaradıldığını, Allaha inanmağı və axirət dünyasının mövcudluğunun təbliğidir. *Din əqidə olmaqla yanaşı, həm də sosial-iqtisadi münasibətlərin, insanların bütün davranışının və fəaliyyətinin Allah tərəfindən müəyyən edilmiş qayda, norma və şəriyyət qanunları ilə nizamlanması və tənzimlənməsi sistemidir. Bütün bunlar isə onu göstərir ki, orta əsrlərdə hadisə və proseslərə sxolastik yanaşma olmuş və iqtisadi biliklər teleoloji xarakter daşımışdır.*

Orta əsrlərdə Qərb mütəfəkkirləri antik dünya ilə müqayisədə öz dövrləri üçün dahilik və orijinallıq göstərə və qədim yunan mütəfəkkirləri tərəfindən irəli sürülmüş dəyərli iqtisadi müddəaları inkişaf etdirib zənginləşdirə bilmədikləri halda, bunu Şərq mütəfəkkirləri – **N.Tusi** və **İbn-Xaldun** edə bilmişlər. Orta əsrlərdə N.Tusidən və İbn-Xaldundan başqa heç kim iqtisadi məsələlərə aid əsər yazmamışdır. Bu dövrdə din xadimi olmayan, dünyəvi olan feodallar deyil, əsasən din xadimləri və dini insti-



downloaded from KitabYurdu.org

tutların feodalları əsərlər yazmışlar. İqtisadi məsələlər bu əsərlərdə şərh olunmuşdur.

Erkən orta əsrlərdə müqəddəs olan dini kitablarda («Bibliya»da və «Qurani-Kərim»də) sələmçilik Aristoteldə olduğu kimi qeyri-təbii sayılmış və pislənilmişdir. Bu kitablarda materialist baxışlar inkar olunur və təhlil dairəsinə ruhi məsələlər qoyulmuş və ruh fəlsəfəsi əsas götürülmüşdür. Bununla yanaşı, bu kitablarda əmək sərvətin və mülkiyyətin əsası və mənbəyi kimi göstərilmişdir.

Yaxın Şərq feodal dövrünün iqtisadi fikrinin formalaşması və inkişafına islam dini böyük təsir göstərmişdi. İslam dininin iqtisadi problemlərə dair baxışları öz əksini Allahdan Həzrəti Məhəmmədə (s.ə.s.) (570-632) nazil olunan müqəddəs «Qurani-Kərim» kitabında və Həzrəti Məhəmmədin (s.ə.s.) hədislərində tapmışdır. İslamın iqtisadi fikirlərinin əsasında ölkənin idarə edilməsi, əhaliyə vergi qoyulması, dövlətin varlandırılması, xüsusi mülkiyyətin qorunması, nemətlərin ədalətli bölüşdürülməsi, onlardan qənaətlə istifadə edilməsi, əmtəə-pul münasibətlərinin və ticarətin tənzimlənməsi və s. məsələlər durmuşdu.

*«Qurani-Kərim»də insan azadlığı xüsusi qeyd olunur. Köləni azad etmək ən ali davranış və müqəddəs iş sayılır. İnsan fəaliyyətinin ən alisi elmi fəaliyyət hesab olunur. İnsanların iqtisadi fəaliyyətində ədalətlilik, düzgünlük və halallıq prinsipi xüsusilə qeyd edilir.*

«Qurani-Kərim»də yer üzərində nə varsa hamısının Allaha məxsusluğu, insanın isə Allahın nümayəndəsi kimi bütün resurslara sahib olduğundan, onları işlədərkən onun (insanların) Allahın buyruğuna (hökmünə) əməl etməsi; torpaq üzərində xüsusi mülkiyyət hüququnun ola bilməməsi, onun Allaha məxsusluğu, təbii resursların hamıya məxsusluğu, mal-qara üzərində xüsusi mülkiyyət hüququnun olması göstərilir. «Qurani-Kərim»də həmçinin Allahın insanı yerdə öz nümayəndəsi kimi Yer kürəsini inkişaf etdirmək və canlandırmaq məqsədilə yaratdığı qeyd olunur.

*İslam dini iqtisadi problemlərin mahiyyəti kimi nadirlik prinsipini qəbul edir. Lakin islam nadirliyi materialist prinsiplə deyil, onu daha çox ruhi-subyektiv prinsiplə, insanın təbiəti ilə ala-*



downloaded from KitabYurdu.org

*qələndirir.* «Qurani-Kərim»də göstərilir ki, əgər Allah bütün resursları bol yaratsa, onda insan yerdə ədalətsizlik törədər. Lakin Allah insanın təbiətini bildiyindən resursların kəmiyyətini məhdudlaşdırmışdır.

«Qurani-Kərim»də sosial-iqtisadi inkişafın və iqtisadi münasibətlərdə ədalətin təmin edilməsinin vasitələri göstərilir. Bu vasitələr Yer kürəsinin təbii inkişafını təmin edən, Allahın müəyyən etdiyi tənzimləmə mexanizmidir. Bu mexanizmlə tələb olunan inkişafı təmin edə bilən tələb formalaşdırılır. İslamın sosial-iqtisadi tənzimləmə mexanizminə əsasən bunlar daxildir: vergi-«zəkat», sələmçiliyin qadağan olunması, əməyə vadar (məcbur) olmaq, uzunmüddətli inkişafın həvəsləndirilməsi, ticarət üzərində nəzarət, aldatmanın, oğurluğun, güc tətbiq olunmasının, rüşvətin, israfçılığın qadağan olunması, puldan yığım vasitəsi kimi deyil, əsasən əşyaların dəyər ölçüsü kimi istifadə olunması və s.

«Qurani-Kərim»də sosial-iqtisadi münasibətlərin tənzimlənməsində ***«zəkat»*** xüsusi yer tutur**.** *İslamın üçüncü* mühüm əsası olan zəkat bir növ onun vergi qanunudur. Zəkat təkcə fiskal funksiya yerinə yetirmir, o həm də stimullaşdırıcı funksiya yerinə yetirir və maddi nemətlərin bölgüsündə ədalətlilik prinsipini təmin edir.

«Qurani-Kərim»də vergi geniş dairəli müxtəlif tip var-dövləti əhatə edir və müxtəlif növ mülkiyyətə, əmlaklara vahid bir yığım nəzərdə tutulmur. Hər bir növ fəaliyyət üçün ayrı-ayrı yığım üsulu mövcuddur. Zəkat əlavə olaraq mənfəət (hər bir ilin axırında əgər bu olarsa) üstə gəlinməklə ümumi məbləğdən bərabər (2,5%) tutulmadır.

«Qurani-Kərim»də ticarətə xüsusi diqqət verilməsinə və ticarət mənfəətinə haqq qazandırılmasına baxmayaraq, ondan da digər fəaliyyət növləri ilə bərabər vergi tutulması göstərilir. Onu da qeyd etmək lazımdır ki, islam dininin yayılmasında xarici ticarət əlaqələri mühüm rol oynamışdır. Digər bir cəhət isə ondan ibarətdir ki, təbii suvarmaya əsaslanan, maşınlı texnikadan istifadə olunmadan, az sayda muzdlu işçi tətbiq olunan primitiv



downloaded from KitabYurdu.org

əkinçilik üçün zəkat əldə olunmuş məhsulun onda biri, irriqasiya sisteminə, maşınlı texnikaya və muzdlu əməyə əsaslanan əkinçilik üçün isə iyirmidə biri qədər tutulur. Bu islam vergi sisteminin stimullaşdırıcı cəhətidir.

İslamda qənimətdən, qazancdan və gəlirlərdən tutulmanın bir növü də *xümsdür.* Bu əsasən müharibədən əldə edilən qənimətin, torpağın, əmlakın və təbii sərvətlərdən əldə olunan gəlirin müəyyən hissəsinin (beşdə birinin) Peyğəmbərə (s.ə.s.) və onun yaxın qohum və əqrəbasına çatan hissəsidir. «Qurani-Kərim»də orucluğun qurtarması ilə əlaqədar imkanı olanların imkansızlara verdikləri *ianə – fitrə* (sədəqə), müsəlman olmayan əhalidən tutulan can *vergisi – cizyə*, məhsulun onda bir hissəsini təşkil edən torpaq vergisi – *xərac və üşr adlanır.*

«Qurani-Kərim»də həm də göstərilir ki, Allah zəkatın 8 istiqamətdə istifadə edilməsini müəyyən etmişdi. Yığılan zəkat 8 istiqamət arasında bərabər bölünür. Yığılan zəkatın aşağıdakı istiqamətlər üzrə istifadəsi nəzərdə tutulur: 1. Olduqca kasıb olan minskinlərə. Bunlar yeməyə heç bir vəsaiti olmayanlardır. 2. Ehtiyac içində olan kasıblara. 3. «Zəkat» yığanların və dövlət xidmətində olanların saxlanılmasına. 4. Borc olanların saxlanılmasına. 5. Zəvvarlara. 6. Digər millət və xalqlarla dostluğun möhkəmləndirilməsinə gedən vəsaitə. 7. Qulların azad edilməsinə. 8. Allah yollu fonduna.

Klassik orta əsrin sosial-iqtisadi fikir tarixində Azərbaycan mütəfəkkiri **N.Tusinin** (1201-1274) baxışları xüsusi yer tutur. O, ensiklopedik biliyə malik olmuş və onun bilikləri bütün elm sahələrini əhatə etmişdir. Bunu onun bizə qədər gəlib çatmış əsərləri sübut edir. N.Tusinin o vaxtlar mövcud olmuş bütün elm sahələrini əhatə edən 70-dən çox əsəri olmuşdur. Onun bir çox əsərləri və Təbriz yaxınlığında yaratdığı Marağa rəsədxanası onu təkcə Şərqdə deyil, həm də Qərbdə məşhur etmişdir. Onun əsərlərilə tanışlıq göstərir ki, o, Şərqin Fərabi (870-950), İbn Sina (980-1037), Bəhmənyar ((XI əsr) və antiq dünyanın Ksenofont, Platon və Aristotel kimi filosof və mütəfəkkirlərin fəlsəfi,sosial-iqtisadi görüşlərilə tanış olmuş, onları mənimsəmiş etmiş və öz



downloaded from KitabYurdu.org

fikrini bildirmişdi. Ona görə də, onun bir çox sosial-iqtisadi baxışları qədim yunan mütəfəkkirlərinin fikirləri ilə üst-üstə düşür.

N.Tusinin baxışları klassik orta əsr feodal iqtisadiyyatını, onun sosial-iqtisadi münasibətlərini və ziddiyyətlərini əks etdirir. N.Tusinin sosial-iqtisadi baxışları ona dünya şöhrəti gətirmiş «Əxlaqi-Nasiri» (1232-1233) əsərində və «Dövlət maliyyəsi haqqında traktat»da öz əksini tapmışdır.

N.Tusi elmlərin təsnifatını, onların predmet və metodlarını vermişdir. O, iqtisadiyyatı öyrənən elmi ictimaiyyət adlandırmış və onun predmetini və cəmiyyətdəki rolunu daha dəqiq və aydın müəyyən etmişdir. O, ictimaiyyəti birgə əməyin həqiqi və ümumi inkişaf qanunları haqqında nəzəriyyə adlandırmış və onun predmetini «ictimai əməklə və istehsalın ən yaxşı qaydada təşkili ilə əlaqədar olan insanlar münasibəti sistemi»[1] kimi müəyyən etmişdir. Elmin vəzifəsini real varlıqların mahiyyətini düzgün dərk etməkdə görmüşdür. *O, elmi abstraksiya və induktiv təfəkkür metodlarından istifadə edərək öyrəndiyi hadisə və proseslərin mahiyyətini, səbəb və nəticə əlaqələrini öyrənmişdir. Onun iqtisad elminin predmet və vəzifəsi haqqındakı bu fikri, elmi abstraksiya metodundan istifadə etməsi, hadisələrin mahiyyətini, səbəb və nəticə əlaqələrini öyrənməsi isə öz dövrü üçün olduqca dahilik və orijinallıqdır. Bu və onun digər baxışları onu göstərir ki, N.Tusi bir çox məsələlərdə İbn-Xəldunu, klassik və marksist məktəbin nümayəndələrini çox qabaqlamışdır.*

N.Tusi cəmiyyətin və onun iqtisadi həyatının inkişaf qanunauyğunluqlarını təbii-tarixi proses kimi öyrənmişdir. Cəmiyyətin yaşaması və inkişafının əsasında yaşayış vasitələrinin birgə istehsalının, əməyin və ona olan tələbatın dayandığını göstərmişdir. O yazır ki, «İnsan yaşamaq üçün yeməyə möhtacdır, insanın yeməsi isə başqa heyvan-lardakı kimi ələf və sudan ibarət deyil və təbiət tərəfindən hazır-nazir verilmir. Sənət və peşə olmadan; məsələn, əkmək, biçmək, təmizləmək, üyütmək, yoğurmaq və bişirmək

[1] Н.Туси «Әхлаги-Насири» әсәри. Б., 1980, сәһ. 177
[2] Н.Туси «Әхлаги-Насири» Б., 1980, сәһ. 145
[3] Н.Туси «Әхлаги-Насири» Б., 1980, сәһ. 175



downloaded from KitabYurdu.org

mümkün deyildir, bunun üçün isə köməkçi işlər, kənd təsərrüfatı ləvazimatını düzəltməyi və işlətməyi bacarmaq, uzun müddət böyük əmək sərf etmək lazımdır». [2]

N.Tusi sərvətin əməklə yarandığını, əməyin hər şeydən qiymətli olduğunu və əməyin insanın yaşamasının mühüm şərti olduğunu sübut etməyə çalışmışdır. O yazır : «Dünyanın intizamı, məişətin nizamı əməklə birgə yaranmışdır, insan növü əməksiz, əmək isə köməksiz, kömək isə ictimaisiz ola bilməz».[3]

N.Tusi hər bir kəsi əməyinə görə qiymətləndirilməsini ədalətli, əməyi cəmiyyətdə hörmətin və mükafatın yeganə ölçüsü hesab etmişdir. O, ictimai faydalı əməkdən yayınanları, əməksiz gəlir əldə edənləri, xalqın gəlirləri hesabına yaşayanları lənətləmişdir. O, insana ictimai varlıq, ailəyə isə cəmiyyətin özəyi kimi baxmışdır.

N.Tusinin sosial-iqtisadi baxışlar sistemində əmək və onun cəmiyyətdəki rolu, ictimai əmək bölgüsü, pulun mənşəyi və rolu, ekvivalent mübadilə, cəmiyyətin inkişafının iqtisadi əsasları haqqında fikirləri xüsusi yer tutmuşdur. O, araşdırdığı məsələlərin olduqca konkret təhlilini vermiş və nəzəriyyə ilə praktikanı əlaqələndirə bilmişdir. Onu daha çox maliyyə və vergi sisteminin idarəçiliyi və dövlət (ölkə) siyasəti maraqlandırmışdı. Onun baxışları ümumi bəşəri xarakter daşıyır. Tusinin sosial-iqtisadi baxışları onun fəlsəfi və əxlaqi görüşləri ilə sıx əlaqədə olmuşdur.

N.Tusinin iqtisadi baxışlarının çıxış nöqtəsini ictimai əmək bölgüsü təşkil etmişdir. Onun fikrinə görə, hər bir insan özünün qabiliyyətinə uyğun olaraq yalnız bir iş yerinə yetirməlidir. Bu isə onu göstərir ki, o, özünün qədim yunan sələfləri (Aristotel və Platon) kimi əmək bölgüsünün zəruriliyini insanların tələbatının çoxluğu və onların qabiliyyətinin birtərəfli (məhdud) olması ilə izah etmişdir.

N.Tusi hər bir istehsalçının öz qabiliyyətinə uyğun olan müəyyən növ işə uyğunlaşmasını insanlar arasında, cəmiyyətdə mövcud olan iqtisadi əlaqələrdən və qarşılıqlı asılılıqlardan irəli gəldiyini söyləyir.



downloaded from KitabYurdu.org

N.Tusi əmək bölgüsünə aid sələflərinin fikirlərini ümumiləşdirməklə yanaşı, həm də onu inkişaf etdirmiş və yeni ideyalarla zənginləşdirmişdi. O, təbii əmək bölgüsünü cəmiyyətdəki əmək bölgüsündən ayırmış və fərdlərin birliyi kimi baxdığı bəşər cəmiyyətinin əsasına onların professional (peşəkar) təbii fərqlərini qoymuşdu. İctimai əmək bölgüsünə sərvətin mənbəyi kimi baxmışdı. Məhz sərvətin mənbəyi kimi cəmiyyətdəki əmək bölgüsü haqqında konsepsiya N.Tusinin iqtisadi baxışlarının çıxış nöqtəsini, mübadilə münasibətlərinin və pulun mənşəyinin təbiiliyinin əsasını təşkil etmişdir. N.Tusi ictimai əmək bölgüsünə mübadilənin əsası kimi baxmış və onun mübadilə münasibətlərinin inkişafına səbəb olduğunu göstərmişdi. Bunun üçün o, cəmiyyətdəki əmək bölgüsü ilə məhsul istehsalı arasındakı birbaşa əlaqəni, əlavə məhsul istehsalının əmələ gəlməsi imkanını və onun da bazara çıxmasını öyrənmişdi.

N.Tusi istehsalçılar arasındakı əmək məhsullarının mübadiləsinə bərabər dəyərli insan işlərinin mübadiləsi kimi baxmış, bununla da o, mübadilənin ekvivalentliyi haqqında fikir söyləmiş olur. O, cəmiyyətdə insanlar arasında əmək bölgüsünün mövcud olduğundan onların bir-birinə xidmət, kömək etməsini qeyd etmişdir.

*N.Tusi Aristoteldən* ***irəli gedərək*** *əməyin müxtəlif növlərinin bərabərləşməsinin əsasında iş vaxtının müəyyən kəmiyyətinin durması fikrini söyləmişdir. O, pulun dəyəri ilə əmtəələrin dəyəri,arasındakı əlaqəni düzgün dərk etmişdir. O, həmçinin mürəkkəb, əqli əməyi sadə və fiziki əməkdən yüksək qiymətləndirmişdi. Bütün bunlar öz dövrü üçün dahilik və orijinallıq idi.*

N.Tusi mübadilə dəyərinə, əsasən pul formasında baxmışdı. Pulun ümumi dəyər ölçüsü rolunu yerinə yetirdiyini və onun əlverişli tədavül vasitəsi olduğunu qeyd etmişdir. Tusi də Aristotel kimi əmtəələri pul ölçülən etməsi fikrini söyləyir. Pul yığımına mənfi münasibət göstərmiş və qiyməti istehlakçı mövqeyindən və faydalılıq nöqteyi nəzərdən öyrənmişdir. Bu cür yanaşma N.Tusi marjinalist ideyaları da qabaqlamış olur.



downloaded from KitabYurdu.org

N.Tusi cəmiyyətin sinifi bölgüsünü təbii hesab etmiş, ona Allahın müəyyən etməsi kimi baxmışdır. O, cəmiyyəti 4 əsas sosial qrupa: idarə edənlərə (hökmdarlara), tacirlərə, sənətkarlara və əkinçilərə bölmüşdür. Bunlardan sənətkarların və əkinçilərin ictimai faydalı əməklə məşğul olduqlarını, ədalətli və haqlı gəlir əldə etdiklərini söyləyir. Hərbi-feodal əyanlarının nümayəndələri olan hökmdarların faydalı əməklə məşğul olmadıqlarını, cəmiyyətin məhsuldar təbəqəsinin hesabına ədalətsiz və haqsız gəlir əldə etdiklərini qeyd edir. O, Çin mütəfəkkirləri kimi xalqın əyanlar üçün gəlirlər və tacirlər üçün mənfəət yaratdığını deyir. Tacirlik gəlirinin daim riskli və qeyri-müəyyən olduğunu da qeyd edir. N.Tusi ticarətin iqtisadi əlaqələrin inkişafında və insanların məişətinin yaxşılaşdırılmasında faydalı olduğunu qeyd etməklə yanaşı, tacirlərin qiymətləri yüksəltdiklərini, xalqı var-yoxdan çıxartdıqlarını və ticarətin sərvəti artırmadığını da söyləmişdir.[1]

N.Tusi sənəkar əməyini cəmiyyət üçün faydalı və zəruri saymış, sənətkar əməyini təkcə fiziki deyil, həm də əqli əmək və sənətkarlıqdan əldə edilən gəliri daimi və sabit hesab etmişdir. N.Tusi əkinçilik əməyini ən yüksək qiymətləndirmiş və onu cəmiyyətin rifahının əsası saymışdır. O göstərir ki, əkinçilik bütün insanların yaşamasının mənbəyidir və əkinçilərin əməyi olmadan onların yaşaması mümkün deyil.[1] O, əkinçiliyi bütün sənətlər içərisində ən faydalısı və ən şərəflisi adlandırmışdır. N.Tusi sərvətin əkinçilik sferasında, əkinçi əməyilə yarandığını qeyd etmişdir. Ona görə də, o, əkinçiliyin inkişafı üçün əlverişli şəraitin yaradılması tərəfdarı olmuşdur.

*N.Tusinin ticarət və əkinçilik haqqında baxışlarının məntiqi nəticəsi ondan ibarətdir ki, o, sərvətin merkantilistlərdən fərqli olaraq tədavüldə deyil, fiziokratlar kimi əkinçilikdə və məhsuldar fəaliyyətlə yarandığını görə bilmişdir. Onu kəndlilərin vəziyyəti maraq-*

---

[1] Бах: Очерки истории Азербайджанской экономической мысли. Б., 1987, стр. 80

[1] Н.Туси «Əхлаги - Насири». Б., 1980 səh. 212



downloaded from KitabYurdu.org

*landırmış və o, onların güzəranını yaxşılaşdırmağa çalışmışdır. Beləliklə, N.Tusinin tədqiqatının çıxış nöqtəsini ictimai əmək bölgüsünün təşkil etməsi A.Smiti, kəndlilərin qayğısına qalınması və onların əməyinə yüksək qiymət verilməsi, sərvətin əkinçilikdə və əkinçi əməyilə yaradılması məsələsində Fransız mütəfəkkirləri P.Buagilberi və F.Keneni, onun bütün əmək növlərinin bərabərliyinin əsasında müəyyən miqdar iş vaxtının durması fikri isə D.Rikardonun və K.Marksın bu sahədəki baxışlarının çox (əsrlərlə) qabaqladığını göstərir.*

N.Tusi iqtisadiyyat anlayışını qədim yunanlar kimi təsərrüfatın idarə edilməsi qanunu, qaydası və norması kimi dərk etsə də, o, bunları ev və fərdi təsərrüfat səviyyəsindən bütünlükdə cəmiyyət, ölkə, xalq təsərrüfatı səviyyəsinə qaldırmağa və iqtisadiyyatı ölkəni idarə etmək qaydası kimi şərh etməyə çalışmışdır. O, cəmiyyətin milli gəliri (məcmu gəliri), dövlət büdcəsi, maliyyə və s. haqqında daha geniş biliklərə malik olmuşdur. N.Tusi milli gəlirə cəmiyyətin gəliri və ona cəmiyyətin müxtəlif sosial təbəqələrinin (siniflərinin) gəlirlərinin ümumi məbləği kimi baxmışdır. N.Tusiyə görə, məcmu gəlir maddi istehsal sferasında yaranır. Bu məsələdə də o, A.Smiti və K.Marksı qabaqlamış olur. O, məcmu gəlirlərin və maddi nemətlərin təkrar istehsalı və istifadəsi haqqında da orijinal fikirlər söyləmişdir. O göstərir ki, «Yenidən istehsal etmədən mal toplamaq və saxlamaq mümkün deyildir. Çünki xərc çəkmək zəruridir. Bunun üçün sərf edilən xərc gəlirdən az olmalıdır»[1]. Bu məsələdə orijinallıq ondan ibarət olmuşdur ki, o, yığıma təkrar istehsalın şərti kimi baxmışdır və yığım ilə istehlak arasındakı əlaqəni düzgün başa düşmüşdür. Onun fikrincə, yığımı artırmaq üçün istehlak xərclərini, xüsusilə də dövlət əyanlarının şəxsi istehlaklarının azaldılması zəruridir.

N.Tusi ölkəni idarə etməyə, cəmiyyətdə onun roluna böyük əhəmiyyət vermişdir. O, idarəetməni siyasət adlandırmışdı. N.Tusi idarəetmənin (siyasətin) cəmiyyətdə, ölkədə ədalə-

---

[1] N.Tusi «Əxlaqi-Nasiri». B., 1980 səh. 150
[2] N.Tusi «Əxlaqi-Nasiri». B., 1980 səh. 175



downloaded from KitabYurdu.org

tin, əhali arasında nizam-intizamın yaradılması, insanların bir-birinə kömək etmələrini, müxtəlif sənət və peşə sahələri arasında müvazinətın və tarazlığın, hərənin bir iş yerinə yetirməsini (əmək bölgüsünü) təmin etmək zərurətindən yarandığını göstərir. O qeyd edir ki, «hər kəsi öz yerində oturtmaq, hərənin öz payını verib, başqasının haqqına əl uzatmağa qoymamaq, ictimai əmək prosesində ona tapşırılan işi yerinə yetirməyə məcbur etmək üçün tədbirlər görmək zərurəti doğur. Bu tədbirləri «siyasət» adlandırmışdı».[2] N.Tusi siyasətə xalqın rifahını artıran mühüm amil kimi baxmış, ona görə də, o, diqqətini əsasən xalqa xidmət edən, onun mənafeyini ifadə edən ölkə siyasətinə yönəltmiş və bu cür siyasəti faydalı hesab etmişdir.

N.Tusinin sosial-iqtisadi baxışlar sistemində onun maliyyə və vergiqoyma haqqında baxışları xüsusi yer tutur. Onun maliyyə və vergi haqqında baxışlarının əsasında dövlətin sərvətinin xalqın sərvətinə əsaslanması (Konfutsi) fikri durur.

N.Tusinin maliyyə və vergi haqqındakı fikirlərilə tanışlıq onu göstərir ki, o, qədim Çinin və öz dövrünün maliyyə və vergi sistemlərinə yaxından bələd olmuş, onun bu sahədəki fikirləri xalqı var-yoxdan çıxaran və dövlət xəzinəsini hər vasitə ilə doldurulmasına deyil, əsasən xalqın sərvətini artıran və ölkənin iqtisadi inkişafını stimullaşdıran istiqamətə yönəlmişdir. *Onun maliyyə və vergi haqqındakı fikirləri ümumbəşəri və mütərəqqi xarakter daşıyır və müasir dövrün vergi sistemilə uyğunluq təşkil edir.* Bunu onun əməli (praktiki) təklifləri göstərir. Onun bu təklifləri vergi yükünün və əhalidən tutulan vergi rüsumlarının sayının azaldılmasına, əkinçi kəndlilərin, sənətkarların və tacirlərin vəziyyətinin yaxşılaşdırılmasına, dövlət xəzinəsinin gəlirlərinin ədalətli və səmərəli formalaşdırılmasına və xərclənməsinə, dövlət büdcəsinin gəlirlərinin onun xərclərindən çox olmasına yönəlmişdir. O, vergi subyektinə əkinçiləri, tacirləri, heyvandarları aid etmişdir. Alimləri və mülkiyyət varislərini vergi subyektinə daxil etməmişdir. Onun təkliflərinin əsasında vergi sisteminin mərkəzləşdirilməsi və mütərəqqi vergiqoyma sisteminin tətbiqi durur. O, fiskal aparatın yerlərdə vergi yığanları müşayiət edən si-



downloaded from KitabYurdu.org

lahlı dəstələrin və canişinlərin saxlanılması, yedizdirilməsi sisteminin ləğvini və bütün ölkə gəlirlərinin xəzinəyə daxil olmasını, bütün vəzifəli şəxsin öz məvacibini özünün xidmətinə uyğun olaraq xəzinədən almasını təklif etmişdir. N.Tusi vergi dərəcələrinin kəndli təsərrüfatının məhsuldarlıq və torpağın münbitlik dərəcəsindən, əkinçinin vergi ödəmə qabiliyyətindən, onun varından asılı olaraq müəyyən olunmasını təklif edir. Belə ki, varlı əkinçi məhsulunun onda biri qədər, kasıb isə iyirmidə biri qədər vergi, yəni «uşr» ödəməli olur. Əkin üçün əlverişli olmayan torpaq sahələrindən vergi tutulmur. Əgər əldə olunan məhsul ancaq əkinçini zəruri ərzaqla təmin edirsə və bu təminatdan artıq məhsul yoxdursa vergi tutulmur. N.Tusi tacirləri varlı təbəqəyə aid edir və onların əkinçilərə nisbətən çox, sənətkarlardan isə az vergi ödəməsini məqbul hesab edirdi.

Orta əsrlər iqtisadi fikrinin görkəmli zəkası ərəb mütəfəkkiri **İbn-Xəldun** (1339-1456) olmuşdur. O, ümumdünya ictimai-iqtisadi fikir tarixində özünəməxsus şərəfli yer tutur. Onun baxışları cəmiyyətin bütün sosial-iqtisadi hadisələrini əhatə etdiyindən onu sosioloq, filosof, iqtisadçı və tarixçi adlandırmışlar. Onun sosial-iqtisadi baxışları «Müqəddimə» adlı 3 cildlik əsərdə öz əksini tapmışdır. *İbn-Xəldunun öz dövründə söyləmiş olduğu bir çox fikirləri, iqtisadi hadisə və proseslərə yanaşma qaydası müasir ictimai elmlərdə qərarlaşmış əsas fikir və metodologiya ilə uyğunluq təşkil edir. O, öz dövründə ilk dəfə olaraq iqtisadi hadisə və proseslərə empirik, normativ və əxlaqi-dini normalardan deyil, dialektikcəsinə yanaşmış, onların mahiyyətini, səbəb və nəticə əlaqələrini öyrənmiş, cəmiyyətin inkişafının materialist təhlilini vermiş, onun əsasında istehsalı, birgə istehsal fəaliyyətini, ictimai əmək bölgüsünü və təsərrüfat formalarının inkişafını qoymuşdur. Bu isə onu göstərir ki, bir çox məsələlərdə İbn-Xəldun klassik məktəbi, iqtisad elminin yaradıcısı hesab olan A.Smiti, hadisə və proseslərə dialektik-materialistcəsinə yanaşma qaydasına görə isə marksist təlimini çox qabaqlamışdır. O, cəmiyyətin təkamül yolu ilə təbii-tarixi inkişafının qanunauyğunluqlarına diqqət yetirmişdir.*

İbn-Xəldunun «Müqəddimə» əsəri ilə tanışlıq onu göstərir ki, o, özündən əvvəl və öz dövründə yaşamış Şərq, Ərəb və Yu-



downloaded from KitabYurdu.org

nan mütəfəkkirlərinin əsərlərinə bələd olmuş, burada onların cəmiyyətin sosial-iqtisadi həyatı haqqındakı fikirlərini ümumiləşdirərək onlar haqqında özünün fikrini formalaşdırmışdır. İbn-Xəldunun cəmiyyət, onun inkişaf mərhələləri, ehtiyac (tələbat), əmək bölgüsü, əmək və onun istehsalda rolu, əmək-dəyər nəzəriyyəsi, istehlak dəyəri, ticarət fəaliyyəti, tələb-təklif və rəqabət, qiymət, pul, vergi yükü və dövlətin iqtisadi funksiyaları və s. haqqında baxışları olduqca orijinal olmuşdur. Onun tədqiqat üsulu da orijinallıq təşkil edir. Bu orijinallıq ondan ibarətdir ki, *o, təfəkkürün elmi abstraksiya, deduktiv və induktiv metodlarını iqtisadi hadisə və proseslərin tədqiqinə tətbiq edə bilmişdir. O, bu yolla iqtisadi hadisələrin mahiyyətini öyrənmişdir. Bu onun elmi xidməti sayılmalıdır.* Lakin, təəssüflə qeyd olunmalıdır ki, onun bu xidməti obyektiv və subyektiv səbəblərdən Qərb və marksist ədəbiyyatlarında uzun müddət lazımınca qiymətləndirilməmiş və sovet dövrünün marksist ədəbiyyatında elmi abstraksiya metodunun tətbiqi ilə hadisələrin mahiyyətinin öyrənilməsi klassik və marksist məktəblərinin və onların nümayəndələrinin elmi xidməti hesab edilmişdir.

İbn-Xəldun elmin vəzifəsini hadisələrin gözlə görünən təzahür formalarını deyil, onların mahiyyətini (əslini) və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini öyrənməkdə görür. O yazır: Elmdə araşdırılan məsələlərin əsli külli halında olan ümumidən xüsusi olan məsələləri çıxara bilməklə olur[1]. Başqa bir yerdə isə göstərir: «Təfəkkür olan varlıqları, hadisələri araşdırır, təcrid metodundan istifadə etmək üsulu ilə buradan əsas ümumiləşdirilmş anlayışlar çıxarır. Təcrid edilən bu surətlərin hər biri duyğu ilə bilinməyən şeylərdir… təfəkkür mücərrəd anlayışlar vasitəsi ilə gerçək hadisələri qavramaq və onların mahiyyətini üzə çıxarmaq»[2], «içində saxlanılanların mənasını incələmək, düşünmək, araşdırmaq, varlığın səbəb və əsasını diqqətlə anlamaq və hadisələrin yaranmasının və cərəyan etməsinin təbii vəziyyətini incələyib bilməkdən ibarətdir»[3].

---

[1] İbn-Xəldun «Müqəddimə», türkcə II cild, İstanbul, 1985, səh.443
[2] Yenə orada. III cild, səh. 102
[3] Yenə orada. I cild, səh. 5
[3] İbn Xəldun «Müqəddimə» I cild səh.362



downloaded from KitabYurdu.org

*İbn-Xəldun cəmiyyətin ictimai-iqtisadi hadisələrini tarixi konteksdən, yəni dövrün siyasi və ictimai-iqtisadi həyat şəraiti əsasından öyrənmişdir. O, cəmiyyətin inkişafına təbii tarixi proses kimi yanaşmışdır.* Tarix fəlsəfəsinin banisi olan İbn-Xəldun tarixi proseslərin əsasına «dini rəvayətləri» deyil, cəmiyyətin inkişafını qoymuşdur. İlk dəfə olaraq o, cəmiyyətin yaranmasını və keçdiyi tarixi inkişaf mərhələlərini iqtisadi səbəb və amillər əsasından, onu insanın yaşadığı və fəaliyyət göstərdiyi iqlim və təbii coğrafi mühitin təsiri altında baş verən bir proses kimi tədqiq edib öyrənmişdir. İbn-Xəldun insanların həyat tərzində olan fərqin yalnız onların yaşayış vasitələrini əldə etməsi üsulunun fərqli olmasından asılı olduğunu söyləmişdir.

O, ilk dəfə olaraq, iqlim və təbii şəraitlərin cəmiyyətlərin istehsal ölçüsünə və inkişaf səviyyəsinə təsir etdiyini qeyd etmişdir. İnsan ehtiyacının ödənilməsini iqtisadiyyatın əsas problemi hesab etmişdir. İctimai həyata İbn-Xəldun insanların birgə əmək, istehsal fəaliyyəti kimi baxmışdır və cəmiyyətin inkişafının hərəkətverici qüvvəsinin insanın iqtisadi (maddi) ehtiyacının olduğunu qeyd etmişdir. O, Aristotel və Şərq mütəfəkkirləri **Məhəmməd əl-Fərabi və Məhəmməd əl-Qəzalı** (1058-1111) kimi iqtisadi ehtiyac üzündən insanların cəmiyyət halında yaşamağa, birgə istehsal fəaliyyətinə və bir-birinə xidmət etməyə möhtac olması fikrini irəli sürmüşdür. İbn-Xəlduna görə, əmək bölgüsünü insanların ehtiyacı müəyyən edir: ehtiyacın dəyişməsilə əlaqədar olaraq cəmiyyətin iqtisadi və sosial quruluşu da dəyişmişdir və insanların ehtiyacı onların cəmiyyət halında birləşərək dövlət qurmalarına səbəb olmuşdur, «dövlət qurmaq sosial həyatın özündən doğan bir ehtiyac və insanlar üçün təbii bir zərurətdir».[3]

O, dövlətə canlı orqanizm kimi yanaşmışdır, onun insan kimi ömrünün olduğunu, yəni doğulub yarandığını, inkişaf etdiyini və qocalıb sıradan çıxdığını göstərir. O, bunu istehsalın səviyyəsi ilə əlaqələndirmişdi. İbn-Xəldun insanların ehtiyaclarını təmin etmək üçün müxtəlif əmək sahələrində çalışdığını göstərir. O, əmək bölgüsünün əhəmiyyətini sadə insanların qarşılıqlı yardımlaşması ilə məhdudlaşdırmamış, onun zəruri tələbat və



downloaded from KitabYurdu.org

ehtiyacdan daha çox miqdarda məhsul yaratdığını da qeyd etmişdir. İbn-Xəldun yazır: «Özününkünə və digərinə yetəcək miqdarda qida maddəsi istehsal edə bilmək üçün … bu maddələrin istehsalına yetəcək qədər insanları bir araya toplamaları gərəkdir. Bu toplanan insanlar bir-birinə yardım edərək saylarından qat-qat artıq insanları yedirtmək miqdarında qida maddələri istehsal edə bilərlər».[1] Bununla mütəfəkkir əmək bölgüsünün əmək məhsuldarlığını artırdığını və insanların ehtiyacının ödənilməsi və sosial ahəngin təmin edilməsi üçün zəruri olduğunu göstərmiş olur. İbn-Xəldun sivilizasiyaya keçidi məhsulun zəruri olandan artıq olması ilə əlaqələndirməklə o, sivilizasiyaya keçidin səbəbini əmək bölgüsündə görmüş olur. Bütün bu deyilənlər isə onu göstərir ki, İbn-Xəldun əmək bölgüsü haqqındakı fikirlərilə də A.Smiti dörd yüz il qabaqlamışdır.

*İbn-Xəldunun xidmətlərindən biri də ondan ibarətdir ki, o, ilk dəfə olaraq tarixin dövrləşməsini vermişdir.* O, cəmiyyətin onun öz dövrünə (XIV) qədər keçdiyi təbii-tarixi inkişaf prosesini araşdırmış və cəmiyyəti öz inkişafında üç mərhələdən: köçərilik, oturaq həyat və mədəniyyət (şəhər) mərhələlərindən keçdiyini göstərmişdir. İbn-Xəldun köçəriliyi insan cəmiyyətinin ilk ictimai forması saymış və bütün insanların köçərilik həyatı keçirdiyini söyləmişdir. O yazır: «Köçərilik mədəni və şəhər həyatının əslidir və bütün oturaq həyat yaşamasından öncə yaşadıqları və keçirdikləri bir dövrdür».[2]

İbn-Xəldun cəmiyyətlərin köçərilikdən oturaq həyata keçmələri ilə istehsal üsulunda baş verən dəyişiklikləri və iqtisadi inkişafın tərəqqisini elmi əsaslarla göstərə bilmişdir. O, köçərilikdən oturaq həyata keçidi, şəhərlərin yaranmasını, mədəniyyətlərin strukturunu və tarix boyunca inkişafını, istehsalın ölçüsü və miqyası, yeni istehsal alətlərinin yaranması, onun sənət və sənətkarlığın yüksək dərəcədə təkmilləşməsi ilə əlaqələndirmişdir.

---

[1] İbn-Xəldun «Müqəddimə». II cild, səh. 101
[2] İbn-Xəldun «Müqəddimə». I cild, səh. 307-308



downloaded from KitabYurdu.org

*İqtisadi fikir tarixində dəyərin əməklə müəyyən olunması müddəasını ilk dəfə İbn-Xəldun irəli sürmüşdür.* O, hər cür gəlir və sərvətin əsasını əməkdə görmüş, əməyi istehsalın əsas amili saymış, sərvətin və dəyərin maddi istehsalda yarandığını göstərmişdir. İnsanların nail olduğu və faydalandığı nə varsa hamısının əməyin dəyərinə bərabər olduğunu söyləmişdir. O yazır: «Hər qazanc və mal qüvvət və əmək sərf etməklə əldə edilir… Əmək sərf etmədən bir şey əldə edilməz və faydalanmaq imkanı hasil olmaz… İnsanların çalışaraq və əmək sərf edərək əldə etdikləri və topladıqları mal əkinçilikdə və sənətkarlıqda çalışmaq vasitəsilə əldə edilirsə, bu qazancların və topladıqları mal və paranın iş və əməyin qiymətindən ibarət olduğu meydana çıxır... Əldə edilən qazanc iş və əməyin qiyməti sayılır».[1]

İbn-Xəldun təkcə dəyəri deyil, həm də istehlak dəyərini və mübadilə bərabərliyini (ekvivalentliyini) əməklə müəyyən etmişdir. O, istehlak dəyərinə faydalılıq və insan tələbatını ödəmək qabiliyyəti mövqeyindən yanaşmışdır. Onun fikrincə, mübadilədə bərabərlik nisbəti kimi yalnız əmək sərfi götürülə bilər.

İbn-Xəldunun bütün istehlak dəyərlərinin insan əməyilə yaradılması fikri iqtisadi fikrin inkişafında irəliyə atılan mühüm addım, dəyər nəzəriyyəsi isə qədim və öz dövrünün bütün mütəfəkkirlərini qabaqlaması kimi qiymətləndirilir.[2] *Lakin İbn-Xəldun dəyər nəzəriyyəsilə təkcə qədim və öz dövrünün mütəfəkkirlərini geridə qoymamışdır, o, həm də klassik məktəbin nümayəndələri – U.Pettini, A.Smiti, D.Rikardonu və başqalarını da qabaqlamışdır və əslində əmək-dəyər nəzəriyyəsinin banisi elə İbn-Xəldunun özüdür. İbn-Xəldun dəyərin əməklə yaranması fikrini empirik yanaşma və dini-etik normalarla deyil, nəzəri təfəkkür və elmi təhlil, yəni səbəb-nəticəni öyrənmək, təcrid etmə (elmi abstraksiya) üsulu ilə əsaslandırmışdır.*

İbn-Xəldun ticarəti də əkinçilik və sənətkarlıqla yanaşı, yaşayış vasitələrinin və gəlirin əldə edilməsinin təbii üsulu hesab et-

---

[1] İbn-Xəldun «Müqəddimə». I cild, səh. 322

[2] Bax: Всемирная история экономической мысли. I том. М., 1987, стр. 315



downloaded from KitabYurdu.org

mişdir. O, həyat vasitələri əldə etməyin birinci təbii üsulunu əkinçiliyi, ikinci təbii üsulunu isə sənətkarlığı hesab etmişdir. İbn-Xəldun mübadilənin və ticarətin əmək bölgüsündən əmələ gəldiyini və onunla paralel surətdə inkişaf etdiyini, insanların əldə etdikləri məhsulları ticarət vasitəsilə bir-birlərinə verdiklərini, ticarətin insanların ehtiyaclarının təmin olunmasını asanlaşdırdığını göstərmişdir. O, əmək bölgüsünün səviyyəsinin bazarların genişliyi ilə bağlı olduğunu qeyd etmişdir. Ticarətdə gəlirin və qazancın əmtəələri ucuz alıb baha satmaq yolu ilə əldə edildiyini göstərməsinə baxmayaraq, o, ticarəti təbii fəaliyyət növü hesab etmiş, onun şəriət qanunlarına zidd olmadığını göstərir. İbn-Xəldun göstərir ki, ticarətdə insanlar mənfəətə ya əmtəələri satın alıb toplayaraq onların qiymətlərinin qalxdığı vaxt satmaq yolu ilə, ya da həmin əmtəələri onlara tələbatın artıq olduğu digər ölkələrə aparıb satmaqla nail olurlar.

*İbn-Xəldun ticarət azadlığını müdafiə etmişdir. Əgər A.Smit iqtisadiyyata dövlət müdaxiləsinin, dövlət inhisarçılığının əleyhinə və azad rəqabət və ticarət azadlığının leyhinə XVIII əsrdə olmuşsa, bunu İbn-Xəldun XIV əsrdə etmişdir.* O, dövlətin ticarətlə məşğul olmasına qarşı çıxır, dövlətin və dövlət adamlarının ticarətlə məşğul olmasını iqtisadiyyata müdaxilə kimi qiymətləndirir və onun inhisarçılığa yol açdığını qeyd edir. İbn-Xəldun dövlətin və dövlət adamlarının ticarət fəaliyyətilə məşğul olmasını həm dövlət və həm də cəmiyyət üçün zərərli hesab edir. O göstərir ki, bu halda cəmiyyətin sosial ahəngi pozulur, azad rəqabət mübarizəsi sönür və dövlət adamlarının əxlaqının pozulmasına səbəb olur. Çünki mal alımında kimsə dövlətlə rəqabət apara bilmir, satışda isə dövlət çox miqdarda malı bazarda satdığından və istədiyi qiyməti alıcılara diqtə etmə gücünə malik olduğundan bazar qayda və qanunları, iqtisadi tarazlığın təbii düzəni pozulur.

İbn-Xəldun bazarda qiymətlərin dəyişməsinin tələb və təklifdən asılı olduğunu göstərmişdir. O göstərir ki, əgər bazarda mal və əşyalar azdırsa, onda qiymət onların əməyinin dəyərindən yüksək olacaqdır. İbn-Xəldun pulun meydana gəlməsinə mübadilənin və ticarətin inkişafının zəruri nəticəsi kimi baxmışdır. O, pu-



downloaded from KitabYurdu.org

lun əmək məhsulu olduğunu və onun gəlirlərin, yığımların və xəzinənin mənbəyi olduğunu, dəyər ölçüsü və mübadilə vasitəsi funksiyasını yerinə yetirdiyini göstərmiş və ölkədə tam dəyərli (qızıl və gümüş) pulların mübadiləsinə tərəfdar olmuşdur. İbn-Xəldun sadə əmtəə təsərrüfatı hökmranlıq etdiyi dövrdə yaşadığından sadə əmtəə təsərrüfatı şəraitində muzdlu əməkdən istifadə edilmədiyindən, dəyərlə qiymətin üst-üstə düşdüyündən, o, dəyərlə qiymət arasında fərq qoymamışdır. O, əmtəənin dəyərinə həmçinin keçmiş əməyin dəyərini: xammal-materialın, əmək alətinin dəyərini, aralıq məhsulları istehsal edən istehsalçıların əməyinin dəyərini də daxil etmişdir.

İbn-Xəldun bəzi adamların əmək sərf etmədən qazanc və böyük sərvət sahibi olduğunu da qeyd etmişdir. Bu cür qazanc və sərvət əldə etməni qeyri-təbii adlandırmış və onun şəriyyət qanunlarına zidd olduğunu göstərir. Əmək sərf etmədən qazanc və sərvət əldə edənlərə əyanları, dövlət adamlarını, qulluqçuları, rütbə sahiblərini və din xadimlərini aid etmişdir. O, bu adamların öz ehtiyaclarını başqalarının qazancı hesabına, onları istismar etməklə ödədiklərini göstərmişdir. İbn-Xəldun dərəcə və rütbə sahiblərinin iş və xidmətlərini yerinə yetirən adamların əməyinin xeyli hissəsinin ödənilmədiyini və çox hallarda yuxarı təbəqələrə xidmət edən adamlar bu işlərin əvəzi ödənilmədən yerinə yetirdiklərini qeyd edir. O yazır: «Bunların iş və əməklərinin qiyməti rütbə sahibinin qazancı sayılır, adətən para ilə çalışacaqlari işləri parasız olaraq görürlər. Bu surətdə bu iş və əməklərin qiyməti olan paralar rütbə sahibinin əlində toplanır. Rütbə sahibi isə əldə etdiyi bu paraların bir qismini ehtiyacları üçün sərf edir, qalan qismini ehtiyat üçün toplayır, nəticədə şərəf və rütbə sahibi az vaxtda böyük sərvət sahibinə çevrilir».[1] İbn-Xəldun ən çox sərvət və qazancı alçaqlıq və yaltaqlıq göstərənlərin əldə etdiklərini, kamil, bilikli və yetkin alimlər aylıq maaşla keçindiklərini, çox halda heç bir sərvətə sahib olmadıqlarını qeyd etmişdir.

İbn-Xəldun iqtisadiyyatın ümumi tənəzzülünə və ictimai həyatın durğunluğuna səbəb olan vergi siyasətinə qarşı çıxış et-

---

[1] İbn-Xəldun «Müqəddimə». II cild, səh. 341



downloaded from KitabYurdu.org

mişdir. O, vergi yükünün artırılmasını, yeni vergi və rüsum növlərinin tətbiqini iqtisadiyyata dövlətin müdaxiləsi kimi qiymətləndirmişdir. İbn-Xəldun vergi yükünü artırmaqla vergi gəlirlərinin artmayacağını, əksinə azalmasını söyləyir. *İbn-Xəldunun fikrinə görə, vergi yükü artdıqca, dolayısı ilə istehsal azalır, istehsalın azalması da vergi bazasının və nəticədə dövlətin gəlirlərinin aşağı düşməsinə səbəb olur. Bu fikri ilə İbn-Xəldun təklif nəzəriyyəsinin (XX əsrin 70-ci illəri) banisi A.Lafferi qabaqlamış olur.* İbn-Xəldun göstərir ki, vergi yükü artdıqca, vətəndaşların çalışma və qazanmaq arzuları azalır, bazarlar kasıblaşır, qiymətlər yüksəlir, çalışmaq marağı və təşəbbüs cəhdi yox olur. Bütün bunların nəticəsində isə iqtisadi fəaliyyət zəifləyir və istehsalın səviyyəsi aşağı düşür, son nəticədə cəmiyyət və dövlət iflasa uğrayır. O, yazırdı: «İnsanların mallarını zülm yolu ilə əllərindən almaq, onların mal və sərvət qazanmaq sahəsindəki əməl və ümidlərini qırar. Çünki mal və qazancları əllərindən alınan bu adamlar mallarının zorla əllərindən alındığını bildikləri üçün, para qazanmaq və sərvət əldə etmək üçün çalışmağı buraxarlar… Əhali qazancla təmin olunmadığından, çalışmaqdan çəkinər. Nəticədə əmin-amanlıq pozular, bazarlarda durğunluq başlayar, iqtisadiyyatın durumu alt-üst olar. Əhali dolanmaq üçün zülmətlərə məruz qaldığı ölkədən qazanc əldə etmək məqsədilə digər ölkələrə axışar. Bunun nəticəsində o ölkənin nüfuzu azalar, yurd boşalar, şəhərlər və bölgələr xarabazara çevrilər. Beləliklə, də cəmiyyətin tənəzzülü ilə birlikdə dövlət və hakimiyyət də tənəzzülə uğrayar, çünki onlar da ictimai həyatın formaları olmaq etibarı ilə özləri üçün zəruri olan materiyanın məhvi ilə məhvə uğrayar».[1]

Bütün bunları nəzərə alaraq İbn-Xəldun vergi yükünün azaldılmasını məqsədəuyğun sayır. O, yazır ki, bir dövlətdə təbəəyə yüklənilən vergilərin miqdarı az olarsa, təbəə çalışar, pul və sərvət qazanmağa həvəs və rəqabət edər, yurd abadlaşar. Vergilər azaldıqca istehsal artar, mal və pul qazanmağın yolları artar»[2].

Beləliklə, İbn-Xəldunun fikrincə, vergi yükü azalarsa, istehsal artır, nəticədə dövlətin gəliri çoxalır.

---

[1] İbn-Xəldun «Müqəddimə». II cild, səh. 76-77
[2] İbn-Xəldun «Müqəddimə». II cild, səh. 59-61



downloaded from KitabYurdu.org

### *§2. Orta əsrlərdə Qərbi Avropanın iqtisadi biliyi. Merkantilist nəzəriyyə və metodologiya*

Orta əsr dövrlərinin iqtisadi ideya və baxışları Şərqdə olduğu kimi Qərbdə də dini örtükdə olmuş və bizə də elə o formada gəlib çatmışdı. Orta əsr cəmiyyətinin mənəvi və iqtisadi həyatı din xadimlərinin və dini qurumların təsiri altında formalaşmışdı və bu təsir o qədər güclü olmuşdur ki, cəmiyyətin iqtisadi həyatına aid olan bütün mülahizələrə, bir qayda olaraq, dini-əxlaqi forma verilmişdi və təsərrüfat fəaliyyətinin qaydaları dini etik prinsiplərə əsaslanmışdı. Bu dövrdə iqtisadi həyat müstəqil tədqiqat obyekti kimi formalaş-mamışdı. Lakin bütün bunlar o demək deyildir ki, orta əsrlərdə Qərbi Avropada iqtisadi həyatı əks etdirən sırf ideya və baxışlar olmamışdı.

Orta əsrlərdə Qərbi Avropanın ictimai fikrində kononist iqtisadi nəzəriyyələr mühüm yer tutmuşdu və iqtisad elminin tarixinin şərhini verən bəzi iqtisadçılar iqtisad elminin ilkin tarixini kononistlərdən başlamağı məqsədəuyğun hesab edirlər; onları XIII əsrin bazar təhlilinin pionerləri adlandırırlar və kononist nəzəriyyənin sonrakı klassik iqtisad elminə mühüm təsir etdiyini qeyd edirlər. Hətta sanballı "İqtisadi təhlilin tarixi" (1954-cü il) əsərinin müəllifi olan görkəmli Amerikan iqtisadçısı Y.Şumpeter A.Smitin "Xalqlar sərvəti" əsərinin də öz əsaslarını fiziokratlardan və XVIII əsr Britaniya fitredçilərindən deyil, məhz kononistlərdən və təbii hüquq filosoflarından götürdüyünü göstərir. İqtisad elminin tarixi və metodologiyası ilə intensiv məşğul olan digər görkəmli Amerikan iqtisadçısı M.Blauq da A.Smitin kononistlərin baxışlarını inkar etdiyini göstərsə də, kononist nəzəriyyənin A.Smitə XVII əsr təbii hüquq fəlsəfəçilərindən gəldiyinə də şübhə etməmişdi. Fiziokratların əsərlərinin də kononist əlamətlərdən xali olmadığı da göstərilir və F.Kenenin özünü də çox vaxtı XVIII əsrin **F.Akvinski**si kimi səsləndirmişlər. İqtisadi ədəbiyyatda K.Marksın da əmək-dəyər nəzəriyyəsi ideyasını kononist "ədalətli qiymət" nəzəriyyəsindən götürməsi haqqında fikir də mövcuddur.



downloaded from KitabYurdu.org

Kononist nəzəriyyə kilsə hüququnu təfsir edən kilsə hüquqşünasları tərəfindən yaradıldığından onlar iqtisadi fəaliyyətə hüquqi cəhətdən yanaşmışlar. Onlar həmişə iqtisadi məsələlərə sazişin (alverin, alqı-satqının) həyata keçirilməsində istifadə olunan sazişlərin tipləri mövqeyindən yanaşmışlar. Onlar bazar davranışını əxlaq problemi kimi təsvir etmişlər.

Kononistlər iqtisadi məsələləri çox vaxtı Aristotelin baxışlarına münasibət bildirməklə və onun mövqeyini əsas götürməklə şərh etmişlər. Lakin sosial imtiyazlar iddiasında olan kilsənin özünün xüsusi motivləri həlledici əhəmiyyət kəsb etmişdi.

Kononistlərin ilkin banisi **Avqustin Blacenin** (353-430), sonrakı inkişaf mərhələsinin ən nüfuzlu siması **Foma Akvinski** (Akvinat - 1225-1274) olmuşdu.

Kononistlərin baxışlarında: 1) qiymətin əsas mənbəyi kimi faydalılıq, 2) "ədalətli qiymət" ideyası, 3) pul kapitalının qeyri-məhsuldarlığı haqqında fikir xüsusi yer tutmuşdu. Bu fikirlər onların elmi nailiyyəti hesab olunur. Onlar dəyər konsepsiyasını "faydalılıq üstəgəl nadirlik" ilə ifadə olunmuş formula ilə inkişaf etdirmişlər. Onların dəyər konsepsiyası faydalılığa əsaslanmışdır. Kononistlər ilk əvvəllər dəyəri bilavasitə istehlakın ödənilməsilə, son variantda isə nadirliklə əlaqələndirmişlər. F.Akvinski bütün nemətlərin dəyərinin yalnız nisbətən insan tələbatlarının ödənilməsi ilə ölçülməsi fikrini söyləmişdir. Lakin onun "ekvivalentlik" haqqında fikri kononistlərin, əvvəlki fikri inkar edən əmək-dəyər nəzəriyyəsinə tərəfdar olması haqqında da rəy yaratmışdı. Çünki F.Akvinski "ədalətli qiyməti" mübadilənin ekvivalentliyi və "ekvivalentliliyin" özünü isə məsrəf, əsasən də əmək məsrəfi kimi başa düşülməsi niyyətində olmuşdu.

Kononistlərin "ədalətli qiymət" ideyası rəqabətdən asılı olmayan adi qiymətdir. Onlar qiymətlərin qoyulmasına və tənzimlənməsinə şübhə etməmişlər və bunun kübar cəmiyyətin ədəb və adətlərinə uyğun olduğunu göstərirlər. Onların "ədalətli qiymət" haqqında baxışları birmənalı olmamışdı və olduqca ziddiyyətli olmuşdu.

F.Akvinskinin "ədalətli qiymət" haqqında fikiri ilkin məktəbin nümayəndəsinin fikrindən tamamilə fərqli olmuşdu. İlkin



downloaded from KitabYurdu.org

məktəbin nümayəndəsi Avqustin "ədalətli qiymət" altında istehsal xərclərinə bərabər olan qiyməti başa düşmüşdü. İlkin məktəb "mütənasib tarazlığı gözləmə cəmiyyəti tənəzzülə aparması" fikrini söyləmişdi.

F.Akvinski isə "ədalətli qiyməti" cari bazar qiyməti ilə eyniləşdirmişdir. Onun fikrincə, "ədalətli qiymət", təkcə istehsal xərclərini ödəməməlidir, həm də kübar dairələrə mənsub olan adamların yaşamasını da təmin etməlidir. Bununla o, silki mənafeləri müdafiə edir, mübadiləni qazanca bərabər olan xalis subyektiv akt və şeyləri, onların qiymətindən baha satmağı kübar hakimiyyətinin hüququ hesab edir. Beləliklə, qiymətqoyma prosesini istehsalçıların ictimai statusu ilə müəyyən edir və bu prosesin mübadilə iştirakçılarının ictimai statusundan asılı etmiş olur.

F.Akvinskinin "təbii" və "bazar" qiymətləri arasında əsaslı fərq olduğu haqqında da fikiri olmuşdu. O, "ədalətli qiymətin" Allah tərəfindən müəyyən edilməsi haqqında fikir formalaşdırmışdı. O öyrədirdi ki, Allah qanunu belə deyir: əgər predmet (əşya) "birinin xeyrinə və digərinin ziyanına hərəkət edirsə", onda "bu halda qaydaya görə predmeti öz dəyərindən baha satmaq mümkün olacaq". Bununla yanaşı o (predmet) ümumiyyətlə "sahibinə neçəyə başa gəldiyindən baha satılmayacaq", çünki artırılma satıcı həmin predmetdən məhrum olmaqla özünə vurduğu ziyanı kompensasiya edir.

Kononistlər ticarət mənfəətinin və faizin mənimsənilməsinə "ədalətli qiymətə" görə mübadilənin pozulması kimi baxmışlar. Ona görə də, onlar mənfəət əldə etmək məqsədilə olan iri ticarətin və sələmçiliyin qadağan olunması fikrində olmuşlar. F.Akvinskinin mühakimələrində əmtəə istehsalı ikinci dərəcəli yer tutmuş, o, pulun dəyər ölçüsü və tədavül vasitəsi kimi zəruriliyini qəbul etmişdi. Faizi isə "faydasız metalın" törəməsi kimi izah etmişdi. Kononistlər borc pula faizin bütün müxtəlif növlərini "sələmçilik" kimi şərh etmişlər. F.Akvinski qeyd edir ki, pul pul törədə bilmir, onun qazanc əldə etmək üçün istifadə edilməsi mümkün deyil.

Kononistlər əmək, mülkiyyət və renta haqqında da müəyyən mülahizələr söyləmişlər. Əməyi müsbət qiymətləndirərək



downloaded from KitabYurdu.org

onu həyat üçün zəruri hesab edirlər və onun mərhəmət verdiyini qeyd edirlər. İlkin kononistlər əməyi fiziki və əqli əməyə ayırmayıb, onları bərabər qiymətləndirib və cəmiyyətin ictimai statusuna təsir etmədiyini dedikləri halda, F.Akvinski isə fiziki və əqli əmək arasında fərq qoyub, insanların ictimai statusunun onunla müəyyən edildiyini güman edibdir. O, əvvəlki dini təlimlərdə olan bərabərlik ideyasına həmrəylik göstərməmiş və sosial bərabərliyə cəhd göstərməyi çox ciddi mühakimə etmişdir və cəmiyyəti iyerarxiya və silk kimi təsvir etmişdi. O, quldarlığı faydalı hesab edir, onun kökünü insanların təbii fərqində və onların günahında görür.

F.Akvinski bütün əşyaların təbiətən eyni və onların Allaha məxsus olduğunu və insanın onlardan ancaq istifadə edə bilməsini qeyd etməklə yanaşı, xüsusi mülkiyyəti ümumi xeyir və şəxsi mənafe xatirinə zəruri sayır. O qeyd edir ki, zəruri ehtiyaclar çərçivəsində mülkiyyət təbiidir, çünki o, insanı öz işlərinin yaxşı qayğısına qalmağa, insanlarla dinc münasibət qurmağa məcbur edir. Renta kononistlər tərəfindən torpaq mülkiyyətçisi öz tabeliyində olanları idarə etdiyinə görə onun əməyinin haqqı kimi şərh olunmuşdu.

*İqtisadi nəzəriyyənin ilkin tarixi merkantilizmdir.* Merkantilizmə qədər iqtisadi nəzəriyyə müstəqil tədqiqat sahəsi olmamış, iqtisadi tədqiqatlar sistemsiz şəkildə aparılmış, hətta iqtisadi fəaliyyətin özü belə müstəqil fəaliyyət sahəsi kimi qəbul edilməmişdi. *Merkantilizm iqtisadi fəaliyyəti, iqtisadi hadisə, prosesləri və qanunauyğunluqları ilk sistemli öyrənən nəzəri praktiki sistem olmuşdu.*

Kapitalist iqtisadiyyatının və bazar münasibətlərinin mahiyyətini və təzahür formalarını ilk dəfə öyrənən merkantilistlər olmuşdu. Merkantilizm (italyanca merkante sözü olub, mənaca tacir deməkdir) kapitalist iqtisadiyyatının ilk nəzəri işlənilməsidir, bazar iqtisadiyyatının "ticarət sistemi" kimi öyrənilməsidir. Merkantilizm bazar iqtisadiyyatının konseptual əsasını təşkil edir və bazar təsərrüfatlı iqtisadi sistemin iqtisadi siyasəti və nəzəriyyəsi öz başlanğıcını ondan götürür. Sonrakı iqtisadi siyasət



downloaded from KitabYurdu.org

və nəzəriyyə sistemləri isə merkantilizmin tənqidi əsasında yaranmışdı.

Merkantilizm XV-XVIII əsrlərdə Qərbi Avropa ölkələrində iqtisadi siyasətin və iqtisadi fikrin əsas cərəyanı olmuşdu. Bunu həmin dövrlərdə Qərbi Avropa ölkələrinin iqtisadi inkişafında baş vermiş sosial iqtisadi dəyişikliklərlə: böyük coğrafi kəşflər, ilkin kapital yığımı prosesi, əmtəə-pul münasibətlərinin inkişafı, milli bankların yaranması, dünya bazarının yaranması və beynəlxalq ticarətin genişlənməsi və s. əlaqələndirmək lazımdır.

Merkantilist ideyalar və prinsiplər müasir bazar təsərrüfatlı sistemlərdə indinin özündə də istifadə edilir. Bunlara ümumi əlamətləri merkantilistlər tərəfindən işlənib hazırlanmış mübadilə konsepsiyanı, proteksionist tədbirləri, aktiv ticarət balansını və s. bu cür tədbirləri aid etmək olar.

Merkantilizmin əsas ideyaları və prinsipləri aşağıdakılardan ibarət olmuşdu: qiymətli metalların və onların yığımı sərvətin mahiyyətini əks etdirməsi; dövlətin sərvətinin və gücünün qızıl və gümüş yığımı yolu ilə artırılması; ölkəyə qızıl və gümüş axınının təmin olunması məqsədilə xarici ticarətin tənzim edilməsi; ucuz xammalın idxalı yolu ilə sənayenin inkişafına kömək etmək; idxal olunan sənaye məhsullarına proteksionist tariflərin qoyulması; ixracın, xüsusən hazır məhsulun ixracının həvəsləndirilməsi; əmək haqqının aşağı səviyyəsini saxlamaq üçün əhalinin artırılması və s. Öz dövrü üçün bu ideyalar iqtisad elminin ciddi nailiyyəti idi. Merkantilist ideyalar və prinsiplər o dövrün iqtisadi inkişafının əsl qanunauyğunluqlarını və tələbatını əks etdirmişdi.

"Siyasi iqtisad" terminin özünün də meydana gəlməsi merkantilizmlə bağlıdır. Bu termin ilk dəfə fransız merkantilisti A.Monkretyen tərəfindən işlədilmişdi. O, 1615-ci ildə "Siyasi iqtisadın traktatı" adı altında kitab nəşr etdirmişdi.

Göstərildiyi kimi, merkantilizm həm iqtisadi siyasət və həm də iqtisadi nəzəriyyələr sistemi olmuşdur. Merkantilist iqtisadi siyasəti - ölkədə və dövlət xəzinəsində qiymətli metalların,



downloaded from KitabYurdu.org

yəni pulun hər vasitə ilə toplanmasından; nəzəriyyəsi isə iqtisadi qanunauyğunluqları tədavül sahəsində, xüsusən xarici ticarətdə və pul dövriyyəsində axtarılmasından ibarətdir. Merkantilist siyasətin yeganə məqsədi dövlətin sərvətini və qüdrətini artırmaqdan və bunun yollarını "ticarət sistemində" axtarmaqdan ibarət olmuşdu.Merkantilizmin ideyaları ticarət və pul kapitalı nümayəndələrinin (tacirlərin və sələmçilərin) mənafeyini müdafiə edirdi. Merkantilistlər millətin sərvətini mahiyyət etibarı ilə ticarət kapitalının mənafeyi baxımından nəzərdən keçirmişlər. Qeyd edək ki, kapitalın tarixən ilkin forması ticarət kapitalı olmuşdur. Sənaye kapitalı tədricən bu formadan meydana gəlmişdi. Ticarət kapitalının qanunu-satmaq üçün satın almaqdır.

Merkantilizmin məğzini və məqsədini ölkəyə pulun, yəni qiymətli metalın cəlb edilməsi təşkil edir. Hər cür sahibkarlığın başlanğıcını, çıxış nöqtəsini pul təşkil edir. Bu pul da sahibkarlar onun vasitəsilə fəhlə tutduqda, emal üçün və ya yenidən satmaq üçün əmtəə satın aldıqda pul kapitalına çevrilir. Bu fakt merkantilizmin əsasında durur.

Merkantilistlər əsas diqqətlərini tədavül sferasına verirmişlər. Onlar istehsala sadəcə olaraq sərvəti artırmaq üçün bir vasitə kimi baxmışlar. Onların təlimində istehsal xarici ticarətin məqsədinə tabe etdirmişdir. İstehsal pulun xaricə axmaması işinə xidmət etməli olmuşdur. Onlar əsasən sərvətin mübadilə dəyəri formasına diqqət vermişlər. Sərvəti pul ilə eyniləşdirmişlər, onu qızıl və gümüş yığımı kimi təsəvvür etmişlər və çox pulu olan dövləti daha varlı saymışlar. Sərvətin mənbəyini tədavül sferasında, əsasən xarici ticarətdə görmüşlər. Qeyri-ekvivalent mübadiləni əsas götürüb, ucuz alıb baha satmağı sərvətin mənbəyi hesab etmişlər. Ona görə də onlar iqtisadi siyasətlərini həyata keçirmək üçün dövlət müdafiəsinə möhtac olmuşlar. Merkantilist müdrikliyinin yüksək zirvəsi-xaricdən satın alındığından daha çox xaricə satmaq olmuşdu.

Merkantilistlər yalnız qızıl və gümüş hasilatı üzrə əməyi və ya ölkəyə qiymətli metalların axınını təmin edən (sənayenin ixrac sahələrindəki, xarici ticarətdəki) əməyi məhsuldar əmək hesab



downloaded from KitabYurdu.org

etmişlər. Onlar göstərirlər ki, qızıl və gümüş hasilatına sərf olunan əmək və həmçinin ixrac sahələrindəki əmək, digər sahələrdə tətbiq olunan əməkdən çox mənfəət gətirir.

Merkantilizm öz tarixi inkişafında iki mərhələ keçmişdir. İlkin merkantilizmin (XV-XVI əsrlərdə) əsas nümayəndələri **U.Stafford** (İngiltərə) və **Q.Skaruffi** (İtaliya) olmuşdur. İnkişaf etmiş merkantilizmin (XVII-XVIII əsrlərdə) başlıca nümayəndələri **T.Man** (İngiltərə), **A.Serra** (İtaliya) və **A.Monkretyen** (Fransa) olmuşdur.

Merkantilizmin bu iki mərhələsi bir-birindən pulun az xərclənməsi və onu çoxaltmaq üçün təklif etdikləri üsul və tədbirlərlə fərqlənir. İlkin merkantilizm qanunvericilik yolu ilə milli miqyasda pul sərvətinin artırılmasına yönəldilmiş monetar siyasət yerinə yetirmişdir. Onların fikrincə, sərvət pula sahib olmaqdır. Fərd kimi, dövlət də əgər sərvətini artırmaq istəyirsə əldə etdiyindən az xərcləməlidir. Onlar bu artıqlığı qiymətli pulun (metalın) və yaxud yığımın əldə olunması ilə eyniləşdirmişlər.

İlkin merkantilistlər öz "pul balansı" nəzəriyyələri ilə pula əslində dəfinə kimi yanaşıb hər bir alqının, onun miqdarını azaltdığını göstərib, imkan daxilində xaricdən alqıdan imtina etməyə çalışırdılar. Ölkədə nağd pulun (qızıl və gümüş) daha çox toplanması məqsədi ilə onların xaricə ixrac olunmasını qadağan etmişlər. Onlar idxalı məhdudlaşdırmışlar, qızıl və gümüş hasilatını gücləndirmişlər, gətirilən mallara yüksək gömrük rüsumu qoymuşdular. Əcnəbilərin ölkədən ancaq yerli məhsullar aparmasına icazə vermişlər. Onlar bu tədbirləri çox vaxtı iqtisadi yollarla yox, inzibati vasitələrlə həyata keçirmişlər. Belə ki, xarici ölkələrə gedən ingilis tacirləri yalnız müəyyən sahələrlə alver etməli və ingilis hökumətinin xüsusi nümayəndələrinin nəzarəti altında olmalı idilər. Bunda məqsəd o idi ki, satılan ingilis malları müqabilində əldə edilən pulun bir hissəsi İngiltərəyə gətirilsin.

İngiltərəyə gələn əcnəbi tacirlərə də xaricə pul aparmasın deyə nəzarət qoyulurdu. Hər bir əcnəbi tacir öz pulunu ingilis xəzinəsində ingilis pullarına dəyişməli və bütün pullarını xərclə-



downloaded from KitabYurdu.org

məli, yəni ingilis malı almalı idi. Bütün bu tədbirlər isə getdikcə xarici ticarətin inkişafına mane olurdu.

Ona görə də son merkantilistlər ağırlıq mərkəzini pul tədavülü sferasından əmtəə mübadiləsi sferasına keçirirlər. Onlar xaricə pul ixracının qadağan edilməsindən, xarici malların idxalının məhdudlaşdırılmasından imtina edirlər və öz diqqətlərini milli, hər şeydən əvvəl, sənaye məhsullarının ixracının sürətlənməsinə, bazarların, o cümlədən müstəmləkələrin alınmasına yönəltmişlər.

İnkişaf etmiş merkantilizm "aktiv ticarət balansı" sistemini müdafiə edir. Bu mərhələdə merkantilistlər pula həqiqi kapitalist kimi yanaşır, onlar başa düşürlər ki, pulun yeni pul yaratması üçün o hərəkətə gətirilməlidir. Onlar xarici ticarəti inkişaf etdirməyi tələb edirlər. Yetkin merkantilistlərin nəzəriyyəsinin əsasında milli rifahın vacib şərti kimi aktiv ticarət balansı nəzəriyyəsi durmuşdu.

İnkişaf etmiş merkantilizm ixracatın nisbətən artıq olması vasitəsi ilə ölkəyə pul toplamağı və aktiv ticarət balansını təmin etməyi əsas götürür. Aktiv ticarət balansını təmin etmək üçün merkantilizmin mühüm tələbi- himayəçilik siyasəti, dövlətin təsərrüfat həyatına bilavasitə qarışması siyasəti olmuşdu.

Müxtəlif ölkələrdə merkantilizmin özünəməxsus xüsusiyyətləri olmuşdur. Ən inkişaf etmişi və tipiki ingilis merkantilizmi olmuşdu. İngiltərədə merkantilizm iki əsr (XVII əsrin II yarısında - XIX əsrin II yarısına kimi) rəsmi dövlət siyasəti olmuşdur. Bu, İngiltərədə iqtisadi inkişafın sürətli olması və ingilis burjuaziyasının yetkinliyi ilə izah olunur. Yetkin ingilis merkantilizminin ideyaları **Tomas Man** (1571-1641-ci illər) tərəfindən yaradılmışdı. Man 1615-ci ildə ilk dəfə olaraq Şərq-hind kompaniyasının direktorları şurasına seçilir. O, ticarət strategi olmuşdur. Yetkin ingilis merkantilizminin əsas prinsipləri: xammal (xüsusən yun) ixracı qadağan edilməsi və hazır məmulat ixracı olmuşdur. Xarici ölkənin sənaye mallarının İngiltərəyə daxil olması yüksək gömrük haqqı ilə məhdudlaşdırılmışdır ki, bu da ölkə manufakturalarının inkişafına kömək edirdi. Həyata keçi-



downloaded from KitabYurdu.org

rilən tədbirlərin mühüm məqsədi qiymətli metalların ölkəyə axınının artırılması idi. Donanmaya böyük diqqət yetirilirdi, çünki o dünyanın bütün yerlərinə yük daşımalı və ingilis ticarətini müdafiə etməli idi.

T.Man xarici ölkə mallarının alınması üçün ölkədən qiymətli metalların ixracını qadağan edən tədbirlərə qarşı inadlı mübarizə aparmışdı. O, sübut edir ki, hind mallarını satın almaq üçün ixrac edilən gümüş heç də itirilmir, əksinə böyük artımla İngiltərəyə qayıdır. Bu malların xeyli hissəsi Avropanın digər ölkələrinə yenidən gümüş və qızıla satılır. O yazırdı ki, sonradan məhsul almaq üçün kəndliyə taxılı torpağa səpmək lazım olduğu kimi, tacirə də pulu aparıb xarici ölkə mallarını satın almaq lazımdır ki, sonradan daha çox öz malını satsın və əlavə pul məbləği şəklində millətə xeyir versin.

T.Man başa düşürdü ki, ölkəyə qiymətli metalların axını daxili qiyməti yüksəldir və "ucuz almaq, baha satmaq" nəzəriyyəsi ölkənin özünün əleyhinə çevrilir. O, pul yığımını "ölü yükə" bənzədir və pulu artırmaq üçün onun hərəkətə gətirilməsini tələb edir.

Fransız merkantilizminin iqtisadi ideyaları **Antuan Monkretyenin** (1575-1621), "Siyasi iqtisadın traktatı" əsərində verilmişdir. Monkretyen hesab edir ki, "insanların xoşbəxtliyi sərvətdədir, sərvət isə əməkdədir", bolluq (israfçılıq) yalnız yerli məhsulların istehlakı, onun istehsalçılarının işi olduğu və "mənfəətin ölkə daxilində qaldığı" halda qanunidir. Əcnəbiləri Fransadan sərvəti çıxaran nasosla müqayisə edir. O, onların qovulmasını, sənayenin inkişafını və onun məhsulunun təkmilləşdirilməsini təklif edir və iqtisadi həyata dövlətin müdaxilə etməsinin, vergilərin alınmasının və ticarət mənfəətinin tərəfdarı olmuşdur.

Monkretyen xarici ticarəti genişləndirməyə kömək etməyi təklif etməmişdir. Onun əsərlərində monotarizmin izləri qalsa da, o merkantilizmin əksinə olaraq "təbii sərvətə" (taxıla, duza, çaxıra və s.) birinci dərəcəli əhəmiyyət verir. O hesab edir ki, dövləti qızılın və gümüşün miqdarı yox, "həyat və geyim üçün lazım olan predmetlərin olması" varlı edir.



downloaded from KitabYurdu.org

Merkantilizmi təcrübədə həyata keçirən Fransada XIV Lüdovikin maliyyə naziri **Kolber** (1619-1683) olmuşdu. O, dövlət gəlirlərini aktiv ticarət balansı vasitəsi ilə artırmağa çalışmışdı. Kolberin merkantil siyasətinin əsas və ən səciyyəvi cəhəti ölkədə manufaktura inkişafına himayədarlıq idi. Bu siyasət bir sıra himayəçi - qoruyucu xarakterli tədbirlər vasitəsi ilə həyata keçirilirdi. Fransız əmtəələrinin xaricə ixracını şirnikləndirməklə yanaşı, hazır əcnəbi malların idxalı azaldılırdı. Bu məqsədlə idxalat gömrükləri sistemi tətbiq edilmişdir. Xarici manufakturaların mallarına yüksək gömrük rüsumu qoyulurdu. Kolber, dövlət büdcəsindən manufakturalara mükafat və müstəqil yardım etmək üçün bir milyon livrə pul ayırmışdı. Digər tərəfdən, Fransada kənd təsərrüfatı xammalı və məhsulları ixracına icazə verilmirdi, bununla da ölkədə manufakturalar üçün əlverişli şərait yaratmağa çalışılırdı. İstər daxili, istərsə də xarici ticarəti inkişaf etdirmək üçün nəqliyyat vasitələri də inkişaf etdirilirdi. Bütün bu tədbirlərdə məqsəd xarici ixracatı artırmaq, idxalı məhdudlaşdırmaqla aktiv ticarət balansı siyasətini həyata keçirmək idi.

*Merkantilistlərin bütün əsərlərinin ana xəttini ixracın idxaldan üstünlüyünün iqtisadi rifahın göstəriciisi olması fikri təşkil etmişdi.* Onlar ticarət balansının aktiv saldosunu millətin sərvətinin yeganə göstəricisi hesab etmişlər, onu ölkənin xarici ticarətdən əldə etdiyi yeganə qazanc adlandırmışlar. Merkantilistlər ticarət balansının aktiv saldosu haqqında danışdıqda, ya ölkəyə qızılın cəlb olunmasını, ya da xarici ölkələrə kreditin verilməsini, daha doğrusu kapital ixracını tələb etmişlər.



downloaded from KitabYurdu.org

## II BÖLMƏ

## KLASSİK İQTİSAD ELMİ VƏ ONUN METODOLOGİYASI

## I HİSSƏ. KLASSİK İQTİSAD ELMİ VƏ METODOLOGİYANIN YARANMASI

### III FƏSİL. KLASSİK İQTİSAD ELMİNİN YARANMASI. U.PETTİNİN VƏ P.BUAGİLBERİN NƏZƏRİYYƏSİ VƏ METODOLOGİYASI

İqtisadi fikir tarixində klassik siyasi iqtisad adlanan (bu adı sonradan K.Marks vermişdir) istiqamət XVII əsrin axırı və XVIII əsrin əvvəllərində iqtisadi cəhətdən inkişaf etmiş Qərbi Avropa ölkələrində kapitalist istehsalının manufaktura mərhələsində yaranmışdır. Burada İngiltərə öncül olmuşdur. Bu istiqamətin yaranmasının sosial-iqtisadi ilkin şərtləri cəmiyyətin ictimai-iqtisadi strukturunda baş verən dərin keyfiyyət dəyişiklikləri ilə əlaqədar olmuşdur. Bu dövrdə feodalizmin dağılması başa çatır və liberal bazar sistemli kapitalist iqtisadiyyatı təşəkkül tapır, **ticarət mənfəəti kapitala çevrilmiş** və o daha çox istehsala, xüsusilə də sənaye istehsalına yönəlmişdir. Bu proseslər iqtisadi düşüncədə də mühüm dəyişikliklər etmişdir. Bu dövrdən merkantilist düşüncələrdən klassik iqtisadi düşüncəyə keçid başlamışdır.

Klassik siyasi iqtisad məktəbinin nümayəndələri dövrün ictimai tələbatına uyğun olan merkantilizmin iqtisadi prinsiplərinə və nəzəriyyələrinə əks və alternativ olan iqtisadi prinsiplər və ideyalar irəli sürmüşlər. Onlar protoksionizmdən imtina etmişlər, əvəzində laisser faire – təbii azadlıq siyasətini, liberal prinsiplər və ideyalar: azad ticarət, azad iqtisadiyyat, azad xüsusi sahibkarlıq, iqtisadiyyata dövlətin minimal qarışması, tələb və təklifdən asılı olaraq əmələ gələn azad qiymətlərə əsasən bazar tənzimlənməsi və s. irəli sürmüşlər. *Onlar tədqiqatın obyektini tə-*



downloaded from KitabYurdu.org

*davül sferasından istehsal sferasına keçirmişlər, əsasən istehsal sferasının problemlərini tədavül sferasından ayrılıqda öyrənmişlər. Siyasi iqtisad məhz klassik məktəbin sayəsində liberal iqtisadiyyatın problemlərini öyrənən həqiqi elmi sistemə çevrilmişdir.*

Klassik elmi sistem iqtisad elminin metodologiyasında da mühüm dəyişiklik etmişdir. Klassik iqtisad elminin nümayəndələri o dövrdə elmin ən yeni metodoloji nailiyyətlərini iqtisadi tədqiqata və təhlilə tətbiq etməklə həqiqətən əsaslı nəzəri tədqiqatlar aparmışlar. Onlar merkantilistlərin empirizminə, onların təsvirçiliyinə və iqtisadi hadisələrin təzahür formalarının öyrənilməsinə qarşı təhlilin kauzallıq (səbəb-nəticə), elmi abstraksiya, deduktiv və induktiv metodlarını qoyaraq mahiyyəti, onu müəyyən edən qanunları öyrənmişlər.

Klassik siyasi iqtisad öz inkişafında bir neçə mərhələdən keçmişdir. Bunu 3 mərhələyə bölmək olar. I mərhələ – klassik nəzəriyyənin təşəkkülü və formalaşması XVII əsrin sonu və XVIII əsrin ortalarını və ikinci yarısının əvvəlini əhatə edir. Bu dövrü merkantilizmdən klassik nəzəriyyəyə keçid və onun əsaslarının yaradılması dövrü də adlandırmaq olar. Bu dövr U.Pettinin «Vergilər və rüsumlar haqqında traktat» (1662) əsərinin nəşr olunması ilə A.Smitin **«Xalqlar sərvəti»** (1776) əsərinin nəşri arasındakı dövrü əhatə edir. Klassik nəzəriyyənin I mərhələsinin nümayəndələri İngiltərədə **U.Petti** (1623-1689) və Fransada **P.Buagilber** (1646-1714), əsas cərəyanı isə klassik nəzəriyyənin xüsusi cərəyanı olan **fiziokratizm** olmuşdur. Bunların nəzəriyyələri merkantilizm ilə klassik məktəbin bütöv iqtisadi baxışlar sistemi arasında körpü olmuşdur. Onlar proteksionist sistemi kəskin tənqid etmişlər və milli sərvətin yaradılmasında liberal prinsiplərin üstün əhəmiyyət kəsb etdiyini göstərmişlər.

II mərhələni – klassik nəzəriyyələrin inkişafı və başa çatması kimi xarakterizə etmək olar. Bu mərhələdə klassik iqtisadi nəzəriyyə bütöv iqtisadi baxışlar sistemi kimi mövcud olmuşdur. Bu mərhələ XVIII əsrin axırlarını və XIX əsrin əvvəllərini əhatə edir. Bu mərhələnin görkəmli simaları **A.Smit** (1723-1790) və **D.Rikardo** (1772-1823) olmuşdur. İqtisadi nəzəriyyə A.Smitin



downloaded from KitabYurdu.org

sayəsində klassik nəzəriyyə adını almışdır. O, klassik nəzəriyyənin təməl prinsipi olan iqtisadi liberalizmin əsaslarını yaratmışdır.

Klassik nəzəriyyənin III mərhələsi – klassik nəzəriyyənin tənqidi, onun bütöv iqtisadi baxışlar sisteminin dağılması və təkamülü kimi xarakterizə olunur. Bu mərhələ XIX əsrin I yarısının ortalarından XIX əsrin axırına qədər olan dövrü əhatə edir. Bu mərhələdə klassik iqtisadi nəzəriyyənin əsas müddəalarının bir qismi təkamülə uğrayıb daha da inkişaf etdirilibsə, müəyyən qismi isə tənqid və inkar olunmuşdur.

Klassik iqtisadi nəzəriyyənin təlimində əsası olan əmək - dəyər nəzəriyyəsi **K.Marks** (1818-1883) tərəfindən (həmçinin S.Sismondi) inkişaf etdirilib başa çatdırıldığı halda, klassik nəzəriyyənin məğzini təşkil edən iqtisadi liberalizm isə onlar tərəfindən qəbul edilməmiş və tənqid olunmuşdur. Klassik adlandırılan digər nəzəri iqtisadçılar: **J.B.Sey** (1767-1832), **T.Maltus** (1766-1834), **H.Senyor**, **C.S.Mill** (1886-1873) və b. isə əksinə, klassik nəzəriyyənin iqtisadi liberalizminə tərəfdar çıxmışlar, onu daha da inkişaf etdirib başa çatdırdıqları halda, onlar (C.S.Mill istisna olmaqla) əmək-dəyər nəzəriyyəsindən imtina etməklə, dəyərin məsrəf prinsipi ilə müəyyən edərək əmək-dəyər nəzəriyyəsinin əvəzinə istehsal amilləri nəzəriyyəsini yaratmışlar və dəyərin faydalılıq nəzəriyyəsinə (J.B.Sey) tərəfdar olmuşlar. T.Maltus isə istehsal xərcləri nəzəriyyəsini yaratmışdır.

İngiltərədə klassik siyasi iqtisadın yaradıcısı olan U.Pettinin siyasi-iqtisadi baxışları öz əksini onun tərəfindən yazılmış «Vergilər və rüsumlar haqqında traktat» (1662), «Siyasi hesab» (1646), «İrlandiyanın siyasi anatomiyası» (1672), «Pul haqqında müxtəlif mülahizələr» (1682) əsərlərində tapmışdır. Sonuncu əsəri F.Engels siyasi iqtisadın şah əsəri adlandırmışdır. U.Petti latın, yunan, fransız dillərini və riyaziyyat, həndəsə, astronomiya, təbabət elmlərini dərindən öyrənmişdir. O, fizika doktoru dərəcəsini, anatomiya və incəsənət professoru rütbəsini almışdır. Petti xırda sənətkar ailəsində anadan olmuş, sonralar çoxlu sərvət toplayıb və çox varlı bir torpaq sahibi olmuşdu. Petti, özü torpaq sahibkarı olmasına baxmayaraq o, torpaq aris-



downloaded from KitabYurdu.org

tokratiyasının deyil, daha çox sənaye sahibkarlığının ideoloqu olmuş və əsərlərində onun iqtisadi və siyasi mənafelərini müdafiə etmişdir. Petti millətin sərvətinin artırılmasında iqtisadi fəaliyyətin liberal prinsiplərinin birinci əhəmiyyət kəsb etdiyini söyləmişdir. Ona görə də o, merkantilistlərin proteksionist ideyalarını qəbul etməmişdir. Petti merkantilistlərdən fərqli olaraq millətin sərvətinin yalnız puldan – qiymətli metal və daşlardan ibarət olduğunu düşünməmiş, həmçinin torpaqların, evlərin, gəmilərin, əmtəələrin, heyvanların olduğunu göstərmişdir. O, hətta əhalini sərvət adlandırmışdır. *Maltusdan fərqli olaraq Petti əhalinin artımına nikbin baxmış və əhali artımının ölkənin sərvətini artırdığını görə bilmişdir.* Ona görə də o, öz iqtisadi nəzəriyyəsini əhalinin sayı və tərkibi haqqında məsələdən başlamışdır. O, ölkənin əhalisini iki hissəyə bölür: maddi şeylər və yaxud cəmiyyət üçün həqiqətən faydalı və yararlı olan nemətlər istehsal edən şəxslərə və bunları istehsal etməyənlərə. İkinci qrupa aid olanların, həmçinin tacirlərin də sayının azaldılmasını məqsədəuyğun saymışdır. O, ticarətin və ticarət kapitalının milli sərvətin yaradılmasında iştirakını inkar etmiş və sərvətin yalnız istehsalda yarandığını iddia etmişdir. Bütün varlığı ilə varlılara və tüfeylilərə nifrət etmişdir. Ölkənin sərvətini artırmaq üçün o hesab edir ki, insanların həbs cəzasını pul cəzası (cərimə) ilə əvəz etmək lazımdır, imkanı olmayanları «qula» çevirmək, onları işləməyə məcbur etmək lazımdır. Petti maddi sərvət yaradan əməyi məhsuldar əmək adlandırmışdır.

U.Pettinin özü merkantilist məktəbinin nümayəndəsi olmasına baxmayaraq, onun düşüncələri onu klassik iqtisad elminin banisi olmasına şərait yaratmışdır və ona A.Smitin, D.Rikardonun və K.Marksın sələfi kimi qiymət vermişlər. Onun dəyər, renta, əmək bölgüsü və pul haqqında fikirləri elmi klassik nəzəriyyənin əsaslarını qoymuşdur.

*U.Petti iqtisad elminin tədqiqat predmetini dəyişmiş, iqtisadi təhlilə və tədqiqata yeni metodlar tətbiq etmişdir.* O, merkantilistlərdən fərqli olaraq, istehsal sferasını tədqiq etmiş və iqtisadi hadisələri istehsal nöqteyi-nəzərdən qiymətləndirmişdir.



downloaded from KitabYurdu.org

Onu təkrarlanan, qanunauyğun proseslər maraqlandırmışdır. O, iqtisadi hadisənin təzahür formasının mahiyyətdən fərqləndiyini duya bilmiş, mahiyyətin öyrənilməsini zəruri saymış və özü də onu öyrənməyə çalışmışdır. O yazır ki, biz faiz adlanan pul rentasının, istərsə də torpaq və ev rentasının «sirli təbiətini» aydınlaşdırmağa çalışmalıyıq[1].

U.Petti iqtisad elminə elmi abstraksiya və statist-iqtisad tədqiqat metodunu gətirmişdir. O, ilk növbədə, hadisələrin mahiyyətini öyrənmişdi və təbiətşünaslıq elmlərinin tədqiqat üsulunu iqtisad elminə tətbiq etmişdir. Petti iqtisadi qanunauyğunluqları təbiət qanunları ilə müqayisə etmiş və onları təbii qanunlar adlandırmışdır. Beləliklə, o, cəmiyyət haqqında elm olan iqtisad elmində yeni yollar açmışdır. Pettinin bu xidmətlərini K.Marks olduqca yüksək qiymətləndirmiş və onu «siyasi iqtisadın atası və müəyyən mənada statistikanın ixtiraçısı»[2], «dahi və orijinal iqtisadçı-tədqiqatçıya»[3] bənzətmişdir.

İqtisadi baxışlar sistemində dəyər nəzəriyyəsi mühüm yer tutur və hər bir iqtisadçının və məktəbin elmi nailiyyəti bilavasitə onun dəyər nəzəriyyəsi ilə əlaqədardır. Pettinin elmi nailiyyətlərindən biri onun dəyər nəzəriyyəsi olmuşdur. Bəzi iqtisadçılar, məsələn, Mak-Kullox U.Pettini klassik məktəbin təliminin əsasında duran əmək-dəyər nəzəriyyəsinin banisi adlandırmışdır. K.Marks yazır ki, Petti əslində əmtəələrin dəyərini bunlardakı əməyin müqayisəli miqdarı ilə müəyyən edir. Marks həm də göstərir ki, izafi dəyərin müəyyən edilməsi məhz dəyərin müəyyən edilməsindən asılıdır[4]. Y.Şumpeter isə iddia edir ki, Pettidə əmək-dəyər nəzəriyyəsi (və ümumiyyətlə dəyər anlayışı) yoxdur, az-çox nəzərə çarpan əmək haqqı nəzəriyyəsi yoxdur, deməli, izafi dəyərin başa düşülməsinin heç əlaməti də ola bilməz.

---

[1] У.Петти Экономические статистические работы. М., Соцэкгиз., 1940, стр.33

[2] К.Маркс Капитал. Ы жилд, 1964, сəh.275

[3] Ф.Енкелс Анти-Дүринг. 1967, с.235

[4] K.Marks İzafi dəyər nəzəriyyələri. Azərnəşr, 1967, səh.365



downloaded from KitabYurdu.org

Özünün şöhrəti ilə o, yalnız Marksın Pettini iqtisad elminin banisi elan edən dekretinə borcludur»[1].

Petti dəyəri məsrəf prinsipi ilə əməklə müəyyən etmişdir. O, əmtəələrin dəyərini təhlil etdikdə «təbii», «süni» və «siyasi» qiyməti bir-birindən fərqləndirmişdir. «Süni» və «siyasi» qiymətlərin əsasında «təbii» qiymət durur. O, «təbii» qiymət altında dəyəri-əmək məsrəfini, «süni» qiymət adı altında isə tələb və təkliflə müəyyən olunan əmtənin bazar qiymətini başa düşmüşdür.

Petti «təbii» qiyməti əmtəənin istehsalına sərf olunan əməklə, onun kəmiyyətini iş vaxtı ilə ölçür və belə bir nəticəyə gəlir ki, əmtəənin dəyəri gümüş istehsalına sərf edilən əməyin miqdarı ilə düz mütənasibdir. O yazır: «Əgər bir kəs bir buşel taxıl istehsal edə biləcəyi eyni vaxt ərzində Peru torpağından bir unsiya gümüş çıxarıb onu Londona gətirə bilərsə, onda burada gümüş taxılın təbii qiymətini təşkil edəcəkdir».[1] Petti əmtəənin bazar qiymətinə əmək məsrəfi ilə yanaşı, həm də əvəzedici malların, təzə malların, modaların, təqlidin, istehlak ənənələrinin, istehlakçılar arasında rəqabətin də təsir etdiyini qeyd etmişdir. «Siyasi» qiymət isə «təbii» qiymətlə yanaşı, siyasi amillərin (inqilab, müharibə və s.) təsirini özündə əks etdirir.

Beləliklə, Petti dəyərin mənbəyinin əmək olduğunu göstərməklə, iqtisad elminin oxu olan dəyər nəzəriyyəsini, mahiyyət etibarilə dəyər qanununu formula etmiş olmuşdur. Lakin bütün bunlara baxmayaraq, o, merkantilist baxışlardan da tam azad ola bilməmişdir və bəzən öz baxışlarında tam ardıcıl olmamışdır. Belə ki, o, sərvətin yaradılmasında əməklə yanaşı torpağın da iştirak etdiyini göstərmişdir. O, iddia edir ki, «Əmək sərvətin atası və fəal əsası, torpaq isə anasıdır». Petti həmçinin dəyər ilə mübadilə dəyərini bir-birindən fərqləndirməmiş, qiymətli metalların çıxarılmasına sərf olunan əməyə dəyəri bilavasitə yaradan xüsusi əmək kimi baxmışdır. O, qiymətli metallara mübadilə dəyəri, qalan bütün əmtəələrə isə istehlak dəyəri kimi baxmışdır. Onun fikrincə, qızıl və gümüş istehsalına sərf olunan əmək

---

[1] C.Scbumpeter History of Economic Analysis. №4, 1954,p. 210

[1] У.Петти Экономические и статистические работы. М., 1940, с. 40



downloaded from KitabYurdu.org

mübadilə dəyərini, yerdə qalan əmtəələr istehsalına çəkilən əmək istehlak dəyərini yaradır. Petti hesab edir ki, yalnız pul dəyərə malikdir və pulun dəyəri qiymətli metalların istehsalına sərf olunan əməklə müəyyən olunur və bütün əmtəələrin dəyəri qiymətli metallara sərf olunan əməklə tutuşdurulmaqla ölçülə bilər. Beləliklə, Petti dəyərin bilavasitə mənbəyini yalnız bir müəyyən növ konkret əmək, əsasən də qızıl və gümüş istehsal edən əmək olduğunu göstərmişdir. Bununla da o, dəyəri dolayı yolla pulda maddiləşmiş əməklə ölçmüş, qiymətli metallar istehsalına sərf olunan konkret əməyi ümumi əmək kimi vermiş və əmtəənin dəyərini pul vasitəsi ilə müəyyən etməklə, dəyəri qiymətlə eyniləşdirmiş, pula dəyərin həqiqi forması kimi baxmış və mübadilə dəyərini yalnız pulda görmüşdür.

Petti pulu (qızıl və gümüşü) əmtəə hesab etmiş və sərvətin pul formasında çıxış etdiyini göstərmişdir. O, pulu ən ümumi ekvivalent funksiyanı yerinə yetirən xüsusi əmtəə və iqtisadi inkişafın stimulu kimi izah etmişdir. Petti pul haqqında nəzəriyyə (M=K · P · Y) formulunu yaratmışdır. O göstərir ki, ticarət fəaliyyətini həyata keçirmək üçün müəyyən miqdarda və nisbətdə pul gərəkdir; bundan az və çoxu ticarət fəaliyyətinə zərər verir. Petti tədavül üçün lazım olan pulun miqdarını realizə olunan əmtəələrin kəmiyyəti, onların qiymətləri və pul dövriyyəsinin sürəti ilə müəyyən etmişdir. Pul dövriyyəsinin sürətinə böyük əhəmiyyət vermişdir. O, həm də merkantilist təmayüllü olduğundan pul təklifinin artırılmasının ölkənin rifah səviyyəsini artırmasına da inanırdı.

*Petti «maddi faiz nəzəriyyəsini» yaratmışdır.* O, faiz dərəcəsinin tədavüldəki pulun miqdarı ilə müəyyən olunduğunu göstərmiş və faiz dərəcəsinin məhdudlaşdırılmasına qarşı olmuşdur. Onun fikrincə, faiz dərəcəsinə müdaxilə təbii qanunlara ziddir. O göstərir ki, faiz istehsalın artımına mənfi yöndə təsir etməməlidir.

Petti müasir milli hesablar sistemində və iqtisadiyyatda mühüm rol oynayan milli sərvət və milli gəlir göstəricilərini hesablamışdır. Ciddi nöqsanların olmasına baxmayaraq, o, İngiltə-



downloaded from KitabYurdu.org

rənin milli sərvətinin hesabını aparmışdır. Maraqlı cəhət ondan ibarətdir ki, o, əhalinin maddi dəyərini pulla qiymətləndirmiş və onu milli gəlirə aid edilməsini təklif etmişdir. Petti hər bir insanın maddi dəyərlərini müəyyən faydada qiymətləndirməyin üsulunu axtarmışdır.

Onun fikrinə görə, əhalisi çox olan millət az olandan da zəngindir və iqtisadi inkişafı müəyyən edən dinamik amil kapital qoyuluşundan çox əhali artımıdır. İngiltərənin ilk milli gəlir hesabını da Petti aparmışdır və buna görə də o, iqtisadi nəzəriyyədə milli gəlirin təhlilinin öncüsü sayılır. O, milli gəliri əhalinin istehlak xərclərinin cəmi kimi hesablamışdır. Burada onun nöqsanı yığımı və kapital qoyuluşlarını ona daxil etməməsi olmuşdur.

Pettinin təlimində əmək haqqı və renta nəzəriyyələri xüsusi yer tutmuşdur. O, əmək haqqını və rentanı özünün dəyər nəzəriyyəsi əsasından şərh etmişdir.

Petti əmək haqqına əməyin dəyəri, daha doğrusu, əməyin təbii qiyməti kimi baxmış, onun kəmiyyətini zəruri yaşayış vasitələrinin dəyərinə bərabər tutmuşdur. O, hesab edir ki, işçi yaşamaq, əməklə məşğul olmaq və nəsil artırmaq üçün tələb olunandan artıq almamalıdır. Əmək haqqının qanunvericilik qaydasında tənzim olunmasına tərəfdar olmuşdur. Onun fikrincə, «Qanun… fəhləni ən zəruri yaşayış vasitələri ilə təmin etməlidir: əgər fəhləyə lazım olduğundan iki dəfə çox haqq verilərsə, o, işləyə biləcəyi və əmək haqqının ikiqat artmasına qədər faktiki olaraq işlədiyinin yarısı qədər işlər, bu isə cəmiyyət üçün müvafiq əmək məhsulunu itirmək deməkdir».[1]

Onun əmək haqqı nəzəriyyəsindən belə bir nəticə çıxır ki, işçinin əməyi ilə yaradılan dəyər, onun əmək haqqından daha böyük kəmiyyətdir. İşçi yaratdığı məhsulun bir hissəsini alır və yerdə qalan hissə izafi məhsulu təşkil edir. Onun təlimində izafi məhsul torpaq rentası və faiz formasında çıxış etmişdir. Petti faizi pul rentası adlandırmışdır və onun torpaq rentası ilə eyniləşdirmişdir. O, hesab edir ki, hər bir pul sahibi torpaq alıb,

---

[1] У.Петти Экономические и статические работы. М., 1940, с. 70-71



downloaded from KitabYurdu.org

renta alana çevrilə bilər. O, əkinçilik məhsulunun dəyərindən istehsal xərclərini (əmək haqqını və toxumun dəyərini) çıxdıqdan sonra artıq qalan hissəsini renta adlandırmışdır. Ona torpağın hədiyyəsi kimi yox, əməyin məhsulu kimi baxmışdır. Bu əmək məhsulu, yəni renta əmək ilə birlikdə istifadə olunan bir torpağın məhsulu ilə əməyin iştirakı olmadan torpaq məhsulu arasındakı fərq kimi hesablanmışdır. Torpağın məhsulu isə torpağın heç bir əməkdən istifadə olunmadan özbaşına istehsal etdiyi məhsuludur.

Petti hesab edir ki, taxıl istehsalı ilə məşğul olan şəxsin istehsal etdiyi məhsulun bir hissəsi özünün ehtiyacının ödənilməsinə gedərək, yerdə qalan taxıl isə təbii və əsl torpaq rentasını təşkil edir. Beləliklə, o, məhsulu və onun dəyərini üç hissəyə bölür:

1) toxumların yerinin doldurulmasına gedən hissə;

2) işçinin və onun ailəsinin təmin edilməsi üçün olan hissə;

3) artıq qalan və ya xalis məhsul. Bu məhsulu Petti renta, sonralar isə Marks izafi dəyər adlandırmışdır.

Petti bu rentanın torpaq sahələrinin münbitliyinin, onların bazara yaxın və uzaqda yerləşməsi ilə əlaqədar olaraq artıb və azaldığını göstərir. İstehlak mərkəzlərinə yaxın olan torpaqların rentası çox olur. Bu fərqi Petti diferensial renta adlandırmışdır.

Petti torpağın qiymətini müəyyən etməyə cəhd göstərmişdir. O, torpağın qiymətini kapitallaşmış renta hesab edir və onu torpağın müəyyən illərdə gətirdiyi rentanın məbləğinə bərabər tutmuşdur. Petti torpağın qiymətini müəyyən edərkən müəyyən dövrün rentasını götürmüşdür. O, bu dövrü üç nəslin (baba, ata, oğul) birgə yaşamasının adı müddəti sayılan 21 ili götürür və torpağın (müəyyən sahənin) qiymətini 21 illik rentanın məcmusuna bərabər edir.

Petti zəhmətkeşlərin gəlirlərindən vergi tutulmasının tərəfdarı olmuşdur. O, sərvəti əhalinin vergi vermə qabiliyyətini üzə çıxarmaq mövqeyindən təhlil etmişdir. Dövlətin sərvətini Petti üç yerə bölmüşdür: 1) vətəndaşların sərvətinə; 2) vətəndaşların dövlətə, idarəetmə və s. işlər üçün verdikləri sərvət payına; 3) bu



downloaded from KitabYurdu.org

payı kralı, onun sarayının saxlanılmasına gedən hissəsinə. Burada əhalinin sərvəti birinci dərəcəli rol oynayır və onun əsas kimi inkişaf etdirilməsi vacib sayılır. Onun tədqiqatının məqsədi İngilterədə vergiqoymanı və gömrük rüsumlarını qaydaya salmaq olmuşdur. O, «Vergilər və rüsumlar haqqında traktat»da hökumətə vergi gəlirlərini necə artırmağın mümkünlüyünü göstərmişdir. O, verginin hər bir adamdan alınmasını və vergilərin yığım fəaliyyətinin və ölkənin sərvətinin artırılmasına vasitə olmasını göstərmişdir. Onun fikrincə, vergilər həm torpaqdan, həm kapital tədavülündən və həm də hər hansı bir malı olmayan insanlardan eyni dərəcədə alınmalıdır. O, hesab edir ki, yeni bir ölkə üçün dövlət gəlirlərinin təmin olunmasında xüsusilə torpaq vergisi daha yaxşıdır. Bu, həm vergi toplanmasına, həm də torpağın qiymətinin azalmasına səbəb olacaqdır. Pettiyə görə, vergilər sabit dərəcədə və gəlir yayımına təsir etməyən həcmdə olmalıdır. Pettiyə görə, «…sadəcə torpaq sahibi deyil, məhz bu torpaqda yetişən soğanı və ortaya çıxan yumurtanı yeyən hər kəs vergi ödəyir». Pettinin vergi sistemi insanların nə qazandıqlarına görə deyil, məhz nə xərclədiklərinə, yəni istehlak xərclərinə görə vergiqoymanı səhmanlayan sistemdir. Bu sistemdə vergi yükü icaradar ilə istehlakçının üzərinə düşür.

Pettinin vergi siyasəti daxili istehsalın inkişafına və sərmayələrdən istehsalda istifadə olunmasına yönəlmişdir. Onun vergiqoyma prinsipləri, daha doğrusu, istehsalda aktiv rol oynayan torpaq sahiblərindən alınan vergilər sənətkarların və işləyən adamların axtarışını artırır; istehlak mallarından alınan vergilər yığımı artırır, israfın qarşısını alır və ölkədə sərmayə qoyuluşunun artmasına şərait yaradır. Petti hökmdarlara xalqdan aldığı vergiləri, qızıl və gümüşü xəzinədə toplamamağı, onları ticarət və istehsalı artıran sahələrə yönəltməyi məsləhət görür. Belə ki, vergilərlə əldə olunan pullar tədavüldən çıxarılırsa və istehsalı artıran sahələrə yönəldilmirsə, istehsalı artırmaq mümkün olmur və dolayısı ilə ölkə yoxsullaşır.

Xarici ticarət məsələsi ilə lap az məşğul olmasına baxmayaraq, Petti merkantilistlərdən fərqli olaraq ixracatın artırılması



downloaded from KitabYurdu.org

ilə istehsalın həcminin və sərvətin artacağını anlatmağa çalışmışdır. A.Smitin təliminin çıxış nöqtəsini təşkil edən əmək bölgüsünün səmərəliliyi haqqında fikir də öz başlanğıcını Pettidən götürmüşdür. Əmək bölgüsünün əmək məhsuldarlığını artırmasını Petti saatların hazırlanması timsalında göstərmişdir. O, xüsusi kapital mülkiyyətini müqəddəs və toxunulmaz saymışdır.

Fransada klassik iqtisad elminin yaradıcısı **Pyer Buagilber** (1646-1714) olmuşdur. O, öz konsepsiyasını demək olar ki, Petti ilə eyni bir zamanda bir-birlərindən xəbərsiz olmadan yaratmışdır. O, hüquq təhsilinə malik olmuşdur. Onun siyasi və iqtisadi baxışları «XIV Lüdoviqin krallığı dövründə Fransa haqqında təfsilat» (1696), «Fransanın günahlandırılması» (1707), «Fransanın pərakəndə ticarəti» (1909), «Sərvətin, pulun və verginin təbiəti haqqında» əsərlərində şərh edilmişdir.

P.Buagilberin baxışlarına o dövrdə Fransada yaşanan iqtisadi və sosial bərabərsizliklər güclü təsir etmişdir. Bu dövrdə dörddə üç hissəsi kəndlilərdən ibarət olan Fransanın əhalisi yoxsulluq şəraitində yaşayırdı, feodal sistemi öz əhəmiyyətini saxlayırdı, kapitalist münasibətləri ləng inkişaf edirdi, sənaye sahibkarlığı zəif idi, istehsalın, xüsusilə də kənd təsərrüfatının inkişafı üçün stimul yox idi. Buna görə də Buagilber öz baxışlarını kəndə yönəltmiş və kənd təsərrüfatının inkişafına sənayeyə və ticarətə nisbətən üstünlük vermişdir, iqtisadi inkişafın və sərvətin artımının əsasını onda görmüşdür. O, yoxsul kəndlilərin mənafeyini müdafiə etmişdir. K.Marks yazmışdır ki, «Buagilber … ağıl və cəsarətlə məzlum siniflərə tərəfdar çıxır».[1]

Buagilberin siyasi baxışları Fransanın idarə olunduğu üsula və bu dövrdə Fransada həyata keçirilən iqtisadi siyasətə qarşı yönəlmişdir. O göstərmişdir ki, «Fransanın idarə olunduğu üsul əgər dayandırılmasa, onu fəlakətə aparacaqdır. Mən yalnız bütün tacirlərin və əkinçilərin dediklərini deyirəm».[2]

Buagilber XIV Lüdoviqin hökmranlığı dövründəki kolberizm siyasətinə qarşı çıxmışdır. O, öz əsərlərində Kolberin Fran-

---

[1] К.Маркс Сијаси игтисадын тәнгидинә даир. Б., 1955, с. 43
[2] А.Аникин Елмин кәнчлији. Б., 1987, с. 93



downloaded from KitabYurdu.org

sada yeritdiyi merkantilist siyasəti, onun kənd təsərrüfatına maliyyə vəsaitlərinin mənbəyi kimi baxmasını, vergi siyasətini, gömrük siyasətini, kənd təsərrüfatının ziyanına sənayenin ixrac məhsulları istehsal edən sahələrinin inkişaf etdirməsini kəskin tənqid etmişdir. O dövrdə krala yeganə vergi verənlər kəndlilər idi və sərhəddə daşınan bütün mallardan gömrük haqqı alınırdı. Buagilber Fransanın iqtisadiyyatının ləng inkişafının səbəbini yeridilən iqtisadi siyasətdə, kəndlilərin amansız yoxsulluğunda görürdü. O, hesab edirdi ki, kəndlilərin yoxsulluğu kəndlidə torpağın becərilməsinin yaxşılaşdırılmasına, istehsalın genişləndirilməsinə olan hər cür marağı öldürür, sərhəddən daşınan bütün mallardan alınan gömrük haqqı daxili bazarın və sahibkarlığın inkişafına mane olur. O, sənayenin tənəzzülünün əsas səbəbini də kəndlilərin yoxsulluğunda görürdü. Çünki kəndlilərin yoxsulluğu sənaye məhsullarının satış bazarını məhdudlaşdırırdı.

*Buagilber iqtisadiyyatın yüksəlişinin, ölkənin və xalqın rifah halının yüksəldilməsinin yolunu iqtisadi islahatların aparılmasında görmüşdür. Buagilber bu islahatların əsasına özünün nəzəri baxışlarını qoymuş, bununla da o, özünün nəzəri müddəalarını praktikaya tətbiq, təklif etmiş olduğu siyasətin əsaslandırılmasında istifadə etmişdir. Bunlar onu göstərir ki, Buagilber o dövr üçün nəzəri baxışların bütöv və dərin sistemini yaratmışdır.* Bu xidmətləri onu iqtisad elminin banilərindən biri kimi qiymətləndirməyə əsas vermişdir. Məhz onun baxışları klassik iqtisad elminin xüsusi məktəbi olan «Fiziokratlar» məktəbinin formalaşmasında nəzəri-metodoloji əsas olmuşdur. Buagilber sonralar fiziokratların fikirlərində mərkəzi yeri tutan torpağın, sərvətin əsas mənbəyi olması ideyasını qəbul etmiş və merkantilistlərin ticarətə, pula önəm verdiklərinə və sərvəti pul ilə eyniləşdirdiklərinə görə kəskin tənqid etmişdir. Buagilberin baxışları merkantilistlərin fikirlərinə daban-dabana zidd olmuşdur. Fransada merkantilizmi ilk tənqid edən də elə o, olmuşdur. Onun baxışları merkantilist ideyaların tamamilə ifşa olunmasında nəzəri-metodoloji əsas olmuşdur.

Buagilber də U.Petti kimi iqtisadi qanunauyğunluqları tədavüldə deyil, istehsalda (kənd təsərrüfatında) axtarmışdır. O,



downloaded from KitabYurdu.org

kənd təsərrüfatının mənafelərini qorumuşdur. O, iqtisadi azadlıq tərəfdarı olmuş və iqtisadiyyata dövlətin ağılsız müdaxilə etməsinə qarşı çıxış etmişdir. Taxıl ixracatına qoyulan vergilərin və qadağaların, istehsala mənfi təsir edən qadağanların aradan qaldırılmasını zəruri saymışdır. *Taxıl ixracatının sərbəstləşdirilməsinin zəruriliyini, iqtisadiyyata dövlətin müdaxilə etməməsini göstərməklə Buagilber liberalizm prinsipinin müjdəçisi olmuşdur*. O, hesab etmişdir ki, dövlət yox, təbiət təsərrüfatın inkişafını tənzimləyən yüksək və yaxşı hakimiyyətdir. İnsanlar öz marağına nail olmaq xatirinə hakimiyyətin təsiri olmadan ümumi rifah yaradır.

*Beləliklə, ticarət azadlığının və dövlətin iqtisadiyyata qarışmaması ideyasını ifadə edən klassik iqtisad elminin «laisser faire» ideyası Buagilberin «fəaliyyət göstərməyi yalnız təbiətin sərəncamına vermək lazımdır» deməsi ilə dəqiq şəkildə ifadə etmiş olmuşdur*. O, dövlətin iqtisadi funksiyasını dolayı metodlarla – vergi siyasəti vasitəsilə iqtisadiyyata müdaxilə etməsində, tələb və təklifin səviyyəsinə təsir göstərməsində görmüşdür. Buagilberə görə, «Bir ilahi təqdirdən başqa bir şey olmayan təbiət» dünyadakı şeyləri elə səhmanlamışdır ki, öz həllinə buraxıldığı (laisser faire) zaman əkinçilər əməklərinin əvəzini kifayət qədər alacaqları və kifayət qədər məhsul istehsal ediləcəyi bir «tarazlığa» çatırlar. Təbii azadlıq ideyası olan – **laisser faire-nin mənası: -** «Qoyun (adamlar) özləri öz işləri ilə məşğul olsunlar, qoyun (işlər) öz gedişi ilə getsin» deməkdir.

Buagilber merkantilistlərdən fərqli olaraq sərvəti pulda yox, istehlak predmetlərində görmüş, sərvətin yalnız əşya məzmununa diqqət yetirmiş və onu istehlak dəyərlərinin kütləsi kimi şərh etmişdir. Buagilberə görə, istehlak malları qızıl və gümüşdən, yəni puldan daha əhəmiyyətlidir. Onun fikrincə, məlum bir pul tədavülü istehlak xərclərinin artdığı zaman daha yüksək dövriyyə sürətinə sahib olur. Əksinə, kənd təsərrüfatı məhsullarının qiyməti aşağı olduqda, iqtisadiyyatda durğunluq olur və pul faydasız (işsiz) yığıma yönəlir. O da Petti kimi milli gəliri istehlak xərcləri ilə eyniləşdirmişdir. Buagilber bir milli iqtisadiyyatda kənd təsərrüfatı istehsalı ən yüksək səviyyəsinə çat-



downloaded from KitabYurdu.org

dığı zaman iqtisadi inkişafın dayanacağını və bir «tarazlıq» halına çatacağını söyləmişdir.

Buagilber pulun insanlar üzərində müstəbid hakimiyyətinə qarşı mübarizə aparmışdır. O, hesab edir ki, pul təbii ədaləti və əmtəə mübadiləsinin ekvivalentliyini pozur. Ona görə də bütün ictimai ədalətsizliklərin səbəbini o, pulda görmüşdür. O, qeyd edirdi ki, «Qəlblərin pozğunluğu qızıl və gümüşü… bütə çevirmişdir… Onları allahlara çeviriblər və bu allahlara – lap qədimlərdən xalqların böyük hissəsinin yeganə ayininə və dininə çevrilmiş olan bu allahlara qədim zəmanənin düşünmədən qurban verdiyindən daha artıq nemət, sərvət və hətta insanları da qurban verirdilər və qurban verməkdədirlər».[1] Buagilber pulu nemət saymamış və onun kəmiyyəti ölkədə bolluğu artırmadığını söyləmişdir.

Buagilber pulu yalnız mübadilə vasitəsi funksiyasını yerinə yetirdiyini qeyd etmiş və hesab etmişdir ki, mübadilə funksiyasını istənilən əmtəə yerinə yetirə bilər, ona görə də metal pulu kağız pulla əvəz etmək olar. Onun tələbi əmtəə istehsalını saxlayıb pulu rədd etmək olmuşdur. Onun bu fikirlərinə sonralar fransız iqtisadçı-sosioloqu **P.Prudon** (1809-1865) tərəfdar olmuşdur.

Buagilber Fransada əmək-dəyər nəzəriyyəsinin banisi olmuşdur. O, bazar qiymətlərinin arxasında «həqiqi qiymət» axtarmışdır. Bu qiymətin kəmiyyətinin əmək məsrəfi ilə müəyyən olunduğunu müəyyən etmişdir. O göstərir ki, iqtisadiyyat əmtəələrin öz «həqiqi qiymətini» tapa bildiyi azad rəqabət şəraitində daha yaxşı inkişaf edir. *O, azad rəqabətin əsasında yaranan «həqiqi qiyməti» iqtisadi müvazinətin və inkişafın ən zəruri şərti hesab etmişdir. Onun dəyər qanununun iqtisadi tarazlığın ifadəsi kimi başa düşülməsi fikri o dövr üçün olduqca yeni və cəsarətli idi.* O, hesab etmişdir ki, azad rəqabətin köməyi ilə iqtisadiyyat tarazlıq vəziyyətinə gəlir, əmtəələr öz həqiqi dəyərini tapır və əmək sahələr arasında optimal bölünür. Buagilber göstərir ki, azad rəqabət şəraitində bütün əmək istehsalın ayrı-ayrı sahələri və sfe-

---

[1] А.Аникин Елмин кәнчлији. Б., 1987, səh. 100



downloaded from KitabYurdu.org

raları arasında kortəbii surətdə elə bölünür ki, onların hər birində nə qədər zəruridir, bir o qədər sərf olunur.

Buagilber qiymətə optimallıq mövqeyindən yanaşmışdır. Optimal qiymət dedikdə, orta hesabla hər bir sahədə istehsal xərclərini ödəyən və müəyyən mənfəəti təmin edən qiymətlərdir. Onların mövcudluğu şəraitində əmtəələrin satılması prosesi pozulmur, daima baş verir, sabit istehlak tələbi saxlanılır, pul tədiyə dövriyəsinə xidmət edir və bütə çevrilmir.

Buagilber taxıla dövlət tərəfindən maksimum qiymətlərin qoyulmasını rəqabət azadlığının pozulması kimi qiymətləndirmişdir. O, taxılın və bütün kənd təsərrüfatı məhsullarının qiymətinin tələb və təklif əsasında formalaşmasını məqsədəuyğun saymışdır. Belə olduqda kəndlilərin gəlirlərinin çoxalacağını və onların sənaye məhsullarına tələbatını artıracağını, nəticədə isə onların istehsalını sürətləndirəcəyini düşünmüşdür.

Buagilber Kolberin vergi siyasətini dərindən təhlil etmiş və vergi sistemində islahat aparılmasını zəruri saymışdır. Onun vergi islahatı iqtisadiyyatın təbii gedişinə mane olan maneələrin aradan qaldırılmasına yönəlmişdir. Buagilber göstərir ki, «dövlətin bütün tələbatını ödəmək və bütün xalqa qədim bolluğu qaytarmaq üçün heç bir möcüzə lazım deyil, təbiət üzərindəki zorakılığı dayandırmaq bəsdir».[1]

Buagilberin vergi islahatı yoxsulların xeyrinə olan, əyanların və kilsənin, vergi yığanların və varlı maliyyəçilərin isə mənafeyinə toxuna biləcək islahat idi. O, «krala onda bir» vergi təklif etmişdir. Bunun ancaq «vahid vergi» olmasını, əyanlara və kilsəyə də kasıblarınkı qədər vergi qoyulmasını istəyirdi. O, həm də reqressiv vergi sistemini mütənasib və ya yüngül mütərəqqi vergiqoyma ilə əvəz etməyi təklif etmişdir.

Buagilber istehlak xərclərinə istehsalın və sərvətin artımının əsas amili kimi baxmışdır. O, hesab edir ki, əgər istehlak xərclərinin axını yavaşıyırsa, onda əmtəələrin istehsalı və satışı da azalacaqdır. Əgər kasıblar çox qazansalar və vergi üçün az pay versələr, bu axın ləngiməz, çünki onlar öz gəlirlərini xərclə-

---

[1] Всемирная история экономической мысли. М., 1987, Т.1, стр. 437



downloaded from KitabYurdu.org

məyə meyllidirlər. Əksinə, varlılar isə gəliri toplamağa, onu avara (işsiz) yığıma yönəltməyə meyllidirlər, bununla da onlar iqtisadiyyatda durğunluq yaradırlar. O, avara yığımı oğurluğa bənzətmişdir.

*Beləliklə, Buagilberdə müasir iqtisad elmində olan istehlak tələbinə iqtisadi artımın yüksək sürətini təmin edən amil kimi baxılan mövqe və tələbin çatışmazlığından böhranların baş verməsi fikri təşəkkül tapmışdır*. Onun baxışında Keynisin «istehlaka meylli» ideeyasının izləri vardır. Lakin Buagilberin konsepsiyası və bu məsələdə onun mövqeyi iqtisadi fikir tarixində birmənalı qiymətləndirilməmişdir. Bəziləri, məsələn, Fransız Anri Deni belə hesab edir ki, Buagilberin konsepsiyası nəticə etibarı ilə azad rəqabət şəraitində böhranların mümkün olmaması ideyasından ibarət olur və buna görə də bu konsepsiya J.B.Seyə aid edilən «məşhur bazarlar qanunu»nu hazırlayır. Əksinə, Şumpeter qeyd edir ki, Buagilber istehlak tələbinin azadlığında və əmtəələrin artıqlığında kapitalist iqtisadiyyatının sabitliyi üçün təhlükə və böhranların səbəbini görürdü, buna görə də o, «Sey qanunu»nun tənqidçilərinin, xüsusilə **Keynisin** sələfidir.

İstehlak xərclərini iqtisadiyyatın mühərriki kimi qəbul edən Buagilber özünün «Sərvətin, pulun və verginin təbiəti haqqında düşüncə» əsərində iqtisadi böhranlar zamanı nələrin baş verdiyini obrazlı şəkildə belə şərh etmişdir: adamlar nemətlərin nəinki çatışmamasından, eyni zamanda artıqlığından da ölə bilərlər! O deyirdi ki, bir-birindən müəyyən məsafədə zəncirlənmiş 10 və ya 12 adamı təsəvvürünüzə gətirin. Birinin yeməyi çoxdur, lakin başqa heç bir şeyi yoxdur, başqasının paltarı artıqlıq edir, üçüncünün içkiləri vardır və s. Lakin onlar bir-biri ilə mübadilə apara bilmirlər: zəncirlər-xarici, insanlara aid olmayan və böhranlara səbəb olan qüvvələrdir. Bolluq şəraitində baş verən bu həlakolma mənzərəsi XX əsrin faktlarını: dənizə tökülən südü, paravozların peçində yandırılan qarğıdalını yada salır; özü də bunlar işsizlik və dilənçilik mövcud olduğu bir şəraitdə baş verir.[1]

---

[1] А.Аникин Елмин кәнҹлиjи. Б: 1987, səh. 97-98



downloaded from KitabYurdu.org

Buagilberə görə, bütün alıcı və satıcılar «zənginlik zənciri» içində bir-birləri ilə sıx şəkildə bağlanmışlar. Əgər satıcılardan biri potensial bir alıcını təmsil etməklə istehsal üçün çəkdiyi məsrəfi eyni ilə geri almazsa, öz çəkdiyi xərcləri azaldacaq və beləcə bu zəncir qopacaq, «tarazlıq» pozulacaqdır.



downloaded from KitabYurdu.org

# IV FƏSİL. FİZİOKRATİK NƏZƏRİYYƏ VƏ METODOLOGİYA

Klassik iqtisad elminin xüsusi forması və cərəyanlarından olan fiziokratizm XVIII əsrin ikinci yarısında Fransada yaranmışdır. Bu dövrdə Fransanın iqtisadiyyatı Buaqilber dövründəkindən o qədər də fərqlənmirdi. Bu dövrdə də Fransa aqrar feodal ölkəsi olaraq qalırdı və iqtisadi ziddiyyətlər daha da kəskinləşmişdir. Bu ziddiyyətlərin əsası kənd təsərrüfatında idi və bu hal Fransanın iqtisadiyyatının və kapitalist prinsiplərinin inkişafına getdikcə daha çox mane olurdu. Ona görə də kənd təsərrüfatı istehsalının inkişafı yolları haqqında məsələ xüsusi əhəmiyyət kəsb edirdi və bu səbəbdən də fiziokratlar əsas diqqətlərini kənd təsərrüfatında mövcud olan ziddiyyətlərin həll edilməsinə yönəltmişdilər. Onların proqramı islahatları yolu ilə bu ziddiyyətləri aradan qaldırmaq və kənd təsərrüfatının inkişafına nail olmaqdan ibarət olmuşdur. Fiziokratların iqtisadi islahatları iri fermer təsərrüfatı formasında əkinçiliyin hər cür həvəsləndirilməsinə və rentadan, daha doğrusu, yeganə gəlir olan xalis gəlirdən vahid vergi tutulmasına yönəlmişdir.

*Fiziokratlar ilk dəfə olaraq xüsusi mülkiyyətə, təbii azadlığa və rəqabətə əsaslanan kapitalist istehsalının kənd təsərrüfatında bərqərar olmasını nəzəri və praktiki cəhətdən əsaslandıran bütöv iqtisadi konsepsiya işləyib hazırlamışlar.* Bununla da, onlar siyasi iqtisadın elm kimi təşəkkül tapmasında böyük rol oynamışlar. K.Marks fiziokratların təliminə kapitalist istehsalının ilk sistematik konsepsiyası kimi baxmışdır. O göstərir ki, «onlar... kapitalist istehsalını təhlil etməyin əsasını qoymuşlar».[1]

Y.Şumpeter fiziokratların təlimi ilə klassiklərin «strateji təsəvvüretmə yoluna düşdüyünü», N.Kondratyev isə «artıq nəzəri-iqtisadi baxışlar sistemini» ifadə etdiklərini qeyd etmişdir.[2]

Fiziokratiya sözü yunanca təbiətin hakimiyyəti (fizis–təbiət, kratos–hakimiyyət) deməkdir. Onlar «təbii qaydaya» əsas-

---

[1] К.Маркс Изафи дәјәр нәзәријјәләри. I hиссә, Азәрнәшр, 1967, səh. 15

[2] Я.Ядгаров История экономических учений. М., 1997, стр. 47



downloaded from KitabYurdu.org

lanan iqtisadi fəaliyyətin qanunauyğunluqlarını və qanunlarını aşkar etməyə çalışmışlar. Onlar bu qanunların zamanca dəyişmədiyini, onların daimi olduğunu göstərmişlər.

Fiziokratların təlimi merkantilizmlə kəskin mübarizədə formalaşmış və inkişaf etmişdir. Fiziokratlar merkantilizmin tənqidi, onun qeyri-təbiiliyinin sübutu ilə əlaqədar yaranmışdır. A.Smit fiziokratiyanı Y.B.Kolberin merkantilist siyasətinə münasibət göstərmə kimi xarakterizə etmiş, K.Marks isə göstərmişdir ki, «fiziokratiyanın meydana gəlməsi həm kolbertizm əleyhinə müxalifətlə, həm də xüsusən Lo sisteminin biyabırçı iflası ilə əlaqədar idi».[1] A.Smit fiziokratik sistemi indiyə qədər siyasi iqtisadın predmetinə aid nəşr olunmuşlardan həqiqətə ən çox yaxınlaşma kimi tərifləmişdir.

Fiziokratizmin ən görkəmli ideoloqları **Vensian de Qurne** (1712-1759), **Fransua Kene** (1694-1774), **Ann Robert Jak Türqo** (1724-1781) olmuşlar. *Fiziokratlar məktəbinin yaradıcısı və başçısı Fransua Kene olmuşdur.* O, həkim və təbiətşünas olmuşdur. Siyasi iqtisadla 60 yaşından sonra məşğul olmağa başlamışdır. O, XV Lüdoviqin həkimi olmuş və torpaq mülkiyyətçilərinin mənafeyini müdafiə etmişdir. Kene cəmiyyətə bir orqanizm kimi yanaşmış və təbabətdən siyasi iqtisada keçmişdir. Onun diqqətini insan bədənində qan dövranı, maddələr mübadiləsi və cəmiyyətdə məhsul tədavülü kimi bioloji analogiya cəlb etmişdir. Kenenin ideyaları həcmcə kiçik olan və Ensiklopediyada nəşr olunmuş: «Əhali» (1756), «Fermerlər», «Taxıl», «Vergi» (1757), «İqtisadi cədvəl» (1758) və s. məqalələrdə öz əksini tapmışdır. Onun ideyaları həm də onun şagirdlərinin və həmfikirlərinin əsərlərində verilmişdir. Kenenin iqtisadi proqramı ümumi formada «Əkinçi dövlətin iqtisadi siyasətinin ümumi prinsipləri və bu prinsiplərə qeyd» (1758) adlı əsərdə şərh edilmişdir. Onun merkantilizmə qarşı geniş mübahisələri «Ticarət haqqında» (1765) əsərində öz əksini tapmışdır.

---

[1] К.Маркс Изафи дәјәр нәзәријјәләри. Ы һиссә, Азәрнәшр, 1957, сәһ. 32



downloaded from KitabYurdu.org

Fiziokratik sistemin və onun metodologiyasının əsasında Kene tərəfindən yaradılmış «iqtisadi qayda» haqqında təlim dururdu. Bu konsepsiyanı o, «Təbii hüquq» (1765) əsərində geniş şərh etmişdir. Bu konsepsiya onun fəlsəfi görüşünü əks etdirir. Fiziokratların iqtisadi fikirləri fəlsəfə ilə çox sıx əlaqədə olmuş və onlar iqtisadi fikirlərə «Əxlaq fəlsəfəsi»nin bir hissəsi kimi yanaşmışlar.

Fiziokratların fəlsəfəsi ikili olmuşdur. *Onlar bir tərəfdən idealizmə uyduqları, ona əməl etdikləri halda, digər tərəfdən materializmə də meyl etmişlər.* Onlar bir tərəfdən «təbii qayda» kimi mistik bir anlayışa əsaslandıqları halda, o biri tərəfdən metodologiyada rasionalizmi mənimsəmişlər. Onların rasionalizmi «təbii və maddi iqtisadi» qanunların kəşfində, iqtisadiyyatın bütövlükdə sistem halında tədqiqində təzahür etmişdir. Fiziokratlar iqtisadi hadisələrin təbii hadisələr kimi səbəb-nəticə asılılığında olduğunu qəbul etmişlər və göstərmişlər ki, insanların davranışı təbii qanunlarla müəyyən olunmalıdır. Onların fikrincə, bu qanunlar təbii qayda yaradır. Kene hesab edir ki, ictimai qanunlar «təbii qayda»nın qanunlarıdır, bu qanunlar Allah tərəfindən təsis edilmişdir. Onun fikrinə görə, «təbii qayda Allahın insanların dünyada həyat sürmələri üçün yaratmış olduğu qaydadır». Keneyə görə, insanlar hökumətin Qanunları ilə deyil, təbii qanunauyğun davranmalıdırlar.

Fiziokratların əsas məqsədi təbii qaydanın əsas prinsiplərini açmaq və insanlar tərəfindən yaradılmış qaydaların təbii qaydanın əsaslarına uyğunluğunu təmin etmək olmuşdur. Onlar istehsalın və malların bölgüsünün daimi olan təbii qanunlara əsasən meydana gəldiyini düşünmüşlər və gəlirin bölgüsü problemini təbii bir problem kimi ələ alıb həll etməyə çalışmışlar.

*Fiziokratlar iqtisadi liberalizm – laisser faire tərəfdarı olmuşlar. Onlar göstərirlər ki, dövlət iqtisadiyyata müdaxilə etməməlidir, onun vəzifəsi yalnız insan həyatını, onun azadlığını və mülkiyyətini qorumaq olmalıdır.*

İqtisadi liberalizmin tarixi əslində fiziokratlardan başlayır. «**Laisser faire, laisser passer**» ifadəsini ilk dəfə **V.Qurne** 1758-ci ildə öz çıxışında işlətmişdir. O vaxtından sonra «laisser faire sis-



downloaded from KitabYurdu.org

temi» anlayışı «iqtisadiyyata dövlətin qarışmaması sisteminin» sinonimi olmuşdur.

Fiziokratlar «şəxsi maraqları» ön plana qoymuşlar. Onların fikrincə, özəl mülkiyyət şəxsin varlılığını (zənginliyini) müəyyən etdiyi üçün gərəklidir. Fiziokratlar hər insanın öz şəxsi mənfəətini düşündüyünü göstərmişlər. Onlara görə, iqtisadi sistemin əsasını «şəxsi mənafe» təşkil edir. Fiziokratlara görə, insan hər davranışının xeyir və ziyanını hesablayıb başqa insanlarla əməkdaşlıq edir. Fiziokratların «şəxsi mənafe» ideyası A.Smitdən başlayaraq liberal iqtisadçıların indiyə qədər davam edən pozitiv fikirlərinin əsası olmuşdur. «Şəxsi mənafe» təliminin tərəfdarlarına görə, şəxsi qazanc şəxsi daha çox istehsal etməyə və satmağa yönəldir ki, bu da əvvəlcə istehsalı, sonra da cəmiyyətin qənaətlənmə səviyyəsini yüksəldərək hər kəsə fayda verir.

Fiziokratlar sərvətin maddi (real) tərəfinə diqqət yetirmişlər. Onlar sərvətə istehlak dəyərlərinin məcmusu kimi baxmışlar və istehlak dəyərini təbiət neməti ilə eyniləşdirmişlər. Bu baxımdan mübadilə sərvətin mənbəyi ola bilməz, dövlətin və vətəndaşların bütün sərvətinin mənbəyi əkinçilik sayılır. Onlar sərvətin yeganə mənbəyi kimi torpağı götürmüşlər. Yalnız torpaqla bağlı olan – əkinçilik, balıqçılıq, hasilat sahələrində təbiətin yardımı ilə yeni sərvət yarandığını göstərmişlər.

F.Kene merkantilistlərin mübadilədə sərvət yaranması və mənfəət əmələgəlməsi fikirlərini nəzəri cəhətdən təkzib etmək üçün mübadilənin ekvivalentliyi ideyasından istifadə etmişdir. O göstərir ki, azad rəqabət şəraitində mübadilə sferasında əmtəələrin bazara daxil olana qədər malik olduqları bərabər kəmiyyətli dəyərlilik mübadiləsi baş verir. Bununla da o sübut edir ki, mübadilə və ticarət maddi sərvət yaratmır. Ticarət yalnız maddi nemətləri ekvivalent mübadilə edir.

Fiziokratların dəyər nəzəriyyəsi olmamış və onlar bazar qiymətinin əsasına dəyəri qoymamış, bazar qiymətini istehsal olunmuş məhsulun nadirliyi və ya bolluğu, rəqabət, tələb və təklifin nisbəti ilə müəyyən olunması ilə qənaətlənmişlər.



downloaded from KitabYurdu.org

Merkantilistlərdən fərqli olaraq, Kene pulu faydasız sərvət adlandırmış, onun mübadilədə yalnız vasitəçi rol oynadığını qeyd etmişdir. O, merkantilistcəsinə pul yığımının ölkənin sərvətinin təkrar istehsalına səbəb olmadığından ona qarşı çıxış etmişdir.

Sərvətin mənbəyini xarici ticarətdə axtaran merkantilistləri tənqid edərək Kene göstərir ki, ölkənin sərvətinin artımı istehsalın inkişafından asılıdır. O, yeganə istehsal sferasının kənd təsərrüfatının olduğunu qeyd etmişdir. O hesab edir ki, xarici ticarət müxtəlif ölkələrdə əmtəələrin qiymətlərini bərabərləşdirir, lakin xarici ticarət qiymətlər bərabərliyini bərqərar etməklə əlavə heç nə vermir, sərvət yaratmır.

Fiziokratların tədqiqatlarının metodoloji prinsipi merkantilistlərin və U.Pettinin metodoloji prinsiplərindən fərqli olmuşdur. Əgər merkantilistlər hadisələrin tədqiqinə təsviri empirik metodu, U.Petti isə induktiv-analitik metodu tətbiq etmişsə, fiziokratlar deduktiv metodu tətbiq etmişdilər. *Məhz bu metodoloji prinsip sayəsində fiziokratlar siyasi-iqtisadi fəlsəfə və təbiətşünaslıqla birləşdirə bilmişlər və ilk dəfə olaraq bütöv elmi siyasi-iqtisadi sistem yaratmışlar.*

Fiziokratik sistemin çıxış nöqtəsi «xalis məhsul» ideyası olmuşdur. Fiziokratların baxışlarını bir bütövdə birləşdirən əsas ümumi prinsipi – «xalis məhsul»un əkinçilikdə yaranması ideyası olmuşdur. İqtisad elminin tarixində ilk dəfə xalis məhsulu hesablamağa cəhd edən, onun istehsalını, bölgüsünü və dövranını təhlil edən F.Kene olmuşdur. Əkinçilik məhsulunun istehsalına çəkilən bütün xərclər çıxıldıqdan sonra əmələ gələn artığı Kene xalis məhsul adlandırmışdır.

Fiziokratlar hesab edirlər ki, yalnız əkinçilik xalis məhsul yaratmaq qabiliyyətinə malikdir. Bununla da onlar xalis məhsula əmə-yin nəticəsi kimi deyil, təbiətin bəhrəsi kimi baxmışlar. Ona görə də onlar xalis məhsulun renta kimi torpaq sahibinə çatacağını qeyd etmişlər. Onların fikrinə görə, sənaye və ticarət xalis məhsul yaratmır. Kene sənayeni aşbaza bənzətmişdir. Aşbaz noxudu bişirə bilir, lakin noxudun sayını artırmır.



downloaded from KitabYurdu.org

Fiziokratlar xalis məhsulun ancaq torpaqdan əldə olunduğunu, onun yeganə gəlir növü olduğunu və dövlətin gəlirini və mülkiyyətçilərin gəlirini təşkil etdiyini qeyd etmişlər. Milli sərvətin artımının xalis məhsulla müəyyən olunduğunu qeyd etmişlər.

Fiziokratlar «xalis məhsul»un yaranması baxımından əməyi və istehsal sahələrini məhsuldar və qeyri-məhsuldara bölmüşlər. Onlar yalnız xalis məhsulu yaradan əməyi, yəni əkinçi əməyini məhsuldar, digər sahələrin əməyini qeyri-məhsuldar əmək adlandırmışlar. Buna da müvafiq olaraq sahələri də məhsuldar və qeyri-məhsuldar adlandırmışlar. Onların fikrincə, yalnız torpaq üzərində çalışan – əkinçilər, balıqçılar və mədənçilər özlərinə kifayət edənindən artıq məhsulu təbiətin yardımı ilə yarada bilirlər. Onlar sənayeni «bəhrəsiz», məhsuldarsız sahə adlandırmışlar. Burada xalis məhsulun yaranmadığını iddia etmişlər. Göstərmişlər ki, burada ancaq əkinçilikdə yaranan malların şəkli və forması dəyişir. Bu sahələrin işçilərinin özlərinə yetdiyindən artıq istehsal etmədiklərini söyləmişlər. Onlara görə, sənaye işçiləri kənd təsərrüfatının hesabına yaşayır. Fiziokratlar ticarət və maliyyə sahələrində çalışanlar xalis məhsul yaratmadıqları üçün, onlar başqalarının istehsal etdiklərini yalnız insanlar arasında mübadilə etdiklərinə görə onların sayını ən aşağı səviyyəyə endirilməsini məqsədəuyğun saymışlar. Onların fikrincə, ticarət çoxluğunu yaratmağa cəhd göstərilməsi kənd təsərrüfatı məhsullarına olan tələbi azaldaraq milli sərvətə mənfi təsir göstərir. Lakin, buna baxmayaraq fiziokratlar sərbəst ticarəti ilk dəstəkləyənlərdən olmuşlar. *Onlar həm də xalis məhsul artımının əhali artımına səbəb olmasını və əhali artımının hər hansı bir iqtisadi problemə səbəb olmayacağını söyləmişlər.*

F.Kene sənayedə kapitala görə mənfəət yaranmadığını göstərmiş, ticarət mənfəətini qeyri-iqtisadi kateqoriya hesab etmiş və ona hesabda aldatmaq kimi baxmışdı. Ona görə də o, tacirlərin əldə etdiyi gəliri «parazit gəlir» adlandırmış, onun xalis məhsulun azalmasına səbəb olduğunu söyləmişdir. Fiziokratların təlimində əmək haqqının kəmiyyəti minimum yaşayış vasitələrinə bərabər götürülmüşdür.



downloaded from KitabYurdu.org

Fiziokratların təlimində yeganə həqiqi gəlir xalis məhsul olduğundan ona vergi qoyulması göstərilmişdir.

«Xalis məhsul» nəzəriyyəsinə uyğun olaraq, Kene cəmiyyəti üç sinfə: məhsuldar sinfə, sahibkar sinfə və «bəhrəsiz» sinfə bölür. Məhsuldar sinfə – əkinçiliklə məşğul olan bütün işçiləri aid edir. O, hesab edir ki, xalis məhsulu bu sinif yaradır. Sahibkarlar sinfinə kralları, torpaq mülkiyyətçilərini və din xadimlərini daxil etmişdir. Bu sinif yalnız əkinçilikdə yaranan «xalis məhsulu» mənimsəyir və istehlak edir. «Bəhrəsiz» sinfə sənaye də daxil olmaqla iqtisadiyyatın digər sahələrində çalışanları aid etmişdir. Buraya muzdlu fəhlələr, sənətkarlar, sahibkarlar, tacirlər və xırda ticarət işçiləri daxil edilir. «Bəhrəsiz» sinif mülkiyyətçilər sinfi kimi «xalis məhsul» yaratmır. Lakin ondan fərqli olaraq bu sinif işləyir və əməkləri ilə nə qədər istehlak edirlərsə, bir o qədər də istehsal edirlər.

Kene cəmiyyəti siniflərə istehsal vasitələrinə münasibət əlamətinə görə deyil, iqtisadi əlamətə görə bölmüşdür. Onun təlimində həm sənayedə və həm də əkinçilikdə muzdlu işçilər və sahibkarlar bir sinfə aid edilmişlər.

Fiziokratların mühüm xidmətlərindən biri də onlar tərəfindən kapitalın təhlilinin verilməsidir. Bu xidmətə görə, K.Marks onları «müasir siyasi iqtisadın əsl banisi»[1] adlandırmışdır.

Kene kapitalın yalnız əşya formasına baxmış və bütün kapitalı onun əkinçilikdə aldığı forma ilə eyniləşdirmişdir. O, kapitalı təkrar istehsal xarakterinə görə iki hissəyə ayırmışdır. Kapitalın bir hissəsini ilkin avans adlandırmış və buraya torpağın qurudulmasına, tikililərə, atlara, kotanlara, dırmıqlara sərf olunan xərcləri və amortizasiyanı daxil etmişdir. Bu xərclər bir neçə ildən bir edilir və tədricən ödənilir. Kapitalın digər hissəsini isə illik avans adlandırır və buraya kənd təsərrüfatında işləyənlərin əmək haqqını, toxumlar və hər il təkrarlanan digər xərcləri aid edir. Kapitalın bu cür bölgüsü müasir dildə desək, kapitalın əsas və dövriyyə (bu terminlərin işlədilməməsinə baxmayaraq) kapi-

---

[1] К.Маркс Изафи дәјәр нәзәријјәләри. I һиссә. Бакы, 1967, səh. 13



downloaded from KitabYurdu.org

talına bölgüsüdür. Bu bölgünü də ilk dəfə olaraq fiziokratlar aparmışlar.

Fiziokratlar, həmçinin, kapitalın dövranının və təkrar istehsalının, istehsal və satış proseslərinin daim bərpa olunması və təkrarlanmasının, sağlam iqtisadiyyatın (tarazlıq vəziyyətində olan iqtisadiyyatın) tarazlığının və onun şərtinin təhlilinin əsasını qoymuşlar. Onlar iqtisadi fikir tarixində ilk dəfə olaraq iqtisadiyyatın kənd təsərrüfatı sektorunun timsalında ictimai təkrar istehsalın təhlilini aparmışlar və natural və dəyər şəklində bütün ictimai təkrar istehsalın hərəkət modelini yaratmağa çalışmışlar. Onların təhlilinin çıxış nöqtəsini kənd təsərrüfatında yaranan «xalis məhsul» nəzəriyyəsi təşkil etmişdir. Bütün bunlar öz əksini Kenenin «İqtisadi cədvəl»ində tapmışdır. O, bu cədvəldə «xalis məhsul»un kənd təsərrüfatından istehlaka doğru necə hərəkət etdiyini göstərmişdir. *İqtisad elmində təkrar istehsal anlayışını da ilk dəfə Kene işlətmişdir.*

Kene özünün iqtisadi cədvəlində müasir termində desək, makroiqtisadi səviyyədə bir milli iqtisadiyyatda tarazlığın nə olduğunu və onu necə təmin etməyi açıqlamışdır. Kenenin öz əli ilə yaratdığı «İqtisadi cədvəl»i aşağıdakı formada olmuşdur.



downloaded from KitabYurdu.org

# Təkrar istehsalın ümumi məbləği: 5 milyard






downloaded from KitabYurdu.org

*Kenenin bu cədvəli iqtisad elminin tarixində ilk makro iqtisadi sxem və modeldir.* Bu sxemlə o, iqtisadiyyatın tarazlıq halında olduğunu, yəni məhsulun «özünü yenidən istehsal etməyə» hazır olduğunu, tədqiqat obyekti olan tarazlıq şərtlərini göstərmişdir. Cədvəldin ideyası ondan ibarətdir ki, iqtisadiyyatda tarazlığın təmin olunması, təkrar istehsal və mübadilə prosesi yalnız müəyyən şərtə əməl olunduqda baş verə bilir. Bu şərt məhsul istehsalının avtomatik olaraq gəlir yaratmasıdır və bunun ödənilməsidir. Gəlirin ödənilməsi növbəti istehsal tsiklinə keçilməsinə imkan yaradır.

«İqtisadi cədvəl»də rəqəmlərin və qrafikin köməyilə əkinçilikdə yaradılan ümumi və xalis məhsulun tədavül vasitəsilə nə şəkildə natural və pul formasında cəmiyyətin üç sinifi arasında bölündüyünü və nəticədə istehsalın əvvəlki həcmdə təzələnməsi üçün necə zəmin yarandığı göstərilir. Burada ancaq sadə təkrar istehsal təsvir edilmişdir. Tədavül prosesinin başlanğıc nöqtəsi məhsul yığımının başa çatdığı təsərrüfat ilinin sonu götürülmüşdür. Kene əsas diqqətini tədavül vasitəsi ilə illik məhsulun siniflər arasında bölgüsünə yönəltdiyinə görə «iqtisadi cədvəl»də tədavül prosesini çətinləşdirən bir sıra sərf-nəzərlər olmuşdur. O, iqtisadiyyatı «qapalı» və «statik» təsəvvür etmişdir. Bütün mübadilələr fərdlər arasında deyil, siniflər arasında aparılmışdır. Burada xarici ticarət sərf-nəzər edilmiş, əmtəələrin hərəkəti daxili bazarla məhdudlaşmış və yığım kapitalın təzələnməsinə yetərincə olmuşdur.

«İqtisadi cədvəl»də illik məhsulun dəyəri 7 milyard livrə bərabərdir. Onun 5 milyardı məhsuldar sinfin əlində olan əkinçilik məhsulunun dəyəridir. Bunun 1 milyardı sərf olunmuş əsas kapitalın (ilkin avansın) dəyərini ödəyir. Bütün əsas kapital 10 milyard livrə bərabər hesab edilir və hər il isə onun ilkin dəyərinin 10 faizi aşınır. 2 milyardı dövriyyə kapitalını (illik avansı) və 2 milyardı «xalis məhsul»un dəyərini təşkil edir. 2 milyardı «bəhrəsiz» sinfin əlində olan sənaye məhsulunun dəyəridir.

Məcmu illik məhsulun dəyərindən başqa torpaq mülkiyyətçiləri tədavül prosesinin başlanmasına qədər fermerlər tə-



downloaded from KitabYurdu.org

rəfindən icarə haqqı formasında ödənilən 2 milyard nağd pula malik olurlar. Deməli, tədavül prosesinin başlanmasına 7 milyard dəyərində ümumi məhsul və 2 milyard pul götürülür.

Kenenin «İqtisadi cədvəl»ində yaradılmış məhsulun satış və tədavül prosesi hər biri 1 milyard məbləğində baş verən beş tədavül aktından ibarətdir:

1. Mülkiyyətçilər sinfi məhsuldar sinifdən 1 milyard livrə yemək şeyləri satın alırlar. Nəticədə 1 milyard livrə pul məhsuldar sinfə keçir və əkinçilik məhsulunun beşdə bir hissəsi satılır, tədavül sferasını tərk edir və istehlak sferasına keçir.

2. Mülkiyyətçilər sinfi qalan 1 milyarda «bəhrəsiz» sinifdən sənaye malları satın alır. 1 milyard pul «bəhrəsiz» sinfə gəlir və onlar özlərinin məhsulunun yarısını satırlar.

3. «Bəhrəsiz sinif» əldə etdikləri 1 milyard pula məhsuldar sinifdən lazım olan istehlak şeylərini satın alır. Bununla bir milyard pul məhsuldar sinfə gəlir və əkinçilik məhsulunun beşdə bir hissəsi də satılır.

4. Məhsuldar sinif «bəhrəsiz» sinifdən əldə etdikləri 1 milyarda, onların özündən əsas kapitalın aşınması və yararsız vəziyyətə düşmüş əşya ünsürlərini ödəmək üçün zəruri olan istehsal alətləri satın alır. Bunun nəticəsində sənaye məhsulunun yerdə qalan yarısı satılır.

5. «Bəhrəsiz» sinif həmin 1 milyard pula məhsuldar sinifdən xammal alır. Məhsulun yenə beşdə bir hissəsi reallaşır.

Beləliklə, tədavül prosesində siniflər arasında 3 milyard livrə əkinçilik məhsulu və 2 milyard livrə sənaye məhsulları reallaşmış olur. Məhsuldar sinifdə qalmış 2 milyard məhsul siniflər arasında ümumi tədavülə daxil olmur, yalnız həmin sinfin özünün daxilində mübadilə olunur (bu iqtisadi cədvəldə öz əksini tapmır). Bu məhsul əkinçilikdə istehsal prosesində istifadə olunmuş toxumu və yeyinti məhsullarını ödəyir. Məhsuldar sinif tərəfindən əldə edilən sənaye məhsulları əsas kapitalın sərf olunmuş hissəsinin ödənilməsi üçün istifadə olunur. 2 milyard pul tədavül nəticəsində məhsuldar sinfə qayıdır, sonra isə yenidən icarə haqqı formasında torpaq mülkiyyətçilərinə gəlir.



downloaded from KitabYurdu.org

Beləliklə, bütün alınanlar satılmış və bütün satılanlar alınmış olur, yeni istehsal tisklinin başlanması, istehsalın əvvəlki həcmdə təzələnməsi, daha doğrusu, sadə təkrar istehsal üçün zəmin yaranır.

İqtisadçılar Kenenin «İqtisadi cədvəl»ini sonrakı makroiqtisadi tarazlıq nəzəriyyələrinin sələfi və müjdəçisi kimi yüksək qiymətləndirmişlər. Məsələn, Y.Şumpeter «İqtisadi cədvəl»i **Keynsin** multiplikator nəzəriyyəsinin və L.Valrasın ümumi tarazlığın təhlilinin, başqa bir qrup iqtisadçılar isə cədvəli sahələrarası balansın (xərc-buraxılış balansı) təhlilinin, bəziləri onu K.Marksın təkrar istehsal sxeminin təhlilinin əsasını təşkil etdiyini söyləmişlər.[1]

A.Smit fiziokratik nəzəriyyəni belə qiymətləndirmişdir: «Şərh olunmuş nəzəriyyə bütün zəif cəhətləri ilə indiyə qədər nəşr olunmuş hər hansı digər siyasi iqtisad nəzəriyyəsinə nisbətən həqiqətə daha artıq dərəcədə yaxın gəlir».[2] M.Blauq isə Kenenin «bütün alınanlar satılmışdır və bütün satılanlar alınmışdır» cümləsindən Seyin «təklif uyğun tələb yaradır» formuluna bir addım[3] qaldığını qeyd edir.

Fiziokratlar məktəbində Türqonun özünəməxsus yeri olmuşdur. O, fiziokratiya sisteminə mühüm dəyişiklik və düzəlişlər etməklə onu daha da inkişaf etdirmişdir. Türqo Kenenin əsas ideyalarını qəbul etsə də, onun öz yolu olmuş və o, bir sıra fiziokratik anlayışları dərinləşdirmiş və doktrinadan kənara çıxan yeni iqtisadi ideyalar yaratmışdır. Türqo zadəgan ailəsindən olmuş, yaxşı dini təhsil almaqla yanaşı, həm də hüquqi bilik də əldə etmişdir. Ailəsi onu kilsə üçün nəzərdə tutsa da, o, 23 yaşında ruhani mənsəbindən əl çəkmişdir. Türqo altı dil bilmiş və bir sıra dövlət vəzifələrində, XVI Lüdoviqin dövründə Fransanın maliyyə naziri olmuşdur. Onu ilk əvvəllər fəlsəfi-tarixi problemlər maraqlandırmış və bu dövrdə onu iqtisadi məsələlər yalnız geniş

---

[1] İktisatın tarihi. Prof. Dr. Vural Savaş. 4 Baskı, A., 2000, səh. 240

[2] А.Смит Исследование о природе и причинах богатства народов. М., 1962, стр. 491

[3] М.Блауг Экономическая мысль в ретроспективе. М., 1994, стр. 25



downloaded from KitabYurdu.org

fəlsəfi-tarixi problemlər çərçivəsində maraqlandırmışdır. Türqonun əsas iqtisadi əsəri «Sərvətin yaradılması və bölüşdürülməsi haqqında düşüncələr» (1766) olmuşdur. Türqo materialist olmuş və bütün xarici aləmi insan şüurunun törəməsi hesab edən subyektiv idealizmə qarşı yönəldilmiş bir sıra fəlsəfi əsərlər yazmışdır. *Onun nəzəri iqtisadi prinsipləri hər şeyi xüsusiçilik təşəbbüsünə, azad rəqabətin və hadisələrin təbii gedişinin sərəncamına vermək olmuşdur. Bu sahədə ilk dəfə laisser faire kəlməsini işlədən V.Qurneni özünün müəllimi adlandırmışdır.*

Türqo Kenedən fərqli olaraq «xalis məhsul»u təbiətin hədiyyəsi hesab etməmiş, ona əkinçilikdə çalışanların əmək məhsuldarlığının nəticəsi kimi baxmışdır. Lakin, bununla belə o, fiziokratların əsas doktrinasına «xalis məhsul»un yalnız kənd təsərrüfatında yaranması fikrinə sadiq qalmışdır.

Türqo siniflərin daha konkret xarakteristikasını vermiş və o, Kenenin cəmiyyətin üç sinifə bölgüsünü məhsuldar və «bəhrəsiz» sinifi sahibkar-kapitalistlərə və muzdlu işçilərə bölərək daha da inkişaf etdirmişdir. «Bəhrəsiz» sinifi Türqo «iki dərəcəyə: manufakturaçı sahibkarlara, fabrikçi ağalara bölür, bütün bunlar iri kapital sahibləridir. Bu kapitalı alanlar öz avanslarının hesabına iş verərək mənfəət əldə etmək üçün istifadə edirlər. İkinci dərəcə öz əllərindən başqa heç bir şeyləri olmayan sadə sənətkarlardan ibarətdir; onlar da sahibkarlara avans olaraq yalnız öz gündəlik əməklərini verirlər və onların mənfəəti əmək haqqı almaqdan ibarətdir».[1] Başqa bir yerdə də qeyd edilir ki, «əkinçilər sinfi, eynilə də fabrikçilər sinfi iki dərəcə adamlara: avans verən sahibkarlara və ya kapitalistlərə və əmək haqqı olan adi fəhlələrə ayrılır»[2].

Türqo istehsalçıların sahibkarlara və muzdlu işçilərə bölünməsinin əvvəldən olmadığını, onun tədricən, bəzilərinin qənaətcil və çalışqan, digərlərinin isə bədxərc və tənbəl olması ucbatından yarandığını qeyd edir. Sonralar A.Smit də cəmiyyəti

---

[1] А.Р.Ж.Тюрго Избранные экономические произведения. М., 1961, стр. 129

[2] Yenə orada. səh. 131



downloaded from KitabYurdu.org

üç sinfə bölmüş, sahibkarların və muzdlu işçilərin tədricən yarandığını göstərmişdir. Bunlar isə onu bildirir ki, Türqo fiziokratlarla A.Smit arasında körpü olmuş və ilkin kapital yığımının əsasının qənaətçilik olması fikri gedib Türqoya çıxır.

Türqo muzdlu işçilərin əmək haqqının onların minimum yaşayış vasitələrinə meyl etməsinin səbəbini əmək təklifinin əməyə tələbdən artıq olması şəraitində işçilər arasındakı rəqabətlə izah etmişdir.

Kenedən fərqli olaraq Türqo sənaye və ticarət mənfəətini qəbul etmiş və mənfəətin nəzərdən keçirilməsinə sənaye kapitalistindən başlamışdır. Mənfəətə Türqo sahibkarın aldığı gəlir növü, kapitala faiz kimi baxmış və bu faizi torpaq rentasından çıxarmışdır. Sənaye və ticarət mənfəətinə Türqo məhsuldar sinfin xalis məhsulundan çıxma kimi baxmışdır. Onun fikrincə, kapitalist öz pulunu torpaq mülkiyyətinə çevirə bilər, deməli, pul ona alına bilən torpaq kimi mənfəət gətirməlidir.

Türqo kapitalı daha dərindən və səmərəli təhlil etmişdir. O, kapitalın yığım yolu ilə necə əmələ gəldiyini və necə istifadə olunduğunu izah etmişdir. Kapital yığımının mənbəyini «xalis məhsul»da, əsasını isə qənaətçilikdə görmüşdür. Türqo torpağa, kənd təsərrüfatına qoyulan kapitala birinci dərəcəli əhəmiyyət verməklə yanaşı, bütün sahələrdə kapitaldan istifadə ilə maraqlanmışdır. O, kapital ilə yaradılan məhsulu iki hissəyə: məsrəfə və mənfəətə bölgüsünün şərhini vermişdir. O, kapitalın istifadəsi ilə əmək bölgüsü arasındakı əlaqəyə də toxunmuşdur. Bu məsələyə sonralar A.Smit daha dərindən diqqət yetirmişdir. Türqoda istehsala qoyulmuş kapitalın öz-özünə artması qabiliyyətinə malik olması sezilir. Türqo azad rəqabət şəraitində kapitalların sahələr arasında azad axması və bunun sayəsində mənfəət normasının təbii bərabərləşməsi məsələlərini irəli sürmüşdür. Bunlar isə K.Marks tərəfindən dərindən mənimsənilmiş və təhlil edilmişdir. Deməli, bu məsələdə Türqo K.Marksın sələfi sayılır.

Türqo faizin sərmayə qoyuluşundakı rolunu ətraflı tədqiq etmişdir. Onun fikrincə, faiz borca verilən pula olan tələb və təklif ilə müəyyən olunur və ona o, iqtisadiyyatda kapitalın qıt və



downloaded from KitabYurdu.org

bol olduğunu göstərən bir barometr kimi baxmışdır. Türqo borca verilən pula tələbi istehlak və yığım xərcləri ilə müəyyən olunduğunu və əsasən beş növ yığım xərclərinin olduğunu: torpaq alımını, pulu borc verməyi, kənd təsərrüfatına, sənayeyə və ticarətə qoymağı göstərir. Türqoya görə, bunlar içərisində ən az gəlir gətirən torpaq alımıdır və faizlə pulu borc vermək isə ən yüksək gəlir gətirir. Çünki pulun borca verilməsinin riski böyükdür. Belə ki, borcalanın müflisləşməsi onun kreditorunu öz kapitalını itirməsinə gətirə bilir. Bununla yanaşı o, göstərir ki, yalnız fabrik və yaxud ferma alınmasına xərclənən pul, borca verilən pula nisbətən çox gəlir verməlidir.

*Türqo kənd təsərrüfatında «Azalan gəlir qanunu»nu ilk dərk edən və açıqlayan mütəfəkkir olmuşdur. Onun fikrincə, bir parça torpaq üzərində çoxlu əmək və sərmayədən istifadə olunması istehsalı davamlı artıra bilməz, istehsal müəyyən bir dövrdən sonra artırılan əmək və sərmayəyə baxmayaraq azalır.* Türqonun bu baxışında isə T.Maltusun «Torpağın münbitliyinin azalması qanunu» və marjinalistlərin faydalılığın və məhsuldarlığın azalması nəzəriyyələrini görmək olar.

Türqo dəyəri faydalılıq prinsipi ilə müəyyən etmişdir. Dəyəri o, nemətin istehlaka yararlı olması ilə əlaqələndirmişdir. Onun dəyər nəzəriyyəsi subyektiv dəyər nəzəriyyəsidir və onun əsasında əşyaların satıcılar və alıcılar tərəfindən subyektiv qiymətləndirilən faydalılığı durur. Sonralar faydalılıq həddi nəzəriyyəsinin nümayəndələri də bu yolla gedərək subyektiv dəyər anlayışından istifadə etmişlər.

Türqo dəyəri subyektiv və obyektiv dəyərə bölmüşdür. Subyektiv dəyər dedikdə, o, əşyaya onun sahibinin verdiyi qiymət kimi başa düşmüş, obyektiv qiymətin isə bazarda tələb və təklifdən, bir sıra digər səbəblərdən asılı olaraq əmələ gəldiyini göstərmişdir. Onun dəyər konsepsiyasında subyektiv qiymətləndirmə rəqabətin təsiri altında bazarda həm alıcıların və həm də satıcıların qəbul etdikləri qiymətə çevrilir.

Türqo pula adi əmtəə kimi baxmış və göstərmişdir ki, hər bir əmtəə pul keyfiyyətinə malikdir, çünki onunla digər əmtəələrin dəyəri ölçülür.



downloaded from KitabYurdu.org

Türqo «torpaqdan bütün yaradılan dəyər ilə istehlak olunan müxtəlif cür əmtəələr, müxtəlif növ məhsullar, məşğul olan əhalinin sayı ilə onların əmək haqqının dəyəri arasında» yaranan tarazlıqdan da danışmışdır. Bu cür tarazlığı o, «ümumi iqtisadi tarazlıq» kimi səciyyələndirmişdir.

Türqo dövlətin maliyyə işlərinin sağlamlaşdırılmasına yönəldilmiş fiziokratik ruhda vergi toplamaq hüququnu satın almaq sisteminin ləğvi və torpaq mülkiyyətindən alınan gəlirə vergiqoyma istiqamətində vergi islahatları aparmağa çalışmışdır. O da digər fiziokratlar kimi ticarət azadlığına tərəfdar çıxmışdır.



downloaded from KitabYurdu.org

# II HİSSƏ. KLASSİK ELMİ SİSTEM VƏ METODOLOGİYANIN YARANIB BAŞA ÇATMASI

## V FƏSİL. A.SMİTİN ELMİ SİSTEMİ VƏ METODOLOGİYASI

Klassik iqtisad elminin ən görkəmli nümayəndəsi **A.Smit** (1723-1790) olmuşdur. O, iqtisad elminin tarixinə klassik siyasi iqtisadın yaradıcısı kimi düşmüşdür. A.Smit Şotlandiyanın Kerkoldi şəhərində anadan olmuşdur. Onun atası gömrükxana işçisi olmuşdur. O, Qlazqo və Oksford universitetlərində təhsil almış, fəlsəfə, siyasi, sosioloji, iqtisadi və riyazi elmlər üzrə əsaslı biliklər əldə etmiş və XVIII əsrin ən görkəmli zəkalarından biri olmuşdur.

A.Smit kapitalizmin manufaktura dövründə yaşayıb yaratmışdır. Bu dövrdə İngiltərədə ilkin kapital yığımının tarixi prosesi yenicə başa çatmışdır, istehsalın manufaktura forması üstünlük təşkil etmişdir, sənaye çevrilişi təzəcə başlamışdır və ölkə yenicə azad rəqabət mərhələsinə qədəm qoymuşdur. Baş verən bu iqtisadi və siyasi dəyişikliklər merkantilist siyasətini tutarsız etmişdir. Bu zamanda burjuaziya təsərrüfatın bütün sahələrində hakim qüvvəyə çevrilmişdir. Belə olan bir vaxtda ölkədə tərəqqinin yalnız azad kapitalist iqtisadiyyatının hökmranlığı və inkişafı şəraitində mümkünlüyünü sübut edə bilən yeni təlimə ehtiyac duyulur. Bu cür təlimi isə A.Smit yaradır.

*A.Smit iqtisad elmində ilk dəfə təbii azadlıq şəraitində fəaliyyət göstərən iqtisadiyyatın elmi sistemini yaratmışdır*. O, «xalis kapitalizm» adlanan kapitalizmin prinsiplərini və qanunauyğunluqlarını açmış, iqtisad elmini müstəqil bilik sahəsinə çevirmiş, ona elmi əsaslar vermiş, onun bütövlükdə cəmiyyət haqqında elm olduğunu göstərmişdir.

A.Smit klassik iqtisad məktəbinin özündən əvvəlki nümayəndələrinin və fiziokratların iqtisadi azadlıq prinsiplərini daha da inkişaf etdirmiş və onların yaratdıqları laisser faire prin-



downloaded from KitabYurdu.org

siplərini öz tədqiqatında və iqtisadi nəzəriyyəsində əsas götürmüşdür.

A.Smit ilk əvvəl məntiq və əxlaq fəlsəfəsi ilə məşğul olmuşdur. Onun **David Yumla** (1711-1776) tanışlığı və dostluğu siyasi iqtisada marağını artırmışdır. A.Smitin fəlsəfi və iqtisadi ideyaları «Əxlaqi hisslər nəzəriyyəsi» (1759, bu onun ilk böyük əsəri olmuşdur) və «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» (1776) əsərlərində verilmişdir.

Bəziləri «Xalqların sərvəti» əsərində heç bir yeni orijinal fikrin olmamasını söyləsələr də, bu əsərdə A.Smit özündən əvvəlki iqtisadi bilikləri ümumiləşdirmiş, sistem halına salmış və onu müstəqil bir bilik sahəsinə çevirmişdir. M.Blauq yazır: «Adam Smiti siyasi iqtisadın banisi təsəvvür etmək olmaz. Bu şərəfə (ismətə) daha çox əsasla Kantilon, Kene və Türqo layiq görülə bilər. Lakin Kantilonun «Oçerki», Kenenin məqalələri, Türqonun «düşüncə»si – yaxşı halda ətraflı kitabçadır, elmin ümumi öyrənilməsidir, amma hələm elmin özü deyil. «Xalqların sətvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» - iqtisad elmində elmin ümumi əsasını – istehsal və bölgü nəzəriyyəsini, sonra bu abstrakt prinsiplərin fəaliyyətini tarixi materiallarla təhlilini və nəhayət, onların iqtisadi siyasətə tətbiqinin bir sıra nümunələrini izah edən ilk mükəmməl əsərdir»[1].

İqtisad elmində ən çox adı çəkilən adam və istinad olunan əsər A.Smit və onun «Xalqların sərvəti» əsəridir. Bu əsər nəşr olunduqdan on il sonra ingilis siyasi iqtisadının Bibliyasına çevrilmişdir. A.Smit indinin özündə də iqtisad elminin canlı siması olaraq qalmaqdadır. Onun «Xalqların sərvəti» əsəri 5 kitabdan ibarətdir. Bu əsərin əsas mövzusu iqtisadi inkişafdır – uzun müddət fəaliyyət göstərən və xalqların sərvətinin artımı ilə idarə olunan qüvvələrdir. Bu kitabın əsas vəzifəsini vergiqoymanın prinsiplərinin və dövlətin gəlirinin mənbələrinin tədqiqi təşkil edir. Smit Böyük Britaniyanın sərvətinin əsas mənbəyini sənayedə deyil, kənd təsərrüfatında görmüş, sənayedən kənd təsərrüfatını daha məhsuldar hesab etmişdir.

---

[1] М.Блауг «Экономическая мысль в ретроспективе». М., 1994, стр. 53



downloaded from KitabYurdu.org

«Xalqların sərvəti» əsərinin I kitabında iqtisad elminin əsas tədqiqat predmeti olan istehsal və bölgü üzərində dayanılır. Burada əmək bölgüsü, pulun əmələ gəlməsi və istifadə edilməsi, əmtəələrin dəyəri və qiyməti, əsas siniflərin gəlirləri təhlil edilir. İkinci kitabda kapital nəzəriyyəsi, kapital yığımı, onun təbiəti, məhsuldar və qeyri-məhsuldar əmək şərh edilir. Üçüncü kitabda kapitalizmin inkişafının tarixi şəraiti haqqında söhbət gedir. Burada Roma İmperiyasının dağılması ilə Avropanın iqtisadi inkişafının xülasəsi verilir. Dördüncü kitabda əvvəlki iqtisadi təlimlərin tənqidi təhlili verilir. Bu kitabın səkkiz fəsli merkantilizmə, bir fəsli isə fiziokratlara həsr olunmuşdur. Burada merkantilizmin nəzəri müddəaları və əməli prinsipləri kəskin tənqid edilib, Avropa ölkələrinin ticarət və müstəmləkə siyasəti öyrənilir və tənqidi təhlil edilir, laisser faire prinsipi əsaslandırılır, azad ticarətin xeyrinə əsaslı dəlillər verilir. Beşinci kitab dövlət xərclərinə və gəlirlərinə həsr olunub. Bu kitabın birinci hissəsində dövlət məsarifi, ikinci hissədə dövlət mədaxili və üçüncü hissədə dövlət borcları nəzərdən keçirilir. Burada bütövlükdə müdafiənin müxtəlif üsulları haqqında, daimi ordunun əmələ gəlməsi və inkişafı haqqında şərhi, əsrin ortasının təhsil tarixi və XVIII əsrin universitetlərin tənqidi, kilsələrin dünyəvi (dini olmayan) hakimiyyət tarixi; müasir cəmiyyətlərdə dövlət borcunun artmasının xülasəsi verilir.

A.Smit millətlərin sərvətinin və rifahının merkantilistlərin irəli sürdükləri kimi pulun miqdarının artırılması ilə təmin olunacağını qəbul etmir və milli sərvətin faydalı malların miqdarı ilə əlaqələndirir. Smitin fikrincə, cəmiyyət nə qədər çox istehsal edirsə, o qədər zəngin olur. Onun fikrincə, sərvətin mənbəyi tədavül deyil, istehsaldır. Fiziokratlardan fərqli olaraq A.Smit hesab edir ki, sərvət və yeni dəyər təkcə kənd təsərrüfatında deyil, maddi istehsalın hər bir sahəsində yaranır. Smit sərvətin əməklə yarandığını, onun əmək məhsuldarlığının yüksəlməsi şəraitində artdığını göstərmişdir.

*A.Smitin metodologiyası ikili və ziddiyyətli olmuşdur. O, bir tərəfdən iqtisadi hadisə və proseslərə analitik yanaşmış, onların*



downloaded from KitabYurdu.org

*daxilinə, mahiyyətinə nüfuz etmiş və onların daxili əlaqələrini açmış; digər tərəfdən isə təsvirçilik etmiş, onların təzahür formalarını öyrənmişdir.* Ona görə də o, hər bir hadisə haqqında müxtəlif, bir neçə fikir söyləmişdir. A.Smit klassik adlanan iqtisadçılar (A.Smit, D.Rikardo, T.Mastus, J.B.Sey, C.S.Mill və s.) içərisində iqtsadi hadisələrin mahiyyətini və onların daxili səbəb-nəticə əlaqəsini ən dərindən öyrənən adam olmuşdur. Smitin metodologiyasının ikiliyi iqtisad elminin (siyasi iqtisadın) inkişafında olduqca əhəmiyyətli olmuşdur. Bunu klassik məktəbdən sonrakı iqtisad elminin inkişafı göstərir. Onun həm analitikliyi və həm təsvirçiliyi müxtəlif iqtisadçıların və məktəblərin tədqiqatlarının metodologiyasının əsasını təşkil etmişdir. Onun analitikliyi D.Rikardo və K.Marks, təsvirçiliyi isə T.Maltus, J.B.Sey, marjinalistlər və s. tərəfindən qəbul olunub inkişaf etdirilmişdir.

A.Smitin ən yaxşı cəhəti ondan ibarətdir ki, o, *iqtisadi hadisələrə və hər bir tədbirə cəmiyyətin məhsuldar qüvvələrinin və millətin sərvətinin inkişafı nöqteyi-nəzərdən yanaşmışdır.*

A.Smitin metodologiyasının mühüm cəhətlərindən biri də onun iqtisadi hadisələrin izahında insan təbiətinə əsaslanmasıdır. O, bütün iqtisadi hadisələrin əsasına insan eqoizmini – insanın şəxsi mənafeyini qoymuşdur. A.Smit iqtisadi hadisələri və prosesləri izah edərkən fiziokratların yaratdıqları «təbii qayda» və «təbii hüquq» təlimini əsas götürmüşdür. Lakin fiziokratlardan fərqli olaraq Smitin təlimində «təbii qayda» təbiət qüvvəsi ilə deyil, insan təbiəti ilə müəyyən olunur və ona uyğun olur. Smitdə «təbii qayda» iqtisadi siyasətin prinsipi və məqsədidir, iqtisadi gerçəkliyi öyrənmək üçün nəzəri konstruksiyadır, şəxsi mənafenin və iqtisadi inkişafın kortəbii surətdə daha səmərəli şəkildə həyata keçirildiyi şəraitdir.

A.Smitin təlimində hər bir insan təbiət etibarı ilə başqalarına bərabərdir, ona görə də əxlaq prinsipləri hamıya eyni şəkildə tətbiq olunur. Onun insan və cəmiyyət haqqında baxışlarına özünün müəllimi hesab etdiyi fransız **Helvetsinin** (1694-1746) fəlsəfi baxışları mühüm təsir göstərmişdir. A.Smit yalnız onun ideyalarını inkişaf etdirmiş və onları siyasi iqtisada tətbiq etmişdir. Helvetsi hər bir kəsin fayda güdməsini insanın təbii xassəsi və onu cəmiyyətin tə-



downloaded from KitabYurdu.org

rəqqisinin amili hesab etmişdir. Onun fikrincə, kapitalist cəmiyyəti şəxsi maraq üzərində qurulmuşdur, hər bir kəs bu marağa təbii meyllidir və bu meyl yalnız başqa adamların belə təbii meyli ilə məhdudlaşır. Digər məhdudiyyət yoxdur və ola da bilməz. Bu yanaşmaya uyğun olaraq cəmiyyət çoxlu fərdlərdən ibarətdir, cəmiyyətin mənafeləri isə onun üzvlərinin mənafelərindən əmələ gəlir. O hesab edir ki, anadan olmasından və vəziyyətindən asılı olmayaraq hər bir adama öz mənafeyini güdmək sahəsində bərabər hüquq verilməlidir və bütün cəmiyyət bundan yararlanır.

Smit insanın iqtisadi fəaliyyətinin əsas məqsədini varlanmaqda, səbəbini isə özünün maddi vəziyyətini yaxşılaşdırmaqda görmüşdür. O qeyd edir ki, insanların maddi vəziyyətlərini yaxşılaşdırmağa təbii surətdə çalışmaları elə bir güclü stimuldur ki, bu stimul hətta «insan qanunlarının ağılsızlığının insanın fəaliyyətini bu qədər tez-tez çətinləşdirdiyi yüzlərlə acınacaqlı maneələri aradan qaldırmağa qadirdir».[1]

Smitə görə, hər bir kəsin maddi durumunu yaxşılaşdırmaq arzusu ana bətnindən məzara qədər bizimlə birlikdə olur və həyatımızın hər anında özünü göstərir. O hesab edir ki, hər bir kəs öz mənafeyini başqa adamlara xidmət göstərməklə, öz əməyini və əmək məhsullarını mübadilə etməklə güdə bilir. O yazır: «Axşam yeməyimiz qəssabın, pivəbişirənin və çörək bişirənin xeyirxah olduqları üçün deyil, ancaq öz faydalarını düşündükləri üçün hazır olur».[2] Bu o deməkdir ki, şəxsi mənafe özünü insan davranışının və fəaliyyətinin hər bir sahəsində göstərir. İqtisadi sahədə şəxsi mənafe əmək bölgüsünü və kapital yığımını hərəkətə gətirir, nəticədə əmək məhsuldarlığını artırır.

A.Smitin təlimində insanların iqtisadi münasibəti kortəbii yaranır, insanların davranışı mütləq «təbii» qanunlara əsaslanır və mövcud cəmiyyətin sosial-iqtisadi quruluşu ilə müəyyən olunur. Bu isə materialist yanaşmadır. Buna görə də Smit dini əxlaqi və «anadangəlmə əxlaqi hissi» rədd edərək öz iqtisadi nəzə-

---

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 395

[2] Yenə orada. Səh. 15



downloaded from KitabYurdu.org

riyyəsinin əsasına rəqabət azadlığı prinsipini qoymuşdur. Bu prinsip Smitin elmi sisteminə yüksək ideya ilə nüfuz etmişdir. Bu abstrakt prinsipi o, ictimai əməyin tətbiqinin bütün sahələrinə, hətta həkimlərə, universitet işçilərinə və keşişlərə də şamil etmişdir.

Onlar öz mənafelərini güdməklə cəmiyyətin mənafeyinə xidmət etməsi üçün Smit onlara təsbit olunmuş formada yox, nəticələrə görə əmək haqqının verilməsini məqsədə uyğun sayır. O, müəllimlərin haqqının şəxsi adamların qonorarları, üstə gəl əlavə kimi təqaüd formasında məhdud təsbit olunmuş məbləğlə ödənilməsini üstün tutmuşdur. Onun fikrincə, təsbit olunmuş əmək haqqı alaraq müəllim heç vaxt tam gücü ilə işləməyəcəkdir.

*A.Smitin elmi sisteminin canını şəxsi və ictimai mənafeləri tarazlaşdıran «görünməyən əl»in fəaliyyəti təşkil edir.* Smitə görə, insan ağılı tək başına «ictimai ahəngi» təmin etməyə yetərli deyil və onun «görünməyən əl» məfhumu ilahi gücün sosial qanunvericilik mexanizmini düzəldən dolayı, şəxsi mənafe ilə ictimai fayda arasında təbii bir uyğunluq yaradan, daha doğrusu, azad bazarın avtomatik tarazlıq mexanizmidir. Smitin sistemində hər bir kəs öz mənafeyini güdərkən «görünməyən əl»in vasitəsilə cəmiyyətin rifahı da artır. O, qeyd edir ki, insanlar öz mənafelərini güdməklə, eyni zamanda cəmiyyəti inkişaf etdirir. O, hesab edir ki, əgər hər bir kəsə öz mənafeyini, öz qazancını ağıllı surətdə güdmək imkanı verilsə, onda bu, bütün cəmiyyətin sərvətinin artmasına və çiçəklənməsinə kömək edər. Smit yazır: «Hər bir ayrıca adam öz kapitalından elə qaydada istifadə etməyə çalışır ki, onun məhsulu daha böyük dəyərə malik olsun. Adətən o, ictimai fayda haqqında heç düşünmür də və bu faydaya nə qədər kömək etdiyini heç anlamır da. O, özünün yalnız şəxsi mənafeyini nəzərdə tutur, lakin bir çox digər hallarda olduğu kimi bu halda da o, bir görünməyən əllə heç onun niyyətlərinə daxil olmayan məqsədə doğru yönəldilir. O, özünün şəxsi mənafeyini



downloaded from KitabYurdu.org

güdməklə şüurlu surətdə bunu etməyə çalışdığından tez-tez daha gerçək şəkildə cəmiyyətin mənafeyinə xidmət etmiş olur».[1]

*Beləliklə, A.Smit ilk dəfə olaraq iqtisadiyyatın insanların iradəsindən asılı olmayan obyektiv qanunların fəaliyyət göstərdiyi bir sistem olması haqqında təlim işləyib hazırlamışdır.* O, iqtisad elmini ictimai və bütöv iqtisadiyyat haqqında elmə çevirmiş və onu siyasi iqtisad kimi şərh etmişdir. Bunu onun cəmiyyətin sosial problemlərini və siniflər arasındakı münasibətləri tədqiqat obyektinə çevirməsi və tədqiqi; maddi mənafeləri müəyyən edən və ona istiqamət verən sosial şərtlərin xüsusiyyətlərinə daima müraciət etməsi və şəxsi mənafeyin güclü vadaredici qüvvəsi yalnız (tamamilə) mükəmməl şəkildə müəyyən institusional şəraitlərdə cəmiyyətin mənafeyilə uyğun fəaliyyət göstərdiyini qeyd etməsi açıq aydın göstərir. «Xalqların sərvəti» əsərinin girişi, birinci və ikinci kitablarının mövzuları göstərir ki, A.Smit siyasi iqtisada maddi nemətlərin istehsalının, mübadiləsinin, bölüşdürülməsinin və istehlakının obyektiv qanunlarını öyrənən elm kimi baxmışdır. Onun fikrinə görə, siyasi iqtisadın tədqiqatının vəzifəsi sərvətin təbiətini və mənbələrini öyrənmək, xalqın rifahının təmin edilməsi yollarını axtarmaqdır. O, siyasi iqtisadın qarşısına xalqın varlanması məqsədini qoymuşdur. Hesab edir ki, siyasi iqtisad iqtisadi tədqiqatı elə bir istiqamətdə aparmalıdır ki, o, «xalq üçün bol gəlir və yaşayış vasitələri təmin edə bilsin, daha doğrusu, bu vasitələri əldə edə bilmək üçün ona imkan təmin edə bilsin»[2]. Eyni zamanda o, qeyd edir ki, siyasi iqtisadın vəzifələrindən biri «dövlətə və yaxud cəmiyyətə ictimai tələbat üçün lazımi qədər gəlir gətirməkdir».[3] Smitin xidməti ondan ibarətdir ki, o, tədqiqat predmeti kimi tədavülü deyil, istehsalı – özü də hər hansı bir ayrıca sahədəki istehsalı deyil, maddi istehsalın

---

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 332

[2] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 313

[3] Yenə oradan. səh. 313



downloaded from KitabYurdu.org

bütün sahələrindəki istehsalı götürmüşdür. O, öz diqqətini istehsalın texniki tərəfinə deyil, sosial-iqtisadi tərəfinə yönəltmişdir.

*A.Smit siyasi iqtisada həm pozitiv və həm də normativ elm kimi baxmışdır.* Onun pozitivliyi gerçəkliyi, gerçəklikdə nə varsa onu öyrənməsidirsə, normativliyi isə cəmiyyəti necə dəyişdirmək, konkret olaraq Smit üçün sərvətin artması üçün nə etməli və necə etməli sualına cavab verməyə çalışmasıdır. Smit tədqiqatında pozitiv və normativ yanaşma qaydaları üzvü şəkildə bir-birilə sıx əlaqələndirmiş və istənilən iqtisadi konsepsiyada biri digərini tamamlamışdır.

A.Smit **proteksionizmə** (iqtisadiyyata dövlətin himayəsi) və inhisarçılığa qarşı olmuş, iqtisad və ticarət azadlığı tərəfdarı olmuşdur. İqtisadiyyatda hər şeyi qüvvələrin azad oyununun sərəncamına verməyi lazım bilmişdir. Dövlətin iqtisadi siyasətinin obyektiv qanunlara əsaslanmasını zəruri hesab etmişdir. İnsanın təbii azadlığını və iqtisadi fəaliyyətini məhdudlaşdıran bütün tədbirlərə qarşı mübarizə aparmışdır. Smitdə insanın təbii azadlığı: satmaq və satın almaq, işçi tutmaq və işçi olmaq, istehsal etmək və istehlak etmək azadlığı kimi başa düşülür. A.Smit dövlətin funksiyasını yalnız mülkiyyət hüququnu qorumaqda, ölkənin müdafiəsini təmin etməkdə və bəzi növ ictimai xidmətləri yerinə yetirməkdə görmüşdür. Onun «Xalqların sərvəti» əsərinin iqtisadi ideyalarının ilk rüşeymləri sayılan Qlazqo Universitetində oxumuş olduğu mühazirələrin dərc edilmiş materiallarında göstərilir ki, «nə qədər ki, mülkiyyət yoxdur, dövlət də ola bilməz. Elə dövlətin məqsədi varlıların sərvətini qorumaqdan və varlıları kasıblardan müdafiə etməkdən ibarətdir».[1]

Digər mühazirə materialında göstərilir: «Dövlət xadimləri və xəyalpərəstlər (yəni siyasətçilər – A.A.) tərəfindən insan, bir qayda olaraq, siyasi mexanika üçün adi bir material kimi nəzərdən keçirilir. Xəyalpərəstlər insan işlərinin təbii gedişini pozurlar; axı təbiəti özbaşına buraxmaq və öz məqsədlərini güdməsində və öz xüsusi layihələrinin həyata keçirilməsində ona tam azadlıq

---

[1] Sitat buradan: A.Аникин «Елмин кәнчлији». Б., 1987, səh. 187 götürülmüşdür.



downloaded from KitabYurdu.org

vermək lazımdır… Dövləti barbarlığın ən aşağı pilləsindən firavanlığın ən yüksək pilləsinə qaldırmaq üçün yalnız sülh, yüngül vergilər və idarəçilikdə səbr lazımdır; bütün yerdə qalanları şeylərin təbii gedişi həll edəcəkdir. Hadisələri məcburi surətdə başqa yola istiqamətləndirən və ya cəmiyyətin inkişafını dayandırmağa çalışan bütün hökumətlər qeyri-təbiidirlər. Hakimiyyətdə qala bilmək üçün onlar zülm və zorakılıqla məşğul olmağa məcburdurlar».[1]

Bütün bunlarla yanaşı, A.Smit təbii azadlığın mənfi meyllərini də qeyd etmişdir. O qeyd edir ki, əgər hər şey təbii gedişə tabe edilmiş olsa, əhalinin xeyli hissəsində pozğunluq halı yarana bilir. O, bunun qarşısını dövlətdən başqa ala biləcək digər bir qüvvə görməmişdir.

A.Smitin sistemində əmək bölgüsünü, mübadilə və mübadilə dəyəri kateqoriyaları əsas kimi götürülmüşdür. Onun tədqiqatının çıxış nöqtəsi əmək bölgüsü olmuşdur. O, öz tədqiqatını əmək bölgüsündən başlamışdır və onu ictimai əmək məhsuldarlığının artırılmasının, sonuncunun isə sərvəti artırmağın başlıca amili hesab etmişdir. Buna görə də, o, bütün iqtisadi prosesləri əmək bölgüsü mövqeyindən nəzərdən keçirmiş və hər bir kəsin öz mənafeyini əmək bölgüsü yolu ilə təmin etdiyini qeyd etmişdir. Əmək bölgüsünün özünü sənaye müəssisəsi daxilində funksional ixtisaslaşma kimi başa düşmüşdür və onun insanların mübadiləyə təbii meyili olması ilə şərtləndiyini göstərmişdir. Bununla yanaşı o qeyd edir ki, əmək bölgüsünün dərinliyi bazarın həcmi ilə sıx əlaqədardır, yəni bazar nə qədər genişdirsə, istehsalçıların ixtisaslaşması bir o qədər dərin olur.

Smit hər cür sərvətin mənbəyini tək bir əməkdə görmüş və onun əmək bölgüsü ilə artdığını qeyd etmişdir. Kapital yalnız, o əməyə nə kimi məşğulluğun verməsi əndazəsində (dərəcəsində) əhəmiyyətli olur. Smit fiziokratlardan fərqli olaraq milli sərvətin əsas mənbəyini «təbiət»də deyil, «insan əməyi»ndə görmüşdür. Ona görə, əməyin iştirakı olmadan nə torpaq, nə də kapital heç bir şey istehsal etmir. Lakin Smitin gəlirin bölgüsünə «funksional»

---

[1] Sitat yenə oradan götürülmüşdür.



downloaded from KitabYurdu.org

tərzdə yanaşması, onun əmək, kapital və torpağın ayrı istehsal amilləri olduğunu düşünməsini və bu amillərin illik istehsaldakı payları: əmək haqqı, mənfəət və renta olaraq almağa haqq qazandıqlarını qəbul etdiyini göstərir. Bu cür düşüncə isə J.B.Sey tərəfindən istehsal amili nəzəriyyəsinin yaranmasına yol açmışdır. Smit cəmiyyətin sərvətinin iki amildən: 1) əhalinin məhsuldar əməklə məşğul olan hissəsindən və 2) əmək məhsuldarlığından asılı olduğunu göstərmişdir. Burada ikinci amilə olduqca böyük üstünlük vermişdir. O, sənayenin manufaktura dövründə yaşadığından maşınlı istehsala diqqət yetirməmiş və əmək məhsuldarlığının yüksəldilməsini, hətta ərazi və sahələrin inkişafının qeyribərabərliyini əmək bölgüsü ilə əlaqələndirmişdir. Kənd təsərrüfatının inkişafının sənayedən geri qalmasının səbəbini, hər şeydən əvvəl, kənd təsərrüfatının özünün xüsusiyyətlərinin əmək bölgüsünün inkişafına törətdiyi maneçilikdə görmüşdür.

Manufaktura daxili əmək bölgüsünün inkişafı: 1. Hər bir fəhlənin çəldliyi və qabiliyyətinin artması; 2. Bir əmək növündən digərinə keçdikdə itirilən vaxta qənaət edilməsi; 3. Maşınların ixtirası ilə nəticələnir ki, bunlar da əmək məhsuldarlığının yüksəldilməsinə səbəb olmuşdur.

Smit manufaktura daxili əmək bölgüsünün mənfi nəticələrini də göstərmişdir. Əmək bölgüsünün inkişafı işçiləri fiziki və mənəvi tənəzzülə düçar edir, fəhləni kapitalın əlavəsinə və hissə fəhləsinə çevirir. O göstərir ki, fəhlənin «çevikliyi və qabiliyyəti onun zehni, sosial və hərbi keyfiyyətlərinin hesabına qazanılmış çeviklik və qabiliyyət kimi təsəvvür olunur. Lakin hər bir inkişaf etmiş sivilizasiyalı cəmiyyətdə bu cür vəziyyət labüd surətdə zəhmətkeş füqəralar, yəni xalqın əsas kütləsi, əgər hökumət bunun qarşısını almaq üçün səy göstərmirsə düşür».[1]

Smit əmək bölgüsünə, onun ictimai formasından asılı olmayan mücərrəd formada baxmış, manufaktura daxili əmək bölgüsü ilə cəmiyyət daxili əmək bölgüsü arasında prinsipial fərq qoymamışdır. Bütün cəmiyyəti nəhəng bir manufaktura, əmək

---

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 557



downloaded from KitabYurdu.org

bölgüsünə isə insanların iqtisadi əməkdaşlığının ən ümumi forması kimi təsəvvür etmişdir.

Smit hesab edir ki, əmək bölgüsü insanlar arasında onların əmək məhsullarının mübadiləsinə səbəb olur. O göstərir ki, əmək bölgüsü və mübadilə əməyə qənaət edir. Belə ki, ixtisaslaşmış işçi ixtisaslaşmamışdan məhsuldardır və əgər sonuncu ona lazım olan bütün məhsulları özü hazırlamalı olsa idi, onda onları əmək bölgüsü əsasında istehsal olunan öz məhsuluna mübadilə etməklə əldə etdiyindən daha çox əmək sərf etmiş olardı.

Smit hesab edir ki, əmək bölgüsünün inkişafı və mübadilənin genişlənməsi paralel gedir və daima bir-birini şərtləndirir və hərəkətə gətirir. Bu prosesdə pul mühüm rol oynayır. Onun fikrincə, pulsuz müntəzəm mübadilə mümkün deyildir. O, pulun yalnız mübadilə funksiyasına xüsusi diqqət yetirmişdir. Tədqiqatını əmtəənin təhlilindən deyil, pulun təhlilindən başlamış və pulu ən ümumi ekvivalent olan xüsusi bir əmtəə kimi təsəvvür etmişdir. Bununla belə o, pula yalnız iqtisadi proseslərin gedişini asanlaşdıran texniki vasitə kimi baxmışdır və onu «tədavülün böyük təkəri» adlandırmışdır. Qızıl və gümüşü kağız pulla əvəz etməyi və onun məhdud kəmiyyətdə banklar tərəfindən buraxılmasını məqsədəuyğun saymışdır. Smit krediti ancaq kapitalın aktivləşdirilməsi vasitəsi kimi nəzərdən keçirmiş və ona olduqca az diqqət yetirmişdir. O, pul və kredit amillərinin müstəqilliyini və onların istehsala əks təsirini lazımınca qiymətləndirməmişdir. Onları istehsaldan asılı və ondan əldə etmişdir.

A.Smitin iqtisadi tədqiqatında mərkəzi yeri dəyər nəzəriyyəsi tutur. Onun dəyər nəzəriyyəsi çoxcəhətli və olduqca ziddiyyətli nəzəriyyədir. Smit dəyəri xərc prinsipi ilə müəyyən etmiş və onun dəyər nəzəriyyəsi istehsal xərcləri və ekvivalent mübadilə nəzəriyyəsidir.

A.Smit ilk dəfə olaraq əmtəənin iki dəyərini: istehlak və mübadilə dəyərlərini daha dəqiq müəyyən etmiş və bir-birindən fərqləndirmiş, əsas diqqəti isə mübadilə dəyərinə vermiş, onu dəyər kimi təhlil etmişdir. O, mübadilə dəyərini, yəni dəyəri istehlak dəyərindən çıxarmamış, istehlak dəyərinin mübadilə dəyə-



downloaded from KitabYurdu.org

rinin zəruri şərti olduğunu da qeyd etmişdir. «İstehlak dəyəri» adı altında Smit ayrı-ayrı predmetlərin həddi faydalılığını deyil, bütöv əmtəələr qrupunun tam faydalılığını başa düşmüşdür. Onun təsəvvüründə faydalılıq hər hansı bir konkret tələbatı deyil, ümumi-bioloji və ya sosial tələbatı ödəmək imkanından ibarətdir. Onun dəyər nəzəriyyəsində almaz və suyun mübadilə dəyərinin nisbəti, onların istehlak dəyərinin nisbəti ilə heç bir uyğunluq tapmır. O yazır ki, «Ən böyük istehlak dəyərinə malik olan şeylər olduqca aşağı mübadilə dəyərinə malikdir. Hətta, bəzən heç mübadilə dəyəri olmayan, əksinə çox böyük mübadilə dəyərinə malik olan şeylər olduqca çox, ya az istehlak dəyərinə malikdir və ya heç istehlak dəyəri yoxdur. Heç bir şey sudan daha faydalı deyildir, lakin suyla lap nadir olan bir şey satın alına bilinmir, su nadir olan lap az şeylə dəyişdirilə bilir. Buna əvəz bir almazın çox məhdud istehlak faydası vardır, lakin onunla dəyişdirilə biləcək çox sayda başqa mal vardır»[1].

Sitatdan göründüyü kimi, Smit mübadilə dəyərini faydalılığı nəzərə almadan izah etmişdir. Smitin mübadilə dəyəri nəzəriyyəsi əmək-dəyər nəzəriyyəsidir. O, əməyi dəyərin həm mənbəyi və həm də ölçüsü hesab etmişdir. Smit dəyərin kəmiyyətini əməyin miqdarı ilə ölçür və əmtəənin mübadiləsinin ancaq onların istehsalına sərf olunan əməklə tənzimləndiyini göstərmişdir. Smit yazır ki, hələ ibtidai zamanlarda «müxtəlif şeylərin mübadiləsində ölçü rolunu oynayan ancaq əmək olmuşdur»[2]. O, əmtəə dəyərinin kəmiyyətini əməyin miqdarından asılılığını bu cür şərh etmişdir: «İki gün və ya iki saatlıq əməyin məhsulu olan bir şey bir gün və ya bir saatlıq əməyin məhsulu olan şeydən iki dəfə çox dəyərə malik olacaqdır»[3] . O göstərmişdir ki, hər şeyin həqiqi qiyməti həmin şeyi əldə etmək üçün olan əməyin və ya gücün məsrəfindən ibarətdir.

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 37

[2] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр.42-43

[3] Yenə orada. səh. 50



downloaded from KitabYurdu.org

Smit dəyərin mübadilə dəyərində, digər əmtəələrlə olan kəmiyyət nisbətində, inkişaf etmiş əmtəə istehsalında isə pulda ifadə olunması qanunauyğunluğunu göstərmişdir. O hesab edir ki, mübadilə dəyəri əmtəənin həqiqi qiymətidir, əmtəələrin mübadiləsi isə onlarda maddiləşmiş müxtəlif miqdarda əməyin mübadiləsidir. Ona görə də, onun fikrincə, mübadilə dəyəri əməklə müəyyən olunur.

Əsası U.Petti tərəfindən qoyulmuş dəyər (təbii qiymət) nəzəriyyəsini Smit inkişaf etdirmişdir. Smit Pettidən fərqli olaraq əmtəənin dəyərini onun pul formasından, qiymətindən daha dolğun ayırmışdır. O, əmtəənin «həqiqi» və «nominal» qiyməti arasında fərq qoyur. «Həqiqi qiymət» dedikdə, o, əmtəənin dəyərini başa düşür. Smit yazır ki, «əmək özlüyündə bütün əmtəələrin mübadilə dəyərinin həqiqi ölçüsüdür»[1].

Smitə görə, «nominal qiymət» dəyərin pulla ifadəsidir. O yazır ki, «əmtəələrin pul qiyməti adı altında mən həmişə onların satıldığı təmiz qızılın və ya gümüşün miqdarını başa düşürəm»[2].

Smitə görə, əmtəələrin bazar qiyməti tələb və təklifin təsiri altında əmələ gəlir, ona görə də o, «həqiqi» və «nominal» qiymətlərdən fərqlənir. Smit həmçinin bazar qiymətlərinin «təbii qiymət»dən (dəyərdən) uzun müddət kənara çıxmasına səbəb ola biləcək amilləri təhlil etmiş və bu cür təhlilin əsasını qoymuşdur. Bu amillərdən o, inhisarı ən mühüm amil hesab etmişdir.

Smit dəyərin kəmiyyətinin ayrıca əmtəə istehsalçısının əmək məsrəfləri ilə deyil, cəmiyyətin mövcud vəziyyətində orta zəruri məsrəflərlə müəyyən olunduğunu göstərmişdir. O, həmçinin ixtisaslı və mürəkkəb əməyin ixtisassız və sadə əməklə müqayisədə vaxt vahidi ərzində daha çox dəyər yaratdığını da qeyd etmişdir.

Smit əməyin niyə dəyər ölçüsü olduğunu izah edərkən, o, işçi həmişə öz əməyinə fəda, azadlıqdan və istirahətdən imtina etmək kimi baxmasına əsaslanır. Əgər insan nə isə verirsə, o,

---

[1] Yenə orada. səh. 28

[2] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 49



downloaded from KitabYurdu.org

əvəzində bərabərdəyərli bir şey tələb edir, bu halda əmtəə, onun istehsalı üçün o, elə bu cür fəda çəkməlidir.

Smitin faktiki olaraq bir-birinə əks olan iki dəyər nəzəriyyəsi olmuşdur: 1) əmtəənin mübadilə dəyərinin (dəyəri) onların istehsalı üçün zəruri olan maddiləşmiş əməyin kəmiyyəti ilə müəyyən olunan dəyər; 2) onun mövcud əmtəə ilə satın alına bilən canlı əməyin miqdarı ilə müəyyən olunan dəyər. Smit əmtəələrin ekvivalent mübadiləsinə əsaslandığından, onun konsepsiyasında dəyərin bu iki müəyyənliyi eyni cür doğrudur və burada heç bir ziddiyyət yoxdur.

Smitin əmək-dəyər nəzəriyyəsinin ziddiyyəti ondadır ki, o, əməklə kapital arasındakı mübadilə prosesini və əmtəələrin reallaşmasında əmələ gələn gəlirlərin təhlilini əmək-dəyər mövqeyindən apara bilməmişdir. O, dəyərin ikinci müəyyənliyini kapitalist istehsalına tətbiq edə bilməmişdir. Ona görə də o, belə bir nəticə çıxarır ki, dəyər yalnız kapitalistlərin, muzdlu işçilərin və torpaq üzərində xüsusi mülkiyyətçilərin və kapital yığımı olmadığı «cəmiyyətin ibtidai vəziyyətində», yəni sadə əmtəə istehsalında əməklə müəyyən olunur. Kapitalizm şəraitində isə əmtəənin dəyəri gəlirlərlə müəyyən olunur. Bununla o, dəyərə üçüncü müəyyənlik vermiş olur. Bu müəyyənliyə görə, kapitalizmdə əmtəənin dəyəri əmək haqqı, mənfəət və rentanın məbləğindən ibarətdir. Bununla da o, dəyəri istehsal qiyməti və istehsal xərcləri ilə eyniləşdirir və bu cür dəyər konsepsiyasında əmək ilə yanaşı kapital və torpaq da dəyərin yaradılmasında iştirak edir. Lakin buna baxmayaraq A.Smit gözəl başa düşürdü ki, əmtəənin dəyərinin tərkib hissəsi kimi gəlirlərin özü də son nəticədə əməklə müəyyən olunur. O, aydın dərk edir ki, mənfəət və renta əmtəə istehsalına çəkilən əməklə müəyyən olunan dəyər məzmununa malikdir. O, yazır ki, «əmək təkcə əmtəənin qiymətinin əmək haqqına düşən hissəsinin deyil, həm də rentaya və mənfəətə düşən hissəsinin dəyərini müəyyən edir».[1]

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 52



downloaded from KitabYurdu.org

Smit gəlirin üç əsas növünü: əmək haqqını, mənfəəti və rentanı qəbul etmiş və onları bir-birindən fərqləndirir. O, faizi əsas gəlirlərdən törəmə adlandırmışdır. O hesab edir ki, üç gəlirdən yalnız əmək haqqı əmək gəliridir, mənfəət və torpaq rentası isə fəhlənin əməyi ilə yaradılan əmək məhsulundan çıxmadır. Bununla Smit öz əməyi ilə cəmiyyətin bütün sərvətini yaradan fəhlə özünün fəaliyyətinin məhsulunu tam mənimsəmədiyini göstərmiş olur. Smit hesab edir ki, kapitalizm şəraitində fəhlə özgəsinin torpağında və o, onu muzdla tutan kapitalist sahibkarın əmək aləti və materialları ilə işlədiyindən onun əməyinin bütün məhsulları artıq ona məxsus olmur. Bu halı o, istehsal vasitələrinin və torpağın xüsusi mülkiyyətə çevrilməsi və onun inhisarı ilə əlaqələndirir. Ona görə də o, iri torpaq sahibkarlığının və inhisarçılığın əleyhdarı idi və torpaqların parçalanmasına mane olan qanunların ləğv edilməsini tələb edirdi. Torpaqları onlardan daha qənaətlə istifadə etməyi bacaran sahibkarların sərəncamına verməyi təklif edirdi.

Smit əməyin əmtəə olduğunu güman edir və əmək haqqını əməyin təbii qiyməti adlandırır. Əmək haqqının kəmiyyətini fəhlənin və onun ailəsinin yaşayışı üçün zəruri olan vasitələrinin dəyəri ilə müəyyən edir. O hesab edir ki, əmək haqqı insanın yaşaması üçün kifayət edən səviyyədən bir qədər yüksək olmalıdır. Smit başa düşür ki, əmək haqqının kəmiyyəti təkcə yaşayış vasitələrinin fiziki minimumu ilə müəyyən olunmur. O, özündə tarixi və mədəni ünsürləri də əks etdirir.

Smit hesab edir ki, kortəbii bazar mexanizmi təbii əmək haqqını müəyyən səviyyədə saxlayır. Əmək haqqının artması fəhlə ailələrində doğumun artmasına, çoxlu sayda uşağın yaşamasına və bunun nəticəsində iş qüvvəsinə təklifin və fəhlələr arasında rəqabətin artmasına səbəb olur. Bu amillərin təsiri altında əmək haqqının normal səviyyəsi aşağı düşür ki, bu da əks meylə: doğumun aşağı düşməsinə, uşaq ölümünün artmasına, iş qüvvəsinə tələbin artmasına və sahibkarlar arasında rəqabətin güclənməsinə səbəb olur. Nəticədə əmək haqqı yenidən artır, əməyə olan tələb və təklif bərabərləşir. Smit göstərir ki, insanlara olan



downloaded from KitabYurdu.org

tələb istənilən digər əməyə olan tələb kimi insanların istehsalını tənzimləyir.

Smit əmək haqqının aşağı olmasının, onun fiziki minimuma yaxınlaşmasının başlıca səbəblərindən birini kapitalistlərə münasibətdə fəhlələrin zəif mövqe tutmalarında görür. O, hesab edir ki, iqtisadi tərəqqi dövründə əmək haqqı artmalıdır, çünki inkişaf etməkdə olan iqtisadiyyatda əməyə böyük tələbat olur. Smit zəhmətkeş füqəralara, fəhlə sinfinə böyük rəqabətlə yanaşır. O deyir ki, «əgər cəmiyyətin böyük bir hissəsi kasıb və bədbəxtdirsə, o, inkişaf edib xoşbəxt ola bilməz. Ədalətsizlikdir ki, öz əməyi ilə bütün cəmiyyəti dolandıran adamlar dilənçi həyatı keçirsinlər».

Bütün qüvvəsi ilə Smit yüksək əmək haqqı uğrunda mübarizə aparır. Yüksək əmək haqqını əmək məhsuldarlığının mühüm stimulu və əhalinin artmasının amili və həm də onun nəticəsi hesab edir. Lakin, bununla belə hesab edir ki, təbii qanunlar fəhlələri cəmiyyətdə acınacaqlı vəziyyətə düçar edir və fəhlənin mənafeyi cəmiyyətin mənafeyi ilə sıx bağlı olsa da, o, nə bu mənafeyi dərk etməyə, nə də onun öz xüsusi mənafeyi ilə əlaqəsini başa düşməyə qadirdir.[1]

Smit burjuaziyanı mütərəqqi sinif hesab edir və onun mənafeyini müdafiə edir. Smit üçün kapitalist tərəqqinin, millətin sərvətinin artmasının təbii və simasız alətidir. O, burjuaziyanın mənafeyi cəmiyyətin məhsuldar qüvvələrinin mənafeyinə uyğun gəldiyi dərəcədə onun tərəfdarı kimi çıxış edir. Lakin Smit özlüyündə kapitalistlərə zərrə qədər də olsun rəğbət bəsləməmişdi. O hesab edir ki, mənfəət ehtiyacı bu adamları azdırır və amansızlaşdırır, öz mənfəətləri üçün onlar cəmiyyətin mənafeyinə qarşı hər cür hərəkət etməyə hazırdılar. Onlar bütün qüvvələrilə öz əmtəələrinin qiymətlərini artırmağa və öz fəhlələrinin əmək haqqını aşağı salmağa çalışırlar. Sənayeçilər və tacirlər daim azad rəqabəti boğmağa, cəmiyyət üçün zərərli olan inhisar yaratmağa çalışırlar.

---

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962,. стр. 194



downloaded from KitabYurdu.org

Lakin bunlara baxmayaraq A.Smit son nəticədə kapitalizmi təbii və əbədi cəmiyyət adlandırır.

Smit mənfəəti izafi dəyər kimi verir. O, mənfəət anlayışını ictimai əməyin bütün sferalarına şamil edir. Mənfəətin fəhlənin öz əməyi ilə istehsal vasitələrinə yeni dəyər əlavə etməsi nəticəsində yarandığını və bu dəyərin bir hissəsinin fəhlənin əmək haqqını, digər hissəsinin isə kapitalistin mənfəətini təşkil etdiyini göstərir. Smit yazır: «Ayrı-ayrı şəxslərin əlində yığılan ehtiyatlar meydana gəldikdə təbiidir ki, onların bəziləri həmin ehtiyatlardan dərhal istifadə etməyə başlayır, əməksevən adamlara iş verir, onları materialla və yaşayış vasitələri ilə təchiz edirlər ki, emal olunan materialların dəyərinə bu fəhlələrin əməyinin əlavə etdiyi şeydən mənfəət götürsünlər. Fəhlələrin əməyi ilə yaradılan məhsulun bir hissəsini, yaxud emal etdikləri materiala öz əməkləri ilə əlavə etdikləri dəyərin bir hissəsini bu sahibkar əldə etməlidir. Sahibkarın mənfəətini məhz bu hissə təşkil edir».[1]

İşçinin öz əməyinin məhsulunun hamısı bu vəziyyətdə heç də həmişə özünün olmur. İşçi əməyin məhsulunu, onu işə götürən kapital sahibi ilə əksər halda bölüşməli olur. Buna görə də fəhlələrin materiala əlavə etdikləri dəyər, indi (kapitalist istehsalı meydana gələndən bəri) iki hissəyə ayrılır. Bunlardan birincisi onların əmək haqqını ödəyir, ikincisi sahibkar təərfindən əmək haqqı və emal olunan material şəklində avans verilmiş kapitalın bütün məbləği üçün mənfəəti ödəyir.

K.Marks qeyd etmişdir ki, Smit mənfəəti fəhlənin öz əmək haqqını ödəmək üçün işlədiyindən artıq sərf etdiyi əməyin nəticəsi hesab etməklə «izafi dəyərin əsl mənşəyini duymuşdur».

Lakin bununla yanaşı A.Smit hesab edir ki, mənfəət kapitalistin kapitala görə aldığı haqqdır, onun yaşayış fondudur. Smit yazır: «Kapital sahibi istehsal etdiyi məhsulun satışından, sərf etdiyi kapitalları ödəmək üçün lazım olan məbləğdən artıq pul əldə edə bilməsə, onun işçi tutmağa marağı olmaz. Mənfəət

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр.50-51



downloaded from KitabYurdu.org

kapitalistlərin yaşamağı üçün lazım olan vəsaiti təmin edən həqiqi bir fonddur».

O, mənfəətin «nəzarət və idarəetmə»dən ibarət xüsusi əmək növü üzrə yalnız əmək haqqı olması haqqında iddianı qəti surətdə rədd edir. Smit göstərir ki, mənfəətin miqdarı, kəmiyyəti kapitalın miqdarı ilə müəyyən edilir və bu, əməyin güman edilən ağırlığı ilə bağlı deyildir.

Smit mənfəətə bütün avans olunmuş kapitalın törəməsi kimi baxır. O, həmçinin yaxşı başa düşür ki, bərabər kapital bərabər mənfəət gətirməlidir. Mənfəət normasının aşağı düşməsi meylini qeyd edir və göstərir ki, mənfəət inkişaf etmiş ölkələrdə daha aşağıdır. Mənfəət normasının aşağı səviyyəsini millətin iqtisadi inkişafının və sağlamlığının təzahürü kimi təsvir edir.

Smit rentanı da izafi dəyər kimi göstərir. Renta əkinçilikdə sərf olunan əməyin məhsulundan çıxma olduğunu qeyd edir və onda inhisar elementi görür. O yazır: «Bu və ya digər ölkədə bütün torpaqlar xüsusi mülkiyyətə çevrildiyi vaxtdan torpaq mülkiyyətçiləri də, bütün başqa adamlar kimi əkmədikləri yerdə biçmək istəyirlər və hətta torpağın təbii bəhrələri üçün də renta tələb etməyə başlayırlar… İşçi öz əməyi ilə yığdığının və ya istehsal etdiyinin bir hissəsini torpaq mülkiyyətçisinə güzəşt etməlidir. Bu hissə – torpaq rentasını təşkil edir».[1]

Başqa bir yerdə yazır ki, «torpaq xüsusi mülkiyyətə çevrildikdə, torpaq mülkiyyətçisi, işçinin həmin torpaqda yetişdirə və ya toplaya bildiyi məhsulun demək olar hamısından özünə dərhal müəyyən bir pay tələb edir. Onun rentası, torpağın becərilməsinə sərf edilmiş əmyin məhsulundan birinci çıxılmalıdır».

Əgər mənfəət və əmək haqqı qiymətə münasibətə görə birincidirsə, renta isə ona münasibətə görə ikincidir. Renta qiymət ilə əmək haqqı və mənfəətin fərqidir. Ona görə də istehsal xərclərini aşağı salan bir şey rentanı artırır. Smit qeyd edir ki, həqiqi sərvətin hər cür artımı onda tətbiq olunan əməyin miqdarının hər cür artımı dolayısı torpaqdan əldə olunan rentanın yüksəl-

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 52



downloaded from KitabYurdu.org

məsinə gətirib çıxarır. Əks meyl isə torpaqdan əldə olunan rentanın aşağı düşməsinə səbəb olur.

Smit diferensial rentanın əlamətlərini də göstərmişdir. O söyləyir ki, «daha münbit və ya bazarlara daha yaxın olan torpaqlar artıq renta verirlər. Torpaq rentası nəinki torpağın… yalnız münbitliyindən, habelə onun məkanından da asılı olaraq dəyişir. Şəhər yaxınlığındakı torpaqlar, ölkənin uzaq yerlərindəki eyni dərəcədə münbit torpaqlardan daha artıq renta verir».

Bu fikirlərlə yanaşı, Smit torpaq rentasını, torpaq sahibinin təbii mükafatı da adlandırır. A.Smitin renta nəzəriyyəsində fiziokratik elementlər də vardır. O göstərir ki, kənd təsərrüfatında təbiət də insanla işləyir və ona görə də renta – əkinçilikdə təbiətin insana köməyinin nəticəsidir. Əkinçilik istehsalını Smit cəmiyyət üçün kapital tətbiqinin ən əlverişli sferası sayır. Beləliklə, Smitdə dəyərin və gəlirlərin iki konsepsiyası açıq-aydın öyrənilmişdir. Bunlardan birincisi əmək-dəyər nəzəriyyəsini əks etdirir, yəni mübadilə dəyəri (və yaxud dəyər) əməklə yaranır və uyğun olaraq fəhlənin, kapitalistin və torpaq mülkiyyətçisinin payına düşən üç gəlirə bölünür. İkincisinin isə mahiyyəti belədir: mübadilə dəyəri uyğun olaraq fəhlə, kapitalist və torpaq mülkiyyətçiləri tərəfindən alınmış üç gəlirlərin məbləğindən ibarətdir.

Smit gəlirlər haqqında bütün dediklərini nəzərə alaraq cəmiyyətdə siniflərin mənafeləri haqqında belə nəticə çıxarır: fəhlə və torpaq mülkiyyətçiləri bütün şəraitlərdə ictimai sərvətin artmasında maraqlıdırlar, belə ki, bu, onlar və digərləri üçün həmişə, həm də onların özlərinin rifahını artırır. Lakin kapitalistlərin mənafeləri həmişə ictimai mənafelərlə uyğunlaşmır, sahibkarlar bazarın genişləndirilməsinə və rəqabətin məhdudlaşdırılmasına çalışırlar. Birinci halda onlar fəal fəaliyyət və novator kimi çıxış edir və bu həmişə cəmiyyətə xeyirlidir. İkinci halda onların fəaliyyəti həmişə cəmiyyətin mənafeyinə zidd olur, belə ki, mənfəət normasının yüksəlməsinə, daha doğrusu, vətəndaşların var-yoxdan çıxmasına səbəb olur.



downloaded from KitabYurdu.org

Smit kapitalı təbii bir kateqoriya kimi təsvir edir və o, mənfəət gətirən hər bir şeyi kapital hesab edir. Onun fikrinə görə, kapital gələcəkdə istehsal üçün lazım olan alətlərin, xammalın, yaşayış vasitələrinin və pulun toplanmış ehtiyatıdır.

A.Smitin mühüm xidməti ondan ibarətdir ki, o, ümumiləşdirilmiş abstrakt əsas və dövriyə kapitalı anlayışını irəli sürür. Bu iki növ kapital arasındakı fərqi o, dövriyə kapitalının tədavül vasitəsi ilə mənfəət, əsas kapitalın isə tədavülsüz mənfəət gətirməsində görür. Smit fiziokratların kapital haqqındakı məhdud fikirlərini aradan götürür. Fiziokratlar yalnız kənd təsərrüfatında fəaliyyət göstərən kapitalı məhsuldar hesab edirdilər. Smit bütün növ kapitalı birləşdirir, sənaye və ticarət kapitalı arasında mühüm fərq görmür.

Smitin iqtisadi təlimində kapital yığımına olduqca böyük əhəmiyyət verilir. Mahiyyət etibarilə Smit bunda kapitalistlərin tarixi rolunu görür. Kapitalistlər özlərinin gəlirinin mühüm hissəsini qənaət edir, istehsalı genişləndirir, əlavə fəhlələrə iş verir və son nəticədə cəmiyyətin sərvətinin artmasına səbəb olur. *Smit dəfələrlə qeyd etmişdir: yığım millətin sərvətinin açarıdır, yığımla, qənaətlə məşğul olan hər bir kəs millətin xeyirxahıdır, hər bir israfçı isə onun düşmənidir*.

Smit iddia edir ki, hər bir əmtəənin dəyəri əmək haqqına və mənfəətə ayrılır. O, bunu ölkənin torpağının və əməyinin illik məhsulunu təşkil edən bütün əmtəə kütləsinə aid edir. İctimai məhsulun dəyərini milli gəlirlə, yeni yaradılmış dəyərlə eyniləşdirir. Sabit kapitalı dəyərin əsas elementi kimi nəzərə almır, bu isə təkrar istehsalın təhlilinin mümkünlüyünü istisna edir. O hesab edir ki, əmtəənin istehsalında sərf olunmuş hər istehsal vasitəsinin dəyəri öz növbəsində əmək haqqı və mənfəətə ayrılır. Buna görə də, o, sabit kapitalı mənfəət və əmək haqqı şəklində təsvir edir. A.Smitin sxeminə uyğun olaraq hər il istehsal olunan bütün əmtəələr hər il də istehlak olunur.

Smit «Xalqların sərvəti» əsərinin girişində qeyd edir: «Hər millətin illik əməyi, o millətin bir il ərzində istehlak edəcəyi zəruri



downloaded from KitabYurdu.org

olan mal və xidmətləri təmin edən fonddur».[1] Bununla o, millətin illik əməyinin nəticəsinə il ərzində millət tərəfindən istehsal olunmuş bütün istehlak dəyərlərinin məcmusu kimi baxmışdır. Smit millətin illik əməyinin nəticəsinə həm də il ərzində yaradılmış bütün dəyərin məbləği kimi baxmışdır. O qeyd edir ki, fəhlə onun emal etdiyi materiallara, onun əmək haqqına ekvivalent olandan artıq elə bir dəyər əlavə edir ki, kapitalistin gəlirini təşkil edir. Fəhlə artıq heç bir dəyər yaratmır və yarada da bilmir. Bu baxımdan millətin illik əməyinin nəticəsi yeni dəyər kimi çıxış edir, bu da yalnız gəlirlərə bölünür.

*A.Smit ilk dəfə olaraq iqtisadi nəzəriyyəyə ümumi və xalis gəlir anlayışlarını gətirmişdir.* O, ölkənin əhalisinin bütün illik məhsulunu ümumi gəlir, bunun fəhlənin və kapitalistin şəxsi istehlakına gedən hissəsini isə xalis gəlir adlandırmışdır. Xalis məhsulda istehsalın genişlənməsinə, yəni yığıma gedən hissəni xatırlamamışdır. Beləliklə, bütün gəlir yox, əsas və dövriyyə kapitalı xərcləri çıxdıqdan sonra onun qalan hissəsi istehlak olunur. Əmtəənin qiymətində dəyişən kapital və mənfəətdən başqa əmək alətlərinin dəyəri də vardır. Smitin fikrinə görə, əmək alətlərinin dəyəri, əmək haqqına və mənfəətə bölünür. O, yenə də təhlildən sabit kapitalı çıxarmışdır. İctimai məcmu məhsulun təhlilindən sabit kapitalın çıxılmasını K.Marks «Smitin ehkamı» adlandırmışdır.

A.Smitin iqtisadi təlimində görkəmli yeri onun məhsuldar əmək nəzəriyyəsi tutur. Öz sələflərindən fərqli olaraq A.Smit hesab edir ki, sərvətin mənbəyi hər hansı konkret əmək növü deyil, ümumiyyətlə əməkdir. Smit hansı növ əməyin millətin sərvətinin artmasına səbəb olduğunu aydınlaşdırmağa çalışır. Dəyər, yaxud izafi dəyər yaradan hər bir əməyi məhsuldar əmək adlandırır. Hesab edir ki, məhsuldar o əməkdir ki, onun alınmasına kapital sərf olunsun. Gəlirdən ödənilən əmək isə qeyri-məhsuldardır.

---

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 1



downloaded from KitabYurdu.org

İkinci tərifə görə, məhsuldar əmək faydalı bir şeydə təcəssüm etməlidir. Smitə görə, kapitalist istehsalının bütün sahələrində tətbiq olunan əmək məhsuldardır.

Smit belə qeyd etmişdi – məhsuldar işçi tutan adam varlanır, qulluqçu tutan adam isə kasıblaşır. Onun məhsuldar əmək konsepsiyası dövlət bürokratiyasına, orduya, kilsəyə qarşı yönəldilmişdi. Smit yazırdı: «Cəmiyyətin bəzi ən möhtərəm silklərinin əməyi ev qulluqçularının əməyi kimi, heç bir dəyər yaratmır. …Məsələn, hökmdar, onun bütün məmurları və zabitləri, bütün ordu və donanma qeyri-məhsuldar işçilərdir. Bu sinfə habelə keşişlər, vəkillər, həkimlər, hər cür yazıçılar, aktyorlar, təlxəklər, çalğıçılar, xanəndələr, rəqqaslar və i.a. aiddir».[1]

Smitə görə, əhalinin məhsuldar əməklə məşğul olmayan hissəsini minimuma endirmək lazımdır. Onlar cəmiyyətin nökərləridir və bütün bu adamlar son nəticədə məhsuldar işçilərin əməyi hesabına yaşayırlar. Smitin məntiqindən belə bir fikir çıxır ki, cəmiyyətdə qeyri-məhsuldar işçilərin və tamam işləməyənlərin sayı nə qədər az olursa, onun sərvəti bir o qədər sürətlə artır.

*A.Smitin maliyyə haqqında da dəyərli fikirləri olmuşdur. Onun bu sahədəki fikirləri uzun müddət öz əhəmiyyətini saxlamış, onlar indinin özündə də maraq doğurur və maliyyə elminin əsaslarını təşkil edir.* Smitdən qabaq da mütəfəkkir iqtisadçılar tərəfindən maliyyə haqqında fikirlər söylənilmişdir. Lakin onlardan fərqli olaraq Smit bu problemə kompleks yanaşmış, onu sistemli şəkildə öyrənmiş və maliyyə məsələlərini siyasi iqtisadın öyrənmə obyektinə daxil etmişdir. O, «Xalqların sərvəti» əsərinin V cildini bütöv dövlət maliyyəsinə: dövlətin xərclərinə və gəlirlərinə, vergiqoymaya və dövlət borclarına həsr etmişdir. Smit burada dövlət xərclərinin və gəlirlərinin tarixi xülasəsini və vergi yükünün bölgüsünün sadə nəzəriyyəsini vermişdir. Smit dövlət xərclərinin ölkənin müdafiəsinə və ictimai işlərin yerinə yetirilməsi və idarəçiliklə əlaqədar olduğunu göstərir. Smitə görə, dövlət gəlirləri iki mənbədən: dövlət gəlirlərindən və xalq gəlirlərin-

---

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 245



downloaded from KitabYurdu.org

dən formalaşır. Dövlət gəlirlərinə dövlətə aid olan torpaqlardan, kapital qoyuluşlarından və s. əldə olunan gəlirlər, xalq gəlirlərinə isə gəlirlərdən – əmək haqqından, mənfəətdən və rentadan alınan vergilər aiddir. O, fiziokratların «vahid vergi» ideyasına tərəfdar olmasa da, rentaya uyğun vergiqoyma ideyasına meyl etmişdir. Vergi yükünün bölgüsü nəzəriyyəsinin ümumi nəticəsi belədir: bütün vergilər son nəticədə torpaq mülkiyyətçilərindən tutulur, belə ki, onlar gəlirin daşınmaz mənbəyinin daimi sahibidirlər.

Vergiqoymanın prinsipləri ilk dəfə olaraq A.Smit tərəfindən formalaşdırılmışdır. O, vergiqoymanın 4 prinsipini: bərabərlik, müəyyənlik (aşkarlıq), asanlıq (rahatlıq), yüksüzlük prinsiplərini müəyyən etmişdir. Bunlardan biri vergi qabiliyyəti, üçü isə inzibati prinsiplərdir. Smitin bərabərlik prinsipi ədalət prinsipinə zidd olmamışdır. Əksinə bu prinsip nəzərdə tutulan vergilərin adamların ödəmə gücünə görə tənzimlənməsidir və o vergi qaydasının ümumi xarakter daşıdığını əks etdirir. Smit üstünlüyü müəyyənlik (aşkarlıq) prinsipinə vermişdir.

A.Smit merkantilistlərin tədiyə balansının hökmən aktiv olması fikrinə, xarici ticarətə qoyulan qadağalara və ingilis müstəmləkə siyasətinə qarşı kəskin şəkildə çıxış etmişdir və açıq şəkildə bildirmişdir ki, bu siyasət millətin mənafeyinə deyil, bir ovuc alverçilərin mənafeyinə xidmət edir. O, iqtisadi: istehsal və ticarət azadlığı tərəfdarı olmuşdur. Smit yazırdı: «Bütöv bir xalqa öz əməyinin məhsulundan onun bacara bildiyi hər şeyi düzəltməyi, öz kapitalını və sənaye əməyini özü üçün daha faydalı hesab etdiyi tərzdə sərf etməyi qadağan etmək bəşəriyyətin ən müqəddəs hüquqlarının aşkar şəkildə pozulması deməkdir».[1]

A.Smit merkantilistlərin xarici ticarət siyasətlərinə etiraz etmişdir. Onların siyasətinə görə, ölkə xarici bazarda istənilən əmtəələri mümkün qədər çox satmalıdır, lakin az almalıdır. Merkantilistlərin əksinə olaraq Smit göstərir ki, ölkə üçün təkcə satmaq deyil və həm də xarici bazardan əmtəələr almaq, daha

---

[1] А.Смит «Исследование о природе и причинах богатства народов». М., 1962, стр. 424

[2] Yenə oradan, səh. 333



downloaded from KitabYurdu.org

doğrusu, onun beynəlxalq əmək bölgüsündə tam iştirak etməsi faydalıdır. O, bütün ölkələr üçün xarici ticarətin faydalı olduğunu əsaslandıraraq yazmışdır: «Əgər hər hansı bir özgə ölkə bizi, onu özümüz istehsal etdiyimizdən daha ucuz qiymətə hər hansı bir əmtəə ilə təchiz edə bilirsə, onu biz bir qədər üstünlüyə malik olduğumuz sahələrə qoyduğumuz bizim öz sənaye əməyinin məhsulunun bir hissəsinə ondan almaq daha yaxşıdır»[2].

A.Smitin xarici ticarətin faydalılığı haqqındakı baxışları mütləq üstünlüklər nəzəriyyəsi adını almışdır. Bu nəzəriyyənin mahiyyəti bundan ibarətdir: müxtəlif ölkələrdə əmtəələr müxtəlif: birində az, digərində isə çox istehsal xərcləri ilə istehsal olunur. Əmtəələrin qiymətinin müxtəlif olması bəzi əmtəələri ölkə daxilində reallaşdırmaqdansa, çox qazancla xaricə ixrac etməyə imkan yaradır, digərlərini isə evdə almaqdansa, idxal etmək faydalı olur. Beləliklə, Smitin nəzəriyyəsi hansı əmtəələri ixrac və hansını idxal etmək sualına cavab verir. Onun fikrincə, az istehsal xərcləri ilə istehsal olunan əmtəələri ixrac etmək, ölkə daxilində isə çox əmək məsrəfi tələb edən əmtəələri isə idxal etmək lazımdır.



downloaded from KitabYurdu.org

# VI FƏSİL. D.RİKARDONUN ELMİ SİSTEMİ VƏ METODOLOGİYASI

Klassik iqtisad elmi sisteminin başa çatdırıcısı **David Rikardo** (1772-1822) olmuşdur. O, Londonda Hollandiyadan köçən ispan mənşəli yahudi olan iri birja işbazının ailəsində dünyaya gəlmişdir.

Rikardonun heç bir universitet təhsili olmamışdır. O, özözünə yaxşı təhsil almışdır. Rikardo gənc yaşlarından (14 yaşından) bizneslə, fond birjasında alış-veriş işlərilə məşğul olmuşdur. O, tez bir vaxta varlı iri torpaq mülkiyyətçisi olmuşdur. Lakin buna baxmayaraq o, iri torpaq mülkiyyətçilərinin mənafeyini deyil, iri burjuaziyanın mənafeyini müdafiə etmişdir. Bu dövrdə burjuaziyanın mənafeyi məhsuldar qüvvələrin və iqtisadi inkişafın mənafeyinə uyğun gəldiyi üçün Rikardo sənaye burjuaziyasının tərəfində olmuşdur. O, 26 yaşından elmlə məşğul olmağa başlamışdır. Onu mineralogiya, təbiətşünaslıq və riyaziyyat elmləri dərindən maraqlandırmışdır. Elə bu vaxtı Rikardo ilk dəfə olaraq bir elm kimi siyasi iqtisadla da maraqlanmışdır. Rikardo təvazökar adam olmuş, ona yüksək elmi etika prinsipləri xas olmuş və o, yüksək dərəcədə elmi obyektivlik və dəqiqliklə fərqlənmişdir, özünə tənqidi yanaşma keyfiyyətlərinə malik olmuşdur. Onun dərin riyazi düşüncə qabiliyyəti olmuşdur. O, həm də böyük xeyriyyəçi və icmalar palatasının üzvü olmuşdur.

İngiltərədə klassik iqtisad elmi özünün yüksək ifadəsini Rikardonun əsərlərində tapmasına və iqtisad elminin tarixində ona daha çox istinad edilməsinə Rikkardo baxmayaraq çox cəhətdən mübahisə edilən iqtisadçılardan biridir. Onun yalnız «Siyasi iqtisadın və vergiqoymanın əsasları» (1817) adlı əsəri olmuşdur.

Rikardonun yaşadığı dövrdə kapitalist cəmiyyətinin iqtisadi bazisində köklü dəyişikliklər baş vermişdir. Bu vaxt İngiltərədə sənaye inqilabı baş vermişdir, sənayedə manufaktura istehsalını maşınlı istehsal əvəz etmişdir, kənd təsərrüfatında xırda müstəqil kəndli təsərrüfatları öz yerlərini iri torpaq sahibkar-



downloaded from KitabYurdu.org

lığına və kapitalist icarəçi fermer təsərrüfatlarına vermişdir. Maşınların tətbiqi qadın və uşaq əməyindən istifadəyə geniş imkan yaratmışdır və işsizliyə səbəb olmuşdur. Bütün bunların nəticəsində siniflər müəyyənləşmiş, sinfi fərqlər dərinləşmiş və bölgüdə bərabərsizlik kəskinləşmişdir.

*Rikardo dərin nəzəriyyəçi və həm də pozivitist iqtisadçı olmuşdur.* O, öz zəmanəsinin və öz ölkəsinin gündəlik sosial-iqtisadi problemləri ilə yaxından tanış idi. Rikardo iqtisadi gerçəkliyin elmi izahını verə bilmişdir. O,öz əsərlərində real sosial-iqtisadi problemləri, xüsusilə kapital və əmək arasındakı münasibətləri dərin elmi obyektivliklə, qərəzsizliklə təhlil etmişdir. O, ilk dəfə olaraq maşınların tətbiqinin sosial nəticələrinin açıq təhlilini vermiş, onun ziddiyyətini və fəhlənin mənafeyinə xələl gətirdiyini görə bilmişdir.

Rikardo öz nəzəriyyələrini dövrünün və ölkəsinin praktiki problemləri ilə sıx əlaqələndirmiş və onları vahid ümumi konsepsiya əsasında öyrənmişdir. O, iqtisadiyyatı obyektiv iqtisadi qanunlar əsasında fəaliyyət göstərən mürəkkəb bir sistem kimi tədqiq etmiş və əsas müvazinət şərtlərini müəyyən etməyə çalışmışdır. *Onun sisteminin əsasında iqtisadi artımın təbii resursların çatışmazlığı ucbatından tez və ya gec ləngiyəcəyi (dayanacağı) haqqında təsəvvür durur.* Onun əsas ideyası kənd təsərrüfatında əmək məhsuldarlığı gəlirin bölgüsündəki yüzillik dəyişikliklə bərabər kapitala olan mənfəət normasını idarə etməsidir.

D.Rikardo azad kapitalist təsərrüfatının fəaliyyət qanunauyğunluqlarının öyrənilməsi üzrə A.Smitin işini davam etdirmiş və klassik siyasi iqtisadın ənənələrinə sadiq qalaraq, iqtisadiyyatın inkişafının hərəkətverici qüvvəsini şəxsi maraqda və xüsusi sahibkarlıqda görmüşdür. O, məhsuldar qüvvələrin inkişafına böyük əhəmiyyət vermiş və sənaye burjuaziyasının rolunu bu vəzifənin həyata keçirilməsində görmüşdür. Ona görə də o, sənaye burjuaziyasının mənafeyini müdafiə etmiş, onu digər siniflərdən üstün tutmuş və iri torpaq sahiblərinə qarşı apardığı mübarizədə onun tərəfini saxlamışdır.



downloaded from KitabYurdu.org

İqtisadi siyasət sahəsində Rikardo iqtisadiyyata dövlətin qarışmasını məhdudlaşdırmaq və azad ticarət tərəfdarı olmuşdur. O, İngiltərədə taxıl idxalını kəskin məhdudlaşdıran taxıl qanunlarına qarşı olmuş və onların ləğv olunmasına çalışmışdır. Həmçinin o dövrdə İngiltərədə banknotların qızıla dəyişdirilməsinin qadağan olunmasına qarşı çıxmış və onun bərpası uğrunda mübarizə aparmışdır. Rikardo xaricdən ölkəyə taxılın gətirilməməsi, taxılın qiymətinin artması torpaq sahiblərinin rentasının artmasına səbəb olduğundan taxıl idxalını məhdudlaşdıran taxıl qanunlarına qarşı çıxmışdı. Taxıl idxalının məhdudlaşdırıldığı bir şəraitdə əhalinin sürətlə artması taxılın qiymətinin yüksək olmasının davamına kömək göstərirdi. Taxılın qiymətinin artması əmək haqqının artmasını tələb edirdi. Sənayeçilər üçün bu faydalı deyildi, çünki onlar öz fəhlələrinə daha yüksək əmək haqqı verməli olurdular ki, bu da mənfəətləri və dolayısı ilə yığımı azaldırdı. Ona görə də Rikardo taxılın sərbəst ticarətinə tərəfdar olmuşdur.

Rikardoya görə, iqtisadi inkişafla gəlirin bölgüsü arasında çox sıx əlaqə vardır. Bu səbəbdən də o, taxıl idxalının tabe olduğu gömrük vergilərini səhmanlayan «taxıl qanunları»nın gəlir bölgüsü ilə əlaqəsini öyrənməyə əhəmiyyət vermişdir. Dolayısı ilə Rikardo iqtisadi nəzəriyyənin tədqiqinə və yaranmasına gəlirin bölgüsü istiqamətindən yanaşmışdır. Bununla da Rikardo ilk dəfə olaraq bölgünü siyasi iqtisadın tədqiqat mövzusu etmişdir. *O, bölgünün cəmiyyətin maddi sərvətinin artması üçün daha əlverişli sosial şəraitin yaratdığını duymuşdur.* Bu səbəbdən də Rikardonun siyasi iqtisada ən böyük töhfəsi bölgü nəzəriyyəsi sayılır. O, milli gəlirin bölgüsünü siyasi iqtisadın predmeti elan etmişdir. Rikardo yazırdı: «Bu bölgünü idarə edən qanunların müəyyən edilməsi siyasi iqtisadın başlıca vəzifəsidir. Türqonun, Stüartın, Smitin, Seyin, Sismondinin və başqalarının tədqiqatları bu elmi nə qədər zənginləşdirmiş olsa da, hər halda onların rentanın, mənfəətin və əmək haqqının təbii hərəkətinə dair verdikləri izahatlar olduqca az qənaətləndiricidir».[1]

---

[1] Д.Рикардо. Сочинения. Т.1, М., 1955, стр. 30



downloaded from KitabYurdu.org

D.Rikardo 1820-ci ildə T.Maltusa yazdığı bir məktubda göstərir ki, «Siz siyasi iqtisadı sərvətin mənşəyi və səbəbləri ilə əlaqəli bir tədqiqat kimi düşünürsünüz. Məncə siyasi iqtisad çalışmanın məhsulunun, onun yaradılmasında iştirak edən siniflər arasındakı bölgüsünü müəyyən edən qanunların tədqiqi kimi adlandırılmalıdır».

Rikardonun gəlirin siniflər arasında bölüşdürülməsini iqtisad elminin mərkəzi problemi hesab etməsini onun müasirləri (Mak-Kullox, Marks, A.Marşall, Keyns və s.) böyük ruh yüksəkliyi ilə qarşılamışlar. Bunun «iqtisad elmində yeni bir dövr açdığını», onun «yeni siyasi iqtisad elmi» olduğunu söyləmişlər və bununla da siyasi iqtisad ilk dəfə olaraq mərkəzində bölgü münasibətləri olan cəmiyyətin iqtisadi münasibətləri haqqında biliklər sistemi olan elm kimi qəbul olunmağa başlamışdır.

Rikardo gəlir bölgüsünü istehsal şəraitinə əsasən öyrənmiş və bölgünü istehsal ilə sıx əlaqələndirmişdir. O hesab etmişdir ki, bölgü üsulu sərvəti həm artıra və həm də azalda bilir. Kapitalizmin başlıca funksiyasını maddi nemətlərin artırılmasında görmüşdür.

Rikardonun sistemində sərvət istehsal şərtləri ilə müəyyən olunur, istehsal nəzəriyyəsi mübadilə nəzəriyyəsini qabaqlayır. Mübadilə münasibətləri əmtəələrin hazırlanmasına çəkilən əmək məsrəflərilə tənzimlənir.

*D.Rikardo iqtisad elminin metodologiyasına da mühüm töhfələr vermişdir. Hər şeydən əvvəl, o, iqtisad elminin texnikasını icad etmiş, ilk dəfə olaraq «model» məhfumunu və müqayisəli təhlil metodunu iqtisadiyyata tətbiq etmişdir.* Rikardonun istifadə etdiyi əsas metod isə «elmi abstraktsiya, deduktiv metod» olmuşdur. O, abstraktdan konkretə, mürəkkəbdən sadəyə keçid üsulundan istifadə etmişdir. Rikardo nəticələri abstrakt ümumiləşdirmələrdən çıxarmışdır. Rikardo mürəkkəblikdə sadə elementləri və prinsipləri fərqləndirə, onları məntiqi surətdə sona qədər inkişaf etdirə və bu halda özü üçün əsas, həlledici olmayan hər şeydən sərfnəzər ola bilmişdir. O, son dərəcə mücərrəd və ümumiləşdirmələrə əsaslanan bir metoddan istifadə etməsinə baxma-



downloaded from KitabYurdu.org

yaraq, onun öyrəndiyi məsələlərin hamısı bütünlükdə aktual məsələlər olmuşdur.

Rikardonun tədqiqat metodu sonradan iqtisadçılar arasında birmənalı qarşılanmamış və dərin mübahisələrə səbəb olmuşdur. Rikardonun abstrakt, deduktiv metodlardan istifadə etməklə iqtisadçılar öz nəzəriyyələrini yaradarkən «empirik gerçəkliyə» deyil, «məntiqi yanaşamaya» əsas verməyə başlamışlar. Bununla da, yəni abstrakt, deduktiv metodlardan istifadə olunması ilə iqtisad elminin digər sosial elmlərlə olan əlaqəsi kəsilmiş və iqtisad elmi müstəqil bir elm olaraq inkişaf etmək imkanı tapmışdır.

D.Rikardo A.Smitin «Əxlaq» yanaşmasından fərqli olaraq iqtisadi nəzəriyyəyə resursların məhdudluğu və cəmiyyətin tələbatı arasındakı uyğunluğu saxlamağın xalis «texniki» vəzifəsini həll edən «mühəndis» deyilən yanaşma işlətmişdir. Rikardo «riyazi» xarakterdə olan bu metoddan istifadə etməklə iqtisadiyyatın tarixi və fəlsəfi izahına olan marağı mühüm dərəcədə aradan qaldırmış və o, bu səbəbdən də mübahisə doğurmuşdur.

Rikardonun sistemində iqtisadiyyat nemətin nadirlik halının özü daimi olması səbəbindən zəruri olur və o (iqtisadiyyat) nemətin çatışmazlığının aradan qaldırılmasının yeganə vasitəsini əməkdə tapır.

*Rikardonun metodologiyasının mühüm xüsusiyyəti və nailiyyəti iqtisadi nəzəriyyəni vahid bir əsasdan öyrənməsidir*. Bu əsas onun tədqiqatının çıxış nöqtəsini təşkil edən dəyər, daha doğrusu, əmək dəyər nəzəriyyəsidir. O, öz nəzəriyyəsinin əsasına yanaşma kimi dəyərə yanaşma prinsiplərini işləyib hazırlamışdır. Hər şeydən əvvəl o, özünün sisteminin əsasında elə bir nəzəriyyəni götürmüşdür ki, bu nəzəriyyəyə görə əmtəələrin dəyəri istehsal prosesində əməklə yaradılır və həmin əməyin kəmiyyəti ilə ölçülür. Rikardo yazır: «Əmtəələrin dəyəri və ya onun mübadilə olunduğu hər hansı bir digər əmtəənin miqdarı onun istehsalı üçün lazım olan nisbi əmək miqdarından asılıdır, bu, əmək üçün haqq kimi verilən çox və ya az mükafatdan isə asılı deyildir».[1]

[1] Д.Рикардо Сочинения. Т.1, М., 1955, стр. 33



downloaded from KitabYurdu.org

Rikardo öz sistemində əmtəələrin dəyərinin əməklə, iş vaxtı məsrəfləri ilə müəyyən olunması ideyasını vahid rəhbər prinsip kimi götürmüşdür. O, əmtəələrin dəyərinin əməklə müəyyən olunmasını mütləq və ən ümumi qanun hesab etmişdir.

Rikardo bütün özünün iqtisadi nəzəriyyəsini süurlu surətdə və ardıcıl olaraq əmək-dəyər nəzəriyyəsi konsepsiyasına əsasən qurmuşdur. Faydalılığa o, dəyər ölçüsü kimi deyil, dəyərin zəruri ilkin şərti kimi baxmışdır. Hesab etmişdir ki, faydalılığı olmayan şeyin mübadilə dəyəri ola bilməz.

Rikardo əvvəlcə bölgü nəzəriyyəsini əmək-dəyər nəzəriyyəsi mövqeyindən öyrənmiş, sonradan isə iqtisadi hadisələrə onların əmək dəyəri prinsipinə uyğun olub və ya olmaması mövqeyindən baxmışdır. Rikardonun sistemində sistemyaradıcı prinsip əmək məsrəfidir. Smit nəzəriyyəsində isə bu prinsip əməyə qənaətdir.

Əmək-dəyər nəzəriyyəsinin, yəni dəyərin əməklə müəyyən olunmasını bütövlükdə elm kimi iqtisad elmi (siyasi iqtisad) üçün əhəmiyyətini Rikardo belə qeyd etmişdir: «Siyasi iqtisad üçün yüksək dərəcədə mühüm əhəmiyyəti var: bu elmdə «dəyər» sözü ilə bağlı olmuş anlayışların məhz qeyri-müəyyənliyi kimi heç nə bu cür səhv və fikir ayrılığı doğurmamışdır»[1].

Rikardo Smitin dəyər nəzəriyyəsinin ziddiyyətlərini aradan qaldırmış və onu inkişaf etdirmişdir. O, dəyərin mütləq və nisbi formada olduğunu göstərmiş və öz qarşısına əmtəənin mütləq dəyərinin deyil, nisbi dəyərinin dəyişikliklərinin təsirini öyrənmək məqsədini qoymuşdur. O, tədqiqatın kəmiyyət metodundan istifadə edərək mübadilədə əmtəələrin kəmiyyət münasibətlərinə, mübadilə (nisbi) dəyərinin təhlilinə diqqət vermişdir. Mütləq dəyər dedikdə, Rikardo əmtəədə təcəssüm olunan əməyin miqdarını, nisbi dəyər dedikdə isə mübadilə dəyərini, əmtəə vahidinə mübadilə olunan başqa əmtəənin kəmiyyətini başa düşmüşdür.

Rikardo dəyərin təhlilinə Smitin dəyəri «istehlak dəyərinə» və «mübadilə dəyərinə» ayırması ilə başlamışdır. O göstərir ki,

---

[1] Yenə orada T.1, M., 1955, стр. 35



downloaded from KitabYurdu.org

bir malın mübadlə dəyərinə malik olması üçün bir «fayda» təmin olunması şərtdir. Lakin fayda təkbaşına mübadilə dəyərinin ölçüsü ola bilməz. Faydanın yanında mübadilə dəyərini müəyyən edən daha iki amil vardır. Bunlardan biri malın «kitlik» dərəcəsi, digəri də o malın istehsalı üçün zəruri olan əməyin miqdarıdır. Bunu Rikardo belə ifadə etmişdir: «Faydalılığı olan əmtəələr öz mübadilə dəyərini iki mənbədən: özünün nadirliyindən və onların istehsalı üçün tələb olunan əməyin miqdarından götürür»[1]. O, nadir nemətlərin (yenidən bərpa olunmayan köhnə rəsmlərin, heykəllərin, kitabların, əntik şeylərin) mübadilə dəyəri onların qıtlıq dərəcəsindən asılı olduğunu qeyd etmiş və bunlardan başqa bütün əmtəələrin mübadilə dəyəri onların istehsalına sərf olunmuş nisbi əmək məsrəfləri ilə müəyyən edildiyini göstərmişdir. Rikardo bazarda mübadilə olunan əmtəələrin kütləsində nadir nemətlərin payının olduqca az olduğunu, bütün nemətlərin böyük əksəriyyətinin əməklə əldə olunduğunu qeyd etmişdir. Rikardoda kəmiyyəti insan əməyi ilə çoxalan və istehsalında tam rəqabət fəaliyyət göstərən əmtəələrin mübadilə dəyərinin yeganə yaradıcısı əməkdir.

Rikardo əmtəənin istehlak və mübadilə dəyərlərini bir-birindən daha aydın şəkildə fərqləndirmişdir. O, əmtəələrin faydalılığını, daha doğrusu, onların istehlak dəyəri haqqında yazmışdır ki, şeylərin faydalılığı şübhəsiz dəyərin əsasını təşkil edir, lakin faydalılığın dərəcəsi dəyərin ölçüsü ola bilməz[2], «…faydalılıq mübadilə dəyərinin ölçüsü deyil, baxmayaraq o, bu sonuncu üçün çox zəruridir»[3].

Rikkardo J.B.Seyin faydalılığın əmtəələrin dəyərinin tənzimləyici olması haqqındakı fikrini tənqid etmiş və ona öz mövqeyini bu şəkildə göstərmişdir: «Bu, əgər əmtəələrin dəyəri yalnız alıcılar tərəfindən tənzimlənsəydi, düzgün olardı».

Rikardo Smitin dəyərin kapitalın və muzdlu işçinin olmadığı «cəmiyyətin ilkin və ibtidai» mərhələsində əməklə müəyyən

[1] Д.Рикардо Сочинения. Т.1, М., 1995, стр.33
[2] Yenə orada. T. 5, səh.263
[3] Yenə orada. T. 1, səh.33



downloaded from KitabYurdu.org

olunması fikrini daha da inkişaf etdirib və cəmiyyətin özəl mülkiyyətin və kapital yığımının mövcud olduğu mərhələsində də əmtəələrin dəyərinin onların istehsalı üçün lazım olan əməyin miqdarı ilə əlaqəli olduğunu qeyd etmişdir. O, bu nəticəyə gəlir ki, kapitalizm şəraitində də dəyər əmtəələrin istehsalına çəkilən əməklə müəyyən olunur, kapital yığımı əmək-dəyər nəzəriyyəsi prinsipini ləğv etmir, yalnız əmtəənin dəyərinin əmələ gəlməsi prosesini çətinləşdirir. Rikardo əmtəənin dəyərinin onun istehsalına çəkilən əməklə düz, əmək məhsuldarlığı ilə tərs mütənasib olduğunu söyləmişdir.

Rikardo əsası Petti tərəfindən qoyulmuş əmtəənin dəyərinin fərdi və ictimai dəyərə bölünməsi və onların mənbələri probleminə toxunmuş və bu problemin həllində irəliyə doğru mühüm addım atmışdır. O, əməyi fərdi və ictimai əməyə bölür və göstərir ki, dəyər fərdi əməklə deyil, cəmiyyət üçün zəruri olan əmək məsrəfi ilə müəyyən olur. Cəmiyyət üçün zəruri olan əmək məsrəfi Rikardoya görə, orta məsrəf deyil, ən pis şəraitdə çəkilən məsrəfdir, əgər cəmiyyətin mövcud əmtəəyə olan tələbatını ödəmək üçün onlar lazımdırsa ən az məhsuldar olan əmək məsrəfidir. Beləliklə, o, pis istehsal şəraitindəki əmək məsrəfini dəyərin tənzimləyicisi hesab edir.

Rikardoya görə, əmək istehsalın bütün sahələrində bərabər dərəcəli dəyərin mənbəyi kimi çıxış edir. Bununla belə, o, kənd təsərrüfatında qiymətin əmələgəlməsi prosesinin xüsusiyyətlərini bütün sahələrə aid edir.

*Rikardo kapitalizm şəraitində Smitin dəyərin əməklə deyil, əsas siniflərin gəlirləri ilə müəyyən olunması fikrini qəbul etmir və göstərir ki, fəhlənin əməyi ilə yaradılan dəyər həm əmək haqqının, həm mənfəətin və həm də rentanın yeganə mənbəyidir.* O, sübut edir ki, əmək haqqı, mənfəət və rentanın əmtəələrin mübadilə dəyərinə heç bir təsiri yoxdur. Rikardoya görə, dəyər ilkin mənbədir, gəlirlər isə dəyərin mənbəyi deyil, ondan törəmədir; dəyər gəlirlərdən əmələ gəlmir, əksinə onlara bölünür. Rikardo hesab edir ki, iqtisadiyyatda tam rəqabət mövcud olduğundan mənfəət və əmək haqqının səviyyələri bütün sahələrdə bərabər olacaq və



downloaded from KitabYurdu.org

bu səbəbdən də onlar əmtəələrin nisbi qiymətinə təsir etməyəcəkdir. O, həm də göstərir ki, renta da əmtəələrin dəyərinin bir səbəbi deyil, nəticədir.

Rikardo Smitin əmtəənin dəyərini onun mübadiləsində satın alınan əməklə müəyyən olunması fikrini də qəbul etməmiş və əmtəənin dəyərini yalnız yenə də onun istehsalına sərf olunan əməklə müəyyən etmişdir.

Rikardo əmtəələrin istehsalı üçün lazım olan əməyin 2 növ: «keçmiş əmək» və «yeni əmək» olduğunu göstərmişdir. Rikardoda «keçmiş əmək» istehsalda istifadə olunan maşın və avadanlıqların istehsalını həyata keçirən əməyi göstərir, «yeni əmək» isə istehsalda maşın və avadanlıqlarla, başqa sözlə, kapital ilə birlikdə istifadə olunan əməkdir. Rikardo tarixin heç bir dövründə əməyin təkbaşına istehsalda olmadığını və mütləq bir alət istifadə olunduğu fikrini irəli sürmüşdür. O, yazır: «Hər hansı bir silah olmadan nə kunduzu və nə də maralı yaxalamaq mümkün olmur, bu səbəbdən mübadilə dəyərləri də sadəcə olaraq onları yaxalamaq üçün sərf olan vaxt və əməklə deyil, habelə eyni zamanda ovçunun kapitalının, yəni heyvanları yaxalamaq üçün istifadə olunan silahların istehsalı üçün zəruri olan vaxt və əməklə birlikdə müəyyən olunacaqdır».[1]

Buradan göründüyü kimi, Rikardo əmtəənin dəyərinin, yalnız ona bilavasitə sərf olunan əməklə deyil, habelə dolayısı ilə, bu əməyin istehsalda istifadə etdiyi əmək alətlərinin, maşın və avadanlıqların istehsalına sərf olunan əməklə də müəyyən olunduğunu göstərmiş olur. Bununla da Rikardo Smitdən bir addım irəliyə gedərək istehsal olunan əmtəənin dəyərinə onun yaradılmasında iştirak edən dolayı əməyi, daha doğrusu, əsas kapitalın dəyərini daxil etmiş olur.

Smit kimi Rikardo da kapital sözünü «əşya kapital» mənasında deyil, «real kapital» mənasında işlədir və onun tərkibinə o, maşınlar, binalar və alətlərlə yanaşı bir də əsas etibarı ilə məhsuldar (istehsalçı) işçilərin həyatlarını təmin edən «əmək haqqı fondu» olan «dövriyyə kapitalını» da daxil etmişdir.

---

[1] Д.Рикардо Основы. стр. 23



downloaded from KitabYurdu.org

Rikardo üçün eyni ilə Smitdə olduğu kimi kapitalın əsas vəzifəsi əmək haqqı fondundan verilən avanslar ilə əməyin işləməsini təmin etməkdir. İşçilərin satın aldığı «istehlak malları» iqtisadiyyata qoyulan real yatırımın bir hissəsini əmələ gətirir. «İstehlak mallarının» satışı, daha əvvəldən işçiyə verilən avansın müəyyən bir mənfəət ilə geri alınmasından ibarətdir.

Rikardo əmək haqqının səviyyəsinin dəyişməsinin və ya əmək haqqı və mənfəət arasında nisbətin dəyişməsinin və ya rentanın bir məhsula daxil edilməsinin mübadilə dəyərinə təsir edib-etmədiyi məsələsini də öyrənmişdir. Nəticə bu olmuşdur ki, təsir etmir. O, əmək haqqının, mənfəətin dəyişməsinin və rentanın məhsulun qiymətinə daxil olmasının əmtəənin dəyərinə təsirini əmək-dəyər nəzəriyyəsinə əsaslanaraq inkar etmişdir. Yuxarıda gətirilən sitatlardan göründüyü kimi, əmtəənin mübadilə dəyəri əmək üçün haqq kimi verilən çox və ya az mükafatdan asılı deyildir. O qeyd edir ki, «müxtəlif keyfiyyətli əmək müxtəlif cür mükafatlandırılır. Bu vəziyyət əmtəələrin mübadilə dəyərinin dəyişməsinə səbəb olmur, çünki əmək haqqı əmtəələrin dəyərini müəyyən etmir». Müxtəlif dərəcəli mürəkkəbliyə malik olan əməyin müxtəlif növlərinin olması Rikardoda dəyərin əməklə müəyyən edilməsinə maneə olmamışdır. Çünki Rikardonun həqiqi məqsədi əmtəələrarası mübadilə nisbətini izah etmək yox, mübadilə dəyərlərində ortaya çıxan dəyişiklikləri izah etmək olmuşdur. Çünki mübadilə qiymətləri dəyişdiyi vaxt işçilərə, kapitalistlərə və torpaq sahiblərinə gedən gəlir payları dəyişmiş olur. Rikardo iki əmtəə arasındakı mübadilə dəyərinin ancaq bu iki əmtəənin istehsalında istifadə olunan keçmiş və yeni əmək tərəfindən müəyyən olunduğunu irəli sürmüşdür.

Rikardoya görə, əmək haqqının səviyyəsində dəyişmələr mübadilə dəyərinə təsir etmir, bu dəyişmə sadəcə olaraq mənfəət səviyyəsinə təsir edir. Rikardo da Smit kimi düşünmüş və əmək haqqı ilə mənfəət arasında tərs əlaqə olduğunu qəbul etmişdir. Bu səbəbdən əmək haqqı dəyişdikdə mübadilə dəyərləri dəyişməz qalır, sadəcə olaraq mənfəət ilə əmək haqqının nisbi payları dəyişir. Digər bərabər şərtlər daxilində əmək haqqlarının dəyiş-



downloaded from KitabYurdu.org

məsi əmtəələrin satıldığı qiymətə də təsir etmir, yalnız əmtəənin qiymətində əmək haqqı ilə mənfəət arasındakı nisbəti dəyişə bilir. Bu ona görə belə olur ki, azad rəqabət şəraitində kapitalistlər əmək haqqının artımını qiymətin üstünə gələ bilmirlər və məcbur olurlar ki, öz mənfəətlərinin müəyyən hissəsindən imtina etsinlər.

Rikardoya görə, müxtəlif keyfiyyətli əməyə fərqli əmək haqqı ödəmək mümkün olduğu halda, azad rəqabət nəticəsində kapitalın sahələrarası hərəkəti çox olduğundan, bütün əmtəələrin qiyməti eyni nisbətdə bir mənfəət payı formalaşdırır. Bu səbəbdən də mənfəət payında əmələ gələn dəyişmələr mübadilə dəyərlərində hər hansı bir dəyişlikliyə səbəb olmur.

Rikardo renta ilə əmtəələrin nisbi qiyməti arasındakı əlaqəyə də baxmışdır. Rikardoya görə, torpaq sahibinə bir renta ödənməsi məhsulun mübadilə dəyərinin artmasına səbəb olmur. Çünki mübadilə dəyəri renta ödənməyən torpaq üzərində istehsalda istifadə edilən əmək miqdarı ilə müəyyən olunur. O, yazır: «Taxıl, bir renta ödənildiyi üçün bahalı deyildir, məhz taxıl bahalı olduğu üçün bir renta ödənir və bunun belə olduğunu torpaq sahiblərinin öz rentalarından imtina etdiyi halda, taxılın qiymətində hər hansı bir azalma olmayacağından asanca görmək olur».[1] Bütün bunlar dəyərin gəlirlərlə müəyyən olunmadığını, gəlirlərin dəyişməsinin dəyərə təsir etmədiyini göstərməklə yanaşı, həm də Rikardonun dəyəri istehsal qiyməti ilə eyniləşdirdiyini göstərir.

Rikardo dəyərin istehsal qiymətinə çevrilməsi prosesinə toxunur və bunu əmək-dəyər nəzəriyyəsi əsasında həll etməyə çalışır. Lakin bu sahədə müəyyən çətinliklərlə rastlaşır. Son nəticədə orta mənfəətin əmələ gəlməsini bilavasitə əmək-dəyər nəzəriyyəsinə qarşı qoyur, onların arasında ziddiyyət olduğunu qeyd edir və dəyəri istehsal qiyməti ilə eyniləşdirir. Bu ziddiyyəti isə sonradan görəcəyimiz kimi K.Marks həll etmişdir. Rikardo orta qiymətlərin dəyərlə uyğun gəlməsini təsadüfi müstəsna bir hal kimi vermişdir. O, dəyər qanununun, yəni əmtəələrin mübadilə

---

[1] Д.Рикардо Сочинения. стр. 70-71



downloaded from KitabYurdu.org

dəyərinin əməklə müəyyən olunmasını tələb və təklif qanunu ilə əvəz etmək təşəbbüslərinin əleyhinə çıxmışdır.

Prof. Dr. Vural Savaş yazır: «Rikardonun ayrıca mübadilə dəyərləri ilə maraqlanmasının səbəbi, bu dəyərlərin gəlir bölgüsünə bu və digər tərəfdən təsir etməsidir. Fərqli – kapital əmək nisbətləri məcburi olaraq nominal əmək haqqı nisbətlərində, dolayısı ilə mənfəət nisbətlərində bir dəyişməyi gərəkli edir. Bu da qiymət qurumunda bir dəyişmə deməkdir. Rikardo əmək haqqları yüksəldiyi vaxtı, daha kiçik bir kapital-əmək nisbəti ilə istehsal olunan malların qiymətinin, daha yüksək bir kapital-əmək nisbəti ilə istehsal olunan malların qiymətlərinə və qızıl qiymətinə nisbətən daha çox artdığını düşünmüşdür»[1]

Rikardo «əmək haqqı malları»nın kənd təsərrüfatı məhsullarından, sənaye məhsullarının isə kapitalistlər və torpaq sahibləri tərəfindən istehlak edilən «lyuks mallar»dan əmələ gəldiyini təsəvvür etmiş və ona görə də o, uzun müddətdə iqtisadiyyatın məcmu məhsulu artacağı halda əməyə gedən payın real olaraq artmayacağını da söyləmişdir.

Rikardo Smitin sinif və gəlir nəzəriyyəsini inkişaf etdirmişdir. O, cəmiyyəti siniflərə, gəlirlərə görə bölmüşdür. Rikardo əsas əsəri olan «Əsaslar»da sözünü belə başlayır: «Torpağın məhsulu; onun üzərində əmək, maşın və kapitalın birlikdə tətbiqi ilə əldə edilən hər şey, cəmiyyətin üç sinfi arasında, yəni torpaq sahibi, torpağın becərilməsi üçün lazım olan kapital və ya kapital sahibi və çalışmaqla torpağı əkib-biçən əməkçilər arasında bölüşdürülür». Deməli, Rikardo cəmiyyətin üç sinfi: torpaq sahibləri, kapitalistlər və əməkçilər olduğunu, hər birinin sırayla: renta, mənfəət və əmək haqqı gəliri əldə etdiyini söyləyir və qeyd edir ki, «cəmiyyətin müxtəlif mərhələlərində yer üzünün verdiyi bütün məhsulun bu üç sinfə ayrılan miqdarı … mühüm dərəcədə fərqli olacaqdır»[2]. *Rikardonun əsas məqsədi müasir dildə desək, «gəlirin funksional bölgüsü» zamanı əmələ gələn dəyişiklikləri və bu bölgünü müəyyən edən amilləri tədqiq etmək olmuşdur. Bu mə-*

---

[1] İqtisadın tarixi. Prof. Dr. Vural Savaş. Ankara, 2000, səh.318

[2] Д.Рикардо Основы. стр.30



downloaded from KitabYurdu.org

*sələdə Rikardonun xidmətləri ondan ibarətdir ki, o, tədqiqatı dəyər nəzəriyyəsi əsasında aparmışdır.*

*Rikardo özünün əsas nəzəriyyəsini – bölgü nəzəriyyəsini – əmək-dəyər nəzəriyyəsi əsasında qurmuş və bölgü nəzəriyyəsini dəyər nəzəriyyəsilə inteqrasiya edən ilk iqtisadçı olmuşdur. O, gəlirlərin yeganə mənbəyini əməkdə görmüşdür.* Kapitalın məhsuldarlığı nəzəriyyəsini və rentanın mənbəyi kimi torpaq haqqında olan konsepsiyanı rədd etmişdir. Cəmiyyətin əsas siniflərinin gəlirlərinin formalaşmasını tənzimləyən qanunların təhlilinə əmək-dəyər nəzəriyyəsi mövqeyindən yanaşmışdır. Bunun nəticəsində o, müxtəlif torpaqların sahiblərinə fərqli gəlir verməsini və məhsuldarlığın azalması qanununu bir araya gətirib iqtisadi ədəbiyyatlarda göstərildiyi kimi əsl bir gəlir bölgüsü və dəyər nəzəriyyəsi yaratmışdır.

Rikardonun bölgü nəzəriyyəsi göstərir ki, siniflərin mənafeyi müxtəlifdir və onun əməyi bütün gəlirlərin yeganə mənbəyi kimi götürməsi sinfi ziddiyyət yaratmışdır. *Rikardo siniflərin mənafeyinə yalnız istehsalın inkişafı, millətin sərvətinin artması nöqteyi-nəzərindən baxmışdır.*

Sənaye burjuaziyasının mənafeyini də o, həmin yüksək prinsipə uyğun gəldiyi dərəcədə müdafiə edirdi və kapital yığımını cəmiyyətin inkişaf və tərəqqisinin başlıca amili hesab edirdi. Cəmiyyətin mütərəqqi inkişafı və kapital yığımı üçün başlıca təhlükəni torpaq mülkiyyətçilərinin iqtisadi və siyasi təsirlərinin artmasında görürdü. Rikardo Maltusun əhali sakinliyi nəzəriyyəsini qəbul edib, hesab etmişdir ki, durmadan artan əhalini yedizdirmək üçün yaxşı torpaqlara nisbətən az gəlir verən pis torpaqların becərilməsinə tədricən keçilməsi ilə əlaqədar olaraq kənd təsərrüfatı məhsullarının qiyməti artır. Kənd təsərrüfatı məhsullarının qiymətlərinin artması və taxılın qiymətini yüksək səviyyədə saxlayan taxıl qanunları əmək haqqının və rentanın yüksəlməsinə, mənfəət normasının azalmasına səbəb olur. Buna görə də Rikardo taxıl qanunlarına (taxılın idxalını məhdudlaşdıran) qarşı çıxış edirdi. Sənaye kapitalistləri azad rəqabət şəraitində özlərinin əmtəələrinin qiymətini əmək haqqının artması nisbətində yüksəldə bilmirlər, onların mənfəəti artan



downloaded from KitabYurdu.org

renta və əmək haqqı arasındakı məngənədə sıxılıb qalırdı. Mənfəət normasının aşağı düşməsi meylini Rikardo bu yolla izah etmiş və hətta bu meyli o, mütləqləşdirmişdir.

Rikardo torpaq mülkiyyətinin əleyhinə deyildi, o heç bir yerdə onun ləğv olunmasını tələb etməmişdi. Lakin kapitalın mənafeyini o, torpaq mənafeyindən üstün tutmuşdu. Kapitalın mənafeyini Rikardo bütün cəmiyyətin mənafeyi ilə eyniləşdirir, torpaq mülkiyyətinin mənafeyini isə cəmiyyətin əleyhinə yönəldilmiş hesab edirdi. Rikardo yazırdı ki, torpaq sahiblərinin mənafeyi hər vaxt cəmiyyətin bütün digər siniflərinin mənafeyinə daban-dabana ziddir. Yeyinti mallarının az və baha olduğu bir şəraitdə onların vəziyyəti parlaqdır, halbuki bütün digər şəxslər yeyinti mallarının ucuz olmasını candan arzu edirlər.

Rikardonun bölgü nəzəriyyəsində renta nəzəriyyəsi mühüm yer tutmuşdur. Hətta belə təsəvvür yaranır ki, həqiqi bir renta nəzəriyyəsi olmadığından o, tədqiqatla məşğul olmuşdur. Rikardo «Əsaslar»ın ön sözündə məqsədinin Smitin «həqiqi bir renta nəzəriyyəsinə malik olmadığı üçün qaranlıq qalmış bəzi məsələləri izah etmək olduğunu» yazmışdır. Rikardonun torpaq rentası, onun ortaya çıxması və yaratdığı çoxlu iqtisadi suallar ilə əlaqəli söylədiyi fikirləri iqtisadi fikrin qızıl fonduna daxil olan ideyalar kimi qiymətləndirilir. Rikardo rentanı əmək-dəyər nəzəriyyəsindən çıxarmışdır. O, rentanın mənbəyini təbiətin hər hansı xüsusi bir səxavətində deyil, torpağa tətbiq olunan əməkdə görmüş, onun əhalinin artması səbəbindən münbit torpaqlardan az münbitli torpaqlara keçilməsi, onların becərilməsi və eyni məhsuldarlıqlı torpaq üzərində daha çox əmək və kapital istifadə edilməsi nəticəsində məhsuldarlığın azalması ilə əlaqədar meydana gəldiyini göstərmişdir. O, torpağın məhsuldarlığının azalması qanununa tərəfdar olmuşdur. Rikardo diferensial rentanın mövcudluğunu qəbul etmiş, mütləq rentanı isə inkar etmişdir. Torpaq rentasını o, onunla izah etmişdir ki, kənd təsərrüfatı məhsullarının dəyəri münbitliyinə görə pis torpaqlarda çəkilən əmək məsrəfləri ilə müəyyən olunur, nəticədə daha münbit torpaqlarda fermerlər orta mənfəətdən artıq gəlir əldə edirlər. Bu



downloaded from KitabYurdu.org

əlavə gəliri Rikardo renta adlandırır və o, pis, orta və yaxşı münbitli torpaqlardakı istehsal xərclərindəki fərq kimi çıxış edir. Rentanın kəmiyyəti kənd təsərrüfatı istehsalına cəlb olunmuş torpaqlardakı məhsuldarlıq fərqindən asılı olur. Rikardo göstərir ki, az münbitli sahələr öz sahiblərinə renta vermir, yalnız orta mənfəət verir, lakin nisbətən münbit sahələr orta səviyyədən artıq mənfəət verir və əlavəni renta formasında torpaq sahibləri mənimsəyir.

Rikardo əmək haqqını da əmək dəyər nəzəriyyəsi mövqeyindən təhlil etmişdir. O, əməyi əmtəə hesab etmiş və əmtəə kimi «əməyin dəyərini» işçinin və onun ailəsinin saxlanması üçün zəruri olan yaşayış vasitələrinin istehsalına sərf olunan əməklə müəyyən etmiş və kəmiyyətini onların istehsalı üçün zəruri olan iş vaxtı ilə ölçmüşdür. Rikardoya görə, əmək haqqı əməyin qiymətidir. O, əmək haqqının fəhlənin və onun ailəsinin yaşayış vasitələrinin dəyərindən asılı olduğunu və əməyə olan tələb və onun təklifilə tənzimləndiyini göstərmişdir. Rikardo hesab edir ki, əməyin dəyəri və ya onun təbii qiyməti əməyə olan tələb və onun təklifinin təsiri altında son nəticədə fəhlənin və onun ailəsinin yaşaması üçün zəruri olan müəyyən məbləğdə yaşayış vasitəsinin dəyərinə bərabər olur. O, əməklə müəyyən olunan əmtəənin dəyəri ilə əməyin dəyərini fərqləndirir, əmtəənin dəyərinin əmək haqqı ilə deyil, əməklə, əməyin dəyərini isə əmək haqqı ilə müəyyən olunduğunu qeyd edir. Rikardo əmtəənin dəyərinin əməyin dəyərindən çox olduğunu, bunun və əmək haqqının mövcud olması faktının isə dəyər qanununa zidd olmadığını söyləmişdir.

Rikardonun əmək haqqının minimum yaşayış vasitələri dəyəri həddində olması, onu aşmaması fikri dostu olan Maltusun əhali sakinliyi qanununu mənimsədiyini və ona tərəfdar olduğunu göstərir. Rikardo Maltusun nəzəriyyəsinə əsaslanaraq belə hesab edir ki, əmək haqqı kapitalizmin spesifik qanunları üzündən deyil, ümumi təbii qanun nəticəsində sərt fiziki minimum hüdudlarında qala bilir. Onun fikrincə, orta əmək haqqı yaşayış vasitələri minimumdan bir qədər artıq olan kimi işçilər



downloaded from KitabYurdu.org

daha çox uşaq törədərək öz nəsillərini artıra bilirlər, nəticədə əmək bazarında əmək təklifi artır, rəqabət güclənir və əmək haqqı yenidən minimum həddə düşür.

Rikardo əməyin iki: təbii və bazar qiymətinin olduğunu göstərmişdir. O göstərir ki, «əməyin təbii qiyməti işçinin dolanışığını təmin edən və öz nəslini azaldıb və artmaqda davam etdirəcək qiymət səviyyəsidir».[1] Rikardoya görə, əməyin təbii qiyməti işçilərin yaşamaları və çoxalıb nəsillərini davam etdirə bilmələri üçün istehlak etdikləri istehlak mallarının qiymətidir və ona iki amil: biri əmək təklifi və tələbi, digəri istehlak mallarının qiyməti təsir göstərir. Əməyin bazar qiyməti isə faktiki əmək haqqıdır və o əməyə olan tələb və onun təklifinin təsiri altında dəyişir. Rikardoya görə, qısa dövrdə əməyin bazar qiyməti, onun təbii qiymətindən yüksək və aşağı olmasına baxmayaraq əmək haqqı uzun dövrdə təbii əmək haqqı ətrafında təşəkkül tapır. Onun fikrincə, əməyin bazar qiyməti təbii iqtisadiyyatın inkişaf mərhələsində qiyməti üstələyir, tənəzzül mərhələsində isə ondan aşağı olur. Əməyin bazar qiyməti təbii qiyməti üstələdikdə əhali artır, əks halda isə azalır. Bu artım və azalma əməyə tələb və təklifin vasitəsilə əmək haqqını uzun dövrdə təbii qiymət səviyyəsində saxlaya bilir. Rikardonun fikrincə, qısa dövrdə real əmək haqqının təbii əmək haqqını üstələməsi tez evlənmələri, uşaq doğumlarını həvəsləndirərək ailələrin getdikcə böyüməsinə səbəb olur. Nəticədə əmək təklifi artır və real əmək haqqı aşağı düşür. Əksinə, əgər real əmək haqqı minimum yaşayış vasitələri üçün zəruri olan təbii əmək haqqından geri qalırsa, doğumun səviyyəsi azalır, ölümün səviyyəsi artır və əhalinin artımı ləngiyir. Bunun nəticəsində də əmək tələbi artır və yenidən təbii əmək səviyyəsinə qayıdılır. Bu səbəbdən də Rikardo uzun dövrdə işçinin iqtisadi vəziyyətinin əsaslı yaxşılaşmadığı fikrini söyləmişdir. Ona görə də, o, işçinin iqtisadi vəziyyətinin yaxşılaşdırılmasının ümidini işçilərin sayının azaldılmasında görmüşdür. Bu isə onu göstərir ki*, Rikardo Maltusun əhali sakinliyi qanununun əsas prinsiplərini qəbul etmişdir*.

---

[1] Д.Рикардо Сочинения. Т.1, с. 90



downloaded from KitabYurdu.org

Rikardo da Smit kimi əməyin qiymət artımlarının bazar mexanizmi ilə ən yaxşı şəkildə tənzimləndiyinə inandığından, əmək haqqlarının da qiymətlər kimi bazarın azad rəqabətinə buraxılmasını iddia etmişdir.

İşçilərin istehlak etdiyi yeyinti məhsullarının qiyməti artdıqca işçilərin nominal əmək haqqını artırması və taxılın qiymətinin artması əmək haqqını daha çox artırması Rikardoya görə kapital sahiblərinin mənfəətinə azaldıcı təsir göstərir, digər tərəfdən də torpaq sahibləri bu artımlardan hər vaxt mənfəət əldə edirlər. Çünki kənd təsərrüfatı məhsullarının qiymətindəki artmalar davamlı olaraq rentanın artmasına səbəb olur. Rikardonun bu düşüncəsi kapitalizmdə siniflərin iqtisadi mənafelərinin bir-birinə zidd olması fikrini doğurmuşdur. Bu fikri sonradan Rikardo məktəbinin davamçıları (Mak-Kullox, C.Mill və b.) yumşaltmağa çalışmışlar, digər klassik yönümlü iqtisadçı J.B.Sey qəbul etməmiş, Marks isə daha da inkişaf etdirib özünün izafi dəyər nəzəriyyəsini yaratmışdır.

Rikardo müəyyən edir ki, əmək haqqı və mənfəət bir-biri ilə əks proporsional asılılıqda olur. Bu cür asılılığı o həm də mənfəət və torpaq rentasının nisbətində aşkar etmişdir. Buradan da, bir tərəfdən fəhlələr ilə kapitalistlər, digər tərəfdən isə kapitalistlər ilə torpaq mülkiyyətçiləri arasında ziddiyyət əmələ gəlir. O hesab edir ki, cəmiyyət inkişaf etdikcə siniflər arasındakı ziddiyyət artmaq meylində olur. Rikardo yazır: «Göstərməyə çalışdığı şeylərdən birincisi, əmək haqqılarında bir yüksəlmənin malların qiymətini yüksəltməyəcəyi halda mütləq mənfəəti azaldacağıdır; ikincisi, əgər bütün malların qiymət yüksəldilə bilsəydi mənfəət üzərində təsiri eyni olacağı və sadəcə olaraq qiymətlərin və mənfəətlərin ölçüldüyü dəyişmə vasitəsinin dəyərinin azalacağıdır»[1].

Rikardonun sistemində əsas düşmənlər kapitalistlər və fəhlələrdir, çünki rentanın yüksək və ya aşağı olması mənfəətin aşağı olmasına və ya əmək haqqının yüksək olmasına səbəb ol-

---

[1] Д.Рикардо Сочинения. с. 124
[2] Yenə oradan, s.108



downloaded from KitabYurdu.org

mur. Rikardo mənfəət və əmək haqqının bir-biri ilə əks əlaqədə olduğunu, biri artarsa o birinin azalacağını irəli sürmüşdür. Rikardoya görə, fermerin və sənayeçinin «mallarının bütün dəyəri sadəcə olaraq iki hissəyə bölünür: hissələrdən biri kapitalın mənfəətini, digəri də əməyin haqqını təşkil edir»[2].

Rikardonun sistemində mənfəət əmək haqqından asılıdır. O göstərir ki, mənfəət əmək haqqının yüksək və aşağı olmasına görə dəyişir. Əmək haqqı da məcburi ehtiyacların qiymətindən asılıdır, məcburi ehtiyacların qiymətlərini qida maddələrinin qiymətləri müəyyən edir. O hesab edir ki, kənd təsərrüfatında istehsalın genişləndirilməsi dövriyyəyə ən pis torpaqların cəlb edilməsi hesabına getdiyindən ərzaq məhsullarının dəyəri artır, deməli, əmək haqqı nominal olaraq artır və mənfəətin payına yaradılmış məcmu məhsulun dəyərinin getdikcə az hissəsi qalır. O, həm də göstərmişdir ki, işçilərin əmək haqqlarındakı baş verən artımın qida məhsullarının qiymətlərindəki artım səbəbindən olduğu üçün işçilərin gəlir vəziyyətində bir yaxşılaşma halına gəlinmir, lakin əmək haqqı artığı və mənfəətin payının azaldığı bir vaxtda renta artır. Bu səbəbdən də Rikardo torpaq sahiblərini «cəmiyyətin parazitləri» adlandırmış və onların mənafelərinin cəmiyyətin digər siniflərinin mənafeyinə daima əks olduğunu söyləmişdir. Rikardo əmək-dəyər nəzəriyyəsinə əsaslanaraq mənfəətin mənbəyinin əmək olduğunu, onun muzdlu işçinin əməyi ilə yarandığını və kapitalist tərəfindən mənimsənildiyini söyləmişdir. Rikardo hesab edir ki, mənfəət əmtəənin dəyəri ilə əməyin dəyəri arasındakı fərqdir, əmtəənin dəyərindən əmək haqqını çıxdıqdan sonra yerdə qalan hissədir. Rikardoya görə, işçilərin əmək haqqını yüksəldən hər şey kapitalın mənfəətini azaldır, əməyə qənaətedən, xərcləri azaldan və məhsuldarlığı artıran texnikaların istifadə olunması mənfəəti artırır.

Rikardo mənfəəti kapitalın qazancı kimi qəbul etmişdir. Rikardoda mənfəət Smit və Maltusda olduğu kimi sahibkarın müəssisə sahibi olduğu üçün, müəssisəni işlətdiyi üçün və müəssisənin ehtiyac duyduğu kapitalı təmin etdiyi üçün əldə etməsi gərəkli olan bütün xalis gəliri ifadə edir. Onun sistemində mən-



downloaded from KitabYurdu.org

fəət bütün kapitalın kəmiyyətində deyil, onun bir hissəsindən – əmək haqqı formasında əvvəlcədən verilən «avans» hissəsindən asılıdır. İşçilər üçün əmək haqqı nə qədər gərəklidirsə, iri fermer və sənayeçilər üçün də mənfəət bir o qədər gərəkli və önəmlidir. Mənfəət olmazsa kapital sahibləri kapital mallarını riskli işlərdə istifadə etmək istəməz. Mənfəətin səviyyəsi bu riski üstələməyə dəyməyənə qədər azalarsa, kapital sahibləri istehsaldan imtina edirlər. Bir iş sahəsində mənfəət yüksəlirsə, o sahəyə daha çox kapital cəlb edilir. Çoxlu kapital istifadə olunan sahələrdə istehsalın artması ilə əlaqədar olaraq qiymətlərin aşağı düşməsi mənfəəti azaldır. Bu vəziyyətdə uzun müddətdə mənfəət ilə kapital arasındakı tarazlığı bazar mexanizmi tənzim edir.

Rikardo kapitalın müxtəlif sahələrdə istifadəsindən əldə olunan mənfəətin bir-birinə bərabər olacağını qeyd etmişdir. O, iqtisadiyyatın hər sahəsində eyni mənfəət nisbətinin mövcud olduğunu qəbul etmişdir.

Rikardo mənfəət normasının azalmağa meyl etdiyini göstərmişdir. Bunu o, obyektiv qanunauyğunluq hesab edir və yuxarıda deyildiyi kimi cəmiyyətin ən az münbit torpaqlardan istifadə etməyə keçməsilə, kənd təsərrüfatı məhsullarının bahalaşması və nominal əmək haqqının artması ilə əlaqələndirir.

Mənfəətə əmək-dəyər nəzəriyyəsi mövqeyindən baxarkən Rikardo ziddiyyətlə rastlaşmışdır. Bu nəzəriyyəyə uyğun olaraq mənfəətin həcmi kapitalın yalnız əmək haqqına qoyulan hissəsindən asılı olmalıdır. Lakin real gerçəklikdə mənfəətin həcmi ümumilikdə bütün kapitala proporsionaldır. Müxtəlif sahələrdə istehsal vasitələrinə və muzdlu işçilərə kapital qoyuluşlarının nisbəti fərqlidir, mənfəət norması isə eynidir. Rikardo müxtəlif sahələrdəki kapitalın strukturundakı fərqləri əhəmiyyətsiz olduğunu bildirərək, kapitalda istehsal vasitələrinin payı çox olan sahələri (dəniz nəqliyyatı, toxuculuq sənayesi və s.) əmək-dəyər nəzəriyyəsindən çıxarmağa məcbur olmuşdur. Bu sahələrdə mənfəət, əmək haqqına qoyulan kapitala deyil, bütün kapitalın kəmiyyətinə proporsionaldır.



downloaded from KitabYurdu.org

Rikardonun sistemində pul tədavülü və banklar məsələsi mühüm yer tutmuşdur. Bu müəyyən mənada onun yaşadığı dövrdə, daha doğrusu, 1797-1819-cu illərdə İngiltərə müharibə ilə əlaqədar olaraq qızıl standartlar sistemindən kənarlaşması, tədavüldə konversiya olunmayan banknotlardan istifadə etməsi ilə əlaqədar olmuşdur. Bu dövrdə İngilis bankına onun banknotlarını qızıla dəyişdirməsini dayandırmaq səlahiyyəti verilmişdir. Bu banknotları dəyişdirilməyən kağız pullara çevirmiş, onların həddindən artıq buraxılması isə onları qiymətdən salmış, məhsulların və qızılın qiymətini artırmışdır. Bu vaxtı qızıl standartlar sisteminə qayıtmaq və bankların funksiyası haqqında məsələ geniş mübahisələr doğurmuş və müzakirə olunurdu. Dərin nəzəriyyəçi və pul-kredit praktikasını yaxşı bilən Rikardo bu mübahisələrdən kənarda qala bilməzdi. O, yuxarıda deyildiyi kimi, banknotların qızıla dəyişdirilməsini bərpa etməyə çalışmış və pulun kütləsinin genişlənməsini dayandırmaq istəmişdir. O hesab edirdi ki, müharibə dövründə inflyasiyanın tək səbəbi pulun miqdarının artması olmuşdur. Ona görə də o göstərmişdir ki, əgər İngiltərə bankı qızıl standartının qayda-qanununa uyğun hərəkət etmiş olsaydı, inflyasiya ola bilməzdi və banka qızıl ödəmələrini dərhal bərpa etməyi tövsiyə etmişlər.

Rikardonun pul tədavülü haqqındakı fikirləri iqtisad elminin bu sahəsinin inkişafına böyük təkan vermişdir. O, pulun tədavülü sürəti haqqında, pula tələb və onu müəyyən edən amillər haqqında, kağız pulun qızıla dəyişdirilə bilməsinin rolu haqqında, qızılın beynəlxalq hərəkətinin mexanizmi və əmtəə qiymətinin səviyyəsinin ticarət və ödəniş balanslarına təsiri haqqında qiymətli ideyalar irəli sürmüşdür.

Rikardo Yumun miqdar pul nəzəriyyəsinə tərəfdar olmuş və onu əmək-dəyər nəzəriyyəsinə uyğunlaşdırmağa çalışmışdır. Pula əmək dəyər nəzəriyyəsi mövqeyindən yanaşaraq o, onun (qızıl və ya gümüşün) dəyərini onların istehsalına sərf olunan əməyin miqdarı ilə müəyyən edir. Əmtəə, bu əmtəəyə sərf olunan qədər əmək sərf olunan pulun miqdarına ekvivalentdir. Təbii qiymət, həm əmtəənin dəyəri və həm də pulun dəyəri ilə şərtlənən



downloaded from KitabYurdu.org

kəmiyyətdir. Buradan Rikardo pul tədavülü qanununu yaradır. Bu qanuna görə, əmtəələrin miqdarı və onların dəyəri sabit qaldıqda, tədavül üçün zəruri olan pulun miqdarı pulun dəyərindən asılıdır.

Rikardo da öz sələfləri kimi pula, hər şeydən əvvəl, tədavül vasitəsi kimi baxmışdır, onun yığım funksiyasına nəzər yetirməmişdir. Ona görə də o, hesab edir ki, əgər tədavüldə pulun miqdarı artarsa, onda digər şərtlər dəyişməzsə, onlar əvvəlki pul kütləsinin ifadə etdiyi əmtəə kütləsi ekvivalentini ifadə edəcəkdir. Deməli, hər pul vahidi dəyərsizləşir, daha doğrusu, əmtəələrin qiyməti artır. Beləliklə, Rikardo pulun miqdar nəzəriyyəsinə, pulun dəyərinin onun miqdarından çıxması fikrinə gəlir. Rikardo kağız pul tədavülü ilə qızıl pul tədavülü arasında prinsipial fərq qoymamışdır. Ona görə də o, kağız pul tədavülü qanununu qızıl və gümüş pul üzərinə keçirmiş və belə hesab etmişdir ki, qızıl da mahiyyət etibarı ilə dəyər nişanəsidir və qızıl pullar kağız pula (dəyər nişanəsi) tam dəyişdirilə bilər. Lakin o, nəzərdən qaçırmışdır ki, tədavülün tələbatından artıq qızıl və ya gümüş pullar buraxılırsa, onların öz dəyəri olduğundan tədavül sferasından çıxıb yığıma gedə bilir.

*Rikardonun pul nəzəriyyəsi miqdar pul nəzəriyyəsidir.* Bu nəzəriyyəyə görə, pulun dəyəri tədavüldə bərqərar olur və tədavüldəki pulların kəmiyyətindən asılıdır. O hesab edir ki, əgər mövcud ölkəyə qızıl pul çox gəlibsə, onda qiymətlər yuxarı olur, əgər az gəlibsə, qiymətlər aşağı olur. O, belə düşünmüşdür ki, əgər mövcud ölkədə həddindən çox qızıl toplanırsa, onda bu ölkədə malların qiymətləri artır və xaricdən buraya mal gətirilməsi daha faydalı olur. Nəticədə qızıl ölkədən xaricə gedir, qiymətlər aşağı düşür, xarici malların ölkəyə gətirilməsi dayandırılır və hər şey müvazinətə gəlir. Beləliklə, uzun dövrdə ölkələr arasında qızılı bölüşdürən avtomatik mexanizm fəaliyyət göstərir, bu avtomatik müvazinəti təmin edir və pul təklifi xarici ticarətin sərbəst olması sayəsində tənzimlənir. Buradan da Rikardo ticarət azadlığının xeyrinə yönəldilmiş nəticələr çıxarmışdır. O, merkantilistlərdən fərqli olaraq deyirdi ki, əgər xaricdən gətirilən xaricə gön-



downloaded from KitabYurdu.org

dərilən mallardan çoxdursa və qızıl ölkədən gedirsə, narahat olmağa dəyməz. Çünki ölkədə qızıl çoxdur və qiymətlər olduqca yüksəkdir. Azad idxal onları aşağı salmağa kömək edir.

Rikardo sabit pul tədavülünü iqtisadiyyatın inkişafının mühüm şərti saymış və bu cür sabitliyin yalnız qızıla əsaslanan pul sistemində, daha doğrusu, qızıl standartı sistemində mümkün olduğunu göstərmişdir. O, banknotların qızıla tam dəyişdirilməsini mümkün saymış və bunun millətə böyük xeyir verəcəyini söyləmişdir.

Rikardo xüsusi şirkət olan İngilis bankını milliləşdirmək, ona banknotlar buraxmaq və dövlət vəsaitini idarə etmək səlahiyyətini verməyi, bu məqsədlə o, yeni milli bank yaradılmasını təklif etMişdir.

Rikardo xarici ticarət sahəsində də əsaslı ideyalar söyləmişdir. Rikardo həqiqətən daxili ticarət nəzəriyyəsindən ayrılmış xüsusi xarici ticarət nəzəriyyəsini müdafiə edən tək iqtisadçı olmuşdur. Bu xüsusi nəzəriyyənin əsasını kapitalın ölkələrarası yerdəyişməsinə nisbi qabiliyyətsizliyi təşkil etmişdir. Onun təhlilinin məqsədi beynəlxalq ticarəti mümkün edən sərt, daxili ticarətdə əmələ gələn şərtlərdən tamamilə fərqli olduğunu göstərmək olmuşdur. O, A.Smitin xarici ticarət nəzəriyyəsini tamamlamış və inkişaf etdirmişdir. Onun «mütləq üstünlüklər» sözünün yerinə «müqayisəli üstünlük» sözü işlətmişdir və ölkələrarası ixtisaslaşmanı və ticarəti bu istiqamətdə izah etmişdir. Onun xarici ticarət nəzəriyyəsi müqayisəli üstünlük adlanır. O, bu nəzəriyyənin əsasına əmək-dəyər nəzəriyyəsini qoymuş və bu müqayisəli istehsal xərcləri nəzəriyyəsidir. Rikardo istehsal xərclərini müqayisə etmişdir. Rikardonu belə bir sual maraqlandırmışdır: bir ölkə bir çox malda, hətta bütün malların istehsalında mütləq üstünlüyə malikdirsə və ya əksinə bir ölkə heç bir malın istehsalında mütləq üstünlüyə malik deyilsə, belə bir halda bu və ya digər ölkə ilə xarici ticarət aparmaq faydalıdırmı? Rikardo sübut etmişdir ki, hər iki halda bunu etmək faydalıdır. O, sərbəst xarici ticarətin bir ölkə özü istehsal etmədiyi və ya başqa ölkələrdən daha ucuz istehsal etmədiyi malları idxal etməsi halında faydalı



downloaded from KitabYurdu.org

olduğunu söyləmişdir. Rikardo bir ölkə hətta bütün məhsullar istehsalında mütləq üstünlüyə malik olduqda belə, xarici ticarətin mümkünlüyünü və qarşılıqlı faydalı olduğunu, bu ölkə əgər daha səmərəli məhsul istehsalının xeyrinə, az səmərəlidən imtina edərsə qazanc əldə etdiyini sübut etmişdir. D.Rikardonun fikrinə görə, ölkə üçün hətta digər ölkələrdəkinə nisbətən istehsal xərcləri aşağı olan, lakin xərclərdəki fərq ölkədə daha çox məhsuldar olan sahələrin məhsullarına nisbətən az olan sahələrin inkişafı əlverişli deyil. O, belə misal gətirir: müəyyən miqdarda şərab istehsalı Portuqaliyada il ərzində 80 adam, mahud istehsalı isə bu müddət ərzində 90 adam tələb edir. İngiltərədə həmin miqdarda şərab istehsalı üçün 120 adam, mahud üçün isə 100 adam lazımdır. Portuqaliya üçün mahuda mübadilə edib şərab ixrac etmək əlverişli olacaq, baxmayaraq ki, Portuqaliyaya idxal olunan mahud İngiltərəyə nisbətən Portuqaliyanın özündə az əmək miqdarı ilə istehsal oluna bilər. İş ondadır ki, mahud istehsalından əmək və kapitalı Portuqaliya İngiltərə üzərində böyük müqayisəli üstünlüyə malik olan sahəyə – şərabçılığa yerini dəyişdirib, o şəraba mübadilə yolu ilə yalnız 80 adam əmək sərf edib mahud ala bilir, yəni 10 adamın əməyinə qənaət edir. Bu mübadilə İngiltərə üçün də əlverişlidir, belə ki, öz gücünü mahud istehsalına cəmləşdirərək, o mahuda mübadiləyə 120 deyil, yalnız 100 adam əməyi sərf edərək müəyyən miqdar şərab alır və beləliklə, qənaət 20 adamdır[1]. Rikardonun fikrinə görə, hər bir ölkə onun istehsalında müvəffəqiyyət qazandığı məhsullar ixrac, istehsalında digər ölkələr müvəffəqiyyət qazandığı məhsulu isə idxal edir.

Rikardo xarici ticarətin ölkənin sərvətini real artırdığını və real gəlirin həmişə azad ticarət şəraitində, onun olmaması ilə müqayisədə həmişə yüksək olacağını sübut etməyə çalışmışdır. O, həmçinin sübut etməyə çalışmışdır ki, həm qapalı və həm də açıq iqtisadiyyat üçün milli məhsulun dəyəri eynidir, belə ki, xarici ticarət özlüyündə əmək haqqının dərəcəsinə və mənfəətin normasına təsir etmir. O hesab edir ki, mənfəət norması, əgər,

---

[1] Д.Рикардо Начала политической экономии и налогового обложения. Т.1, М., 1965, стр. 116-117



downloaded from KitabYurdu.org

idxal əmək haqqına əldə edilən əmtəələrdən ibarət olmazsa, mənfəət norması artmayacaqdır. Bununla yanaşı, o, həm də daha ucuz zinət əşyalarının idxalı kapitalistə istehlakçı kimi çox yığmağa imkan verdiyini, bu kapital yığımını stimullaşdırdığını, deməli, hətta taxıl idxalını istisna edən xarici ticarətin mənfəət normasına təsir göstərdiyini ehtimal etmişdir.

D.Rikardo istehsalın ümumi böhranının mümkünlüyünü inkar etmişdir. O, «Sey qanunu» adlandırdığı istehsalın özünün avtomatik gəlir yaratması prinsipini qəbul etmiş və hər hansı bir məhsulun artıq istehsalının mümkünlüyünü, lakin bunun bütün məhsullar üzrə eyni vaxtda baş vermədiyini ehtimal etmişdir. O, bunu belə qeyd etmişdir: «Məhsullar həmişə məhsulla və ya xidmətə görə alınır. … Hər hansı ayrıca bir əmtəə artıq miqdarda istehsal oluna bilər və bazar elə bir dərəcədə doldurulacaqdır ki, hətta həmin əmtəəyə sərf olunmuş kapitalın əvəzi çıxmayacaq. Lakin bu bütün əmtəələrlə eyni vaxtda baş verə bilməz».[1]

Rikardonun sistemində vergiqoyma məsələsi xüsusi yer tutur. Bunu onun əsas əsərinin adı və dövlətin məhdud fəaliyyəti içərisində vergiqoymaya önəm verməsi aydın göstərir. Onun sistemində vergi bazası tamamilə rentadan və mənfəətdən ibarət olan xalis məhsula əsaslanır. Rikardo vergi səviyyəsinin yüksək olmasının istehsala mənfi yöndə təsir etdiyini söyləmişdir. O, əmək haqqını yaşayış minimumu səviyyəsində müəyyən etdiyindən və bunun daim sabit qaldığından real əmək haqqına vergi qoyula bilinmir. Əmək haqqına qoyulan bir vergi isə mütləq mənfəətdə əksini tapır. Çünki əmək haqqından alınan vergilər, işçinin əmək haqqının yüksəldilməsini gerçəkləşdirdiyindən mənfəətin azalmasına yol açır. Rikardonun fikrinə görə, bütün vergilər, əgər onlar istehsalın artması və ya qeyri-məhsuldar istehlakın azalması ilə müşayiət olunmursa, kapital yığımına mane olur. O hesab edir ki, rentaya qoyulan vergi, bu təklifi təsbit edilmiş amilə vergi olduğundan rentaya olan vergi yükünü istehlakçıların üzərinə qoymaq, ümumiyyətlə mümkün olma-

[1] Д.Рикардо Сочинения. Т. 1, с. 240



downloaded from KitabYurdu.org

dığından və o torpaq sahiblərinin üzərində qalır. Yalnız təklif dəyişdiyi şəraitdə vergi yükünü istehlakçılara qoymaq olur. Rikardoya görə, rentadan alınan yüksək vergilər kənd təsərrüfatı fəaliyyətini məhdudlaşdırır. Digər sahələrdən alınan vergilərin yükünü isə ya istehlakçılar, ya da sənayeçilər çəkir. Məhsula qoyulan vergilər ilə sənayeçilərə tətbiq olunan vergilər istehlakçının üzərinə düşür. Ticarətlə məşğul olanların mənfəətinə qoyulan vergilər isə mənfəəti azaldır.

Deyilənlər göstərir ki, Rikardo vergiqoyma məsələsini gəlir bölgüsü ilə sıx əlaqədə öyrənmiş və onun gəlir bölgüsünə necə təsir etdiyini açıqlamışdır.

Rikardo ədədi misallardan istifadə edərək kənd təsərrüfatı xammalına qoyulan xüsusi verginin taxılın qiymətinin vergi miqdarında artırdığını, lakin məcmu nominal rentanın dəyişməz qaldığını, beləliklə də vergilərin qiymətin quruluşunu və deməli, müqayisəli üstünlüyünü təhrif etdiyini, bunlar da öz növbəsində pul metalının beynəlxalq bölgüsünün dəyişməsi vasitəsilə qiymətin səviyyəsini dəyişdirdiyini göstərmişdir.

Rikardo gəlirlərdən vergi alınmasını məqsədəuyğun saymış və kapitaldan alınan vergilərin dolayısı ilə kapital qoyuluşlarını azaltdığından, getdikcə ölkənin istehsal gücünü azaltdığını söyləmişdir.



downloaded from KitabYurdu.org

# VII FƏSİL. RİKARDOÇULUQ

Rikardo dərin elmi sistem yaratmasına baxmayaraq, onun kapital ilə əmək arasındakı mübadiləni əmək-dəyər nəzəriyyəsi əsasından izahında rastlaşdığı çətinlik, daha doğrusu, mənfəətin mənşəyini və bütün sahələr üçün eyni orta mənfəət normasının əmələ gəlməsini əmək-dəyər nəzəriyyəsi ilə uyğunlaşdıra bilməməsi kəskin ziddiyyət və problemlər yaratmışdır. Onun mənfəəti ilə əmək haqqının artımının bir-birinə əks olması fikri kapitalizm cəmiyyətində siniflərin mənafeləri arasında antoqonist ziddiyyətlərin olması fikrini yaratmışdır. Rikardonun davamçıları bu ziddiyyətləri həll etməyə çalışmışlar. Rikardo təliminin davamçısı Şotlandiyalı **C.Mill** (ata) (1773-1836) və **C.R.Mak-Kullox** (1789-1864) hesab olunur. Onlar XIX əsrin 20-ci illərində Rikardonun baxışlarını sistemləşdirmiş və onu təfsilatı ilə qismən yenidən işləmişlər. C.Mill London Universitetini yaradanlardan biri olmuşdur. İqtisadi fikrin ilkin tarixi isə Mak-Kulloxun adı ilə bağlıdır. Bu tarix Britaniya ensiklopediyası üçün onun siyasi iqtisad haqqında məqaləsi ilə başlanır. C.Millin əsəri (1821) «Siyasi iqtisadın elementləri» adlanır. Mill də Rikardo kimi torpaq mülkiyyətçilərinin yox, kapital sahiblərinin mənafelərini müdafiə etmişdir. O, xüsusi torpaq mülkiyyətinə qarşı çıxır və onun milliləşdirilməsini tələb edir.

C.Mill kapitalizmdə kapital ilə əmək arasındakı ziddiyyəti Seydən fərqli olaraq əmək-dəyər nəzəriyyəsi əsasında aradan qaldırmağa çalışmışdır. O, kapitalı əmək ilə yanaşı əmtəənin dəyərinin mənbəyi elan edir. Onun bu fikrinin əsasında Rikardonun kapital yığılmış əmək olması haqqında müddəası durur. C.Millə görə, kapitalın köməyilə əməklə istehsal olunan əmtəənin dəyərinə kapitalın dəyəri daxil edilməlidir. İstehsal prosesində iştirak edən (işləyən) maşınların, xammalın, yanacağın dəyərini yığılmış əmək – kapital kimi götürmüş və onlar işləyərək dəyər yaratdıqlarını söyləmişdir. O, dəyərin onlar tərəfindən yaradılan hissəsini mənfəət adlandırmış və bu sonuncunun kapitalistə çatdığını və kapitala proporsional olduğunu qeyd etmişdir.



downloaded from KitabYurdu.org

C.Mill kapitalın – yığılmış əməyin-dəyərin (qiymətin) yaradılmasında iştirakını çaxırın timsalında bu cür izah edir: zirzəmidə, çəlləkdə saxlanılmış köhnə çaxır, saxlanılan müddətdə ona heç bir əmək qoşulmamasına baxmayaraq, yeni çaxırdan baha olur, çünki onun üzərində zirzəmidə, çəlləklərdə təcəssüm olunmuş yığılmış əmək işləyir. Beləliklə, əmək haqqı bilavasitə canlı əməyin, mənfəət isə maddiləşmiş, keçmiş əməyin haqqıdır, fəhlə əməyin tam dəyərini alır, yeni yaradılmış dəyərdən onun almadığı nə varsa, bunu o deyil, onun canlı əməyi deyil, kapitalda təcəmmümləşmiş keçmiş əmək yaratmışdır. D.Rikardo tərəfindən təsbit edilmiş dəyər qanunu ilə orta mənfəət qanunu arasındakı ziddiyyətin aradan qaldırılmasına bu cür yanaşma faktiki olaraq əmək-dəyər nəzəriyyəsindən imtina deməkdir və bu dəyər nəzəriyyəsində istehsal xərcləri nəzəriyyəsi adlanır. Bu konsepsiyaya görə, əmtəənin dəyəri kapitalistin kapital məsrəfləri, əmək haqqına onun sərf etdiyi xərcləri və mənfəəti ilə müəyyən olunur. Başqa sözlə, dəyər istehsal xərclərinə və üstəgəl mənfəətə bərabərdir.

C.Mill D.Rikardo tərəfindən aşkara çıxarılmış dəyər nəzəriyyəsi və orta mənfəət nəzəriyyəsi arasındakı, əmtəələrin ekvivalent mübadiləsi qanunu və əməklə kapital arasındakı bəlli olan qeyri-ekvivalent mübadilə faktı arasındakı ziddiyyəti həll etməyə cəhd göstərərək hesab edir ki, bu mübadilədə fəhlə kapitalistə öz əməyini deyil, məhsulda öz payını satır. London Universitetinin professoru C.R.Mak-Kulloxun əsas əsəri «Siyasi iqtisadın əsas prinsipləri» (1825) olmuşdur. O, kapitalist münasibətlərini sadə əmtəə təsərrüfatı münasibətlərilə eyniləşdirmişdir. Mak-Kullox maşın, heyvan və yaxud təbiət qüvvələri ilə baş verən fəaliyyətin də əmək kimi zühur etdiyini qeyd edir. Bununla o, Rikardonun sisteminin metodoloji əsası olan əmək-dəyər nəzəriyyəsini inkar etmiş olur. O, dəyər yaratmaq xüsusiyyətini bütün əmtəələrə aid edir. Digər tərəfdən də göstərir ki, «əmək sərvətin yeganə mənbəyidir». Nəticədə isə adi əmtəə ilə iş qüvvəsi (əmək) arasındakı fərqi aradan qaldırmış olur ki, bu da fəhlə tərəfindən yaradılan dəyərlə onun iş qüvvəsinin dəyəri arasındakı fərqi müəyyən et-



downloaded from KitabYurdu.org

mək mümkünsüz olur. Ona görə də Mak-Kulloxda da mənfəət merkantilizmdəki kimi tədavüldə, yəni qiymətin dəyəri ötməsindən əmələ gəlir. Onda, mənfəət sadə əmtəə tədavülünün nəticəsi kimi çıxış edir. Mak-Kullox həm də cəmiyyətin iqtisadi həyatının bu və ya digər xalqın milli xüsusiyyətlərindən asılı olmayaraq ümumi xarakterə malik olan iqtisadi qanunlarla tənzimləndiyini qeyd etmişdir.

Marksizm C.Millin və Mak-Kulloxun baxışlarını Rikardoçuluğun əsas metodoloji əsası olan – əmək-dəyər nəzəriyyəsinin məhvi kimi qiymətləndirir. Y.Şumpeter isə yazır ki, Rikardonun təlimi onların əlində solmuş və dərhal ölü və səmərəsiz bir şeyə çevrilmişdir. Bunun səbəblərini o, əsasən Rikardonun təliminin özünün səmərəsizliyində görür.[1] Rikardonun davamçılarına Oksford Universitetinin professoru **H.Ü.Senior** da (1790-1864) yaxın olmuşdur. Onun əsas əsəri olan «Siyasi iqtisadın əsas prinsipləri» 1836-cı ildə çap olunmuşdur. O da dəyəri istehsal xərcləri ilə eyniləşdirmiş və onun 2 elementlə – əmək və kapitalla müəyyən edildiyini göstərmişdi. Senior Rikardonun digər davamçılarından fərqli olaraq dəyər ünsürlərinin (əmək və kapitalın) və onların gəlirlərinin psixoloji izahını vermişdir. O, imtina nəzəriyyəsini yaratmışdır. Onun bu nəzəriyyəsi sonralar çox iqtisadçılar tərəfindən istifadə olunmuşdur. Senior imtinanı insan davranışı kimi başa düşür. Senior əmək haqqını və mənfəəti – fəhlənin və kapitalistin subyektiv qurbanları kimi izah edir. Onun imtina nəzəriyyəsinə görə əmək haqqı fəhlənin öz istirahət və rahatlığından «imtina» edib işlədiyinə görə onun mükafatıdır – haqqıdır, mənfəət isə kapitalist öz kapitalını istehlaka sərf etməkdən «imtina» etdiyinə görə onun mükafatıdır. Beləliklə, Senior mənfəətin kapitalistin imtinası ilə yaradıldığını göstərmiş olur. Əlavə olaraq Senior sahibkar gəlirinə istehsalı idarə etdiyinə görə kapitalistin «əmək haqqı» kimi baxır. Senior tərəfindən gəlirlərin bu cür şərhi kapitalizmdə siniflər arasındakı antoqonist ziddiyyəti aradan qaldırmış olur. Seniorun variantına görə, imtina xalis yığım sıfıra bərabər olan stasionar iqtisadiyyatda yox

---

[1] А.Аникин Елмин кәнчлији. Б., 1987, səh. 281



downloaded from KitabYurdu.org

olur. Bəs kapitalistin öz kapitalını istehlaka xərcləməkdən imtina etməsinə görə nə üçün mükafatlandırılmalıdır? H.Senior bunun səbəbini məhz təsərrüfatçılıq edən subyektlərin psixologiyasında axtarmışdı. Çünki hamı sonra yox, indi istehlak etməyi üstün tutur. Bunu qismən gələcəyə ümid etməyib, ölə bilməsi məntiqilə, qismən də gələcək istehlakın nədən ibarət olmasını dumanlı dərk etdiyindən qiymətləndirməyi bacarmadığından edirlər.

Sonradan A.Marşall «İmtina» sözünü «gözləmə» sözü ilə əvəz etmişdir. Bu əsasdan da o, faiz nəzəriyyəsi yaratmışdır.



downloaded from KitabYurdu.org

# III HİSSƏ. KLASSİK ELMİ SİSTEMİN DAĞILMASI, TƏNQİDİ VƏ İNKİŞAFI

## VIII. J.B.SEYİN İQTİSADİ NƏZƏRİYYƏSİ VƏ METODOLOGİYASI

İqtisad elminin görkəmli simalarından biri də **Jan Batist Sey** (1767-1832) olmuşdur. Onun nəzəriyyələri iqtisad elmi tarixində mühüm yer tutmuş və o, bu elmin gələcək inkişafına inqilabi təsir göstərmişdir. Bu *Sey tərəfindən yaradılmış amillər nəzəriyyəsi və bazar qanunudur.* Klassik yönümlü iqtisadçılar onun nəzəriyyələrini ruh yüksəkliyi ilə qarşılamışlar, ona istinat etmişlər və indinin özündə də ondan bəhrələnirlər. Hətta, K.Marks özünün izafi dəyər nəzəriyyəsini Seyin baxışlarının tənqidi əsasında yarada bilmişdir. Seyin baxışları və onun məktəbi XIX əsrin birici yarısında Fransada rəsmi iqtisad elmini təmsil etmişdir və həm də ümumdünya iqtisadi fikrinə böyük təsir göstərmişdi.

J.B.Sey Lionda tacir ailəsində anadan olmuşdur. O, yaxşı kommersiya təhsili almış və iqtisadi biliklərini müstəqil surətdə artırmağa olduqca böyük səy göstərmişdir. O, akademik seçilmiş, Paris Universitetinin və Fransanın digər tədris ocaqlarının siyasi iqtisad professoru olmuşdur. Sey həm də fabrikant olmuşdur.

J.B.Sey öz iqtisadi baxışlarını «Siyasi iqtisad traktatı və yaxud sərvətin əmələ gəldiyi, bölüşdürüldüyü və istehlak olunduğu üsulun sadə şərhi» (1803), «Siyasi iqtisadın katexizisi» (traktatın qısa şərhi) (1817) və altı cildlik «Siyasi iqtisad kursu» (1828-1830) əsərlərində vermişdir.

Sey özünü A.Smitin etibarlı şagirdi, onun baxışlarının yalnız sistemləşdiricisi, sadələşdiricisi və geniş formada yayıcısı adlandırmasına baxmayaraq, o, faktiki olaraq öz nəzəriyyələrini yaratmışdır. Sey amillər nəzəriyyəsini Smitin dəyərin gəlirlərdən ibarət olması fikrindən yaratmışdır.

*Sey proteksionizmin əleyhinə olmuş və onun «bazarlar» qanunu merkantilizmin fiziokratik tənqidinin tərkib hissəsidir*. O,



downloaded from KitabYurdu.org

A.Smitin iqtisadi liberalizm konsepsiyasını əsas götürməklə azad sahibkarlıq sistemini daimi və ideal saymış, iqtisadi siyasətdə yalnız laisser faire (təbii azadlıq) siyasətini əsas prinsip hesab etmişdir. Sey də A.Smit kimi iqtisadiyyata dövlət müdaxiləsinin minimuma endirilməsi uğrunda çıxış etmişdir.

*J.B.Seyin xidmətlərindən biri ondan ibarətdir ki, o, klassik yönümlü iqtisadçılar içərisində bazar iqtisadiyyatında məcmu məhsulun reallaşması kimi mühüm problemi irəli sürən ilk adam olmuşdur.* O, tam məşğulluq şəraitində iqtisadiyyatın böhransız və tarazlı inkişaf səviyyəsinin təmin olunmasını tam təbii azadlıq prinsiplərinin gözlənilməsi və möhkəmləndirilməsi şəraitində mümkün sayır. Onun azad iqtisadi sistemdə məcmu məhsulun tam reallaşması və böhransız iqtisadi artım kimi əsas konsepsiyaları öz əsaslarını A.Smitin «təbii qaydasından» götürmüşdür. Sey hesab edir ki, azad bazar iqtisadiyyatında qiymət və əmək haqqı mütləq çevikliyə malikdir və təsərrüfat konyukturasındakı dəyişikliklərə ani cavab verə bilir və bu çeviklik özlüyündə məhsulların istehsalında əmələ gələ biləcək uğursuzluqları dərhal aradan qaldıra bilir. Sey göstərir ki, yalnız azad rəqabət şəraitində istehsal amilləri daha səmərəli qarşılıqlı fəaliyyət göstərir və siniflər arasında münasibətlər ahəngdar olur.

J.B.Seyi iqtisad elminin problemlərini istehsal, bölgü və istehlak problemlərinə bölməklə, bölgünü və istehlakı istehsalla bir cərgəyə qoymuş, onların müstəqilliyini, istehsaldan asılı olmadığını göstərmiş olmasına baxmayaraq, Sey sərvətin istehsal sferasında yarandığını göstərmiş və sərvətin mənbəyini millətin istehsal potensialında görmüşdü.

Seyin metodologiyası A.Smitin metodologiyasından qaynaqlanmışdır. O, iqtisadi qanunauyğunluqları təbii hesab etmiş və onların təbiət elmlərinin, xüsusən də fizikanın qanunauyğunluqları kimi qurulduğunu ehtimal etməklə, faktiki olaraq iqtisadi qanunları inkar etmiş olmuşdur. Bununla yanaşı, onun metodologiyası qeyri-tarixlik, normativlik və təsvirçilik ilə xarakterizə olunur. O, iqtisadi qanunlara, kateqoriyalara və nəzəriyyələrə tarixi mövqedən yanaşmamış və onları universal qəbul etmişdir.



downloaded from KitabYurdu.org

Sey siyasi iqtisadın vəzifəsini yalnız nəzəriyyəçilikdə və təsvirçilikdə görmüşdür.

J.B.Sey dəyəri əməklə deyil, faydalılıqla müəyyən edir. Onun «faydalılıq nəzəriyyəsi»nə görə, istehsal yalnız faydalı şeylər, istehlak dəyərləri, yəni faydalılıq yaradır, faydalılıq isə predmetləri dəyərli edir. O, qeyd edir ki, «dəyər faydalılığın ölçüsüdür». Seyin «xidmət nəzəriyyəsi»nə görə mübadilə, alqı-satqı bərabər qiymətli «xidmətlərin» qarşılıqlı mübadiləsidir. Onun nəzəriyyəsində təkcə əmək yox, həm də əşya və təbiət qüvvələri də xidmət göstərir.

Seyi dəyərdən də daha çox bölgü nəzəriyyəsi maraqlandırmışdı. O, özünün amillər nəzəriyyəsinə uyğun bölgü nəzəriyyəsi yaratmışdı. Onun bölgü nəzəriyyəsinə görə, istehsal amillərinin sahibi qanunu olaraq öz gəlirini əldə edir. Seyin təlimində əmək haqqı əmək amilinin, mənfəət kapital amilinin, renta isə torpaq amilinin təbii törəməsi kimi şərh olunur.

Klassik iqtisad elmində mühüm əhəmiyyəti olan Seyin istehsalın üç əsas amilləri nəzəriyyəsinin mahiyyəti ondan ibarətdir ki, ictimai istehsalda üç əsas amil: əmək, kapital və torpaq qarşılıqlı fəaliyyət göstərir. Amillər nəzəriyyəsi mahiyyət etibarı ilə dəyərin və siniflərin gəlirlərinin yalnız bir amillə, daha doğrusu, əməklə yaradılması, mənfəət və rentanın fəhlənin əmək məhsulundan çıxma olması, əməyin kapital tərəfindən istismar edilməsi, cəmiyyətdə siniflərin mənafelərinin bir-birinə zidd olması haqqında olan bütün fikirlərin inkar olunmasıdır. Sey iqtisadi fəaliyyəti bərabərhüquqlu istehsal amillərinin ahəngdar əməkdaşlığı prosesi kimi təsvir edir.

Seyin amillər nəzəriyyəsi A.Smitin və D.Rikardonun dəyər və bölgü problemində həll etməyə çalışdıqları əsas məsələyə cavab vermək cəhdidir. Bu nəzəriyyə ilə Sey ilk dəfə olaraq əməyin, kapitalın və torpağın məhsulun dəyərinin və cəmiyyətin siniflərinin gəlirlərinin yaradılmasında bərabər şəkildə iştirak etməsi haqqında fikir formalaşdırmışdı. O, dəyərin və siniflərin gəlirlərinin mənbəyini həmin amillərin birgə əməyində və onların dinc əməkdaşlığında görür. Sey azad sahibkarlıq sistemini cəmiyyətin



downloaded from KitabYurdu.org

bütün təbəqələrinin iqtisadi mənafelərinin ahəngdarlığı kimi, fəhlələrin və sahibkarların mövcudluğunu isə təbii qanun kimi təsəvvür etdiyindən, həmin sistemi təbii, ideal və daimi adlandırmışdı.

Seyin nəzəriyyələri dövrün tələblərini əks etdirirdi. O yaşadığı dövrdə kapital yığımları böyük miqyas almışdı və maddi nemətlərin istehsalı getdikcə daha artıq dərəcədə sahibkarlar sinfinə məxsus olan amilin – kapitalın (istehsal vasitələrinin) tətbiq edilməsi ilə aparılırdı. Ona görə də istehsal amillərinin optimal birləşdirilməsi problemləri çox mühüm əhəmiyyət kəsb edirdi. Lakin Sey yaradılmış dəyərin istehsal amillərinin hər birinin sahibinin gəlirlərinə hansı nisbətdə bölgüsünə və onun necə əmələ gəldiyinə əhəmiyyət verməmişdi. Onun nəzəriyyəsində mənfəət borc faizinə və sahibkar gəlirinə ayrılır. Borc faizi kapitalın sahibi kimi kapitalist tərəfindən, sahibkar gəliri isə müəssisənin rəhbəri kimi kapitalist tərəfindən mənimsənilir. O, sahibkarın gəlirlərini «onun sənayeçilik qabiliyyəti, istedadı, nizam-intizam ruhu və rəhbərliyi üçün mükafatı»[1] adlandırır.

*Seyin nəzəriyyələrinin qayəsi azad bazar iqtisadiyyatı sistemində sinfi mənafelərin, xüsusən də əmək və kapitalın mənafelərinin ahəngdarlığını və iqtisadiyyatın böhransız və tarazlı inkişafını sübut etməkdir.* O göstərir ki, kapitalların artması ilə «ən kiçik siniflərin» vəziyyəti yaxşılaşır və onlar «onların dalınca gələn ən yüksək sinifləri» daha çox artırır. Sey maşınlar yalnız «ilk əvvəl» fəhlələri sıxışdırıb aradan çıxarır, son nəticədə isə fəhlələrin məşğulluğunun artmasına səbəb olur və məhsulların istehsalını ucuzlaşdıraraq onlara «daha çox xeyir» gətirir deməklə məşhur «kompensasiya nəzəriyyəsinin» əsasını qoymuş olur. Beləliklə, Seyin izahından belə çıxır ki, kapitalizmdə fəhlə sinfi istehsalda texniki nailiyyətlərə hamıdan daha çox maraqlıdır.

Seyin bazarlar qanunu çoxmənalı mahiyyətə malikdir. Onun bazarlar qanununun əsas mahiyyəti - daxili bazarda xaricdəki kimi «məhsullar məhsullarla alınır» fikrindən ibarətdir. Bu fikir fiziokratların «bütün alınanlar satılıb və bütün satılanlar alı-

---

[1] Ж.Б.Сей «Трактат политической экономии». М., 1896, с. 58



downloaded from KitabYurdu.org

nıb» müddəası ilə eyniyyət təşkil edir və ona görə də Seyin qanunu fiziokratlardan qaynaqlandığı ehtimal olunur. «Seyin qanunu»ndan belə çıxır ki, əmtəələr bilavasitə insanların tələbatının ödənilməsi üçün istehsal olunur və bu mübadilədə pul passiv, vasitəçi rol oynayır, o yalnız tədavül vasitəsidir və pulun özü əmtəə kimi təsvir edilir. F.Kenenin cədvəlində də pul tədavül vasitəsi kimi göstərilir, ticarət mahiyyətcə barter mübadiləsindən ibarətdir və məhsul istehsalı avtomatik olaraq gəlir yaradır. Sey qanununun digər mənası «təklif uyğun tələb» yaratmasıdır. Onu da qeyd etmək lazımdır ki, Sey özünün bazarlar qanununu formalaşdırdıqda nə «məhsullar məhsullarla alınır» və nə də «təklif uyğun tələb» yaradır ifadələrini işlətməmişdir. D.Rikardo Seyin qanununu qəbul edir və onun haqqında yazır: «Məhsullar həmişə məhsullarla, yaxud xidmətlərlə alınır; pul yalnız ölçü rolunu oynayır, onun köməyi ilə bu mübadilə edilir». «Təklif uyğun tələb» yaradır ifadəsi isə C.Keynsə kimi işlədilməmişdir, bu ifadə onun kəşfidir.

Sey qanununun güclü variantı «Seyin bərabərliyidir». Bu, kapitalizmdə ümumi istehsal artıqlığının, satış böhranının mümkünsüzlüyünü təsdiq etməkdir. «Seyin bərabərliyi»nin mənası – qiymətin səviyyəsindən asılı olmadan məcmu tələb həmişə məcmu təklifə bərabər olmasıdır. Bərabərliyin əsas şərti pula əlavə tələbin olmamasıdır, onun sıfra bərabər olmasıdır. «Seyin bərabərliyi»ndə nisbi qiymətlər tamamilə maddi amillərlə müəyyən olunur və mütləq qiymətlər həmişə pul kütləsinin həcmilə proporsional dəyişir. «Seyin bərabərliyi» o deməkdir ki, pul bazarı həmişə tarazlıq vəziyyətindədir, depressiya uzun müddət çəkə bilməz, çünki təklif qiymət və faiz dərəcəsinin avtomatik tənzimlənməsi (korreksiyası) vasitəsi ilə mikro və makro səviyyədə tələb yaradır. «Seyin bərabərliyi»nə uyğun olaraq əmtəələrə əlavə təklif və yaxud pula əlavə tələb özünü tənzimləməyə meyllidir.

Sey qanununun digər əsas ideyası bu və ya digər əmtəənin yerdə qalan bütün əmtəələrə nisbətən artıq istehsal oluna bilər,



downloaded from KitabYurdu.org

lakin bütün əmtəələrin eyni zamanda ifrat istehsalı baş vermir, onların ümumi istehsal artıqlığı yaranmır.

Sey qanunu kapitalizmdə daxili bazar olmadığından S.Sismondinin və T.Maltusun «üçüncü şəxslər»siz yaradılmış məcmu məhsulun reallaşmasının mümkünsüzlüyü fikrinə qarşı və kapitalizm öz inkişafı gedişində özü üçün bazar yaratmasını əsaslandırmağa yönəldilmişdir.



downloaded from KitabYurdu.org

# IX FƏSİL. T. MALTUSUN ELMİ SİSTEMİ VƏ METODOLOGİYASI

Dünya iqtisadi fikir tarixində klassik iqtisad elminin inkişafı və onun sisteminin dağılması XIX əsri (20-ci illərdən başlayaraq) əhatə edir. Bu dövr iqtisad elminin inkişafında mühüm rol oynamışdır. XIX əsrin iqtisadçıları dünya iqtisad elminə çoxlu töhfə və yeniliklər vermişlər.

XIX əsrin iqtisadi fikri bir çox səciyyəvi cəhətlərlə fərqlənmişdi. Bu dövrdə bir tərəfdən klassik ideyaların, iqtisadi azadlıq prinsiplərinin təkcə nəzəriyyədə deyil, həm də təcrübədə təntənəsi dövrü olmuşdusa, digər tərəfdən isə klassik iqtisadi fikrin tənqidi və ona alternativ olan nəzəriyyələrin yaranması dövrü olmuşdur. Bu dövrdə bəzi məktəblərin (xüsusən də alman və amerikan) nümayəndələri və K.Marks öz əsərlərində klassik siyasi iqtisadı tənqid etmiş və özlərinin ona alternativ konsepsiyalarını məntiqi əsaslandırmışlar. Digər iqtisadçsılar isə (ingilis və fransız) öz əsərlərində klassik iqtisadın ideya və nəzəriyyələrini təbliğ edir və sistemləşdirir, onlara xas olan ziddiyyətləri yumşaltmağa və bu konsepsiyaları həmin dövrün sosial-iqtisadi durumuna və tələbinə uyğunlaşdırmağa çalışmışdılar.

XIX əsrin iqtisadi fikrində mühüm yer tutmuş və iqtisad elminə özünəməxsus töhfəsi olan iqtisadçılardan biri **Tomas Robert Maltus** (1766-1834) XVIII əsrin axırı XIX əsrin əvvəllərində yaşayıb yaratmışdır. Bu dövr iqtisad elminin ən məhsuldar, bir-birini inkar edən və biri digərinə alternativ olan çoxlu sayda nəzəriyyə və konsepsiyaların yaranması, inkişafı, həm də klassik iqtisad elminin inkişafı, tənqidi və onun elmi sisteminin dağılması dövrüdür.

T.R.Maltus London yaxınlığındakı bir kənddə, mülkədar ailəsində anadan olmuşdur. O. Kembrij Universitetini bitirmiş, sonra ingilis kilsəsində ruhani rütbəsi almış və kənd keşişi işləmişdir. 1807-ci ildən isə o, Ost-Hind kompaniyasının kollecində siyasi iqtisad professoru dərəcəsi almışdır. O, «Əhali qanunu haqqında təcrübə» (1789), «Torpaq rentasının təbiəti və onun



downloaded from KitabYurdu.org

artırılması haqqında tədqiqat» (1815), «Siyasi iqtisadın prinsipləri» (1820) kimi əsərlərin müəllifidir.

Maltusun adı və onun güclü təəssürat yaratmış əhali nəzəriyyəsi yarandığı vaxtdan kəskin mübahisələr obyekti olmuşdur. Onun əhali nəzəriyyəsi haqqında mübahisələr indi də davam etməkdədir. Mütəfəkkirlər, ideoloqlar və iqtisadçıların bir hissəsi Maltus şəxsiyyətini klassik iqtisad elminin nümayəndəsi və gələcəyi «peyğəmbərcəsinə» görən adam kimi, onun nəzəriyyəsini isə klassik iqtisad elminin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirirsə, digər bir hissəsi isə onu cəmiyyət və insanlar üçün arzu olunmayan mürtəce sima, nəzəriyyəsini isə elmi əsası olmayan «sayıqlama» adlandırırlar.

*Maltus elmdə demoqrafik problemləri və əhalinin sayının dəyişməsi qanunauyğunluqlarını öyrənən ilk adam olmamışdır*. Lakin yarandığı gündən ictimai elmlər sahəsində mübahisəyə səbəb olmuş əhali nəzəriyyəsinin yaranması onun adı ilə bağlıdır. Maltus əhali nəzəriyyəsini 1798-ci ildə çapdan çıxan və sonralar altı dəfə yenidən nəşr olunan «Əhali qanunu haqqında təcrübə» əsərində vermişdir.

Maltusun əhali nəzəriyyəsi əhali artımının cəmiyyətin ərzaq resurslarından möhkəm asılılığını müəyyən edir. Onun nəzəriyyəsi yoxsulluğun səbəbini əhalinin artım sürəti ilə yaşayış vasitələrinin artım sürəti arasındakı nisbətdə görmüş və buna görə də o, gələcək haqqında bədbin fikirlər söyləmişdir.

Maltus göstərir ki, insan cəmiyyəti yarandığı vaxtdan əhali yaşayış vasitələrinə nisbətən daha sürətlə artma meylinə malikdir. Bunu sübut etmək üçün o, əhalinin və yaşayış vasitələrinin artımının müxtəlif meyllərini kəşf edir: «Hər 25 ildə əhali 2 dəfə, yəni, həndəsi silsilənin rəqəm sırası kimi -2, 4, 8, 16, 32, 64... arta bilər; yaşayış vasitələri isə ən yaxşı halda həmin vaxt ərzində ədədi silsilə üzrə-1, 2, 3, 4, 5, 6, 7... arta bilər. İki əsrdən sonra əhali yaşayış vasitələrinə qarşı 256-nın 9-a olan nisbəti şəklində olar. Üç əsrdən sonra isə 4096-nın 13-ə olan nisbəti kimi olar. İki min il keçdikdən sonra isə bu nisbət sonsuz olar və hesablanması qeyri-mümkün olar».



downloaded from KitabYurdu.org

Əhalinin yaşayış vasitələrinə nisbətən sürətlə artması ideyası yeni deyil. XVIII əsrin bir sıra mütəfəkkirlərinin baxışlarında belə bir ideya olmuşdur. Lakin, bütövlükdə götürüldükdə Maltus iqtisadi fikir tarixində heç nə ilə müqayisə olunmayan, tamamilə ağla gəlməyən müvəffəqiyyət qazanmışdır. Bunun səbəbi onun nəzəriyyəsinin dərin elmi və nəzəri məzmuna malik olmasında deyil, ondan çıxan analitik nəticələrin güclü təsiri və Maltusun birinci olaraq sosial islahatların köməyi ilə cəmiyyətin təkmilləşdirilməsinin qeyri-mümkünlüyünü deməsi olmuşdur.

Maltus yaşayış vasitələrini daima üstələyən əhalinin fərziyyəyə əsaslanan artma qabiliyyətini «Əhali qanunu» adlandırır və onu hər bir dövr üçün və isttənilən ictimai quruluş üçün həqiqi olan ümumi qanun kimi verməyə çalışır. Əslində isə Maltus əhalinin fərziyyəyə əsaslanan müəyyən sürətlə artım qabiliyyətinə uyğun ərzaq məhsullarının həmin sürətlə artımının faktiki qeyri-mümkünlüyü ideyasını irəli sürür. Bu isə Maltusun əhali artımını aclıq qorxusu ilə məhdudlaşdırmaq fikrində əsas müddəa olmuşdur və yaranmasından çox vaxt keçməsinə və mübahisə obyekti olmasına baxmayaraq onun nəzəriyyəsi klassik iqtisad elmi irsinin ayrılmaz hissəsi kimi indi də saxlanılır.

Maltusun əhali nəzəriyyəsindən ən çox sosial islahatların köməyi ilə cəmiyyətin təkmilləşdirilməsinin mümkünlüyü haqqında nikbin təsəvvürlərin təkzib olunmasında və yaşayış minimumu ilə müəyyən olunan əmək haqqı nəzəriyyəsinin əsaslandırılmasında istifadə olunmuşdur. Bu nəzəriyyə həm də D.Rikardoya iqtisadi tərəqqini tamamilə əkinçilikdəki nailiyyətlərlə izah etməyə imkan vermişdir.

Maltusa qarşı birinci növbədə sosial şəraitin yaxşılaşdırılmasının mümkünlüyünə inananlar, inqilab və islahat tərəfdarları, xüsusən də K.Marks və onun davamçıları çıxmışdır. Çünki Maltus iddia edirdi ki, bəşəriyyətin bütün fəlakətlərinin səbəbi əhalinin çox olmasıdır; burada ictimai quruluşun heç bir təsiri yoxdur.

Maltusun əhali nəzəriyyəsi mahiyyətinə görə üç müddəadan ibarətdir. Bunlardan birincisi və əsası-insanın nəsil artırmaq



downloaded from KitabYurdu.org

biologji qabiliyyəti onun öz ərzaq məhsullarını artırmaq fiziki qabiliyyətini ötüb keçir. Bu Maltus tərəfindən aksioma kimi qəbul olunur. İkinci və üçüncü müddəalar faktiki olaraq bundan törəyir.

Maltusun özü əhalinin həndəsi silsilə ilə çoxalma meylini real hesab etmir. Onun iddiasına görə, təbiət özü qayğı göstərir ki, bu meyl reallığa çevrilməsin. Onun fikrincə, təbiət bunu müharibələrin, xəstəliklərin və sarsıntıların köməyi ilə edir. Bütün bunları Maltus bir növ insanın öz günahkarlığına, islah olunmaz cinsi instinktinə görə təbii (Allah tərəfindən müəyyən edilmiş) cəza hesab edirdi.

Maltus yazmışdır: «Artıq dolmuş olan dünyaya gələn adam, əgər valideynləri onu yedizdirməsələr bunu haqlı olaraq tələb edə bilər, lakin cəmiyyət onun əməyinə ehtiyac hiss etməzsə deməli, onun heç bir hüququ yoxdur; O, mahiyyət etibarilə yer üzərində artıq adamdır. Böyük həyat meydanında ona yer yoxdur. Təbiət ona uzaqlaşmağı hökm edir və bu hökmü də o özü dərhal icra edir».

Buna görə də Maltusun bəzi şərhçiləri onun nəzəriyyəsini yoxsulluğa bəraət qazandıran və artıq əhalini məhv etmək metodu kimi müharibəyə çağıran insansevməz doktrina hesab edirlər.

Maltus əhalinin sayının könüllü məhdudlaşdırılması yollarının da olduğunu qeyd edir. Bu, «mənəvi cilovlanma» qaydasıdır, yəni cinsi əlaqədən imtina edilməsindən, nigaha gec daxil olunmasından, nigahsızlıqdan, dul qalmaqdan ibarətdir. Lakin Maltus özü bu tədbirlərin səmərəliliyinə o qədər də inanmamış və əhalinin zorla azaldılmasının labüdlüyü məsələsini ön plana çəkmişdir. Çünki Maltus əhalinin sayının könüllü məhdudlaşdırılmasını aclıq qorxusundan başqa heç bir dəlillə sübut edə bilmir. Maraqlısı həm də odur ki, Maltus eyni zamanda hamiləliyə qarşı yönəldilmiş tədbirləri bütün hallarda mənəviyyatsızlıq kimi lənətləyir və uşaq doğumunun bu cür məhdudlaşdırılmasını təbiətin, Allahın səlahiyyətinə müdaxilə kimi qiymətləndirir və pis-



downloaded from KitabYurdu.org

ləyir. Müasirlərinin dediyinə görə, Maltus mehriban və xoş xasiyyətli adam olmuşdur.

Maltusun əsas fikri heyvanlarda olduğu kimi insanın təbii instinktlə müəyyən olunan nəsil törətmə bioloji qabiliyyətinə, bu cür qabiliyyəti məhdudlaşdıran amilləri qarşıya qoymaqdan ibarətdir. O, bu məhdudlaşdırıcı amilləri məcburi və xoş niyyətli amillərə bölür və hesab edir ki, əhali artımının bu məhdudlaşdırıcıları həmişə fəaliyyət göstərir. Bu onun nəzəriyyəsinin ikinci müddəasıdır.

Maltusa görə, doğum və ölüm normalarına təsir edən amillər bir-birindən fərqlənir.

Maltus yuxarıdakı iki kateqoriyaya pozitiv bölgü üzərindən üç növ normativ amilləri: yoxsulluğu, qüsuru və «mənəvi cilovlanmanı» verir. Məhdudlaşdırıcılar içərisində Maltus doğumun azaldılmasına səbəb olan amillərdən əxlaq xarakterli məhdudlaşdırıcını və zəif sağlamlığı, həmçinin ölümün artmasına səbəb olan qüsurlu yaşayışı və yoxsulluğu ayırır. Qüsurlu yaşayış və yoxsulluq ölümün artmasının real amili hesab olunur. Lakin sonradan bütün bunlar nəzərə alınmır və əsas məhdudlaşdırıcı amil kimi yaşayış vasitələri götürülür. Daha doğrusu, doğumun azalması və ölümün artması son nəticədə yaşayış vasitələrinin məhdudiyyəti ilə müəyyən edilir. Deməli, Maltusun əhali nəzəriyyəsinin üçüncü müdəəası-əhalinin təkrar istehsal qabiliyyətinin son həddinin ərzaq resurslarının məhdudiyyəti ilə müəyyən olunmasıdır. Yaşayış vasitələrinin çatışmazlığı bütün yerdə qalanlardan sonra fəaliyyət göstərdiyinə görə deyil, digər məhdudlaşdırıcılara ərzaq çatışmazlığının təzahürü kimi baxıldığı üçün o son məhdudlaşdırıcı sayılır. Maltus əhalinin sayının könüllü məhdudlaşdırılmasını yalnız aclıqdan ölüm qorxusu ilə izah etdiyindən, bu həm də xoş niyyətli məhdudlaşdırıcılara aiddir.

Maltus sosial vəziyyətin yaxşılaşdırılmasına edilən hər bir şüurlu cəhdin qarşısıalınmaz əhali kütləsi tərəfindən süpürülüb atılacağını və birbaşa subsidiyalara, yaxud xeyriyyəçiliyə əl ataraq yoxsulluğun aradan qaldırılmasına olunan hər bir cəhdin əhali ar-



downloaded from KitabYurdu.org

tımının əsas məhdudiyyətini yalnız zəiflədəcəyini qeyd edir. O göstərir ki, buna görə də hər bir adam özü-özünün qayğısına qalmalı, özünün təbii ehtiyatsızlığı üçün məsuliyyət daşımalı və tam cavabdeh olmalıdır.

Maltusun əhali nəzəriyyəsi metodoloji cəhətdən qüsurludur, olduqca sadədir və onun dərin nəzəri və empirik məzmunu yoxdur. Bu nəzəriyyə induktiv metodun məhsuludur. Maltus təbiət qanunlarını olduğu kimi cəmiyyətə şamil etmişdir. Lakin bitki və heyvanlardan fərqli olaraq insanlar təkcə istehlak etmirlər, onlar istehsal edir və özlərinin yaşayış vasitələrini artırırlar. A.Smitin və K.Marksın təlimində bu fikir öz geniş əksini artıq tapmışdı. Maltus hamıya  yaxşı məlum olan həyat faktlarını məharətlə bir yerə toplayıb onlardan zəruri nəticələr çıxarmışdır. Onun təklif etdiyi iki tərəqqinin-əhalinin artımı üçün həndəsi və yaşayış vasitələri üçün ədədi silsilənin müqayisə olunması hipnotik inandırıcılıqla fəaliyyət göstərmişdir. Ona görə də Maltusun nəzəriyyəsi müasirləri tərəfindən nə yeni analitik konsepsiyaların yaranmasını, nə də faktoqrafik kəşflərin olunmasını tələb etməmişdi.

Maltusun nəzəriyyəsində əhali artımının tarixi meylinin təsviri verilmişdir. Lakin onun əhalinin partlayışlı artımının təbiəti haqqında heç vaxt aydın anlayışı olmamışdır. Maltusun müasirləri onun statistik rəqəmlərlə səthi tanış olması və dəlillərinin XVI-XVIII əsrlərdə ABŞ-ın əhali artımının şübhəli statistikasına əsaslandığını qeyd edirlər. Amerikan statistikası həmin dövr üçün doğumun sayı ilə immiqrasiya olunanların sayını göstərməmiş və onlar arasında fərq qoymamışdır. Həmin dövrdə Amerikanın əhali artımı doğulanlar hesabına deyil, Avropadan immiqrasiya edənlərin hesabına olmuşdur. Son iki əsr ərzində yalnız Böyük Britaniyanın demoqrafiya tarixi onun tərəfində olmuş, ona xeyirxahlıq etmişdir.

Maltusun «Təcrübə» əsəri çap olunandan üç il sonra keçirilən ilk əhali siyahıya alınması XVIII əsrin son onilliyində Böyük Britaniya əhalisinin həqiqətən sürətlə artdığını göstərmişdir. Bu artımın səbəbi haqqında vahid ümumi fikir yoxdur.



downloaded from KitabYurdu.org

Bəziləri bunu sənaye inkişafının işçi qüvvəsinə tələbat doğurması nəticəsində doğumun artması, bəziləri isə sanitariya, yemək və mənzil şəraitinin yaxşılaşdırılması sayəsində ölümün azalması ilə izah edirlər. Lakin Maltus birinci yerə nigah və doğum nisbətini qoymuş, ölümün faktiki azalmasını ciddi qiymətləndirməmişdi. O, XVII əsrin 80-ci illərindəki inqilabdan sonra Böyük Britaniya əhalinin sayının demək olar ki, artmadığını qeyd edir. Onun müasirləri də bu fikirdə olmuşlar.

İqtisadi ədəbiyyatlarda 1801-ci ilin əhali siyahıya alınmasının nəticələri ilə Maltusun səthi tanış olduğu və onun Avropa tarixində əhalinin bu cür görünməmiş artımının onun dövründə baş verdiyini başa düşmədiyi göstərilir. Maraqlıdır ki, Maltus öz mühakiməsində Böyük Britaniyadakı vəziyyəti əks etdirməyə cəhd göstərməmiş, yalnız ümumi qanun haqqında düşünmüşdür. O, öz mühakiməsində ABŞ-ın şübhəli statistikasına müraciət etməklə nəzarət olunmadıqda hər 25 ildə əhalinin sayının iki dəfə çoxala bilməsi haqda müddəa irəli sürmüşdür. Belə bir sual çıxır ki, görəsən bir ölkənin müəyyən tarixi dövrünün demoqrafik meylini ümumi bəşəri mütləq bir qanun kimi verilməsi məntiqi baxımdan nə qədər düzgündür? Çox güman ki, Maltusun əhali nəzəriyyəsinin çoxlu şübhə və mübahisə doğurmasının səbəbi elə bundadır.

Səhv təkcə onda deyil ki, Maltus faktları düzgün izah etməmişdi. İndi həmin faktların necə olmasını deyə bilməsək də, keçmişə və indi inkişaf etmiş ölkələrə nəzər saldıqda Maltusun gətirdiyi dəlillərin onun nəzəriyyəsində tamamilə əsaslandırılmadığını aydın görə bilərik. İndi onun nəzəriyyəsinə tam əks olan meyl fəaliyyət göstərir. Bu meyl yaşayış vasitələrinin çoxalması və həyat səviyyəsinin yüksəlməsi; doğum və əhalinin artım sürətinin isə aşağı düşməsidir. Qərbin inkişaf etmiş varlı ölkələrində əhalinin təbii artımı Asiyanın, Amerikanın, Latın Amerikasının kasıb ölkələrinə nisbətən bir neçə dəfə aşağıdır. Son illər ərzində Yaponiyada yüksək iqtisadi inkişaf olmuşdur, lakin bu illər ərzində doğum təxminən iki dəfə aşağı düşmüşdür. Deməli, Maltusun nəzəriyyəsi sadəcə olaraq ideoloji hiylə olmuşdur.



downloaded from KitabYurdu.org

Maltus ərzaq məhsullarının əhali artımına uyğun həndəsi silsilə ilə artmasının qeyri-mümkünlüyünü, onun ədədi silsilə kimi artmasını torpaq resurslarının məhdudluğu və kənd təsərrüfatında texniki təkmilləşdirmələrin olduqca zəif getməsi ilə əlaqələndirməyə çalışır. O, özünün düzgünlüyünü sübut etmək üçün metodoloji əsas kimi torpağın məhsuldarlığının azalması deyilən qanundan istifadə edir. Torpağın məhsuldarlığının azalması qanununun mahiyyəti ondan ibarətdir ki, torpağa qoyulan əlavə kapital guya məhsulun proporsional artımını vermir. Deməli, insanlar özlərini ərzaqla təmin edən yeyinti məhsullarını tam həcmdə istehsal etmək imkanında deyil.

Maltusun nəzəriyyəsində ərzaq məhsullarının istehsal imkanı açıq-aydın torpaq çatışmazlığı və artıq istifadə olunan torpağa əlavə kapitalın daim qoyulması sayəsində alınası məhsul artımının azalması ilə məhdudlaşır. O, inandırır ki, texnoloji dəyişiklik nəticəsində əvvəllər başqa məqsədlərlə istifadə edilmiş pis torpaqların dövriyyəyə cəlb edilməsi yolu ilə yaşayış vasitələrinin əldə olunmuş miqdarı heç vaxt bir qədər uzaq dövr ərzində əhali artımının məcburi və xoş niyyətli məhdudlaşdırıcılarının fəaliyyətini ödəmək üçün kifayət qədər çox olmur. Lakin Maltus bu qanundan istifadə edərək təkcə torpaq fondunun genişlənməsinin baha başa gəlməsini göstərməmiş, həm də kapital yığımının və texnologiyada dəyişikliyin heç vaxt təbii resursların məhdudluğunu ödəyə bilmədiyini qeyd etmişdir. Beləliklə, məhsulların çatışmamazlığı təbiətin təbii-bioloji qanunları ilə izah edilir. Lakin mütəxəssislər texniki tərəqqinin səmərəliliyinin azalması qanununun mövcud olmadığını qeyd edirlər.

Maltusun müasirləri indi də bu və ya digər formada məhsuldarlığın azalması qanununa əsaslanmaqla Maltusla müqayisədə bu qanunun fəaliyyət dairəsini kəskin şəkildə daraltmışlar. Onlar deyirlər ki, bu qanun yalnız o zaman fəaliyyət göstərir ki, istehsalın yerdə qalan amillərinin dəyişməz miqdarına mövcud amilin artmaqda olan kəmiyyəti əlavə edilmiş olsun. Marksist iqtisadçılar isə bu qanunun fəaliyyətini ümumiyyətlə qəbul etmirlər.



downloaded from KitabYurdu.org

Maltusun əhali nəzəriyyəsini səfeh və ya kobud mədhiyyə kimi kənara atmağın düzgün olmadığı da göstərilir. Bu nəzəriyyənin öz təfəkkürlərinə təsiri haqqında D.Rikardo və Ç.Darvin kimi adamlar söhbət açmışlar. K.Marks və F.Engels yazmışlar ki, bu nəzəriyyə təhrif olunmuş olsa da, kapitalizmin real qüsur və ziddiyyətlərini əks etdirir.

Maltus tərəfindən göstərilən hər 25 ildə əhalinin iki dəfə artması ildə 3% artım deməkdir. Əslində əhalinin bioloji artım həddi ildə 5%-dir. Ona görə bəziləri qeyd edirlər ki, nəzərə alınsa ki, sivil cəmiyyətlərdə artıq çoxdan əhalinin artım sürəti azalır, Maltusun sürətin ümumi 3% olması təklifi olduqca cəsarətli hesab olunmalıdır. Onlar dünyanın çox ölkələrində çoxdan geniş istifadə olunan «ailənin planlaşdırılması» siyasətini Maltusun dəfələrlə hər bir adam özünün qayğısına qalmalıdır və özünün məsuliyyətsizliyinə görə tam cavabdeh olmalıdır müddəasının nəticəsi kimi qiymətləndirirlər.

İqtisad elmində Maltus təkcə əhali nəzəriyyəsinə görə özünəməxsus yer tutmamışdır. O həm də digərlərindən fərqli dəyər və böhran nəzəriyyəsi yaratmışdır. Bu nəzəriyyələr «Siyasi iqtisadın prinsipləri» (1820) əsərində şərh edilmişdir. Onun bu nəzəriyyələrinin bir-biri ilə sıx əlaqəsi var. Maltus mənasına varmadan ona ümumi istehsal böhranının daim mümkün olmasını sübut etməyə imkan verən dəyər nəzəriyyəsi yaratmışdır.

O, Rikardonun dəyər nəzəriyyəsinə qarşı çıxır, onun dəyər ölçüsünü qəbul etmir. Maltus dəyər nəzəriyyəsində Smitin ölçüsünə meyl etmiş, onun dəyərin əmtəəyə mübadilə olunmuş əməyin miqdarı ilə ölçülməsi variantını əsas götürmüşdür. Bununla belə, Maltus özünün dəyərin istehsal xərcləri konsepsiyasını yaradır. Maltusa görə, əmtəədə maddiləşmiş əməyin miqdarı, onun istehsal xərcləri ilə şərtlənir. O, keçmiş və canlı əməklə yanaşı kapitalistin mənfəətini də istehsal xərclərinə aid edir.

Maltus hesab edir ki, alıcı əmtəənin satıcısına təkcə əmək haqqını deyil, həm də mənfəəti ödəməlidir. Bununla mənfəətin istehsalda deyil, tədavüldə yarandığını göstərmiş olur. Mənfəətə əmtəənin dəyərinə nominal əlavə, əməklə heç bir əlaqəsinin ol-



downloaded from KitabYurdu.org

maması kimi baxır və onu əməklə yanaşı istehsal xərclərinin bərabər hüquqlu tərkib elementi hesab edir. Deməli, Maltus rentadan başqa gəlirin yerdə qalan iki formasını-əmək haqqı və mənfəəti istehsal xərclərinin zəruri elementi kimi göstərmişdir. Maltusun mənfəətin tədavül sferasında əmtəənin dəyərindən yüksək qiymətə satılması nəticəsində yarandığını göstərməklə mənfəətin əmtəənin özgələşməsi nəticəsində əldə olunması haqqında merkantilist mövqeyə qayıdışı təzahür etdirmiş olur.

*Maltus Rikardonun qəbul etmədiyi və Seyin mümkün hesab etmədiyi ümumi istehsal böhranının mümkünlüyünü qəbul edir.* O, bütün əmtəələrin müvəqqəti yox, daimi artıq istehsal olunma ehtimalını göstərməyə çalışmışdır. Maltus «artıq istehsal» sözü altında qiymətin maya dəyərindən aşağı düşməsinə səbəb olan tələbin nisbi intensivliyinə təklif artıqlığını başa düşürdü. Tələb intensivliyi arzu olunan şeyi almaq məqsədi ilə çox ödəmək qabiliyyətidir. Maltusun əsas müddəası-qeyri-məhsuldar istehlakçıların ekzogen (kənar) xərcləri olmadan kapital yığımı prosesinin mütləq fasiləsiz durğunluğuna gətirə bilməsi olmuşdur. Qeyri-məhsuldar istehlakçılar dedikdə, kapitalist və fəhlələrə aid olmayan cəmiyyətin digər ictimai sinif və qrupları nəzərdə tutulur.

A.Smit və D.Rikardo göstərmişdilər ki, kapitalizm üçün əsas problem istehsalın artımını təmin edən yığımdır; tələbat və satış tərəfindən isə heç bir ciddi çətinlik mövcud deyildir. Maltus (Sismondi ilə eyni vaxtda) bu nöqteyi-nəzərə qarşı çıxış etmiş və *ilk dəfə olaraq satış problemini iqtisadi nəzəriyyənin mərkəzinə qoymuşdur*. Rikardo hesab edirdi ki, əmtəənin istənilən kəmiyyətinin satılması kapitalizmin və fəhlələrin məcmu tələbinin hesabına təmin edilə bilər. Maltus isə satış və böhranlar probleminin həllini nə kapitalistlərə, nə də fəhlələrə aid olan «üçüncü şəxslərin»-torpaq mülkiyyətçilərinin, keşişlərin, dövlət qulluqçularının, zabit və əsgərlərin və s. mövcudluğunda axtarır. Maltusa görə, yalnız onların irəli sürdüyü tələb istehsal olunan əmtəələrin bütün kütləsinin satışını təmin edə bilər.

Maltusun böhran nəzəriyyəsinin mənası Smitin və Rikardonun qiymətləndirmədikləri və lənətlədikləri torpaq mülkiyyət-



downloaded from KitabYurdu.org

çilərinin, keşişlərin və digər ictimai siniflərin mənafeyinin müdafiəsindən ibarətdir. Maltus özü ilə Rikardo arasında olan təzadı belə qeyd etmişdi: «Bir qədər qəribədir ki, xeyli renta götürən cənab Rikardo bu rentanın milli əhəmiyyətini qiymətləndirmir, mən isə heç zaman renta almaya-almaya və onu almaq ümidində olmaya-olmaya ehtimal ki, onun əhəmiyyətinə lazımi qiymət verməməkdə təqsirləndiriləcəyəm».

Maltusun böhran nəzəriyyəsi-yığım artıqlığı və bu əsasdan yaranan kəsirli istehlak nəzəriyyəsidir. Bu nəzəriyyənin məğzi istehlak və yığımın fasiləsiz proporsional sürətlə qeyri-məhdud artımını inkar etməkdir. Kəsirli istehlak nəzəriyyəsinin ideyası ondan ibarətdir ki, qapalı iqtisadiyyatda xüsusi sektorun məcmu tələbi xərcləri ödəyə bilən qiymətə bütün əmtəə kütləsinin alınması üçün həmişə kifayət etməyən dərəcədədir. Bu nəzəriyyə məcmu tələbin istehlak və investisiyaların məbləğinə bərabər olması faktını qəbul etmir. Bəzi iqtisadçılar «kəsirli istehlak» nəzəriyyəsini yanlış olan müddəa və mənfur nəzəriyyə kimi qiymətləndirmişlər.

Maltus böhranların bütün xalis pul səbəblərini inkar etmiş və digərlərini sübuta yetirmək üçün qiymət çevikliyinin və əmək haqqının kifayət dərəcədə olması faktından istifadə etmişdir. Əsas dəlil kimi əksər istehlakçılar fəhlələrdir, onlar heç vaxt istehsal etdikləri məhsulu geri ala bilmir, çünki onun dəyəri açıq-açığına verilmiş əmək haqqının üstələnməsi haqqında müddəanı götürmüşdü. Nəticədə isə təkrar istehsalı təmin etmək üçün zinət şeylərinə və qeyri-məhsuldar xarakterli xidmətlərə olan məsrəflərin müəyyən həcmi mənfəət və rentadan olması fikrinə gəlmişdir.

*Maltusun həll etmək istədiyi problem-yığımın törətmiş olduğu qeyri-bərabər tələbdən irəli gələn durğunluq problemidir. O, çıxış yolunu qeyri-məhsuldar istehlakçıların timsalında səmərəli tələbin formalaşmasında görürdü.*

Maltusun dəfələrlə təkrarladığı əsas fikir «həddindən artığa çatdırılmış qənaət (yığım) istehsal üçün motivin olmamasına aparır» deməsi olmuşdur. Maltus ona müasir olan bütün iqtisadçılar kimi qənaət adı altında «gəlirin kapitala çevrilməsini», daha doğrusu, qənaət ilə yığım arasında eyni məna başa



downloaded from KitabYurdu.org

düşmüşdür. O Smitin yığımın məsrəf olması konsepsiyasının ardıcıl tərəfdarı olmuşdur. Maltus üçün «yığım prinsipi» həmişə təsirsiz istehlak üçün nəzərdə tutulan vəsaiti mənfəət gətirən istiqamətə keçirmə deməkdir və ya gəlirin kapitala çevrilməsidir. Buradan da belə nəticə çıxır ki, qənaətçiliyə və ya investisiya qoyuluşuna həddindən artıq meyllilik istehlak imkanını məhdudlaşdıraraq müəyyən problem yaradır.

Maltusa görə, fəhlə onun tərəfindən istehsal olunmuş məhsulun dəyərində az aldığına görə investisiya məsrəflərinin istər-istəməz səmərəli tələbin çatışmazlığını yaratması fikrini əsas götürərək yazır ki, təkcə bir işləyən siniflərin alıcılıq qabiliyyəti kapitalın tam istifadə olunması üçün stimulu təmin etmək vəziyyətində deyil. Və bu fərq kapitalistlərin irəli sürdüyü tələblə ödənilə bilməz. Çünki, «Onlar ehtimala görə, özlərini adət olunmuş rahatlıq və kefdən məhrum etmək yolu ilə özlərinin gəlirlərinin bir hissəsini yığmaq və zinət şeylərini toplamaq üçün özlərini qənaətcilliyə məhkum etmişlər». Deməli, Maltusa görə, alıcılıq qabiliyyətinin nə qədər ki, cəmiyyətin kapitalistlər və fəhlə sinfinə aid olmayan hissəsi tərəfindən əlavə «qeyri-məhsuldar istehlakı» ilə qabağı alınacaq, ümumi istehsal artıqlığı mövcud olacaqdır.

İqtisadi siyasət sahəsində Maltusun təklifi kapital yığımı normasının  azaldılmasından və torpaq sahibləri sinfini tərəfindən «qeyri-məhsuldar istehlakın» həvəsləndirilməsindən ibarətdir. O, keynsçilikdən fərqli zəminlərə əsaslanaraq işsizliyin ağırlığını yumşaltmaq üçün ictimai işlər proqramını təklif etmişdir.

Müasir iqtisad elminin aparıcı cərəyanı olan keynsçilik Maltusun «səmərəli tələb» ideyasını əsas kimi qəbul etmişdir. Keyns yazmışdır ki, «əgər Rikardonun deyil, təkcə Maltusun əsərləri XIX əsrin iqtisad elminin sonrakı inkişafı üçün çıxış nöqtəsi olsa idi, dünya bu gün nə qədər müdrik və varlı olardı...».

Müasir dövrdə də əmtəələrin müxtəlif sinif və təbəqələri tərəfindən istehlak olunması və dövlət tərəfindən bu istehlaka təkan verilməsi böhrana qarşı yönəldilmiş tədbirlər sistemində və siyasətdə mühüm yer tutur.



downloaded from KitabYurdu.org

# X FƏSİL. C.S.MİLİN İQTİSADİ NƏZƏRİYYƏLƏRİ

İngilis klassik iqtisad elminin XIX əsrdə görkəmli nümayəndələrindən biri **Con Stüart Mill** (1806-1873) olmuşdur. Onun bir mütəfəkkir, filosof və iqtisadçı kimi formalaşmasında atası Ceyms Mill və David Rikardo mühüm rol oynamışlar. London Universitetinin təşkilatçılarından biri olan ata C.Mill D.Rikardonun yaxın dostu və onun təliminin davamçısı olmuşdu.

D.Rikardonun davamçısı və klassik ingilis iqtisad elminin başa çatdırıcılarından biri hesab olunan C.S.Mill 1806-cı ildə Londonda anadan olmuşdur. O, 13 yaşından atasının elmi işində daim yaxından iştirak etmiş, atası ona siyasi iqtisad kursunu keçmiş - C.S.Mill iqtisad elminin problemləri barədə atası və həmçinn Rikardo ilə ətraflı müzakirələr və söhbətlər aparmışdı.

C.S.Mill «Siyasi iqtisad haqqında təcrübələr»adlı ilk əsərini 23 yaşında, 1829-cu ildə nəşr etdirmişdi. Ona çox məşhurluq gətirmiş fəlsəfi əsər olan «Məntiq sistemi» 1843-cü ildə çap olunmuşdu. 1844-cü ildə isə Millin iqtisad elminə gətirdiyi yenilikləri əks etdirən «siyasi iqtisadın bir sıra həll olunmamış məsələləri haqqında təcrübələr» əsəri çapdan çıxmışdı. Onun "Siyasi iqtisadın prinsipləri və onların sosial fəlsəfəyə tətbiqinin bəzi cəhətləri" adlı əsəri isə 1848-ci ildə nəşr olunmuşdu. Bu əsər beş kitabdan ibarətdir və onlar müvafiq olaraq istehsala, bölgüyə, mübadiləyə, kapitalizmin tərəqqisinə və iqtisadiyyatda dövlətin roluna həsr olunmuşdu.

*C.S.Mill pozitivist filosof və iqtisadçı olmuşdu. Pozitivizm Mill və bütünlükdə XIX əsrin ortalarının, həmçinin sonrakı iqtisad elminin inkişafı üçün əsas olmuşdu. Mill XX əsr ingilis liberalizminin iqtisadi və sosial ideyalarının sələfi hesab olunur*. O "abstrakt prinsipləri" sosial fəlsəfəyə tətbiqlə əlaqədar şərh etmişdi. Dostlarından birinə demişdi: «Məncə siyasi iqtisadda abstrakt tədqiqatlar – mühüm praktiki problemlərlə müqayisədə olduqca az əhəmiyyətlidir, praktiki problemlərin həlli demokratiyanın inkişafını və sosial dünyagörüşünün yayımını tələb edir».



downloaded from KitabYurdu.org

Mill elminin vəzifəsi müxtəlif nöqteyi-nəzərlərin təsvirindən, sistemləşdirilməsindən, onların elektikcəsinə birləşdirilməsindən ibarətdir. Millin yeniliyi iqtisadi konsepsiyalara məharətlə elektik xarakter verməsidir. Məhz nəzəri elektizm sayəsində Mill klassik iqtisad elminin bütünlükdə xülasəsini verə bilmişdi. Onun təlimində klassik və antiklassik elementlər bir-birinə dolaşmış və keçmişdi.

Mill özünün «Siyasi iqtisadın prinsipləri» əsərində müxtəlif nöqteyi-nəzərləri və mənafeləri uyğunlaşdırmağa çalışmaqla "yeni iqtisad" elmini, daha doğrusu "kompromis siyasi iqtisad" elmini yaratmış və ona inkişaf etmiş forma vermişdi.

C.S.Millin «Siyasi iqtisadın prinsipləri» əsəri misilsiz müvəffəqiyyət qazanmış, Marşallın 1890-cı ildə nəşr olunmuş eyni adlı əsərinə qədər siyasi iqtisad üzrə ən nüfuzlu əsər olmuş və XIX əsrin bütöv ikinci yarsında iqtisadçıların şəksiz (mübahisəsiz) bibliyası olmuşdu. Bu əsər Millin sağlığında yeddi dəfə nəşr olunmuş, bir çox dillərə tərcümə edilmişdi. Bu əsər Marşallın əsərinin nəşrindən sonra da, hətta Böyük Britaniyanın və ABŞ-ın Universitetlərində yeni başlayanlar üçün iqtisadiyyat üzrə əsas dərslik olmuşdu. Onun əsərinin uzunmüddətli nüfuz qazanması əsasən Mill tərəfindən müxtəlif nəzəri konsepsiyaların məharətlə bir-birinə toxunulması ilə izah olunur. Əsərdə öyrənilən predmetin bütün əsas nəzəri problemlərinin hərtərəfli öyrənilməsi, bu kitabın iqtisadi ədəbiyyatda nadir yer tutmasına səbəb olmuşdur.

Əsərin müqəddiməsində göstərilir ki, müəllifin vəzifəsi iqtisadi biliyin artan səviyəsini və dövrün ən qabaqcıl ideyalarını nəzərə almaqla "Xalqların sərvətinin" yeniləşdirilmiş variantını yazmaqdır. Millin əsərində əsasən Rikardonun təlimi və onun tənqidçiləri tərəfindən olunmuş çoxlu qeyd və düzəlişlər əlavə olunmaqla Rikardoçu təlimin əsas mahiyyəti təqdim olunur. Millin özü hesab edir ki, o, yalnız Rikardonu pardaxlamışdır. Mill öz məktublarının birində qeyd edir ki, "mən şübhə etmirəm ki, kitabda Rikardonun təlimindən çıxan məntiqi nəticə kimi təsəvvür olunmayan bir fikir olsun".



downloaded from KitabYurdu.org

Bütün bunlara baxmayaraq C.S.Millin əsəri XIX əsrin digər iqtisadçılarının əsərlərindən fərqli olaraq daha elmi xarakter daşıyır. Çünki, o, Smit və Rikardo tərəfindən qoyulmuş əsaslara riayət etməyə səy göstərmişdi və kapitalın mənafeyi naminə gerçək prosesləri şüurlu surətdə təhrif etmir. O "ilahi kapital hüququ" ilə fəhlələrin mənafeyi arasında orta bir yol tapmağa cəhd göstərirdi. Lakin bununla belə o, həm də Maltusun, Seyin və Senyorun təsirindən çıxa bilməmişdi.

Millin özünün təvazökarlığına əsaslanaraq, onun "Prinsiplər" əsərini yalnız kompilyasiyadan ibarət olması haqqında fikir söyləməyin özü də düzgün deyil. Çünki, Mill artıq mövcud olanları, Rikardonun və onun davamçılarının dediklərini sadəcə olaraq yeni şəkildə təkrar təfsir etmir. Hətta xalis nəzəri planda kitab tam mənada əsl yenilikdir. Bu yeniliklərə, Mill tərəfindən siyasi iqtisadın məsələlərinin şərhini verdikdə ardıcıl olaraq toxunulacaqdır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, ən mühüm məsələlərdə Mill Rikardonun müddəalarını sarsıtmadı. Bəzən Rikardonun nəzəriyyələrinin çox mühüm prinsiplərini pardaxlamasına baxmayaraq, o nəzəri-metodoloji cəhətdən Rikardoya olduqca yaxın olmuşdu.

Mill öz sələflərinin ayrı-ayrı ideyalarından istifadə etməsinə baxmayaraq, onları yeni şəkilə salmışdır. Bu imtina nəzəriyyəsi əsasən mənfəət nəzəriyyəsinin izahında özünün aydın ifadəsini tapmış, onun faiz nəzəriyyəsi təqribən 40 il öz vaxtını qabaqlamışdı.

Milli klassik yönümlü digər iqtisadçılardan fərqləndirən mühüm cəhət bundan ibarətdir ki, o, fəhlə sinfinə müəyyən rəğbət ifadə etmiş, pula sitayişi pisləmiş və kapitalizmə tənqidi yanaşaraq, onun təkmilləşdirmişdir. Dinc şəkildə, burjuaziya üçün təhlükəli olmayan təkamül sosializminə keçilməsi perspektivlərini qeyd etmişdi. O, əhalinin geniş təbəqəsinin mənafeyinə uyğun olan islahatları müdafiə etmiş, nümayəndə demokratiyanın genişlənməsinə tərəfdar olmuş, fəhlələrin mühüm hissəsinə ilk dəfə seçki hüququ verən seçki qanununun qəbul edilmə-



downloaded from KitabYurdu.org

sində fəal rol oynamışdı. O, 1865-ci ildə ümumi ingilis parlamentinin palata üzvü olmuşdu.

Mill klassik təlimi, ilk növbədə Rikardonun ideyalarını fəhlə sinfinin tələblərinə uyğunlaşdırmağa və burjua cəmiyyətində gəlirlərin daha bərabər bölgüsünün zəruriliyini və imkanlarını əsaslandırmağa çalışırdı. O, texniki tərəqqiyə, zəhmətkeşlərin təhsil və mənəvi səviyyəsinin yüksəldilməsinə, doğumun şüurlu azaldılmasına mühüm əhəmiyyət vermişdir.

Millin tədqiqat metodologiyasının mühüm xüsusiyyəti bundan ibarətdir ki, o, tədqiqatının predmetini istehsala və bölgüyə bölmüş, istehsal və bölgü qanunlarını bir-birindən fərqləndirmiş, onları qarşı-qarşıya qoymuş və istehsalı ön plana çıxarmışdı.

Mill özünün "Prinsiplər" əsərində istehsal, bölgü və mübadilə problemlərini ayrıca müstəqil bölmə kimi şərh etmiş və hər birinə ayrıca bir kitabda həsr etmiş, sonuncu iki kitabda isə özünün sosial proqramını əsaslandırmışdı.

Mill istehsal və bölgü qanunları arasındakı fərqi və bu qanunların bir-birinə qarşı olması əsasında qədim dövrlərdən başlamış iqtisadi inkişafın xülasəsini və sosial-iqtisadi problemlərin izahını vermişdi. Elə bu nəzəri və metodoloji əsasdan da sonradan cəmiyyətdə sosial islahatların həyata keçirilməsi üzrə özünün xüsusi təkliflərini işləyib hazırlamışdı.

Mill istehsal və bölgü qanunları arasındakı fərqi bu cür xarakterizə edir: İstehsal qanunları texniki şərtlərlə müəyyən olunur, onlar dəyişməzdir və "fiziki həqiqət" kimi təbii xarakterə malikdirlər: Bölgü qanunları isə "insan institutsiyasını, həmçinin də "mövcud cəmiyyət qanunlarını və adətlərini" ifadə edir. Onlar tarixi keçici xarakter daşıyır, müxtəlif dövrlərdə və ölkələrdə müxtəlif olurlar. O, müxtəlif dövrlərdə bölgü qanunlarının dəyişməsini mülkiyyət formasının inkişafı ilə əlaqələndirir. Bölgü qanunlarına insan qərarlarının nəticəsi olduğundan, onların hətta xüsusi mülkiyyət şəraitində də dəyişməsini mümkün sayır. İqtisad elminin tarixi və metodologiyası üzrə məşhur mütəxəssis olan, ingilis iqtisadçısı M.Blauq göstərir ki, qeyd olunan fərqlər



downloaded from KitabYurdu.org

altında Mill, milli gəlirin istehsalın texniki şərtlərindən asılı olmayan funksional bölgüsünü deyil, fərdi səviyyədə "cəmiyyətin üç sinfi arasında bölgüsünə mülkiyyət bölgüsünün təsirini şərh etmişdi.

Mill "məhsuldar əmək nəzəriyyəsində" A.Smitin "sərvət", daha doğrusu "maddi nemət" yaradan əməyin məhsuldar əmək olması haqqında fikri ilə tam həmrəy olur. Lakin bununla yanaşı, ona müəyyən yenilik də gətirmişdi. Onun sərvətə baxışı yığım haqqında təsəvvür yaradır və ona (sərvətə) maddi və insan kapitalının məcmusu kimi baxmışdı. O, sərvətə birinci növbədə alətləri, maşınları və işçi qüvvəsinin ixtisasını aid edir. Onun klassiklərdən (A.Smit və D.Rikardodan) fərqli cəhəti ondan ibarətdir ki, o, ixtisas əldə olunmasına və mülkiyyətin qorunmasına sərf olunan əməyi də həmçinin məhsuldar əmək kimi qəbul edir. Millin məqsədi kapital yığımı normasının işçi qüvvəsinin məhsuldar istifadə olunma dərəcəsindən asılı olmasını göstərmək olmuşdur. Millə görə, qeyri-məhsuldar əmək xalis əlavə dəyər yaratmır və əməyin qeyri-məhsuldar istifadəsi ilə əldə olunan mənfəət sadəcə olaraq gəlirin yenidən bölgüsüdür.

Mill yalnız məhsuldar işçiləri məhsuldar istehlakçılar adlandırır. Lakin məhsuldar işçilər tərəfindən istehlak olunan hər şeyi, o, məhsuldar istehlaka aid etmir. Yalnız cəmiyyətin məhsuldar qüvvələrini saxlayan və artıran istehlakı məhsuldar hesab edir. Millin fikrincə, fəhlə bəzi «zinət şeylərini» istehlak etdiyindən əmək haqqının bir hissəsi qeyri-məhsuldar istehlak edilir.

Mill kapital nəzəriyyəsində klassiklərin məşğulluğun təminatının yığım olması haqqında baxışlarına tərəfdar olmuşdur. O, Rikardonun kapitalistlər (sahibkarlar) öz gəlirlərini nə qədər çox təkrar investisiyaya yönəldirsə və onlar şəxsi istehlaka nə qədər az xərcləyirsə, əməyə tələbin bir o qədər çox olması haqqındakı fikrini daha da inkişaf etdirmişdi. Mill məşğulluğun kapital qoyuluşundan savayı başqa üsulla arta bilməməsini qeyd edir. Bununla yanaşı, o, kapitalın tam istifadə olunması ilə artıq güclərin əmələ gəlməsinin mümkünlü-yünü də inkar etməmişdi.



downloaded from KitabYurdu.org

Onun kapital haqqında digər əsaslı müddəası "kapital qənaətin nəticəsidir" fikridir. Başqası isə "kapitlal qənaətin nəticəsi olsa da, o bununla belə istehlak oluna bilinməsi" fikridir. Mill qeyd edir ki, milli kapitalın artmasına aparan yığım, adətən insanın, onun həyat şəraiti adlanan şeyi yaxşılaşdırmağa, yaxud uşaqları təmin etməyə can atmasından baş verir. Millin kapital haqqında ən çox şübhə ilə qarşılanan fikri, "istehlak məhsullarına olan tələb, əməyə olan tələb deyil" deməsi olmuşdu. Rikardo isə "əmtəələrə olan tələb, məhz əməyə olan tələbdir" demişdi. Bu müddəa ilə Mill əslində məcmu məşğulluğun kapital yığımı normasından bir başa asılı olduğunu göstərir. İstehlak tələbi əməyin müxtəlif sahələr arasında bölgüsünə səbəb olaraq ümumi məşğulluğa zəif təsir göstərir. Millin məqsədi resursların istehlak məhsullarının əlavə kəmiyyətinin istehsalına qatıldıqda, tam məşğulluq şəraitində əməyə tələbin həqiqətən azaldığını göstərmək olmuşdu. Mill resursların tam məşğulluğuna əsaslanmış, o natamam məşğulluğa diqqət yönəltməmişdir. Tam məşğulluq şəraitində isə istehlakın artması investisiyanın azalması deməkdir.

Millin Rikardodan sonrakı dövrdə klassik yönümlü iqtisadçılar tərəfindən istehsal amili kimi kapitalın mahiyyətinin öyrənilməsi üçün yaradılmış, XIX əsrin axırına qədər hökmran olunmuş və onlar tərəfindən həmkarların əmək haqqının yüksəldilməsi uğrunda mübarizəsini mühakimə etmək üçün və doğumun məhdudlaşdırılması üçün istifadə etdikləri "fəhlə fondu" doktrinasına (bu nəzəriyyənin yaradıcısı C.R.Makkullox olmuşdu) münasibəti birmənalı olmamışdı. Fəhlə fondu haqqında təlim klassik yönümlü iqtisadçılar tərəfindən işlənib hazırlanmış əməyə tələbin istənilən nəzəriyyəsidir. Mill bu nəzəriyyədən irəli gələn ideya və fikirlərlə bəzən razılaşmışdı. Buna onun kapital formasında olan əmək haqqı haqqındakı baxışları aydın sübutdur. "Fəhlə fondu" təliminə uyğun olaraq kapital fəhlələrə "avans", investisiya isə fəhlə istehlakı məhsullarının "avanslaşdırılması" kimi müəyyən olunur. K.Marks isə əslində kapitalistlə-



downloaded from KitabYurdu.org

rin fəhlələrə əmək haqqını avans etmədiyini göstərməklə "fəhlə fondu" doktrinasına qarşı çıxmışdı.

Dövrün iqtisadçılarına görə kapitalistlər öz fəhlələrini dolandırmaq üçün istər-istəməz gələcək istehlak "fondu" kimi möhkəm və sabit ehtiyata malikdirlər və bu "fəhlə fondu" adlandırılmışdı. Əmək haqqının kəmiyyəti bu fondla müəyyən olunduğu göstərilir. "Fəhlə fondu" sabit kəmiyyət olduğundan əmək haqqının kəmiyyəti yaşayış minimumu ilə məhdudlaşır və ona görə də onun həmkarların əmək haqqının artırılması uğrunda mübarizəsi nəticəsində artırıla bilinmədiyi, uzaq başı fəhlələrin bir qrupu yalnız fəhlələrin digər qrupunun hesabına qazana bilindiyi qeyd olunur. "Fəhlə fondu" nəzəriyyəsinə uyğun olaraq əmək haqqı norması əmək haqqının ödənilməsi üçün nəzərdə tutulmuş bütün pul məbləğinin muzdlu işçilərin sayına bölmək yolu ilə müəyyən olunur. Deməli, əmək haqqını artırmaq üçün ya bölünən artırılmadır, ya da bölən azaldılmalıdır, yəni ya istehsalı artırmaq, ya da doğumu azaltmaq lazımdır.

Millin əsərində əmək haqqının bir qayda olaraq fizioloji minimumu üstələdiyi qeyd olunur. Bundan başqa da əmək haqqının "kapital ehtiyatından ödənildiyi haqqında ideya beyinə yeridilir. O, həmkarların mübarizəsi nəticəsində əmək haqqının kəmiyyətinin yüksələn istiqamətdə dəyişməsini mümkün hesab edir və həmkarlara tarazlaşdırıcı qüvvə kimi baxır. Onun fikrinə görə, həmkarlar ittifaqı olmadıqda əmək bazarında işə götürənlərin inhisarçılığı yaranır, bu da çox vaxt özünü əmək haqqının rəqabətlə yol verilə bilən səviyyədən aşağı müəyyən edilməsində təzahür edir. Mill həmkarlar ittifaqına azad əmək bazarına maneə kimi deyil, əksinə onun zəruri elementi kimi baxır. Mill "Fəhlə fondu" nəzəriyyəsi mövqeyində duraraq klassik nəzəriyyəni həmkarların rəqabətilə uzlaşdırmışdı.

Mill əmək haqqının yüksəldilməsinə qarşı əlbir olan kapitalist sahibkarları əmək bazarında rəqabət aparmayan qruplar - adlandırmışdı. Bu iqtisadi ədəbiyyatda Millə məxsus olan anlayışdır.



downloaded from KitabYurdu.org

Mill 1869-cu ildə özünün çap etdirdiyi məqalədə isə artıq "fəhlə fondu" nəzəriyyəsindən imtina edir. Bunu onunla izah edir ki, nəzəriyyə həmkarların əmək haqqını yüksəltmək imkanının təkzib etməsinə baxmayaraq, onlar əmək bazarında rəqabət apara bilirlər.

Millin əsərində əsas və dövriyyə kapitalı arasındakı nisbət istehsal amillərinin nisbi qiyməti kimi deyil, texniki kəmiyyət kimi təqdim olunur. O, əsas diqqəti torpağa qoyulmuş əsas kapitala yönəltmiş və Rikardonun əsas kapitalın dövriyyə kapitalına nisbətən artımının məşğulluğa əks təsir göstərməsi haqqında fikirini, həmçinin maşınların tətbiqi nəticəsində sıxışdırılıb çıxarılmış əməyin həmin maşınların özlərinin istehsalına təkrar sərf ediləcəyi fikrini də təkzib etmişdi. Birinci fikrin inkarı kimi onun əkin yerlərinin otlaqlara çevrildiyi haldan başqa, hər bir hala tətbiq edilə bilinməməsini dəlil gətirmişdi. O, maşınların tətbiqinin qiymətlərin aşağı düşməsi (bu tələbi stimullaşdırır) üzündən sıxışdırılıb çıxarılmış əməyin avtomatik təkrar sərf edilməsinə gətirmədiyi fikrində olmuşdu. Millə görə, qiymətlərin aşağı düşməsi öz-özlüyündə əlavə investisiyaya əlverişli şəraiti yaratmır. Çünki "əmtəələrə tələb, əməyə olan tələb deyil" fikrinin olmasıdır. Qiymətin aşağı düşməsi nəticəsində tələbin artmasına işdən çıxarılmış işçilərin alıcılıq qabiliyyətinin azalması qarşı durur. Buna baxmayaraq, Mill nəticədə əməyin maşınlarla əvəz edilməsinin fəhlə sinfinin mənafeyinə, hətta qısa müddətli planda ziyanlı olmaması fikrində olmuşdu. Bütün klassik yönümlü iqtisadçılardan fərqli olaraq, Mill texniki tərəqqinin sürətini saxlamaq üçün yeni avadanlıqların quraşdırılması haqqında xüsusi sahibkarların qərar qəbul etməsi prosesinə dövlətin birbaşa qarışmasını təklif etmişdi.

Mill A.Smitin əmək bölgüsü haqqındakı fikrini olduğu kimi qəbul etmiş, Smit tərəfindən deyilənlərə heç nə yeni əlavə etməmişdi. Lakin o, iqtisadi ədəbiyyatda birinci olaraq istehsal miqyasında qənaətə səbəb olan qüvvələr haqqında mübahisə açmaqla, ilk dəfə istehsal miqyasında qənaət haqında anlayış işləyib hazırlamış olur. Mill həmçinin texniki-tərəqqi nəticəsində kiçik



downloaded from KitabYurdu.org

müəssisələrin həcmlərinin artmasını qabaqcadan xəbər vermişdir. Bu isə çox hallarda K.Marksın adına yazılmış və bu onun dəqiq proqnozlarından biri hesab edilir.

Müəssisənin həcminin artması ilə əlaqədar üstünlüyü Mill inhisarçılığa, bazara daxil olmağın məhdudlaşdırılmasına və qiymətin saxlanılması haqqında sövdələşmənin təhlükələrinə qarşı durmada vacib hesab edir. Mill qeyd edir ki, "Rəqiblər az olduqca, onlar həmişə bir-birləri ilə rəqabət aparmamaq razılığına gəlirlər. Onlar təzə işə başlayanı iflasa uğratmaq üçün qiymətin aşağı salınması üzrə əsl yarış aparmağı bacarırlar. Lakin, elə ki, yeni işə başlayan ayağa qalxır, onlar həmin dəqiqə onunla dil tapırlar". Mill "təbii inhisarın, daha doğrusu, texnologiyası müəssisənin (firma) iri həcmdə olmasına əlverişli olan istehsal növlərinin milliləşdirilməsi fikrini söyləyir.

*Mill Maltusun əhali nəzəriyyəsinə danılmaz həqiqət statusu verir.* Onun dilində Maltusun nəzəriyyəsi ailənin məhdudlaşdırılması lehinə amansız dəlildir və bu siyasət çərçivəsində hər bir tədbir, onların doğumun artım sürətinə təsirinə görə qiymətləndirilir. Mill qeyd edir ki, nə qədər ki, çoxuşaqlı ailələrin yaradılmasına sərxoşluq (əyyaşlıq) kimi münasibət göstəriləcək, əxlaq qaydasının heç olmasa azacıq yaxşılaşacağını oturub gözləməyi güman etmirəm". O, doğumun könüllü məhdudlaşdırılmasına ümid edir və qadınların sərbəstliyini tələb edir. Bununla bərabər, Mill bəzən doğuma nəzarət proqramının tətbiqinin zəruriliyi haqqında da söz açır. O, "Consonlar səviyyəsində olmaq arzusunun" İngiltərədə fəhlə sinfi arasında doğumun səmərəli məhdudlaşdırıcısı olduğunu qəbul etmir. Mill əmək haqqının artımındakı nisbətə görə əmək təklifinin elastikliyinin olduqca böyük olduğunu söyləyir. Buna baxmayaraq 1821-ci il siyahıyaalmadan sonra İngiltərədə əhalinin artım sürəti azalmışdı, yaşayış vasitələri və məşğulluq isə son 40 ildəki kimi heç vaxt sürətlə artmamışdı.

Digər klassik yönümlü iqtisadçılar kimi *Mill də torpağın münbitliyinin azalması qanununa tərəfdar olmuş və o, həmin qanunu siyasi iqtisadın ən mühüm teoremi kimi ortalığa çıxarmışdı.* Mill yeni məskunlaşan ölkədə torpağın emala münbitliyinə görə



downloaded from KitabYurdu.org

əks qaydada cəlb edildiyini söyləyən Amerikan iqtisadçısı Q.Geriyə hücum etmişdir. O, kənd təsərrüfatında gəlirlərin azalmasına əks təsir göstərən qüvvələri aşkar etməyə çalışmışdı. Mill iqtisadi tərəqqinin məğzini texniki tərəqi ilə kənd təsərrüfatının gəlirliyinin azalması arasında qarşıdurmada (ziddiyyətdə) görmüşdü.

Millin sosialist ideyalarına münasibəti son dərəcə yaxşı olmuşdu. Lakin onun özü sosialist olmamışdı. Əsas məsələlərdən birinə onun baxışı sosialistlərdən tamamilə fərqli olmuşdu. Bu fərq özünü Mill tərəfindən kapitalizmdə baş verən bəlaların istehsal vasitələrinə xüsusi mülkiyyət hüququ ilə yox, qarşısı alınmayan fərdiçilik və xüsusi mülkiyyət hüququndan sui istifadə ilə əlaqələndirilməsində göstərir. Bununla belə Mill S.Sismondinin və Ş.Füryenin əsərlərinə ən yaxşı əsər kimi baxmışdır. Kommunizm cəmiyyətinin yaxşı cəhətlərini fəhlənin kapitalist fabrikindən fərqli olaraq yoldaşlıq naminə işləməsində və buna görə də öz əməyinə daha çox marağın olmasında görür. Lakin bununla yanaşı, Mill kommunizm cəmiyyətinin üzvlərinin mülkiyyətçi-kəndlilərdən, bunların az ciddiyyətlə çalışdıqlarını, lakin onların əməyinin ümumiyyətlə işdə şəxsi marağı olmayan fəhlənin əməyindən daha ciddi olmasını da qeyd edir.

Kommunizm və sosializm arasında fərqlər məsələsində Millin baxışları K.Marksın baxışları ilə üst-üstə düşmüşdü. Millə görə, kommunizm cəmiyyətində gəlir onun üzvləri arasında, onların əmək məhsuldarlığından asılı olmadan bərabər bölüşdürülür, sosializmdə isə əməyin məhsuldarlığına uyğun pul mükafatlandırılmasındakı fərqlər stimullaşdırıcı rolunu saxlayır. Marks da sosializm və kommunizm cəmiyyətləri arasında fərqi: sosializmdə "hər kəsin qabiliyyətinə görə", kommunizmdə isə "hər kəsin tələbatına görə" mükafatlandırılmasında görmüşdü.

Mill ümumdünya tarixinin mərhələləri kimi "adət" və "rəqabəti" bir-birindən fərqləndirmiş və rəqabət modellərinin real gerçəkliyə əsassız tətbiqinə qarşı çıxmışdı.

Millin əsərində maraq doğuran məsələlərdən biri də, onun gəlirlər nəzəriyyəsidir. O göstərir ki, "imtinanın" təklif qiyməti



downloaded from KitabYurdu.org

faktiki müsbət kəmiyyət olduğundan əmək "tam məhsul hüququna malik deyil". Mill mülkiyyətdən əldə olunan gəlirlərin bölgüsündən qeyri-bərabərliyi azaltmaq məqsədilə mirasa mütərəqqi vergi qoyulmasını təklif etmişdi.

Mill əmək haqqı fondunu əməyin ödənilməsi, həmçinin qeyri-məhsuldar əməyin bütün məsrəfləri üçün istifadə edilən dövriyyə vəsaitlərinin bir hissəsi kimi müəyyən edir. O, müəyyən bir vaxt müddətində əmək haqqı fondunu tam istifadə etməyi lazım bilmir. Mill nominal əmək haqqının həmişə taxılın qiymətinin dəyişməsi istiqamətində dəyişməsi haqqında mövcud olan fikri inkar etmişdi. O, fəhlə sinfinin həyatı nöqteyi-nəzərindən taxıl qanunlarının ləğvindən əldə olunan xeyiri minimuma endirmişdir. Mill nə qədər ki, fəhlə doğumu məhdudlaşdırılır, o vaxta qədər real əmək haqqı yalnız onun "xalqı əvvəlki həyat səviyyəsində saxlaya" biləcəyi qədər artacağını qeyd edir.

Millin mənfəət haqqında baxışları faiz nəzəriyyəsi təsvirini verir. O, mənfəəti "ən əlverişli təminat altında cari faiz dərəcəsilə" ölçülən və "mövcud cəmiyyətdə gələcəyin indiki ilə müqayisədə nə dərəcədə qiymətləndirildiyini" əks etdirən imtinaya görə kompensasiya kimi təhlil etmişdi.

O, mənfəət nəzəriyyəsində klassik siyasi iqtisadın elmi nəticələrini N.Seniorun imtina nəzəriyyəsi ilə barışdırmağa cəhd etmişdi. Mill göstərir ki, mənfəətin səbəbi əməyin, onun saxlanılması üçün lazım olduğundan daha çox istehsal etməsidir. Millin bu cür fikir söyləməsinə baxmayaraq, o kapitalistin mənfəətini imtinaya görə mükafat kimi qiymətləndirmişdi. O qeyd edir ki, kapitala ümumi mənfəət imtinaya və riskə görə haqqdan və "istehsal üzərində nəzarəti həyata keçirən " əməyə görə haqqdan ibarətdir.

Mill Rikardonun "mənfəət əmək haqqından asılıdır" deməsinə düzəliş edir və onu bu cür qeyd edir: mənfəət əməyə məsrəfdən asılıdır. Kapitalist sahibkarın əmək məsrəfi nominal əmək haqqından və orta əmək məhsuldarlığından asılı olaraq müəyyən olunur. Sahibkar üçün isə əmək xərcləri dedikdə məhsul vahidinə çəkilən əmək haqqı başa düşülür.



downloaded from KitabYurdu.org

Borc faizini Mill kapital sahibinin öz kapitalını tez israf etməkdən imtina etdiyinə və onu digərlərinə istehsal məqsədlərində istifadə etməyə icazə verdiyinə görə bütün əldə edə biləcəyi bir şey kimi şərh edir. Faiz normasını borc fondlarına olan tələb və təkliflə müəyyən edir. O, borca tələbin investisiya tələbindən, dövlət tələbindən və torpaq mülkiyyətçilərinin qeyri-istehlak üçün tələblərindən; fondlara təklifin isə yığımdan, bank biletlərindən və bank depozitlərindən əmələ gəldiyini qeyd edir. Faiz normasının mənfəət normasından asılı olmadan borc fondlarına tələb və təklifdəki dəyişiklik nəticəsində dəyişdiyini göstərir. Bunları söyləməklə Mill klassik yönümlü iqtisadçılardan fərqlənərək faizin bazar norması ilə kapitala gəlir arasında hədd qoymuşdur. O qeyd edir ki, özlüyündə pulun kəmiyyəti faiz normasına təsir etmir, lakin pulun kəmiyyətinin dəyişməsi faiz normasının dəyişməsinə gətirib çıxarır. Dövlət xərcləri və dönərli olmayan kağız pulunun buraxılması yolu ilə maliyyələşməsi ilə törəyən inflyasiya faiz normasının yüksəlməsi prosesidir, eyni zamanda əlavə bank krediti, yaxud qızıl axını faizin bazar norması kapitala mənfəət norması ilə bərabərləşir.

Millin təlimində renta bütün nemətlərə və qeyri-elastik təklifli istehsal amillərinə birləşdirilir və alternativ xərclər adlandırılır. Bu fikirin də özü əsl yenilikdir. Bu halda qiymətlər həmişə həddi xərclərlə müəyyən olunur. Lakin "əmtəə istehsalında fərqli üstünlüyə görə ödənilən qiymət əmtəə istehsalının ümumi xərclərinə daxil olmur". Digər tərəfdən, göstərilən amil alternativ istifadə predmeti olduqda renta qiymətə təsir göstərən istehsal məsrəfi olur.

Nisbi qiymətləri izah etmək məqsədilə Mill nemətləri üç qrupa bölür: birinci qrupa tam qeyri-elastik təklifli məhsulları, 2-ci qrupa tam elastik təklifli məhsulları, 3-cü qrupa nisbi elastik təklifli məhsulları daxil edir. 1-ci qrup nemətlərin dəyəri Mill qeyd etdiyi kimi tamamilə tələblə, 2-ci qrup nemətləri - "digər qanunla" - istehsal xərcləri ilə, 3-cü qrup - mövcud şəraitlərdən ən az əlverişli şəraitdə çəkilən istehsal xərcləri ilə müəyyən edilir.



downloaded from KitabYurdu.org

Burada o, tələblə müəyyən olunan qiymətlə təkliflə müəyyən olunan qiymətin fərqli olduğunu nəzərdə tutur.[1]

Renta məsələsində Mill bütün hallarda Rikardonun nəzəriyyəsini müdafiə etməsinə baxmayaraq, o, rentanı "torpağın istifadəsinə görə ödənilən kompensasiya" kimi izah edir.

Mill dəyər nəzəriyyəsini "Mübadilə" adlanan 3-cü kitabda şərh edir. O, sələflərinin əmək-dəyər nəzəriyyəsinə həmrəy olmuşdu. Millə görə, dəyər əsasən nemətlərin istehsalı üçün tələb olunan əməyin miqdarından asılıdır və o, dəyərin dəyişilməsində məhz əməyin kəmiyyətinin dəyişməsini də mühüm əhəmiyyət kəsb etdiyini qeyd edir.

Mill "əmək" sözünü "əmək haqqı" anlayışı ilə də əvəz etmişdi. O, ilk əvvəl etiraf edir ki, "predmetin istehsalının onun istehsalçısına, yaxud çox istehsalçıya neçəyə başa gəlməsi, onun istehsalına sərf olunmuş əməkdir". Daha sonra yazır ki, kapitalistə məhsulun neçəyə başa gəlməsi, onun ödəməli olduğu əmək haqqıdır.

Rikardodan fərqli olaraq dəyər nəzəriyyəsi Millin təliminin əsası olmamış və onun çıxış nöqtəsini təşkil etməmişdi. Bunu Millin tədqiqatının strukturu göstərir. O, istehsal və bölgü problemlərini tədqiq etdikdən sonra, tədqiqatının mübadilə bölməsində dəyər nəzəriyyəsinə diqqət yetirmişdi. Bu məntiqə müxtəlif cür şərh vermək olar. Əvvəla Mill dəyər nəzəriyyəsinin artıq işlənib başa çatdığını və onun dəqiqləşdirməyə ehtiyacının olmadığını göstərir. O qeyd edir ki, "xoşbəxtlikdən, dəyər qanununda müasir və ya gələcəyin hər hansı müəllifinə aydınlaşdıracaq heç nə qalmamışdı, bu predmetin nəzəriyyəsi başa çatmışdı. İkincisi, istehsal və bölgü məsələlərini əsas, nemətlərin qiymətini müəyyən edən prinsipləri isə ikinci dərəcəli hesab etmişdi. Və üçüncüsü, dəyəri mübadilə dəyəri kimi şərh etmişdi. Milldə dəyər istehsalla əlaqəsi olmayan, yalnız mübadilə kateqoriyasıdır. Mill üçün mübadilə dəyəri əmtəələrin mübadilə prosesində onlar, yaxud pul arasında olan nisbətdir. Onun təlimində əmtəənin dəyəri, yaxud qiyməti, onun nisbi qiyməti dəyişməz götürülən digər ne-

[1] М.Блауг. Экономическая мысль в ретроспективе. М.1994, стр. 179



downloaded from KitabYurdu.org

mətlərə görə alıcılıq qabiliyyətidir. O, yazır ki, predmetin dəyəri, yaxud mübadilə dəyəri altında onun ümumi alıcılıq qüvvəsi başa düşülür. Mill rəqabət şəraitində istehsal olunan nemətlərə istinadən göstərir ki, dəyər nisbi anlayışdı, dəyərin ümumi yüksəlmə ehtimalı yoxdur. Millin təlimində mübadilə dəyərlərinin və qiymətlərin son əsasını əmək xərcləri təşkil edir. O hesab edir ki, məhsulun dəyəri istehsal xərclərinin dəyəri ilə müəyyən olunur. Qeyd edir ki, istehsal xərcləri dəyərə təsir etməzdi, əgər o təklifə təsir etməsəydi. Mill Rikardonun qiymətlərin istehsal xərcləri ilə müəyyən edilməsinin əmtəələrin əsas kütləsi üçün tətbiq olunan hesab edir.

O, istehsal xərclərinin kəmiyyətinin müəyyənliyində A.Smitin mövqeyində durur. Mill də Smit kimi əsas kapitalı istehsal xərclərinin dəyərinə daxil etmədən istehsal xərclərinin kəmiyyətinin əmək haqqı və mənfəətin kəmiyyətindən ibarət olduğunu qeyd edir. Lakin Smitdən fərqli olaraq rentaya xərc elementi kimi baxmamışdı.

Millin təlimində mübadilə dəyəri və əmtəənin qiyməti tələb və təklifi kəsişdiyi nöqtədə bərabər olur. Milldə tələb və təklif qanunu ilk dəfə olaraq eyniyyət kimi deyil, bərabərlik kimi təşəkkül tapır.

*Mill dəyərin və qiymətin təhlilində yeni üsulun əsasını qoymuşdu. Bu təhlil metodu sonrakı iqtisadçılar tərəfindən inkişaf etdirilmişdi. Bu tələb və təklif əsasdan dəyərin və qiymətin təhlil metodudur,* A. Marşall tərəfindən həyata keçirilən qismən tarazlıq təhlil metodudur. Mill əmtəə tələbini müəyyən edən xərcləri mühüm amil kimi nəzərdən keçirilməsini lazım bilir. O, qiymətin dəyişməsinin tələbə təsirini hamıdan qabaq duymuşdu. Millə qədər tələb və təklif qanununu tələbin təsiri ilə qiymətin artması və təklifin təsiri ilə onun azalması qanunu kimi başa düşülmüşdü. Mill isə göstərir ki, təkcə tələb və təklif qiymətə təsir etmir, həm də qiymət də tələb və təklifin dəyişməsinə təsir edir. Bu fikiri söyləməklə o, qiymət dəyişdikdə tələbin dəyişmə dərəcəsini əks etdirən "tələbin elastikliyi" anlayışına tam yaxınlaşmış olur.



downloaded from KitabYurdu.org

Millin iqtisadiçıların tapmağa cəhd etdikləri dəyərin kəmiyyətinin ölçüsü haqqındakı baxışları da olduqca maraqlıdır. Mill qeyd edir ki, "siyasi iqtisadçıların tapmağa cəhd etdikləri çatışmayan hissə müəyyən vaxtda və müəyyən məkanda şeyin qiymətinin ölçülməsi deyil, bəs müxtəlif vaxtlarda və müxtəlif yerlərdə eyni şeyin dəyər ölçüsüdür. O göstərir ki, bu çatışmayan hissəyə nail olmaq mümkün deyil. Mill bütün nemətlər üçün qiymət indeksinin tərtibinin mümkünlüyünə inanmır. O, daha sonra göstərir ki, "çoxlu iqtisadçılar dəyər ölçüsü adlanan anlayış yaratmışlar, onu istehsal xərclərinin ölçüsü adlandırmaq yaxşı olardı".

Millin işləyib hazırladığı birgə müəssisələrin xərci anlayışı da iqtisadi ədəbiyyatda yeni idi. Birgə istehsal xərci dəyərin xüsusi halı kimi əmək-dəyər nəzəriyyəsinə yeni keyfiyyət verir. Mill qəti müəyyən edilmiş proporsiyalardan iki nemətin istehsal imkanına baxır və göstərir ki, hər bir məhsulun qiyməti hər iki qiymətin məbləğinin birgə istehsal xərclərinə bərabər olması şərtilə həmin əmtəələrin bazarına cavab verəninki kimidir. Belə ki, birgə istehsalın məhsulunun (məsələn, maral və maral dərisi) qiyməti həm tələblə və həm də təkliflə müəyyən olunur.

Mill Rikardonun tərəfdar olduğu pul kəmiyyəti nəzəriyyəsinə tərəfdar olur. O, başa düşür ki, pul kəmiyyətinin artması prosesi nisbi qiyməti dəyişə bilir. O qeyd edir ki, əgər pul ehtiyatda gizlədilib saxlanılırsa, yaxud tədavüldə kəmiyyəti aşağıdan (ayaqdan) əmtəələrin miqdarı ilə artırsa, bu yalnız pulun kütləsinin artması qiymətə təsir etmir. O, bank kreditlərini tədavüldəki pulun kütləsinə daxil etmir. Hesab edir ki, "digər şərtlər eyni olduqda pulun dəyəri pulun kəmiyyətinə əks istiqamətdə dəyişir: kəmiyyətin hər cür artımı onların dəyərini aşağı salır, hər cür azalması isə onu tamamilə eyni nisbətdə yüksəldir".

Mill pulun əmək məhsulu olması fikirini, qızıl və gümüşün mübadilənin inkişafının müəyyən mərhələsində pula çevrildiyini qəbul edir. O, qızıl metalların mübadilə vasitəsi kimi üstünlüklərini şərh edir. Qızıl və gümüşün uzunmüddətli dəyərinin onların istehsalına çəkilən xərclərlə müəyyən olunduğunu qeyd edir.



downloaded from KitabYurdu.org

Mill qızılın istehsal xərclərinin qiymətə zəif təsir etdiyini və qiymətin əsasən mövcud dövrdə tədavüldə olan pulun kəmiyyətilə tənzimləndiyini göstərmişdir. O qeyd edir ki, nə qədər ki, qızıl son dərəcə uzun ömürlüdür, qızıl ehtiyatı isə mədənlərin illik hasilatı ilə müqayisədə böyükdür, bu və ya digər ildə qızıl hasilatı xərcinin mümkün dəyişməsi qiymət düzəlişinə həmin an təsir göstərə bilmir.

Mill pulun əmtəə ehtiyatının dəyər ölçüsü kimi funksiyasını dərk etsə də, ona lazımi diqqət yetirməmiş və sərvəti bazarda satılan və alınan nemətlərin məcmusu kimi müəyyən etmişdi.

Milldə "pulun öz-özlüyündə heç bir tələbatı ödəmədiyi" və pulun "birtərəfli" olması haqqında fikiri də vardır. Pulun "birtərəfli" olması haqında müddəaya görə, "ictimai iqtisadiyyatda" öz təbiətinə görə pul qədər daha əhəmiyyəti az olan heç nə yoxdur, o yalnız vaxta və əməyə qənaətə xidmət edən çox incə (hiyləgər) vasitə kimi lazımdır. Bu onsuz (hərçənd ki, o qədər tez və rahat olmayan) oluna biləni tez və rahat etməyə imkan verən mexanizmidir və çoxlu digər mexanizmlər kimi onun aydın və sərbəst təsiri, yalnız o sıradan çıxdığı vaxtda üzə çıxması kimi göstərir. Mill bank kreditinə böyük diqqət yetirmiş və o, pul tədavülü və kredit məsələsində bir sıra real olan təkliflər vermişdi. O, bank kreditinin kapital yaratması, yəni bank pul vəsaitini adi dəyişdirməklə bank kreditinin kapitalın bir sferadan digərinə keçirilməsində olduğundan nə isə daha çox yarada bilməsi fikrini inkar edir. O göstərir ki, "kredit çox gücə malikdir, lakin ehtimal ki, çoxlarının zənn etdiyi kimi nə isə sehrli deyil; o heç nədən bir şey yarada bilmir". Lakin sonradan Mill məcmuu yığım doktrinasını qəbul etmişdi. O, göstərir ki, inflyasiya (hətta, əgər kapital ehtiyatı artıq tam həcmdə istifadə olunursa da) resursları, zinət şeyləri istehsalı sektorundan kapital məhsulları istehsal edən sektora yönəltmək yolu ilə "kapital yarada" bilir.

Mill İngiltərənin dövlət bankını açıq bazarda əməliyyatları genişləndirməyə, uçot dərəcələrinin tənzimlənməsi üzrə fəal siyasət yeritməyə çağırır. O, mərkəzi bankın qızılın xaricə axını zamanı bank faizini yüksəltməklə, faizin bazar normasının artma-



downloaded from KitabYurdu.org

sına kömək etməklə öz ehtiyatlarını qoruyub saxlaya bilməsi məsələsinə ilk diqqət yetirənlərdən biri olmuşdur. Onun mülahizəsinə görə, faiz normasının artması xaricdən kapital cəlb edir, İngiltərə veksellərinə tələbi artırır və onların qiymətləri artdıqca onların əvəzinə qızıl külçələrin verilməsi əlverişli olur və nəticədə valyuta kursu İngiltərənin xeyrinə bərpa olunur.

Mill kağız pullar buraxılmasının inflyasiyalı modelini müqayisəli tarazlıq mövqeyindən kəskin tənqid edir və gözlənilmədən XVIII əsr iqtisadçıları tərəfindən heç vaxtı baxılmamış olan inflyasiya haqqında aşağıdakı dəlilləri irəli sürür: 1. qiymətin artımı borcların real kəmiyyətini azaldır və demək debitorların xeyrinə, kreditorların isə əleyhinə işləyir. 2. Bu vaxtı "məhsuldar sinif" ümumiyyətlə, qeyri-məsuldar sinfə son dərəcə (xüsusilə isə bura həm də milli borc daxil olarsa) borclu olur. Lakin ədalətli düşüncə üzündən, Mill sonradan bunu inkar edir.

Mill beynəlxalq dəyər nəzəriyyəsinə xüsusi diqqət verməşdi. Ondan sonra gələn klassik iqtisadçılar, onun bu nəzəriyyəsinə əsaslı (bu və ya digər ölkədə xərclərin dəyişməsi halı istisna olmaqla) nə isə əlavə etməmişlər, sadəcə olaraq onu təkmilləşdirmişlər. Mill göstərirdi ki, barter ticarət mübadiləsi təkcə istehsal xərclərindən asılı deyil, həm də "qarşılıqlı tələbdən" asılıdır. "Beynəlxalq tələbi bərabərləşdirmə" (bu anlayış ancaq Millə məxsusdur və onun yeniliyi hesab olunur) bir ölkənin ixracının dəyəri, digər ölkənin idxalının dəyərinə bərabər olmasına səbəb olur və nəticədə hər bir ölkədə idxala tələbin səviyyəsi və elastikliyi ilə müəyyən edilir. Xarici tələb nə qədər çox və elastik olarsa mövcud ölkənin ticarəti üçün bir o qədər əlverişli şərait yaranar. Mill məhsul istehsalı ilə əlaqədar olmayan xərclər anlayışını tətbiq edir və göstərir ki, bu kəmiyyətin istənilən artımı ticarətdən alınan gəlirlərin azalması deməkdir. Əgər biz bu xərclərə yol veririksə, iki əmtəənin mübadilə nisbəti hər iki ölkə üçün daha eyni olmur; artıq bu xərclər ümumiyyətlə nə idxal və nə də ixrac edilməyən ölkə məhsullarının qiymətini yüksəldir.

Mill A.Smitin "artıqların satışının mümkünlüyü" fikrini təkzib edir. O, "artıqların satışı" nəzəriyyəsinə beynəlxalq tica-



downloaded from KitabYurdu.org

rətə, onun dolayı gəlirlər gətirməsinə xüsusi diqqət yetirməklə baxmışdı. Bu gəlirlər bazarın həcmini genişləndirən hərəkətverici qüvvə kimi izah olunur. Lakin Mill burada ona-qədərki iqtisadçıların heç birinin lazımi diqqət vermədikləri məsələyə - müqayisəli üstünlüklərdə baş verən tarixi dəyişikliklərə toxunur. O yazır ki, bu düşüncə "əsasən sənaye inkişafının ilkin mərhələləri üçün ədalətlidir, geridə qalmış ölkələrin beynəlxalq ticarətə daxil olması "bəzən sənaye inqilabına bənzər fəaliyyət göstərir".

Millin dördüncü kitabı iqtisadi dinamikaya həsr olunmuşdu. Burada amillərin qiymətinin və bölgü proporsiyalarının tarixi dəyişməsini müəyyən edən real qüvvələrin təbiəti təhlil olunur. Burada məqsəd bölgü qanunlarına iqtisadiyyatdakı nağd pulların təsir etmədiyini, bölgü "real" qüvvələrin fəaliyyətinin nəticəsi olduğunu göstərmək olmuşdu. Mill O.Kontadan götürdüyü "statika" və "dinamika" arasında olan fərqi göstərir. O qeyd edir ki, indiyə qədər biz "daimi və dəyişməz cəmiyyətin iqtisadi qanunlarını öyrənmişik. İndi biz "siyasi iqtisadın dinamikasını onun statikasına" əlavə edirik.

M.Blauqun fikrincə isə Milldə "dinamika" tarixi dəyişikliyin təhlilini göstərir, "statika", ehtimal ki, təxminən biz indi müqayisəli statistik təhlil adlandırdığımız adlanır.

Mill azad ticarət olmadıqda taxılın qiymətinin yüksəlməsini qabaqcadan xəbər verən Rikardoçu nəzəriyyəni ilk dəfə olaraq empirik yoxlamaya düçar etməklə iqtisadi ədəbiyyatda yeni səhvə açılmış olur. Mill kənd təsərrüfatı məhsullarının mövsümi dəyişikliklə və pulun dəyərinin dəyişməsi ilə şərtlənən bir sıra müvəqqəti qiyməti iki əks qüvvədən - gəlirliyin azalması, yaxud texniki tərəqqinin - faktiki hansının üstün olmasının üstünü açdığını güman edir.

Mill mənfəətin azalmağa meyl etməsini təhlil etmişdir. O, A.Smitin mənfəət normasının kapitalların rəqabət nəticəsində azalması haqqında müddəasını qəbul etməmişdi. Mill mənfəət normasının azalmasını kapitala təklifin mövcud məhdud ərazi daxilində, onun mənfəətli istifadəsi mümkün olmayan həddə yaxınlaşması ilə əlaqələndirməyi daha düzgün hesab edir. O qeyd



downloaded from KitabYurdu.org

edir ki, kapital təklifinin minimum qiyməti var. Mill mənfəət normasının azalmasını texniki tərəqqinin omaması ilə əlaqələndirir. O göstərir ki, texniki tərəqqi olmadıqda kapital yığımının cari norması mənfəət normasını bir neçə il ərzində 1%-ə qədər azaltmışdır. Bu kəmiyyəti kapital təklifinin minimum qiyməti hesab edir. Mill qeyd edir ki, *iqtisadiyyat inkişaf etdikcə, mənfəət norması ona görə azalır ki, insanlar bir daha illik məhsuldansa gələcək gəlirlər naminə ani fəda olmağa, daha çox meylli olurlar, özlərinin yığımlarından cari istehlakı artırmağa insanların fikiri bir qədər az olur*. Digər tərəfdən isə kapitalın artımı onun məhsuldarlığını azaldır.

Mill mənfəət normasının azalmasına əks təsir edən amilləri də göstərmişdi. Bunlar aşağıdakılardan ibarətdir: 1) böhran dövründə kapital itkisi; 2) texniki təkmilləşdirmə, xüsusən də fəhlələr tərəfindən istehlak edilən məhsullar istehsalında; 3) xarici ticarətin əmək haqqına alınan məhsulların real istehsal xərclərini aşağı salanacan onun genişlənməsi; 4) kapital ixracı.

Mill vaxtaşırı böhranların olmasını mənfəət normasının azalması ilə əlaqələndirir. Çünki böhran dövründə kapitalın azalması ümüd olunan mənfəətin canlandırılması üçün zəmin hazırlayır. Kapital ixracı, bir qayda olaraq, müstəmləkəçi ölkəyə ixrac edilən xammal istehsalı üçün müstəmləkə ölkəyə yönəldilir. Bunun son səmərəsi fəhlə istehlakı məhsullarının əldə olunmuş real istehsal xərclərini azaltmaqdır. Millin fikrincə, mənfəət normasının azalması dövlət xərclərinə qarşı müvafiq olan əsas yaradır.

Mill də istehsalın böhransız inkişafını mümkün hesab edir. O, istehsalın təkmilləşməsini, kapitalın daha münbit torpaqlarda istifadəsini və əhali məskunlaşmamış, yaxud az məskunlaşmış ərazidə yeraltı sərvətlərin mənimsənilməsi üçün ixracı iqtisadi artımın zəruri şərti sayır. Bununla yanaşı, o, Helbreytin "bolluq cəmiyyəti" müddəasına uyğun fikir də söyləmişdi. O qeyd edir ki, "yalnız geridə qalmış ölkələrdə istehsalın artırılması daha çox mühüm vəzifə sayılır; daha çox inkişaf etmiş ölkələrdə bölgünün təkmilləşdirilməsi iqtisadi zərurət sayılır. Bununla Mill bəzi



downloaded from KitabYurdu.org

müəlliflərin göstərdiyi kimi, *əhalinin həyat səviyyəsini, birinci növbədə iqtisadi artımın nəticəsində deyil, gəlirlərin daha ədalətli bölgüsü nəticəsində yüksəldilməsinin vacibliyi fikrinə meyl edir. Burada Millin iqtisadi artımın ətraf mühüt üçün çox zərərli nəticələr verdiyini başa düşdüyü qeyd olunur.*

IV kitabın son bölmələrində Millin sevimli mövzuları olan kəndlinin mülkiyyət hüququ, mənfəətdə və istehlak kooperativlərində iştirak etmə müzkarə obyekti olmuşdu. Burada Mill tərəfindən sosialistlər rəqabətə qarşı çıxdıqlarına görə tənqidə məruz qalırlar və onların rəqabət deyil, ancaq mülkiyyət hüququna əsaslanmış quruluşun qəzəbli məzəmmətinə səbəb olduğu qeyd olunur. Mill fəhlələrin mənfəətdə, kooperativ və həmkarlar ittifaqı hərəkatında iştirakına xüsusi əhəmiyyət vermiş, bu yolla kapitalizmdə fəhlə sinfinin vəziyyətinin və bütünlükdə kapitalizmin yaxşılaşdırılmasını mümkün hesab edir. O hesab edir ki, "gələcəkdə müəssisənin başçısı kapitalist və idarəetmə prosesinə heç bir təsir göstərməyən fəhlə arasında mövcud olan birlik forması deyil, ancaq başqası üstün olacaqdır. Bu vaxtı fəhlələrin özləri bərabərlik və kapitala kollektiv sahib olmaq şəraitində birləşirlər... işlər isə onların özləri tərəfindən təyin edilən və çıxarılan idarəedicilərin rəhbərliyi altında aparılır.[1]

Mill V kitabda dövlətin funksiyalarını şərh etmişdi. Burada, birinci növbədə, vergi məsələsinə diqqət yetirir. O, vergi ödəmələrində bərabərçiliyə tərəfdar olmuşdur. Millə görə, ödəmədə bərabərlik yaşayış minimumunu keçən gəlir mütərəqqi vergi deməkdir. Bununla belə, o, həvəsləndirmə baxımından mütərəqqi vergi qoymanı inkar edir, lakin mirasa mütərəqqi rüsum tərəfdarı olur, çünki bu özünü "qazanılmamış gəlirə" vergi kimi göstərir. Mill hesab edir ki, dövlətin vergi formasında yığdığı vəsaitin kəmiyyəti azad rəqabət sisteminin mövcud olmasını təmin etməsinə dair dövlət funksiyasını yerinə yetirmək üçün lazım olan məbləğdən artıq olmamalıdır. Onun fikrincə, bütün vergilər prinsipcə qəbahət olduğundan, büdcə artıqlığı dövlətin borcu-

[1] Всемирная история экономической мысл, 2 том, М.1998- г. ст.115



downloaded from KitabYurdu.org

nun ödənilməsi üçün deyil, vergi yükünü (ağırlığını) ödəmək üçün istifadə edilməlidir.

Mill proteksionizmi qəbul etməmiş və azad iqtisadiyyat tərəfdarı olmuşdu. Lakin, bununla belə o, "sadə, lakin məqsədəuyğunluğu qeyri-müəyyən olan mülahizədən" başqa, dövlətin müdaxilə sahələrini məhdudlaşdırmaq məqsədilə olan hər hansı ümumi qayda-qanunu rədd edir. O göstərir ki, "ümumi praktiki prinsip - azad iqtisadi fəaliyyət olmalıdır və ondan ali qəbildən olan mülahizələrdən başqa hər hansı kənarlaşma bədbəxtlikdir. O həm də qeyd edir ki, bəzən cəmiyyətə ayrı-ayrı şəxslərin mənafelərinə təsir etmək lazım gəlir. O, iş gününün uzunluğunun tənzimlənməsinə bu əsasdan həmrəylik göstərmişdi. O, bir iqtisadi sistem kimi kapitalizmdən imtina etməməyi, onu təkmilləşdirməyi məqsədəuyğun sayır. Mill mənfəət əldə etmə motivlərindən imtina etməyin vaxtından əvvəl olduğunu, mövcud iqtisadi quruluşun yaxşılaşdırılması üçün hələ böyük imkanların olduğu fikrində olmuşdu. O hesab edir ki, cəmiyyət - heç kimin kasıb olmadığı, heç kimin varlı olmağa cəhd etmədiyi və başqalarını yarıb qabağa keçmək səyi ucbatından geriyə atılmağa ehtiyat etməyə heç bir səbəb olmadığı bir zamanda ən yaxşı vəziyyətdə olardı.

Mill xüsusi mülkiyyət sisteminin təkmilləşdirilməsi ilə əlaqədar olaraq yazır ki, "kommunizmi, xüsusən onun mükəmməl formasını xüsusi mülkiyyət sistemi ilə, lakin indi o necədir, o cür deyil, onu necə etmək mümkündür o cür müqayisə etmək lazımdır".

Mill daha sonra qeyd edir ki, "cəmiyyətin inkişafının indiki vəziyyətində əsas məqsəd xüsusi mülkiyyət sisteminin devrilməsinə cəhd etmək deyil, ancaq onu yaxşılaşdırmaqdır və cəmiyyətin hər üzvünə, onun əldə etdiyi qazanclarda (mənfəətlərdə) iştirak etməyə tam hüquq verməkdir. Millin fikrinə görə, inkişafın (tərəqqinin) məqsədi heç kimin qarşılıqlı tabeçiliyi olmayan əmək şəraitini yaratmaqdır.

Mill öz əsərində təhsil məsələsinə də xüsusi diqqət yetirmişdi. Onun və digər klassik yönümlü iqtisadçıların təhsil haq-



downloaded from KitabYurdu.org

qında baxışları A.Smit irsinin davamıdır. A.Smit təhsili istehsal ixtisasının inkişafı naminə deyil, daha çox mənəvi təkmilləşmə xatirinə görə bəyənmişdi. Klassik yönümlü bütün iqtisadçılar kütlənin maariflənməsinə qənaətcillik və ağıllı tərbiyə vasitəsi kimi yaxşı münasibət göstərmişlər. Onlar kütləvi təhsilə iqtisadi artıma kapital qoyuluşu kimi baxmalarına baxmayaraq, ancaq ona vətəndaş həmrəyliyinin və əhali artımına nəzarətin təminatçısı kimi baxmaqla, onun iqtisadi artıma dolayı töhfə verdiyini qəbul etmiş olurlar. A.Smit ali təhsildə "nəticələrə görə haqq", ibtidai və orta məktəblərin müəyyən sistem (əmək haqqının dərs fənnindən asılı olması və müəllimlərə əmək haqqından əlavə təsbit olunmuş yardım verilməsi) formasında dövlət müdafiəsi fikrini söyləmişdi. O, bu cür sistemi İngiltərənin təhsil sisteminə tətbiq etmək istəyirdi. Onun təhsilin dövlət müdafiəsi üzrə təklifi, bina ilə təmin olunmanı, müəllimlər üçün isə onların gərgin əməyinə görə stimul kimi əmək haqqının geniş dərəcələrini nəzərdə tuturdu. *Mill təhsil sferasında bazar mexanizminin səmərəsiz olduğunu deyən ilk adam olmuş və təhsili "bazarın gücsüzlüyünün" nümunəsi kimi ayırmışdı*. O qeyd edir ki, yalnız uzunmüddətli təcrübə təhsilin keyfiyyətini qiymətləndirməyə imkan verir, çünki bu əmtəənin alıcısı, adətən onun keyfiyyətini mühakimə etmək imkanında olmur. Buna baxmayaraq o, hər yerdə kütləvi dövlət təhsili qaydasının da əleyhinə olmuşdu. O, dövlət imtahanı sisteminə (əgər uşaq imtahan verə bilməzsə, onun valideynindən təhsili davam etdirməyə ödənilən vergi tutulur) uyğunlaşdırılmış məcburi ev təhsilinə, yaxud müəyyən yaşa qədər xüsusi məktəblərin olmasına tərəfdar olmuşdu. Bununla yanaşı kasıb ailələrdən olan uşaqlar üçün xüsusi maliyyə yardımını və bəzi uzaq rayonlardan dövltət məktəblərinin yaradılmasını məqbul hesab etmişdir.



downloaded from KitabYurdu.org

# XI FƏSİL. KLASSİK İQTİSAD ELMİNİN TƏNQİDİ. S.SİSMONDİNİN NƏZƏRİYYƏSİ VƏ METODOLOGİYASI

İqtisad elmi tarixində **Simon de Sismondi** (1773-1842) xüsusi yer tutur. O, İsveçrə mənşəli fransız iqtisadçısı və tarixçisi olmuşdur. Sismondinin əsas məşğuliyyəti tarix idi. O, iki cildli «İtaliya Respublikalarının tarixi» (1807), həmçinin çoxcildli (31 cilddə) «Fransanın tarixi» əsərlərini yazmışdır. Sismondinin sosial-iqtisadi baxışlarının inkişafı A.Smitin təbii azadlıq prinsiplərinə olan münasibətinə görə iki mərhələyə bölünür. Birinci mərhələdə o, A.Smitin davamçısı və təbliğatçısı olmuş və onun təbii azadlıq prinsipini tamamilə müdafiə etmişdir. Onun bu mövqeyi öz ifadəsini «Toskananın kənd təsərrüfatının təsviri» (1801) və «Kommersiya sərvəti və ya ticarət qanunvericiliyinə tətbiqində siyasi iqtisadın prinsipləri» (1803) əsərlərində tapmışdır. Lakin sonradan sənaye çevrilişinin nəticələri xırda istehsalçıların var-yoxdan çıxması, işsizlər ordusunun yaranması, qadın və uşaq əməyindən geniş istifadə edilməsi Sismondinin sosial-iqtisadi baxışlarına güclü təsir etmişdir. Bundan sonra o, A.Smitin təbii azadlıq və şəxsi mənafelərin azadlığı prinsipinə qarşı çıxmışdır və kapitalizmin təbiiliyi və əbədiliyi müddəalarını şübhə altına almışdır. Bu mövqedən o, böyük həcmli ikicildli «Siyasi iqtisadın yeni əsasları və ya özünün əhaliyə münasibətindən götürülmüş sərvət haqqında» (1819) və «Siyasi iqtisad üzrə etüdlər» (1837) əsərlərini yazmışdır. «Siyasi iqtisadın əsasları» əsəri tezliklə Sismondini Avropada məşhur etmişdir. Bu əsərlərdə o, kapitalizmin əsaslarını – xüsusi mülkiyyəti, sahibkarlıq fəaliyyətini, qiymət sistemini saxlamaqla azad rəqabəti, şəxsi mənafelərin azad oyununu və iri sahibkarlıq fəaliyətini tənqid etmişdir.

Sismondi göstərirdi ki, azad rəqabət sərvətin az bir qrupun əlində cəmləşdiyi bir şəraitdə əhalinin əsas kütləsinin dilənçiləşməsinə, ağır iqtisadi böhranlara səbəb olur. Bununla da o, iqtisad elminin tarixinə kapitalizm sisteminin və onun iqtisadi mexanizminin ilk dərin və ağıllı tənqidçisi kimi düşmüşdür. Sis-



downloaded from KitabYurdu.org

mondi kapitalizmi xırda istehsalçılar mövqeyindən tənqid etmişdir. Bunu isə sənaye inqilabının zəfər yürüşü dövründə etmişdir. İri sənayeni bəşəriyyət üçün fəlakət saymışdır. O, xırda kəndli təsərrüfatının və kustarlığın tərəfdarı olmuşdur. O göstərir ki, dövlət işçinin mülk sahibi olmasını təmin etməlidir.

*Sismondi klassik nəzəriyyənin həm metoduna, həm də fəlsəfəsinə qarşı çıxmışdır.* Sismondi zəhmətkeşlərin mənafeyini ifadə edən yeni bir sistemin qurulmasına tərəfdar olmuşdu. Sismondi hesab edir ki, muzdlu əmək sistemində istehsalın hərəkətverici qüvvəsi və məqsədi mənfəətdən ibarət olduğundan kapitalistlər öz fəhlələrindən mümkün qədər daha çox şey əldə etməyə çalışırlar. Onun fikrincə, laissez faire – təbii azadlıq sistemində siniflər arasında azaltması mümkün olmayan mənafe çatışmazlığı mövcuddur və bu cəmiyyəti xaosa sürükləyir. Bu səbəbdən də vətəndaşlar müdafiə olunmalıdır. Ona görə də Sismondi klassik fikirlərin əksinə olaraq sosial islahatların aparılmasını zəruri saymış və bunun üçün də dövlət müdaxiləsinə tərəfdar olmuşdur. Bununla da onu islahatçılığın banisi və bazar iqtisadiyyatının dövlət tənzimlənməsi nəzəriyyəsinin (XX əsrin 30-cu illəri) yaradıcısı C.M.Keynsin sələfi saymaq olar. O, azad rəqabət sisteminin səbəb olduğu qeyri-sabitliyi və qeyri-müəyyənliyi aradan qaldıran dövlət müdaxiləsinə tərəfdar olmuşdur. *Sismondi bazar mexanizminin həll etmədiyi bəzi iqtisadi problemlərin həll edilməsində dövlət siyasətindən istifadə olunmasına tərəfdar olmuşdur.*

Sismondi sosialist olmamasına və sosializmi açıq-aydın dəstəkləməməsinə baxmayaraq, özünün müəyyən fikirləri ilə sosialist nəzəriyyənin də öncüsü sayılır. Onun tərəfindən kapitalizmin tənqidi, böhranların təhlili marksizmin formalaşmasında müəyyən rol oynamışdır. Onun islahatlar proqramı daha çox sosial mahiyyət kəsb etmişdir. O, zəhmətkeş xalqa səmimi rəğbət bəsləmiş, Rikardonun rədd etdiyi problemləri və ziddiyyətləri görə bilmiş, onların həllini axtaran humanist və radikal iqtisadçı olmuşdur. O, yeni dövrün sosial-iqtisadi ədəbiyyatına «proletariat» sözünün özünü yeni mənada gətirmişdir. Sismondi «proletariat» sözünü «muzdlu işçi» mənasında işlətmişdir. Sismondi



downloaded from KitabYurdu.org

bütün həyatı böyu inanmışdır ki, xoşbəxtlik, hər şeydən əvvəl, namuslu işləyən sənətkarların və fermerlərin evlərinə qədəm basır və fabrikləri, ticarət kontorları və bankları olan böyük şəhərlərdən isə kənar qaçır.

Sismondi əməyin kapitalistlər tərəfindən istismar olunduğu fikrini irəli sürmüşdür. Ona görə, kapitalistlər əməyi sadəcə olaraq onun yaşaması üçün zəruri olandan daha çox işləməklə deyil, eyni zamanda az əmək haqqı ödəmək vasitəsilə də istismar etməkdədir.[1] *O, mənfəəti «artıq dəyər» adlandırmış, onun fəhlə tərəfindən yaradıldığını və kapitalist tərəfindən mənimsənildiyini qeyd etmişdir.* Onun «artıq dəyər» anlayışını Marks sonradan izafi dəyər adlandırmışdır. Sismondi A.Smitin iqtisadi tərəqqinin gedişində əmək haqqının nisbətən artması fikri ilə razılaşmır. O göstərir ki, əmək məhsuldarlığının hədsiz artması nəticəsində yalnız varlıların israfçılığı və həzzi artır və millət sənətkarlıq və sənaye sahəsində nə qədər çox inkişafa nail olursa, zəhmətkeşlər arasında qeyri-bərabərlik bir o qədər çox olur, biri nə qədər çox çalışırsa, digəri bir o qədər çox varlanır.

Sismondi şəxsi mənafe ilə ictimai mənafe arasındakı uyğunluğa inanmamış və bu uyğunsuzluğun aradan götürülməsi üçün dövlətin iqtisadiyyata birbaşa və ya dolayısı ilə müdaxiləsinə tərəfdar olmuşdur. O, sahibkarların hesabına işçinin xəstələndiyi, qocaldığı və qəza hallarında ödənilməsi üçün sosial təminatın yaradılmasının, həmçinin fəhlələrin müəssisənin mənfəətində iştirak etmələrinin zəruriliyini qeyd etmişdir. O göstərir ki, iş saatlarını nizamlayan, uşaqların işləməsini qadağan edən qanunlar çıxarılmalıdır. Sismondinin sosial məzmunlu fikirləri sosialist nəzəriyyələrin əsasını təşkil etmiş və bunlar sosialist nəzəriyyəçilər tərəfindən sonradan inkişaf etdirilmişdir.

Sismondi siyasi iqtisadın predmetini klassik məktəbdən fərqli müəyyən edir və onun yeni prinsiplərini formalaşdırır. O, siyasi iqtisada sərvət və onun artırılması üsulları haqqında elm

[1] Prof. Dr. Vural Savaş İktisatın tarihi. Ankara, 2000, səh. 419



downloaded from KitabYurdu.org

kimi baxmamışdır. Sismondi onun predmetini «Dövlətdən asılı olan xalqın maddi rifahı»[2] kimi müəyyən etmişdir.

Onun fikrincə, milli sərvət mahiyyət etibarı ilə sərvət deyildir, çünki ondan əhalinin böyük əksəriyyətinin payına cüzi bir hissə düşür. Ona görə də, Sismondi hesab edir ki, sərvətin artımı siyasi iqtisadın məqsədi deyil, yalnız ümumi xoşbəxtliyin təmin edilməsi üçün vasitədir, sərvətin və əhalinin artımı özlüyündə yalnız abstraksiyadır. Sismondi siyasi iqtisadın predmetinin müəyyənliyində ön plana iqtisadi münasibətləri yox, insan təbiətini, adət-ənənəni və institutları qoymuşdur. Ona görə də, o, siyasi iqtisada iqtisadi münasibətləri öyrənən elm kimi deyil, əxlaqi, mənəvi və xalq sərvətinin idarə edilməsini[1] öyrənən elm kimi baxmışdır. O hesab edir ki, dövlətə «xalq sərvətini» idarə etmək və bununla bərabər insanların duyğusuna, tələbatına və marağına inanmaq lazımdır.

Sismondinin klassiklərlə fikir ayrılığının olmasına baxmayaraq, bununla belə onun tədqiqatının əsasında onların təlimi durmuşdur. O, sərvətin mənbəyinin maddi istehsal olması haqqında A.Smitin fikrilə həmrəy olmuşdur. Sismondi istehsalı ictimai həyatın həlledici sferası saymışdır. O hesab edir ki, xalqın maddi rifahı istehsal sferasında yaranır və artır, bununla belə o, istehlakın istehsal üzərində üstünlüyünə əsaslanmış və bütün istehlakı şəxsi istehlak kimi şərh etmişdir. Sismondi, onun siyasi iqtisadın predmetinin müəyyənliyindən də göründüyü kimi, sosial, iqtisadi prosesləri subyektiv mövqedən, idealist metodologiyadan öyrənmişdir. O, iqtisadi məsələlərə fikir bildirərkən əxlaqi məsələləri önə çəkmişdir və tarixi proseslərin əsasında iqtisadi münasibətləri deyil, mənəvi ideyaları görmüşdür.

*Sismondi iqtisadi təhlildə abstraksiya metodundan istifadə edilməsinə qarşı çıxmışdır.* O, A.Smiti insanı yaddan çıxarıb abstraksiyaya qapıldığına görə tənqid etmişdir. O, siyasi iqtisaddan

---

[2] Сисмонди С. Новые начало политической экономии. Том I. 1936, стр. 148

[1] Сисмонди С. Новые начало политической экономии. Том I. 1936, стр. 150



downloaded from KitabYurdu.org

sosial iqtisadi proseslərin və abstrak sxemlərin arxasında insanı, onun duyğularını, tələbatını və maraqlarını görməyi tələb edirdi. Sismondi bütün millətlərin məqsədini ümumi rifahın və firavanlığın artımında görmüşdür. Ona görə də o, siyasi iqtisada bəşər cəmiyyətinin mənafeyi naminə sosial problemlərin həll edilməsi haqqında elm kimi baxmışdır.

Sismondi iqtisadi təhlildə kauzal (hadisələr arasında səbəb əlaqəsi) metoddan istifadə etmişdir. O göstərir ki, «siyasi iqtisadda hər şey əlaqəlidir, hər şey dairəyə alınmışdır, belə ki, nəticə öz növbəsində səbəblə təşəkkül tapır». O, sosial iqtisadi hadisələrə sinfi mövqedən yanaşmış, xırda istehsalçıların mənafeyini əsas götürərək islahat tərəfdarı olmuşdur. Sismondi irimaşınlı kapitalist təsərrüfatını qəbul etməmişdir. Sismondiyə görə, kapitalist təsərrüfatı insanların rifahının yaxşılaşdırılmasına tabe edilməmişdir, o, sərvətin artmasına gətirib çıxarır, insanlar isə həmin sərvətin bəhrələrindən istifadə edə bilmir. Ona görə də o, sərvəti ümumi xoşbəxtlik mövqeyindən qiymətləndirməyi tələb edir və sərvətin insana məxsusluğunu və ondan istifadə etməsini göstərir.

Sismondi A.Smitin təliminə uyğun olaraq əməyi dəyərin və sərvətin yeganə mənbəyi hesab etmişdir. O göstərir ki, «əmək sərvətin yeganə mənbəyidir».[1] K.Marks bu fikrə görə Sismondini Fransada klassik siyasi iqtisadın başa çatdırıcısı adlandırmışdır. Sismondi ilk dəfə olaraq ictimai zəruri iş vaxtı anlayışını işlətmişdir. O, klassik siyasi iqtisadın nümayəndələrindən irəli gedərək istehlak dəyərilə dəyər arasındakı ziddiyyətə diqqət yetirmişdir. Pula daxili dəyərə malik olan əmək məhsulu kimi baxmış və bu səbəbdən də onun ümumi dəyər ölçüsü kimi çıxış etdiyini qeyd etmişdir. O, inflyasiyanı tədavül kanallarının əlavə kağız pullarla həddindən artıq doldurulmasının nəticəsi kimi izah etmişdir.

Sismondinin iqtisadi baxışlar sistemində gəlir haqqında təlim xüsusi yer tutur. O, klassiklərin kapital və gəliri bir-birindən

---

[1] Сисмонди С. Новые начало политической экономии. Том I. 1936, стр. 149



downloaded from KitabYurdu.org

ayırmaqda çətinlik çəkdiklərindən gəliri tədqiqatdan kənarda saxladıqlarını, həmçinin onların və fiziokratların keçmiş gəlir ilə gələcək gəliri qarışdırdıqları və bu səbəbdən də istehlaka diqqət yetirmədikləri fikrini söyləmişdir.

Sismondi məqsəd hesab etdiyi ümumi rifahın və firavanlığın istehlakla müəyyən olunduğu səbəbindən o, istehlaka önəm vermişdir. Sismondi istehlakın kapital ilə deyil, gəlirlə məhdudlaşdığını söyləmişdir. Ona görə də o, iqtisadçılardan kapital və gəlir anlayışlarını dəqiq müəyyən etməyi tələb etmişdir.

Sismondi A.Smitin gəlirlər haqqında fikrini tamamilə qəbul etmişdir. Smit kimi o da üç gəlir növünün: renta, mənfəət və əmək haqqının olduğunu qeyd edir. Bunların məcmusunu milli gəlir adlandırmışdır və A.Smit kimi milli gəliri məcmu məhsulla eyniləşdirmişdir. O, renta və mənfəətə torpağın və kapitalın əldə etdiyi mənfəət kimi baxır və hər ikisini birlikdə «əlavə dəyər», bu əlavə dəyəri isə fəhlələrin gəlirlərindən birbaşa çıxma adlandırır. Bununla o, gəlirləri əmək və əməksizə bölür. Sismondi rentanı və mənfəəti keçmiş, əmək haqqını isə gələcək gəlirə aid edir. O göstərir ki, əmək haqqı fəhlənin məhsulunun bütün dəyərinə bərabər olmalıdır.

Sismondi Seyin üç əsas gəlir növünün mənbəyinin torpaq, yığılmış kapital və əmək olması haqqındakı fikrini rədd etməklə yanaşı, o, həm də göstərir ki, yalnız fəhlələr öz gəlirindən (əmək haqqından) əlavə gəlir: torpaq mülkiyyətçiləri üçün renta və kapitalistlər üçün mənfəət yaradır. Sismondi sahibkarların mənfəətinə, onlar tərəfindən işə götürdükləri fəhlələrin qarət edilməsi kimi baxmışdır.

Sismondi kapital haqqında fikirlərdə Smitlə həmrəy olmuşdur. O, kapitala mənfəət gətirən istehsal ehtiyatı, sərvətin bir hissəsi kimi baxmış və fəhlələrin əməyinin mübadilə prosesində kapitalistlər üçün kapitala çevrildiyini göstərmişdir.

Sismondi Maltusun əhali artımının təbii həddlər haqqında fikirlərini qəbul etmir. O əhali artımını gəlirlərlə əlaqələndirir. O göstərir ki, əhali artımı torpağın istehsal etdiyi yaşayış vasitələri tərəfindən deyil, işçinin işləməməsi və əmək haqqının azalması



downloaded from KitabYurdu.org

səbəbindən məhdudlaşır. O, əhalinin artımını gəlir çərçivəsində məhdudlaşdırmağı təklif edir.

Sismondi iqtisad elminin tarixində mənfəətin artırılması xatirinə maşının tətbiqinin işsizlər ordusunun yaranmasına gətirməsi, işsizlərin olmasını isə işi olanların vəziyyətini pisləşdirməsi faktını qəbul edən ilk adam olmuşdur.

Sismondinin məhsuldar və qeyri-məhsuldar əmək haqqındakı fikri tamamilə A.Smitin fikrinə uyğun olmuş, lakin onun əmək bölgüsü haqqındakı fikri klassiklərin fikrinə tamamilə əks olmuşdur. O, əmək bölgüsü prosesi nəticəsində işçilərin maşınlar tərəfindən istehsaldan çıxarıldığını və maşınlara nisbətən işçilərin əhəmiyyətinin azaldığını qeyd edir. O göstərir ki, əmək bölgüsü əməyin məhsuldarlığının artırılmasının ən güclü səbəbi olmaqla, o, əmək məhsuldarlığı nə qədər artırsa, ona proporsional olan insanın əqli və fiziki qüvvələrinin, sağlamlığının və şadlığının itirilməsi deməkdir.

Sismondinin baxışlarının mərkəzində satış və böhranlar problemi durmuşdur. O, bu problemi kapitalist sisteminin sinfi strukturu ilə sıx bağlamışdır. Sismondi kapitalist istehsalının və yığımının imkanlarını və həddlərini nəzərdən keçirmiş ilk mütəfəkkir olmuşdur. Əgər A.Smit və D.Rikardo yığımı kapitalizmin əsas problemi hesab etmiş, satış problemini və böhranları inkar etmişlərsə, Sismondi kapitalizmdə istehsal və istehlak arasında ziddiyyətin olduğunu göstərmiş və satış problemini və böhranları ön plana çəkmişdir.

Sismondi klassiklərin ümumi böhranın mümkün olmaması, yalnız təsadüfi, ayrı-ayrı məhsullar istehsalının böhranının olması fikrini qəbul etmir. O, Sey qanununun qəti əlehdarı olmuşdur, onun tələbin təklifə avtomatik uyğunlaşması və istehsalın özünə gəlir yaratması fikirlərini rədd etmişdir. Sismondi böhranı təsadüfi saymamış, onun daxili ziddiyyətlərin, yəni istehsal ilə istehlak arasındakı ziddiyyətin mühüm təzahürü olduğunu göstərmişdir. Sismondi iqtisadi böhrana istehsal ilə gəlir arasındakı uyğunsuzluq kimi baxmışdır. O, böhranların səbəbini əhalinin əsas hissəsinin kasıblığında, onların istehlak mallarını al-



downloaded from KitabYurdu.org

maq tələbini irəli sürə bilməməsində görmüşdür. Ona görə də məhsulların reallaşması və böhranın baş verməməsi üçün o, milli gəlirin və illik istehsalın tam bərabərliyini təklif edir. Bundan başqa, bütün illik gəlir istehsala dəyişdirilərək özünə yeni istehsal yaratmalıdır, əks halda istehsal olunmuş məhsulun bir hissəsi reallaşmamış qalacaqdır və istehsal dayanacaqdır. Sismondi istehsalın gəlirlə müəyyən olunması fikrini söyləyir. Sismondiyə görə, əgər istehsal gəliri üstələyirsə, onda məhsullar reallaşmamış qalacaqdır. O, həm də xarici bazarsız əlavə dəyəri reallaşdırmağı mümkünsüz saymışdır. Onun fikrincə, kapitalizmdə istehsal fəhlələrin və kapitalistlərin istehlakını üstələyir və əlavə dəyərin bir hissəsi reallaşmamış qalır. Ona görə də Sismondi xarici bazarlarsız əlavə dəyərin tam reallaşması üçün kapitalizm cəmiyyətində «üçüncü şəxsin» mövcudluğunun zəruriliyi fikrini irəli sürür. Bu «üçüncü şəxs» - aralıq siniflər, təbəqə və xırda istehsalçılar – kəndlilər, kustarlar və sənətkarlardır.

Sismondi böhranların tələbin həm artıqlığı və həm də çatışmazlığı üzündən baş verdiyini qeyd etmişdir. O yazır ki, «xalqlar bir tərəfdən həddindən artıq xərclədiyinə və bir tərəfdən də həddindən artıq xərcləmədiyinə görə müflisləşə bilərlər».[1] Sismondi bütün məhsulların satılması üçün əməyin tələb ilə tənzimlənməsi fikrini irəli sürür. Sismondiyə görə, təbii çoxalma qanunlarının nəticəsində əmək təklifi daim tələbi ötür ki, bu da kapitalistlərə əmək haqqını minimum səviyyədə saxlamağa imkan verir. Nəticədə isə fəhlələrin alıcılıq qabiliyyəti son dərəcədə aşağı olur və bu ilk zərurət predmetlərinin az bir miqdarı ilə məhdudlaşır. Ona görə də Sismondinin fikrincə, hər şeydən əvvəl, əməyə tələbin artması gərəkdir. Bunun üçün əvvəlcə gəlir və istehlak artırılmalıdır ki, əmək tələbi artsın və bu da əmək təklifinin və illik istehsalın artımına səbəb olsun. Bu halda əmək haqqının əvvəlki səviyyəsinə nisbətdə artırılması lazım olacaqdır.

Deyilənlər onu göstərir ki, Sismondi və Keyns arasında ideya əlaqələri olmuşdur. Bunu yığım və böhranlar nəzəriyyəsində Keyns nəzəriyyələrinin əsasında Sismondinin ideya və fi-

---

[1] Симонди С. Новые начала политической экономии. Том II, стр. 209



downloaded from KitabYurdu.org

kirləri duran Hobsonu özünün ən yaxşı sələflərindən biri hesab etməsi və Keynsin istehlaka daha artıq meyl göstərilməsinin aşağı düşməsi deyilən şeyi potensial şəkildə artıqlıq təşkil edən əmanətlərin və səmərəli tələbin azlığının səbəblərindən biri kimi nəzərdən keçirməsi göstərir. Onu da qeyd etmək lazımdır ki, Sismondi iqtisad elminin heç bir cərəyanına və məktəbinə daxil olmamışdır.



downloaded from KitabYurdu.org

# XII FƏSİL. ALMAN TARİXİ MƏKTƏBİ VƏ ONUN METODOLOGİYASI

Almaniyada iqtisadi nəzəriyyə XIX əsrin ortalarında Almaniyanın vahid dövlət kimi yarandığı dövrdə yaranmışdır. Burada iqtisadi nəzəriyyənin özünəməxsus xüsusiyyətləri və inkişaf yolu olmuşdur. Bu, mühüm dərəcədə ölkənin iqtisadi və sosial-siyasi inkişafının başqa ölkələrdən fərqli şərtləri ilə izah olunur. Burada kapitalist münasibətləri, sənayenin inkişafı orta əsr aqrar münasibətlərinin güclü qalıqlarının saxlanılması şəraitində yaranırdı. Bu zaman dünya bazarlarında ingilis sənayesi hökmranlıq edirdi. Ona görə də burada iqtisadi nəzəriyyə klassik ingilis siyasi iqtisadının əsası olan təbii azadlıq (laisser fair) siyasətinin tənqidi əsasında formalaşırdı. Digər tərəfdən, burada iqtisadi nəzəriyyə sosial-iqtisadi hadisələrə tarixi və milli yanaşma mövqeyindən yaranırdı. Tarixi yanaşma ənənəvi olaraq ictimai elmlərin metodologiyasında böyük rol oynamışdır. Alman məktəbi öz mahiyyətinə görə klassik ingilis siyasi iqtisadının tənqidi tarixi olmaqla yanaşı, onun nəzəriyyələri klassik məktəbə alternativ olan nəzəriyyə və məktəbdir. Alman məktəbi iqtisadi və sosial hadisələrə tarixi nöqteyi-nəzərdən yanaşdığından, bu məktəb tarixi məktəb adlanmışdır. Onu da qeyd etmək lazımdır ki, alman tarixi məktəbi sosial-iqtisadi hadisələrə yalnız tarixi konteksdən deyil, həm də sosial və milli konteksdən yanaşmışdır. Ona görə də bu məktəb iqtisadi fikir tarixində sosial-tarixi istiqaməti canlandırmış və iqtisadi fikir tarixinə həm də milli məktəb kimi düşmüşdü. Alman məktəbinin hadisələrə sosial konteksdə baxması sonralar amerikan institusionalistlərinin sosial yönümlü konsepsiyalarının yaradılmasında mühüm rol oynamışdır.

Alman tarixi məktəbi klassik ingilis məktəbinə nəzəriyyələrdən daha çox metodoloji baxımdan alternativ olmuşdu. Alman müəllifləri klassik məktəbi metodoloji cəhətdən daha çox tənqid etmişlər. Onun nümayəndələri iqtisadi tədqiqatın metodologiyasını ən mühüm hesab etmişlər. Alman tarixi məktəbinin metodologiyasını klassik məktəbin metodologiyasından fərqlən-



downloaded from KitabYurdu.org

dirən cəhətlər və yeniliklər bunlardır: 1. İqtisadi hadisə və proseslərə tarixi mövqedən yanaşılması. 2. Siyasi iqtisadın universal kimi yox, milli elm kimi xarakterizə olunması. 3. Milli iqtisadi inkişafa iqtisadi amillərlə yanaşı, qeyri-iqtisadi amillərin və sosial mühitin təsirinin nəzərə alınması. Qeyri-iqtisadi amillər və sosial mühit dedikdə ölkənin coğrafi şəraiti, təbii amillər, institusional təxsisatlar, milli-tarixi xüsusiyyətlər və adət-ənənələr, millətin özünəməxsus tarixi inkişafı, onun mentaliteti, millətin mədəniyyəti, psixologiyası, dini və s. başa düşülür. 4. Millətin ictimai mənafeyinin, fərdlərin şəxsi mənafelərindən yüksək tutulması.

Alman tarixi məktəbinin nəzəri sələfləri **A.Müller** və **F.List** (1789-1846) olmuşlar. Onların hər ikisi klassikləri və onların davamçılarını abstraksiyaya qapıldıqlarına, iqtisadi qanunları təbiət qanunları ilə eyniləşdirdiklərinə və onları universal qəbul etdiklərinə, fritredçiliyə görə tənqid etmişlər, dövlətin iqtisadi siyasətində proteksionalizmin saxlanılmasına tərəfdar olmuşlar və metodologiyada təhlilin tarixi metoduna həddindən artıq böyük yer vermişlər və klassikləri qeyri-tarixilikdə ittiham etmişlər. Lakin onların klassiklərin təbii azadlıq prinsiplərinə baxışları fərqli olmuşdur. A.Müller bu prinsipi milli iqtisadiyyata, ölkənin ənənələrinə uyğun saymamışdır. A.Müllerdən fərqli olaraq F.List klassiklərin bəzi nəzəri müddəalarını, xüsusən də cəmiyyətin ardıcıl inkişafını və elmi-texniki tərəqqinin sürətləndirilməsini qəbul etmişdir. Onları milli iqtisadiyyatda dövlətin rolunu, həmçinin iqtisadiyyatda millətin tarixi köklərini və onun mədəniyyətini nəzərə almamaqda ittiham edir. O, təbii azadlıq siyasətinin prinsiplərinin ölkələrin eyni dərəcədə iqtisadi inkişafın yüksək mərhələsinə çatması şərti ilə qəbul edilməsi imkanlarını da inkar etməmişdir.

F.List deyir ki, müxtəlif millətlər müxtəlif inkişaf səviyyəsinə malikdirlər. Belə şəraitdə onlar arasında tam ticarət azadlığı, bəlkə də bütövlükdə səmərəlilik baxımından müəyyən abstrakt faydanı təmin edə bilərdi, lakin geridə qalmış ölkələrdə məhsuldar qüvvələrin inkişafına mane ola bilərdi. List yazmışdı: «İrəli sürdüyüm sistemin səciyyəvi əlaməti kimi mən milliliyi təsdiq



downloaded from KitabYurdu.org

edirəm. Mənim bütün binam fərdlə bəşəriyyət arasında orta üzv kimi millətin təbiəti üzərində qərar tutur».[1] F.Listin fikrinə görə, A.Smitin və onun davamçılarının əsas səhvi odur ki, onlar iqtisadi həyata öz mexaniki məcmusu ilə bəşəriyyəti təşkil edən ayrı-ayrı fərdlərin qarşılıqlı fəaliyyət sferası kimi baxırlar. Lakin tarix bəşəriyyətlə xalqın arasına milləti qoymuşdur. İstənilən fərd, hər şeydən əvvəl, millətin bir hissəsidir və onun xoşbəxtliyi millətin qüdrətindən asılıdır. Millətin maraqlarını dövlət qorumalıdır. Tam ticarət azadlığı yalnız uzaq gələcəkdə bütün xalqlar bir inkişaf mərhələsində olduqda, müharibə təhlükəsi yox olduqda, xalqlar ümumi razılığa gəldikdə olacaq. O göstərir ki, hər bir ölkələnin iqtisadiyyatı özünün qanunları ilə inkişaf edir və ona görə də hər bir ölkə üçün özünün milli iqtisadiyyatı xarakterikdir. Milli iqtisadiyyatın vəzifəsini millətin məhsuldar qüvvələrinin inkişafı üçün ən əlverişli şərait yaratmaqda görür. O, məhsuldar qüvvələrin inkişafı nəzəriyyəsini yaradır. Məhsuldar qüvvələrə dövlətin fəaliyyətini, dini, mənəviyyatı, əxlaqı və s. aid edir. Millətin rifahı klassik məktəbin göstərdiyi kimi yaradılan əmtəə sərvətinin kəmiyyəti ilə deyil, məhsuldar qüvvələrin inkişaf dərəcəsi ilə müəyyən olunur. Sərvət yaratmaq qabiliyyəti sərvətin özündən son dərəcədə mühüm hesab edilir. Həlledici məhsuldar qüvvə – zavod sənayesidir. Əgər klassik məktəbin nümayəndələri yalnız maddi istehsaldakı əməyi məhsuldar saymışlarsa, List isə sərvətin yaradılmasına birbaşa və ya dolayı təsir edən istənilən əməyi məhsuldar əmək adlandırır. Ona görə də, o, məhsuldar qüvvələrə milli təhsil sistemi və elm kimi dövlət institutlarını, dini, mətbuatı və əxlaqi qaydaları da daxil etmişdir.

F.List ingilis klassik məktəbini kosmonolizmə görə tənqid edir. Sonuncuda o, bütün ölkələr və xalqlar üçün bərabər faydalı olan universal iqtisadi konsepsiyaların yaradılması cəhdini görür. Listin baxışları «Milli siyasi iqtisad sistemi» (1841) adlı əsas əsərində verilmişdir. List öz diqqətini iqtisadi siyasət məsələləri üzərində, xüsusən də xarici ticarət məsələləri üzərində cəm-

---

[1] Sitat buradan: A.Аникин Елмин кәнчлији. Бакы, 1987, səh. 351 götürülmüşdür.



downloaded from KitabYurdu.org

ləşdirmişdi. O, iqtisad elmini iqtisadi siyasət kimi şərh etmişdi. Bu əsər Almaniyanın iqtisadi inkişafı və ticarət siyasəti problemləri ətrafında gedən qaynar mübahisələrdə mühüm rol oynamış və alman iqtisadi fikrinə ciddi təsir göstərmişdir.

F.List Almaniyanın birləşdirilməsi və sənayeləşdirilməsi uğrunda mübarizə aparmışdır. O, Almaniyanın coşqun inkişafının və birləşdirilməsinin yolunu sənayenin inkişafında görürdü. O, təkcə kənd təsərrüfatı ilə məşğul olan milləti yalnız bir əli olan adama bənzədirdi. Sənayenin inkişafını List tərbiyəvi proteksionalizmin – milli sənayeni xarici rəqabətdən hələ müstəqillik əldə edənə və xaricilərlə «bərabər səviyyədə» rəqabət apara bilənə qədər müdafiə edən dövlət tədbirləri sisteminin köməyilə sürətləndirməyi təklif edirdi. O yazır ki, bir qayda kimi bunu irəli sürmək olar ki, millət nə qədər çox xammal idxal edərsə və nə qədər çox tropik qurşaq məhsulları istehlak edərsə, bir o qədər varlı və qüdrətli olar.

Listdə proteksionalizm sənaye üçün qanunidir. Onu o, kənd təsərrüfatına şamil etməməyi göstərir. Aqrar sektorun himayəçiliyi yalnız xammalın və ərzağın bahalaşmasına gətirib çıxarar ki, bu da ölkə sənayesinə xələl gətirə bilər.

F.List formasiya yanaşmasını inkar edən və sahə prinsipinə əsaslanan iqtisadi inkişafın mərhələləri haqqında təlim yaratmışdı. O, milli iqtisadiyyatın yüksələn inkişafını 5 mərhələyə bölmüşdü: vəhşilik, çobançılıq, əkinçilik, əkinçilik-manufaktura və əkinçilik-manufaktura-ticarət. Sonuncu yüksək mərhələyə çatmaq dövlət himayəçiliyini, «tərbiyəvi proteksionalizm»i, yəni millətin sənaye tərbiyəsini tələb edir. Bu cür tərbiyənin məqsədi vahid milli bazarı yaratmaqdır, daxili maneələri aradan qaldırmaqdır, eyni zamanda milli iqtisadiyyatı digər ölkələrin çox inkişaf etmiş, çox güclü məhsuldar qüvvələrinin təsirindən müdafiə etməkdir.

Alman tarixi məktəbinin inkişafı 3 mərhələni əhatə edir. Birinci mərhələ «Köhnə tarixi məktəb» adlanır və bu XIX əsrin 40-60-cı illərini əhatə edir. «Yeni tarixi məktəb» adlanan ikinci mərhələ XIX əsrin 70-90-cı illərini əhatə edir. Üçüncü mərhələ XIX əsrin



downloaded from KitabYurdu.org

90-cı illərini və XX əsrin birinci 30 illiyini əhatə edir və «Ən yeni tarixi məktəb» adlanır.

«Köhnə tarixi məktəb»in əsas nümayəndələri **V.Roşer** (1817-1894), **B.Gildebrand** (1812-1878) və **K.Knis** (1821-1898) olmuşlar. Bunlar alman tarixi məktəbinin yaradıcıları olmaqla, iqtisadi fikrin sosial-tarixi istiqamətinin əsas metodoloji müddəalarının yaradılmasında onların böyük xidməti olmuşdur. Tarixi metodun əsas müddəalarını V.Roşer «Tarixi metod nöqteyi-nəzərindən siyasi iqtisad oçerki» (1843) əsərində şərh etmişdi. O, sinfi mübarizəni deyil, yalnız cəmiyyətin təkamül inkişaf yolunu məqbul saymış, inqilabi dəyişiklikləri böyük bədbəxtliklə və çox vaxtı xalqın həyatında öldürücü xəstəliklə müqayisə etmişdir. O, milli xüsusiyyətləri mütləq prinsip səviyyəsinə qaldırmışdı. V.Roşer göstərir ki, ölkənin təbii fərqi, ayrı-ayrı ölkələrin onların qabiliyyətlərində, adətlərində, inkişaf səviyyələrində və qərarlaşmış siyasi institutlarda təzahür edən xüsusiyyətləri müxtəlif millətlərdə eyni tip təsərrüfat sistemlərinin mövcudluğu imkanını istisna edir. Bütün dünya üçün ümumi iqtisadi nəzəriyyə ola bilməz. Eyni ilə bir ölçüdə paltar tikilmədiyi kimi, «xalqlar üçün bir iqtisadi ideal ola bilməz» ifadəsi ona məxsusdur. V.Roşer əmək-dəyər nəzəriyyəsini qəbul etmir, əmtəənin dəyərini onun faydalılığı ilə eyniləşdirir. Roşer istehsal amillərinin Sey konsepsiyasını qəbul edir, onu mənfəətin mənbəyi kimi kapitalistin imtinası haqqında H.Seniorun ideyası ilə birləşdirir. Bununla yanaşı, o, istehsal amilləri nəzəriyyəsinə tarixi yanaşmanı tətbiq edir: milli iqtisadiyyat inkişaf etdikcə, həlledici rol bir amildən digərinə; torpaqdan əməyə, əməkdən də kapitala keçir.

B.Gildebrand klassik məktəbi daha kəskin və müntəzəm surətdə tənqid etmiş və tarixi metodu daha təkidlə tətbiq etmişdir. Onun əsas əsəri «İndinin və gələcəyin milli iqtisadı» (1848) olmuşdur. O da əmək-dəyər nəzəriyyəsini inkar və elmi abstraksiya metodundan imtina etmişdir. Hesab edir ki, əmək-dəyər nəzəriyyəsi kapitalistləri istismarda günahlandırılması üçün əsas verir. O, klassiklərin abstrakt metoduna qarşı empirik tədqiqatı,



downloaded from KitabYurdu.org

statistik və tarixi informasiyaların yığımını qoymuşdu. O, marksist ideyalara da qarşı çıxır. Gildebrand F.Engelsin yalnız gənc vaxtlarında yazmış olduğu «Siyasi iqtisadın tənqidinə dair əlyazmalar» və «İngiltərədə fəhlə sinfinin vəziyyəti» əsərlərinə əsasən sosialist ideyalarının təcrübədə həyata keçirilməsi sivilizasiyanın sonu demək olardı fikrini söyləmişdir.

Gildebrand Seyin mənfəətin sahibkarların ən yüksək əmək haqqı olması fikrinə şərik çıxmış və həmçinin qeyd edir ki, sahibkarlar və muzdlu işçilər arasında fabrikant və fəhlə arasında fərq həmişə mövcud olmuşdur. Eyni ilə də xüsusi mülkiyyəti daimi hesab etmişdir və onun «insan ruhunun inkişafının güclü hərəkətverici qüvvəsi» olduğunu və cəmiyyətin sahibkarlara və fəhlələrə bölgüsünün «Xalqların iqtisadi inkişafının zəruri vasitəsi»[1] olmasını sübut etməyə çalışmışdı. O, klassik məktəbi öz tədqiqatlarını yalnız ictimai həyatın digər sferalarını nəzərə almayaraq, yalnız bir iqtisadi hadisələr sahəsi ilə məhdudlaşdırdığına görə ittiham etmişdir. B.Gildebrand yazır: Siyasi iqtisad «insan eqoizminin adi təlimi yox, ancaq əxlaqi elm olmalıdır».[2] Digər tarixçilər kimi o, istəyir ki, iqtisad elminin mərkəzinə özünün mürəkkəb psixikası və əxlaqı ilə, milli və tarixi cəhətləri ilə birlikdə konkret insan qoyulsun.

B.Gildebrand mübadilə üsulunu əsas götürməklə cəmiyyətin iqtisadi inkişafının üç mərhələli: natural təsərrüfatı, pul təsərrüfatı, kredit təsərrüfatı sxemini vermişdir. Birinci mərhələdə məhsulların mübadiləsi ya yoxdur, ya da o pulsuz həyata keçirilir. İkinci mərhələdə pul mübadilənin zəruri vasitəçisi olur. Üçüncü – kredit təsərrüfatında pul mübadilədə vasitəçi rolunu oynamır. Burada mübadilə pulun iştirakı olmadan, kredit əsasında baş verir. Kredit təsərrüfatı təsərrüfatın yüksək tipidir, çünki burada fəal insanlar üçün bütün imkanlar açılır, hətta kapitala malik olmadan onlar kredit sayəsində sahibkar ola bilərlər.

---

[1] Гильдебранд Б. Политическая экономия настоящего и будущего. Стр. 79-81; 201, 213

[2] Yenə orada. Səh. 21-22, 213, 227



downloaded from KitabYurdu.org

Ümumi iqtisadi qanunların inkar olunmasında K.Knis daha fəal olmuşdur. Onun «Tarixi metod nöqteyi-nəzərindən siyasi iqtisad» əsəri 1853-cü ildə çap olunmuşdur. O, iqtisadi nəzəriyyələrin mövcud olmaq imkanının özünü qəbul etmir. K.Knis xüsusi iqtisadi qanunların fəaliyyət göstərmədiyini, həmişə və hər yerdə yalnız təbii qanunların olduğunu qeyd edir.

İqtisadi qanunların mövcudluğunu inkar etməklə, o, faktiki iqtisad elmini də inkar etmiş olur. O göstərir ki, elm yalnız öyrənilən hadisələrin tez-tez təkrar baş verdiyi yerdə mövcuddur. Xalqların iqtisadi inkişaf yolları o dərəcədə spesifikdir ki, təkrarlanma haqqında söz gedə bilməz. O hesab edir ki, siyasi iqtisad yalnız təsvir edə bilir və nəzəri ümumiləşdirmələr vermək imkanında deyil. K.Knis statistikanı və tarixi təsviri iqtisadi hadisələrin dərk olunmasının vasitələri hesab edir. İqtisadi hadisələr prinsip etibarı ilə idrakla başa düşülən deyil. Yalnız onların əmələ gəlməsini və inkişafını təsvir etmək və onlara əxlaqi qiymət vermək mümkündür. Müxtəlif xalqların iqtisadi təkamülündə ümumi qanunlar tapmaq olmaz, ən yaxşı halda oxşarlıqlar haqqında danışmaq mümkündür. Bütün bunları K.Knis demişdir.

Alman tarixi məktəbinin II mərhələsinin-«Yeni tarixi məktəb»in əsas nümayəndələri **Q.Şmoller** (1838-1917), **L.Brentano** (1844-1931) və **K.Büxer** (1847-1930) olmuşdur. Yeni tarixi məktəbin yaradıcısı, Berlin Universitetinin professoru Qustav Şmoller iqtisadçıların sağ, açıq mühafizəkar qanadına rəhbərlik etmişdir. Onun əsas əsəri «Xalq təsərrüfatı haqqında ümumi təlimin əsasları» (1900-1904) olmuşdur. Şmoller köhnə tarixi məktəbin nümayəndələrinin – V.Roşerin və B.Gildebrandın əsas prinsiplərini və metodunu irsən almışdır. O, əsas gücünü Marksizmə qarşı yönəltmişdir, siyasi iqtisaddan sosial, sinfi problemləri çıxartmağa və onu xalq təsərrüfat tarixi ilə əvəz etməyə cəhd göstərmişdir. İqtisadi nəzəriyyənin əhəmiyyətini qəbul etməyərək, siyasi iqtisadın nəzəri xarakterini inkar edərək o, onun vəzifəsini faktiki və statistik materialları öyrənmək, xalq təsərrüfatı hadisələrinin təsvirini vermək hesab edir. Beləliklə, o, köhnə tarixi məktəb kimi tədqiqatın abstrakt metodundan imtina edir,



downloaded from KitabYurdu.org

elmi iqtisadi təhlilin imkanlarını və tarixi materialların ümumiləşdirilməsi zərurətini inkar edir, empirizmi tətbiq edir. O, inadla göstərir ki, abstrakt fikir iqtisad elminin səmərəli inkişafı üçün yollar açmır, bu yüksək məqsədə yalnız təsviri materialın, tarixi faktların və statistik materialların dəqiq istifadəsi əsasında çatmaq mümkündür. O qeyd edir ki, Marksın ümumiləşdirməsi özlüyündə abstrakt anlayışdan və ümumi tarixi-fəlsəfi xəyallardan artıq təsəvvür yaratmır. Q.Şmoller istehsalın üstünlüyü fikrini inkar edir, cəmiyyətin tarixi inkişafına və iqtisadi kateqoriyalara psixoloji və etik baxımdan yanaşmışdır və iqtisadiyyatda etik-hüquqi amilləri həlledici saymışdır. İqtisadi kateqoriyaları həm də etik-psixoloji kateqoriya, iqtisad elmini isə mənəvi-əxlaqi elm adlandırmışdı. İqtisadi hadisələri və iqtisadi kateqoriyaları idealistcəsinə şərh etmişdir. O, təsərrüfat həyatını iqtisadi-etik və psixoloji amillərin sıx qarşılıqlı əlaqəsi kontekstindən izah etməyə cəhd göstərmişdir. O, təsərrüfat həyatının təkcə təbii və texniki deyil və həm də əxlaqi amillərlə müəyyən olunduğunu qeyd etmişdi. Onun fikrincə, sərt adətlərsiz bazar, pul mübadiləsi, əmək bölgüsü, dövlət yoxdur. Şmoller göstərir ki, cəmiyyətdə psixoloji hadisələr həlledici rol oynayır. Belə ki, «təsərrüfat mədəniyyətləri dünyası» öz meydana gəlməsilə duyğu, maraqlar və məqsədlər formasında təzahür edən «insanların mənəvi qüvvəsi»nə borcludur.

Şmoller Roşeri və Gildebrandı konkret təsərrüfatların tarixinə diqqət yetirmədiklərinə və ümumi tarixə həddindən artıq diqqət verdiklərinə görə tənqid etmişdir. O qeyd edir ki, hər şeydən əvvəl, bütün xalq təsərrüfatını və yaxud dünya təsərrüfatını deyil, ayrı-ayrı təsərrüfat institutlarının əmələ gəlməsini izah etmək xüsusən vacibdir. O da ənənəvi olaraq, sinfi mübarizəni və inqilabi dəyişiklikləri məqbul saymır. Təsərrüfat həyatında həlledici rolu dövlətə verir. Hesab edir ki, yalnız güclü milli dövlət sinfi ziddiyyəti aradan qaldıra və iqtisadiyyatın inkişafını təmin edə bilir. İqtisadi həyatın dövlət-hüquqi tənzimlənməsini bir bütöv kimi xalq təsərrüfatının özünün mövcudluğunun zəruri şərti hesab edir.



downloaded from KitabYurdu.org

Yeni tarixi məktəbin liberal islahatçı qanadının başçısı **Lu-io Brentano** olmuşdur. Onun əsas əsərləri «Klassik siyasi iqtisad» (1888) və «Tarixdə əxlaq və xalq təsərrüfatı» (1894) olmuşdur. O da Şmoller kimi iqtisadiyyatda həlledici rolu əxlaq və hüquqi amillərə vermiş, istehsalı inkar etmişdir. O, təsərrüfat həyatında istehsal formalarında satış və mübadilə şərtlərini həlledici hesab etmişdir. O, klassik məktəbin abstrakt-deduktiv metoduna qarşı çıxmış, nəzəri siyasi iqtisadın vəzifəsini iqtisadi hadisələrin bila-vasitə müşahidəsində, faktların təsvirini verməkdə görmüşdür. Mübadilə konsepsiyasının nümayəndəsi kimi merkantilist məktəbini üstün tutmuşdur. İqtisadi həyata dövlətin müdaxiləsini və dövlət mülkiyyətini məqbul saymışdır. Dövlət mülkiyyətində olan istənilən müəssisələri sosialist kimi qələmə verir və mülkiyyətin dövlətləşdirilməsini «dövlət sosializmi» adlandırır. F.Engels isə bu cür sosializmi xüsusi növ saxta sosializm adlandırmışdır.

Brentano liberal islahatçı kimi əməyə, əmək haqqına, iş gününün azaldılmasına, həmkarlar hərəkatinin tam azadlığına xüsusi diqqət vermişdir. O, əməyi xüsusi növ əmtəə hesab edib göstərir ki, onun sahibi əməyi satmağı təxirə sala bilməz, o hər yerdə sahibkara satılan əməyin dalınca getməlidir və ona görə də çox vaxtı əlverişsiz satış şərtinə razılaşmağa məcburdur. Fəhlə üçün olan bu əlverişsiz vəziyyət ancaq, əgər sahibkarlara qarşı ayrı-ayrı fəhlələr deyil, ingilis tred-yunonizm (həmkarlar ittifaqı) kimi həmkarlar ittifaqı dursa aradan qaldırırlar, iş gününün aşağı salınması kimi, əmək haqqının yüksəldilməsi təkcə işçilərə deyil və həm də sahibkarlara əlverişlidir. Çünki bununla əmək məhsuldarlığının artımı üçün, nəticədə isə istehsalın gəlirliyinin artması üçün şərait yaranır. Aşağı əmək haqqı əl əməyinin maşınla əvəz olunması üçün stimullar vermir. Bu da əmtəələrin ucuzlaşmasına və onların rəqabət qabiliyyətinin yüksəldilməsinə mane olur.

Brentano xırda kəndli təsərrüfatının sabitliyini həddindən artıq tərifləyir və təbliğ edir. Hesab edir ki, iri təsərrüfatın yalnız taxıl istehsalında bəzi üstünlükləri var, digər sahələrdə isə xırda təsərrüfat əlverişli və perspektivlidir. O, həm də «torpağın münbitliyinin



downloaded from KitabYurdu.org

azalması qanununu» müdafiə etmişdir. O qeyd edir ki, bu qanun mütləqdir, istinasız fəaliyyət göstərir və kənd təsərrüfatı fəaliyyətinin istənilən növü üçün qüvvəyə malikdir.

Brentano inhisarçı birlikləri iqtisadi böhranların aradan qaldırılmasının praktiki vasitəsi hesab edir. Onun fikrincə, kartellər istehsalçılar tərəfindən təklifi tələbə planauyğun olaraq uyğunlaşdırmaq üçün yaradılır ki, ifrat istehsal, ondan doğan bütün nəticələrin qarşısı alınsın.

K.Büxer də təsərrüfatın inkişaf tarixini dövrləşdirdikdə mübadilə konsepsiyasına, maddi istehsal sferasında baş verən dəyişikliklərə deyil, mübadilə sferasında baş verən dəyişikliklərə əsaslandırmışdır. O, dövrləşmənin əsasına mübadilədəki fərqləri, daha doğrusu, istehsalçılarla istehlakçılar arasındakı məsafənin uzunluğunu qoymuşdur. Bu əsasdan o, bəşəriyyətin iqtisadi inkişafını 3 mərhələyə bölmüşdü. Birinci mərhələni ev və yaxud qapalı natural təsərrüfat adlandırmışdı. Bu məhsullar mübadilə üçün yox, öz tələbatlarını ödəmək üçün yaradılır. Məhsullar istehsal olunduqları yerdə də istehlak olunur. İstehsalçı ilə istehlakçı arasında məsafə sıfra bərabərdir. İkinci mərhələ şəhər təsərrüfatı adlanır. İstehsal xarici istehlakçılar üçün, bilavasitə mübadilə üçün həyata keçirilir. Bu mərhələdə istehsalçılarla istehlakçılar arasında daxili bazar çərçivəsində müəyyən məsafə olur. Üçüncü mərhələni Büxer xalq təsərrüfatı adlandırır. Bu vaxtı istehsalçılar onlar üçün məlum olmayan bazara işləyirlər, əmtəələr istehlakçılara çatana qədər bir sıra təsərrüfatdan keçir. İstehsalçılarla istehlakçılar arasında məsafə olduqca böyük olur. Xalq təsərrüfatında pul kapitalının fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. O, borc kapitalının bütün artan rolunu görmüşdü. Büxerə görə, sahibkarlar torpaq mülkiyyətçiləri, ticarətçilər və fəhlələr bərabər dərəcədə borc kapitalının hakimiyyəti altına düşür.

Tarixi məktəbin təkamülü siyasi iqtisadda yeni bir istiqamətin – sosial istiqamətin yaranmasına gətirib çıxartmışdır. Bu onun inkişafının III mərhələsində baş verdi. «Ən yeni tarixi məktəb» adlanan bu III mərhələnin nümayəndələri **B.Zombart** (1863-1941), **R.Ştolsman** (1852-1930), **R.Ştammler** (1856-1938), **A.Amon**



downloaded from KitabYurdu.org

və **F.Petri** olmuşlar. Bunlar yeni tarixi məktəbin irsini davam etdirmişlər.

Sosial məktəb iqtisadi hadisələrin təhlilinin hüquqi və sosial aspektlərinə xüsusi diqqət vermişlər. Əxlaqi və hüquqi normalara cəmiyyətin iqtisadi həyatını, onun inkişafını müəyyən edən mühüm amil kimi baxmışlar. Sosial məktəb vahid bir istiqamət deyil, özündə institusional yönümlü müxtəlif istiqamətləri birləşdirir. Müxtəlif istiqamətləri sosial məktəbdə birləşdirən metodologiyanın ümumiliyidir, ictimai hadisələrə sosioloji yanaşmadır. Sosial yanaşma ən yeni tarixi məktəbin metodologiyasını yeni tarixi məktəbdən fərqləndirən cəhətdir.

Sosial məktəbin bütün istiqamətləri sosial anlayışı hüquqi və ya əxlaqi kimi şərh etmişlər. Nizamlama da sosial əlamət kimi verilir. Sosial məktəbin nümayəndələri yeni tarixi məktəbdən fərqli olaraq iqtisadi nəzəriyyənin əhəmiyyətini inkar etməmişlər, lakin onlar, əsasında əxlaqi-hüquqi amillər duran iqtisadi nəzəriyyələr yaratmışlar.

Sosial istiqamətin metodologiyasının mühüm cəhəti onun nümayəndələri tərəfindən iqtisadi qanunların inkar edilməsidir və onların konsepsiyaları bütövlükdə marksizmi, onun iqtisadi nəzəriyyələrini təkzib etmək olmuşdur. Sosial məktəbin nümayəndələri istehsalın üç amili və faydalılıq həddi nəzəriyyəsinə tərəfdar çıxmışlar. Bu cür hallar yeni alman tarixi məktəbi ilə sıx əlaqəsi olan, Alman imperializminin və faşist rejiminin ideoloqu olan V.Zombartın konsepsiyalarında da öz əksini tapmışdır. Zombart Şmollerin şagirdi olmuş və tarixi məktəbin metodologiyasına tərəfdar olmuşdur. Lakin o, Şmollerdən fərqli olaraq ifrat empirizm tərəfdarı olmamışdır. Onun çoxlu əsərləri olmuşdur: «Sosializm və XIX əsrin sosial hərəkatı» (1897), «Müasir kapitalizm» (1902), «Təsərrüfat həyatının quruluşu» (1926), «Alman sosializmi» (1934) və s.

Özünün Marksa yaxın olmasını və onu Şmollerdən K.Marks ayırdığını bəyan etməsinə baxmayaraq, o, marksizmi bayağılaşdıRaraq təhrif etmişdir və ondankı inqilabiliyi aradan qaldırmağa çalışmışdır. Marksizmin inqilabi məzmununu Mark-



downloaded from KitabYurdu.org

sın parlaq elmi fikirlərini dumanlandırmağını qeyd etmişdir. O, ictimai inkişafın obyektiv qanunlarını inkar etmişdir və bütün ictimai hadisələri idealist mövqedən şərh etmişdir. Tarixi inkişafın ilk əsası kimi Zombart «pulun» hərəkətini qəbul edir və sonuncunun maddi dünya hadisəsini müəyyən etdiyini qeyd edir. Zombart Marksın iqtisadi nəzəriyyələrini boş abstraksiyaya çevirməklə, onları real məzmundan məhrum etmişdir. Belə ki, əmək-dəyər nəzəriyyəsini «fəhlə ideyası» adlandırmış, izafi dəyəri yalnız nəzəri simvol, abstraksiya, təhlil üçün əlverişli hesab etmişdir. Bununla o, izafi dəyərin mənbəyinin fəhlələrin istismarı olması fikrini inkar etmiş olur. O, istehsalın üç amilli nəzəriyyəsinin tərəfdarı olmuşdur. Zombart antoqonist ziddiyyətləri, iqtisadi böhranların labüdlüyünü inkar etmiş, kapitalizmi səhmanlı, planauyğun inkişaf edən təsərrüfat kimi təsvir etmişdir. O, inadla marksist təliminin metodoloji əsası olan ictimai-iqtisadi formasiya haqqında təlimi, kapitalizmin sosializmlə əvəz olunması fikrini inkar etmişdir. Əvəzində özünün «sosial plüralizm» konsepsiyasını yaratmışdır. Bu konsepsiyaya görə, cəmiyyətin inkişafı sosializmə deyil, çoxlu köhnə və yeni təsərrüfat formalarını özündə birləşdirən daha mürəkkəb iqtisadi sistemə gedir. O göstərir ki, gələcəkdə kapitalizmdə kooperativ təsərrüfat, ictimai təsərrüfat, sənət və kəndli təsərrüfatı yanaşı mövcud olacaqdır. Kooperativ və ictimai təsərrüfatı sosialist forma adlandırmışdır.



downloaded from KitabYurdu.org

# XIII FƏSİL. MARKSİST ELMİ SİSTEM VƏ METODOLOGİYA

Marksizmin banisi, klassik iqtisadçı olan Karl Marksın iqtisadi nəzəriyyələri ümumdünya iqtisadi fikrinin mühüm tərkib hissəsidir. Marksizm bütövlükdə cəmiyyət haqqında elmdir. Marksizm bütün ictimai elmləri əhatə edən cəmiyyəti, onun bütün aspektlərində izah edən elmi sistemdir. Marksizmin tədqiqatının predmeti kapitalizmin inkişaf qanunları olmuş və marksizmdə bu qanunlar sistem halında öyrənilmişdir. Marksın iqtisadi nəzəriyyələri özünün qeyd etdiyi kimi, onun fəlsəfə, sosiologiya və politologiya sahəsindəki araşdırmaları ilə müqayisədə ilkin və əsas olmuşdur. O, iqtisadi həyatın əsas sferalarının dialektik qarşılıqlı əlaqələrini açmış və iqtisadi həyatın yaxından müşahidəsinə əsaslanan empirik ümumiləşdirmələrini vermişdir. *Marksist elmi sistemin mahiyyəti makroiqtisadi münasibətləri, xüsusən də gəlirin mülkiyyət sahibləri və muzdlu işçilər arasında bölüşdürülməsini öyrənmək olmuşdur.*

Marksist iqtisadi nəzəriyyə klassik ingilis siyasi iqtisadı ilə genetik əlaqədə olmuş və Marks özünə Rikardonun intelletkual varisi kimi baxmışdır. Marksist iqtisadi nəzəriyyə **F.Engelsin** (1820-1895) bilavasitə iştirakı ilə **K.Marks** (1818-1883) tərəfindən yaradılmışdır. Bu nəzəriyyə Marksın çox cildli "Kapital" əsərində şərh olunmuşdur. "Kapitalın" I cildi 1867-ci ildə Marksın sağlığında nəşr olunmuşdur. II və III cildlər Marksın ölümündən sonra Engels tərəfindən (1885 və 1894) hazırlanıb çap etdirilmişdir. "İzafi dəyər nəzəriyyəsi" adı altında əlyazması şəklində olan IV cild Engelsin şagirdi K.Kaytski tərəfindən nəşr edilmişdir. İqtisadi nəzəriyyənin problemlərinə toxunan F.Engelsin əsərləri içərisində "Anti-Dürinq" əsəri xüsusi yer tutur.

Marksist iqtisad elmi klassik məktəbin davamı və kapitalizmin tənqidi tarixi kimi yaranmasına baxmayaraq, onun iqtisadi hadisə və prosseslərə dialektik materialistcəsinə yanaşma qaydası ictimai elmlərin metodologiyasını zənginləşdirməklə yanaşı, marksizm həm də məntiqi əsaslandırılmış, alternativ



downloaded from KitabYurdu.org

iqtisadi nəzəriyyə və məntiqi istiqamətdir. Marksın siyasi baxışları, onun elmi təhlilinə – kapitalizmin tənqidinə kömək etmişdir.

Marksın əsərlərində onun tərəfindən kəşf olunmuş qanunlar əsasında ilk dəfə olaraq ictimai quruluşun mühüm tərkib elementləri, onların qarşılıqlı fəaliyyəti dərin təhlil edilmişdir; insanların istehsal münasibətləri məhsuldar qüvvələrdən dəqiq ayrılmış və ictimai münasibətlər sistemində iqtisadi münasibətlərin yeri və rolu müəyyən edilmişdir. *Marksizm bəşər cəmiyyətinin yaranmasını, onun mövcudluğunu və inkişafını ictimai maddi istehsalla şərtləndirir. Marks tərəfindən iqtisadi hadisələrin, o cümlədən iqtisadi qanunların materialist dialektik şərhi verilmişdir. Onun xidmətlərindən biri tarixin materialistcəsinə şərh edilməsidir. Onun tərəfindən sosial-iqtisadi inkişaf materialistcəsinə izah edilmişdir. Cəmiyyətin inkişafına obyektin qanunlarla tənzimlənən təbii tarixi proses kimi yanaşılmışdır.*

Marks tarixi proseslərin əsasında maddi istehsalın inkişafının durduğunu açıb göstərə bilmişdir. O, cəmiyyətin sinfi quruluşu, siniflərin qarşılıqlı münasibəti, onların ideyaları və siyasi qurumlarının son nəticədə maddi istehsalın inkişafı ilə müəyyən olunduğunu göstərmişdir. Onun tərəfindən həyat üçün zəruri olan maddi vasitələr istehsalının əsası olduğu, dövlət qurumlarının, hüquqi baxışların, incəsənətin və hətta insanların dini təsəvvürlərinin bu əsasdan inkişaf etdiyi qeyd olunmuşdur. Bunları nəzərə alaraq, F.Engels K.Marksın bəşər tarixinin inkişafının əsas mühüm qanunun, daha doğrusu, ictimai inkişafın qanunauyğunluğunu kəşf etdiyini söyləmişdir.

K.Marks elmi abstraksiya metoduna əsaslanaraq bütün ictimai münasibətlərdən insanların iqtisadi istehsal münasibətlərini bütün sosial münasibətlər sistemini müəyyən edən əsas kimi ayırmışdır. O, bu münasibətlərin ictimai təbiətini açmış və göstərmişdir ki, insanlar cəmiyyətdən kənar istehsal edə bilməzlər, istehsal ictimai xarakterə malik olduğundan insanlar müəyyən iqtisadi münasibətlərə, onlar bunu istəsələr də, istəməsələr də girməyə məcburdular. Marks göstərir ki, istehsal münasibətləri məhsuldar qüvvələrin inkişafına böyük təsir



downloaded from KitabYurdu.org

göstərir və ictimai üstqurumun xarakterini müəyyən edir. İstehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi strukturunu, real bazisini təşkil edir, hüquqi və siyasi üstqurum onun üzərində yüksəlir. *İlk dəfə olaraq Marks tərəfindən məhsuldar qüvvələrin səviyyəsindən asılı olan istehsal münasibətləri elm kimi siyasi iqtisadın predmeti elan olunmuşdur.*

Marks istehsal münasibətlərinin məhsuldar qüvvələrin inkişafının xarakterinə və səviyyəsinə uyğunluğu qanununu formalaşdırır və bunu cəmiyyətin istehsal münasibətlərinin bütün sistemlərinin inkişafının ümumi qanunu adlandırır. Məhsuldar qüvvələrlə istehsal münasibətlərinin vəhdətini istehsal üsulu adlandırır. O, bölgüyə, mübadiləyə və istehlaka nisbətən maddi nemətlər istehsalının mühüm rol oynadığını qeyd edir. İqtisadiyyatın bütün sferala-rında yaranan iqtisadi münasibətlərə bütövlükdə siyasi iqtisadın predmeti kimi baxır.

Marks müəyyən edir ki, insanların iqtisadi istehsal münasibətləri cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf səviyyəsindən asılıdır, onun dəyişməsi ilə bütün istehsal münasibətləri sistemi dəyişir. Beləliklə, Marks sübut edir ki, iqtisadi münasibətlər sisteminin digəri ilə əvəz olunması ictimai iqtisadi inkişafın obyektiv qanunauyğunluğudur; bir ictimai-iqtisadi formasiyanın digəri ilə əvəz olunması qanunauyğunluqdur.

Marksın istehsal münasibətlərinin təhlilinə tarixi cəhətdən yanaşması, ona imkan vermişdi ki, marksist təlimin metodoloji əsası olan ictimai-iqtisadi formasiya haqqında təlimi və geniş mənada siyasi iqtisadı yarada bilsin. Formasiya yanaşması cəmiyyəti tarixi inkişafında qanunauyğun olan mərhələləri açmağa və maddi istehsalın beş ibtidai-icma, quldarlıq, feodalizm, kapitalizm və kommunizm üsulunu ayırmağa və geniş mənada siyasi iqtisadı bütün ictimai-iqtisadi formasiyaları inkişaf halında öyrənən elm kimi şərh etməyə imkan vermişdir.

Marks özündən əvvəlki iqtisadi fikirdən fərqli olaraq iqtisadi qanunların təbiətini açmış, onları təbiət qanunlarından fərqləndirmiş və onların tarixi xarakterini müəyyən etmişdi. *Marksizm göstərir ki, iqtisadi qanunlar bəşəriyyətin daimi qanunları deyil, insanların ictimai istehsal münasibətlərinin*



downloaded from KitabYurdu.org

*qanunlarıdır, bu münasibətləri tənzimləyən daxili, obyektiv səbəb-nəticə əlaqələridir.*

K.Marksın mühüm xidmətlərindən biri də onun tərəfindən istehsal münasibətlərinin təzahür formasının təhlil edilməsidir. Marks müəyyən edir ki, burjua cəmiyyətinin istehsal münasibətləri bu münasibətlərin həqiqi məzmununu pərdələyən əmtəə-fetişist xarakter daşıyır. O, yeganə iqtisadçıdır ki, öz tədqiqatlarında insanların istehsal münasibətləri ilə onların əşya aldadıcı formaları arasında dəqiq fərq qoyub. Terminin özü kimi əmtəə-fetişist konsepsiyası bütövlükdə K.Marksa məxsusdur. Əmtəə fetişizminin mahiyyəti – insanlar arasındakı münasibətlərin maddiləşməsidir, əşya-əmtəələrin insanlar üzərində hökmranlığıdır. Belə çıxır ki, əmək məhsullarının hərəkətini insanlar idarə etmir, əksinə əmtəə forması almış, əmək məhsulları insanın taleyini idarə edir. Buna səbəb əmtəə isteh-salçılarının rifahının bazarda əmtəələrin hərəkətindən, yəni onların yüksək və ya aşağı qiymətə satılıb-satılmamasından asılı olmasıdır.

Marks əmtəənin fetişist sirlərini açmaqla yanaşı, zahiri olan əşya formalarının təhlilini də vermişdir. Əmtəə fetişizminin sirlərinin açılması metodoloji nöqteyi-nəzərdən kapitalist istehsal üsulunun tədqiqində olduqca əhəmiyyətli olmuşdur. Belə ki, kapitalizm iqtisadi inkişaf qanunlarının kəşfində əmtəə fetişizminin sirlərinin açılması mühüm əhəmiyyət kəsb etmişdir. Bu sirrin açılmasında isə əməyin ikili xarakteri haqqında təlim çıxış nöqtəsi olmuşdu. Marks müəyyən edir ki, kapitalizmdə istehsal münasibətləri maddiləşir, əşyalara olan münasibətdə ifadə olunur. K.Marks yazır ki, əmtəə istehsalının bu fetişlik xarakteri əmtəə istehsal edən əməyin spesifik ictimai xarakterindən irəli gəlir.[1]

Marks tarixi materializmin şüurda əksi olan və bütün ictimai-iqtisadi formasiyaların tədqiqinin ümumi metodu olan tarixilik və məntiqilik metoduna əsaslanaraq kapitalist münasibətlərinin tarixi əsasını əmtəə münasibətləri təşkil etdiyindən və kapitalizmin özünün tarixinin əmtəədən başladığına görə, o,

---

[1] К.Маркс Капитал. I чилд. Б., 1969 . səh. 83



downloaded from KitabYurdu.org

kapitalist istehsal üsulunun təhlilinə əmtəə istehsalından başlamışdır.

Kapitalist istehsal üsulunun marksist nəzəriyyəsində əmək-dəyər nəzəriyyəsi xüsusi yer tutur. Əmək-dəyər nəzəriyyəsinin əsasları klassik məktəbin nümayəndələri tərəfindən yaradılsa da, Marks onu inkişaf etdirib zənginləşdirmiş, kapitalist iqtisadiyyatının tədqiqində və əmtəə münasibətlərinin qanunlarının kəşfində məntiqi qaydada tətbiq etmişdir. Marksın əmək-dəyər nəzəriyyəsi kapitalist iqtisadiyyatının qanunlarının, xüsusən də onun əsas qanunu olan izafi dəyər qanununun tədqiqinə mühüm ilkin nöqtə olmuşdur. Yalnız əmək dəyər-nəzəriyyəsi izafi dəyər nəzəriyyəsinə gətirib çıxarır. Əmək-dəyər nəzəriyyəsində əmək özünəməxsus ictimai məsrəf kimi təsəvvür olunur, yalnız o, obyektiv məsrəflərin möhkəm əsasını təşkil edir. Marksist əmək-dəyər nəzəriyyəsi göstərir ki, kapitalist əmək prosesində iştirak etmədən məcmu məhsulun bir hissəsini mənimsəyir və mənfəət qazanılması buna dəlildir. Onun əmək-dəyər nəzəriyyəsində kapitalizmdə əməyin və onun məhsulunun ikili xarakteri haqqında təlim mühüm yer tutur.

Marksın özünün də etiraf etdiyi kimi, onun ən böyük kəşfi kapitalizmin inkişaf qanunlarının açılması üçün olduqca mühüm əhəmiyyəti olmuş əmtəəni istehsal edən əməyin ikili xarakterinin onun tərəfindən izah olunmasıdır. K.Marks yazır: «Əmtəədə olan əməyin bu ikili təhlilini ilk dəfə tənqidi şəkildə mən sübut etmişəm. Bu nöqtə başlanğıc nöqtə olduğuna görə, siyasi iqtisadın başa düşülməsi ondan asılıdır».[1]

Marksa görə, əməyin ikili xarakteri onun konkret və abstrakt əmək olmasıdır. O göstərir ki, əmək bir tərəfdən faydalı kimi, əməyin faydalı forması, faydalı əmək kimi konkret, digər tərəfdən insanın fiziki və mənəvi qüvvələrinin məsrəfi kimi abstrakt əməkdir. Marks göstərir ki, abstrakt əmək əmtəə istehsalı üçün xarakterik olan insan əməyinin müəyyən tarixi formasıdır. Əməyin ikili xarakteri haqqında təlimə əsasən K.Marks ilk dəfə olaraq əmtəənin ikili təbiətə malik olmasını göstərə bilmişdir. O,

---

[1] К.Маркс Капитал. I чилд. Б 1969, səh. 52



downloaded from KitabYurdu.org

müəyyən edir ki, əmtəənin ikili təbiəti onu yaradan əməyin ikili xarakterindən irəli gəlir. Konkret əmək əməyin faydalı forması kimi əmtəənin istehlak dəyərini əmtəə istehsalına xas olan ictimai forma olan abstrakt əmək isə insanın fiziki və mənəvi qüvvələrinin məsrəfi kimi əmtəənin dəyərini yaradır. Əmək ikili xarakterə malik olduğundan, o, eyni zamanda həm əmtəənin dəyərini və həm də onun istehlak dəyərini yaradır. Beləliklə, Marks əmtəənin bir-birinə zidd olan dəyər və istehlak dəyərinin vəhdətindən ibarət olması faktını aşkar edir.

*Marks siyasi iqtisad tarixində ilk dəfə olaraq əmtəənin dəyərinin sosial mahiyyətini izah etmişdir*. O, iqtisadi kateqoriya kimi dəyəri insanlar arasında münasibət kimi müəyyən edir və göstərir ki, əmək hər cür istehsalın daimi zəruri şərtidir və o, yalnız əmtəə təsərrüfatı şəraitində ölçü funksiyasını yerinə yetirir və əmtəə istehsalçılarının mübadilə münasibətlərinin tənzimləyicisi olur. İlk dəfə olaraq dəyərin tarixi keçici istehsal münasibəti kimi şərhi verilir və onun əmtəənin istehsalına çəkilən orta, ictimai zəruri abstrakt əmək məsrəfləri ilə tənzimləndiyi göstərilir. Bununla o, dəyərin xalis ictimai xarakter daşıdığını göstərmiş olur. Marks əmtəənin istehsalına çəkilən fərdi əməklə , həmin növ əmtəə vahidinə cəmiyyətdə çəkilən orta ictimai zəruri əmək arasında fərq qoyur. Məhz sonuncu əmtəənin dəyərinin kəmiyyətini müəyyən edir.

K.Marks göstərir ki, istehsal prosesi əmtəənin dəyərinin yaradılması nöqteyi-nəzərdən ikilidir. Eyni bir istehsal prosesində eyni bir zamanda yeni dəyər yaradılır və istehsal olunan əmtəəyə istehsal vasitələrindən, onlarda maddiləşmiş keçmiş dəyər keçirilir. Əgər yeni dəyər abstrakt əmək məsrəfi ilə yaradılırsa, keçmiş dəyər yeni əmtəəyə konkret əməyin köməyi ilə keçirilir.

Beləliklə, Marks əmtəənin dəyərinin iki hissədən: yeni yaradılmış dəyərdən və keçmiş illərdən keçirilən dəyərdən ibarət olduğunu göstərir.



downloaded from KitabYurdu.org

Əməyin ikili xarakteri haqqında təlim dəyər formalarının, pulun mənşəyi, mahiyyəti və funksiyalarının öyrənilməsində mühüm ilkin şərt olmuşdur.

Marks mübadilə dəyərini dəyərin zəruri təzahür forması kimi öyrənmişdir. O qeyd edir ki, bir əmtəə öz dəyərinin zahiri təzahürünü digər əmtəənin istehlak dəyərində ifadə etdikdə, o, eyni zamanda bu əmtəəyə xüsusi bir dəyər forması - ekvivalent forma verir, istehlak dəyəri dəyərin təzahür forması olur. Dəyərin ekvivalent formasının sirli xüsusiyyəti ondan ibarətdir ki, burada konkret əmək abstrakt əməyin təzahür forması olur. Bu cür fikir sadədən pul formasına qədər dəyərin tarixi inkişaf formalarının öyrənilməsində həlledici olmuşdur. K.Marks göstərir ki, pul abstrakt əməyin maddiləşməsidir.

Marksizmdə maraq doğuran təlimlərdən biri də istehsal qiyməti haqqında təlimdir. Marksizm göstərir ki, kapitalist istehsalının, sahələrarası rəqabətin, nəqliyyat vasitələrinin, kredit sisteminin inkişafı ilə əmtəələrin bazar qiymətləri əsasında duran əmtəənin dəyəri istehsal xərcləri, üstəgəl (+) orta mənfəətə bərabər olan istehsal qiyməti ilə tənzimlənməyə başlayır. Beləliklə, əmtəənin dəyəri istehsal qiymətinə çevrilir.

*Marksın ən böyük kəşfi onun təliminin təməl daşı olan izafi dəyər qanunudur*. Bu qanunu Marks kapitalizminin inkişafının mütləq iqtisadi qanunu adlandırmışdır. Bu qanunun kəşfində onun əmək-dəyər nəzəriyyəsi ümumi, əməyin ikili xarakteri haqqında təlimi xüsusi rol oynamışdı. Marks sübut edir ki, izafi dəyər mübadilə prosesində pul tərəfindən yaranmır, o, əmək prosesində muzdlu işçi tərəfindən yaradılır.

K.Marksın "Kapital" əsərinin I cildinin məqsədi mənfəətin mahiyyətini əmək prosesində yaradılmış izafi dəyər kimi vermək, kapitalizmdə əməyin kapital tərəfindən istismar olunduğunu göstərmək və bu istismarın dərəcəsini əks etdirən izafi dəyər normasının xarakteristikasını verməkdir. "Kapitalın" I cildinin bütün mənası izafi dəyərin mövcud olmasının əmtəələrin, onlarda maddiləşmiş əməyin miqdarına uyğun mübadilə olunması ilə necə uyğunlaşdığını göstərməkdən ibarətdir. İzafi



downloaded from KitabYurdu.org

dəyər nəzəriyyəsi mahiyyətcə iş qüvvəsinin dəyəri ilə son məhsulun dəyəri arasında qarşılıqlı əlaqənin olmasını sübut etməkdir.

K.Marks məqsədinə və tədqiqatının məntiqinə uyğun olan terminlərdən, anlayışlardan və ehtimallardan istifadə etmişdir. Bunlar içərisində izafi dəyər norması ilə yanaşı, "kapitalın üzvü quruluşu" anlayışı xüsusi yer tutur. Bu anlayışların formalaşmasında Marks tərəfindən kapitalın sabit (c) və dəyişən(v) kapitala bölgüsü mühüm rol oynamışdır. İqtisadi fikir tarixində kapitalın bu cür bölgüsü yalnız marksizmə məxsusdur. Əvvəllər isə kapitalın əsas və dövriyə kapitalına bölgüsü mövcud olmuşdur.

Marks sabit kapitala (c) kapitaldan əsas kapitalın aşınmasına və xammal məsrəfinə hesablanan məbləğı, dəyişən kapitala isə muzdlu işçilərə verilən əmək haqqını aid etmişdir. Marksın sistemində əsas kapital(c) - əsas avadanlığın və xammal-material ehtiyatlarının dəyərini, dəyişən kapital (v)-əmək haqqını vermək üçün zəruri olan dövriyyə kapitalının kəmiyyətini əks etdirir.

Əsas və dövriyyə kapital məsrəflərindən artıq olan ümumi dəyər-izafi dəyərdir (s). Bütövlükdə iqtisadiyyat üçün bu xalis milli məhsulun dəyərcə əmək haqqı formasında artıqlığında ifadə olunur. Marks ümumi milli məhsulu (C+V+S), xalis milli məhslulu isə (V+S) kimi; izafi dəyər norması izafi dəyərin dəyişən kapitala olan nisbəti (Q=S/V), mənfəət normasını isə izafi dəyərin bütün avans olunmuş kapitala olan nisbəti (R=S/K) kimi müəyyən etmişdir. Əsas nisbi göstərici olan kapitalın üzvü quruluşunu isə əsas kapitalın dəyişən kapitala olan nisbəti (q=c/v) kimi müəyyən etmişdir. Kapitalın üzvü quruluşu anlayışı da Marks tərəfindən edilən yeniliklərdən biridir. Marks məşğulluğun dinamikasını, mənfəət normasının hərəkətini və bir sıra digər hadisələri kapitalın üzvü quruluşu ilə əlaqələndirir. Texniki tərəqqi nəticəsində kapitalın üzvü quruluşu yüksəldiyindən, işçilərə olan tələb kapitalın kəmiyyətinə nisbətən yavaş artır. Buradan da Marks belə bir nəticə çıxarır ki, işsizlər ordusunun artması, beləliklə isə kapitalizm inkişaf etdikcə fəhlə



downloaded from KitabYurdu.org

sinfinin vəziyyətinin pisləşməsi qaçılmazdır, kapitalın üzvü quru-lu-şunun artımı həm də mənfəət normasının azalması meylini yaradır.

Marksın təlimində izafi dəyər və mənfəət norması istənilən əmtəə və bütün sahələr üçün dəyişilməzdir və bütün məhsullar bir-biri ilə onlarda maddiləşmiş olan bərabər nisbətdə əməklə mübadilə olunurlar. O , mənfəətin mənbəyini muzdlu işçilərin canlı əməyində görür. *Marksın təlimində izafi dəyər hətta kapitalist işçilərə, onların yaşaması üçün zəruri olan qədər ödədikdə belə yaranır*. Marksa görə, bu ona görə mümkün olur ki, mülkiyyət az adam əlində cəmləşir, cəmiyyətin əsas hissəsi mülkiyyət hüququndan məhrum olur və onlar öz əməklərini satmaq hesabına yaşamağa məcbur olurlar. Deməli, kapitalizmdə iş qüvvəsi əmtəə olur və bazarda digər əmtəələr kimi normal qiymətlə alınıb satılır. İş qüvvəsinin qiyməti əmək haqqına alınan işçilərin yaşayışını təmin edə bilən yaşayış vasitələrinin istehsalı üçün zəruri olan iş vaxtının kəmiyyəti ilə müəyyən olunur. *Marksın böyük xidməti əməyin deyil, iş qüvvəsinin əmtəə olmasını göstərməsidir.* O qeyd edir ki, iş qüvvəsinin istehlak dəyəri istənilən digər əmtəələrin istehlak dəyərindən köklü surətdə fərqlənir. Bu fərqli cəhət ondan ibarətdir ki, onun öz dəyərindən əlavə dəyər yaratmaq qabiliyyətidir. Bu əlavə dəyəri Marks izafi dəyər adlandırmış və onu kapitalizmdə olan bütün gəlir növlərinin əsası və burjua sərvətinin həqiqi mənbəyi hesab etmişdir. Marks göstərir ki, izafi dəyər, dəyər qanununun pozulması nəticəsində deyil, əksinə onun tələblərinin tam gözlənilməsi əsasında yaranır. Deməli, fəhlə istehsal prosesində onun iş qüvvəsi dəyərindən çox dəyər yaradır. Beləliklə, Marks kapitalizmdə əməyin kapital tərəfindən istismarını təsadüfi, ədalətin pozulması kimi deyil, onu kapitalist istehsalının mahiyyəti, ona daxilən xas olan obyektiv qanunauyğunluq hesab edir. Onu da qeyd edək ki, Marks gənc vaxtlarında yazdığı, lakin ilk dəfə 1932-ci ildə alman, sonradan isə 1960-cı ildə ingilis dilində çap olunan "1844-cü ilin iqtisadi və fəlsəfi əlyazmaları"nda kapitalizmdə əməyin istismar olunmasından daha çox əməyin



downloaded from KitabYurdu.org

özgəninkiləşməsi ideyasını nəzərdə tutmuşdu. Burada Marks burjua iqtisadçılarının xüsusi mülkiyyətin daimi mövcud olması fikrini qəbul etməyir, onun mahiyyətini və mənşəyini açmaqla əməyin özgəninkiləşməsi konsepsiyasını irəli sürür. K.Marks xüsusi mülkiyyətə və kapitala əməyin özgəninkiləşməsinin nəticəsi kimi baxır və özgəninkiləşmənin səbəbini öz növbəsində kortəbii inkişaf edən ictimai əmək bölgüsündə görür. Marksa görə, əməyin özgəninkiləşməsi o deməkdir ki, əmək işçi üçün səthi olur, onda o, özünün təsdiqini tapmır, əksinə inkar olunur, əmək işçi üçün könüllü yox, məcburi olur, əmək başqalarının tələbatını ödəmək üçün yalnız vasitə olur. Eyni zamanda əmək işçiyə deyil, kapitalistə məxsus olur. Özgəninkiləşmə insanın inkişafının itirilməsinə, onun tənəzzülünə səbəb olur.

Marks göstərir ki, iş qüvvəsinin mübadilə dəyəri alınır və ödənilir. Lakin, həqiqətdə isə alınan əməyin istehlak dəyəridir. Marksa görə, izafi dəyər "ödənilməmiş əməkdir". Çünki muzdlu işçi iş günü ərzində yalnız vaxtın bir hissəsini onun öz qiymətinə, daha doğrusu işçinin yaşamasını təmin edə bilən yaşayış vasitələrinə ekvivalent olan ödəməyə sərf edir, iş gününün yerdə qalan vaxtında işçi kapitalistə işləyir, bunu isə izafi iş vaxtı və ya izafi əmək adlandırır. K.Marks buradan da D.Rikardo kimi belə bir nəticəyə gəlir ki, mənfəətin, yaxud ümumi izafi dəyərin məbləği yaşayış vasitələrinin alışına çəkilən xərclərdən asılıdır. Marks işçilər tərəfindən yaradılan izafi dəyərin kəmiyyətinə kapitalın məbləğinin təsir göstərməsi fikirini qəbul etmir. O, öz qarşısına məcmu kapitala hesablanmış orta mənfəət normasının arxasında mənfəətin həqiqi təbiətinin, məhz onun yalnız canlı əmək xidmətinin alınmasına çəkilən kapitaldan asılı olduğunu sübut etmək məqsədini qoymuşdur. Marksa görə, "bütün istehsal sferasındakı mənfəətlərin məbləği izafi dəyərin məbləğinə bərabər olması" faktını inkar etmək "siyasi iqtisadı ... hər cür rasional əsaslandırmadan" məhrum etmək deməkdir.

İzafi və zəruri əməyin nisbəti fəhlələrin kapitalistlər tərəfindən istismar olunmasının dərəcəsini xarakterizə edir. Marks izafi dəyərin, daha doğrusu istismar dərəcəsinin artırılmasının



downloaded from KitabYurdu.org

iki: iş günün uzadılması yolu ilə birbaşa izafi iş vaxtının artırılması və əmək məhsuldarlığının yüksəldilməsi vasitəsi ilə təsbit olunmuş, yaxud azaldılmış iş günü haddində izafi və zəruri iş vaxtının nisbətini zəru-ri iş vaxtını azaltmaqla dəyişdirilməsi yolunu göstərir və öyrənir. Birinci yolu mütləq izafi dəyər, ikincini isə nisbi izafi dəyər adlandırır.

İstismar dərəcəsi, yaxud izafi dəyər norması ancaq bilavasitə sərf olunmuş əməyin işidir, funkisyasıdır. Maşın və xammal-material formasında olan əsas kapital yalnız öz dəyərini məhsula keçirir, əlavə dəyər yaratmır. Əsas kapital dəyişən kapitaldan ona görə fərqlənir ki, o kapitalist tərəfindən alınır və onun tərəfindən də satılır, dəyişən kapital işçi tərəfindən satılır, kapitalist tərəfindən alınır. Buna görə də Marks hesab edir ki, izafi dəyər kapitalistlər arasında mübadilə prosesində yarana bilməz.

K.Marks özünün mənfəətin yalnız sərf olunan insan əməyinin kəmiyyətindən asılı olması və izafi dəyər normasının kəmiy-yətinin bütün sahələrdə kapital-əmək nisbətinin faktiki dəyişilməsindən, həmçinin də məcmu kapital vahidinə düşən mənfəətin bərabərləş-məsi meyli faktından asılı olmadan eyni olması haqqında fikrini "Kapitalın" III cildində dəyəri qiymətə çevirməklə məntiqi cəhətdən sübut edə bilir.

*Bərabər mənfəətlik prinsipinə əsaslanan dəyərin qiymətə çevrilməsi ilə əmək-dəyər nəzəriyyəsinin məntiqi sonluğa çatdırılması iqtisadi fikir tarixində ilk və yeganə hal olmuşdur*. İqtisadi dəlilləri məntiqi başa çatdırmağa (sonluğa) qədər aparmaq bacarığına Marksın müasirləri arasında ona bərabər (tay) olan olmamışdır.

Marks istehsal qiyməti ilə müqayisədə dəyəri nəzəri və həm də tarixi planda ilkin və əsas hesab edir. O göstərir ki, vaxtilə qiymətlər əmək-dəyər nəzəriyyəsi ilə uyğunlaşmışdır. F.Engels isə dəyər qanunun 5-7 min il ərzində hökmran olmasını göstərir.

Rəqabət mübarizəsi sayəsində mənfəət normasının sahələrarası bərabərləşməsi nəticəsində izafi dəyərin əmək tutumlu



downloaded from KitabYurdu.org

sahələrdən kapital tutumlu sahələrin xeyrinə yenidən bölgüsünə səbəb olmasından Marks qiymətin məbləğinin dəyərin məbləğinə bərabərləşdiyini qeyd edir. Deməli, qiymətlə ölçülən ÜMM dəyəri ilə ölçülən ÜMM bərabər olur. Bu qiymətin dəyər nəzəriyyəsidir. Digər bir fikir isə dəyərin elementi kimi məcmu izafi məhsul qiymətin elementi kimi məcmu mənfəətə bərabər olmasıdır. Məcmu izafi dəyərin məcmu mənfəətə bərabər olması – mənfəətin əmək-dəyər nəzəriyyəsidir.

Marks, fəhlə öz dəyərindən artıq dəyər yaratdığını deməklə, kapitalizmdə iş qüvvəsinin bazar qiymətinin, onun təbii qiymətinə uyğun olmadığını göstərir və burada əmək haqqının artımının qabağını işsizlərin ehtiyat ordusunun yaranması ilə əmək təklifinin xroniki artıqlığı aldığını qeyd edir. Marks göstərir ki, əmək haqqının kapital yığımı üçün olan stimulu sarsıdaraq mənfəəti yeməməkdən ötrü hətta inkişaf etmiş iqtisadiyyata da işsizlik lazımdır. İşgüzar fəallığın yüksəlişi ehtiyat ordusunun sayını azaldırsa, istənilən hər bir böhran bu ordunu artırdığından tam məşğuluq şəraitində uzunmüddətli artım Marksa görə, ziddiyyətlidir. Ona gorə də o, işsizlik şəraitində tarazlıq ideyasını irəli sürür. Bu tarazlıq Keynsdə olan statik tarazlıq deyil, özündə kapitalın və əməyin müsbət artım sürətlərini birləşdirən dinamik dəyişən tarazlıqdır. Marks kapitalizmi həm pozitiv, həm də normativ mövqedən tənqid etmişdir. O, izafi dəyərin fəhlənin məhsulunun və iş gününün ekspropriasiyasının (kapitalistlərin fəhlələrin əlindən zorla almasının) olmasının səbəbini kapitalizmdə istehsal vasitələri üzərində xüsusi mülkiyyətin olma-sında görmüşdür. Mülkiyyətdən əldə olunan gəliri qazanılmamış gəlir kimi izah edir.

Mənfəətin izafi dəyər kimi izah olunması, onun iqtisadidən, daha çox sosialist şərhidir. Marks maraqlı belə bir fikir söyləyir ki, kapitalizm ona xas olan gəlirin siniflər arasında bölgüsündəki ədalətsizliyə və fəhlələrin milli gəlirdə paylarının kapitalistlər tərəfindən artırılmasına görə deyil, kapitalist sisteminin müharibəyə, müstəmləkə istismarına və xüsusən də işsizlik nəticəsində insani resursların itkisinə gətirməsi səbəbindən məhv olmalıdır.



downloaded from KitabYurdu.org

Marks əməyin payının işsizlərin ehtiyat ordusunun olmasından azalması fikrini söyləyir. Belə ki, xroniki işsizlik o deməkdir ki, əmək haqqı orta əmək məhsuldarlığı kimi, o qədər sürətlə artmır. Marksın məqsədi kapitalizmin tarixi inkişafı nəticəsində mənfəət normasının azaldığını, yaradılan milli gəlirdə və sərvətdə əməyin payının azaldığını, fəhlələrin vəziyyətinin mütləq və nisbi pisləşdiyini, tədricən xırda və orta müəssisələrin aradan çıxdığını sübut etmə-yə çalışmaqla, kapitalist iqtisadiyyatının qeyri-sabitliyinin getdikcə artdığını göstər-məklə, onun iflasının labüdlüyünü açıb göstərmək olmuşdur.

Marks artan izafi dəyər normasını fasiləsiz kapitalla silahlanmanın artmasından törəyən məhsuldarlığın artımının ümumi prosesinin mühüm tərkib hissəsi hesab edir. O göstərir ki, kapitalistlər tərəfindən edilən bütün yığımlar kapital qoymaq məqsədi ilə edilir və kapitalsitlər gözlənilən gəlirlərin kəmiyyətindən asılı olmadan  bütün mənfəəti yenə kapital kimi qoyurlar.

Marksın kapitalizmdə mənfəət normasının aşağı düşməyə meyl etməsi haqqında qanunu kapital tutumluluğu əmsalının olduqca sürətlə artmasına əsaslanır. O göstərir ki, bir işçinin kapitalla silahlanması, bir işçiyə düşən mənfəətlə müqayisədə sürətlə artdığından son məhsulda mənfəətin payı ilə müqayisədə kapital tutumluluğu sürətlə artır. Ona görə də mənfəət norması aşağı düşür. Marks mənfəət normasının aşağı düşməsinə əks təsir göstərən amilləri də göstərir. Bunlardan biri innovasiya yeniliklərin və təkmilləşdirmələrin aparılması nəticəsində əsas kapitalın ucuzlaşması, digəri isə yüklərin daşınması haqqının aşağı salınması, yanacaq xərclərinin azaldılması və istehsal tullantılarının  təkrar  istifadəsi yolu ilə dövriyyə kapitalına qənaət edilməsidir.

Mənfəət normasının azalmağa meyl etməsi qanunu kapitalizmdə iqtisadi artımın tsiklik xarakterinin  marksist təhlilində  əsas olmuşdur.

Marksist sistemində "Kapitalın" II cildində verilmiş təkrar istehsal sxemləri böyük tarixi maraq doğurmaqla yanaşı,



downloaded from KitabYurdu.org

o həm də bizim dövrdə Keynsçi iqtisadi artım nəzəriyyəsinin müəlliflərinə, sistemin tarazlı artımının makroiqtisadi şərtlərini formalaşdırmağa və həqiqətən ardıcıl iqtisadi artımın mümkünlüyü haqqında məsələnin qoyulmasında yardımçı olmuşdur.

Marks iqtisadiyyatı 2 bölməyə: istehsal vasitələri (I) və istehlak məhsulları (II) istehsalına bölür. O, sadə və geniş təkrar istehsalın şərtlərini və makroiqtisadi asılılıqlarını öyrənir. Onun təkrar istehsal sxeminin əsas şərtləri və makroiqtisadi qarşılıqlı asılılıqları aşağıdakılardan ibarətdir. Sadə təkrar istehsal dəyişməzdir, onda xalis investisiya sıfıra bərabərdir. Dəyişməz iqtisadiyyatın sabit qalması üçün I bölmənin bütün məhsulları hər iki bölmənin sabit kapitalının ödənilməsinə yönəldilməlidir: I ( c+v+s) = Ic+IIc.

Eyni zamanda II bölmənin bütün məhsulları hər iki bölmənin əmək haqqı fonduna üstəgəl (+) mülkiyyətdən gələn gəlirə bərabər olmalıdır: II (c+m+s)=Iv+IIv+(Is+IIs), daha doğrusu II bölmənin bütün məhsulu xalis milli məhsula bərabər olmalıdır. Sadə təkrar istehsalın əsas şərti : I(v+s)=IIc, daha doğrusu, I bölmənin xalis milli məhsulu II bölmədə əsas kapitalın ödənilməsi zərurəti ilə şərtlənən tələbin kəmiyyətinə bərabər olmalıdır. Geniş təkrar istehsalın şərti I(v+s)> IIc, yəni I bölmədə yaradılan xalis məhsul II bölmədə əsas kapitalın üdənilməsi zərurəti ilə şərtlənən tələbin kəmiyyətindən çox olmalıdır. Əgər I(v+s)> IIc olarsa, onda əsas kapitalın ödənilməsinə investisiya məsrəfləri amortizasiya ayırmalarının kəmiyyətini üstələyir, daha doğrusu, xalis investisiya var və müsbətdir. Bunlar onu göstərir ki, məcmu məsrəflər bütövlükdə bütün iqtisadiyyatın məcmu gəlirlərinə bərabər olmalıdır, heç bir çətinlik törətmədən bəzi sahələrdə gəlir xərcləri üstələyə bilər və yaxud əgər fəhlə bütün məhsulları ala bilməzsə, bu özlüyündə tarazlığın pozulmasının səbəbi olmur. Beləliklə, Marksın sxemindən çıxan nəticə budur ki, I bölmənin məhsulları istehsal vasitələrinə olan məcmu tələbə bərabər, II bölmənin məhsulları isə istehlak mallarına olan məcmu tələbə ekvivalent olmalıdır.



downloaded from KitabYurdu.org

*Marksist iqtisadi sistemdə iqtisadi tsikllər nəzəriyyəsi mühüm yer tutur. Marksın tsikllər haqqında fikirləri öz zəmanəsini 50 il qabaqlamışdır*. O hesab edir ki, böhranlar kapitalizmin əsas ziddiyyətinin təzahürüdür. Kapitalizmdə istehsal istehlak xatirinə deyil, mənfəət xatirinə həyata keçirilir. Marksist iqtisadi tsikllər nəzəriyyəsi onun kapital yığımının ümumi təhlilinin daxilində yaradılmışdır. Marks kapitalist yığımının ümumi qanununu bu cür formalaşdırır: sərvətin bir qütbdə kapitalistlər sinfində yığılması, digər qütbdə, fəhlə sinfi tərəfdə yoxsulluğun və əmək əzablarının yığımıdır.

Marks tsiklik prosesləri bu cür şərh edir: yüksəliş dövründə yığımla şərtlənmiş əməyə tələb faktiki təklifi üstələyir; ehtiyat ordusu tükənir və iş qüvvəsinin nisbi çatışmazlığı əmək haqqının yüksəlməsinə səbəb olur, nəticədə mənfəət aşağı düşür və yığım zəifləyir. Kapital yığımı normasının aşağı düşməsi məcmu tələbin azalmasına, nəticə etibarı ilə konyukturanın aşağı düşməsinə gətirib çıxarır. Marks kapitalizmdə real əmək haqqının bir adama düşən hasilat kimi, o qədər sürətlə artmadığından gəlirin pis bölgüsünü bütün böhranlarların son səbəbi hesab edir. Marksa görə, səmərəli tələbin olmasını nəzərə almada istehsalın fasiləsiz genişləndirilməsi meyli xasdır.

İqtisadi tsikllərin marksist nəzəriyyəsində qısamüddətli planda nominal əmək haqqı mənfəət normasına əks dəyişir. Yüksəliş fazasında işsizlyin azalması ilə şərtlənən nominal əmək haqqının artması istehsalın nominal xərclərinin artmasına səbəb olur ki, bu da mənfəətin xüsusi çəkisinin azalmasına gətirib çıxarır. Mənfəət normasının aşağı düşməsinə cavab olaraq kapitalistlər iqtisadi tsiklin yüksək yüksəliş nöqtəsində kapital qoyuluşlarını azaldır.

Kapital yığımının hərəkətverici qüvvəsinə marksist baxışın sosial mənası olmuşdur. XIX əsrdə kapitalizmin iqtisadi inkişafını stimullaşdıran motiv kimi özlərinin alıcılıq qabiliyyətlərini çoxaltmaq üçün maksimal mənfəət əldə etmək yox, "yığım naminə yığım" fəaliyyət göstərirdi. Ona görə də kapital təklifinin qiyməti həqiqətən mahiyyətcə sıfıra bərabər olmuşdur. Marksa görə,



downloaded from KitabYurdu.org

kapitalizmdə kapitalistlərin sərvət dalınca qaçması, onların cari gəlirləri gələcək gəlirə çevirmələri və “yığım xatirinə yığım” fəaliyyət göstərməsi ağırlığı gəlirlərin bölgüsündəki son dərəcə qeyri-bərabərlik sistemi vasitəsilə muzdlu işçilərin üzərinə qoymuşdur.

Marks kapitalizm üçün spesifik olan bu qeyri-bərabərliyi aradan qaldırılmasının yolunu yalnız istehsal vasitələri üzərində xüsusi mülkiyyətin ləğvində, əvəzində dövlət mülkiyyətinin və sosialist institutlarının yaradılmasında görmüşdü.

Marksa görə, “yığmaq ehtirası” əsasən əməyə qənaət xarakterli yeniliklərdə ifadə olunur. Bu ona görədir ki, mənfəəti yüksək səviyyədə saxlamaq üçün əmək haqqı norması aşağı qalmalıdır. Lakin yenə daha yüksək mənfəət əldə etmək uğrunda mübarizə öz həqiqi məqsədini məhv edir. Bundan da Marks belə bir nəticə çıxarır ki, kapitalizmin iflası mütləqdir. Marks göstərir ki, ən çox defisit amil — kapital olan iqtisadiyyatda əməyə qənaət edən təkmilləşdirməyə sabit meyllik hökmən mənfəətin azalmasına gətirib çıxarır. Marks kapitalizmdə əməyin nisbi defisit amil ola bilməsini inkar edir, burada yalnız kapitalın ən çox defisit amil olduğunu qəbul edir.

K.Marks kapitalı özgə əməyinin yığımı və izafi dəyər gətirən dəyər adlanır. O göstərir ki, kapital predmet, əşya deyil, kapitalist cəmiyyətinin xüsusi istehsal münasibətidir – muzdlu işçilərin kapitalistlər tərəfindən istismar münasibətidir, izafi dəyərin yaradılması (fəhlə tərəfindən) və mənimsənilməsi (kapitalistlər tərəfindən) münasibətidir. Kapitalizmin əsas mahiyyətini təşkil edən bu müna-sibətin Marks xüsusi mülkiyyətlə əlaqədar məhsuldar qüvvələrin inkişafının müəyyən mərhələsində yaradıldığını və uzun müddət istehsalın təşkilinin mütərəqqi forması hesab olunduğunu da qeyd etmişdir.

Marksın iqtisadi təlimində proletariatın mütləq və nisbi yoxsullaşması qanunu özünəməxsus yer tutmuşdu. Marks əməyin payının azalacağını cəsarətlə qeyd etmişdir. Onun təsəvvüründə kapital yığımı baş verdikcə, fəhlə sinfinin vəziyyəti, onun əmək haqqı yüksək və yaxud aşağı olmasından asılı olmadan hökmən



downloaded from KitabYurdu.org

pisləşir. Mütləq yoxsullaşma haqqında nəzəriyyənin əsasını əmək məhsuldarlığının artması ilə bərabər əmək haqqının artmaması təşkil edir.

İmperializm haqqında marksist nəzəriyyə daha çox siyasi mahiyyət kəsb etmişdir. İmperializm adı altında xarici siyasət başa düşülür. İmperializm nəzəriyyəsi Marksın özü tərəfindən işlənib hazırlanmamışdır. Bu nəzəriyyə V.İ.Lenin tərəfindən yaradılmışdır. Marks göstərir ki, kapital ixracı mənfəət normasının aşağı düşməsinə əks təsir göstərir, belə ki, o, artıq yığımın artımını təmin edir.

Marksist nəzəriyyə hesab edir ki, qapalı kapitalist iqtisadiyyatı hökmən xroniki çatmayan səmərəli tələbdən, əsas disporsiyalardan zərər çəkir. Bunları yalnız xarici bazarları tapmaqla düzəltmək olur.

Bu nəzəriyyə kapitalist ölkələrinin xarici siyasətinin mahiyyətidir və iqtisadi inkişafın faktiki nəzəriyyəsidir. Bu nəzəriyyə kasıb və varlı ölkələr arasındakı fərqə, kapitalist ölkələrinin xaricə qoyduqları kapital qoyuluşlarının dinamikası nöqteyi-nəzərindən baxır və kapitalist ölkələrinin xarici siyasəti metropoliya üçün azad yığımların tətbiqi sferasını və sənaye əmtəələrinin artıqlığını strateji xammal resurslarına mübadiləsini təmin etmək məqsədi ilə geridə qalmış ölkələr üzərində siyasi və iqtisadi nəzarətə yönəldiyini göstərir.

Marksist iqtisadi nəzəriyyə Qərbin bir çox iqtisadi məktəbləri, cərəyanları və iqtisadçıları tərəfindən tənqid edilməsinə, inkar olunmasına və ona dəfələrlə yenidən baxılıb, yenidən qiymətləndirilməsinə baxmayaraq, o, mövcuddur, yaşayır və hələ intellektual keçmişə atılmamışdır.



downloaded from KitabYurdu.org

# III BÖLMƏ. MARJİNALİST ELMİ SİSTEM VƏ METODOLOGİYA

## XIV FƏSİL. MARJİNALİZMİN YARANMASI, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ METODOLOJİ ƏSASLARI

XIX əsrin 70-ci illərində yeni tip mikroiqtisadi nəzəriyyənin əsas elementi olan azalan həddi faydalılıq prinsipi bir-birindən xəbərsiz olmadan müstəqil şəkildə, iqtisadi inkişaf səviyyəsi və nəzəriyyəsi tamamilə fərqli olan ölkələrdə eyni vaxtda – İngiltərədə **U.Cevonson** (1835-1882), Avstriyada **K.Menger** (1840-1921) və İsveçrədə **L.Valras** (1834-1910) tərəfindən kəşf edilmişdir. Bu kəşf iqtisadi fikir tarixinə sonralar «marjinalist inqilabı» adı ilə düşmüşdür. Marjinalizm kiçik artımlar və həddi situasiyalar metodudur. Marjinalizm daha çox iqtisadiyyatda optimal davranış prinsiplərinin tədqiqi üçün, optimal vəziyyətlərə və həllərə yaxınlaşmaq üçün tətbiq olunan təhlil metodudur.

Üç nəfər tərəfindən eyni zamanda faydalılıq həddinin kəşfinin səbəbini birmənalı izah etmək mümkün deyil. İqtisadi ədəbiyyatda bunu müxtəlif səbəblərlə: iqtisad elmi çərçivəsində müstəqil intellektualın inkişafı, fəlsəfi cərəyanların bəhrəsi, iqtisadiyyatda müəyyən institusional dəyişikliklərin nəticəsilə və sosializmə, xüsusən də marksizmə qarşı olan qəti etirazla izah etməyə çalışmışlar.

XIX əsrin 70-ci illərindən sonra iqtisadi problemlərin mahiyyəti və iqtisadi təhlilinin vəzifəsi dəyişmişdir. Əsas iqtisadi problem kimi tədqiqatın mərkəzinə istehlak, istehlakın və gəlirin təmin olunma dərəcəsi, məhdud resursların optimal bölgüsü, məhsulun faydalılığı, faydalılığın maksimallaşdırılması qoyulmuşdur. Faydalılıq nəzəriyyələri insanın tələbatının iqtisadi təbiəti və bu tələbatın təmin edilməsinin xarakteri, tələbatın ödənilməsinə uyğun olaraq təminetmə dərəcəsinin dəyişməsini, zamanca bir adam üçün, məkanca müxtəlif adamlar üçün nemətlərin faydalılığının müqayisə edilməsi, nemətlərin istehlak üçün seçilməsi psixologiyası, tələbatın dərəcəyə bölünməsi (mühüm-



downloaded from KitabYurdu.org

lülüyü qaydası) kimi məsələləri və s. irəli sürmüşlər. Bu vaxt iqtisad elminin qarşısında məqsəd ilə alternativ istifadə imkanına malik olan məhdud resurslar arasında olan qarşılıqlı əlaqənin öyrənilməsi dururdu. İqtisadi inkişafın klassik nəzəriyyəsi əsasən sabit struktur çərçivəsində ümumi tarazlıq konsepsiyası ilə əvəz olunmuşdur. Bu nəzəriyyəyə görə, statik tarazlıq mövcuddur, bu vaxt tələb təklifə bərabər olur, resurslar tam istifadə olunur və milli gəlir maksimallaşır.

Marjinalizmin ideyaları maltusçu əhali nəzəriyyəsinə münasibət bildirilərkən irəli sürülmüşdür. Marjinalistlər «siyasi iqtisad» termінindən imtina etmişlər, onu «ekonomiks» adlandırmışlar. Bunu ilk dəfə U.Cevonson, sonra isə ondan xəbəri olmadan A.Marşall etmişdir. U.Cevonson iqtisadi tədqiqatdan, insan əməyinin istehsal olunan məhsulların faydalılığını maksimallaşdıra bilən tətbiqi üsulunun tapılmasının tələb olunduğunu qeyd etmişdir. Yeni iqtisadi nəzəriyyədə əhalinin artımı ekzogen dəyişən kimi şərh olunmuşdur. Ön planda maksimallaşdırma prinsipi durmuşdur. Bu prinsip – məhdudluq şəraitində maksimallaşdırıcı iqtisadi davranış prinsipidir.

Faydalılıq həddi nəzəriyyəsi məsrəflərə əsaslanan dəyər nəzəriyyəsinin inkarı və faydalılığa əsaslanan subyektiv dəyər nəzəriyyəsinin qəbuludur.

XIX əsrin 70-ci illərində kəşf kimi qəbul edilən faydalılıq nəzəriyyəsi əvvəllər də mövcud olmuşdur. Cevons, Menger və Valras faydalılıq nəzəriyyəsinin üçüncü nəslidir, üçüncü üçlüyüdür. Bunlardan əvvəl iki üçlük də olmuşdur. Faydalılıq nəzəriyyəsi 1834 və 1874-cü illər arasında ayrı-ayrı ölkələrdə bir-birlərindən asılı olmadan üç dəfə kəşf olunmuşdur. İlk nəslin nümayəndələri Loyd, **Lonqfild** (1834) və **Senior** olmuşlar. Onlar faydalılıq həddini, onun əsl mənasında istifadə etmədiklərinə baxmayaraq, ikinci nəsil – **Düpü** (1844), **G.Qossen** (1854) və **Ceninqs** (1855) müstəqil surətdə faydalılıq nəzəriyyəsini özlərinə məxsus şəkildə eyni vaxtda kəşf etmişlər, ondan istehlakçı davranışının təhlili üçün istifadə etmişlər. Bunu Qossen daha əzmlə və inqilabi ruhda etmişdir.



downloaded from KitabYurdu.org

Üçüncü üçlük – Cevons, Menger və Valras həddi təhlili faydalılığa tətbiq etməklə faydalılıq nəzəriyyəsini təkmilləşdirmişlər. Bu isə sonradan «marjinalist inqilabı» kimi qiymətləndirilmiş və həddi təhlil metodu marjinalizm adını almışdır. Üçüncü üçlük istehlak tələbini faydalılıq nəzəriyyəsi vasitəsilə tədqiq etmişdi. Faydalılığın azalması prinsipi sonralar neoklassik nəzəriyyənin yaranmasının metodoloji əsası olmuşdur.

Faydalılıq həddi nəzəriyyəsi «məsrəf-nəticə»nin (Pareto) təhlilinə və dinamik proqramlaşdırmaya gətirib çıxarmışdır. 1870-ildən sonra marjinalizm iqtisad elmində riyaziyyata böyük rol vermişdir. Avstriya məktəbinin nümayəndələrindən başqa o dövrün görkəmli iqtisadçıları riyazi biliklərə malik olmuş, öz tədqiqatlarında riyazi formulalardan istifadə etmişlər. Yalnız C.Klark və Bem-Baverk riyazi biliksiz və riyaziyyatdan istifadə etmədən iqtisad elminə əsaslı töhfə verə bilmişlər. K.Menger riyazi formulalardan qaçmış, o, «Qossenin ikinci qanunu»nu yalnız şifahi formada formalaşdırmışdır.

Marjinalizmin bütün elementləri riyazi məktəbin nümayəndələrinin – **A.O.Kurnonun** (1801-1877), **G.fon Tyunenin** (1789-1850), **J.Düpünün** və **G.Qossenin** (1810-1858) əsərlərində olmuşdur. Qiymət və bölgü ideyaları klassik yönümlü yeni nəzəriyyənin çıxış nöqtəsini təşkil edən A.Marşall özünün mühüm nailiyyətlərinə görə Kurnoya və Tyuneniyə borclu olduğunu söyləmişdir. O göstərir ki, Kurnoya və az dərəcədə də Tyuneniyə riayət edərək mən böyük əhəmiyyəti olan faktı – tələbin fasiləsiz funksiya olması, sabit tarazlıq vəziyyətində onun artması, onun istehsalına çəkilən xərclərin uyğun artması ilə balanslaşdığını anladım.

Sosial-iqtisadi hadisələrin təhlilinə riyazi metodları tətbiq edən və onları riyazi dildə tədqiq edən fransız A.O.Kurno olmuşdur. Onun əsas əsəri «Sərvət nəzəriyyəsinin riyazi prinsiplərinin tədqiqi» (1838) adlanır. Kurno ensiklopedik zəkaya malik olmuşdur. O, riyaziyyatın və fəlsəfənin köməyilə təbiət və ictimai elmlərin müəyyən bir sintezini tapmağa çalışmışdır. Ehtimal nəzəriyyəsinin inkişafında, onun fəlsəfi izahında Kurnonun xid-



downloaded from KitabYurdu.org

mətləri xüsusilə böyük olmuşdur. İqtisad elminin müddəalarının dürüst olmamasını, onların qeyri-müəyyənliyini, sübutsuzluğunu nəzərə alan Kurno ona məntiq və riyazi metodları tətbiq etməyə çalışmışdır. Konkret iqtisadi problemlərin tədqiqi üçün onun yaratdığı metodologiya əhəmiyyətli olmuş və elmdə yeni yollar açmışdır.

Tələbin funksiyasını ilk dəfə Kurno müəyyən edib göstərmişdir. Onun tədqiqatının məğzini əmtəənin qiymətinin və bu əmtəəyə olan tələbin qarşılıqlı surətdən bir-birindən asılılığı təşkil edir. O, bu asılılığı müxtəlif bazarlar şəraitində, daha doğrusu, alıcıların və satıcıların qüvvələrinin müxtəlif şəkildə yerləşdiyi şəraitdə tədqiq etmişdir.

Kurno iqtisadi sistemin xüsusi problemlərinin tam və dəqiq həlli üçün mütləq sistemə bütöv kimi baxmışdır. Lakin buna baxmayaraq o, ümumi tarazlığın riyazi modelinin yaradılmasını mümkünsüz saymışdır.

Kurnonun nəzəriyyəsinin əsas ideyası iqtisadi sistemə tarazlıq vəziyyətində olan tələb və təklifin qarşılıqlı asılılığının qapalı sistemi kimi baxmaqdan ibarətdir. Bu nəzəriyyədə qiymətə əlavə olaraq tələb ilə təklif arasında tarazlıq nəzəriyyəsinin ifadəsi kimi baxılır. Tədqiqatın vəzifəsi satıcıların və alıcıların müxtəlif sayında, ayrı-ayrı əmtəələrin müxtəlif tələb və təklif əyrisində, müxtəlif və qismən qarşılıqlı əvəz olunan əmtəələrin müxtəlif kəmiyyətində bazar tarazlığının bilavasitə şərtlərinin izah edilməsi kimi başa düşülür.

Kurno yalnız istehsalla heç bir əlaqəsi olmayan qiymətləri nəzərdən keçirmişdir. Onun modelində qiymətləri alıcılar diqtə edir, satıcılar isə bu qiymətlərdə təklifi (məhsul buraxılışını) tələbə uyğunlaşdırırlar. O, tələbə qiymətin funksiyası kimi baxmışdır. Qiymətin istənilən ən azacıq dəyişməsi tələbin dəyişməsinə səbəb olur. Bunu Kurno tələb qanunu kimi formalaşdırmış və funksiya şəklində: $D=F(p)$ kimi ifadə etmişdir. Burada $D$–tələb, $p$–qiymətdir.

Tələbin elastikliyi anlayışını da elmə Kurno gətirmişdir. O qeyd edir ki, müxtəlif əmtəələr üçün tələbin elastikliyi müxtəlif-



downloaded from KitabYurdu.org

dir. Yüksək elastiklik halı o deməkdir ki, tələb qiymətin az dəyişməsi zamanı xeyli dərəcədə dəyişə bilər. Aşağı elastiklikdə isə tələb qiymətin dəyişməsinə az cavab verə bilər. O, aşağı elastikliyin həm zinət şeyləri və həm də ən zəruri predmetlər üçün xarakterik olmasını tapmışdır. Məsələn, skripkanın və astronomik teleskopun qiyməti iki dəfə aşağı düşə bilər. Lakin bu, çox sətin ki, tələbatı nəzərə çarpacaq dərəcədə yüksəldə bilsin, bu tələbat bir qism həvəskarlarla bağlıdır ki, onlar üçün əşyanın qiyməti başlıca cəhət deyildir. Digər tərəfdən odunun qiyməti iki dəfə arta bilər, lakin tələb daha az miqdarda azalacaqdır, çünki adamlar qızdırılmayan evlərdə yaşamaqdansa, digər xərcləri azaltmağı üstün tutur. Deməli, tələb funksiyası müxtəlif əyrilərlə təsvir oluna bilər. Onun modelində tələb funksiyası fasiləsizdir, yəni qiymətin hər cür sonsuz dərəcə az şəkildə dəyişməsinə tələbatın sonsuz dərəcədə az dəyişməsi uyğun gəlir. O, faydalılıq nəzəriyyəsinə maraq göstərməmiş, lakin bazar tələbi əyrisini mənfiyə əyilmiş kimi götürmüşdür. Bazar tələbi əyrisi əhalinin il ərzində orta qiymətlə həqiqətən aldıqları real kəmiyyəti əks etdirir. Kurnonun tələb əyrisi satış ilə qiymət arasında empirik nisbətdir.

Kurno qiyməti müxtəlif bazar şəraitində tədqiq etmişdir. O, gəliri maksimallaşdıran qiyməti axtarıb tapır. Bu qiymət tələb funksiyasının növündən, yəni onun elastikliyinin xarakterindən asılıdır və inhisarın maksimum mənfəəti ilə müəyyən olunur və $F(p)/F'(p)$ kimi ifadə olunur. Kurno təhlili onun fikrincə, ən sadə halda təbii inhisardan başlayır. Bununla o, xalis inhisar nəzəriyyəsinin əsaslarını qoyur. O, inhisarı sırf təsadüf kimi şərh etmişdir. Kurno deyir: belə təsəvvür edək ki, kimsə öz xassələrinə görə nadir olan bir mineral su bulağının sahibidir. Maksimum gəlir əldə etmək üçün sahibkar bu suya hansı qiyməti qoymalıdır? Kurno bu suala cavab verməyə çalışaraq əlavə amillər (istehsal xərcləri, rəqabət, digər məhdudiyyətlər) daxil etməklə daha mürəkkəb hallara keçir. O, tələb əyrisi $D=F(p)$ ilə yanaşı, məcmu gəlir funksiyasını $R=pF(p)$ və hədd gəlir funksiyasını $M=F(p)+pF'(p)$ müəyyən edir. Burada inhisarçı üçün obyektiv olaraq verilmiş kimi $F'(p)<0$. Gəlirin verilən funksiyası sonra



downloaded from KitabYurdu.org

məcmu və hədd xərclərlə tutuşdurulur ki, göstərilsin ki, əgər inhisarçı həddi xərcin hədd gəlirə bərabər həcmində məhsul istehsal edirsə, gəlir dərhal maksimallaşır. Bu maksimumun mövcudluğunu və yeganəliyini (müstəsna olmasını) sübut etmək üçün riyazi təhlilin məlum meyarından istifadə edir: məcmu mənfəətin birinci törəmə funksiyası $\pi = pF(p) - F(D)$ sıfra bərabər, ikinci törəmə funksiya mənfi olmalıdır.

Kurno təkcə xalis inhisar nəzəriyyəsinin əsaslarını yaratmamışdı, həm də duapoliya (bir-biri ilə rəqabət aparan iki inhisarçı) nəzəriyyəsini də yaratmışdır. O, rəqiblərin məhdud dairəsi və nəhayət, azad rəqabət hallarını da nəzərdən keçirmişdi. Onun duapoliya nəzəriyyəsi rəqabətdən törəyir və istehlakçıların qiyməti diqtə etməsinə, satıcılar isə sadəcə olaraq öz buraxılış həcmini mövcud qiymətə uyğunlaşdırmasına əsaslanır. Hər bir inhisarçı rəqib məhsula tələb funksiyasını qiymətləndirir və sonra rəqibin buraxılış həcmi dəyişməz qalmaq ehtimalı ilə satış üçün qabaqcadan nəzərdə tutulan kəmiyyət müəyyən edilir. Lakin hər bir duapolist öz buraxılış həcmini digərinin buraxılışı ilə eyni zamanda müəyyən edir, həm də nəzərə almaq lazımdır ki, hər biri istənilən zaman güman edir ki, rəqibində istehsal həcmi daimidir, buna baxmayaraq determinallaşmış qərar əmələ gəlir. Bu nəticəni Kurno təsirə cavab vermə əyrilərinin köməyi ilə qrafik göstərmişdir. Hər təsirə cavab əyrisi duapolistin, onun rəqibinin buraxılış səviyyəsinin funksiyası kimi buraxılışının optimal səviyyəsini göstərir, nəzərdə tutur ki, hər biri həmin məhsulun (mineral suyun) bütövlükdə bütün həcmini bazara qoya bilər və mineral suyun istehsal xərci sıfra bərabərdir. Məhdud rəqabət (iki, üç və s.) üçün Kurno inhisardan aşağı, lakin həddi xərclərdən yüksək qiymət və mənfəət formulları (düsturları) alır. Qeyri-məhdud rəqabət üçün həddi məsrəfə bərabər qiymət formulu alır. Beləliklə, Kurnonun nəzəriyyələrində klassik məktəbin «təbii azadlıq» ideyası rəqabət aparan əmtəə istehsalçıları nə qədər çoxdursa, başqalarının bərabərliyi şərti ilə qiymətlərin aşağı olması və çox miqdarda əmtəələrin reallaşa bilməsinin riyazi tədqiqini tapır.



downloaded from KitabYurdu.org

J.Düpü Kurno ilə bir vaxtda yaşamışdır. Hər ikisinin eyni zamanda Parisdə yaşayıb və işləmələrinə baxmayaraq, deyilənə görə, biri o birinin əsərlərini oxumamışdı. Lakin buna baxmayaraq onlar tərəfindən tələbin izahında oxşarlıq vardır. Kurno kimi Düpü də hesab edir ki, qiymətlə kəmiyyət arasında təcrübə ilə təsdiq edilən və nəzəri cəhətdən əsaslandırılması tələb olunmayan əks nisbət açıq görünür. Lakin Kurnodan fərqli olaraq Düpü tələb funksiyasını adi həddi faydalılıqlar: tələb funksiyası mənfiyə meyllidir, belə ki, əmtəənin əlavə vahidinin alışından əldə olunan əlavə faydalılığı adətən aşağı düşdüyü kimi şərh edir. O, ictimai işlərin iqtisadi qiymətləndirilməsi ilə maraqlanmışdır, cəmiyyət tərəfindən verilmiş nemət və xidmətin sosial faydasının ölçülməsini tədqiq etmişdir. Nəticədə o, tələb qiymətinə uyğun olaraq məcmu və həddi faydalılıq arasında fərqi üzə çıxarmışdır. İçməli su, yol, kanal və körpülər kimi ictimai nemətlərin sosial faydalılığını təhlil edərək Düpü başa düşür ki, əksər insanlar bu xidmətlərə ödədiklərindən çox ödəməyə hazır olsalar bu işlərin dəyəri, bu qiymətdə əks olunandan, həqiqətən onlara ödənilən-dən yüksək ola bilər.

Kurno və Düpü hədd təhlilində yeni yollar açmalarına baxmayaraq XIX əsrdə hədd təhlil metodunun əsl banisi alman mülkədar-mütəfəkkir **G.fon Tyunen** olmuşdur. Abstrakt model quran Kurnodan fərqli olaraq Tyunen həmin modeli empirik materiallarla tamamlamışdır. Onun modeli öz təsərrüfatının xərclərinin və gəlirlərinin dəqiq uçotunun faktiki materiallarına əsaslanır. Ona görə də onun riyazi modelini bəzən XX əsrdə «ekonometriya» adlanan istiqamətin – statistik informasiyanın və faktiki kəmiyyətlərə əsaslanan iqtisadiyyatda kəmiyyət qanunauyğunluqların və qarşılıqlı əlaqələrin daxil olduğu riyazi iqtisadiyyatın nümunəsi hesab edirlər. O, həddi yanaşmanı iqtisadi hadisələrin tədqiqinə daha ardıcıl və geniş şəkildə tətbiq etmişdir. Onun məhsuldarlıq həddi anlayışını dərindən şərh etməsi, iqtisadi vəzifələrin tarazlı həll edilməsinin təmin olunması üçün onun diferensial hesablamalardan istifadə etməsi, marjinalist fikirləri



downloaded from KitabYurdu.org

və onun dəyişən proporsiyalar qanununu bütöv ümumiləşdirilmiş ifadə etməsi Tyuneni yeni tarixin həqiqətən birincisi edir.

Tyunenin yeganə əsəri «Kənd təsərrüfatına və milli iqtisadiyyata münasibətdə götürülmüş tədric olunmuş dövlət» adlanır. Əsərin I cildi 1826-cı ildə, ikinci cildin bir hissəsi 1850-ci ildə çap olunmuşdur. İkinci cildin qalan hissəsi və üçüncü cild müəllifin ölümündən sonra, 1863-cü ildə çap olunmuşdur. Bu əsərdə Tyunen işləyib hazırladığı metodologiyanı dönmədən tətbiq etmişdir. Bu metodologiyaya uyğun olaraq bütün məsrəf növləri məhsulun son ədədinin ona çəkilən məsrəflərə bərabər olan məqamına qədər həyata keçirilməlidir, məcmu məhsul yalnız resurslar bərabər həddilik prinsipinə uyğun olaraq bölündüyü zaman maksimallaşır.

*Onun metodologiyası iqtisadi təhlilin texnikasını on illərlə qabaqlamışdı.* O, hər hansı bir müvazinətin və ya optimal vəziyyətin tədricən yaxınlaşmasını xırda artmalar metodu ilə aydınlaşdırmışdır. Tyunenə görə, istənilən iqtisadi hadisə hər hansı keyfiyyət dəyişikliyinin baş verdiyi müəyyən bir həddə qədər tədrici çoxalma yolu ilə inkişaf edir. O, bu üsuldan muzdlu işçilərin müstəqil sahibkar statusuna keçmək imkanının təhlilində də istifadə etmişdir. Tyuneniyə görə, mövcud torpaq sahələrini becərən fəhlələr yeni torpaq almaq üçün özünün bugünkü torpaq sahəsini müstəqil sürətdən atıb gedə bilər; bu kimi fəhlələrin əmək haqqı minimum tələbatın səviyyəsindən çox olur və əmək haqqı istehsal xərclərinin yeganə maddəsidir. Belə ki, kifayət qədər kapitala malik olan hər bir fəhlə muzdlu işçi statusunu əmtəə istehsalçısı-kapitalistin mövqeyinə könüllü dəyişə bilər, mövcud fermalarda əmək haqqı fəhlələrin və onun kapitalı yeni torpağı becərərək əldə etdiyinə bərabər olmalıdır. Tyunen xarici aləmdən təcrid olunmuş kənd təsərrüfatı sahəsi modelini qurur. Bu dairə şəklində və mütləq dərəcədə eyni məhsuldarlığa malik olan və dairənin mərkəzində şəhər-kənd təsərrüfatı məhsullarının yeganə satış bazarı yerləşən təsərrüfat sahəsidir. O, kənd təsərrüfatı məhsulunun mövcud qiymətdə nəqliyyat xərclərinin şəhərdə hansı məsrəfdə xalis hasilatla bərabərləşməsini hesablamışdır.



downloaded from KitabYurdu.org

Onun modelində dairənin hər bir nöqtəsindən daşınma ciddi olaraq bir radius üzrə və bir növ nəqliyyatla həyata keçirilir. Torpaq hər yerdə eyni məhsuldarlığa malikdir və kənd təsərrüfatının istənilən sahəsi üçün eyni dərəcədə əlverişlidir. Bu sahələr işlərin aparılmasının intensivliyi ilə fərqlənir. Bütün sahələri bərabər dərəcəli lazımlı hesab edərək Tyunen onların məkanca yerləşdirilməsi məsələsini həll edir. Bunun üçün satış nöqtəsindən hansı məsafədə nəqliyyat xərclərinin xalis mədaxillə (ümumi mədaxildən istehsal xərclərinin çıxdıqdan sonra qalan məbləğ) tarazlaşması müəyyən edilir. Müxtəlif sahələr üçün bu məsafə təsərrüfat intensivliyi fərqli olduğundan fərqlidir. Yerləşdirmənin optimallıq meyarı – bütün sahələrin maksimal ümumi xalis gəliridir. Tyunenin modelində şəhərdən müxtəlif uzaqlıqda olan kənd təsərrüfatının müxtəlif sahələrinin azalan intensivlik üzrə konsentrik dairələr şəklində yerləşdirilməsi daha optimaldır. Sahənin intensivliyi nə qədər aşağıdırsa, uyğun dairə mərkəzdən o qədər uzaqda olmalıdır. Bütün bunlar Tyunenin istehsalın yerləşdirilməsi nəzəriyyəsinin banisi olduğunu göstərir.

Tyunen Rikardonun əsərindən xəbərsiz olduğundan diferensial renta nəzəriyyəsini yenidən yaratmışdır, həm də bir sıra hallarda onun fikirləri Rikardoya nisbətən daha sərt xarakter daşıyır. O, A.Smitə böyük hörmətlə yanaşmış və gəlirlərin bölgüsünün tədqiqinə Smitin bu tədqiqatı yarımçıq qoyduğu yerdən davam etdirməyə çalışmışdır.

Tyunen tədrici çoxalma üsulunu istehsal amillərinin, xüsusən əmək və kapitalın qarşılıqlı surətdə bir-birini əvəz etməsi və istehsalın optimal strukturunun formalaşması proseslərinə tətbiq etmişdir. Onun bölgü nəzəriyyəsinin əsasında əsas amillərin həddi məhsuldarlığı durur. O, Ç.Klarkın fikrini yarım əsr qabaqlamışdır. Tyunen qeyd edir ki, hər bir istehsal amilinin sərf edilməsi, bu amilin əlavə vahidinin yaratdığı əlavə məhsul ona çəkilən məsrəflərlə tarazlaşan vaxta qədər davam edir. Əgər hər bir amil bu qayda ilə istifadə edilirsə, məcmu məhsul maksimallaşır.



downloaded from KitabYurdu.org

Tyunen bir amilin digərinin ardınca ardıcıl olaraq dəyişməsini göstərir. İlk əvvəl kapital və torpağın kəmiyyətini sabit saxlamaqla əmək qoyuluşunu dəyişir, sonra əməyi və torpağı sabit saxlayaraq kapital qoyuluşunu dəyişir, nəhayət, əmək və kapitalı sabit saxlamaqla torpağı işə salır. O, hətta amillərin və məhsulun qiymətinin dəyişməsinin tətbiq olunan resursların optimal dəstinə təsir etdiyini qeyd etmişdir.

Faydalılıq həddi nəzəriyyəsinin əsasında alman tədqiqatçısı **G.O.Qossen** tərəfindən irəli sürülmüş faydalılıq həddi ideyası durur. O, bu fikri onun yeganə iqtisadi əsəri olan «İctimai mübadilə qanunlarının və insan fəaliyyətinin buradan irəli gələn qaydalarının inkişafı»ında (1854) vermişdir. Lakin bu əsər onun sağlığında məşhurluq tapmamışdı. Bu onu çox məyus etmiş və bütün nəşr olunmuş kitabları yığıb məhv etmişdi. 1878-ci ildə Cevons və Valras bir neçə salamat qalmış nüxsəsini tapdıqdan sonra Qossen məşhurluq tapmış və onun əsəri 1889 və 1927-ci illərdə yenidən nəşr edilmişdir. O, bu əsərdə iqtisadi-riyazi faydalılıq nəzəriyyəsinin ilk variantını yaratmışdı.

Qossen həmkarlarının edə bilmədiklərini edə bilmişdir. O, faydalılıq həddinin azalması ideyasını qiymətin determinasiyası problemi ilə əlaqələndirmiş, faydalılıq həddinin azalması qanununu aydın, dürüst formada ifadə etmiş və onu istehlakın fərdi aktlarına tətbiq etmişdi. Qossenin xidməti təkcə faydalılıq həddinin azalması prinsipini dürüst etmiş olması deyil, o, bunu həm də qrafik formada şərh etmişdir və faydalılıq həddi əyrisinin mənfi meyli ilə tələb əyrisinin mənfi meyli arasındakı fərqi duya bilmişdir və əməyin ağırlıq həddi nəzəriyyəsini aydın ifadə etmişdir.

*Qossen Rikardo dövrünün və ondan sonrakı nəzəriyyəni və o zamankı elmdə olan cərəyanları inkar etmişdir. Onun ideyaları qədim yunan əxlaq nəzəriyyəsi olan gedonizm prinsipinə əsaslanmışdır.* O, təmin olunma, firavanlıq və zövq kimi gedoist prinsipləri C.Bentamin utilitarizm fəlsəfəsi ilə birlikdə əsas götürmüşdü. Bütövlükdə isə Qossen subyektiv psixoloji metodologiyaya əsas-



downloaded from KitabYurdu.org

lanmış və sosial yanaşmanı, istehsalın bütün sosial strukturlarını inkar etmişdi.

Qossenin tədqiqat obyekti istehlak, daha dəqiq desək, istehlak tələbi olmuşdur. O, fərd tərəfindən az miqdarda nemətlərin səmərəli şəkildə istehlak edilməsini iqtisad elminin mərkəzi problemi hesab edir. İqtisad elminin vəzifəsini insana nemətin istehlakından onun maksimal zövq almasında kömək etməkdə görür. Qossenə görə, iqtisadi davranışın əsası insan tərəfindən nemətin psixoloji qiymətləndirilməsi və bu nemətlər arasında seçim etməsidir. O, insanın bir fincan artıq çayla artıq bir dənə alma arasında həyata keçirdiyi seçmənin nə ilə müəyyən edilməsi üzərində fikirləşmişdir və hesab edirdi ki, bütün iqtisad elmi buna əsaslanmalıdır. O, siyasi iqtisadın adını dəyişdirib təmin olunma, və ya zövq haqqında təlim adlandırmağı təklif etmişdir.

*Qossenə məşhurluq gətirən onun tərəfindən yaradılan iki qanunu olmuşdur*. Bu qanunlara uyğun olaraq tələbatlar tədricən təmin edildikcə predmetlərin, yəni nemətlərin faydalılığı nemətin ehtiyatlarının artması ilə aşağı düşür. Onun birinci qanunu belədir: mövcud nemətin hər bir əlavə vahidindən təmin olmanın kəmiyyəti durmadan aşağı düşür və tam təmin olunduqda isə (son həddə çatdıqda) sıfıra çatır. Təmin olmanın azalması nemətin hər bir sonradan gələn vahidinin faydalılığının azalması deməkdir.

*Qossenin ikinci qanunu:* əgər müxtəlif nemətlərin ehtiyatı tam təmin olunma üçün kifayət deyilsə, onda birgə (bir yerdə) ən çox təmin olunmaya hər bir nemətin istehlakının zövq intensivliyi eyni olan nöqtədə nail olunur. Başqa sözlə, nemətin kombinasiyasının (birləşdirilməsinin) faydalılığı istehlak olunmuş müxtəlif nemətlərin sonuncu porsiyası eyni faydalılığa malik olduqda maksimal olur. İkinci qanuna o, riyazi şərh vermişdi və nemətlərin faydalılığı ilə onların kəmiyyəti arasındakı asılılığı xətti xarakter daşımışdır.

Qossen iqtisadiyyatda optimal tarazlığa nail olunmasının ümumi sosial-iqtisadi şərtlərini formalaşdırmışdı. Bu şərtlərin yaradılması üçün ona müasir olan kapitalist iqtisadi sisteminin islahatının aparılmasını zəruri hesab etmişdir. Onun irəli sürdüyü şərtlərə: hər bir adama, onun üçün əlverişli olan istehsal sferasına azad daxil olmasının təmin olunması, mübadilə üçün



downloaded from KitabYurdu.org

əlverişli şəraitin yaradılması, hər cür inhisarın və istehsal məhdudiyyətlərin aradan qaldırılması daxildir. O, torpaq, onda işləmək arzusunda olan hər bir adam üçün əlçatan olması üçün onun milliləşdirilməsini nəzərdə tutmuşdur. Qossen həm də təhsilin ümumiliyini, pulun sabitliyini, istehsalçılar üçün dövlət kreditini, istehsalçıların əmək məhsuluna təminatlı hüququnu nəzərdə tutmuşdu.

Onun əməyin ağırlıq həddi nəzəriyyəsinə görə, təklif əməklə müəyyən olunur. Əmək əvvəlcə zövq gətirir, yorğunluq halı başladıqdan sonra isə ağrılı olur. Qossen nemətin həddi faydalılığı ilə onun istehsalına çəkilən əməyin həddi məsrəfinin müqayisəsi əsasında fərdi istehlak ilə fərdi istehsal arasındakı özünün formalaşdırdığı və sonradan Qossenin ikinci qanunu adını almış tarazlıq prinsipini aşağıdakı şəkildə ifadə etmişdir: «həyatda maksimum zövqə nail olmaq üçün insan müxtəlif növ zövq aldığı zaman öz vaxtını və gücünü elə bir qaydada bölməlidir ki, nemətin istehlakından hər bir alınan zövqün atom həddinin qiyməti, əgər insan bu atoma özünün enerji sərfinin sonuncu anında nail olursa, o, keçirdiyi yorğunluğa bərabər olmalıdır». Qossen ehtiyatda olan sonuncu nemətin faydalılığını həddi yox, sonuncu atomun dəyəri adlandırmışdır. İstehlak və əməkdən alınan zövq və əməyin ağırlığı arasındakı fərq faydalılığın ümumi faydasıdır. Əmək, bu fərq maksimal nöqtəyə çatdıqda dayanır. Qossen tarazlıq prinsipini də riyazi düstür vasitəsilə ifadə etmişdir.

Qossen mübadilə prinsipini də maksimum zövq konsepsiyası əsasında şərh etmişdir. O, faydalılıqların mübadiləsinə faydalılığın artım mənbəyi kimi baxmışdır. Hər bir iştirakçı mübadiləyə onun üçün az faydalı olan neməti verir və əvəzində ona daha faydalı olanını alır. Qossenə görə, hər bir nemət insanlar arasında elə bölünməlidir ki, hər bir kəsin əldə etdiyi hər bir nemətin son atomu onun üçün digər hər kəs üçün onun olduğu kimi, o cür faydalı olsun. Qossendə bu şəraitdə tarazlığa nail olunur və mübadilədən maksimum fayda götürülür. Mübadilədə qiymət satılan nemətlərin artan faydalılığı (çünki ehtiyat bununla azalır) və alınan nemətlərin azalan faydalılığı (mübadilənin bütün iştirakçılarında ehtiyatın artdığından) arasındakı tarazlıq nöqtəsinə uyğun olur.



downloaded from KitabYurdu.org

# XV FƏSİL. MARJİNALİZMİN İNGİLTƏRƏ VƏ LOZANNA MƏKTƏBİ

İngiltərədə faydalılıq həddi nəzəriyyəsinin **banisi U.S.Cevons** (1835-1882) olmuşdur. Onun əsas «Siyasi iqtisadın nəzəriyyəsi» (1871) əsəri olmuşdur.

Qossen və Avstriya məktəbinin nümayəndələrindən fərqli olaraq Cevonson hesab edir ki, subyektiv faydalılığın kəmiyyətcə müəyyən olunması və qiymətləndirilməsi yalnız əmtəə, xidmət və istehsal vasitələrinin bazar qiymətində təzahür edə bilir. O, «fərqsizlik qanununu» yaradır. Bu qanuna görə «eyni bir bazarda, eyni bir vaxtda, eyni bir məhsula iki müxtəlif qiymət ola bilməz».

Cevonson tərəfindən barter mübadilə nəzəriyyəsi dəqiq formalaşdırılmış, Qossenin ikinci qanununun riyazi formulası açıq-aydın verilmiş, qısa müddətli nöqteyi-nəzərdən əmək təklifinin qrafik nəzəriyyəsi və bəzi böyük, lakin həyata keçməmiş faydalılıq əsasında yeni tip iqtisadi təhlilin perspektivləri yaradılmışdır.

Avstriya məktəbinin nümayəndələri kimi Cevonson iqtisad elminin məqsədini insanın maksimal zövq olması şəraitini öyrənməkdə görür və göstərir ki, iqtisad elmi faydalılığın əhəmiyyətini tam və dəqiq tədqiq etməlidir, bunun üçün isə insanların arzu və tələbatını öyrənməlidir. Onun faydalılıq haqqında təsəvvürü Bentam nəzəriyyəsinə əsaslandığından o, iqtisad elmini zövq və iztirabı (əzabı) hesablama kimi şərh etmişdir. Qossen kimi o da zövqü maksimal dərəcədə artırmağı iqtisad elminin problemi hesab etmişdir.

Cevonson Bentamdan fərqli olaraq zövq və əzabın ölçü vahidi olmadığından, təcrübədə faktiki olaraq onların ölçülməsini mümkünsüz hesab edir. Lakin o, faydalılığın azalması qanununa əsasən faydalılığı ölçür və onun zövq kimi azaldığını söyləyir, zövqlə müqayisə edir. O, tələbat təmin olunduqca predmetin faydalılığından alınan hisslərin azalmasına əsaslanaraq bildirir ki, «eyni bir nemətin hissləri qeyri-bərabər faydalılığa



downloaded from KitabYurdu.org

malikdir». Belə ki, su müəyyən miqdara qədər zəruri olur, sonra isə onun faydalılığı sıfıra qədər aşağı düşərək, həm də mənfi kəmiyyət olur. Bu cür vəziyyətin istənilən digər predmetlərə tətbiqini mümkün hesab edir.

Cevonson mübadilə prosesinə cəlb olunmuş iki fərdi müşahidə edərək faydalılıq həddi nəzəriyyəsinə gəlmişdi. O, faydalılıq həddinin azalması qanununu fizioloji prinsiplə əsaslandırmışdı. O dövrdə bunu ancaq Cevonson etmişdir. O, faydalılığın azalması qanununu iqtisad qanunu adlandırmış və bu qanunu nemətlərin istehlakının bütün növlərinə aid etmişdi. O, faydalılıq həddi nəzəriyyəsinə əsasən «mübadilə bərabərliyi» nəzəriyyəsini yaratmışdır. Bu mübadilənin tarazlıq nəzəriyyəsidir, yəni istehlak olunan əmtəələrin artım nisbətinin son növbədə təmin edilən tələbatların intensivliyinin uyğun nisbətinə və yaxud Cevonsonun ifadəsinə görə «faydalılığın sonuncu dərəcəsi»nə bərabərləşməsidir, iki əmtəənin mübadilə olunduğu nisbət isə faydalılığın sonuncu dərəcəsinə əks proporsional olmasıdır. Cevonson mübadilə bərabərliyi nəzəriyyəsilə iqtisadi ədəbiyyatda onun adını daşıyan teoremanı formalaşdırmışdı: səmərəli istehlak zamanı alınan əmtəələrin faydalılığının sonuncu dərəcəsi onların qiymətinə proporsionaldır. Cevonson «faydalılıq həddi» terminini işlətməmiş, o, «faydalılığın sonuncu dərəcəsi» ifadəsindən istifadə etməyi üstün tutmuşdu. Cevonson nemətin az miqdarda ehtiyatının sonsuz olaraq sonuncu artımının faydalılığını – faydalılığın sonuncu dərəcəsi adlandırır və faydalılığı sıfıra bərabər olan artımını «faydalılıq həddi» termini ilə göstərir. O, qiymətin əsası kimi faydalılığın sonuncu dərəcəsini götürür və faydalılığın funksiyasını fasiləsiz hesab edir. Əmtəələrin mübadiləsi faydalılığın sonuncu dərəcəsinin bərabərliyi üzərində qurulmuşdur. Mübadilə olunan əmtəələr arasında nisbət onların faydalılıqlarının sonuncu dərəcələrinin əks nisbətinə bərabərdir.

Cevonson əsaslandırır ki, nemətin faydalılığının məcmusu sonsuz kəmiyyətdir. Çünki nemətin birinci elementi sonsuz faydalılığa malikdir. O, faydalılığa insanın nemətin istehlakından aldığı zövq kimi baxmış, faydalı (+) anlayışı ilə yanaşı faydasız



downloaded from KitabYurdu.org

(0), antifaydalı (-) anlayışlarını da işlətmişdir. Uyğun olaraq istehlakı zövq gətirən və iztirabı aradan qaldıran nemətləri və xidmətləri faydalıya (+), nə zövq, nə də iztirab gətirənləri faydasıza (0), iztirab gətirənləri isə antifaydalıya (-) aid etmişdir. O, göstərir ki, yeyinti məhsullarının istehlakının ümumi faydalılığı sonsuzluğa, sonuncu hissəsinin faydalılığı isə, yaxud faydalılıq həddi sıfıra bərabər olur.

*Cevonsonun iqtisad elminə verdiyi mühüm töhfə onun yaratdığı əmək təklifi nəzəriyyəsidir.* Onun bu nəzəriyyəsinə görə əmək özünün başlanğıc mərhələsində müsbət hisslər yaradır, lakin sonra əzablı, yəni antifaydalı olur.

Əməyin ağırlığı yerinə yetirilən işlərin kəmiyyətinin funksiyasıdır. Nemətin istehsalı əmək məhsulundan alınan zövq (fayda), əməkdən alınan mənfi hisslər (antifayda) az olana qədər davam edir. Əməyin antifaydalılığı və əmək məhsulunun faydalılığı tarazlaşdığı vaxtı məhsulun istehsal prosesi kəsilir. Əmək mübadilə proporsiyalarına birbaşa deyil, dolayısı təsir edir. Əmək nəticəsində nemətin kəmiyyəti dəyişir, deməli, onların faydalılığının sonuncu dərəcəsi də dəyişir.

Cevonson əməyin ağırlıq və faydalılıq bərabərliyini mübadilə bərabərliyi ilə birləşdirərək yazır: «mübadilə olunan əmtəələrin kəmiyyəti sərf olunan əməyin məhsuldarlığına düz mütənasibdir; həmin əmtəələrin dəyərinə, qiymətinə və istehsalın xüsusi xərclərinə və həmçinin onların həddi faydalılığına əks mütənasibdir».

Cevonson indekslər problemini dərin tədqiq etmiş və ilk dəfə 50 illik dövr ərzində baza ili göstəriciləri üzrə ölçülmüş-biçilmiş qiymət indeksi qurmuşdu. Onun ilk dəfə cəsarətlə tədqiq etdiyi tədqiqatlardan biri də günəş şüaları tsikli ilə işgüzar fəallıq arasında əlaqə haqqında iş olmuşdur. Onun fikrincə, günəş fəallığından doğan istilik ahəngi məhsuldarlığa və burada bütövlükdə iqtisadi fəallığa təsir edir.

Cevonson kapitalın məhsuldarlığını yalnız zamanın funksiyası kimi şərh etmiş, investisiyanı 2 göstəricilə: investisiya olunmuş vəsaitin həcmi və həmin vəsaitin investisiya olunduğu



downloaded from KitabYurdu.org

müddət ilə ölçmüşdür. Onun ideyasının mahiyyəti belədir: kapitalın artımı investisiya qoyuluşu müddətinin davamının artması ilə eyni gücə malikdir. Bu ideya avstriya məktəbinin kapital nəzəriyyəsində mühüm yer tutur. Cevonson göstərir ki, faiz dərəcəsi məhsul artmının kapital artımına olan nisbətindən asılıdır.

Cevonson riyazi və xüsusən də statistika metodundan geniş istifadə etmişdi. O, faydalılığın, dəyərin, tələb və təklifin, kapital və faizin tədqiq olunmasına differensial hesablamanın tətbiqini iqtisad elminin dəqiq elmə çevrilməsinin zəruri şərti hesab etmişdir.

İqtisad elminə mühüm töhfə vermiş insanlardan biri də İsveçrəli **L.Valras** (1834-1910) olmuşdu. O, Lozanna Universitetinin professoru, Lozanno məktəbinin banisi olmuşdur. Valras əsas əsəri olan «Xalis iqtisad elminin elementləri»ni 1874-cü ildə nəşr etdirmişdi. *Onun dahiliyi ondan ibarətdir ki, Kurno mümkünsüz hesab etdiyi yetgin və geniş formada ümumi iqtisadi tarazlığın riyazi nəzəriyyəsini yaratmışdı.* O, ümumi iqtisadi tarazlığın qapalı riyazi modelini işləyib hazırlayan ilk tədqiqatçıdır. Onun məqsədi abstrakt səviyyədə mükəmməl rəqabət şəraitində bazarın fəaliyyətini tədqiq etmək və bazarın həqiqətdə tarazlığa doğru necə irəlilədiyini göstərmək olmuşdur. O, iqtisadiyyatda bütün qiymət və kəmiyyətlərin qarşılıqlı asılılığını görə bilmiş və bu qarşılıqlı əlaqələri marjinalist prinsipi əsasında izah etmişdir. Onu da qeyd edək ki, onun iqtisadiyyatda bütün qiymət və kəmiyyətlərin qarşılıqlı asılılıqda olması ideyası o dövr üçün iqtisadiyyat elmində yeni mühüm ideya kimi qiymətləndirilir. Onun iqtisad elminə olan böyük töhfəsi isə *istehlakçı davranışı nəzəriyyəsidir.* O, müasirlərindən fərqli olaraq bu nəzəriyyəni dərindən və cəsarətlə təhlil etmişdir. Onun modelinin əsasında istehsalda və mübadilədə bütün iştirak edənlərin 2 böyük qrupa: məhsuldar xidmətlərin sahibləri (torpaq, kapital, əmək) və istehsalın potensial amillərini hərəkətə gətirən sahibkarlara bölgüsü durur. Məhsuldar xidmətin sahibləri göstərilən xidmətlərin satıcısı və eyni zamanda istehlak şeylərinin alıcısıdır, sahibkarlar əksinə, məhsuldar xidmətlərin alıcısı və is-



downloaded from KitabYurdu.org

tehlak məhsullarının satıcısı kimi çıxış edir. Beləliklə, məhsuldar xidmətlər və istehlak malları bazarları qarşılıqlı əlaqədədir.

Valras tələb əyrisini həddi məhsuldarlıq sxemindən çıxarmış, təklif əyrisini tamamilə həddi məhsuldarlıq düşüncəsi əsasdan çıxarmağa çalışmış, bazar qiymətəmələgəlməsi nəzəriyyəsini işləyib hazırlamış və bütün elementləri ümumi tarazlıq strukturu çərçivəsində birlikdə (birgə) izah etmişdi.

Valras, onun müasirləri başa düşmədiyi: məhsulların və amillərin qiyməti eyni vaxtda müəyyən olunması və çoxlu bazarlarda eyni vaxtda tarazlığın mümkünlüyü haqqında fikir söyləmişdir. Bu cür fikir söyləməsinə onun hər bir insan tərəfindən verilən amilin xidmətinə onun (insanın) özünün tələb yaratması düşüncəsi təkan vermişdir. Valrasın mülahizəsinə görə, müəyyən qiymətdə məhsuldar xidmətlərə təklif əyrisi geriyə əyilməyə başlayır. Çünki bu təklif əyrisi onun fikrinə görə, bir istehsal amilinin sahibinin yerdə qalan bütün istehsal amillərinin xidmətinə məcmu tələb əyrisindən başqa bir şey deyil.

Valrasın modeli məhsuldar xidmətlər və istehlak malları bazarlarının qarşılıqlı fəaliyyət sistemidir. Bu sistemdə iqtisadiyyatda tarazlıq üç şərt gözlənildikdə təmin olunur: 1) məhsuldar xidmətlərə səmərəli tələb bu xidmətlərə bərabər olur; 2) məhsullar bazarında qiymətlər dəyişməzdir; 3) məhsulların satış qiyməti məhsuldar xidmətlərdə ifadə olunan məsrəflərə bərabərdir. İlk iki şərt mübadilənin tarazlığına, üçüncü şərt istehsalın tarazlığına aiddir. Tarazlığın bu şərtlərini Valras 4 qarşılıqlı bərabərlik sistemi vasitəsilə ifadə etmişdir.

Birinci sistem məhsuldar xidmətlərin təklifini xarakterizə edir. Məhsuldar xidmətlərin hər birinin (torpaq, əmək, kapital) təklifinə bu xidmətlərin və bütün hazır məhsulların bazar qiymətlərinin funksiyası kimi baxılır.

Bərabərliyin ikinci sistemi hazır məhsullara tələbi xarakterizə edir. Hər bir məhsullara tələb bütün məhsuldar xidmətlərin və bütün məhsulların qiymət funksiyası kimi baxılır.



downloaded from KitabYurdu.org

Üçüncü sistem məhsuldar xidmətlərin istehlakını əks etdirir. Bütün hazır məhsulların istehsalına hər bir məhsuldar xidmət məsrəfinin məbləği bu cür xidmətə məcmu təklifə bərabər olmalıdır.

Dördüncü, sistem məhsuldar xidmətlərin və hazır məhsulların qiymət nisbətini göstərir. Hər bir hazır məhsulun qiyməti onun istehsalına çəkilən bütün istehsal xidmətlərinin qiymət məbləğinə bərabərdir.

Valrasın modelində naməlum kəmiyyətlərin sayı bərabərliklərin sayına bərabərdir. Burada naməlum olan – tarazlıq qiyməti və mübadilə kəmiyyətləridir. Onun modeli məzmundan, reallıqdan daha çox formuladır. Onun özü öz modelində tarazlığı təmin edən alət görməmişdi. Onun sistemi azad rəqabət şəraitində daimi tarazlığın mümkünlüyünün və iqtisadiyyatın bütün subyektlərinin faydalılığı maksimallaşdırmağa can atmasının ancaq sübutudur. Problem azad rəqabət prosesində əmələ gələn nisbi qiymətlərin tarazlığının Valras sisteminin əsaslarına (köklərinə) dəqiqliklə bərabər olmasını göstərmək olmuşdur.

Valras bir çoxlarının dediyi kimi, təkcə bərabərlik və naməlum (məchul) kəmiyyətləri hesablamamışdır. O, həm də tarazlığın sabitliyi və determinallığı probleminə də toxunmuşdur. Valrasın tarazlığın sabitliyinin təhlili qiymətin dəyişməsinin artıq olan tələbin kəmiyyətindən bir başa asılı olması ehtimalına əsaslanmışdır. O, tarazlığın determinallığı problemini hiss nəzəriyyəsinin (hiss ilə müəyyən etmə) köməyi ilə həll etmişdir. Hiss nəzəriyyəsi ilə o, bazar iqtisadiyyatı tarazlı vəziyyətə irəlilədikcə, onun tarazlığı necə həll etdiyini göstərməyə çalışmışdır. Valras sabitliyə Marşalldan fərqli olaraq bir bazarda deyil, bir neçə bazarda baxmışdır.

Valras resursların ehtiyatı və onların köməyi ilə yaranan xidmət və gəlirlər arasında əsaslı fərqi dəqiq müəyyən edən ilk tədqiqatçıolmuşdur. O, bütün mövcud resursları əsas kapital kimi və ya ümumiyyətlə xərclənməyən və yaxud hər hansı bir vaxt müddətində xərclənən ictimai sərvətin bütün formaları kimi müəyyən edir. Dövriyyə kapitalını və ya gəliri o, qısa müddətdə istifadə edilən bütün nemət kimi dərhal xərclənən ictimai sərvə-



downloaded from KitabYurdu.org

tin bütün formaları kimi müəyyən edir. Kapital aktivlərinin gətirdiyi gəlirin dövriyyə kapitalı ilə bu spesifik eyniləşdirilmə göstərir ki, Valrasda kapital nəzəriyyəsi yalnız uzun müddət istifadə olunan məhsuldar nemətlərə aiddir. Nəzərdə tutulur ki, istehsal prosesində iştirak edən xammal və digər nemətlər, tərkibində bunların daxil olduğu əmtəələr istehsalının bir dövrü ərzində bütövlükdə istehlak edilir. Valras hesab edir ki, kapital nemətlərinin qiyməti məlum faiz dərəcəsində onların gətirdiyi xalis gəlirə ciddi surətdə proporsionaldır.

Valras nağd pula olan tələbə də baxmışdır. O göstərir ki, pula olan həqiqi tələb özünü faiz dərəcəsinin azalan funksiyası kimi göstərir. Çünki faiz likvid formada aktıvə sahiblikdən əldə olunacaq faydalılıqdan imtinanın qiymətidir. O, öz sistemində pulu və faizin real dərəcəsini bərabər götürməklə pul nəzəriyyəsini özünü ümumi tarazlıq sisteminə birləşdirmiş olur.

Valrasa görə, bazar tarazlığı sosial cəhətdən əhali üçün xeyirlidir. O hesab edir ki, tarazlıq şəraitində hər bir subyekt qeyri-tarazlıq şəraitindəkindən çox faydalılığa malik olur. Onun sosial-iqtisadi baxışları mükəmməl rəqabətin təmin olunmasına və dövlət tərəfindən yoxsul təbəqənin sosial müdafiəsinə yönəlmişdir. O, yoxsul təbəqənin zəruri vəsaitə malik olmasının yollarını dövlətin *torpağı milliləşdirməsində* görmüşdü.

Valrasın ideyaları birmənalı qarşılanmamışdır. Onun ümumi tarazlıq nəzəriyyəsi sonrakı qırx-əlli illərdə iqtisadçılar tərəfindən ciddi qəbul edilməmişdi. Onun xidməti yalnız bərabərlik və məchul kəmiyyət hesablamaq kimi qiymətləndirilmiş və o, formalizmlikdə və abstraktçılıqda ittiham olunmuşdur. Bütün bunlarla yanaşı, Şumpeter Valrasın əsərini müasir iqtisadi nəzəriyyədə Böyük Xartiya adlandırmışdı.

M.Blauq isə indiki bütün iqtisad elminin tamam Valras ruhda olduğunu göstərir.[1] O, müasir pul, beynəlxalq ticarət, məşğulluq və iqtisadi artım nəzəriyyələri ümumi tarazlıq nəzəriyyəsinin sadələşdirilmiş variantları adlandırmış və yeni iqtisadi rifah nəzəriyyəsinin də həmçinin onun (ümumi tarazlıq nəzə-

[1] М.Блауг Экономическая мысль в ретроспективе. Москва, 1994



downloaded from KitabYurdu.org

riyyəsinin) budağı olduğunu qeyd edir. Onun fikrincə, hətta Marşallın nisbi tarazlığının təhlilinə bu gün ümumi tarazlıq kontekstindən baxılır.

Lozanna məktəbinin digər nümayəndəsi Valrasın varisi **V.Pareto** (1848-1923) olmuşdur. O, özünün «Siyasi iqtisad» dərsliyini 1906-cı ildə nəşr etdirmişdi. Pareto tarazlığın riyazi nəzəriyyəsini inkişaf etdirərək özünün sələflərinin, xüsusən də Valrasın nəzəriyyələrinin əsasında duran çoxlu ideya və kateqoriyalara özünəməxsus yeni qaydada yanaşmış və özündən əvvəlki bir çox nəzəriyyələri inkar etmişdir. Onun məqsədi xalis iqtisadi nəzəriyyə yaratmaq və iqtisad elmini dəyər, xüsusilə də faydalılıq anlayışlarından azad etmək olmuşdur. O, hadisələr arasında səbəb-nəticə əlaqələrini deyil, funksional əlaqələrini təhlil etmiş, məntiqi metodu riyazi metodla əvəz etmişdir. O, nemətin faydalılığının kəmiyyətcə müəyyən olunması, «mənfi faydalılıq», «məsrəf ağırlığı» anlayışları əvəzinə kəmiyyət deyil, sıra mənası verən «üstünlük» anlayışını işlədir. Paretoya görə mövcud nemətin digərindən faydalı olması o deməkdir ki, insan bu neməti digərindən üstün tutur. Pareto ayrı-ayrı nemətlərin deyil, onların dəstinin üstünlüyünü (sıravi faydalılığını) müqayisə edir. Bunu həmçinin ağırlığın «mənfi üstünlüyünə» də aid etmişdir. Üstünlüyü xarakterizə etmək üçün Pareto **F.Edcuort** (1845-1926) tərəfindən təklif olunmuş «etinasızlıq əyrisi» ideyasından istifadə etmişdir. Edcuort «etinasızlıq əyrisini» iki nemətin, onların bərabər faydalılığını təmin edən birləşmələri müstəvisi üzərində əksi kimi müəyyən edir. Pareto isə Edcuortdan fərqli olaraq müstəvi üzərində əyridən deyil, üçölçülü məkan səthindən istifadə etmişdir.

Paretoya qədər bütün iqtisadçılar gəlirlərin müxtəlif bölgüsü ilə əlaqədar olan müxtəlif optimumların müqayisəsi haqqında məsələni inkar etmişlər. Pareto göstərir ki, real gerçəklikdə istehsal resurslarına görə mülkiyyətin bölgüsündən asılı olaraq tarazlı iqtisadiyyatın çoxlu variantları mövcuddur. O, bu təcrübədən uzaqlaşmış və kəmiyyət faydalılığını inkar etməklə yanaşı, həm də faydalılığın şəxslərarası müqayisəsindən də imtina et-



downloaded from KitabYurdu.org

mişdir. Buna görə də o, rifahdakı bütün dəyişiklikləri qiymətləndirməkdən imtina etmişdir. Faydalılığın şəxslərarası müqayisəsindən imtina o deməkdir ki, yalnız hamını ya yaxşı və ya da pis edən və yaxud digər kiməsə pis olmayan dəyişikliklər qiymətləndirilməlidir; kiminsə başqasının hesabına birisinin rifahının yaxşılaşdırılması faydalılığın kəmiyyət vahidləri ilə qiymətləndirilə bilməz. Pareto tarazlığı yeni cür qiymətləndirir. *Bu «Pareto optimumu və yaxud Pareto səmərəliliyi» adlanır.* Pareto optimumu əmtəə və xidmətlərin istehsal və mübadilə prosesinin transformasiyası yolu ilə başqa bir subyektin rifahına zərər vurmadan, heç olmasa bir subyektin rifahının yaxşılaşdırılması mümkün olmayan vəziyyəti nəzərdə tutur. Çoxlu Pareto optimumlarının da olması ehtimal olunur. Paretoya görə, iki müqayisəli variantlardan hansında heç olmasa bir subyektin vəziyyəti yaxşı, yerdə qalanlarınkı isə son dərəcə pis deyilsə, o sosial cəhətdən səmərəli variantdır.

Paretonun xidməti ondan ibarətdir ki, onun ictimai rifah müəyyənliyində səmərəlilik və ədalət arasındakı fərq büllur kimi şəffaf olmuşdur. Lakin Pareto iqtisadi siyasətə yalnız bir səmərəlilik düşüncəsinə əsasən qiymət verilməsini etibarlı saymışdır.

Ayrı-ayrı iqtisadçıların rifahın dəyər mühakiməsi müxtəlif olmuşdur. Rifah optimumunu faydalılığın şəxslər arası müqayisəsiz müəyyən olunması cəhdi Paretoya qədər də olmuşdur. Paretoya yaxın olan yeni rifah nəzəriyyəsi şəxslərarası müqayisəyə əl atmadan ümumi rifah haqqında danışmağın mümkünlüyünü izah etmək təşəbbüsü olmuşdur.

Paretoya görə, resursların optimal bölgüsü konsepsiyası üç ilk şərtə (zəminə) əsaslanır: 1) hər bir adam hamıdan yaxşı özünün şəxsi rifahını qiymətləndirməyi bacarır; 2) ictimai rifah yalnız ayrı-ayrı adamların rifah vahidləri ilə müəyyən edilir; 3) ayrı-ayrı adamların rifahı müqayisə olunmayandır. Bunların hər üçü qiymət mühakiməsidir və bununla əksər iqtisadçılar razıdır. Bu isə o deməkdir ki, rifah nəzəriyyəsi dəyərdən azad, sərbəst surətdə mövcud olmur.



downloaded from KitabYurdu.org

Yeni rifah nəzəriyyəçiləri faydalılığın şəxslərarası müqayisəsini yalnız rifah nəzəriyyəsinə mütləq daxil olan qiymət mühakimələrinin ən mühüm olmayan bir tipi hesab etmişlər.

Pareto da iqtisadiyyatda tarazlığa nail olmağın əsas meyarı: istənilən iki nemət (məhsullar və amillər) arasında əvəzetmənin subyektiv və obyektiv həddi normaları bütün ev təsərrüfatları və müvafiq (uyğun) olaraq bütün istehsal vahidləri üçün bərabər olması və bu subyektiv və obyektiv nisbətin bir-birinə bərabərləşməsi lazımdır. O göstərir ki, bunun üçün beş şərt lazımdır və bütövlükdə götürdükdə bunlar maksimal rifaha nail olmaq üçün zəruri əsasdır. Bu şərtlər aşağıdakılardır:

- Qiymətə görə üstünlüyün (faydalılıq həddinin) ölçülməsi bütün əmtəələr (nemətlər) üçün bərabərdir.
- İstənilən subyekt üçün gəlirlərin və xərclərin məbləği bərabərdir.
- Qeyri-tarazlıq vəziyyətindən tarazlıq vəziyyətinə keçid nemətin kəmiyyətinin nə artmasını və nə də azalmasını tələb etmir.
- Hazır məhsulların qiymətləri onların istehsalına çəkilən məsrəflərə bərabərdir.
- Məhsuldar nemətlər istehsal prosesində tam istifadə olunur.



downloaded from KitabYurdu.org

# XVI FƏSİL. AVSTRİYA MƏKTƏBİ VƏ ONUN METODOLOGİYASI

Marjinalizmin ən nüfuzlu məktəbi olan avstriya məktəbi XIX əsrin 70-ci illərində yaranmışdır. Bu məktəb faydalılıq həddi nəzəriyyəsi üzrə iqtisad elmində xüsusi yer tutur. Avstriya məktəbinin nümayəndələrinin konsepsiyalarının metodoloji əsasını liberal yönümlü klassiklərin faydalılıq haqqında baxışları, G.Qossenin «Zövq təlimi», onun «qanunları»nın prinsipləri təşkil etmişdir.

Avstriya məktəbinin yaradıcısı **K.Menger** (1840-1921), əsas nümayəndələri **E.Bem-Baverk** (1851-1919) və **F.Vizer** (1881-1926) olmuşdur.

Avstriya məktəbinin konsepsiyaları K.Mengerin «Siyasi iqtisadın əsasları» (1871), «İctimai elmlərin, xüsusən siyasi iqtisadın metodları haqqında tədqiqat» (1883), E.Bem-Baverkin «Təsərrüfat nemətlərinin dəyər nəzəriyyəsinin əsasları» (1886), «Kapital və mənfəət» (1884), «K.Marksın nəzəriyyəsi və onun tənqidi» (1886), F.Vizerin «Təsərrüfat dəyərliliyinin mənşəyi və əsas qanunları» (1884), «Təbii dəyərlilik» (1899), «İctimai təsərrüfat nəzəriyyəsi» (1914) əsərlərində verilmişdir.

Avstriya məktəbinin nümayəndələrinin tədqiqatlarının əsasında subyektiv və psixoloji amillər durduğundan bu məktəb həm də subyektiv və ya subyektiv-psixoloji məktəb də adlanır. Onun nəzəriyyəçiləri hesab edirlər ki, iqtisadi qanunlar psixoloji təbiətə malikdir. Avstriya məktəbinin metodologiyasına ictimai münasibətləri inkar edən *fərdiçilik, Robinzonçuluq* xas olmuşdur.

Mengerin metodologiyası iqtisadi təhlildə əsas kateqoriyadan istifadə prinsipinə əsaslanır və o, səbəb-nəticə yanaşmasına daha çox meylli olmuşdur. O, əsas kateqoriya kimi dəyəri (qiyməti) götürür və onu səbəb-nəticə prinsipilə istehsal xərclərinin dəyişməsi və ya əmək məsrəflərilə deyil, faydalılıqla müəyyən edir. Menger hesab edir ki, elmin obyektləri arasında funksional yox, səbəb-nəticə əlaqələri və asılılıqları var. Ona görə də o, bu obyektləri onların səbəb-nəticə əlaqələri və onları idarə edən qanunlar vasitəsilə öyrənmişdir.

Avstriya məktəbinin metodologiyası mikro təhlilə əsaslanır, onda istehsal sferasına deyil, istehlak və tələb üstünlük təşkil edir; həddi, marjinalist yanaşma nemətin faydalılığının tədqiqinə tətbiq olunur. Tədqiqatın çıxış nöqtəsini istehsal sferasındakı insanlar arasında olan iqtisadi münasibətlər deyil, şəxsi istehlak sferasında baş



downloaded from KitabYurdu.org

verən insanın nemətə olan münasibəti, tədqiqatın predmetini isə istehlak qiymətləndirilməsi, istehlak seçimi təşkil etmişdir. Tədqiqat obyekti kimi cəmiyyətdən təcrid olan ayrı-ayrı fərdi təsərrüfatlar götürülmüşdür. Ayrı-ayrı fərdlərin psixologiyası, duyğuları və davranışı əsas götürülür və öyrənilir. İqtisadiyyata, iqtisadi resurslara sərəncam verən subyektlərin sistemi kimi, təsərrüfatların mexaniki məcmusu kimi baxılır.

Avstriya məktəbinin ideoloqları iqtisadi təhlildə əsasən *abstrakt-deduktiv* metoddan istifadə etmişlər. Bu metodu Menger alman tarixi məktəblərinin nəzəri əsasdan məhrum olan, iqtisadiyyatda qanun anlayışının özünü və iqtisadi nəzəriyyənin imkanlarını inkar edən induktiv tarixi-genetik metoda qarşı qoymuş və nəzəriyyəsiz elmin inkişafının qeyri-mümkünlüyü haqqında müddəanı müdafiə etmişdir. Bu məktəbin əsas vəzifəsi əmək-dəyər, xüsusən marksist dəyər və izafi dəyər nəzəriyyəsini inkar etmək olmuşdur.

Avstriya məktəbinin nümayəndələri siyasi iqtisadın əsas vəzifəsini insanın əşyaya, onu əhatə edən təbiətə olan münasibətini öyrənməkdə, insanın tələbatları və onları ödəyən vasitələr arasındakı münasibətləri öyrənməkdə görürlər. Bem-Baverk göstərir ki, siyasi iqtisad insanın maddi nemətlərə olan münasibətini izah edən elmdir və o subyektin duyğularında iqtisadi hadisəni izah edən kökləri axtarıb tapmalıdır. Bu məktəbin nəzəriyyəçiləri məhdud resursların səmərəli bölgüsünü öyrənməyi siyasi iqtisadın problemi hesab edirlər.

Avstriya məktəbinin nəzəriyyələr sistemində mərkəzi *yeri faydalılıq həddi nəzəriyyəsi* adlanan dəyər nəzəriyyəsi tutur. Bu əmək məsrəfilə deyil, istehlak dəyərilə müəyyən olunan subyektiv dəyər nəzəriyyəsidir. Onun əsasında nemətin faydalılığı durur. Dəyər nemətin son ədədinin faydalılığı ilə müəyyən olunur, onu insanın mühüm olmayan tələbatını ödəyən nemətin son vahidinin faydalılığına verilən subyektiv qiymət müəyyən edir. Faydalılıq həddi subyektiv dəyər nəzəriyyəsində əsas kateqoriya hesab olunur. Avstriya məktəbinin nümayəndələri faydalılığa, nemətlərin fərdlər tərəfindən subyektiv qiymətləndirilməsi kimi baxmışlar. Bem-Baverk iki növ faydalılığı: abstrakt və konkret faydalılığı bir-birindən fərqləndirmişdir. O, abstraktı «ümumi faydalılıq» kimi şərh edir və bu nemətin insanın, müəyyən bir tələbatını ödəmək qabiliyyətidir. Konkret faydalılıq nemətin məlum vahidinin faydalılığının subyektiv qiymətləndirilməsidir. Bu subyektiv qiymətləndirmə iki amildən: mövcud nemətin ehtiyatının olmasından və ona tələbatın təmin



downloaded from KitabYurdu.org

edilmə dərəcəsindən asılıdır. Bem-Baverk göstərir ki, nemət nə qədər az tapılırsa və ona tələbat nə qədər çox olursa, onun faydalılığı da bir o qədər yüksək olur. Məsələn, su almazdan faydalıdır. Lakin almazın ehtiyatı suyun ehtiyatına nisbətən daha məhduddur. Almazın faydalılığı suyun faydalılığından yüksəkdir, ona görə də almazın dəyəri yüksəkdir. Amma susuz səhrada olan adam üçün suyun faydalılığı olduqca yüksək olacaqdır. Bu halda suyun dəyəri almazın dəyərindən yüksək olacaqdır. Bem-Baverkin fikrincə, dəyərin yaranması üçün zəruridir ki, faydalılıqla nadirlik birləşsin.

Bem-Baverk dəyəri obyektiv və subyektiv dəyərə bölür. Obyektiv mənada dəyər – «şeyin bir obyektiv nəticə vermək qabiliyyətidir» və subyektiv mənada dəyər – «subyektin rifahı» üçün nemətin əhəmiyyətidir.[1] Bununla yanaşı, o, subyektiv dəyəri nemətin nadirliyilə, yəni ehtiyatın kəmiyyətilə və tələbatın təmin edilmə dərəcəsilə bağlayır.

K.Mengerə görə isə «dəyər insanların həyatını saxlamaq və onların rifahı üçün onların sərəncamında olan nemətlərin faydalılığı haqqında onların mülahizəsidir və o insan şüurundan kənarda mövcud deyildir».[2]

K.Menger faydalılıq həddi nəzəriyyəsinin əsas müddəalarını ilk dəfə «Siyasi iqtisadın əsasları» əsərində şərh etmişdir. O, faydalılıq həddi nəzəriyyəsinin əsas müddəalarını mübadilənin fərdi aktlarını təsvir etməklə formalaşdırmışdır. Faydalılıq həddi nəzəriyyəsi aşağıdakılara: 1) «nemətin faydalılığının azalması qanununun» qəbuluna; 2) buradan çıxan faydalılıq həddi kateqoriyasına və 3) bu faydalılıq həddi həm də əmtəələrin dəyərini və son nəticədə onların bazar qiymətlərini müəyyən etməsi fikrinə əsaslanır.

Faydalılıq həddi nəzəriyyəsinin formalaşdırmasında Qossenin «qanunları» böyük əhəmiyyət kəsb etmişdir. Onu da qeyd edək ki, «tələbatların təmin edilməsi qanunları» faydalılıq həddi nəzəriyyəsinin müəllifləri tərəfindən sonradan onlar «qanun» adlandırılmışdır. K.Menger Qossenin 1-ci qanununu, yəni hər hansı bir tələbat təmin etdikcə zövqün dərəcəsinin azalması və məlum həddə sıfıra çatması müddəasını nemətin faydalılığının qiymətləndirilməsinə tətbiq etmiş

---

[1] Е.Бем-Баверк Основы теории ценности хозяйственных благ. СПБ, 1903, стр. 8,7

[2] К.Менгер Основания политической экономии. Одесса, 1902, стр. 85



downloaded from KitabYurdu.org

və bundan sonra o «nemətin faydalılığının azalması qanununu» adını almışdır.

Qossenin ikinci qanunu (maksimum zövq almaq üçün zəruri olan bütün tələbatların tam təmin edilməsi mümkün olmadığı şəraitdə, onların təmin edilməsini onların intensivliyi eyni olan səviyyədə dayandırmaq) sonradan «faydalılıqların hədd bərabərliyi qanunu»na dəyişdirilmişdir.

K.Menger «Siyasi iqtisadın əsasları» əsərində ilk dəfə olaraq faydalılığın istehlak şeylərinin nadirliyindən asılılığını göstərməyə çalışmışdı. O, burada qeyd edir ki, resursların məhdudluğu şəraitində fərd qarşısında tələbatların ödənilməsi üçün öz vəsaitini ən yaxşı qaydada necə bölmək problemi durur. Bu problemi həll etmək üçün Menger sxem qurur və nemətlərin müxtəlif növlərini onların təmin etdiyi tələbatların əhəmiyyətindən asılı olaraq sıraya düzür. Öz növbəsində hər bir tələbatın ödənilməsinin ardıcıllıq aktları da sıralanır, çünki istehlak olunan nemətin birinci vahidi fərd üçün ikinciyə nisbətən daha qiymətlidir, ikinci üçüncüyə nisbətən daha qiymətlidir və i.a. tam təmin olunana, sonuncu vahidinin təmin etmə dərəcəsi sıfıra bərabər olana kimi bu cürdür.

K.Mengerin faydalılıqlar cədvəlində üfüqi xəttdə abstrakt faydalılığın (çörək, ət, geyim, ayaqqabı, meyvə, çaxır və i.a.) azalan qiyməti, şaquli xəttində isə bu növ nemətin hər birinin konkret faydalılığının azalan qiyməti yerləşdirilir. Cədvəldə rum rəqəmləri abstrakt faydalılığı, ərəb rəqəmləri isə konkret faydalılığı göstərir. Cədvəldə bu nemətlərin istehlakının ilk aktları X neməti üçün müvafiq olaraq 10, 9, 8 və i.a. 1-ə kimi qiymətləndirilir. Öz növbəsində istənilən nemətin istehlakının hər bir sonuncu aktı əvvəlkindən bir rəqəm aşağı qiymələndirilir.



downloaded from KitabYurdu.org

## Mengerin faydalılıqlar cədvəli[1]

| İstehlak aktları (istehlak edilmiş vahidlər) | Nemət | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | I | II | III | IV | V | VI | VII<br>I | VII<br>I | IX | X |
| Birinci | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 |
| İkinci | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 0 |
| Üçüncü | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 0 | |
| Dördüncü | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 0 | | |
| Behinci | 6 | 5 | 4 | 3 | 2 | 1 | 0 | | | |
| Altıncı | 5 | 4 | 3 | 2 | 1 | 0 | | | | |
| Yeddinci | 4 | 3 | 2 | 1 | 0 | | | | | |
| Səkkizinci | 3 | 2 | 1 | 0 | | | | | | |
| Doqquzuncu | 2 | 1 | 0 | | | | | | | |
| Onuncu | 1 | 0 | | | | | | | | |
| On birinci | 0 | | | | | | | | | |

K.Mengerin cədvəlinin məqsədi dəyərin kəmiyyətini və nemətlərin qiymətini faydalılıq həddinin subyektiv qiymətləndirilməsilə müəyyən olunduğunu sübut etmək olmuşdur. Avstriya məktəbinin nümayəndələri dəyəri və onun kəmiyyətini istehsalla və əmək məsrəfilə əlaqələndirməmişlər, onların təlimində dəyəri və onun kəmiyyətini müəyyən edən mexanizm yalnız ehtiyatın kəmiyyətinin tələbatı ödəmək dərəcəsinə və yaxud mövcud nemətin nadirlik dərəcəsinin ona olan tələbatın intensivliyinə olan nisbətilə bağlı olur.

Tütünə (V nemətə) olan tələbatın ödənilməsindənsə, ərzağa (I nemətə) olan tələbatın ödənilməsi müəyyən həddə qədər mühümdür. Lakin artıq ərzağın beşinci ədədi insana elə tütünün istehlakının birinci ədədi kimi məmnunluq gətirir. Bu andan fərd ərzağa və tütünə olan öz tələbatının təmin olunmasını tarazlığa gətirməyə çalışır. Onun üçün ərzaqın altıncı ədədi və tütünün ikinci ədədi,

[1] К.Менгер Основания политической экономии, стр. 91



downloaded from KitabYurdu.org

yeməyin doqquzuncu ədədi və tütünün beşinci ədədi … … … eyni mənalıdır.

Müəyyən nemətin ədədinin dəyəri nədir? Menger bu suala yalnız insanın sərəncamında olan mövcud nemətin ədədinin kəmiyyətinin nə qədər olduğunu bilməklə cavab vermək mümkün olduğunu israr edir. Əgər insan yeddi ədəd ərzağa malikdirsə, birindən məhrum olma onun üçün cədvəldə 4 kimi (ərzaq istehlakının yeddinci aktı) qiymətlənən tələbatın ödənilməsi mümkün olmadığı deməkdir. Həmin insan hələ nemətin hər bir bu cür ədədinin qiyməti (dəyəri) 4-ə bərabər olan yeddi ədədinə malikdir. Mengerin konsepsiyasında nemətin ədədlərinin dəyəri (qiyməti) subyekt üçün bu nemətin mövcud sayda ədədində mümkün olan ən az mühüm olan tələbatı təmin edən ədədinin qiymətinə bərabərdir.

Mengerin cədvəli Qossenin hər iki qanununun misallarla izah edilməsidir. 1-ci qanun öz ifadəsini nemətlərin faydalılığının azalmasında tapır və onlardan hər birinə çatma faydalılıq həddi nəzəriyyəsidir. Bütün tələbatlar tam təmin olunduqda hər bir nemətin faydalılıq həddi vahidə bərabər olur. 2-ci qanunu onunla izah olunur ki, resursların məhdudluğu zamanı faydalılığın bu həddində tələbatın yüksək dərəcədə ödənilməsinə, əldə olunmuş nemətləri faydalılıq hədlərinin bərabərliyi şərtilə nail olunur. Bir çox iqtisadçılar faydalılıq həddinin bərabərliyini «optimal planlaşdırmanın» əsas prinsipi kimi də qiymətləndirmişlər.[1]

Beləliklə, əldə olunmuş nemətlərin faydalılıq həddinin bərabərliyi mövcud olan resursların optimal istifadə olunmasının meyarı kimi çıxış edir. Ona görə də İsveçrə iqtisadçısı Pareto faydalılıq həddi nəzəriyyəsini səmərəli təsərrüfat davranışı, qayda-qanununu verən «tələbatların ödənilməsinin maksimallaşdırılması» haqqında elm adlandırmışdır.

Mengerə görə, faydalılığın funksiyası aramsız (daimi) deyil, diskretdir. O, nemətin sonsuz bölünməsini inkar edir. Ona görə də, iqtisadi təhlil üçün diferensial hesablama inkar olunur. Mengerdə riyazi formullar və vasitələrin izi də yoxdur, hətta iqtisadi hadisələr

[1] История экономических учении. М., 1965, стр. 362-363



downloaded from KitabYurdu.org

arasında, məsələn, qiymət və tələb arasında asılılığı əks etdirən sadə qrafiklər belə yoxdur. Mengerin mövqeyi ondan ibarətdir ki, elmin obyekti funksional yox, səbəb-nəticə əlaqəsi və asılılığıdır.

Faydalılıq həddi nəzəriyyəsində nemətlər müxtəlif ardıcıllıqlara (sıralara) bölünür. Bu bölgü istehsal vasitələrinin dəyərini (qiymətini) müəyyən etmək üçün edilir. Belə ki, istehsal vasitələri şəxsi istehlak sferasında olmadığından, onlar subyektiv dəyərə malik deyillər. Menger nemətləri ilkin səviyyəli və yaxud «indinin», yəni bugünün nemətinə (buraya bütün istehlak predmetlərinin) və ikinci, ümumiyyətlə, daha uzaq səviyyəli və yaxud «gələcəyin» nemətinə bölür. Burada istehlak predmetlərinin dəyərinin (qiymətinin) onların istehsalında istifadə olunan istehsal amillərinin dəyəri (qiyməti) ilə müəyyən olunması ənənəvi fikri inkar olunur. Əksinə, aşağı səviyyəli nemətin dəyəri yüksək səviyyəli nemətin dəyərilə müəyyən olunur. Əgər istehlak predmetlərinin dəyəri (qiyməti) bilavasitə onların faydalılıq həddilə müəyyən olunursa, istehsal vasitələrinin dəyəri isə istehlak predmetlərinin dəyərilə, yəni istehsal vasitələrinin dəyəri onların məhsullarının dəyəri (faydalılıq həddi) ilə müəyyən olunur. Belə çıxır ki, maşınların dəyəri onun məhsullarının dəyərilə, pambığın dəyəri parçanın dəyərilə, metalın dəyəri ondan hazırlanmış məmulatların və s. dəyərilə müəyyən olunur. Beləliklə, faydalılıq həddi nəzəriyyəsində istehsal xərcləri öz məhsullarına dəyər vermir, əksinə, istehsal xərcləri öz məhsullarından dəyər alır. Bu nəzəriyyədə istehlakçının ehtiyacının təmin olunma dərəcəsi istehlak məhsullarının dəyərini şərtləndirir, onların nə dərəcədə qiymətli (dəyərli) olmasından isə onların hazırlanmasında bilavasitə fəaliyyət göstərmiş istehsal vasitələrinin dəyəri asılıdır, öz növbəsində, yuxarıda adı çəkilən istehsal vasitələrinin buraxılışına keçirilmiş xammal və maşının dəyəri onunla müəyyən olunur.

Mengerin dəyər (qiymət) nəzəriyyəsinin fərqli cəhətlərindən biri də ondan ibarətdir ki, o, yalnız tələbi qiyməti formalaşdıran əsas amil hesab etmiş və bazarda əmtəələrin təklifini dəyişməz olduğunu bəyan etmişdi. Hesab edir ki, bu şəraitdə hər bir nemətin dəyəri tələbdən, tələbin dəyişməsi isə bu nemətlərin faydalılığı həd-



downloaded from KitabYurdu.org

dindən asılıdır. «Tələb qiyməti» və «təklif qiyməti» anlayışlarını iqtisad elminə də gətirən Menger olmuşdu.

İqtisad elmində mövcud olan istehsal funksiyası nəzəriyyəsi Menegerin məhsuldar nemətlərin substitusiyası (əvəz olunması) haqqındakı fikrinə əsasən digərləri tərəfindən sonradan yaradılmışdı. *Eyni bir məhsul istehsal amillərinin müxtəlif kombinasiyalarının köməyilə yaradıla bilməsi haqqında fikri ilk dəfə Menger söyləmişdir.* Onun tərəfindən istehsalda iştirak edən nemətlərin bir-birini tamamlaması, daha doğrusu, onların dəyərinin qarşılıqlı asılılığı fikri söylənilmişdir. Onun fikrincə, əgər istehsalın hər hansı bircə elementi çatışmırsa, bütün digər istehsal neməti də qiymətdən düşür və artıq olan nemət yalnız digər «tamamlayıcı dəstədə», digər məhsulun hazırlanması üçün istifadə oluna bildikdə bu qiymətdən düşmə baş vermir.

*Likvidlik anlayışını da elmə Menger gətirmişdi.* O, likvidliyi «satılma qabiliyyəti», yəni pula çevrilə bilmə qabiliyyəti adlandırır. Müxtəlif əmtəələr müxtəlif likvidliyə malikdirlər. Ən çox likvidliyə pul malikdir. Likvidlik amilini Menger olduqca mühüm hesab edir. O, likvidliyə bilavasitə istehlaka cəhd göstərilməsilə yanaşı, mübadiləyə vadaredici (sövqedici) səbəb kimi baxmışdır.

Mengerin bir çox fikirləri onun şagirdi Bem-Baverk tərəfindən inkişaf etdirilmişdir. O, Vyana Universitetinin professoru, Avstriya elmlər akademiyasının prezidenti və Avstriyanın maliyyə naziri olmuşdur. Bem-Baverk faydalılıq həddi nəzəriyyəsinin daha geniş şərhini vermişdi. O, nemətin subyektiv və mübadilə dəyərini fərqləndirir və «Qossenin qanunlarından» istifadə edərək istehlak dəyəri kimi mübadilə dəyərinin də subyektiv qiymətləndirmə əsasında əmtəələrin faydalılıq həddi ilə müəyyən olunduğunu sübut etməyə çalışmışdır. O, nemətə alıcı və satıcı tərəfindən verilən fərdi qiyməti subyektiv dəyər adlandırır, obyektiv mübadilə dəyərinin isə bazarda rəqabət şəraitində əmtəələrin mübadilə olunduğu mübadilə nisbətilə müəyyən olunduğunu qeyd edir. Bem-Baverk bazar qiymətlərinin əmələ gəlməsi mexanizminə böyük diqqət verir. O, Mengerin tələb və təklif qiymətindən istifadə edərək bazar qiymətinin formalaşması modelini qurur. Hər



downloaded from KitabYurdu.org

bir satıcının özünün təklif qiyməti, hər bir alıcının öz tələb qiyməti olur.

Bem-Baverk əmtəənin qiymətinə bazarda alıcıların və satıcıların müxtəlif subyektiv qiymətlərinin toqquşmasının nəticəsi kimi baxır. Bu qiymət nəzəriyyəsinin çıxış nöqtəsini faydalılıq həddi nəzəriyyəsi təşkil edir. O, yazır ki, «qiymət əvvəldən axıra kimi nemətin subyektiv qiymətləndirilməsinin məhsuludur», «bazar qiymətlərinin yüksəkliyi isə iki həddi cütlük tərəfindən əmtəəyə verilən subyektiv qiymətlərin yüksəkliyilə məhdudlaşır və müəyyən olunur».[1] Həddi cütlük dedikdə o, bir tərəfdən mübadilə prosesində iştirak edə bilənlərdən əmtəəni almağa razı olan sonuncu alıcını və birinci satıcını, ikinci tərəfdən mövcud bazar situasiyasında mübadilədən çıxarılmışlardan ən zəif satıcını və birinci alıcını başa düşür. Bem-Baverk qiymətə mübadilə prosesində əmtəəyə alıcının və satıcının verdikləri subyektiv qiymətlərinin toqquşmasının nəticəsi kimi baxmaqla o, qiyməti müəyyən edən subyektiv dəyərin (faydalılıq həddinin) özünün digər qiymət amilindən (təklifdən) asılı olduğunu etiraf etmiş olur.

Bem-Baverk dəyəri nemətin son vahidinin faydası ilə ölçür. Bunun üçün nümunə kimi meşədə tənha yaşayan adamın malik olduğu beş kisə taxılı götürür. Birinci kisə onun yeməklə bağlı ilkin ən zəruri tələbatının ödənilməsinə, ikinci kisə istehlakı daha yaxşılaşdırmağa, üçüncü kisə ət məhsuluna olan tələbatı ödəmək məqsədi ilə quşlar saxlamağa və yedirtməyə, dördüncü kisə araq çəkməyə, beşinci kisə isə öz səsilə tənha adama zövq verən tutuquşunu yemləməyə sərf edilir. Burada taxılın subyektiv qiymətini Bem-Baverk onun daha az əhəmiyyətli olan tələbatının ödənilməsi üçün zəruri olan son məhsulun faydalılığı ilə ölçür.

Bem-Baverk nemətin müqayisəsinin Menger cədvəlinə də düzəliş etmişdir. O hesab edir ki, bəzi tələbatlar qismən, hissə-hissə ödənilə bilmir, onlar ya ödənilmir, ya da bir dəfəyə bütövlükdə ödənilir. Bem-Baverk faydalılıq haqqında təsəvvürləri də

---

[1] Бем-Баверк Е. Основы теории ценности хозяйственных благ. Л., 1929, стр. 146



downloaded from KitabYurdu.org

genişləndirmişdi. Faydalılıq adı altında o, təkcə hər hansı bir tələbatın ödənilməsi deyil, həm də əzabdan, əziyyətdən, qayğıdan və s. xilas olmanı başa düşür. Ona görə də o, faydalılığa qüvvəyə qənaət və vəsait sərfinin azaldılması kimi baxır. Bem-Baverk təhlilə «substitusional faydalılıq həddi» anlayışını gətirmişdir. Onun fikrinə görə, subyekt üçün mövcud nemətin dəyəri onun bu neməti əldə etməkdən ötrü imtina etdiyi nemətlərin faydalılıq həddilə müəyyən olunur. Bunu itirilmiş palto timsalında şərh edir. O, qeyd edir ki, bu cür paltonun faydalılıq həddi yeni palto almaq üçün insanın fəda etməyə (qurban verməyə) məcbur olduğu istehlak predmetlərinin faydalılıq həddilə müəyyən olunur.

Menger yalnız müxtəlif nemətlərin və eyni bir nemətin müxtəlif ədədlərinin istehlakından təmin olunma dərəcəsinə görə sırayadüzülməsi haqqında danışır. Onun cədvəlində olan say kəmiyyəti faydalılığın mütləq kəmiyyətini yox, nisbəti xarakterizə edir. Bem-Baverk nemətin faydalılığının konkret ölçülməsini, hesablanmasını real sayır. *Bu cür yanaşma iqtisadi ədəbiyyatda kardinalist adını almışdı.* Bu yanaşmanı A.Marşall, M.Fridmen, Morqenstern və Neyman müdafiə etmişlər.

Bem-Baverkin kapital nəzəriyyəsi tələbatların birbaşa və dolayı təmin olunma metodları konsepsiyası ilə sıx bağlı olmuşdur. O, «indiki nemət» (məsələn, əmək haqqı) və «gələcək nemət» (istehsal vasitələri, əmək) kimi anlayışlar yaratmışdı. O göstərir ki, əgər qədimdə insanlar bilavasitə istehlak neməti (məsələn, yabanı bitən meyvə) yaratmışlarsa, sonradan isə qidaya olan tələbatı ödəmək üçün metal əritmək, ondan kənd təsərrüfatı alətləri hazırlanması lazım gəlmişdi. Dolayı metodların məhsuldarlığı ümumiyyətlə onların uzunmüddətliyinə proporsionallıq təşkil edir. Lakin indiki nemətlər gələcək nemətlərə nisbətən qiymətli sayılır. Əgər gələcəkdə kapital artırsa, indiki zamanın nemətinin gələcək nemətə mübadiləsi ekvivalentlik təşkil edir. Bu artım kapitala olan faizdir. Bem-Baverk faizə mənfəətin yeganə forması kimi baxır. İndiki və gələcək nemətlər arasındakı müddət nə qədər çox olarsa, faiz də bir o qədər çox olur.



downloaded from KitabYurdu.org

F.Vizer öz əsərlərində marjinalist konsepsiyaları daha geniş şərh etmişdir. O, özünün sələflərinin və müasirlərinin təsəvvürlərini sistemləşdirməklə yanaşı, həm də marjinalist nəzəriyyəni öz müstəqil fikirlərilə daha da zənginləşdirmişdir. Vizer faydalılıq həddi prinsipini istehsal xərclərinin dəyərinin qiymətləndirilməsinə tətbiq etmişdir. O hesab edir ki, Robinzon təsərrüfatı dərindən öyrənilməlidir. Onun fikrincə, iqtisadiyyat elminin bütün vəzifələrinin həllinin açarı onda gizlənir.

Menger tərəfindən yalnız nəzərdə tutulan bir sıra ideyalar Vizer tərəfindən ardıcıl inkişaf etdirilmişdir, onların əsl şərhi verilmişdir. Bu istehsal xərclərini təşkil edən amillərin dəyərinin müəyyən edilməsidir. Vizer təkcə Mengerin yüksək səviyyəli nemətin dəyərini birinci (ilkin) səviyyəli nemət vasitəsilə müəyyən olunması fikrini deyil, həm də Menger tərəfindən nəzərdə tutulan «buraxılmış fayda» mövqeyindən yanaşma üsulunu inkişaf etdirir. Vizer, sonradan *Vizer qanunu* adını almış «istehsal xərcləri qanunu»nu formalaşdırır. Bu qanunun mahiyyəti ondan ibarətdir ki, müəyyən istehlak nemətinin istehsal xərci kimi çıxış edən məhsuldar nemətin dəyəri, həmin istehlak nemətinin dəyəri, daha doğrusu, faydalılıq həddi ilə deyil, bu məhsuldar nemətin köməyilə hazırlanması mümkün olan bütün məhsullar içərisində ən az faydalılıq həddinə malik olan məhsulun dəyərilə müəyyən olunur. Vizer sübut edir ki, faydalılıq həddi, nəticə etibarilə müəyyən məhsulun dəyəri onun istehsalına çəkilən xərclərin dəyərinə olduqca yaxın kəmiyyətdir, lakin elə bir hal olur ki, bu vaxtı bu kəmiyyət olduqca böyük olur.

Avstriya məktəbinin tərəfdaşları arasında müəyyən növ nemətin, bütün ümumilikdə dəyərinin kəmiyyət nisbətinə və bu nemətin ədədlərinin faydalılıq həddinə dair fikir birliyi olmamışdır. Bem-Baverk kimi bəziləri bir neçə nemətin məcmu dəyəri, onların müxtəlif dəyərlərinin cəmi olması fikrinin tərəfdarı olmuşlar. Digərləri multipliklik konsepsiyasına tərəfdar olmuşlar. Bu konsepsiyaya görə, məcmu faydalılıq həddi, deməli, həmcins nemətlər qrupunun məcmu dəyəri nemətin ədədlərinin faydalı-



downloaded from KitabYurdu.org

lığının, bu nemətlərin sayına olan hasilindən alınan məbləğdir. O, Vizer multipliklik mövqeyində durur.

Əgər Bem-Baverk kardinalistlik yanaşmaya meyl etmişsə, daha doğrusu, faydalılığı kəmiyyətcə ölçməyi mümkün saymışsa, Vizer isə faydalılığın yalnız sıralanmasının mümkünlüyünü qəbul edən ardıcıl ordinalist olmuşdur. Vizerdən sonra marjinalistlər arasında bu yanaşma hökmranlıq etmişdi. Bu mövqeyi ingilis iqtisadçısı C.Xiks və P.Samuelson dəstəkləmişdir.

*Vizer istehsal iştirakçıları arasında gəlirlərin bölgüsünü izah edən «əvəzetmə» nəzəriyyəsinin banisidir.* Onun fikrincə, istehsal amilləri bir-birini tamamlayandır. Nə kapital, nə torpaq, nə əmək ayrılıqda, öz-özünə gəlir yaratmır. Ona görə də, söhbət yalnız istehsal olunanın hansı hissəsi istehsalın müəyyən amilinin hesabına aid edilməsi, onun əvəzi olması haqqında gedə bilər. Vizer qeyd edir ki, gəlirin bölgüsü problemi fiziki səbəbiyyəti göstərmək üçün yox, iqtisadi əvəz etməni müəyyən etmək üçün qoyulur. Belə ki, ən münbit torpaqdan alınan əlavə məhsul, istehsal amili kimi torpaqla əvəz olunur. Hərçənd ki, real gerçəklikdə əməksiz, alətsiz, toxumsuz digər torpaqların məhsulu ilə müqayisədə heç bir əlavə alınmamışdır. Ona görə də əvəz olunma, istehsal amillərinin qarşılıqlı fəaliyyətdə olan vaxtı halı üçün faydalılığın hesablanmasıdır, bundan başqa heç nə deyil.

Faydalılıq həddi nəzəriyyəsi müasir iqtisad elminin çoxlu məktəb və istiqamətləri tərəfindən metodoloji əsas kimi istifadə olunmuşdur. Onun müddəalarından dövlətin iqtisadi siyasətinin praktiki proqramlarının və iqtisadiyyatın tənzimlənməsi metodlarının işlənib hazırlanmasında istifadə olunmuşdur. Bu nəzəriyyələr qiymət kateqoriyasının və bazar münasibətlərinin şərhində, kapitalist mənfəətinin mənbəyi, inhisar qiymətləri və inhisar mənfəəti, əmək haqqı nəzəriyyələrinin əsaslandırılmasında geniş istifadə olunur. Faydalılıq həddi nəzəriyyəsi keynsçiliyin əsas metodoloji əsası olmuşdur. Keynsçi modelin mühüm kateqoriyası olan – multiplikator özlüyündə gəlirin və investisiyanın marjinalist artımlarının nisbətini göstərir və istehlaka hədd meylliyin kəmiyyətinin funksiyasıdır.



downloaded from KitabYurdu.org

Faydalılıq həddi nəzəriyyələri həm də iqtisadi artım və «iqtisadi rifah» nəzəriyyələrinin, ekonometrik modellərin və müxtəlif riyazi konsepsiyaların nəzəri əsası olmuşdur. Bu nəzəriyyədən A.Marşall da, C.B.Klark da bəhrələnmişdir. A.Marşall faydalılıq nəzəriyyəsini xərclər nəzəriyyəsi ilə birləşdirərək özünün sintetik qiymət nəzəriyyəsini, C.Klark isə özünün məhsuldarlıq həddi nəzəriyyəsini yaratmışdır. Məhsuldarlıq həddi nəzəriyyəsi faydalılıq həddi nəzəriyyəsinin modifikasiyasıdır.



downloaded from KitabYurdu.org

# XVII FƏSİL. KEMBRİC-AMERİKAN MƏKTƏBİ VƏ ONUN METODOLOGİYASI

Kembric məktəbinin yaradıcısı **A.Marşall** (1842-1924) olmuşdur. Onun «İqtisad elminin prinsipləri» (1890), «Sənaye iqtisadiyyatı» (1892), «Sənaye və ticarət» (1922), «Pul, kredit və ticarət» (1923) əsərləri olmuşdur. Marşallın fəlsəfəsi, dünyagörüşü C.Bentamın utilitarist və C.S.Millin pozitivist fəlsəfəsinin təsiri altında formalaşdığından o, heç vaxt utilitarist və pozitiv ideyalardan kənara çıxmamışdır. Marşall özü yazır ki, C.S.Millin «Siyasi iqtisadın əsasları» və A.Kurnonun «Sərvət nəzəriyyəsinin riyazi prinsipləri» əsərləri ilə tanışlıq ona böyük təsir göstərmişdir. Marşall ilk əvvəl metafizik tədqiqat ilə maraqlanmış, sonradan isə daha mütərəqqi predmet hesab etdiyi əxlaq elmini öyrənmişdir. Bu vaxtı o, iqtisadi problemlərə yalnız əxlaqla əlaqədar olaraq toxunmuşdur. İqtisad elmi ilə Marşall 1867-ci ildən sonra dərindən məşğul olmağa başlamışdır. Marşallın tələbəsi C.Keyns yazır ki, «O, eyni zamanda tarixin və riyaziyyatın məşhur bilicisi, xüsusinin və ümuminin, keçicinin və daiminin dərkinin mahir ustadı olmuşdur».[1] O, bizneslə və zəhmətkeş sinfin həyatı ilə praktiki olaraq tanış olmuşdur və öz qarşısına təsərrüfatın əsas sahələrinin hər birinin fəaliyyətinin ən ümumi metodlarını öyrənmək məqsədini qoymuşdur və özünün əsas vəzifəsini yeni ölkədə (yəni Amerikada) proteksionist siyasətin problemlərini öyrənməkdə görmüşdür.

A.Marşall iqtisadi nəzəriyyənin xalis müddəalarının özlüyündə az əhəmiyyət kəsb etdiyini qeyd etmiş və ona görə də o, israrla «konkret həqiqətlər» axtarmış, insanların xoşbəxtliyini daha çox şərtləndirən gündəlik təsərrüfat həyatının forma və prinsiplərinin obyektiv öyrənilməsini zəruri saymışdır. O yazır: «İqtisad elmi konkret həqiqətlərin məcmusu deyil, yalnız konkret həqiqətlərin kəşfi üçün alətdir».[2]

[1] А. Маршалл Принципы экономической науки. Т.1. М., 1993, стр. 12
[2] Yenə orada, səh. 31



downloaded from KitabYurdu.org

İqtisad elminin (ekonomiksin) Kembric Universitetində müstəqil predmet statusunu almasında A.Marşallın böyük xidmətləri olmuşdur. Keyns yazır ki, Marşall sözün əsl mənasında, tarixdə ilk dəfə olaraq öz həyatını özünün xüsusi müddəalarına əsaslanan və təbii və yaxud bioloji elm kimi elmin dəqiqliyinin yüksək səviyyəsi ilə fərqlənən iqtisad elmini müstəqil predmet formasında (kimi) yaradılmasına həsr etmiş ilk adam olmuşdur.[1]

Marşallın «İqtisad elminin (ekonomiksin) prinsipləri» əsəri iqtisad elminin inkişafına və iqtisadi tədqiqatların istiqamətinə və xarakterinə mühüm təsir göstərmişdir. Bəzi iqtisadçılar bu təsiri hətta «marjinalist inqilabı» kimi qiymətləndirmişlər.

A.Marşall pozitivist iqtisadçı olduğundan, o, real faktların dərindən öyrənilməsinin tərəfdarı olmuşdur. Lakin onun təlimində mütləq kateqoriyalara yer olmamışdır, bütün onlar nisbi kimi götürüldüyündən, bu amillər və ayrı-ayrı adamların ona münasibəti daima və sürətlə dəyişir. O, həmişə iqtisadi amillərin keçici və dəyişkən xarakterə malik olmasını və mücərrəd halda olan iqtisadi konsepsiyaların məhdudluq təşkil etdiyini qeyd etməyə çalışmışdır və XIX əsrin əvvəlinin ingilis iqtisadçılarını bunu görməməkdə ittiham etmişdir. Onun fikrinə görə, XIX əsrin əvvəlinin ingilis iqtisadçılarının əsas səhvi onların tarixi və statistikanı nəzərə almamaqdan ibarət olmamışdır, məhz onlar insana, necə deyərlər, nə isə bir daimi kəmiyyət siması kimi baxmışlar və özlərinə onun dəyişməsini öyrənmək zəhmətini verməmişlər. O göstərir ki, onların ən mühüm səhvi ondan ibarətdir ki, onlar sənayenin davranışı və strukturunun nə qədər güclü dəyişikliyə meylli olduğunu görməmişlər, Rikardo və onun əsas davamçıları başqalarına onlar tərəfindən yaradılmış təlimin heç də universal həqiqət olmadığını, məhz yalnız müəyyən dərəcəli həqiqətin kəşfi üçün xidmət göstərən universal mexanizm olduğunu izah etməmişlər və hətta özləri özlərinə aydın hesabat verməmişlər.[2]

---

[1] А.Маршал  Принципы экономической науки. Т. 1. М., 1993, стр. 41

[2] Yenə orada, səh. 28-29



downloaded from KitabYurdu.org

Marşall sosialistlərin xüsusi mülkiyyəti ləğv etmək yolu ilə insan təbiətinin çatışmazlıqları və qüsurlarından xilas olmağın mümkünlüyü haqqında həddindən artıq tələsik fikir çıxardıqlarını söyləmiş və bunun səbəbini də yenə XIX əsrin əvvəlinin ingilis iqtisadçılarında görmüşdür. Onun fikrincə isə «əsrin (XIX) əvvəlinin ingilis iqtisadçılarının əsərlərində olan məhdudluğun bir sıra mənfi nəticələrindən ən layiqlisi, təəssüflər olsun ki, sosialistlərə iqtisadi ehkamlardan sitat gətirmək və düzgün olmayan şərh vermək imkanının verilməsi olmuşdur».[1] Bununla yanaşı, Marşall yazır ki, «sərvətin qeyri-bərabərliyi… bizim iqtisadi quruluşda ciddi nöqsandır. Onun hər hansı azalmasına azad təşəbbüsün motivlərini pozmayan vasitələrlə nail olmaq… ehtimal ki, açıqdan-açığa ictimai nailiyyət ola bilərdi».[2]

Marşall iqtisadi hadisələri, hadisələrin dərin səbəblərdən zahiri təzahürünə hərəkəti prinsipi ilə deyil, relyativizm, yəni qarşılıqlı asılılığı və qarşılıqlı müəyyənetmə prinsipi ilə təhlil etmişdir. Onun təlimində klassik ideyalar marjinalist ideyalarla birləşmişdir. Həddi təhlilin yaranmasını Marşall elmdə inqilab kimi deyil, onun təkamülünün nəticəsi kimi başa düşmüşdür.

Marşall bazar tarazlığına təklif və tələb qiymətinin bərabərliyi kimi baxmışdır. O, təklif qiymətini istehsal xərcləri, tələb qiymətini isə əmtəənin faydalılığı ilə müəyyən etmişdir. Onun nəzəriyyəsində əmtəənin bazar qiyməti faydalılıq həddinin və məsrəf həddlərinin tarazlığı ilə müəyyən edilir.

Onun fikrincə, iqtisadçı-tarixçilər tərəfindən tətbiq edilən təhlil metodu, onların iqtisadi prosesləri izah etdikləri səbəblər, bu proseslərin həqiqi səbəbləri olmasına onların əmin olmasını sübut etmək üçün heç də həmişə kifayət qədər ciddi olmamışdır. Ona görə də o, iqtisadi amillərin bir-birindən asılılığı, iqtisadi amillərin fəaliyyəti qarşılıqlı əlaqədə olması və fasiləsizliyi ideyasını irəli sürmüşdür.

Marşallın təhlil metodu (iqtisadi amillərin mövqeyinin qarşılıqlı asılılığı) ona imkan vermişdir ki, qiymətin tələb və tək-

---

[1] А.Маршал Принципы экономической науки. Т. 1. М., 1993, стр. 29

[2] Yenə orada. T.3, səh. 132-133



downloaded from KitabYurdu.org

lifin tarazlıq səviyyəsində əmələ gəldiyi fikrini söyləsin, əmək haqqı və mənfəət kateqoriyalarının qiymətin tələb və təklifin ümumi qanunlarının fəaliyyətinə tabe, pul nəzəriyyəsini bu qanunlar nəzəriyyəsinə daxil etsin. Marşall tərəfindən fəhlənin əmək haqqı və sahibkarın mənfəətinin səviyyəsini müəyyən edən tələb və təklifin fəaliyyəti xüsusiyyətlərini hərtərəfli təhlil edilmişdir. O, Rikardonu və onun davamçılarını tələbi inkar etdiklərinə, avstriya məktəbini isə təklifə diqqət vermədiklərinə görə tənqid etmişdir və bu səbəbdən qiymətin müəyyən olunmasında müvafiq olaraq tələb və təklifin rolunun şərhində iqtisad elmində ona qədər mövcud olan mübahisəyə son qoymuşdur. O göstərmişdir ki, istehsal xərcləri və faydalılıq həddi qiymətin müəyyən olunmasının tamamilə bərabər hüquqlu amilləri və istehsal xərcləri, tələbin intensivliyi, istehsalın həddi və məhsulun qiyməti qarşılıqlı surətdə bir-birini tənzimləyir.

Marşall ümumi tarazlıq nəzəriyyəsini iki əlavə: «hədd» və «əvəzolunma» nəzəriyyələri ilə əsaslandırmış və daha səmərəli etmişdir. «Hədd» anlayışı «faydalılıq» anlayışı çərçivəsindən kənarda olmuş və istənilən iqtisadi amillərin müəyyən şəraitlərində tarazlıq nöqtəsini, «əvəzolunma» anlayışı isə tarazlığı bərpa edən və ya pozan prosesləri xarakterizə etmək üçün tətbiq olunmuşdur.

Marşallın tarazlıq modeli Valrasın modelindən prinsip etibarilə fərqlənmişdir. Valrasda qiymət müstəqil dəyişəndir, əmtəələrin miqdarı isə daha doğrusu, təklif qiymətdən asılıdır. Marşallda isə təklif müstəqil dəyişəndir, onun kəmiyyəti qiymətlə deyil, məsrəflə şərtlənir. Valrasın modelində tarazlığa qiymətin hərəkəti ilə nail olunursa, Marşallın modelində isə məhsul buraxılışının hərəkəti ilə nail olunur.

Marşall istehsal xərclərinə tamam yeni mövqedən yanaşmışdır. O, istehsal xərclərini müəyyən əmtəənin hazırlanması üçün zəruri olan qüvvə və fəda kimi müəyyən edir və bunları mənfi emosiya (hiss) kimi qələmə verir. Fəhlələrdə bu emosiya onların qüvvəsinin xərclənməsi, sahibkarlarda isə istehlakdan imtina və kapital qoyuluşu riski ilə əlaqədar olur. Marşallın fik-



downloaded from KitabYurdu.org

rincə, istehsal xərclərinin pul qiyməti bu mənfi hissləri konpensasiya etməlidir. Bu cür yanaşma Marşalla əmək və kapital məsrəfi üçün «ümumi məxrəci» tapmağa imkan verir.

Marşall istehsal xərclərinin istehsalın həcmindən asılı olaraq dəyişməsinə diqqət yetirmiş və burada üç qanunun: «sabit verim qanunu», «artan verim qanunu» və «azalan verim qanunu» fəaliyyət göstərdiyini göstərmişdir. Birinci qanuna uyğun olaraq məhsul buraxılışı artdıqda məhsul vahidinə düşən xərclər dəyişmir, ikinciyə görə bu xərclər azalır, üçüncüyə görə artır. Marşall hesab edir ki, qısamüddətli dövrdə istehsal xərcləri, nəticə etibarilə təklif qiyməti artmağa meylli olur. Uzunmüddətli dövrdə kənd təsərrüfatında azalan qaytarılma qanunu, sənayedə isə artan qaytarılma qanunu üstünlük təşkil edir. Marşall istehsal xərclərini sabit və dəyişənə bölərək göstərir ki, uzunmüddətli dövrdə sabit xərclər dəyişən olur. Marşallın fikrinə görə, demək olar ki, hər bir iqtisadi problemlərin həllində əsas çətinliklərin əsasında vaxt amili durur. *Ona görə də o, tədqiqatında vaxt amilinə böyük əhəmiyyət vermiş və ilk olaraq vaxtı bir amil kimi iqtisadi təhlilə tətbiq etmişdir. İqtisad elmində olan «uzunmüddətli» və «qısa müddətli» dövr anlayışları ona məxsusdur.* Bununla o, uzun və qısa dövrlərdəki xalis gəlirin formalarına (faiz və mənfəətə) aydınlıq gətirmiş və «saxta renrta» və «normal mənfəət» konsepsiyalarını əsaslandırmışdır.

Marşall iqtisadiyyat üçün qısa və uzunmüddətli proseslərin prinsipial fərqlərinə diqqət yetirmişdir. Onun fikrincə, qısamüddətli dövrdə qiymətə tələbin dəyişməsi, uzunmüddətli dövrdə isə təklifin dəyişməsi həlledici təsir göstərir. İstehsalın artan tələbə uyğunlaşması üçün bəzən çox vaxt tələb olunur. Bunun nəticəsində yaranan defisitlik istehsalçılara qiyməti qaldırmağa və əlavə gəlir əldə etməyə imkan verir. Bu gəliri Marşall saxta renta adlandırır.

Marşallın tədqiqatında Cevonsonun «istehlak rentası» və ya «istehlak artıqlığı» ideyası da xüsusi yeri tutmuşdur. O, bu anlayışdan kütləvi istehlak əmtəələrinin yüksək faydalılığı dövründə onların ucuzlaşmasını izah etmək üçün istifadə etmiş-



downloaded from KitabYurdu.org

dir. Bu renta faydalılığın artıqlığıdır və istehlakçıya çatır, çünki onun yalnız mövcud nemətsiz qalmasın deyə ödəməyə hazır olduğu qiymətdən aşağı ödədiyi qiymətdir. Maraqlı cəhət ondan ibarətdir ki, Marşall klassiklərin mükəmməl rəqabət haqqında olan əsas mövqelərini saxlamaqla yanaşı, «istehlak rentası» konsepsiyasından istifadə olunması, **F.Edjuort** (1845-1926) qeyd etdiyi kimi, «göstərir ki, Laisser-faire, daha doğrusu qeyri-məhdud rəqabətlə əldə olunan yüksək qazanc qətiyyən ən yüksək mümkün olan qazanca nail olmağı hökmən təmin etmir». Bununla da Marşall maksimal ictimai qazanc prinsipi kimi baxılan mükəmməl rəqabəti müəyyən şəraitlərdə həm praktiki və həm də nəzəri cəhətdən əsassız olduğunu sübut etmiş olur. Lakin Marşall bu konkret dəlili kifayət qədər dərindən inkişaf etdirməmiş, bunu isə sonradan onun tələbəsi **A.Piqu** (1877-1959) etmişdir.[1] Piqu milli gəliri təkcə ictimai istehsalın səmərəliliyinin göstəricisi deyil, həm də ictimai rifah tədbirləri hesab etmişdir. Piqu qarşısına «həddi xalis məhsul» anlayışından istifadə edərək bölgü problemi nöqteyi-nəzərindən cəmiyyətin və fərdin iqtisadi mənafelərinin nisbətini aydınlaşdırmaq vəzifəsini qoymuşdur.

Piqunun nəzəriyyəsində əsas anlayış, bir tərəfdən ayrı-ayrı adamların iqtisadi qərarlarının nəticəsi kimi çıxış edən xüsusi qazanc və xərc, digər tərəfdən isə hər birinin payına düşən ictimai qazanc və xərc arasında divergensiyadır (uyğunsuzluğudur). Piqu hesab edir ki, maksimum milli gəlirə iki bir-birini tamamlayan qüvvəni – özünün şəxsi marağını və cəmiyyətin maraqlarını ifadə edən dövlət müdaxiləsi vasitəsilə nail olmaq mümkündür.

Marşall mükəmməl rəqabət şəraitində istehsalın optimallaşdırılması və müəssisələrin miqyası probleminə də toxunmuşdur. O qeyd edir ki, rəqabət iqtisadiyyatında istehsalın iri miqyası müəssisələri əmtəəlik məhsulun qiymətinin aşağı salınması ilə təmin edir ki, bu cür qənaətdən əsas qazancı ancaq cəmiyyət əldə edir. Marşall inhisarçıların maraqlarını cəmiyyətin marağı ilə müqayisə və xalis inhisar gəlirini, onun verginin təsiri altında

---

[1] Маршалл А. Принципы экономической науки. Т.1, М., 1993, стр. 35-36



downloaded from KitabYurdu.org

dəyişməsini xarakterizə etmiş və inhisarçı müəssisənin səmərəli idarə edilməsinin mümkünlüyünü izah etmişdir.

Marşall faizi əmək haqqının «əməyə görə mükafatlandırılma» kimi, «kapitala görə mükafatlandırma» kimi qiymətləndirmişdir. Onun faiz dərəcəsinin səviyyəsi haqqında fikri C.M.Keyns üçün makrotədqiqat və iqtisadiyyatın dövlət tənzimlənməsi konsepsiyasını əsaslandırmaq üçün bir silah olmuşdur. Marşall qeyd edir ki, «faiz dərəcəsinin aşağı düşməsi sərvət yığımının ləngiməsinə səbəb olur. İnsanın təbii resurslara sərəncam vermə miqyaslarının artması ilə o, hətta aşağı faiz dərəcəsi şəraitində çoxlu yığım etməyi davam etdirə bilsə də, bununla belə, hələ də insan təbiəti öz köhnə xüsusiyyətini (sifətini) saxlayır, faiz dərəcəsinin hər bir azalması bir çox insanları əks haldakından çox yox, az yığım etməyə vadar edə bilir».[1]

Marşall pulun kəmiyyət nəzəriyyəsinin öz variantını yaratmışdır. Onun xidməti pul nəzəriyyəsini ümumi dəyər nəzəriyyəsinin tərkib hissəsi kimi formalaşdırması olmuşdur. O, öyrədir ki, pulun dəyəri bir tərəfdən onun təklif funksiyasıdır, digər tərəfdən isə ona tələb funksiyasıdır. Marşallın pul nəzəriyyəsi bərabərliyi bu cürdür: $M=kPY$. Burada, M-pul kütləsinin həcmi, P-qiymətin ümumi səviyyəsi, Y-istehsalın real həcmi, k-insanlarda nağd formada qalan pulun payını xarakterizə edən əmsaldır.

Marşallın bərabərliyi pula olan tələbi gəlir nöqteyi-nəzərindən ifadə edir. Marşall göstərir ki, ölkədə pulun miqdarının artması bu pulun xidmət göstərdiyi sazişin nə sayını, nə də həcmini artırmır. Marşallın pul nəzəriyyəsi göstərir ki, iqtisadi həyatın aləti kimi pulun dəyəri pul materialının, məsələn, qızılın öz dəyərilə əlaqədar deyildir.

XIX əsrin axırlarında Amerikada yaranan məktəbin banisi Kolumbiya Universitetinin professoru **C.B.Klark** (1847-1938) olmuşdur. O, marjinalizmin özünəməxsus variantını və neoklassik iqtisadi nəzəriyyənin yeni spesifik konsepsiyalarını yaratmışdır. Onun «Sərvətin fəlsəfəsi» (1886), «Sərvətin böl-

[1] А.Маршалл Принципы экономической науки. Т.1, М., 1993, стр. 314



downloaded from KitabYurdu.org

güsü» (1899), «İqtisadi nəzəriyyənin mahiyyəti» (1907) əsərləri XIX əsrin axırlarında və XX əsrin əvvəllərində neoklassik nəzəriyyələrin formalaşmasına və inkişafına böyük təsir göstərmişdir. Klark marjinalist prinsipləri daha da dərinləşdirmiş, onları iqtisad elminin qanunlarına çevirmiş, marjinalist prinsipi istehsal istehlakı sferasına, istehsal amillərinə tətbiq edərək faydalılıq həddi nəzəriyyəsini *məhsuldarlıq həddi* nəzəriyyəsinə modifikasiya etmişdir. Onun məhsuldarlıq həddi nəzəriyyəsi məhdud resurslar şəraitində optimallaşdırma məsələsinin həllində bu gün də istifadə olunur.

Klark avstriya məktəbinin əsas metodoloji müddəaları ilə həmfikir olmuş, onun nümayəndələri kimi mikro təhlilə və iqtisadiyyatın əsasını universal qanunların fəaliyyətinə meyli olan ayrıca təsərrüfatın təşkil etməsi fikrinə əsaslanmışdır. Ona görə də o, özünün məhsuldarlıq həddi nəzəriyyəsini mikrosəviyyədə, əsasən də azad fəaliyyət göstərən konkret müəssisənin timsalında yaratmışdır. Klarkın tədqiqatının məqsədi kapitalizmdə həll edilməyən ziddiyyətlərin olmadığını və ictimai gəlirin bütövlükdə ədalətli bölündüyünü sübut etmək olmuşdur. O yazır ki, «cəmiyyətin başının üstündən onun əməyi istismar etməsi itttihamı asılmışdır. Əgər bu ittiham sübut olunarsa, onda hər bir vicdanlı adam gərək sosialist olsun. Hər bir iqtisadçının borcu bu ittihamı yoxlamaqdır».[1] O, bu ittihamı ədalətsiz saymış və kapitalizmin gələcəkdə də mövcud formada olacağını göstərmişdir. O, kapitalist iqtisadiyyatının qanunlarını təbii hesab etmiş və onların daimi mövcud olacağını qeyd etmişdir. Ona görə də, o, kapitalizmdə istismarın olmadığını və kapitalist gəlirlərinin ədalətliliyini sübut etməyə çalışmışdır. Bunu o, özünün bölgü nəzəriyyəsi əsasında edə bilmişdir. Klarkın tədqiqatının metodoloji yeniliyi özündə statika və dinamika haqqında müddəaları birləşdirən onun iqtisad elminin bölmələri haqqında olan təlimidir. Bu təlimlə Klark iqtisadiyyatın və iqtisad elminin köhnə ənənəvi dörd bölməyə: istehsala, bölgüyə, mübadiləyə və istehlakına bölgüsünü qəbul etmir və nəzəri mexanikanın prinsipi üzrə iqtisad

[1] Дж.Б.Кларк Распределение богатства. М., 1934, стр. 3-4



downloaded from KitabYurdu.org

elmini üç bölməyə: 1) universal iqtisadiyyata; 2) iqtisadi statikaya; 3) iqtisadi dinamikaya bölür. Universal iqtisadiyyat ümumi universal qanunların fəaliyyətini öyrənir. Universal iqtisadiyyata resursların məhdudluğu, faydalılıq həddinin azalması, əməyin və kapitalın məhsuldarlığının azalması, əhali qanunu və s. aid edilir. İqtisadi statika ümumi universal qanunların fəaliyyətini stasionar vəziyyətə yaxın şəraitdə, iqtisadi dinamika isə onları inkişaf vəziyyətində öyrənir.

Klark ictimai sərvətin bölgüsü problemini iqtisad elminin əsas problemi hesab etmiş və cəmiyyətin bütün gəlirlərinin müxtəlif növ gəlirlərə (əmək haqqına, faiz və mənfəətə) bölgüsünü bütövlükdə iqtisad elminin predmeti adlandırmışdır.

Klarkın bölgü nəzəriyyəsi məhsuldarlıq həddinə əsaslanır. O, gəlirlərin bölgüsü nəzəriyyəsini istehsal amillərinin qiymətinin həddi təhlili prinsiplərinə əsaslanaraq işləyib hazırlamışdır.

Klarkın nəzəri yeniliyi onun məhsuldarlıq həddi nəzəriyyəsini azad rəqabət və istehsal amillərinin mütləq mobilliyi şəraitində iqtisadiyyatın stasionar vəziyyətinə uyğun olaraq inkişaf etdirməsi olmuşdur. Onun məhsuldarlıq həddi nəzəriyyəsinin əsasında J.B.Seyin istehsal amilləri nəzəriyyəsi durur və o, məhsuldarlığın azalması və yaxud gəlirliyin azalması adlanan qanuna əsaslanır.

Klark iqtisad elmini mexanikaya uyğun olaraq hissələrə bölməklə, iqtisad elmini təbiət elmlərilə, iqtisadi qanunları təbiətin qanunları ilə eyniləşdirmişdir. O, «Sərvətin bölgüsü» əsərində ictimai gəlirin bölgüsünün ixtilafsız fəaliyyət göstərən və azad rəqabət şəraitində istehsal amilinin hər birinə onun yaratdığı sərvətin məbləğini verən təbii qanunla tənzimlədiyini sübut etməyə çalışmışdır.

Klark birinci yerə statik problemləri qoymuş, statik qanunları cəmiyyətin qanunları adlandırmış və iqtisadi qanunları tarazlıq qanunları kimi təsvir etmişdir. Klarka görə, iqtisadi statika azad rəqabət şəraitində fəaliyyət göstərən təsərrüfatı, daha doğrusu, kapitalist iqtisadiyyatının qanunlarını öyrənir, o, statsionar vəziyyətdə iqtisadiyyatın tarazlığı qanunları haqqında



downloaded from KitabYurdu.org

elmdir. Statika iqtisadi qanunların fəaliyyətinə əhalinin sayının, pul kapitalının, texnika və texnologiyanın və digər əhəmiyyətli amillərin dəyişməzliyi şəraitində öyrənir. Klarkda statika iqtisadiyyatda dəyişikliklərə səbəb olan bütün kənar coşdurucu vəziyyət aradan qaldırılmış tarazlıq şərtlərini xalis formada izah etmək üçün lazım olan iqtisadi metoddur. Məhz stasionar vəziyyətdə iqtisadiyyatın tarazlığının təmin edilməsinin əsas qanunauyğunluqları üzə çıxır.

Klark inkişaf prosesini tarazlığın bir səviyyəsindən digərinə keçid kimi şərh etmiş, bütün dəyişikliyi yalnız kəmiyyət dəyişikliyi hesab edir. O, iqtisadi dinamikaya statik iqtisadiyyatın xüsusi halı kimi baxmışdır. Klarkın fikrincə, iqtisadi dinamika tarazlığın pozulmasının, həmçinin bir tarazlıq vəziyyətindən digərinə keçidin səbəblərini izah edir. Xarici təsadüfi səbəblərlə əlaqədar olaraq yaranan tələb və təklifin uyğunsuzluğu, sahələr arası uyğunsuzluqlar və s. tarazlığın pozulmasına aid edilir. Dinamikaya statiki nəzəriyyənin davamı kimi baxılır.

Klarkın məhsuldarlıq həddi nəzəriyyəsi özündə üç müddəanı, daha doğrusu qanunu birləşdirir. Klark hər br tarixi dövrdə iqtisadiyyatda fəaliyyət göstərən üç qanunu: 1) məhsuldarlıq həddi qanunu; 2) spesifik məhsuldarlıq qanunu; 3) məhsuldarlıq həddinin azalması qanununu formalaşdırmışdır. Onun birinci qanunu, iqtisadi nəzəriyyədə Klarkın qanunu adlanan məhsuldarlıq həddi qanunu ondan ibarətdir ki, əmtəənin faydalılığı tərkib elementlərinə bölünür, bundan sonra əmtəənin qiyməti (dəyəri) onun bütövlükdə faydalılığı ilə deyil, onun bütün elementlərinin (xüsusiyyətlərinin) həddi faydalılığının məbləğilə müəyyən olunur, həm də faydalılıq həddi müəyyən sinif istehlakçılara aid edilir. Klarkın məhsuldarlıq həddi qanununun əsasında avstriya məktəbinin işləyib hazırladığı faydalılıq həddi konsepsiyası durur. Klarkın məhsuldarlıq həddi nəzəriyyəsi faydalılıq həddi nəzəriyyəsinin şəkli dəyişdirilmiş variantıdır. Klarkın etdiyi yenilik isə nemətə iqtisadi qiyməti, ona faydalılığı fərdlərin deyil, istehlakçılar qrupunun verdiyini söyləməsidir. Klark istehlakçılar qrupunu sinif adlandırmışdır. Hər bir istehlakçı



downloaded from KitabYurdu.org

qrupu ictimai sərvətin elementi kimi müəyyən nemətin qiymətini tənzimləyir. İstehlakçı öz pulunu ilk əvvəl ən faydalı, sonra daha az faydalı nemətə xərcləyir.

Klarka görə, faydalılıq həddi mövcud alıcılar sinfinin onun malik olduğu sonuncu pul vahidinə ala bildiyi nemətin faydalılığıdır. Az varlılar üçün bu – çörəkdir, qismən varlılar üçün – bəzən paltardır, varlılar üçün – maşındır. Uyğun olaraq birinci sinif çörəyin, ikinci – paltarın, üçüncü – maşının qiymətini şərtləndirir. Klarkın etdiyi digər yenilik hər bir əmtəənin bir çox xüsusiyyətə malik olması, onlardan hər biri öz alıcılar qrupunu cəlb etməsi fikrini söyləməsidir. Ona görə də əmtəənin qiyməti (dəyəri) bütün faydalılıq üçün tək birini deyil, «elementar faydalılıqlar dəstini» əks etdirir. «Elementar faydalılıq dəsti» əmtəənin malik olduğu bütün xüsusiyyətlərinin (elementlərinin) məhsuldarlıq həddlərinin məcmusudur. Məsələn, saatların faydalılıqları – onların vaxtı göstərməsidir, onların korpusunun gümüşdən hazırlanmasıdır, onların musiqi çalmasıdır. Nemət kimi saatların qiyməti göstərilən elementlərin faydalılıq həddləri-lə müəyyən olunan qiymətin məbləğindən ibarət olur.

Klark ikinci spesifik məhsuldarlıq qanununu kapitalizmdə istismarın olmadığını və kapitalist gəlirlərinin ədalətli olmasını sübut etmək məqsədilə yaratmışdır. Klark istehsal amillərini 4 qrupa: 1) pul formasında kapitala; 2) kapital nemətlərinə (istehsal vasitələrinə və torpağa); 3) sahibkarlıq fəaliyyətinə və 4) fəhlələrin əməyinə bölür. İstehsalın hər bir amili spesifik məhsuldarlığa malikdir və məhsulun dəyərinə öz töfhəsini verir, gəlir yaradır. Hər bir amilin sahibi gəlirlərdən ona məxsus olan amilin yaratdığı payı alır. Kapital sahibi faiz, kapital nemətləri – renta, sahibkarlıq fəaliyyəti – sahibkar mənfəəti, əmək – əmək haqqı gətirir. Klarkın bölgü nəzəriyyəsinin əsasını J.B.Seydə olduğu kimi gəlirlərin bu formada bölgüsü təşkil etmişdir.

Klarkın kapital nəzəriyyəsi bilavasitə məhsuldarlıq həddi nəzəriyyəsilə əlaqədardır. Onun nəzəriyyəsində sərvətin artımı işlədilən əməyin və kapitalın kəmiyyətindən asılıdır, kapital sərvətin həqiqi formasıdır. Kapital gəlir gətirən bir ehtiyatdır. O,



downloaded from KitabYurdu.org

kapital ilə kapital nemətlərini fərqləndirir. Kapital nemətləri hədsiz xərclənir, kapital isə qalır. Kapital daima hərəkətdə olan ehtiyatdır. Ona görə o, gəlir gətirir və kapital nemətlərinin daim təzələnməsi hesabına qalır. Bundan başqa, kapital neməti maddi şeydir, kapital isə abstrakt şeydir.

Klarkın fikrinə görə, statik şəraitdə sahibkar mənfəəti olmur. Onun fikrincə, azad rəqabət orta mənfəətin yenidən bölgüsünü deyil, onun tamamilə ləğv olmasına səbəb olur. O, göstərir ki, sahibkar gəliri yalnız dinamika şəraitində əmələ gəlir. Klarka görə, sahibkar gəliri texniki tərəqqiyə görə mükafatdır. Onu istehsala dinamik əsaslar gətirən adam alır. Elə ki, texnika və texnologiyanın təkmilləşdirilməsi qurtarır, yəni stasionar vəziyyət olur, rəqabət sahibkar gəlirini yüksək ixtisaslı işçinin əmək haqqına çevirir.

Statik sistem üçün məhsuldarlıq həddinin təhlili onun azalması prinsipinə əsaslanır. İstənilən hər bir istehsal amilinin artımı, digərlərinin dəyişməzliyi şəraitində onun məhsuldarlığı azalır. Klarkda istehsal amilləri eyni cür səmərəliliyə malikdir. Onun məhsuldarlığın azalması qanununa görə, əmək haqqı «əməyin məhsuldarlıq həddi» ilə, faiz və mənfəət «kapitalın məhsuldarlıq həddi» ilə müəyyən olunur. *Klarkın məhsuldarlığın azalması qanunu* o deməkdir ki, kapitalın kəmiyyəti dəyişməz qaldıqda, istehsala cəlb edilən hər bir yeni işçinin məhsuldarlığı əvvəlki işçilərlə müqayisədə aşağı düşür. Uyğun olaraq işçilərin sayı dəyişməzsə, kapitalın hər sonrakı artımı istehsal olunan məhsulun həcminin azalmasına, əvvəlki qoyuluşla müqayisədə onun səmərəliliyinin azalmasına səbəb olur. Onun fikrincə, əgər birinci işçi 10 dollar dəyərində məhsul yaradırsa, ikinci –8, üçüncü – 6 dollarlıq və s. yaradır. Əmək məhsuldarlığını Klark məhsuldarlıq həddi ilə, yəni cəlb olunan işçilərdən sonuncunun istehsal etdiyi məhsulla müəyyən etmişdir. Sonuncu işçinin əmək məhsuldarlığı əməyin məhsuldarlıq həddini bildirir. Buradan belə bir nəticə çıxır ki, nə qədər çox işçi qəbul edilirsə, əməyin məhsuldarlıq həddi bir o qədər aşağı olur. İşçilərin əmək haqqı əməyin məhsuldarlıq həddi ilə müəyyən olunur. Beləliklə, əmək



downloaded from KitabYurdu.org

haqqı əməyin sonuncu artımının məhsulu ilə, faiz və mənfəət isə kapitalın sonuncu artımının məhsulu ilə müəyyən olunur. Deməli, gəlirlər istehsal amillərinin məhsuldarlıq həddi ilə müəyyən olunur. Beləliklə, Klark gəlirlərin bölgüsündə ədalətliliyə əməl olunmasının normativ prinsipini məhsuldarlıq həddində görmüşdür. Lakin bu cür şərh Marşallın etirazına səbəb olmuşdur. Onun fikrincə, əmək haqqının müvazinət (tarazlıq) tarifi (maaş dərəcəsi) əmək təklifini nəzərə almadan, yalnız əməyin məhsuldarlıq həddi ilə müəyyən oluna bilməz. Onu da qeyd etmək lazımdır ki, məhsuldarlığın azalması haqqında ideya yeni olmamışdır. Torpağın timsalında məhsuldarlığın azalması haqqında fikri T.Maltus söyləmişdir. Maltusun bu ideyasını XIX əsrin əvvəlində alman iqtisadçısı C.fon Tyunen sənaye istehsalına tətbiq edərək «əməyin və kapitalın məhsuldarlığının azalması qanunu»nu yaratmışdır. Klark isə məhsuldarlığın azalması prinsipini bütün təsərrüfat sferalarına və istehsal amillərinə aid etmişdir. Bu sahədə Klarkın etdiyi yeniliyi, hər bir amil onun, məhsuldarlıq həddi kəmiyyəti üçün mükafat olması fikridir. Əmək haqqından artıq istehsal olunan məhsulu, Klark kapitalın məhsulu hesab edir. Beləliklə, Klarka görə, kapitalistlər və işçilər istehsalın inkişafında eyni dərəcədə maraqlıdırlar və ondan bərabər qazanırlar.



downloaded from KitabYurdu.org

# IV BÖLMƏ
# MÜASİR İQTİSAD ELMİ VƏ ONUN METODOLOGİYASI

## XVIII FƏSİL. MÜASİR İQTİSAD ELMİNİN FORMALAŞMASI VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

Müasir iqtisadi nəzəriyyələr iqtisad elminin çoxəsrlik inkişafının nəticəsi olmaqla, müasir iqtisadi həyatın obyektiv şəraiti, tələbatı və mənafeyi ilə sıx əlaqədə yaranıb formalaşmışdır. Bu nəzəriyyələrin əksəriyyəti Qərbi Avropanın inkişaf etmiş ölkərinin və Amerikanın iqtisadi fikrinə məxsus olmasına baxmayaraq, onlar İkinci Dünya müharibəsindən sonra dünyəvi xarakter almış və əksər bazar sistemli ölkələrin iqtisadi siyasətinin əsasını təşkil etmişdir.

Müasir iqtisadi nəzəriyyələrin formalaşması və inkişafı iki mərhələdən keçmişdir. Birinci, yaranma və təşəkkül tapma mərhələsi. Bu, XIX əsrin axırını və İkinci Dünya müharibəsinə qədər olan dövrü əhatə edir. İkincisi isə inkişaf və təkamül mərhələsidir. Bu müharibədən sonrakı dövrü əhatə edir.

Müharibədən sonrakı dövrün özü də iki mərhələyə ayrılır. Birincisi, 1945-ci ildən 70-ci illərin əvvəlinə qədər; ikincisi, 70-ci illərin ortasından indiyə qədər olan dövrdür. Birinci mərhələdə iqtisadi fikrin inkişafında müharibədən qabaqkı iqtisadi sarsıntılar və bilavasitə müharibənin nəticəsi dərin iz qoymuşdur. İkinci mərhələdə həlledici amil ETİ və bunun nəticəsində iqtisadiyyatda baş verən dərin sosial-iqtisadi dəyişikliklər olmuşdur.

Müasir iqtisadi nəzəriyyələrin formalaşmasında XX əsrin 20-30-cu illərini xüsusi qeyd etmək lazımdır. Çünki bu illər iqtisadi fikrin inkişafında dönüş dövrü olmuşdur. Bu dövrdə iqtisadi fikrin inkişafı aşağıdakı proseslərlə səciyyələnmişdir. Birincisi, inhisar, dövlətin rolu, iqtisadi və ictimai proseslərə dövlət müdaxiləsi problemlərinə və bütünlüklə kapitalist iqtisadi sisteminin islahatına diqqətin artması; ikincisi, iqtisadi nəzəriyyənin ayrı-ayrı istiqamətlərə ayrılması prosesinin dərinləşməsi və bu gün



downloaded from KitabYurdu.org

onun simasını müəyyən edən əsas istiqamətlərin formalaşması prosesi. Bu dövrdə iqtisadi nəzəriyyələrin formalaşmasına iqtisadi sarsıntılar (iqtisadi böhran, işsizlik və s.), marksizmin nüfuz qazanması və sosializm quruculuğu da mühüm təsir göstərmişdir.

Bu dövrdə A.Piqunun rifah və C.Xiksin kapital nəzəriyyələrinin sayəsində ortodoksal neoklassik nəzəriyyədə mühüm dərəcədə dəyişiklik baş vermişdir. Ona dövlət müdaxiləsinin məqsədi, hüdudu, forma və metodları, qeyri-mükəmməl və inhisarçı rəqabət və digər problemlər daxil olmuşdur. Həm də institusionalizm geniş yayılmış və Y.Şumpeterin ictimai inkişaf konsepsiyası əmələ gəlmişdir. Ən əsası isə bu dövrdə kapitalist iqtisadiyyatının fəaliyyət mexanizminin makroiqtisadi nəzəriyyəsi və ona əsaslanan kapitalist iqtisadiyyatını *"tələbi idarəetmə"* yolu ilə dolayı tənzimetmə konsepsiyası yaranmışdır.

Müharibədən qabaq iqtisadi nəzəriyyənin tədqiqatının mərkəzində tsikllərin öyrənilməsi və antiböhran yollarını işləyib hazırlamaq olmuşsa, müharibədən sonra problematika dəyişmiş və tədqiqatının istiqamətləri: artımın uzunmüddətli sürətinin saxlanılması və bununla əlaqədar olaraq dövlətin rolu, məşğulluğun və inflyasiyanın tənzimlənməsi problemləri; cəmiyyətin sosial-iqtisadi strukturunun öyrənilməsi və sosial sabitliyin təmin olunması, gəlirlərin yenidən bölgüsü, sosial-təminat yollarının öyrənilməsi olmuşdur.

İqtisadi ədəbiyyatda müasir iqtisadi nəzəriyyələr aşağıdakı istiqamətlərə ayrılır: 1) neoklassik istiqamət. Buna azad iqtisadiyyat nəzəriyyələri daxildir. 2) Keynsçilik və yaxud tənzimlənən iqtisadiyyat nəzəriyyələri 3) İnstitusional-sosioloji istiqamət. Bu istiqamətlərin hər biri digəri üçün alternativ nəzəriyyələr sistemidir. İqtisadi nəzəriyyələrin bu cür istiqamətlərə bölgüsü iqtisadi hadisələrin nəzəri izahındakı, tədqiqat metodundakı və iqtisadi proseslərə təsiretmə yollarındakı fərqlərə əsaslanır. Hər bir istiqamət müxtəlif ideyalar, baxışlar və konsepsiyalar sistemidir. Hər bir istiqamətdə istər nəzəri problemlər və istərsə də praktiki təkliflər üzrə fikir ayrılıqları vardır. İstiqamətlərin hər biri



downloaded from KitabYurdu.org

müxtəlif cərəyan və məktəblərə bölünür. Məsələn, neoklassik istiqamətin daxilində ingilis-amerikan məktəbləri, neoliberalizm (Frayburq məktəbi), monetarizm (Çikaqo məktəbi) və digər məktəb və cərəyanlar mövcuddur. Keynsçilik və institusionalizmin də daxilində müxtəlif cərəyanlar və istiqamətlər var. Lakin onların hər biri ayrıldıqları istiqamətə xas olan ümumi əlamətləri özlərində saxlayırlar. Onların nümayəndələrini bir istiqamətdə metodologiyanın, baxışların və mövqelərin ümumiliyini birləşdirir. Lakin onlar mənafelər dairəsinə və öyrəndikləri problemlərə görə fərqlənirlər.

Neoklassik nəzəriyyə klassik nəzəriyyələrdən fərqli olaraq baxışların bütöv və ciddi subordinasiyalı sistemi olub, özündə hər hansi bir bütöv konsepsiyanı əks etdirmir. Lakin buna baxmayaraq neoklassik nəzəriyyə olduqca düşünülmüş ümumi aparat (mexanizm) işləyib hazırlamış və o onun nümayəndələrinin əksəriyyəti tərəfindən qəbul olunmuş bir sıra prinsiplərə əsaslanır. Bu müasir Qərb, hər şeydən əvvəl İngilis və Amerikan iqtisad elmində aparıcı istiqamətdi. Neoklassik adlanan iqtisadçılar müxtəlif problemləri işləyib hazırlamaqla, praktiki olaraq bir yox, müxtəlif konsepsiyaları və məktəbləri təmsil edirlər.

*Neoklassik istiqamət iqtisadi liberalizm ənənələrini davam etdirən baxışlar sistemidir*. Onun cərəyan və məktəbləri bazar mexanizmi vasitəsi ilə iqtisadiyyatın tənzimlənməsini əsas kimi götürmüşlər. İqtisadiyyatda dövlət müdaxiləsi onların tərəfindən inkar edilmişdir.

Neoklassik istiqamət iqtisadi nəzəriyyədə XX əsrin 30-cu illərinə qədər şəriksiz hökmranlıq etmişdir. Lakin 1929-33-cü illərin iqtisadi böhranı onun mövqeyini sarsıtmış və iqtisadi proseslərə təsir gücünü kəskin azaltmışdır. Bu vaxtdan sonra bu istiqamət özünün inkişafında mühüm dəyişiklik etmiş və yalnız 70-ci illərdən sonra onun nüfuzu artmışdır.

Keynsçilik neoklassik nəzəriyyə nüfuzdan düşdüyü vaxtda yaranmışdır. Böyük tənəzzül iqtisadiyyatın öz-özünə tənzim olunması ideyasına alternativ olan yeni konsepsiyaların axtarışını və iqtisadiyyata praktiki təsir göstərə bilən metodların



downloaded from KitabYurdu.org

işlənib hazırlanmasını gücləndirmişdi. Bu şəraitdə ön plana iqtisadiyyatın dövlət tənzimlənməsi çıxmışdır. Kapitalist iqtisadiyyatının dövlət tənzimlənməsi nəzəriyyəsinin yaradıcısı ingilis iqtisadçısı **C.M.Keyns** (1884-1946) olduğundan, həmin nəzəriyyə keynsçilik adını almışdır. Onun tərəfdarları neoklassik ideyaları inkar etmiş, dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsinin zəruriliyini əsaslandırmış və bu cür tənzimlənmənin metodlarını işləyib hazırlamışlar. Bu istiqamət iqtisad elmində aparıcı yerlərdən birini tutmuş və bütün onun sonrakı təkamülünə təsir göstərmişdir. O, XX əsrin 70-cı illərinə qədər iqtisadi nəzəriyyələrin formalaşmasında və iqtisadi siyasətdə həlledici rol oynamışdır.

Keynsçiliyin tərəfdarları arasında iqtisadiyyata dövlət müdaxiləsinin məqsədi, miqyası, forma və metodlarının şərhində birlik olmadığından, iqtisadiyyatın dövlət tənzimlənməsi nəzəriyyəsinin bir çox variantları mövcuddur. *Keynsçiliyin inkişafı iki istiqamətdə getmişdir: ortodoksal və sol keynsçilik.* Ortodoksal cərəyanının tərəfdarları Keynsin nəzəriyyəsini neoklassik ənənələrlə əlaqələndirməyə çalışmışlar. Keynsçiliyin inkişafının bu istiqaməti neoklassik sintezin yaranmasının əsası olmuşdur. Sol Keynsçilər isə keynsin nəzəriyyəsinin yeniliyini, onun inqilabi rolunu və neoklassik məktəblə əlaqəsi-nin olmadığını qeyd edirlər. Onlar keynsçi modellərdə milli gəlirin bölüşdürülməsi kimi amillərin nəzərə alınmasını təklif edirlər.

Keynsçilik kapitalist iqtisadiyyatının nəzəri təhlilidir. Keynsçilikdə makroiqtisadi təhlil, yəni bütün iqtisadiyyata baxdıqda əsas kimi milli gəlir, yığım, istehlak, investisiya və s. makroiqtisadi göstəricilər əsas götürülür. Dövlət iqtisadi inkişafın əsas istiqamətverici qüvvəsi hesab edilir. İqtisadiyyatda baş verən iqtisadi sarsıntıların səbəbini iqtisadiyyata dövlətin qarışmaması siyasətində görürlər.

Keynsçi iqtisadçıları neoklassik nəzəriyyələrdən, azad sahibkarlıq iqtisadiyyatının bütün müasir müdafiəçilərindən fərqləndirilən əsas meyar bazar mexanziminin iqtisadi resurslardan



downloaded from KitabYurdu.org

daha dolğun və səmərəli istifadə etmək qabiliyyətinə malik olmasını qəbul etməməkdir.

Qərb ölkələrində və ABŞ-da iqtisadiyyatın tənzimlənməsinin nəzəri əsasları keynsçiliyə əsasən işlənib hazırlanmışdır. Keynsçilik ilk dəfə Amerikan iqtisadçıları tərfindən yaradılıb və iqtisadiyyatın antitsiklik tənzimləmə proqramı olan tsiklin investisiya nəzəriyyəsində ifadə olunmuşdur. Keynsçilik iqtisadiyyatın proqramlaşdırılması konsepsiyalarının, bir sıra ölkələrdə geniş yayılmış indikativ (tövsiyəli) planlaşdırmanın yaranmasına böyük təsir göstərmişdir.

İqtisadi nəzəriyyənin institusional-sosioloji istiqaməti XIX və XX əsrlərin sərhədində ABŞ-da yaranmışdır. Amerikan institusionalizmi neoklassik ideyalara yenidən baxmağa cəhd göstərən ilk cərəyandır. İnstitusionalizm nümayəndələri cəmiyyətin sosioloji-iqtisadi strukturuna diqqət yeirmişlər. Onlar cəmiyyətin əsasına sosioloji-hüquqi və texniki iqtisadi institutlar sistemi qoymuşlar və onu iqtisadi proseslərin ilkin səbəbi kimi qəbul etmişlər. İnstitusionalist nəzəriyyəçilər iqtisadi prosesləri qeyri-iqtisadi amillərin köməyi ilə izah edirlər. Bunların arasında texniki-iqtisadi amillərə üstünlük vermişlər.

ETİ ilə əlaqədar olaraq institusional-sosioloji istiqamət XX əsrin 70-ci illərində müasir nəzəriyyələrdə aparıcılar sırasında irəli çıxmışdır. Onun tərəfdarları ilkin amerikan institusionalizmin əsas ideyalarına varis olmaqla müasir iqtisadi-sosioloji sistem yaratmışlar.

Keynsçiliyin və neoklassizmin təsir gücünün zəifləməsi institusional-sosioloji konsepsiyaların mövqelərini möhkəmlətmişdi. İnstitusional-sosioloji konsepsiyalara kapitalizmin transformasiyasının çoxsaylı nəzəriyyələri daxildi. Bunların içərisində texnokratik nəzəriyyələr xüsusi yer tutur.

Müasir iqtisadi nəzəriyyələrinin təkamülünün indiki son mərhələsində onun ənənəvi istiqamətlərinin-keynsçiliyin və neoklassizmin ünvanına tənqid getdikcə artır. Bununla yanaşı, onların əsasında konsepsiyaların yeni variantlarının, iqtisadi doktrinanın yenidən qiymətləndirilməsi, iqtisadiyyatın tənzimlən-



downloaded from KitabYurdu.org

məsinin yeni metodlarının yaradılması prosesi gedir. 80-ci illərin əvvəllərindən mühafizəkar meyllər, iqtisadi nəzəriyyədə azad sahibkarlıq iqtisadiyyatı bayrağı altında yeni mühafizəkar istiqamət olduqca güclənmişdi. Nəticədə ön plana neoklassik yönümlü təklif iqtisadiyyatı və səmərəli gözləmə nəzəriyyəsin keçmişdi.

Müasir dövrdə istiqamətlər, cərəyanlar və məktəblər arasındakı hüdudların silinməsi prosesi gedir, çünki əsas istiqamətlərdən heç biri müasir iqtisadiyyatın həqiqi vəziyyətini əks etdirmir. Onların hər biri bu və ya digər real prosesləri əsas götürür və bu prosesləri birtərəfli izah edirlər. Ona görə də müasir dövrdə iqtisadi proseslərin mürəkkəbləşməsi, müəssisələrin iriləşməsi, satış problemlərinin kəskinləşməsi ilə iqtisadi problemlərin praktiki həllinin çətinləşməsi üzündən müxtəlif istiqamətlərin yaxınlaşma və sintez prosesi güclənmişdi. Bu yaxınlaşmanın obyektiv əsası praktiki vəzifələrin həllində dövlətin rolunun artmasıdır.

Neoklassizmin və keynsçiliyin yaxınlaşmasının və sintezinin aydın ifadəsi amerikan iqtisadçısı P.Samuelsonun *"Neoklassik sintez"* nəzəriyyəsi olmuşdur.

Əsas istiqamətlərin sintezi əsasında onların tədqiqat predmetinin ümumiliyi durur. Müasir dövrdə müxtəlif istiqamətin iqtisadçıları öz diqqətlərini iqtisadi artım, onun amilləri və nəticələri, inhisarlar, dünya iqtisadiyyatı, inkişaf edən ölkələrin iqtisadi problemləri, ətraf mühitin mühafizəsi məsələləri kimi aktual problemlərlə cəmləşdirmişlər.



downloaded from KitabYurdu.org

# XIX FƏSİL. MÜASİR NEOKLASSİK NƏZƏRİYYƏLƏR VƏ METODOLOGİYALAR

İqtisadi nəzəriyyənin neoklassik istiqaməti XIX əsrin 90-cı illərində iqtisad elmində ingilis-amerikan adlanan yeni məktəbin yaranması ilə təşəkkül tapmışdır. İqtisadi nəzəriyyənin bu istiqaməti K.Marksın iqtisadi təliminin təsirinə cavab kimi yaranmışdır.

Neoklassik istiqamətin nümayəndələri sübut edirlər ki, bazar mexanizminə əsasən tələb və təklif arasında tarazlığı təmin etmək mümkündür. Ona görə də onlar dövlətin rolunu, yalnız azad rəqabət üçün əlverişli olan şərtlərin müdafiəsində görürlər. İstiqamətin adı da buradan irəli gəlmişdir. Qərb ədəbiyyatında iqtisadi azadlıq haqqında, kapitalizmin öz-özünə tənzimlənməsi və iqtisadiyyata dövlət müdaxiləsinin zərərliliyi haqqında klassik məktəbin müddəalarından istifadə etmiş və cəmiyyətdə təbii, universal qanunların fəaliyyət göstərməsi ideyasını irəli sürmüş XIX əsrin bütün iqtisadçıları A.Marşallın vaxtından klassik adlandırılmışlar və onların hamısı neoklassik istiqamətə daxil edilmişlər. Onlar neoklassik həqiqətə birinci növbədə məhsuldarlıq həddi nəzəriyyəsini daxil etmişlər.

Neoklassik adlanan iqtisadçılar siyasi iqtisada (ekonomiks, iqtisadi nəzəriyyə, iqtisad adı altında) ya sərvət və onun bölgüsü: sərvətin bölgüsü və istehlakı ilə əlaqədar insanların fəaliyyətinin motivləri; resursların nadırliyi problemləri və onların istifadəsinin alternativləri haqqında və yaxud bunlara uyğun olan insanların davranışını öyrənən elm kimi baxmışlar.

Neoklassiklərin nümayəndələri mikroiqtisadi təhlilə əsaslanmışlar və iqtisadiyyata bazar vasitəsilə bir-birinə bağlanmış təsərrüfat vahidlərinin məcmusu kimi baxmışlar. Onların iqtisadiyyatı öyrənməyə yanaşma qaydası ayrı-ayrı müəssisənin (firmanın) davranış motivlərinə və məhsulların qiymətinə baxmaqla bütün iqtisadiyyata aid olan nəticə çıxarmaqdan ibarətdir.



downloaded from KitabYurdu.org

Neoklassik istiqamətin yaradıcısı ingilis iqtisadçısı A.Marşall olmuşdur. Onu 1890-cı ildə çapdan çıxmış "İqtisad elminin prinsipləri" əsəri məşhur etmişdir. Bu əsərdə başçısı olduğu Kembric məktəbinin nəzəri əsaslarını əsaslı surətdə şərh edib, marjinalist prinsipləri inkişaf etdirib, faydalılıq həddi və istehsal amilləri nəzəriyyələrinin ziddiyyətlərini aradan qaldırıb və müxtəlif dəyər nəzəriyyələrindən istifadə edib geniş qiymət nəzəriyyəsini yaratmışdır. O, K.Marksın əmək-dəyər nəzəriyyəsinin qəti düşməni olmuşdur. Klassik və marjinalist mövqeləri birləşdirb sintez etmişdir.

A.Marşall "siyasi iqtisad" terminindən imtina edib onun əvəzinə "iqtisad" (ekonomiks) terminini qəbul etmişdir. A.Marşall tərəfindən siyasi iqtisad terminindən siyasi sözünün çıxarılmasına iqtisadiyyata dövlət müdaxiləsinin məhdudlaşdırılması ideyasının məntiqi nəticəsi kimi baxmaq lazımdır. Çünki o, bütün iqtisadiyyatı makrosəviyyədə dövlət prizmasından deyil, mikrosəviyyədə fərdi təsərrüfatlar mövqeyindən təhlil etmişdir. Bununla Marşall elmin tədqiqat obyektindən ictimai, sinfi problemləri çıxarmış və iqtisad elmini ideologiyadan kənar elmə çevirmişdir. Onun bu mövqeyini Böyük Britaniyanın və ABŞ-ın əksər nəzəriyyəçiləri müdafiə etmişdir.

A.Marşall iqtisad elminə iqtisadiyyatın mikrosəviyyəsində bazar fəaliyyətinin prinsipləri haqqında xüsusi elm kimi baxmışdır. Onun vəzifəsini bazar təsərrüfatının real fəaliyyət mexanizmini öyrənməkdə və onun işləmə prinsiplərini dərk etməkdə görür. İqtisad elminin predmetini ictimai sinfi problemlərdən ayırıb, iqtisadi seçim və onun qanunları ilə əlaqələndirir. İnkişafın ancaq təkamül yolunu qəbul edir.

A.Marşall diqqətini iqtisadi hadisələrin sosial məzmununa və keyfiyyət tərəfinə deyil, kəmiyyət tərəfinə cəmləşdirmişdi. İqtisadi proseslərin tədqiqinə riyazi metodların tətbiqinə ciddi əhəmiyyət vermişdi. İqtisadi hadisələrə subyektiv-psixoloji mövqedən yanaşır. Əsasən psixoloji amilə üstünlük verir. O, tədqiqatın funksional metodundan istifadə edir. Bu metodla müəyyən edir ki, bütün iqtisadi hadisələr bir-birilə səbəb-nəticə



downloaded from KitabYurdu.org

əlaqəsində deyil, funksional asılılıqdadırlar. Ona görə də o, bir hadisənin digərindən səbəb-nəticə asılığını inkar edir və onun açılmasını zəruri saymır. İnandırır ki, iqti-sadiyyatda ancaq funksional asılılıq mövcuddur. *A.Marşallın təhlil metodu natamam müvazinət metodu adlanır.* Bütün vəziyyətlərdə o bütün elementləri, birindən başqa dəyişməz götürür və bu elementin dəyişməsinin nəticəsini öyrənir.

A.Marşall nəzəri mühakiməsinin mərkəzində qiymət nəzəriyyəsi durmuşdur. A.Marşall diqqətini qiymətin səbəbinə deyil, onu müəyyən edən amillərə, onun necə dəyişdiyinə və iqtisadiyyatda yerinə yetirdiyi funkisyalara yönəltmişdir. O, tədqiqatın ağırlıq mərkəzini dəyərin mənbəyi ətrafındakı nəzəri mübahisələrdən qiymətə, tələb və təklifin qarşılıqlı fəaliyyəti probleminin öyrənilməsinə keçirir. O, əsaslı surətdə tələb və təklifin necə əmələ gəldiyini və qarşılıqlı fəaliyyət göstərməsini təhlil etmiş, iqtisadi nəzəriyyədə indiyə kimi öz əhəmiyyətini saxlamış qiymətə görə tələb və təklifin elastikliyini göstərmişdir.

A.Marşall ona qədər mövcud olmuş dəyər nəzəriyyələrindən istifadə edib öz qiymət konsepsiyasını yaratmışdır. Onun konsep-siyasi özündə dəyərin faydalılıq həddi, istehsal xərcləri, tələb və təklif nəzəriyyələrini birləşdirir. *A.Marşallın nəzəriyyəsi dəyərsiz qiymət nəzəriyyəsidir* və o, kompromis, sintatik qiymət adlanır. O, neoklassik konsepsiyaların çıxış nöqtəsini təşkil edir. Marşall qiymətə bazar iqtisadiyyatının mühüm elementi kimi baxaraq, dəyər kateqoriyasını aradan götürür. A.Marşallın qiymət nəzəriyyəsi həm də K.Marksın əmək-dəyər nəzəriyyəsinə bir müqabil (əks) kimi yaradılmışdır.

Marşallın bu qiymət nəzəriyyəsi Qərbin iqtisad elmində şövq və həvəslə qəbul olunmuşdu. Bu həm neoklassik və həm də keynsçi istiqamətin nümayəndələri tərəfindən müdafiə edilmişdi.

A.Marşall göstərir ki, qiymətin yaranma prosesi özündə tələb və təklif qiymətinin yaranmasını birləşdirir. Marşalla görə, tələb və təklif bazar qiymətinin yaranma mexanizminin bərabərhüquqlu elementləridir və qeyri-məhdud rəqabət şəraitində qiymətin müəyyən olunmasında heç biri üstünlüyə malik deyil.



downloaded from KitabYurdu.org

A.Marşall bazar qiymətinə bazarda tələb və təklif qiymətinin kəsişməsindən alınan nəticə kimi baxır. Tələb qiymətini marjinalist üsulla faydalılıqda, təklif qiymətini klassik üsulla, istehsal xərcləri ilə müəyyən edir. A.Marşall hesab edir ki, alıcının məhsula ödəməyə razı olduğu qiymət məhsulun faydlılığı ilə müəyyən olunur. Faydalılığın özünə də o, alıcının məhsula ödəyə biləcəyi maksimum qiymət kimi baxır. Satıcının məhsula təyin etdiyi qiymət istehsal xərcləri ilə müəyyən olunur. Marşall yazır: "İstehsal xərcləri" prinsipi və "son faydalılıq" prinsipi şübhəsiz bir ümumi tələb və təklif qanununun tərkib hissələridirlər; onların hər birini qayçının ağızlarından biri ilə müqayisə etmək olar.[1]

A.Marşall tarazlı qiymət anlayışından istifadə etmişdi. O göstərir ki, nə vaxt tələb qiyməti təklif qiymətinə bərabər olur, istehsalın həcmi nə artmağa, nə də azalmağa meyl göstərir; ortada tarazlıq olur. Nə vaxt tələb və təklif tarazlıqda olur, vaxt vahidində istehsal olunan məhsulların kəmiyyətini tarazlı kəmiyyət, onun satıldığı qiyməti isə tarazlı qiymət adlandırmaq olar. Marşall tələbin qiymətlə tərs, təklifin isə düz münasibətdə olduğunu qeyd edir. Bunu sübut etmək üçün faydalılıq həddi kateqoriyasından istifadə edir.

A.Marşall elastikliyə qiymət və tələbin dəyişməsinin qarşılıqlı asılılığı kimi baxmışdır. O, tələbin elastikliyini mövcud ehtiyatın artması ilə qiymətlərin azalması, yaxud əksinə, ehtiyatın azalma dərəcəsi ilə qiymətlərin artması arasındakı nisbət kimi müəyyən edir. Müasir marjinalistlər elastiklik anlayışına daha geniş: qiymətin və əmtəə təklifinin faizin və kapital təklifinin, əmək haqqının və iş qüvvəsinin qarşılıqlı əlaqəsi kimi baxırlar. Göstərilən iqtisadi hadisələrin əlaqələrinin müəyyən edilməsi, onların təhlili bazarın konkret konyunkturalarının tədqiqi üçün bazar mexanizminin səmərəli fəaliyyətini öyrənmək və proqnozlaşdırmaq üçün əhəmiyyətlidir.

---

[1] Маршалл А. Принципы экономической науки. В 3-х Т. М., 1993, Т. III, стр. 282



downloaded from KitabYurdu.org

A.Marşall qiymətin təhlilində ilk dəfə olaraq vaxt amilini də nəzərə almışdır. O, istehsal məsrəfləri ilə qiymət arasındakı qarşılıqlı asılılığı müxtəlif vaxt müddəti (qısamüddətli və uzunmüddətli) ilə əlaqədar dəyişdiyinə xüsusi diqqət vermişdir. İqtisadi təhlilə vaxt amilinin daxil edilməsi, həmçinin tələbin elastikliyi haqqında ideya müasir iqtisadi nəzəriyyənin bütün istiqamətləri tərəfindən geniş istifadə olunur. Tələb və təklif probleminə olan maraq, bazar mexanizminin və ona təsir metodlarının öyrənilməsinin vacibliyi ilə izah olunur.

A.Marşall təkcə azad rəqabət şəraitində qiymətin kortəbii tənzimlənməsini öyrənməmişdir. O, həmçinin sonradan inkişaf etmiş inhisarçı rəqabət nəzəriyyəsinin əsaslarını yaratmışdır. Marşall hesab edir ki, bazar mexanizminin pozulması təkcə dövlət müdaxiləsi səbəbindən baş vermir, həmçinin satıcı inhisarçı olduqda da baş verir.

Qeyri-mükəmməl rəqabət şəraitində qiymət problemini C.Robinson və E.Çemberlin öyrənmişlər. Onlar neoklassik nəzəriyyə çərçivəsində qiymətin yaranma və rəqabət probleminin təhlilini dərinləşdirmişlər. Onlar qeyd edirlər ki, inhisar şəraitində qiymət orta və həddi məsrəfdən yüksək olur.

*Neoklassik sistemdə marjinalist nəzəriyyələr mərkəzi yer tutur. Marjinalizm (marginal fransız sözü olub, mənası hədd deməkdir) faydalılıq həddi və məhsuldarlıq həddi nəzəriyyələrindən ibarətdir.*

Neoklassik istiqamətin əsasını marjinalizm qoymuşdur. Bu sonradan Kembric məktəbi tərəfindən Rikardoçuluğun ayrı-ayrı elementləri ilə zənginləşdirilmiş, XIX əsrin axırında və XX əsrin əvvəllərində neoklassik istiqamət adı almış və aparıcı ölkələrdə hakim mövqe tutmuşdur.

Marjinalizm nəzəriyyəsinin yaranmasından bir əsrdən çox vaxt keçməsinə baxmayaraq çoxlu məktəblərdən fərqli olaraq, o səhnədən getməmişdir. Hər bir müasir nəzəriyyə marjinalizmə əsaslanaraq irəli getmişdi. Onun nəzəri müddəaları ilə iqtisadi nəzəriyyənin çox istiqamət və məktəbləri həmfikir olmuşdur. Faydalılıq və məhsuldarlıq həddi nəzəriyyələri deyildiyi kimi keynsçiliyin də əsas metodoloji çıxış nöqtəsi olmuşdur.



downloaded from KitabYurdu.org

Bu nəzəriyyələr müasir iqtisad elmi üçün aktual olan problemlərin: qiymət, tələb və təklifin öyrənilməsi və proqnozlaşdırılması; mükəmməl və qeyri-mükəmməl bazarların öyrənilməsi; mikroiqtisadi səviyyədə istehsal amillərinin qiymətinin əmələ gəlməsinin tədqiqi; kapitalist mənfəətinin mənbələrinin öyrənilməsi; inhisar qiyməti və inhisar mənfəəti nəzəriyyəsinin, əmək haqqı nəzəriyyəsinin əsaslandırılması; təkrar istehsal və istehsal tsiklləri modellərinin yaradılması; digər nəzəri və praktiki problemlərin həllində nəzəriyyəçilər tərəfindən geniş istifadə edilir. Bu nəzəriyyələr həmçinin geniş yayılmış iqtisadi artım nəzəriyyələrinin, müxtəlif riyazi konsepsiya və modellərin əsasında durmuşdur.

Neoklassik yönümlü cərəyanlardan biri **neoliberalizmdir.** Bu cərəyan XX əsrdə bütünlükdə neoklassizmi təmsil etmiş və müasir iqtisadi nəzəriyyələrin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Neoliberalizm əsası A.Smit tərəfindən qoyulmuş iqtisadiyyatı əlavə nizamlamadan, azad, öz-özünə tənzim olunma ideyasını müdafiə etməklə, iqtisadi liberalizmin prinsiplərini əsas götürməklə özündə **London (F.Xayek), Frayburq (V.Oyken, L.Erxard), Çikaqo (M.Fridmen)** məktəblərini birləşdirmişdir. Bütün bu məktəblərin nəzəri əsasında azad sahibkarlıq ideyası durur.

Bu məktəblər təsərrüfat fəaliyyətində sahibkarların azad fəaliyyət göstərməsini müdafiə edirlər. İqtisadiyyatda dövlətin təsirini minimuma endirirlər. Onun rolunu ancaq azad rəqabətə əlverişli olan şəraiti mühafizə etməkdə görürlər.

Neoliberalizm keynsçiliklə bir vaxtda yaranmışdır. Hər iki cərayan, kapitalizmin özünü tənzimləməsi haqqında ənənəvi təsəvvürü dağıtmış olan 1929-1933-cü illər böhranına iqtisad elminin münasibətini ifadə etmişdi. Bu vaxt iqtisadiyyata dövlətin fəal qarışması tələb olunurdu. Digər tərəfdən isə marksizmin və keynsçiliyin nüfuzu artırdı. Bu şəraitdə iqtisadi liberalizmin tərəfdarları klassik prinsipi saxlamaqla məhdud miqyasda iqtisadiyyata dövlətin müda-xiləsinin zəruriliyini məcburi qəbul edib, neoliberalizm formasında çıxış etmişlər.



downloaded from KitabYurdu.org

Onlar göstərirlər ki, bazar təsərrüfatının idarə olunmasına ciddi ümumi şəraitin və rəqabət üçün sərt çərçivənin yaradılmasına yönəldilmiş təsərrüfat mexanizminin institutal əsasları dövlət tərəfindən fəal surətdə tənzimlənmədən kapitalizm dərin sarsıntılara məh-kumdur və özünün yaşamasını təhlükə altına qoyur.

Neoliberalistlər bütün iqtisadi sarsıntıların bilavasitə mənbəyini mükəmməl rəqabətin pozulmasında, istehsalın bazar tənzimləyicilərinin fəaliyyətini pozan təsərrüfatın inhisarlaşmasında görürlər. Onlar azad rəqabətə iqtisadiyyatın özünü tənzimləyən inkişafını təmin edən bazar münasibətlərinin ən mükəmməl forması kimi baxırlar. Onların fikrinə görə, inhisar rəqabəti pozur və xüsusi mülkiyyətin mahiyyətilə ziddiyyət təşkil edir. İnhisar adı altında dövlət mülkiyyəti və iqtisadiyyata planlı rəhbərlik başa düşülür.

Neoliberalizm marksizmə, keynsçiliyə və drijizmə əks olan bir cərəyandır. Onun nəzəri mövqeləri 1938-ci ildə Parisdə keçirilən ilk beynəlxalq konfransda formalaşmışdır. Onların ideyasının əsas mahiyyəti bu cür ifadə edilmişdir: bazar mexanizmi dövlət müdaxiləsinə möhtacdır.

*Müasir liberalları bütün dövrlərdə konseptual müddəalar deyil, metodologiyanın ümumiliyi, rəqabət azadlığı ideyası birləşdirmişdi.* Onlar bazarı təsərrüfatçılığın ən səmərəli forması hesab edirlər və onun iqtisadi artım üçün ən əlverişli şərait yaratdığını göstərirlər. İqtisadi liberalizmin müasir nümayəndələri iqtisadi fəaliyyətin subyektlərinin azadlığını və mülkiyyətin üstün əhəmiyyətini müdafiə edirlər. Marşall kimi sahibkarlıq fəaliyyətini istehsal amili adlandırırlar.

Neoliberalların nəzəriyyəsi yeni tarixi məktəbin, neoklassiklərin və ənənəvi liberalizmin ideyalarının sintezidir. Lakin, bununla yanaşı neoliberalizm sələflərindən fərqli olan cəhətlərə malikdir. Neoklassiklərdən fərqli olaraq neoliberalizmin metodologiyasında marjinalizm müstəqil və mərkəzi yer tutmur. O, tədqiqatın mühüm aləti kimi tətbiq olunmur, sadəcə olaraq neoliberallar tərəfindən nəzəri üsul kimi nəzərə alınır.



downloaded from KitabYurdu.org

Neklassiklərdən fərqli olaraq neoliberallar keyfiyyət və institusional problemləri ən vacıb hesab edirlər. Neoliberallar sələfləri iqtisadi liberalizmdən fərqli olaraq təsərrüfat həyatının proseslərini mikroiqtisadi mövqedən deyil, makroiqtisadi mövqedən xüsusi sahibkarlıq nöqteyi-nəzərindən qiymətləndirirlər. Bundan başqa, neoliberalizm ənənəvi liberalizmdən fərqli olaraq iqtisadiyyata dövlətin fəal müdaxiləsi uğrunda çıxış edir. Keynsçilikdən fərqli olaraq onlar bu müdaxilənin obyektini təkrar istehsal prosesinin özünü deyil, mənfəət və rəqabət mexanizminin institusional əsasını hesab edirlər.

Neoliberallar arasında dövlətin iqtisadi rolu haqqında ümumi fikir yoxdur. Onlar sosial siyasət, inhisar və rəqabətin tənzimlənməsi məsələlərinə eyni cür yanaşmırlar.

Neoliberalizmin əsasını qoyan və onun metodologiyasını yaradan alman iqtisadçıları, birinci növbədə **V.Oyken** (1891-1950) olmuşdur. Neoliberalizm nəzəriyyəsi müxtəlif istiqamətlərdə inkişaf etmişdir. Onun klassik forması azad sahibkarlıq şüarı altında Qərbi alman variantıdır. Müharibədən sonra Qərbi Almaniya beynəlxalq liberalizmin mərkəzi olmuş və bütün ölkələrin liberalları Frayburq məktəbinin ətrafında birləşmişlər. Onun əsas nəzəriyyəçiləri **V.Oyken, L.Erxar, L.Müller-Armaq, A.Rustov, V.Repke** və başqaları olmuşlar.

Neoliberalizmin metodologiyasının əsasında, onun bütün tərəfdarlarını birləşdirən Oyken tərəfindən yaradılmış iqtisadi quruluşun iki tipləri haqqında konsepsiya durur. Oyken iqtisadi quruluşu, təcrübədə reallaşmış təsərrüfat formalarının məcmusu kimi müəyyən edir. O, iki təsərrüfat formasını ideal sayır və tanıyır. Birincisi, mərkəzdən idarə olunan təsərrüfat; onun natural və mərkəzi-inzibati təsərrüfat növləri. İkincisi, bazar təsərrüfatı. Frayburq məktəbinin sosial-iqtisadi proqramı bu konsepsiyaya əsaslanmışdır. Onlar tarix-də məlum olmuş bütün iqtisadi sistemləri təsərrüfatın bu iki ideal tipi mövqeyindən təhlil etmişlər.

Frayburq məktəbi ordoliberallar (üçüncü yol tərəfdarları) adlanırlar. Onların təliminin mərkəzində sosial bazar təsərrüfatı



downloaded from KitabYurdu.org

nəzəriyyəsi durur. *Sosial bazar təsərrüfatını kapitalizm və sosializm arasında cəmiyyətin inkişafının üçüncü yolu adlandırırlar.* Sosial bazar təsərrüfatının əsas səciyyəvi xüsusiyyəti sosial ədaləti bərpa etmək qabiliyyəti olan inhisar və rəqabətin tənzimlənməsidir. Müller-Armak isə sosial bazar təsərrüfatının kapitalizmdən əsas fərqini sosial kompensasiya pinsipinə tabe olan fəal sosial siyasətdə görür.

Sosial bazar təsərrüfatı modelinin əsas prinsipləri aşağıdakılardır: 1) qiymət azadlığı və sabit pul tədavülü; 2) inhisarsız rəqabət; 3) xüsusi mülkiyyətin sarsılmazlığı; 4) sahibkarlığın iqtisadi müstəqilliyi və cavabdehliyi; 5) dövlətin məhdud iqtisadi rolu. Azad bazar təsərrüfatının əsas siması sahibkar və əsas elementi azad rəqabətdir.

Ordoliberallar dövlətin iqtisadi siyasətini iki istiqamətə ayırmışlar: Təsərrüfat quruluşunu (sistemini) formalaşdırmaq və təkrar istehsal prosesinə təsir etmək. Birinci istiqamətin məzmunu inhisar və rəqabəti, xüsusi və dövlət mülkiyyəti arasında nisbəti, iqtisadiyyata birbaşa və dolayı müdaxilə tədbirlərini tənzimləmək və təsərrüfatçılığın hüquqi normalarını yaratmaqdır. İkinciyə isə iqtisadi artımı tənzimləyən dövlət tədbirlərinin bütün kompleksi aid edilir. Dövlət siyasətinin əsas məqsədi üç azadlığı: bazar azadlığını, rəqabət azadlığını və inhisardan azadlığı təmin etməkdir.

Neoliberalizmin ideyaları Qərbin əksər ölkələrinin iqtisadi siyasətinə təsir etmişdir. Müharibədən sonra neoliberalizm Qərbi alman dövlətinin rəsmi iqtisadi siyasəti olmuşdur. Neoliberal ideyaların praktiki tətbiqində **L.Erxardın** (1897-1977) xidməti böyük olmuşdur. O, sosial bazar təsərrüfatı nəzəriyyəsini təcrübədə həyata keçirmiş və bunun nəticəsində 50-ci illərdə Qərbi Almaniya "iqtisadi möcüzələr" yaratmışdır.

Neoliberalizmin iqtisadi siyasətə təsiri əsasən istehsal vasitələrinin geniş milliləşdirilməsindən imtina olunmasında, tənzimləmənin dolayı metodlarına üstünlük verilməsində, dövlət büdcəsinin hər il tarazlaşdırılmasında, kəsirli maliyyələşdirmənin məhdudlaşdırılmasında, nisbətən liberal xarici ticarət və valyuta siyasətində öz təzahürünü tapmışdır.



downloaded from KitabYurdu.org

Neoliberalizmin əsas nəzəriyyəçiləri Amerikan iqtisadçısı **L.Mizes** (1881-1973) və ingilis iqtisadçısı **F.Xayek** (1899-1992) olmuşlar. Onlar iqtisadi liberalizmin prinsiplərini XX əsrin 20-30-cu illərində israrla müdafiə etmişlər. Onları iqtisadiyyatın tam mərkəzdən planlı tənzimləmə sisteminin, yəni sosializmin gələcəyi narahat etmişdir. Onlar mərkəzdən idarə edilən iqtisadiyyatın uzun müddət yaşaya bilməyəcəyini inadla qeyd etmişlər. Ona görə də bazar iqtisadiyyatını qarışıq və hər hansı bir mərkəzdən idarə edilən iqtisadi sistemdən üstün tutmuşlar. L.Mizesin fikrinə görə, dövlət tərəfindən bazarın tənzimlənməsi tələb və təklifi əks etdirmir, istehsalın hansı istiqamətdə inkişaf etməsinə göstərici ola bilmir. O hesab edir ki, yeganə ağıllı iqtisadi siyasət liberalizmdir və iqtisadi inkişafın mütləq əsasları xüsusi mülkiyyət və azad mübadilədir.

L.Mizes və F.Xayek qeyd etmişlər ki, tarixi formasından asılı olmayaraq hər bir cəmiyyətdə əmtəə istehsalına və ticarət mübadi-ləsinə əsaslanan ümumi qanunauyğunluqlar fəaliyyət göstərir. Onlar dövlətin sahibkarlıq və tənzimləmə fəaliyyətinə qarşı çıxır, iqtisadi resursların səmərəli bölgüsünün əsasını bazar mexanizmi ilə yaranmış qiymətdə görürlər. L.Mizes yazır ki, azad bazar olmayan yerdə qiymət mexanizmi yoxdur; qiymət mexanizmsiz iqtisadi hesablama da yoxdur. F.Xayek iqtisadi liberalizmin patriarxı hesab olunur. O, Qərbin iqtisadi fikri bazar sisteminin nöqsanlarını tənqid etdiyi, dövlətin iqtisadi roluna böyük diqqət yetirildiyi və sosialist iqtisadi sisteminin qurulduğu dövrdə iqtisadi liberalizmin prinsiplərini möhkəm müdafiə etmiş və bazar qiymətləri vasitəsilə iqtisadiyyatın özünü tənzimləmə mexanizminə böyük əhəmiyyət vermişdir. O, Keynsi bu dövrdə bazar iqtisadiyyatına dövlətin müdaxiləsi uğrunda çıxış etdiyinə görə kəskin tənqid etmişdir.

F.Xayek 1974-cü ildə iqtisadiyyat üzrə Nobel mükafatı almışdır. O, özünün "Köləliyə gedən yol" əsərində sübut etməyə çalışır ki, iqtisadi azadlıqdan, bazar qiymətindən imtina edən hər kəs amansızcasına diktaturaya, iqtisadi quldarlığa aparır.



downloaded from KitabYurdu.org

Göstərir ki, dövlət iqtisadiyyatının sosialist ideyası tam iflasa məhkumdur.

Dünya şöhrətli iqtisadçı **Y.Şumpeter** də (1883-1950) Neoliberalizmə yaxın olmuşdur. O, azad sahibkarlığı müasir iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi hesab etməklə neoliberalizmə tərəfdar çıxmış olur. Ona görə də Y.Şumpeteri neoliberalizmin nümayəndəsi hesab edənlər səhv etmirlər.

*Neoliberalizmi ABŞ-da monetarizm təmsil etmişdir.* Monetarizm müasir mühafizəkarlığın ən aparıcı cərəyanıdır. Müasir mühafizəkarlıq monetarizmlə yanaşı özündə təklif və səmərəli gözləmə nəzəriyyələrini birləşdirir. Amerikan monetarizminin banisi, Çikaqo məktəbinin yaradıcısı **M.Fridmendir** (1912-2006). Amerikan monetarizmi sübut etməyə çalışır ki, yalnız azad sahibkarlıq şəraitində tam azadlığa, iqtisadi səmərəyə və bölgüdə bərabərliyə nail olmaq mümkündür. Monetarist konsepsiyanın qlobal strategiyası klassik kapitalizmə bəraət qazandırmaq, onun səmərəliliyinə, dövlət büdcəsindən əlavə xərclərsiz və həvəsləndirici təsir olmadan iqtisadi artımın mümkünlüyünə inamı artırmaqdır. Onlarda tələbin tənzimlənməsinin Keyns proqramına mənfi münasibət bu səbəbdən irəli gəlmişdir. Monetaristlər hesab edirlər ki, tələbin tənzimlənməsi təsərrüfat düzəlişinin təbii prosesini pozur. Onlar azad sahibkarlığa təhlükə kimi qiymətləndirilən dövlət müdaxiləsinin formalarının aradan qaldırılması uğrunda mübarizə aparmışlar. Çox zaman tənqid obyekti büdcədən sosial ehtiyaclara təxsisat olmuşdur.

Monetarizm 70-80-ci illərdə iqtisadi nəzəriyyənin və iqtisadi siyasətin mərkəzində olmuşdur. Bu zaman istehsalın azalması ilə eyni zamanda inflyasiya əsas problem olmuşdur. Bu nəzəriyyədə Keynsin büdcə xərclərini artırmaq təklifi, yaxud kəsirli maliyyələşdirmə siyasətinin yeridilməsi əlverişli olmamışdır. Büdcəyə əl gəzdirmək inflyasiyanı gücləndirmişdir.

Monetaristlər iqtisadiyyatın idarə edilməsinə pul kütləsinə, pul emissiyasina dövlətin nəzarəti kimi baxmışlar.

Monetarizm – pul kütləsinin iqtisadi fəallığa, monetar vasitələrin və monetar siyasətin iqtisadi inkişafa təsir mexa-



downloaded from KitabYurdu.org

nizmini əsaslı surətdə öyrənən nəzəriyyədir. Monetarizm əsasən pul kütləsinin tənzimlənməsinə yönəldilmiş kredit-pul siyasətidir. 1976-cı ildə iqtisadiyyat üzrə Nobel mükafatı alan, Çikaqo məktəbinin başçısı M.Fridmen qeyd edir ki, bizim adət etdiyimiz pul kəmiyyəti nəzəriyyəsi pula tələbin xüsusi nəzəriyyəsidir. Çox hallarda monetarizm bütünlüklə antikeynsçilik kimi qiymətləndirilir.

Monetarizm təkcə pul nəzəriyyəsi olmayıb, həm də təkrar istehsalın spesifik konsepsiyasıdır, pulun təkrar istehsalda rolu haqqında nəzəriyyədir. Bu nəzəriyyə pul kütləsinin istehlak və istehsal əmtəələri bazarına, qiymətə, nominal gəlirə və iqtisadi proseslərin gedişinə həlledici təsirinə əsaslanır. Monetarizmin fərqləndirici xüsusiyyəti iqtisadiyyatın bütün əsas problemlərinə (qiymət, işsizlik, inflyasiya, gəlirlərin nominal səviyyəsinə və.s) pul tədavülü prizmasından yanaşmasıdır. Monetarizmin mahiyyəti tarazlığın sabit gedişinin pozlumasının səbəbini səhv pul siyasəti, pul sferasındakı dəyişiklilər ilə əlaqədar olduğunu sübut etməkdir. Onların konsepsiyasına görə, ümumi təsərrüfat konyukturuna təsiri kredit-pul sferasın-dakı dəyişiklik göstərir. M.Fridmen özünün bütün əsər və məqalələrində uzunmüddətli dövrdə təsərrüfat həyatında baş verən iri də-yişikliyin, hər şeydən əvvəl, pul kütləsi ilə və onun hərəkəti ilə əlaqədar oduğunu sübut etməyə çalışmışdır. O, 1929-1933-cü illərin böhranı daxil olmaqla bütün iqtisadi sarsıntıları, bazar iqtisadiy-ya-tının qeyri-sabitliyi ilə deyil, pul siyasətinin nəticəsi kimi izah edir.

Monetaristlərin konsepsiyasi iqtisadiyyatın iki sahəsinə: real iqtisadiyyat və pul tədavülü sferası bölgüsünə əsaslanır. Birinci əmtəələrin və xidmətin istehsalı və satışı olan sahə tamamilə bazar qüvvələrinin fəaliyyət göstərdiyi sfera hesab olnur: daxilən sabit və tarazlı sistem kimi şərh edilir. İkinci sferaya real iqtisadiyyatla müqayisədə xarici amil kimi baxılır və o, dövlətin fəaliyyət sferası sayılır. Bu sahəyə böhran hadisələrinin əsas törədicisi kimi baxılır.

Monetaristlər dövlətin vəzifəsini real sahəyə, qarşılıqlı münasibətdə pul sferasını neytrallaşdırmaqda, bazar mexanizminin



downloaded from KitabYurdu.org

əlverişli şəraitini təmin etməkdə, əmtəə bazarını zəruri miqdarda pulla təchiz etməkdə görürlər. Onların fikrincə, tələbin dövlət tərəfindən tənzimlənməsi (keyns proqramı) bazar qüvvələrini pozur, uzun müddətli planda isə inflyasiya meyllərinin güclənməsinə səbəb olur. Fridmen hesab edir ki, bazar sisteminə dövlət müdaxiləsi qısamüddətli müsbət nəticə verə bilir və ona görə də dövlət bazar münasibətlərinə mümkün qədər az və ehtiyatlı müdaxilə etməlidir. O, pul tədavülünə dövlətin müdaxiləsini minumuma endirməyə çalışır. Dövlət tənzimlənməsini pul kütləsinə, pul emissiyasina nəzarətlə məhdudlaşdırır. Qısamüddətli pul siyasətindən uzunmüddətli pul tənzimlənməsinə keçməyi məqsədəuyğun hesab edir. Uzunmüddətli pul tənzimlənməsini mütləqləşdirir. Fridmenin ideyası öz ifadəsini ABŞ-da “reyqanomikada”, Böyük Britaniyada “tetçerizmdə” tapmışdır.

*Monetarizm nəzəriyyəsində mərkəzi yeri işsizlik və inflyasiya problemi tutmuşdur.* Fridmen işsizliyin təbii səviyyəsi anlayışını yaradır, onun fikrinə görə, işsizliyin təbii norması əmək bazarının real təbii şəraitinə uyğun işsizlik səviyyəsidir. Fridmenin təbii işsizlik anlayışı özündə makroiqtisadi amillərin və əmək bazarı institutlarının doğurduğu bütün işsizlik növlərini birləşdirir. Onun fikrinə görə, iş sizliyin təbii səviyyəsini prinsipcə bazar mexanizmi müəyyən etdiyindən, məşğulluq dövlətin makroiqtisadi siyasətinin məqsədlərinə daxil olmamalıdır. İşsizliyin təbii normasını yalnız mikroiqtisadi tənzimləmə, yaxud institusional dəyişikliklər yolu ilə azaltmağı mümkün hesab edir.

Monetaristlər işsizliyi əsasən keynsçi tənzimlənmənin məhsulu hesab edirlər. Göstərirlər ki, keynsçi tənzimlənmə məşğulluğu qısa müddət ərzində təmin edir və işsizliyin səviyyəsini təbii normadan müvəqqəti aşağı salır. Onların fikrinə görə, əgər dövlət məşğulluğun keynsçi tənzimlənməsini müvəqqəti yox, müntəzəm həyata keçirirsə, iqtisadiyyat üçün daha təhlükəli olan işsizliyin inflayasiya ilə birləşməsi baş verir.

Monetarizm inflyasiyaya xalis pul fenomeni (hadisəsi) kimi baxır və əmtəələrin kəmiyyəti ilə müqayisədə tədavüldə pulun artıqlığı kimi izah edir. Onların əsas müddəalarından biri



downloaded from KitabYurdu.org

budur: “İnflyasiya həmişə və hər yerdə pul fenomenidir”. Bununla bərabər dövlət xərcləri pul artıqlığının yaranmasının əsas amili hesab edilir.

Monetaristlərin fikrincə, inflyasiya dövlət xərclərinin ödənilməsinin mənbəyi pul emissiyası olduğu və dövlət xərcləri istiqraz və vergilərin köməyi ilə ödənildiyi bütün hallarda yaranır. Çünki dövlət xərclərini bu cür ödəmək istehsal üçün kapital qoyuluşlarının resurslarını azaldır və pul kütləsinin artım sürətinin məhsulun artım sürətini üstələməsinə səbəb olur.

Monetarizm nəzəriyyəçiləri inflyasiya mexanizmini, onun əsas iki növünə: gözlənilən və gözlənilməyən inflyasiyaya əsasən izah etmişlər. Gözlənilən inflyasiya adı altında səmərəli gözləmə - qiymətin dəyişmə proqnozuna cavab verən qiymətin artım sürəti başa düşülür. Dövlətin əsas vəzifəsini inflyasiyanı gözlənilən səviyyədə saxlamaqda görürlər. Əgər o real bölmədə səmərəli gözləməni yaratmaqla inflyasiya probleminin həllinin zəruri şəraitini təmin edirsə, pul bölməsində, pul tədavülü sferasında uzunmüddətli strategiya formasında ona əlverişli şərait yaradır.

Gözlənilməyən inflyasiya dedikdə, subyektlərin gözlənilməsinə uyğun olmayan qiymətin artım sürəti başa düşülür. O, iqtisadiyyatın real bölməsində bazar proseslərinin formasını dəyişir. Dövlətin öhdəsinə gözlənilməyən inflyasiyanın bütün kanallarını kəsmək vəzifəsi düşür.

Monetarizmə görə, bu kanalların biri həmkarlar ittifaqının fəaliyyətidir. Onların işləməyənlərin gəlirlərinin artımına nail olmaları tələb inflyasiyasını reallığa çevirir. Bu tamamilə gözlənilməyən inflyasiyanın bütün əlamətlərini özündə əks etdirir. Əməyin qiymətinin yüksəlməsi məhsulun qiymətinin artmasına səbəb olur. Onlar göstərirlər ki, inflyasiya ona görə yaranır ki, inhisarçılar qiyməti yüksəldir. Ən məşhur inhisarçı həmkarlar ittifaqı hesab edilir. Həmkarlar ittifaqının hakimiyyəti azalmayana kimi inflyasiyanı azaltmaq mümkünsüz sayılır.

Gözlənilməyən inflyasiyanın ən güclü amili məcmu tələbin keynsçi makroiqtisadi tənzimlənməsi, birinci növbədə qısa-



downloaded from KitabYurdu.org

müddətli pul siyasətinin köməyilə faiz dərəcəsinin səviyyəsinə dövlətin təsir göstərmək cəhdi və antitsiklik məqsədlərə dövlət xərclərinin işlədilməsi hesab olunur. Bu cür siyasət gözlənilməyən inflyasiya ilə nəticələnir və onun səviyyəsi işsizlik göstəricisinin təbii normasından uzaqlaşması nə qədər çox olursa, o qədər yüksək olur. Cari işsizlik təbii normadan fərqlənmədikdə real inflyasiya tam gözlənilənə çevrilir. Dövlət məşğulluğun keynsçi tənzimlənməsini işə saldığı halda inflyasiya gözlənilməz sifət alaraq sürətlənməyə başlayır.

Monetaristlər gözlənilməz inflyasiyanın yerdə qalan amillərinə mərkəzi bankda istiqrazlarla ödənilən büdcə kəsirini aid edirlər. *Monetarizmin əsas pul qaydası* (qanunu) pul təklifinin atrımının orta illik (uzunmüddətli) sürətinin pula tələbin artımına bərabər olmasıdır. Pul kütləsinin artımı gözlənilən inflyasiyanın səviyyəsini və milli gəlirin artım sürətini əks etdirir. Monetarist pul qaydasına uyğun olaraq makroiqtisadi səviyyədə sabitliyi saxlamaq üçün dövlət həmişə pul təklifinin artımının real gəlirlərin və gözlənilən inflyasiyanın artım sürətlərinin məbləğinə bərabər saxlamalıdır. Ona görə də pul kütləsi sabit sürətlə fasiləsiz artmalıdır. Fridmen ABŞ-a uyğun olaraq daxili milli məhsulun 3 faizli artımını nəzərə alaraq pul kütləsinin orta illik artımını 4-5 faiz həcmində müəyyən etmək təklif edir. Pulun bu 4-5 faiz artımı fasiləsiz (hər gün, hər həftə) olmalıdı. Fridmenin fikrinə görə, pul kütləsinin dəyişməsi iqtisadiyyata dərhal deyil, bir qədər (6-18 ay) gecikmə ilə təsir etdiyindən, bu səmərəsiz pozuntuya gətirə bilər, ona görə də qısamüddətli pul siyasətindən imtina etmək lazımdır. Onun uzunmüddətə hesablanmış siyasətlə əvəz olunması iqtisadiyyata fasiləsiz təsir göstərir. Monetarizmin pul qaydası pul siyasətinin büdcə kəsirini maliyyələşdirmək üçün istifadə edilməsinin bütün formalarını rədd edir və faiz dərəcəsinin pul tənzimlənməsinə qadağa qoyur. Monetarizm əhalinin aztəminatlı təbəqəsinə dövlətin sosial proqramını rədd edir və onu səmərəsiz sayır.



downloaded from KitabYurdu.org

# XX FƏSİL. MÜASİR İQTİSAD ELMİNDƏ KEYNSÇİ NƏZƏRİYYƏ VƏ METODOLOGİYA

İqtisadi nəzəriyyədə keynsçilik sənayecə inkişaf etmiş ölkələrdə dərin iqtisadi böhran baş verdiyi və neoklassik nəzəriyyənin bu böhranı aradan qaldırmaqda gücsüz olduğu, neoklassik iqtisadçılar bazar iqtisadiyyatında böhranların müvəqqəti xarakter daşıması haqqında ideyalarla çıxış etdiyi və marksist nəzəriyyənin geniş yayıldığı XX əsrin 30-cu illərində yaranmışdır.

Keynsçi baxışlar sisteminin əsas müddəaları **C.M.Keynsin** "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" (1936) əsərində yaradılmışdır. Keyns iqtisadiyyatın bazar mexanizmi vasitəsilə özünü tənzim etməsi haqqında neoklassik nəzəriyyəni qəbul etmir və göstərir ki, təbii (kənardan müdaxilə olmadan) inkişaf edən bazar iqtisadiyyatı ideal sistem deyil və bu sistemə iqtisadi sarsıntılar xasdır. O hesab edir ki, azad iqtisadi sistem maddi və əmək resurslarından dolğun və səmərəli istifadə olunmasını, həmçinin iqtisadiyyatın fasiləsiz artımına sərbəst şəraiti təmin edə bilir. Keyns bazar iqtisadiyyatını saxlayıb, yalnız onu dövlət siyasəti ilə düzəltməyi təklif edir.

Keynsin nəzəriyyəsi məşğulluq nəzəriyyəsi adını almış iqtisadi siyasət proqramıdır. Məşğulluq adı altında isə istehsalın vəziyyəti, onun həcmi, milli gəlirin miqyası başa düşülür. Keyns diqqətini iqtisadiyyatda qısamüddətli dəyişikliklərə yönəltmişdir. Təhlilin ağırlıq mərkəzini resurslara təklifdən (onların nadirliyi və qiyməti məsələsindən) tələbə, səmərəli tələb və onun sabitliyi probleminə keçirmişdir. Onun bütün nəzəri təhlili səmərəli tələbin tərkib hissələrinin dəyişməsini müəyyən edən amillərin tədqiqinə yönəlmişdir. Onun tədqiqatının mərkəzində səmərəli tələbin hərəkətinin və milli gəlirin artımının qanunauyğunluqlarını müəyyən etmək durur.

Keyns iqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyini və onun metodlarını işləyib hazırlamışdır. Keynsçilik, dövlət tənzimləmə sistemini əsaslandırmış makroiqtisadi nəzəriyyədir. Bu, əvvəlki məktəblərlə müqayisədə keynsçiliyin yeniliyidir.



downloaded from KitabYurdu.org

Keynsçi nəzəriyyə dövlətin kapital qoyuluşundan və istehlakdan əmələ gələn, dövlət xərcləri ilə tamamlanan məcmu tələbə təsir etmək yolu ilə iqtisadiyyata müdaxilə formasıdır. *Keynsçiliyin mahiyyəti səmərəli tələbi müəyyən edən xərclər və gəlirlər arasındakı nisbətin tənzimlənməsidir. Tənzimləmə obyekti səmərəli tələbin ən mühüm tərkib hissəsi olan kapital qoyuluşudur.* Məqsəd dövlətin köməyi ilə kapital qoyuluşlarının sabit artımını təmin etməkdir. Məhz onların artımına səmərəli tələbin təmin olunmasının həlledici amili kimi baxılır.

Keynsçi makroiqtisadi nəzəriyyədə əsas məqsəd iqtisadi tsikli sabitləşdirmək və məşğulluğun yüksək səviyyəsini təmin etməkdir. Həlledici rol büdcə-vergi siyasətinə verilir. Büdcə-vergi siyasəti antitsiklik tənzimləmənin həyata keçirilməsinin, həmçinin uzun perspektivdə iqtisadi artımın stimullaşdırılmasının əsas aləti hesab edilir. Məcmu tələbi genişləndirmək və azaltmaq məqsədilə büdcə kəsirinin idarə edilməsinə xüsusi əhəmiyyət verilir.

Keynsə görə, işsizliyin əsas səbəbi tədiyə qabiliyyətli (səmərəli) tələbin çatışmamasıdır. Buna əsaslanaraq, o, səmərəli tələbin artırılması tələbini irəli sürür. Keynsin iqtisadi proqramı bu tələbin reallaşmasına tabe edilmişdir. Keyns səmərəli tələbi işləməklə iqtisadi nəzəriyyənin inkişafını zənginləşdirmişdi. Bu, onun iqtisadi nəzəriyyəsinin inkişafına qiymətli hədiyyəsidir.

*Keynsin metodologiyası fərdin psixologiyasına yox, məcmu psixoloji amillərə əsaslanır.* O, iqtisadiyyatın vəziyyətini onun fəaliyyəti ilə əlaqələndirir və iqtisadi tarazlığın pozulmasının əsas səbəbini onda görür. *Keyns "əsas psixoloji qanun" yaradır.* Bu qanuna uyğun olaraq məcmu real gəlirin artması ilə istehlak da artır. Lakin o gəlirin artımı kimi artmır. Keyns hesab edir ki, cəmiyyətdə milli gəlirin hərəkətinin əsas meyllərini və istehlakın həcmini bu qanun açır. Onları belə izah edir: gəlirlərin artması ilə birgə əhalinin istehlakı da artır, bu istər-istməz tələbin artmasına səbəb olur. Lakin, bununla yanaşı istehlakın artmasının qarşısını alan gəlirlərin bir hissəsini yığmaq meyli fəaliyyət göstərir. Keyns tarazlığın pozulmasının, böhranlı tənəzzülün və işsizliyin əsas



downloaded from KitabYurdu.org

səbəbini yığmaq meylində görür. O, səmərəli tələbə baxarkən istehlaka meyllilik (milli gəlirdə istehlakın payı), yığıma meyllilik (gəlirin yığılan hissəsi), investisiyalara meyllilik (milli gəlirin istehsalın genişləndirilməsinə gedən hissəsi), likvidliyi üstün tutma (kapitalı borc formasına çevirməyə cəhd etmə), kapitalın faydalılıq həddi (mənfəətin orta norması) kimi anlayışlar işlətmişdir. Keynsə görə, səmərəli tələb üç amillə: istehlaka meyllilik, kapital qoyuluşunun faydalılıq həddi və likvidliyin üstün tutulması ilə müəyyən olunur. İstehlaka meyllilik tələbin kəmiyyətini, investisiyaya meyllilik istehsal tələbini müəyyən edir. Hər ikisi bir istiqamətdə fəaliyyət göstərir və məcmu tələb birbaşa onlardan asılı olur. Likvidliyi üstün tutma məcmu tələbə əks təsir göstərir. Keyns qeyd edir ki, likvidliyə üstünlük vermək kapitalın borc formasında mənfəətli olması deməkdir və o, borc faizinin kəmiyyətindən asılıdır. Faiz nə qədər yüksək olarsa, kapitalı istehsaldan götürmək, onu pul formasına çevirmək və faiz almaq arzusunda olanlar o qədər çox olur. Keynsə görə məşğulluğun ümumi həcminin müəyyən olunmasında investisiya həlledici rola malikdir.

İnvestisiya tələbinin yüksəltməyin yolunu Keyns, hər şeydən əvvəl, mənfəətin yüksək normasında (kapitalın faydalılıq həddindən yüksək) görür. Bunun qayğısına qalınmasını o, dövlətin tənzimləyici təsirinin üzərinə qoyur. Bununla bərabər keynsçi nəzəriyyə borc faizinin aşağı salınması üzrə tədbirlər işləyib hazırlamışdı. Bunların həyata keçirilməsini də, həmçinin dövlətlə, onun iqtisadi siyasətilə əlaqələndirir.

*Keyns səmərəli tələbi stimullaşdırmaq üçün dövlət xərclərini, investisiyanı və dövlət sifarişlərini artırmağa, kredit faizini azaltmağı və gəlirlərin əhalinin ən aztəminatlı təbəqəsi və sosial qruplarının mənafeyinə uyğun yenidən bölgüsünü təklif edir.*

Keynsin nəzəriyyəsi makroiqtisadi göstəricilərin proporsionallığını və funksional asılılığını öyrənir. Onun mühüm vəzifəsi kapital qoyuluşu, istehlak və milli gəlir arasında əlaqə yaratmaqdır. Bu əlaqə *multiplikator mexanizmi* vasitəsilə yaradılmışdı. Multiplikator iqtisadi böhranları və işsizliyi zəiflətmək üçün dövlət xərclərini artırmağı nəzəri cəhətdən əsaslandıran



downloaded from KitabYurdu.org

vasitədir. İqtisadiyyatda dövlət təsirinin zəruriliyinin əsaslandırılmasına yönəldilmiş dəlildir. Multiplikator gəlirin artımının kapital qoyuluşlarının artımına olan nisbətini ifadə edir və o kapital qoyuluşunun hər yeni artımı nəticəsində gəlirin artımını avtomatik təmin edən çoxaldıcı rolunu yerinə yetirir. Onun köməyi ilə əlavə kapital qoyuluşundan gözlənilən səmərə ölçülür. Keyns göstərir ki, kapital qoyuluşlarının hər bir artımı cəmiyyətdə milli gəlirin artımını təmin edən məşğulluğu artırır. Milli gəlirin artımı isə öz növbəsində yeni əlavə kapital qoyuluşu üçün çıxış nöqtəsi olur.

Müharibədən sonrakı dövrdə iqtisadiyyatın müvazinətinin pozulması və onun sabitliyinin təmin edilməsi ilə əlaqədar olaraq ABŞ-da antitsiklik tədbirlərin hazırlanmasında nəzəri əsas kimi keynsçi nəzəriyyədən geniş istifadə edilmişdir. Bunun təsiri altında 50-ci illərin birinci yarısında Qərbdə və ABŞ-da xüsusi istiqamət kimi ortodoksal keynsçilik (neokeynsçilik) yaranmışdı. Neokeynsçilik 70-ci illərin ikinci yarısına qədər iqtisadi nəzəriyyənin əsas cərəyanlarından biri olmuşdur. Onun tərəfdarları Keynsin nəzəriyyəsindən dəyişən iqtisadi şəraitin hadisə və proseslərinin tədqiqində metodoloji əsas kimi istifadə etmişlər. Bununla yanaşı onlar, həm də Keynsdə olmayan, kapitalizmin inkişafında yeni hadisələrin nəzəri əsaslandırılması tələbindən, iqtisadiyyatın dövlət tənzimlənməsinin yeni formalarının zəruriliyindən yetişmiş konsepsiyalar yaratmışlar.

Neokeynsçiliyin nümayəndələri (C.Hanson, R.Xarrod, P.Samuelson, E.Domar), həm Keynsin nəzəriyyəsini dəqiqləşdirmiş, onu "iqtisadi-dinamika" nöqteyi-nəzərdən işləmişlər, həm də iqtisadi tənzimlənmənin konkret proqramlarını işləyib hazırlamışlar. Onlar diqqətlərini iqtisadi tsikl və iqtisadi artım problemlərinə cəmləşdirmişlər.

Neokeynsçiliyin əsas xüsusiyyəti ondan ibarətdir ki, o Keynsin nəzəriyyəsində olduğu kimi hərdən bir və dolayı şəkildə, sistematik və özü də birbaşa kapitalist iqtisadiyyatına dövlət təsirinin zəruriliyini müdafiə edir. Müharibədən sonrakı dövrdə keynsçiliyin inkişafı bu əsas vəzifəyə tabe edilmişdir.



downloaded from KitabYurdu.org

Ortodoksal keynsçilik iqtisadi tsikl haqqında təlim ilə sıx əlaqədə formalaşmışdı. Keynsçi tsikl nəzəriyyəsi, bütünlüklə təkrar istehsal prosesini müəyyən edən real makroiqtisadi komponentlərin qarşılıqlı fəaliyyəti əsasından tsiklin izahını vermişdi. Bu nəzəriyyə-nin müəllifi Harvard universitetinin professoru **A.Hansondur** (1887-1975). Tsikl nəzəriyyəsi müharibədən sonra keynsçiliyin təkamülünün ilk məhsullarından biridir.

Neokeynsçilər kapitalist iqtisadiyyatının tsiklliyini inkar etməmişlər, onlar üçün böhran nə təsadüfi, nə iqtisadi siyasətdəki səhvin nəticəsi, nə pul xarakterli çətinliklərin nəticəsi deyil. Onların fikrinə görə, tsiklik dəyişmə kapitalist iqtisadiyyatına xas olan hadisədir. Neokeynsçilər tsikl konsepsiyasını kapitalist iqtisadiyyatının inkişafındakı uzun sürən meyllərlə əlaqələndirməyə çalışmışlar. Bu meyllər müxtəlif tarixi şəraitlərdə tsiklin ayrı-ayrı fazalarının davam etməsini və dərinliyini müəyyən edir. Onlar qeyri-sabitliyin və tsiklik dəyi-şikliyin səbəbini iqtisadi sistemin zahiri pozulmalarında, yaxud qiymətin dəyişməsində deyil, təkrar istehsal əlaqələrinin xüsusiyyətlərində axtarırlar. Səmərəli tələbin dəyişməsi faktiki istehsalın hərəkətini və onun potensial mümkün səviyyədən uzaqlaşdığını müəyyən edir.

Keynsçi tsikl nəzəriyyəsi özündə dürd komponenti birləşdirir: investsiya tələbini müəyyən edən amilləri; istehlak tələbini müəyyən edən amilləri; multiplikator və akselerator anlayışlarını. Sonuncuların köməyilə investisiya və istehlak milli gəlirin artımı ilə əlaqələndirilir.

Tsiklin yayılmış nəzəriyyələrindən biri, özündə Keynsin konsepsiyasının əsas müddəalarını mənimsəmiş və *akselerator* (sürətləndirici) mexanizmlə zənginləşmiş investisiya nəzəriyyəsidir. Bu nəzəriyyə investisiyanın artımının gəlirin artımına olan nisbətini əks etdirir. İnvestisiya nəzəriyyəsində əsas amil kimi investisiyanın dinami-kası götürülür. Hanson investisiyaya iqtisadi böhranların vaxtında qabağını almağın əsası kimi baxmış və Keyns kimi onun stimullaşdı-rılmasına xüsusi əhə-



downloaded from KitabYurdu.org

miyyət vermişdir. Hanson əsas diqqətini dövlət xərclərinə, dövlət investisiyalarının artırılmasına yönəltmişdir.

İnvestisiya nəzəriyyəsi kapital qoyuluşlarının dinamikasına, onların dövlət tərəfindən tənzimlənməsinə diqqəti cəmləşdirmiş neokeynsçi antitsiklik proqramların əsaslandırılması üçün əsas olmuşdur. Hanson tsiklik dəyişmələr ilə mübarizənin iki metodunu göstərir. Biri bilavasitə investisiyanın həcmini sabitləşdirməkdir, digəri isə fiskal və pul-kredit siyasəti tədbirlərilə xüsusi investisiyaların dəyişməsini tarazlaşdırmaqdır.

Müharibədən sonra yaranmış keynsçi nəzəriyyələrdən biri də iqtisadi artım nəzəriyyəsidir. Keynsçi iqtisadi artım nəzəriyyələrinin əsasları ingilis iqtisadçısı **R.Xarrod** (1890-1978) və amerikan iqtisadçısı **E.Domar** (1914) tərəfindən yaradılmışdır. Onların artım modeli keynsçi model çərçivəsində baxılan prosesləri qısamüddətli dövrdən uzunmüddətli dövrə aid edilməsidir. Keynsin modelindən milli gəlirin tarazlığının yaradılmasının şərtinə baxılırsa, Domar və Xarrodun modelində milli gəlirin tarazlı və ya sabit artım sürətini təmin edən şərtlərin məcmusu öyrənilir. Xarrod və Domarın iqtisadi nəzəriyyəsi iqtisadiyyatda müvazinətin pozulması şərtini və onun bərpa olunmasını deyil, bazar iqtisadiyyatının sabit artım sürətini nəzəri cəhətdən əsaslandıran uzunmüddətli dövrdə onun sabit iqtisadi artımını təhlil etmişdir. Onların iqtisadi artım nəzəriyyəsi uzunmüddətli planda milli gəlirin potensial mümkün olan artım sürətini təmin edən amillər problemini və həmin artım sürətini, həm uzaq və həm də qısamüddətli gələcəkdə asılı olduğu şərtlər problemini irəli sürmüşdü. Lakin onların modeli milli gəlirin artımının yalnız bir amilini – kapital qoyuluşunu nəzərə almışdır.

*Ortodoksal keynsçilik* büdcə tənzimlənməsi ideyasını pul-kredit siyasətilə birləşdirən makroiqtisadi siyasət konsepsiyasını işləyib hazırlamışdır. Bu konsepsiyanın məqsədi məşğulluğu, iqtisadi tsiklin sabitləşməsini və yüksək artım sürətini təmin etmək olmuşdur. Keynsçi makroiqtisadi siyasət özündə üç əsas cəhəti: müdrik büdcə siyasətinin əsas meyarı kimi dövlət



downloaded from KitabYurdu.org

büdcəsinin tarazlaşdırılması ideyasının üstün gəlməsini, dövlət xərclərinin kəsirli maliyyələşdirilíməsi nəzəriyyəsinin hazırlanmasını, pul-kredit tənzimlənməsinin büdcə siyasətini müdafiə edən alət kimi rolunun başa düşülməsini birləşdirir.

Lakin 70-ci illərin ortalarında makroiqtisadi siyasətin nöqsanları üzə çıxır. Bu son dərəcə onun nüfuzdan düşməsinə və bütünlüklə keynsçiliyin böhranına gətirib çıxardır. İqtisadi tənzimlənmənin Keyns konsepsiyasının böhranı bütün ortodoksal keynsçiliyin – neoklassik sintezin kəskin tənqidinə səbəb oldu. Bu zaman neokeynsçiliyi *postkeynsçilik* və yeni keynsçilik əvəz etdi. Postkeynsçilik özündə keynsçi inqilabın əhəmiyyətini azaldanlara, Keynsin ideyalarını neokeynsçiliklə qarışdırmağa cəhd edənlərə qarşı çıxmış bütün iqtisadçıları birləşdirir. Onun nümayəndələri ingilis iqtisadçıları **C.Robinson, N.Kaldor, P.Sraff,** amerikan iqtisadçıları **A.Eyxner, S.Vayntraub** olmuşdu. Postkeynsçi iqtisadçılar ortodoksal keynsçiliyi tənqid edirlər, lakin Keynsin təlimindən imtina etmirlər. Onlar Keynsin nəzəriyyəsini yeni iqtisadi baxışların mənbələrindən biri hesab edirlər. Onlar kapitalist sisteminin daxili sabitliyi haqqında konsepsiyanın əleyhinə çıxırlar. Postkeynsçilər neoklassizmi, xüsusən də onun metodoloji əsasını – marjinalizmin tənqidini davam etdirmişlər. Onlar öz qarşılarına Keynsin nəzəriyyəsini təzələmək və neoklassik sistemin devrilməsini məntiqi sonluğa çatdırmaq vəzifəsini qoymuşlar. Onlar ortodoksal keynsçiliyi, onun nümayəndələrini Keynsin nəzəriyyəsini səhv izah etdiklərinə, pul amilini inkar etdiklərinə, bölgü problemini nəzərə almadıqlarına, iqtisadi prosesləri sadələşdirdiklərinə, milli gəlirin səviyyəsini düzgün izah etmədiklərinə, inflyasiyanın inkişafının təhlükəsini qiymətləndirmədiklərinə, defisit maliyyələşdirmənin real səmərəsini həddindən artıq şişirtdiklərinə görə tənqid etmişlər. Postkeynsçilik çərçivəsi daxilində, təhlilin predmetinə və metodologiyasına yanaşma qaydası ilə fərqlənən bir neçə istiqamət fəaliyyət göstərir.

Postkeynsçilər öz konsepsiyalarını əsaslandırdıqda yalnız Keynsin nəzəriyyəsilə kifayətlənməmişlər. Postkeynsçilik özünün



downloaded from KitabYurdu.org

ayrı-ayrı cinahlarında, həmçinin digər mənbələrindən: institusionalizmdən, Polşa iqtisadçısı **M.Kaletskinin** irsindən, rikardoçuluqdan, radikalların təlimindən, Marksın kateqoriyalarından və metodoloji üsullarından geniş istifadə etmişdir. M.Kaletski, Keynsin makroiqtisadi nəzəriyyəsini qiymətqoyma və bölgü proseslərinin təhlili ilə zənginləşdirmiş, investisiya artımının müxtəlif subyektlərin istehlak payından asılığını yaratmağa çalışmışdı.

*Postkeynsçi nəzəriyyələrdə mərkəzi yeri artım və bölgü problemi tutur.* Postkeynsçilər göstərirlər ki, istehsalın artım sürəti milli gəlirin bölgüsündən, gəlirin kəmiyyəti və onun artımı yığımdan asılıdır; yığımın ümumi kəmiyyəti isə əmək haqqı və mənfəətdən yığılan məbləğdən əmələ gəlir. Yığıma meyllilik əmək haqqı və mənfəət alanlarda müxtəlif olduğundan, həqiqətən bölgüdəki dəyişiklik yığımın ümumi məbləğinə təsir göstərir. Beləliklə, milli gəlirin bölgüsü onun artımına təsir edir. Bu, postkeynsçilərin əsas müddəasıdır, bunun köməyilə onlar Keynsin nəzəriyyəsini yenidən qurmuşlar.

Postkeynsçilər kapitalist iqtisadiyyatını islahat yolu ilə dəyişdirilməsinin tərəfdarı olmuşlar. İslahatları daha realist nəzəriyyələrlə möhkəmləndirməyə çalışmışlar. Onlar iqtisadi siyasətin istiqamətlərini və iqtisadiyyatın dövlət tənzimlənməsinin metodlarını işləyib hazırlamaqla məşğul olmuşlar. Lakin onların indiyə kimi bir konkret proqramı yoxdur, yalnız müxtəlif fikirləri mövcuddur. Məsələn, N.Kaldonun modelinə görə, artım sürətinin yüksəldilməsini, yalnız milli gəlirin mənfəətin xeyrinə yenidən bölgüsü nəticəsində təmin etmək olar. C.Robinson göstərir ki, əmək məhsuldarlığının artımına uyğun əmək haqqının yüksəlməsi reallaşmadakı çətinliyi aradan qaldırır və iqtisadi artımın mühüm stimulu olur.

Postkeynsçilər kapitalizm öz çərçivəsində qalmaqla, gələcəkdə təkcə iqtisadi artım uğrunda deyil, həm də bir sıra məsələlərin (gəlirlərin bölgüsündə bərabərsizliyin aradan qaldırılması; əhalinin istehlak tələbatının yüksəldilməsi: maarif, səhiyyə, sosial sığortanın və s. İnkişafına xərclərin artırılması)



downloaded from KitabYurdu.org

həlli uğrunda mübarizə edirlər. Onlar inhisarların təzyiqinə, onların mütləq hökmranlığına, hərbləşməyə qarşı çıxış edərək xüsusi mülkiyyətin, kapitalist iqtisadi sistemini ləğv etməyi tələb etmirlər. Praktiki sahədə Postkeynsçilər tərəfindən təklif olunan gəlir siyasəti inflyasiya ilə mübarizə vasitəsidir. Büdcə və kredit-pul siyasətində onun mümkün olan inflyasiya nəticələrinə böyük diqqət yetirilməsi nəzərdə tutulur. Onlar gəlir siyasətini (investisyanın sürət və strukturunun müəyyən edilməsi də daxil olmaqla) bütünlükdə iqtisadi artım siyasəti ilə əlaqələndirməyə çalışırlar.

İdeya köklərinə, metodologiya və tədqiqat obyektinə görə postkeynsçilik üç istiqamətə ayrılır: monetar, kaletski və neorikardoçu. Postkeynsçi nəzəriyyənin mahiyyəti, onun predmeti və metodologiyası bu istiqamətlərin hər biri tərəfindən özlərinin istədiyi kimi qiymətləndirilmişdir. Neoklassik məktəblərin əsas müddəalarının kəskin tənqid və inkar olunmasında, həmçinin ortodoksal keynsçilikdən imtina etməkdə və Keynsin nəzəriyyəsinin yenidən qiymətləndirilməsi zəruriliyində bir olan postkeynçilər, Keynsin nəzəriyyəsinin yenidən qurulması (necə, hansı konkret yolla və hansı istiqamətdə getməsi) məsələsində ayrılmışlar.



downloaded from KitabYurdu.org

# XXI FƏSİL. SOSİOLOJİ-İNSTİTUSİONAL NƏZƏRİYYƏLƏR VƏ METODOLOGİYA

İqtisadi nəzəriyyədə institusionalizm XIX əsrin axırı və XX əsrin əvvəlində yaranmışdır. Lakin o, bir istiqamət kimi ABŞ-da XX əsrin 20-30-cu illərində geniş təşəkkül tapmışdır. Bu vaxtdan institusionalizmin iqtisadi nəzəriyyəyə və iqtisadi siyasətə təsiri olduqca böyük olmuşdu. ABŞ-da institusionalizmin əsas yaradacısı **T.Veblen** (1857-1929), digər nümayəndələri **C.Kommons** (1862-1945) və **U.Mitzell** (1874-1948) olmuşdur.

İnstitusionalizmin adı latın sözü olan "institut" sözündən götürülüb. "İnstitut" ifadəsi altında cəmiyyətdə qəbul olunmuş, həmçinin qanun formasında möhkəmləndirilmiş müəyyən adətlər, qaydalar və təsisatlar başa düşülür. İnstitut anlayışı olduqca geniş anlayışdır. O, həm dövlət, korporasiya, həmkarlar təşkilatı kimi, həm rəqabət, inhisar, vergi kimi; həm sabit təfəkkür tərzi kimi və həm də hüquqi normalar kimi şərh edilir. İnstitusionalistlər iqtisadi hadısələri adətlər, hüquqi və əxlaqi normalar və ənənələrlə ötürülmüş formalar kimi izah etmişlər. Onlar göstərirlər ki, kateqoriyalar yalnız ictimai psixologiyanın təzahür formasıdır. Onlar ictimai psixologiyanın təkamülünü təhlil etmişlər.

İnstitusionalizmin tərəfdarları iqtisadi münasibətlərlə birgə sosioloji münasibətləri də öyrənmişlər. İnsan davranışının siyasi və digər texniki-iqtisadi amilləri iqtisadi nəzəriyyənin predmetinə daxil etmişlər. Onlar siyasi iqtisad elminə fənlərarası elmi xarakter vermişlər və iqtisadiyyata iqtisadi və qeyri-iqtisadi amilərin qarşılıqlı fəaliyyət göstərdiyi sistem kimi baxmışlar. Ön plana texniki-iqtisadi, sosioloji, psixoloji, əxlaqi-hüquqi amillər və iqtisadi təşkilatları çıxarmışlar. Onlar hesab edirlər ki, dövlət, iri korporosiyalar və həmkarlar təşkilatı sosial institutlarla iqtisadiyyata həlledicı surətdə təsir edir. İnstitusionalizm təsərrüfat subyektlərinin fərdi fəaliyyıtini deyil, kollektiv institutların: dövlətin, həmkarlar ittifaqının, iri korporasiyaların və inhisarların fəaliyyətini öyrənir. Onun nümayəndələri iqtisadi və sosial



downloaded from KitabYurdu.org

proseslərin qarşılıqlı asılılıqlarını öyrənmişlər. *İqtisadi proseslərə sosioloji-psixoloji məlumatları cəlb etməklə baxmışlar.* İnstitusionalizmin metodologiyasının digər xarakterik cəhəti iqtisadi hadısələrin təhlilinin təkamül prinsipidir. Qərb iqtisad elmi üçün ənənəvi olan statiklikdən (sükunət halından) fərqli olaraq, onları tarixi ardıcıllıqda öyrənməkdi. Onların tədqiqat metodu-abstrakt-nəzəri metodun əksinə olaraq geniş statistik və faktiki materiallardan istifadə etməklə konkret təthlil metodudur. Bu empirik metod adlanır.

İnstitusionalistlər klassik iqtisad elminin nümayəndələrini iqtisadi müvazinətə həddindən artıq diqqət yetirdiklərinə, bütün hadi-sələri sükunət halında öyrəndiklərinə, iqtisadi adam ideyasına və gerçəkliyi sadələşdirmələrinə görə tənqid edirlər. İnstitusionalizm burjua siyasi iqtisadının əhəmiyyətli dərəcədə yenidən qurulması mərhələsinin başlanğıcını, onun yeni tarixi şəraitə (azad rəqabətin məhdudlaşması, inhisarların hökmranlığı, dövlətin güclənməsi) uyğunlaşmasının əsasını qoymuşdu. Onun nümayəndələri liberalizmin əsas müddəalarına və marjinalizmə qarşı tənqidi çıxış edərək kapitalizm cəmiyyətində, iqtisadiyyatda müvazinətin avtomatik yaradılması mexanizminin fəaliyyət göstərməsini inkar edirlər. İnstitusionalistlər inhisarların təzyiqini, azad bazar mühitinin nöqsanlarını, iqtisadiyyatın artan hərbiləşməsini və s. onlar üçün müasir olan kapitalizmin nöqsanları hesab edirlər.

İnstitusionalistlər kapitalist iqtisadiyyatının bir sıra hadisələrini tənqid edir və sosial proqramın genişləndirilməsi uğrunda çıxış edirlər. İnstitusional istiqamətin əsas mühüm xüsusiyyəti burjua cəmiyyətinə sosial tənqidi münasibət göstərməsidir. İnstitusionalizm kapitalist iqtisadiyyatının tsiklik hadisələrinə, xüsusən ifrat istehsal böhranlarına, onun işsizlik, bölgü, sosial və ümumbəşəri problemlərinə diqqət yetirmişdi.

*İnstitusionalistlər burjua iqtisad elmində ilk dəfə olaraq kapitalist iqtisadiyyatı üzərində sosial nəzarətin, indikativ planlaşdırmanın və iqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyini əsaslandırmışlar.* Bu ideya XX əsrdə Qərbin iqtisad elmində kapitalist



downloaded from KitabYurdu.org

bazar iqtisadiyyatının azad inkişaf konsepsiyası ilə birgə əsas ideyalardandan biri olmuşdu.

T.Veblen inhisarçı kapitalizm şəraitində iqtisadi liberalizmin əsassızlığını göstərən və təsərrüfat fəaliyyəti üzərində sosial nəzarətin zəruriliyini əsaslandıran ilk burjua iqtisadçısı olmuşdu. O, ABŞ-da ənənəvi iqtisadi nəzəriyyənin dağıdılmasında həlledici sima olmuşdu. Veblen iqtisadi nəzəriyyədə yeni metodoloji üsulun-texniki determinizmin əsasını qoymuş, gələcək cəmiyyətdə "texnokratların hökmranlığını" qabaqcadan xəbər vermişdi. O, ölkənin həyatını, xüsusi "texniklər şurasına" tabe etməyi təklif edir. "Texniklər şurası" təbii resursların səmərəli istifadəsini, istehsalın səmərli təşkilini və ədalətli bölgünü həyata keçirir.

İnstitusionalizm -həddindən artıq mürəkkəb və ziddiyyətli bir istiqamətdir. Onda konsepsiyaların mürəkkəb dəsti cəmləşmiş və onun nəzəriyyəçiləri geniş diapozonda çıxış etmişlər. İnstitusionalizmin daxilində onun ideoloqlarının baxdıqları məsələlər dairəsilə tamamilə fərqlənən üç istiqamət mövcuddur: 1. Sosial-psixoloji (T.Veblen); 2. Sosial-hüquqi (C.Kommons); 3. Empirik və ya konyuktur – statistik (U.Metçell). İnstitusionalizmin bütün nümayəndələri üçün bütöv iqtisadi nəzəriyyə yoxdur. Onlar üçün yeganə ümumi olan – kapitalist iqtisadiyyatı üzərində dövlət nəzarətinin həyata keçirilməsi təklifidir.

İnstitusionalizmin yaranması iqtisadi fikir tarixində mühüm dönüş nöqtəsidir. İnstitusionalistlərin əsas konstruktiv tələbi –iqtisadiyyat üzərində sosial nəzarətin həyata keçirilməsidir. İnstitusionalizm çərçivəsində ilk dəfə olaraq burjua iqtisad elmində inhisarçı kapitalizm şəraitinə uyğun iqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyi əsaslandırılmış və bu müdaxilənin variantları işlənib hazırlanmışdır.

İlk institusionalizmin nümayəndələrinin praktiki təklifləri olduqca müxtəlifdir: "texniklər şurasını" dövlətin başına qoymaq (T.Veblen); kapitalist iqtisadiyyatının planlaşdırılmasını (indikativ) həyata keçirmək (U.Mitçell); bütün sosial təbəqələrdən, əks mənafeləri barışdırmağı bacaran nüfuzlu dövlət yaratmaq (C.Kommons). İnstitutsionalist istiqamətin bütün mərhələlərdə



downloaded from KitabYurdu.org

təkamülünün təməli, onun nümayəndələri üçün ümumi olan kapitalist iqtisadiyyatı üzərində dövlət nəzarəti ideyası olmuşdu.

İnstitusionalizmin inkişafında XX əsrin 50-ci illəri və 60-cı illərinin birinci yarısı mühüm mərhələ olmuşdu. Bu dövrdə institusionalizmin təkamülünün mühüm xüsusiyyəti, ilkin institusionalizmə xas olan kapitalizm cəmiyətinə sosioloji tənqidi münasibətin zəifləməsi və onun pozitiv xarakter daşımasıdır. Bu dövrün institusionalist nəzəriyyələri kapitalizmə xas olan nöqsanların tarixi keçmişdə olduğunu göstərirlər və müharibədən sonrakı kapitalizmə, cəmiyyətin inkişafında keyfiyyətcə yeni mərhələ kimi baxırlar. Onlar kapitalizmin həyat qabiliyyətliyinin yüksəldilməsinə və islahatların (Ruzveltin "yeni kursunun") həyata keçirilməsinə istiqamətlənmiş təkliflər irəli sürmüşlər. Bu vaxtı iqtisadi hadisələrin təhlilinin sosiologiyalaşması prosesi güclənmiş, nəticədə institusional-sosioloji cərəyan formalaşıb inkişaf etmişdir.

İnstitusional-sosioloji cərəyanın əsas səciyyəvi xüsusiyyətləri aşağıdakılar olmuşdu: planlaşdırma vasitəsilə kapitalist istehsalı üzərində sosial nəzarət ideyasının həyata keçirilməsi; burjua cəmiyyətinin sosial problemlərinə diqqət verilməsi və onların həlli üzrə praktiki tədbirlərin təklif olunması; ilkin institusionalizmin metodologiyasına xas olan texniki determinizmin güclənməsi və s. Müharibədən sonra kapitalist iqtisadiyyatının planlaşdırılması ideyası, özünün bütün mənası ilə xüsusən Fransada qarşıya qoymuşdu. Fransada iqtisadçı-alimlər, xüsusilə **F.Perru** iqtisadiyyata fəal dövlət müdaxiləsini əsaslandırmışdı. F.Perru planlaşdırmaya sosial problemlərin həllinin, müxtəlif sosial qrupların mənafeləri arasında kompromis tapmağın aləti kimi baxmışdı.

İnstitusionalizmin təkamül prosesi kapitalizmin transformasiyasının çoxsaylı nəzəriyyələrinin yaranması, onların inkişafı və ETİ-lə əlaqədar olan texnokratik nəzəriyyələrin yaranması ilə səciyyələnmişdi. Kapitalizmin transformasiyasi nəzəriyyələrinə: xalq kapitalizmi, kollektiv kapitalizm, qarışıq iqtisadiyyat, rifah dövləti və s. Daxildi. Xalq kapitalizm nəzəriyyəsi özündə



downloaded from KitabYurdu.org

kapitalın demokratlaşması və yaxud mülkiyyətin diffuziyası, idarəedicilərin inqilabı, gəlirlərdə inqilab nəzəriyyələrini birləşdirir. Kollektiv kapitalizm nəzəriyyəsi də mahiyyətinə görə xalq kapitalizm konsepsiyasının müxtəlif variantlarından biridi. ETİ ilə əlaqədar yaranmış texnokratik nəzəriyyələrə: sənaye cəmiyyəti, texniki cəmiyyət, yeni sənaye cəmiyyəti, postsənaye cəmiyyəti, kütləvi istehlak cəmiyyəti, informasiya cəmiyyəti və s. konsepsiyalar daxildir.

*Kapitalizmin transformasiyasi nəzəriyyələri* kapitalizmin təkamül yolu ilə yeni bir ideal iqtisadi sistemə çevrilməsi ideyasını təbliğ edir. Bu nəzəriyyələrin nümayəndələri iri korporosiyaları, səhmdar müəssisələri kollektiv istehsalın ünsürləri hesab edirlər və onları müasir cəmiyyətin inqilabi elementləri adlandırırlar. İnstitusionalizmin tərəfdarları iri korporasiyalar istehsalın təkmilləşdirilməsində və texniki tərəqqinin həyata keçirilməsində qeyri-məhdud imkanlara malik olduqlarına görə onların mənafelərini müdafiə edirlər.

İnstitusional sosioloji cərəyan 60-cı illərin ortalarında və 70-ci illərdə institusionalizm formasını almışdı. Bu dövrdə institusionalizmə marağın artması və bütünlükdə institusional-sosioloji istiqamətin əhəmiyyətli xeyli dərəcədə güclənməsi sosial amillər və onların cəmiyyətin inkişafında rolu, texnokratik adlanan çoxsaylı transformasiya nəzəriyyələri üçün əsas olan müasir ETİ, iqtisadi nəzəriyyənin ənənəvi istiqamətlərinin: neoklassizmin və keynsçiliyin nüfuzdan düşməsi ilə əlaqədar olmuşdu.

Yeni institusionalizmin nümayəndələri sosial-iqtisadi dəyişikliyin və kapitalizmin inkişaf edib, yeni ali forma almasının əsasını elmin, texnikanın və texnologiyanın tərəqqisində görürlər. Onlar ETT hesabına kapitalizmin çatışmazlıqlarını aradan qaldırmağı mümkün hesab edirlər.

70-ci illərdə institusionalist iqtisadçılar (C.Helbreyt) ümumi nəzəri fikir söyləməkdən, konkret proqramlar işləyib hazırlamağa keçmişlər. Bu proqramlarda məqsəd kapitalizmin transformasiyasi konsepsiyaları çərçivəsində kapitalizmi sosializmləşdirməkdir. Bunun mahiyyəti iri korporasiyaların fəaliy-



downloaded from KitabYurdu.org

yətinə dövlət nəzarətini həyata keçirmək üçün şərait yaratmaqdır. C.Helbreyt konkret olaraq sosial infrastruktura, xüsusən də təhsilin ehtiyaclarına investisiyanı artırmağı, korporasiyaları, planlı dövlət tənzimlənməsini gücləndirməyi, iri korporasiyaların bir hissəsini, az mənfəətli, lakin cəmiyyət üçün həyatı əhəmiyyəti olan istehsal sahələrini milliləşdirməyi təklif etmişdir.



downloaded from KitabYurdu.org

# XXII FƏSİL. NEOKLASSİK SİNTEZ NƏZƏRİYYƏSİ

İqtisad elmində kök salmış makroiqtisadi nəzəriyyələr iqtisadiyyatın necə fəaliyyət göstərdiyini izah etməkdə öz aralarında rəqabət aparan və biri-digərinə alternativ olan nəzəriyyələr olmuşdu. Bu nəzəriyyələrə neoklassik, keynsçi, monetarist, təklif iqtisadiyyatı və səmərəli gözləmə nəzəriyyələri daxildir. Bu nəzəriyyələr, xüsusən də neoklassik və keynsçilik daim təkamülə uğramış, inkişaf edib təkmilləşmişdi. Hər bir nəzəriyyənin tərəfdarları iqtisadiyyatın makroiqtisadi problemlərinə aid olan əsas müddəalara vaxtaşırı yenidən baxıb, öz mövqelərində dəyişikliklər etməklə mühüm kompromislərə nail olmuşlar. Lakin, monetarizm və səmərəli gözləmə nəzəriyyəsi makroiqtisadi siyasətə güclü təsir göstərməsinə baxmayaraq, hamı tərəfindən qəbul olunmuş nöqtey-nəzər öz əmələ gəlməsi ilə keynsçilikdə qalmışdı.

Neoklassizmin və keynsçiliyin sintezinin əsasını neokeynsçi iqtisadçılar (Nobel mükafatı laureatları C.Xiks və P.Samuelson) qoymuşdu. Onlar Keynsin nəzəriyyəsinə neoklassik təsvir vermişlər, onu neoklassik iqtisadçı adlandırmışlar və onun iqtisadi nəzəriyyəsinin neoklassik ənənələri və kökləri haqqında danışmışlar. "Neoklassik sintez" anlayışı ilk dəfə 1937-ci ildə ingilis iqtisadçısı C.Xiks tərəfindən işlənilmişdi. Neoklassik sintez Keynsin nəzəriyyəsilə neoklassik iqtisadi artım nəzəriyyəsinin sintezidir. Neoklassik sintez nəzəriyyəsi Keynsin nəzəriyyəsini "natamam işsizlik" şəraitində müvazinət nəzəriyyəsi kimi şərh etmişdi. Keynsin nəzəriyyəsinin bu cür izah edilməsi müharibədən sonra hakim istiqamət olmuş və iqtisadi siyasətin əsas prinsiplərini formalaşdıran ortodoksal keynsçiliyin inkişafına səbəb olmuşdu.

Neoklassik sintezin görkəmli təbliğatçısı və yaradıcılarından biri amerikan iqtisadçısı **P.Samuelson** olmuşdu. O, 50-ci illərin əvvəlində keynsçiliyin və neoklassizmin bir vahid istiqamətdə birləşməsinin zəruriliyini əsaslandırmışdı. Neoklassizmin və keynsçiliyin yaxşılaşmasının və sintezinin aydın ifadəsi, onun



downloaded from KitabYurdu.org

"neoklassik sintez" nəzəriyyəsi oldu. P.Samuelsonun "Neoklassik sintez" nəzəriyyəsi iqtisadiyyatın dövlət tənzimlənməsi nəzəriyyəsinin mühüm rolu şərtilə iki istiqamətin əsas prinsiplərinin əlaqələndirilməsidir. Samuelsonun "Neoklassik sintez" nəzəriyyəsinin əsasını keynsçi səmərəli tələb nəzəriyyəsi ilə neoklassik istehsal və bölgü nəzəriyyəsinin birləşməsi təşkil edir. P.Samuelson özünün nəzəriyyəsinə həmçinin elmi-texniki inqilaba böyük əhəmiyyət verən institusionalizmin müasir nəzəriyyəçisi **C.Helbreytin** əsas ideyalarını da daxil etmişdi. Nəticədə xüsusi və dövlət sahibkarlığını əlaqələndirən qarışıq iqtisadiyyat yaranmışdı.

"Neoklassik sintez" - pul amili əlavə olmaqla natamam məşğulluq şəraitində tarazlıq nəzəriyyəsidir. Bu nəzəriyyədə fiskalizmin keynsçi ideyaları iqtisadiyyatı pul-kredit siyasətinin (faiz dərəcəsini dəyişmə, açıq bazarda əməliyyatları keçirmə və s.) köməyi ilə tənzimlənməsini nəzərdə tutan neoklassik konsepsiyaları ilə birləşmişdi. P.Samuelsonun fikrinə görə,maliyyə siyasətinin vəzifəsi "ictimai əmtəələr" təklifi sferası üçün tənzimləyici tədbirləri təmin etməkdir. Dövlətin mikro aləmə müdaxiləsinin əsas məqsədi hökumət məsrəflərində optimallığa və dövlət, müəssisələr və cəmiyyətin ayrı-ayrı üzvləri arasında resursların səmərəli bölgüsünə və yenidən bölgüsünə nail olmaqdır.

Müasir dövrdə pulun iqtisadiyyatda oynadığı rolu haqqında keynsçi və monetarist baxışlarda müəyyən yaxınlaşma nəzərə çarpır. Pul haqqında ənənəvi keynsçi baxış olan "pul əhəmiyyət kəsb etmir" və yaxud ifrat monetarist ideya olan "yalnız pul əhəmiyyət kəsd edir" fikirlərinin olmasına baxmayaraq, hər iki modellərdə pul xalis milli məhsulla eyni istiqamətdə təsir göstərir. Hər iki nəzəriyyəyə uyğun olaraq pul təklifinin genişlənməsi xalis milli məhsulu artırır və əksinə. Keynsçilik və monetarizm arasında mübahisə bu dəyişikliklərin kəmiyyəti mənasına cəmləşdirilmişdir.

Monetaristlərin sıxışdırılıb aradan çıxarılma səmərəsinə qarşı inamla mübarizə aparmaları sayəsində iqtisadçılar və siyasətçilər pul-kredit və fiskal siyasətin əlaqələndirilməsinin



downloaded from KitabYurdu.org

zəruriliyini tam dərk edə bilmişlər. Monetaristlər resursların yenidən bölgüsü və sabitləşmə vasitəsi kimi fiskal siyasəti rədd etmişlər. Onlar göstərirlər ki, fiskal siyasətin tam köməksizliyi və nəticəsizliyi sıxışdırıb ortadan çıxartma səmərəsi ilə şərtlənmişdir. Monetaristlərin fikrincə, dövlət istiqraz satmaqla, yəni əhalidən pul borc almaqla büdcə defisiti yaradır. Nəticədə isə dövlət borcu pula tələbi artırır, faiz dərəcəsini yüksəldir və beləliklə də özəl bölmədən mühüm miqdarda xüsusi kapital qoyuluşları sıxışdırılıb aradan çıxarılır.

Əgər fiskal siyasət sıxışdırıb aradan çıxarma səmərəsi törədirsə, bu səbəbdən fiskal siyasətin səmərəliliyi azalırsa, onda xüsusi investisiyaların potensial sıxışdırılıb aradan çıxarılmasını bir təhər kənar etmək üçün uyğun olan pul-kredit siyasətinin eyni zamanda aparılması zərurəti yaranır.

Bunlardan başqa, bütün istiqamətlərin yaxınlaşması prosesi özünü həm də iqtisadçıların, indi həm məcmu tələbin və həm də məcmu təklifin təhlilinə əhəmiyyət vermələrində göstərir. Səmərəli gözləmə nəzəriyyəsi nəticəsində isə iqtisadçılar və siyasətçilər siyasətin dəyişməsinin nəticələrinə, gözləmənin mümkün təsirinə, mikro və makro nəzəriyyələr arasında əlaqələrə olduqca böyük əhəmiyyət yetirirlər.



downloaded from KitabYurdu.org

# XXIII FƏSİL. YENİ NEOKLASSİK NƏZƏRİYYƏLƏR

XX əsrin 70-ci illərində yaranan nəzəriyyələrdən biri də iqtisadi təklif (A. Haffer) nəzəriyyəsidir. Təklif iqtisadiyyatı nəzəriyyəsinin tərəfdarları da Fridmen tərəfindən yaradılmış metodoloji prinsipə əsaslanmışlar. Monetarizmin və təklif nəzəriyyəsinin hər ikisinin eyni metodoloji və ideya mövqeyindən çıxış etmələrinə baxmayaraq iqtisadi problemlərə baxışlarındakı fərqə görə bir-birindən fərqlənir.

*Təklif nəzəriyyəsinin ən mühüm xidməti* - *iqtisadi artım probleminin əsaslı surətdə öyrənilməsidir.* Təklif nəzəriyyəsinin monetarizmdən fərqli cəhəti, onun nümayəndələrinin istehsal amillərinin (ka-pital və iş qüvvəsi) təklifinin uzunmüddətli dövlət tənzimlənməsini, vergi dərəcəsini aşağı salmağı və məhdud pul siyasətinin yeridilməsini zəruri hesab etmələridir. *İqtisadi təklif nəzəriyyəsi məcmu təklifi öyrənən cərəyandır.* Onun mahiyyəti məcmu təklifi stimullaşdırmaq, istehsalı və məşğulluğu fəallaşdırmaqdır. Bu nəzəriyyənin tərəfdarları bazarı - iqtisadiyyatın təşkilinin ən səmərəli üsulu və təbii qərarlaşmış iqtisadi fəaliyyət sistemi kimi qələmə verirlər.

Təklif nəzəriyyəsinin nümayəndələri monetarizm tərəfindən yaradılmış işsizlik, inflyasiya və iqtisadiyyatın dövlət tənzimləməsi konsepsiyalarına bəzi əlavələr etmişlər. Bu nəzəriyyənin tərəfdarları qeyd edirlər ki, təbii işsiliyin əsas amili dövlətin sosial təminat sistemidir. Geniş miqyaslı sosial proqrama dövlət büdcəsinin xərclərinin artması, sonuncuya isə vergi rüsumlarının yüksək dərəcəsinin sə-bəbi kimi baxırlar. Vergi dərəcələri yüksək olduqda vergilər ödənildikdən sonra real gəlirlərin səviyyəsi azad əmək bazarı üçün səciyəvi olan kəmiyyətdən aşağı düşür, işsizliyə görə müavinətlərin səviyyəsinin yüksək olması isə işləməyə marağı azaldır. Bu vaxt real gəlirlərlə təmin olunmamış əhalinin çox hissəsi könüllü işsizlər sırasına keçir. Bundan başqa, sosial məqsədlər üçün əlavə dövlət xərcləri məcmu gəlirdə yığımın payını azaldır. Nəticədə kredit



downloaded from KitabYurdu.org

resurslarının həcminin azalması iqtisadi artımın zəifləməsinə səbəb olur və məşğulluğa mənfi təsir edir.

Monetaristlərdən fərqli olaraq təklif nəzəriyyəsinin yaradıcıları gözlənilməyən inflyasiyanın əsas səbəbini yüksək vergi dərəcəsinin və istehsal məsrəflərinin gözlənilmədən dəyişməsinə səbəb olan dövlət fəaliyyətində görürlər.

Təklif nəzəriyyəsinin nümayəndələri büdcə kəsirini tamamilə qəbul etmirlər. Dövlətə gözlənilməyən inflyasiyanın büdcə kanalını tam kəsməyi və pul təklifini başqa yolla, kəsiri nəzərə almayaraq dəyişməyi tövsiyə edirlər.

Yeni konservativ iqtisadi artım nəzəriyyəsini tamamilə təklif nəzəriyyəsinin nümayəndələri işləyib hazırlamışdır. Bu nəzəriyyədə mərkəzi yeri yığım problemi tutur. Onlar yığımın çatışmamasına iqtisadi artımın zəifləməsinin əsas səbəbi kimi baxırlar və yığım kəsirini vergi sisteminin qeyri-mükəmməlliyi ilə əlaqələndirirlər.

Təklif nəzəriyyəsinin tərəfdarları dövlətə yığımı vergi islahatının köməyi ilə dövlətin sosial xərclərini azaltmaqla, büdcə kəsirini aradan qaldırmaqla artırmağa imkan yaratmağı tövsiyə edirlər. Onlar amortizasiyanı sürətləndirmək siyasətilə istehsalın stimullaşdırılmasına xüsusi əhəmiyyət verirlər. Dövlətdən vergi tənzimlənməsi ilə bazar sisteminin normal fəaliyyətini təmin etməyi tələb edirlər. Vergiləri aşağı salmaq yolu ilə iqtisadiyyatı stimullaşdırmağın yüksək səmərəliliyini qeyd edirlər. Onlar büdcə siyasətini pul siyasətindən ayırırlar. Monetarizmin uzunmüddətli pul siyasətinin mütləqləşdirilməsinə qarşı çıxırlar. Qeyd edirlər ki, əgər bazar mexanizminin azad fəaliyyəti qeyri-təkmil vergi sistemi ilə pozularsa, pul siyasəti özlüyündə onun fəaliyyətinə qəti təminat vermir. Pul tənzimlənməsi arzu olunan nəticəni yalnız yeni vergi siyasətilə əlaqələndirdikdə verir. Göstərirlər ki, inflyasiyasız iqtisadi artımın hərəkətverici qüvvəsi təklif nəzəriyyəsinə uyğun olan və pul kütləsinin artım sürətinin azalması ilə möhkəmləndirilmiş vergi stimuludur.

Təklif nəzəriyyəsində *"Laffer səmərəsi"* son dərəcə mühüm yer tutur. Vergi tənzimlənməsi konsepsiyası ilə büdcənin tarazlığı



downloaded from KitabYurdu.org

prinsipi arasındakı əlaqənin əsas xətti onun üzərindən keçir. Vergi tənzimlənməsi təklif nəzəriyyəsinin mərkəzində durmuş, tarazlı büdcə prinsipi isə inflyasiya və iqtisadi artım konsepsiyalarının əsasını təşkil etmişdi. Təklif nəzəriyyəsinin nümayəndələrinin iqtisadiyatın dövlət tənzimlənməsi sisteminə münasibəti ondan ibarətdir ki, bu tənzimləmə uzunmuddətli xarakterə malik olmalı və məcmu tələbin antitsiklik idarə olunmasına yox, əmtəələrin, kapitalların və digər istehsal amillərinin təklifinin stimullaşdırılmasına yönəldilməlidir.

XX əsrin 70-ci illərinin ortalarından makroiqtisadi nəzəriyyələr sırasına yeni bir nəzəriyyə də daxil olmuşdu. Bu tələbin idarə olunmasının ənənəvi keynsçi nəzəriyyəsi Amerikan iqtisadiyyatının makroiqtisadi problemlərinin səmərəli həll edə bilmədiyi, keynsçi siyasətin inflyasiya ilə səciyələndiyi dövrdə ABŞ-da yaranmış *səmərəli gözləmə nəzəriyyəsidir.* Onun görkəmli nümayəndələri **R.Lukas, T.Sarcent, N.Uolles, C.Mut** və başqaları olmuşdu. T.Lukas 1996-cı ildə Nobel mükafatı almışdı. Bu nəzəriyyənin adı iqtisadi vəziyyətin dəyişməsinə təsərrüfat subyektlərinin münasibətinin xarakterini əks etdirir. Şəxsin özünün əvvəlki təcrübəsini nəzərə alan, bütün mövcud informasiyanı istifadə edən, sonra isə iqtisadi vəziyyətin inkişafının mümkün istiqamətini müəyyən dərəcədə görməyi bacaran münasibət səmərəli adlanır. Səmərəli gözləmə anlayışını ilk dəfə iqtisadi ədəbiyyata 1961-ci ildə **C.F.Mut** gətirmişdi. *Səmərəli gözləmə nəzəriyyəsi "yeni klassik makroiqtisadi nəzəriyyə " də adlanır və bəziləri buna gələcəyin nüfuzlu nəzəriyyəsi kimi böyük ümid bəsləyir. Səmərəli gözləmə nəzəriyyəsi metodoloji əsası monetarizmlə eyni olan neoklassik təsəvvürlü makroiqtisadi nəzəriyyədi.* Bu nəzəriyyə prinsipcə neoklassik istiqamət kimi azad sahibkarlıq konsepsiyasına və iqtisadiyyatın öz-özünə bazar tənzimlənməsinə əsaslanmışdı. O həm də mikro iqtisadi nəzəriyyəyə əsaslanır. Bu nəzəriyyə iqtisadçıların çoxdan gözlədiyi makro və mikro nəzəriyyələr arasında əlaqə yaratmağa çalışır. Səmərəli gözləmə nəzəriyyəsi təklif siyasətinin köməyilə iqtisadi qeyri-sabitliyin həll edilməsini mümkün hesab edən konsepsiyalarla təmsil olunduğundan diqqəti cəlbedici



downloaded from KitabYurdu.org

etmişdir. Səmərəli gözləmə nəzəriyyəçilərinin fikrincə dövlət iqtisadiyyata nə qədər az müdaxilə edərsə o qədər yaxşıdır. Hesab edirlər ki, məhz bu müdaxilə iqtisadiyyatın sabitliyini pozur, onu daima şok vəziy-yətinə salır. Onlar son dövrlərin inflyasiyasının sürətini isə tamamilə təklif və qiymətlə əlaqədar olan təsadüfi şoklarla izah etmişlər.

Səmərəli gözləmə nəzəriyyəsi Keynsin makroiqtisadi nəzəriyyəsini tənqid edən və ona alternativ olan nəzəriyyədir. Səmərəli gözləmə nəzəriyyəçiləri monetarist qaydanın xeyrinə keynsçi diskretsion siyasətdən imtina etməyi məqsədəuyğun hesab edirlər. Onlar göstərirlər ki, diskretsion siyasət iqtisadi qeyri-sabitliyi gücləndirir.

Səmərəli gözləmə nəzəriyyəçilərinin dəlillərinə görə, keynsçi ucuz pul siyasəti istehsalın real həcminin və məşğulluğun arzu olunan artımına deyil, inflyasiyaya səbəb olmuşdu. Bu nəzəriyyəyə görə, bazar subyektləri ekspansiya siyasətinin qiymətlərin artması olduğunu görə bilir və əmtəələrin qiymətinə, nominal əmək haqqı dərəcəsinə, nominal faiz dərəcələrinə aid olan qərar qəbul edərək onun gözlənilən nəticələrini nəzərə alır. Səmərəli gözləmə nəzəriyyəçiləri göstərirlər ki, məcmu təklif əyrisi şaquli xəttdir və məcmu tələbin genişlənməsi dərhal qiymətin səviyyəsinin uyğun artmasına səbəb olur, ona görə də istehsalın həcmi ölkədə dəyişməz qalır.

Səmərəli gözləmə nəzəriyyəçiləri əsaslı surətdə aşağıdakı müddəa xarakterli ilkin şərtlərə əsaslanmışlar: təsərrüfat prosesinin iştirakçıları iqtisadiyyatın necə fəaliyyət göstərdiyini başa düşür; siyasi və digər dəyişikliklərin gələcək nəticələrini qiymətləndirməyi bacarır; özlərinin mənafeyinə cavab verən davranış xəttini seçə bilir. Səmərəli gözləmə nəzəriyyəsinə "yeni klassik makroiqtisadi nəzəriyyə" xarakteri verən müddəa isə onların bazar yüksək rəqabətlidir; qiymət və əmək haqqının səviyyəsi isə tələb və təklifin dəyişməsinə dərhal uyğunlaşır fikrində olmalarıdır.

Səmərəli gözləmə nəzəriyyəsinin əsasını «əhalinin özünün ümüdünə ümumi münasibəti diskretion sabitləşdirmə siyasətini



downloaded from KitabYurdu.org

səmərəsiz edir» müddəası təşkil edir. Bu nəzəriyyəyə görə, siyasətin səmərəsizliyi siyasi səhvlərlə, yaxud vaxtında qərar qəbul etməyi ba-carmamaqla deyil, bu siyasətin gözlənilən nəticələrinə insanların münasibətləri ilə şərtlənir. Səmərəli gözləmə nəzəriyyəçiləri göstərirlər ki, əhali sabitləşdirmə siyasətinin gözlənilən nəticələrinə münasibət bildirdikdə, onun səmərəliliyi sıfra bərabər olur.

Beləliklə, iqtisadiyyatın makroiqtisadi problemlərinə səmərəli gözləmə nəzəriyyəsi mövqeyindən yanaşma istər-istəməz aşağıdakı ən radikal antikeynsçi nəticələrə gətirib çıxarır: hökumət ancaq inflyasiyanın sürəti kimi nominal dəyişikliklərə təsir etməyi bacarır, lakin onlar istehsal və məşğulluq kimi real kəmiyyətlərə münasibətdə gücsüzdür; antitsiklik sabitləşdirmə siyasətini həyata keçirmək üçün heç bir imkan yoxdur. Bunlar isə səmərəli gözləmə nəzəriyyəsini "yeni klassik makroiqtisadiyyat" adını almasını təbii edir.

Səmərəli gözləmə nəzəriyyəçiləri iqtisadi nəzəriyyədə hamının qəbul etdiyi insanlar davranışlarında özlərini səmərəli aparmaları qənaətini əsas götürərək öz diqqətlərini hər şeydən əvvəl cari inflyasiyaya, xüsusən də, iqtisadi siyasətin təntənə ilə deyilən tədbirlərinə, pul kütləsinin elan edilmiş artım istiqamətlərinə, valyuta kursunun dinamikasına cəmləşdirmişlər. Onlar hesab edirlər ki, səmərəli davranan iqtisadi subyektlər (sahibkarlar, istehlakçılar və fəhlələr) inflyasiyanın həqiqi inkişafına əks olan hər hansı sxem əsasında qiymət gözləməsini yaratmırlar. Bazar subyektləri onların pul mənafelərinə məxsus olan predmetlərə dair gözləmə yarandıqda informasiya toplayır və dərk edir. Son nəticədə iqtisadi subyektlər, onların əlində inflyasiya prosesinə aid olan bütün bu informasiyaların, onların şəxsi mənafelərinə ən yaxşı uyğun olan qərar qəbul etmək üçün səmərəli istifadə etmək imkanlarına malik olurlar.

Səmərəli gözləmə nəzəriyyəsi praktiki olaraq siyasətçilərin inflyasiya və işsizlik arasında seçimə yol verən istənilən variantlarından imtina etmək deməkdir. Bu nəzəriyyə işsizliyin təbii səviyyəsi fərziyyəsinin variantlarından biridir. Təbii səviyyə



downloaded from KitabYurdu.org

fərziyyəsi işsizliyin və inflyasiyanın yüksək artım sürətlərinin eyni zamanda baş verməsini, daha doğrusu iqtisadiyyatın staqflyasiya vəziyyətində olmasını mümkün sayır.

Təbii səviyyə fərziyyəsinin digər variantı uyğunlaşdırılmış gözləmə nəzəriyyəsidir. Bu nəzəriyyə M.Fridmen tərəfindən irəli sürülmüşdü. Uyğunlaşdırılmış gözləmə nəzəriyyəsi güman edir ki, nominal əmək haqqının dəyişməsi qiymətin səviyyəsindəki dəyişiklikdən geri qalır. Məhz bu vaxt qalığı mənfəətin yüksəldilməsini mümkün edir ki, bu da öz növbəsində məşğulluğu müvəqqəti stimullaşdırır. Lakin nominal əmək haqqı bir az keçəndən sonra mənfəətin azalmasına səbəb olmaqla istehsala və məşğulluğa olan qısa müddətli stimullu ləğv edərək yüksələcəkdir. Buna görə də uzunmüddətli planda inflyasiya və işsizliyin səviyyəsi arasında alternativlik yoxdur. Uzunmüddətli Fillips əyrisi şaquli düz xətt şəklindədir. Bu isə o deməkdir ki, Keynsin stimullaşdırıcı siyasəti işsizliyin səviyyəsini azaltmaq əvəzinə inflyasiyanın getdikcə artmasına gətirib çıxarır.

Uyğunlaşdırılmış gözləmə nəzəriyyəsində yalnız qısa müddətli planda inflyasiyanın və işsizliyin alternativliyi mümkün sayılır. Lakin uzunmüddətli planda bu cür alternativliyin olmadığı qeyd olunur. Səmərəli gözləmə nəzəriyyəçiləri isə göstərirlər ki, makroiqtisadi siyasət, onun nəticələri fəhlələr tərəfindən əvvəlcədən nəzərə alındığından (səmərəsiz olması üzündən) inflyasiya və işsizlik arasında hətta qısa müddətdə də alternativ əlaqə yoxdur.

İşsizliyin səviyyəsini təbii səviyyədən aşağı salmağa göstərilən hər cür cəhd *Fillips əyrisini* pozan qüvvələri hərəkətə gətirir və onu sağa çəkir: Fillips əyrisinə gör,ə işsizlik və inflyasiya arasında sabit alternativ əks əlaqə mövcuddur, daha doğrusu hər ikisi eyni zamanda baş vermir və onlar əks istiqamətdə dəyişir. Fillips əyrisi modelində inflyasiyanın yüksək səviyyəsi adətən işsizliyin səviyyəsinin azalması ilə müşayiət olunur.

Beləliklə, təbii səviyyə fərziyyəsinin səmərəli gözləmə ehtimalına əsaslanan variantının tərəfdarları hesab edirlər ki, işçilər stimullaşdırıcı siyasətin inflyasiyalı səmərəsini görürlər. Bu nominal əmək haqqının artırılması tələblərində əks etdirilir, nəticədə qısa müddətdə məşğulluğun heç bir artımı olmur.



downloaded from KitabYurdu.org

Uyğunlaşdırılmış gözləmə variantının tərəfdarları hesab edirlər ki, Fillips əyrisində əks olunmuş ənənəvi əlaqələr mövcud deyil. Tələbin idarə olunmasına aid stimullaşdırıcı siyasət işsizliyi tez bir zamanda sabit azaltmadan inflyasiyanın artmasına səbəb olur.

Deməli, təbii səviyyə fərziyyəsinin müxtəlif variantlarının (səmərəli gözləmə və uyğunlaşdırılmış gözləmə) birgə gəldikləri nəticə: tələbin stimullaşdırılması siyasəti uzunmüddətli planda istehsalın real həcminə və məşğulluğa təsir göstərə bilmir, ancaq yalnız qiymətin səviyyəsinə təsir göstərir.

Lakin deyilənlərə baxmayaraq, XX əsrin sonunda formalaşmış monetarist yönümlü neoklassik nəzəriyyələr və ona əsasən yeridilmiş makroiqtisadi siyasət, xüsusilə də təklifin stimullaşdırılması siyasəti də iqtisadi artımın uzunmüddətli sürətini saxlaya, praktiki olaraq makroiqtisadi artım və onun sabitliyinin əsası olan məşğulluq, infliyasiya problemlərini, eləcə də maliyyə sabitliyini təmin edə bilmədi. Buna dəlil kimi təsir dərəcəsi 1929-1933-cü illərin «Böyük tənəzzülü» səviyyəsində olması ehtimal edilən, hazırda maliyyə sektorunda başlamış dünya iqtisadi böhranını göstərmək olar. Hazırda iqtisadçılar, siyasətçilər və böyük dövlətlərin başçıları intensiv olaraq dünya maliyyə böhranının dərinləşməsinin, onun real iqtisadiyyata köklü təsirinin qarşısını ala bilən səmərəli tədbirlər sistemini axtarıb tapmağa və həyata keçirməyə çalışırlar. Bu tədbirlər sistemində iqtisadi liberalizm prinsipindən imtina etmədən, ona xələl gətirməyən iqtisadiyyata, xüsusən də maliyyə sektoruna qısa-müddətli planda və dar çərçivədə dövlətin himayəsi və beynəlxalq maliyyə institutlarına onun nəzarətinin artırılması xüsusi yer tutur. Müasir bazar iqtisadiyyatının maliyyə sektorunu tənzimləyən beynəlxalq maliyyə sisteminin yenidən qurulmasına, yeni institsual əsasların və iqtisadi mexanizminin yaradılmasına maliyyə bazarının böyük dövlətlər tərəfindən tənzimlənməsinə önəm verilir. Bəziləri – tərəfindən yenidən tələbin stimullaşdırılması fikri də söylənilir və bu istiqamətdə tədbirlərin görülməsi də məqsədəuyğun hesab edilir.



downloaded from KitabYurdu.org

# İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


1. Аникин А.Б. Елмин кәнҹлији. Б., 1987, Вәлијев Т., Һәсәнов А. Азәрбајҹан игтисади фикир тарихи. Б., 1996

2. Афанасьев В.С. Буржуазная экономическая мысль. 30-80-х годов XX века. М., 1986

3. İbni Haldun Mukaddime. I, II cild, İstanbul, 1982; 1983

4. Игтисади тәлимләр тарихи. Проф. Һ.Дадашовун редактәси илә. Б., 1965

5. Vural Savaş İktisatın tarihi. Ankara, 2000

6. Həsənov A. İbn Xəldunun iqtisadi nəzəri fikirləri haqqında. «İqtisad elmləri: nəzəriyyə və praktika» jurnalı, 1994, №2-3

7. İqtisadi təlimlər tarixi. Prof. M.X.Meybullayevin redaktəsi ilə. B., 2002

8. Meybullayev M.X. İslam iqtisadiyyatı. B., 2004

9. Tusi N. Əxlaqi-Nasiri. B., 2002

10. Vəliyev T. İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü. B., 1999

11. Енкелс Ф. Анти-Дүринг. Б., 1967

12. Ersoy A. İktisadi teoriler ve düşüncelerin gelişme tarihi. İzmir, 1990

13. Афансыев В.С. Этапы развития буржуазной политеческой экономии. М., 1985

14. Антология экономической классики. В 2-х Т. М., 1993

15. Античный способ производства в источник. М., 1933

16. Бем-Баверк О. Основы теории ценности хозяйственных благ. М., 1992

17. Блауг М. Экономическая мысль в ретроспективе. М., 1994

18. Блауг М. Методология экономической науки или как экономисты объясняют. М., 2004

19. Чемберлин Э. Теория монополитической конкуренции. М., 1996

20. Дуглас Н. Институты, институциональные изменения и функционирования экономики. М., 1997

21. Джевонс У. С. Политическая экономия. СПб, 1905




downloaded from KitabYurdu.org

22.Фридмен М. Методология позитивной экономической науки. THESİS, 1994, Т. 2, Вып. 4

23.Хайек Ф.А.  Дорога к рабству. М., 1992

24.Хайлбронер Р.Л. Экономическая теория как универсальная наука  // THESİS, 1993, Т.1, Вып. 1

25.Хикс Дж. Стоимость и капитал. М., 1988

26.Хрестоматия по истории Древнего Востока. В 2-х ч. М., 1980

27.Игнатенко А.А. Ибн-Хальдун. М., 1980

28.История и философия экономики. Под общей ред. М.В. Конотопова

29.История экономических учений. М., 1983

30.История экономических учений. Под ред. Ф.В.Борибика и др. Минск, 1984

31.История экономических учений. М., 1965

32.Жид Ш., Рист Ш. История экономических учений. М., 1995

33.Кене Ф. Избранные экономические произведения. М., 1961

34.Кларк Дж.Б. Распределение богатства. М., 1992

35.Кейнс Дж.М. Общая теория занятости, процента и денег. М., 1993

36.Кондратьев Избранные сочетание. М., 1993

37.Курс экономики. Под ред. проф. Райзберга. М., 1997

38.Гильдебранд Б. Политическая экономия настоящего и будущего. СПб, 1860

39.Гэлбрейт Дж.К. Экономические теории и цели общества. М., 1979

40.Леонтьев В.В. Экономические эссе. М., 1990

41.Лист Ф. Национальная система политической экономии. СПб, 1891

42. Маркс К Капитал. 4 чилддә. Б., 1960, 1967, 1968, 1969, 1974.

43.Маршалл А. Принципы экономической науки. В 3-х т. М., 1993

44.Менгер К. Основания политической экономии. М., 1992



downloaded from KitabYurdu.org

45.Мизес Л. фон О некоторых распространенных заблуждениях по поводу предмета экономической науки // THESİS, 1994, Т.2, Вып. 2

46.Милль Дж.С. Основы политической экономии и некоторые аспекты и приложения к социальной философии. В 3-х т. М., 1980-1981

47.Мировая экономическая мысль. Сквозь призму веков. В 5-х т. М., 2004-2005

48.Митчелл У.К. Экономические циклы. Проблема и ее постановка. М., 1930

49.Очерки истории Азербайджанской экономической мысл. Б., 1987

50.Ойкен В. Основы национальный экономии. М., 1996

51.Петти У. Экономические и статические работы. М., 1940

52.Развитие метода политической экономии. под ред. А.К.Покрытана. М., 1986

53.Рикардо Д. Сочинение. Т.1, Т.5, М., 1955, 1961

54.Роббинс Л. Предмет экономической науки // THESİS, Зима, 1993, Т.1, Вып.1

55.Робинсон Дж. Экономическая теория несовершенной конкуренции. М., 1986

56.Самуэльсон П. Экономикс. В 2-х т. М., 1992

57.Селигмен Бен Б. Основные течения совершенной экономической мысл. М., 1968

58.Сей Ж.Б. Трактат политической экономии. М., 1896

59.Смит А. Исследование о природе и причинах богатства народов. М., 1962

60.Шумпетер Й. Теория экономического развития. М., 1982

61.Тюрго А.Р. Избранные экономические произведения. М., 1982

62.Веблен Т. Теория праздного класса. М., 1984

63.Визер Ф. Теория общественного хозяйства. М., 1992

64.Всемирная история экономической мысли. В 5-х т. М., 1987, 1988, 1989, 1990, 1994

65. Ядгаров Я. История экономических учений. М., 1997



downloaded from KitabYurdu.org

# MÜNDƏRİCAT

**Ön söz**…………………………………………………………….. ***3***
**Giriş**……………………………………………………........................... ***9***
**I Bölmə.** İlkin iqtisadi bilk və metodologiya.
I Fəsil. Qədim və Antiq dövrün İqtisadi bilik və yanaşmaları……….. ***23***
II Fəsil. Orta əsrlərin iqtisadi bilikləri və metodologiyası.
*§1. Orta əsrlərdə islam dünyasının iqtisadi bilikləri və metodologiyası…* ***37***
§2. Orta əsrlərdə Qərbi avropanın iqtisadi bilyi. Merkantilist nəzəriyyə və metodologiya……………………...………..…………. ***55***
**II Bölmə.** Klassik İqtisad Elmi və Onun Metodologiyası.
I Hissə. Klassik İqtisad elmi və metodologiyanın yaranması.
III. Fəsil Klassik iqtisad elminin yaranması. U.Pettinin və P.Buagilberin nəzəriyyəsi və metodologiyası……………………….. ***65***
IV Fəsil. Fiziokratik nəzəriyyə və metodologiya…………………… ***82***
II Hissə. Klassik Elmi sistem və metodologiyanın yaranıb başa çatması.
V Fəsil. A.Smitin Elmi sistemi və metodologiyası………………… ***98***
VI Fəsil. D.Rikardonun elmi sistemi və metodologiyası……………. ***122***
VII Fəsil. Rikardoçuluq…………………………………………….... ***147***
III Hissə. Klassik elmi sistemin dağılması, tənqidi və inkişafı.
VIII Fəsil. J.B.Seyin iqtisadi nəzəriyyəsi və metodologiyası………… ***151***
IX Fəsil. T.Maltusun elmi sistemi və metodologiyası……….......... ***157***
X Fəsil. C.S.Milin İqtisadi Nəzəriyyələri…………………....……..... ***169***
XI Fəsil. Klassik İqtisad Elminin Tənqidi. S.Sismondinin nəzəriyyəsi və metodologiyası………………………………………………… ***191***
XII Fəsil. Alman tarixi məktəbi və onun metodologiyası………….. ***200***
XIII Fəsil. Marksist elmi sistem və metodologiya………………. …. ***212***
**III Bölmə**. .Marjinalist elmi sistem və metodologiya. XIV Fəsil. Marjinalizmin yaranması, inkişaf mərhələləri və metodoloji əsasları…….. ***229***
XV Fəsil. Marjinalizmin İngiltərə və lozanna məktəbi……………… ***241***
XVI Fəsil. Avstriya məktəbi və onun metodologiyası………........ ***251***
XVII Fəsil. Kembric-Amerikan məktəbi və onun metodologiyası..... ***264***



downloaded from KitabYurdu.org

**IV Bölmə.** Müasir iqtisad elmi və onun metodologiyası.
XVIII Fəsil. Müasir iqtisad elminin formalaşması və əsas istiqamətləri……....................................................................................................... *277*
IX Fəsil. Müasir neoklassik nəzəriyyələr və metodologiyalar……….. *283*
XX Fəsil. Müasir iqtisad elmində Keynsçi nəzəriyyə və metodologiya……………………………………………………. *298*
XXI Fəsil. Sosioloji-İnstitusional nəzəriyyələr və metodologiya……. *307*
XXII Fəsil. Neoklassik sintez nəzəriyyəsi…………………………… *313*
XXIII Fəsil. Yeni neoklassik nəzəriyyələr………………………….... *316*
**Ədəbiyyat siyahısı**…………………………………………………… *323*



downloaded from KitabYurdu.org

*Qəzənfər Sehvəddin oğlu Əlləzov*

**İqtisad elminin nəzəri - metodoloji əsaslarının tarixi inkişafı**

---

**(Monoqrafiya)**

**Historical developmens of bazis of theory and metodology of economics (In Azerbayjan)**

**Историческое развитие теоретически-методологической основы экономической науки (На азербайджанском языке)**

*Çapa imzalanıb 12 . 02. 2009. Kağız formatı 60x84 1/16.*
*Həcmi 20,5 ç.v. Sifariş 14. Sayı 500.*

---

*" İqtisad Universiteti " nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6*

---



downloaded from KitabYurdu.org

### *Qəzənfər Sehvəddin oğlu Əlləzov*

1949-cu ildə Gürcüstanın Bolnis rayonunda anadan olmuşdur. 1966-ci ildə orta məktəbi və 1970-ci ildə Azərbaycan Xalq Təssərrüfatı İnstitutunu bitirmişdir. Ali məktəbi bitirdikdən sonra göndərişlə Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunda baş labarant, kiçik və baş elmi işçi vəzifələrində işləmiş, əyani aspiranturada oxumuşdur.

1981-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1982-ci ildə ictimai elmlər üzrə keçirilən gənc alimlərin elmi işlərinin Respublika (Ümumittifaq çərçivəsində) müsabiqəsinin qalibi olmuş və diplomla təltif edilmişdir.

1983-cü ildən AzDİU-nun əməkdaşıdır və hazırda «İqtisadi nəzəriyyə-2» kafedrasının dosentidir.

O, bir neçə namizədlik dissertasiya işinin rəsmi oppenenti olmuşdur.

Təkrar istehsalın problemlərinə, keçid iqtisadiyyatına həsr olunmuş çoxsaylı məqalələrin, iqtisad elminin tarixi üzrə iki dərs vəsaitinin müəllifi, eləcə də AzDİU-nun 1999-cu və 2002-ci illərdə nəşr etdirdiyi «İqtisadi nəzəriyyə» və «İqtisadi təlimlər tarixi» dərsliklərinin müəlliflərindən biridir.



downloaded from KitabYurdu.org